# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*onsəkkizinci kitab*

***oktyabr, 1998 - dekabr, 1998***

**AZƏRNƏŞR**

**BAKI-2006**

BBK 66.3(5Aze)8
Ə 65

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir**. B., Azərnəşr, 2006, 552 səh.

1998-ci il oktyabrı müstəqil Azərbaycanın şərəfli dövlətçilik tarixinə prezident seçkisi kimi daxil olmuşdur. Oxuculara təqdim olunan bu cilddə Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin prezident seçkisi ilə əlaqədar keçirdiyi görüşlərdəki çıxışlar, informasiya vasitələrinə verdiyi müsahibələr, respublikamızın hərtərəfli inkişafı və yüksəlişi yolunda əvəzsiz xidmətlər göstərmiş, xalqın iradəsi ilə ikinci dəfə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin təntənəli andiçmə mərasimində söylədiyi dərin məzmunlu nitqi toplanmışdır.

Kitabda müdrik dövlət xadiminin ölkəmizin ictimai-siyasi həyatına, iqtisadi-maliyyə sisteminə, dövlət idarəçiliyinin inkişafına, özəl sektorun genişlənməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun, onun haqq işinin dünya miqyasına yüksəldilməsinə, tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Bakı Konfransına, Azərbaycanda insan hüquqları ilə əlaqədar tədbirlərin müəyyən edilməsinə aid materiallar, həmçinin Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü münasibətilə yubiley mərasimindəki çıxışı, yüksək səviyyəli görüşləri, danışıqları, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilməsi ilə əlaqədar imzalanmış Ankara bəyannaməsi və s. öz əksini tapmışdır.

Kitabda, həmçinin, Azərbaycanın şəhid olmuş döyüşçülərinin valideynlərinə, ailə üzvlərinə, qaçqın və məcburi köçkünlərə, elm, ədəbiyyat, mədəniyyət xadimlərinə və idmançılara böyük diqqət və qayğı, onlara Azərbaycanın dövlət mükafatlarının təqdim olunması, milli-mənəvi dəyərlərə, İslam sivilizasiyasına yüksək qiymət də öz əksini tapmışdır.

**BBK**-66.3(5Aze)8

$\text{Ə}\,\frac{0801000000}{\text{M}\ -651(07)-2006}$

© **Azərnəşr**, 2006

## KİTABIN İÇİNDƏKİLƏR

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN RESPUBLİKALARININ SƏRHƏDİNDƏ, QIRMIZI KÖRPÜ YAXINLIĞINDA YENİ KÖRPÜNÜN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*7 oktyabr 1998-ci il*.......... 10

BƏRDƏ RAYONUNDA SEÇİCİLƏRLƏ GÖRÜŞÜ ZAMANI RUSİYA İCTİMAİ TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB
*8 oktyabr 1998-ci il*.......... 12

MİNGƏÇEVİRDƏ MƏSCİD KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*8 oktyabr 1998-ci il*.......... 13

AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*9 oktyabr 1998-ci il*.......... 15

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNDƏ SEÇKİ MƏNTƏQƏSİNDƏ YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB
*9 oktyabr 1998-ci il*.......... 17

AZƏRBAYCANDA KEÇİRİLMİŞ PREZİDENT SEÇKİLƏRİ BARƏDƏ YERLİ VƏ XARİCİ JURNALİSTLƏR ÜÇÜN BƏYANAT VƏ MƏTBUAT KONFRANSI
*13 oktyabr 1998-ci il*.......... 20

MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*15 oktyabr 1998-ci il*.......... 27

AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ VƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİ GÜNÜ ÖLKƏMİZİN AZADLIĞI, SUVERENLİYİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA HƏLAK OLMUŞ MƏRD MÜBARİZLƏRİN XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDƏRKƏN FƏXRİ QONAQLAR KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ
*18 oktyabr 1998-ci il*.......... 28

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ
*18 oktyabr 1998-ci il*.......... 29

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*18 oktyabr 1998-ci il*.......... 36

BAKIDA AKKREDİTƏ OLUNMUŞ DİPLOMATİK KOPRUSUN ÜZVLƏRİNİN–XARİCİ ÖLKƏLƏRİN RESPUBLİKAMIZDAKI SƏFİRLƏRİNİN, BEYNƏLXALQ TƏŞKİLATLARIN NÜMAYƏNDƏLƏRİNİN AZƏRBAYCAN PREZİDENTİNƏ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*20 oktyabr 1998-ci il*.......... 39

QAZAXISTANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ ŞƏRƏFİNƏ QAZAXISTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*25 oktyabr 1998-ci il*........................................................................................... 41

**TARİXİ «İPƏK YOLU»NUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ BAKI KONFRANSININ QƏRARLARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**
*26 oktyabr 1998-ci il* ........................................................................................... 43

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB QERHARD ŞRÖDERƏ**
*27 oktyabr 1998-ci il*........................................................................................... 45

**TÜRKİYƏ CÜMHURİYYƏTİ YARADILMASININ 75-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ QARDAŞ ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*27 oktyabr 1998-ci il*........................................................................................... 46

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**
*28 oktyabr 1998-ci il* ........................................................................................... 48

**TÜRKİYƏ RESPUBLİKASININ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HİKMƏT ÇƏTİNƏ**
*28 oktyabr 1998-ci il* ........................................................................................... 49

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MƏSUD YILMAZA**
*28 oktyabr 1998-ci il*........................................................................................... 50

**TÜRKİYƏ CÜMHURİYYƏTİ YARADILMASININ 75-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ YUBİLEY MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QARDAŞ ÖLKƏYƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
*28 oktyabr 1998-ci il*........................................................................................... 51

**TÜRKİYƏNİN «TRT-1» TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*28 oktyabr 1998-ci il*........................................................................................... 52

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YUBİLEYİNƏ XARİCİ ÖLKƏLƏRDƏN GƏLMİŞ ALİ QONAQLARIN-DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TÜRKİYƏ PREZİDENTİ TƏRƏFİNDƏN VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏN SONRA SÜLEYMAN DƏMİRƏLLƏ SÖHBƏTDƏN**
*28 oktyabr 1998-ci il*........................................................................................... 53

**ABŞ PREZİDENTİ BİLL KLİNTONUN XƏZƏRYANI BÖLGƏ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, SƏFİR RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*28 oktyabr 1998-ci il*........................................................................................... 54

**TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*28 oktyabr 1998-ci il*........................................................................................... 56

**BAKI–TBİLİSİ-CEYHAN MARŞRUTUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİ NƏZƏRDƏ TUTAN ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ**
*29 oktyabr 1998-ci il*........................................................................................... 58

**ANKARA BƏYANNAMƏSİ**
*29 oktyabr 1998-ci il*........................................................................................ 60

**ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİNİN ADINDAN TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ RUSİYA TELEKANALININ «VESTİ» İNFORMASİYA PROQRAMININ BAKI MÜXBİRİNƏ MÜSAHİBƏSİ**
*29 oktyabr 1998-ci il*........................................................................................ 61

**ABŞ-ın ENERGETİKA NAZİRİ BİLL RİÇARDSONLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*29 oktyabr 1998-ci il*........................................................................................ 62

**«MƏRMƏRƏ» QRUPUNUN STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VAQFININ KEÇİRDİYİ MƏRASİMDƏ NİTQ**
*30 oktyabr 1998-ci il*........................................................................................ 63

**«SAVARONA» GƏMİSİ İLƏ GƏZİNTİ**
*30 oktyabr 1998-ci il*........................................................................................ 69

**TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA GÖRÜŞDƏKİ ÇIXIŞ**
*31 oktyabr 1998-ci il*........................................................................................ 70

**TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZIN ADINDAN HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ «BEYTİ GÜLƏR» LOKANTASINDA VERİLMİŞ RƏSMİ NAHARDAKI SÖHBƏTDƏN**
*31 oktyabr 1998-ci il*........................................................................................ 72

**SNN TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*31 oktyabr 1998-ci il*........................................................................................ 73

**İSTANBULUN ATATÜRK ADINA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ SƏFƏRİNİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA BƏYANAT**
*31 oktyabr 1998-ci il*........................................................................................ 74

**TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ SƏFƏRİNİ BAŞA ÇATDIRIB VƏTƏNƏ QAYIDANDAN SONRA BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*31 oktyabr 1998-ci il*........................................................................................ 76

**ZAQAFQAZİYA DÖVLƏTLƏRİ ONKOLOQLARININ BİRİNCİ KONQRESİNƏ**
*2 noyabr 1998-ci il*........................................................................................ 78

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ GENİŞ İCLASINDA GİRİŞ NİTQİ**
*6 noyabr 1998-ci il*........................................................................................ 79
**YEKUN NİTQİ**
*6 noyabr 1998-ci il*........................................................................................ 80

**XALQ ARTİSTİ İQOR MOİSEYEVİN RƏHBƏRLİYİ İLƏ DÜNYA ŞÖHRƏTLİ RUSİYA DÖVLƏT AKADEMİK XALQ RƏQSLƏRİ ANSAMBLININ KONSERTİNDƏN SONRA ANSAMBLIN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*6 noyabr 1998-ci il*........................................................................................ 92

**ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*9 noyabr 1998-ci il*........................................................................................ **93**

12 **NOYABR KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*11 noyabr 1998-ci il*........................................................................................ **96**

**FİKRƏT ƏMİROVUN «SEVİL» OPERASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*15 noyabr 1998-ci il*........................................................................................ **97**

**YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ ALTINCI İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*21 noyabr 1998-ci il*........................................................................................ **100**

**XALQ ARTİSTİ RASİM OCAQOVA**
*21 noyabr 1998-ci il*........................................................................................ **111**

**XALQ ARTİSTİ HƏSƏN MƏMMƏDOVA**
*21 noyabr 1998-ci il*........................................................................................ **112**

**ATƏT-in HAZIRKI SƏDRİ, POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ BRONİSLAV GEREMEK İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*25 noyabr 1998-ci il*........................................................................................ **113**

**ATƏT-in HAZIRKI SƏDRİ, POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ BRONİSLAV GEREMEK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*25 noyabr 1998-ci il*........................................................................................ **115**

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSU ARASINDA MEMORANDUM İMZALANDIQDAN SONRA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRİLMİŞ BRİFİNQDƏ BƏYANAT**
*25 noyabr 1998-ci il*........................................................................................ **118**

**XALQ RƏSSAMI TAHİR SALAHOVA**
*28 noyabr 1998-ci il*........................................................................................ **119**

**AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ** 80 **İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ**
*28 noyabr 1998-ci il*........................................................................................ **120**

**ƏLİLLƏRİN BİRİNCİ ÜMUMRESPUBLİKA BƏDİİ YARADICILIQ BAXIŞ-MÜSABİQƏSİ QALİBLƏRİNİN YEKUN KONSERTİ BAŞA ÇATDIQDAN SONRA TƏDBİR İŞTİRAKÇILARI QARŞISINDA ÇIXIŞ**
*30 noyabr 1998-ci il*........................................................................................ **126**

**DÜNYA ŞÖHRƏTLİ KARDİOLOQ MAYKL DEBEYKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*3 dekabr 1998-ci il*........................................................................................ **127**

**AZƏRBAYCAN BMT-nin ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİNİN** 50 **İLLİK YUBİLEYİNİ KEÇİRƏN DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ**
*3 dekabr 1998-ci il*........................................................................................ **128**

YEKUN NİTQİ
*3 dekabr 1998-ci il*........................................................................................ 129

BEYNƏLXALQ VALYUTA FONDUNUN (BVF) AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ DEVİD OUEN İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 dekabr 1998-ci il*........................................................................................ 134

ÜZEYİR HACIBƏYOVUN «O OLMASIN, BU OLSUN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*4 dekabr 1998-ci il*........................................................................................ 137

QAÇQINLAR VƏ KÖÇKÜNLƏR ÜÇÜN HAZIRLANMIŞ EVLƏRƏ VƏ MÜXTƏLİF TƏYİNATLI OBYEKTLƏRƏ BAXDIQDAN SONRA SÖHBƏT
*6 dekabr 1998-ci il*........................................................................................ 140

DÜNYA ŞÖHRƏTLİ YAZIÇI, GÖRKƏMLİ İCTİMAİ XADİM ÇİNGİZ AYTMATOVA
*6 dekabr 1998-ci il*........................................................................................ 143

AZƏRBAYCANIN ŞƏHİD MİLLİ QƏHRƏMANLARININ VƏ DÖYÜŞÇÜ-LƏRİNİN VALİDEYNLƏRİNƏ, AİLƏ ÜZVLƏRİNƏ, HABELƏ HƏRBİ QULLUQÇULARA «QIZIL ULDUZ» MEDALLARI, «AZƏRBAYCAN BAYRAĞI» ORDENLƏRİ VƏ «HƏRBİ XİDMƏTLƏRƏ GÖRƏ» MEDAL-LARININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ
*8 dekabr 1998-ci il*........................................................................................ 144

«İSLAM SİVİLİZASİYASI QAFQAZDA» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*9 dekabr 1998-ci il*........................................................................................ 147

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİNİN 50 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*10 dekabr 1998-ci il*........................................................................................ 152

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ
*11 dekabr 1998-ci il*........................................................................................ 155

«İSLAM SİVİLİZASİYASI QAFQAZDA» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARININ BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*11 dekabr 1998-ci il*........................................................................................ 156

AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ
*12 dekabr 1998-ci il*........................................................................................ 159

YÜKSƏK MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ
*12 dekabr 1998-ci il*........................................................................................ 163

ÖZBƏKİSTANIN MƏŞHUR «YALLA» DÖVLƏT ƏMƏKDAR KAMERA-İNSTRUMENTAL ANSAMBLININ KONSERTİNDƏN SONRA YARADICI KOLLEKTİV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*12 dekabr 1998-ci il*........................................................................................ 165

**UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ**
*13 dekabr 1998-ci il*........................................................................................ **167**

**BEYNƏLXALQ KADR AKADEMİYASININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*14 dekabr 1998-ci il*........................................................................................ **169**

**ABŞ PREZİDENTİNİN VƏ DÖVLƏT KATİBİNİN XÜSUSİ MÜŞAVİRİ, SƏFİR RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*16 dekabr 1998-ci il*........................................................................................ **172**

**AZƏRBAYCANIN RUS İCMASI QURULTAYININ NÜMAYƏNDƏLƏRİNƏ**
*17 dekabr 1998-ci il*........................................................................................ **174**

**1999-cu il ÜÇÜN DÖVLƏT BÜDCƏSİ LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ GİRİŞ NİTQİ**
*17 dekabr 1998-ci il*........................................................................................ **175**
**YEKUN NİTQİ**
*17 dekabr 1998-ci il*........................................................................................ **175**

**AZƏRBAYCAN UŞAQ ŞAHMATÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**
*18 dekabr 1998-ci il*........................................................................................ **184**

**ÖZBƏKİSTANDAN RƏSMİ SƏFƏRDƏN QAYIDARKƏN BAKIDA MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*18 dekabr 1998-ci il*........................................................................................ **185**

**ŞAİR ZƏLİMXAN YAQUBUN YARADICILIĞINA HƏSR OLUNMUŞ POEZİYA MƏCLİSİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCANIN İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*19 dekabr 1998-ci il*........................................................................................ **187**

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ ÜZVÜ SƏİD QURBANOVA**
*20 dekabr 1998-ci il* ........................................................................................ **189**

**XALQ ARTİSTİ TÜKƏZBAN İSMAYILOVAYA**
*21 dekabr 1998 ci il*........................................................................................ **190**

**DÜNYA AZƏRBAYCANLILARINA**
*24 dekabr 1998-ci il*........................................................................................ **191**

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ**
*24 dekabr 1998-ci il*........................................................................................ **192**

**XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDAKI «YANAN TAVA», «ATƏŞGAH» VƏ «MUĞAN-DƏNİZ» BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNİLMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ YAPONİYANIN «CAPAN PETROLEUM», «İNDONEZİYA PETROLEUM», «İTOÇU OYL EKSPLOREYŞN» VƏ «TEYKOKU OYL» NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ**
*25 dekabr 1998-ci il*........................................................................................ **193**

**YEKUN NİTQİ**
*25 dekabr 1998-ci il*........................................................................................ **195**

**BAKIDA «DİNAMO» İDMAN-SAĞLAMLIQ MƏRKƏZİNİN – İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*30 dekabr 1998-ci il*........................................................................................ **196**

**AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ**
*31 dekabr 1998-ci il*........................................................................................ **198**

**ŞƏHİD, QAÇQIN VƏ KÖÇKÜN UŞAQLARI, HABELƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN YENİ İL YOLKA ŞƏNLİYİNDƏ ÇIXIŞ**
*31 dekabr 1998-ci il* ........................................................................................ **202**

**QEYDLƏR**................................................................................................ **203**

**ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ**............................................................................ **222**

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ**........................................................................ **225**

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN RESPUBLİKALARININ SƏRHƏDİNDƏ, QIRMIZI KÖRPÜ YAXINLIĞINDA YENİ KÖRPÜNÜN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*7 oktyabr 1998-ci il*

Əziz dostum, qardaşım Gürcüstan prezidenti Eduard Şevardnadze!
Hörmətli Gürcüstan parlamentinin sədri cənab Jvaniya!
Hörmətli nazirlər, səfirlər!
Hörmətli xanımlar və cənablar!

Mən sizə Azərbaycan xalqının, müstəqil Azərbaycanın bütün vətəndaşlarının salamını çatdırıram. Bu salamı mən dost gürcü xalqına, Gürcüstanın bütün vətəndaşlarına, Gürcüstanda yaşayan bizim soydaşlarımız azərbaycanlılara çatdırıram.

Bugünkü görüş gürcü və Azərbaycan xalqlarının dostluğunun, qardaşlığının, müstəqil Gürcüstanın və müstəqil Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin gözəl bir təzahürüdür.

Mən bu gün cəsarətlə deyə bilərəm ki, gürcü və Azərbaycan xalqlarının qədim dostluğu, qardaşlığı və bugünkü dostluq əlaqələri, müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan arasında son vaxtlarda yaranmış dövlətlərarası əlaqələr, dostluq və qardaşlıq əlaqələri bütün dünya xalqları, dövlətləri üçün ən gözəl nümunədir.

Gürcü-Azərbaycan dostluğu böyük sınaqlardan, imtahanlardan keçibdir. Mən dünyanın bir çox yerlərində bunu dəfələrlə bəyan etmişəm. Bu gün bir daha bəyan edirəm ki, [5-6] qonşu yaşayan iki xalq – gürcü və Azərbaycan xalqları qədim zamanlardan həmişə dost, qardaş olmuşlar. Bütün tarixə nəzər salarkən qətiyyətlə deyə bilərik ki, bizim xalqlarımız arasında heç vaxt nifaq, ziddiyyət, düşmənçilik, qarşıdurma olmamışdır. Biz həyatın bütün mərhələlərində dost, qardaş olmuşuq. Bu gün də müstəqil dövlətlər kimi, azad xalqlar kimi yenə də bu dostluğu, qardaşlığı davam etdiririk.

Bütün dünyaya məlumdur ki, Gürcüstan da, Azərbaycan da onların özlərindən asılı olmayan hərbi münaqişələrlə üzləşmişlər. Bütün dünyaya məlumdur ki, Gürcüstan da, Azərbaycan da bu münaqişələrə son qoymaq istəyirlər. Bütün dünyaya məlumdur ki, Gürcüstan da, Azərbaycan da öz ölkəsində, bölgəsində sülh istəyir. Mən bu gün bəyan edirəm ki, müstəqil Azərbaycan dövləti ölkədə, Qafqazda, dünyada sülh istəyir. Biz bu sülh arzuları ilə Gürcüstan-Azərbaycan dostluğumuzu möhkəmləndiririk. Bu sülh arzuları ilə də biz Qafqazda, Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərpa olması üçün çalışırıq və çalışacağıq.

Gürcüstan-Azərbaycan dostluğunun ən gözəl xüsusiyyətlərindən biri də odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz doğma vətənlərində, torpaqlarında yaşayırlar və Gürcüstanın bərabər hüquqlu vətəndaşlarıdır, Azərbaycanda yaşayan gürcülər öz doğma vətənlərində, torpaqlarında yaşayırlar və Azərbaycanın bərabər hüquqlu vətəndaşlarıdır. Həm Gürcüstanda yaşayan azərbaycanlılar, həm də Azərbaycanda yaşayan gürcülər Gürcüstan-Azərbaycan dostluğunun möhkəmlənməsində böyük xidmətlər göstərirlər. Bu gün fürsətdən istifadə edərək mən onlara minnətdarlığımı və təşəkkürümü bildirirəm.

O da həqiqətdir ki, Gürcüstanda yaşayan yüz minlərlə azərbaycanlılar məhz mənim dostum, qardaşım Eduard Şevardnadze Gürcüstanda dövlət başçısı, prezident seçildikdən sonra həyatlarındakı çətinliklərdən xilas olmuşlar və [6-7] rahat yaşayırlar, bu gün də rahat yaşayırlar. İnanıram ki, dünyada böyük hörmətə, şöhrətə malik olan nüfuzlu siyasətçi, Gürcüstan prezidenti, mənim əziz dostum Eduart Şevardnadzenin rəhbərliyi altında onlar bundan sonra da əmin-amanlıq şəraitində rahat yaşayacaqlar və Gürcüstan dövlətinin dövlətçiliyinin möhkəmlənməsinə öz xidmətlərini göstərəcəklər.

Gürcüstan-Azərbaycan dostluğunun, qardaşlığının çox parlaq səhifələri vardır. Bu səhifələrdən biri də bu gün bizim xatırladığımız və mənim dostum Eduard Şevardnadzenin təfsilatı ilə ətraflı məlumat verdiyi «Qırmızı körpü»dür. Bəli, həmin bu Qırmızı körpü, Cənubi Qafqaz xalqlarının dostluğunun və əməkdaşlığının, qardaşlığının təmin olunmasında böyük xidmətlər göstərmişdir. Qırmızı körpü Gürcüstan-Azərbaycan dostluğunun parlaq rəmzidir. Bu gün, biz yeni körpünun açılış mərasiminə toplaşdığımız zaman bu Qırmızı körpüyə öz təşəkkürümüzü, minnətdarlığımızı bildirməliyik və qeyd etməliyik ki, Qırmızı körpü Gürcüstan-Azərbaycan dostluğu tarixində böyük xidmətlər göstəribdir və o, tarixin gözəl səhifələrindən biri olaraq bizim yaddaşımızda qalacaqdır.

Gürcüstan və Azərbaycan arasında tikilmiş yeni körpünün açılması münasibətilə buraya toplaşanların hamısını, Gürcüstan vətəndaşlarını və dövlətini, Azərbaycan vətəndaşlarını və dövlətini təbrik edirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu yeni körpü keçmiş ənənələri davam etdirəcəkdir və Gürcüstan-Azərbaycan dostluğunun, qardaşlığının daha da yüksəlməsinə, inkişaf etməsinə dəyərli xidmət edəcəkdir.

Mənim dostum, qardaşım prezident Eduard Şevardnadze bu körpünün yaranma tarixi haqqında geniş danışdı. Mən onun dedikləri ilə tamamilə razıyam. Bu körpünün yaranması Avropa Birliyinin həyata keçirdiyi TRASEKA proqramının [7-8] həqiqətən bir hissəsidir. Bu körpünün yaranması bərpa etdiyimiz böyük, tarixi İpək yolunun bir hissəsidir. Bu körpü nəinki Gürcüstan-Azərbaycan dostluğuna xidmət edəcəkdir, o, Şərq ilə Qərbi, Avropa ilə Asiyanı birləşdirən gözəl bir körpüdür. Gələcək nəsillər bu körpünün tarixi əhəmiyyətini bizdən də çox qiymətləndirəcəklər.

Məmnuniyyətlə bəyan edirəm ki, Avropa Birliyinin 1992-1993-cü illərdə tərtib etdiyi TRASEKA proqramı ardıcıl surətdə həyata keçirilir. Gürcüstan və Azərbaycan bu proqramın həyata keçirilməsində fəal iştirak edirlər. Biz bunların nəticəsində, görülən işlərin əsasında böyük, tarixi İpək yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar sentyabr ayının 7-8-də Bakıda Beynəlxalq Konfrans keçirilməsinə nail olduq. Böyük tarixi İpək yolunun bərpasına həsr olunmuş Bakı Beynəlxalq Konfransı prezident Eduard Şevardnadzenin və prezident Heydər Əliyevin təşəbbüsü ilə və bu iki prezidentin birgə səyləri, böyük əməyi, Avropa Birliyi ilə bizim sıx əməkdaşlığımız nəticəsində və konfransa toplaşmış bütün ölkələrin (konfransa 32 ölkə toplaşmışdı) və beynəlxalq təşkilatların iştirakı ilə, bu konfransa onların göstərdiyi maraq nəticəsində mümkün olmuşdur. Bu, tarixi hadisəyə çevrilmişdir.

Mən bu fürsətdən istifadə edib, TRASEKA proqramına göstərdiyi böyük səylərə, qədim İpək yolunun bərpası ilə əlaqədar Bakı Beynəlxalq Konfransının həyata keçirilməsinə göstərdiyi kömək və yardıma görə Avropa Birliyinə bir daha təşəkkürümü bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Avropa Birliyi bizim əməli işlərimizin sayəsində əldə olunmuş nəticələri görərək, Gürcüstana və Azərbaycana, ümumiyyətlə, böyük İpək yolu üzərində duran ölkələrə bu proqramların həyata keçirilməsi üçün bundan sonra da ardıcıl surətdə öz yardımını edəcəkdir. [8-9]

İnanıram ki, Bakı Beynəlxalq Konfransında imzalanmış sənədlər, qəbul olunmuş qərarlar ardıcıl surətdə həyata keçiriləcəkdir. Mən tam inanıram ki, Gürcüstan və Azərbaycan, Gürcüstan prezidenti və Azərbaycan prezidenti həmin qərarların həyata keçirilməsinin ən fəal iştirakçısı olacaqlar. Beləliklə, biz nəinki öz ölkələrimiz, Qafqaz üçün, bütün dünya üçün, Qərblə Şərqin, Avropa ilə Asiyanın birləşməsi üçün yeni bir nəqliyyat marşrutunun yaranmasına öz xidmətlərimizi göstərəcəyik.

Bütün bu işlərin görülməsində və bu gün açılışına toplaşdığımız körpünün tikilməsində, ümumiyyətlə, TRASEKA proqramının həyata keçirilməsində dostum, qardaşım prezident Eduard Şevardnadzenin xidmətlərini xüsusi qeyd edirəm və bu körpünün yaranması və açılışı münasibətilə onu xüsusi təbrik edirəm.

Əziz dostum, qardaşım Eduard Şevardnadze Azərbaycanda indi keçirilən prezident seçkiləri haqqında öz fikrini bildirdi və prezident seçkilərində namizəd kimi mənə uğurlar arzuladı. Mən bunu çox yüksək qiymətləndirirəm. Mən bizim 30 ildən artıq davam edən dostluğumuz ərzində dostum, qardaşım Eduard Şevardnadzenin dəstəyini və dayağını həmişə hiss etmişəm və bu gün də hiss edirəm. Ümid edirəm ki, bizim bu şəxsi dostluğumuz Gürcüstan-Azərbaycan dostluğuna indiyə qədər xidmət etdiyi kimi, bundan sonra da xidmət edəcəkdir.

Mən inanıram ki, oktyabrın 11-də Azərbaycanın seçiciləri Heydər Əliyevi yenidən Azərbaycanın prezidenti seçəcəklər. İnanıram ki, Eduard Şevardnadze – Heydər Əliyev dostluğu davam edəcək və Gürcüstan-Azərbaycan dostluğu günü-gündən inkişaf edəcək və yüksələcəkdir.

Mən inanıram ki, gürcü xalqı, Gürcüstan vətəndaşları indiyədək öz taleyini Eduard Şevardnadze ilə bağladığı kimi, bundan sonra da öz ənənələrinə sadiq qalacaq, Gürcüstanın [9-10] çox hörmətli, tanınmış lideri, dünyada böyük hörmətə malik olan şəxsiyyət, siyasi xadim Eduard Şevardnadze Gürcüstanın bütün problemlərinin həll edilməsinə nail olacaq, Gürcüstanın dövlət müstəqilliyinin möhkəmlənməsini, vətəndaşlarının rifah halının yaxşılaşmasını təmin edəcək və Gürcüstan Dünya Birliyində daim öz layiqli yerini tutacaqdır.

Əziz dostum Eduard Şevardnadze!

Sizə və buraya toplaşanların hamısına mənə göstərdiyiniz bu diqqətə, mənim haqqımda, Azərbaycan barədə dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, Gürcüstan-Azərbaycan dostluğunun möhkəmlənməsi və inkişaf etməsi üçün bundan sonra da əlimdən gələni edəcəyəm.

Yaşasın müstəqil, demokratik, qüdrətli Gürcüstan!

Qaumarcos prezident Şevardnadze!

Qəhrəman, vətənpərvər gürcü xalqına eşq olsun!

Qəhrəman, vətənpərvər Azərbaycan xalqına eşq olsun!

Yaşasın müstəqil, demokratik, qüdrətli Azərbaycan!

Yaşasın əbədi, sarsılmaz Gürcüstan-Azərbaycan dostluğu və qardaşlığı!

Qaumarcos prezident Şevardnadze, qaumarcos Gürcüstan! [10]

## BƏRDƏ RAYONUNDA SEÇİCİLƏRLƏ GÖRÜŞÜ ZAMANI RUSİYA İCTİMAİ TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB

*8 oktyabr 1998-ci il*

**S u a l**: **Heydər Əliyeviç, prezident seçkiləri kampaniyası necə keçir**?

**C a v a b**: Demokratik prinsiplərə tam uyğun şəraitdə. İnsanların hamısı iştirak edir. Prezidentliyə altı namizəd var.

**S u a l**: **Beş namizəddən hansını özünüzə rəqib sayırsınız**?

**C a v a b**: Onların hamısı rəqibdir.

**S u a l**: **Zəhmət olmasa deyin, əgər Siz yenidən seçilsəniz, siyasi, yaxud iqtisadi xəttinizdə nə kimi dəyişikliklər olacaqdır**?

**C a v a b**: Mən artıq beş ildir ki, işləyirəm. Elə bir xüsusi dəyişiklik olmayacaqdır. Biz sadəcə olaraq, indiyədək etdiklərimizi təkmilləşdirəcəyik.

**S u a l**: **Məhz həmin xətti davam etdirəcəksiniz**?

**C a v a b**: Bəli, bu xətt özünü doğruldur. Biz demokratik, hüquqi, dünyəvi dövlət qururuq, fəal iqtisadi islahatlar aparırıq, bunlar öz nəticələrini verir. Azərbaycanda makro-iqtisadi, ictimai-siyasi sabitliyə nail olmuşuq, maliyyə sistemimizin sabitliyinə nail olmuşuq, inflyasiyanın qarşısı bütünlüklə alınmışdır. Rusiyadakı maliyyə böhranı, əlbəttə, bizə təsir göstərə bilərdi. Amma biz öz işimizi elə qurmuşuq ki, o, bizə heç bir təsir göstərmədi. İnflyasiya yoxdur, manatın məzənnəsi çox sabitdir. Ona görə də biz bu yolla gedirik, bunu dəyişməyəcəyik. [11-12]

**S u a l**: **Ən mühüm məsələ ərazilər məsələsidir. Siz bunu nə cür həll edəcəksiniz**?

**C a v a b**: Bilirsiniz, mən həmişə demişəm ki, biz bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Danışıqlar aparırıq və bunu davam etdirəcəyik. Hesab edirəm ki, məsələnin sülh yolu ilə həll olunması ən düzgün yoldur.

**S u a l**: **Siz müxalifətin fəallaşmasını necə qiymətləndirirsiniz**?

**C a v a b**: Təəssüf ki, bizim müxalifət radikaldır, seçkilərdə iştirak etmək istəmədi. Baxmayaraq ki, seçkilərə hələ çox qalmış hamısı bəyan edirdi ki, öz namizədlərini irəli sürəcək, seçkilərdə iştirak edəcək və qalib gələcəklər, bütün səsləri qazanacaqlar və sairə. Amma iş gəlib konkret olaraq seçkilərə çatanda onlar seçkilərə getmədilər. Çünki onlar qorxurlar. Bilirlər ki, əgər seçkilərə getsələr, nəyə qadir olduqlarını, yəni sosial bazalarının nədən ibarət olduğunu bütun dünyaya göstərəcəklər. Bu baza isə çox məhduddur. Buna görə də onlar belə radikal mövqe tutublar, özlərinin lazımsız mitinqləri, qanuna, Konstitusiyaya zidd hərəkətləri ilə respublikada sabitliyi pozmağa çalışırlar.

Məsələn, sabah onlar mitinq keçirmək istəyirlər, qoy keçirsinlər. Ancaq istəyirlər ki, bu, hökmən Azadlıq meydanında olsun. Halbuki, müəyyən edilmişdir ki, Azadlıq meydanı dövlət tədbirlərinin keçirilməli olduğu yerdir. Bakı şəhəri böyükdür, buyursunlar, onlara yer ayrılmışdır. Onlar isə deyirlər, yox, biz oranı istəyirik. Çünki toqquşma, qarşıdurma olmasını istəyirlər, bu yolu seçiblər. Hesab edirəm ki, bu onlara uğur gətirməyəcəkdir.

**S u a l**: **Nəhayət, sırf şəxsi xarakterli bir sual**: **Siz qalib gələcəyinizə əminsinizmi**?

**C a v a b**: Əlbəttə ki, əminəm.

**M ü x b i r**: **Çox sağ olun**. [12]

## MİNGƏÇEVİRDƏ MƏSCİD KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*8 oktyabr 1998-ci il*

Əziz bacılar, qardaşlar!

Əziz dostlar, əziz mingəçevirlilər, əziz qarabağlılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün Mingəçevirə gəlmişəm ki, Mingəçevir sakinləri ilə, sizinlə görüşüm, Siz də məni görəsiniz, mən də sizi görüm.

Sizi çoxdandı görməmişdim. Ona görə də sizin üçün darıxmışdım. Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində mən vaxtilə çox zəhmət çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl küçələri, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycana rəhbərliyə başlayarkən biz Azərbaycanın hər yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə buraya xüsusi fikir verirdik.

Mən çox şadam ki, bizim gördüyümüz işlər yaşayır, inkişaf edir və insanlar burada yaranmış bütün imkanlardan istifadə edir, yaşayırlar. Mingəçevir indi artıq tək mingəçevirlilər üçün yox, eyni zamanda Qarabağdan, işğal olunmuş torpaqlardan didərgin düşmüş insanların bir qismi üçün də yaşayış yeri olubdur. Mən çox məmnunam ki, siz, mingəçevirlilər bizim soydaşlarımızı, bacı və qardaşlarımızı, evini, yurdunu itirmiş insanları qoynunuza almısınız, onlara mehribanlıq göstərirsiniz, onlar da sizinlə birlikdə yaşayırlar.

Mən sizə bəyan edirəm ki, bunların hamısı müvəqqətidir. Şübhəsiz ki, Qarabağ azad ediləcəkdir. Şübhəsiz ki, işğal [13-14] olunmuş bütün torpaqlarımız azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə-yurdlarına qayıdacaqlar.

Biz keçmişdə sovet hakimiyyəti dövründə yaşamışıq, sovet quruluşunda yaşamışıq, kommunist ideologiyası altında yaşamışıq. Ona görə də bizim mənəvi mənbəyimiz, mənəvi dəyərimiz olan dinimizi əlimizdən almışdılar, din qadağan olunmuşdu, bütün dini etiqadlar qadağan edilmişdi, yasaq olunmuşdu. Ancaq 70 il belə bir şəraitdə yaşayan Azərbaycan xalqı öz doğma islam dinindən heç vaxt ayrı düşməmişdir. Bizim dinimiz – islam dinimiz qəlbimizdə yaşamışdır, insanlar onu yaşatmışlar və Azərbaycan kommunist ideologiyasından, sovet hakimiyyətindən xilas olandan sonra qısa bir zamanda insanlar öz qəlblərində yaşatdıqları bu hissiyyatları, dinə olan münasibəti dərhal bir fəvvarə, fontan kimi aşkar etdilər və din yenidən bizim cəmiyyətimizdə öz yerini tutdu. İslam dini indi Azərbaycanda bütün insanlar tərəfindən hər kəsin öz istədiyi kimi, vicdan azadlığından istifadə edərək yayılır və istifadə edilir. Dindarlar, Azərbaycanın xeyirxah insanları Azərbaycanın müxtəlif bölgələrində məscidlər tikirlər, insanların, vətəndaşların öz dini etiqadlarını həyata keçirməsi üçün, öz arzularını yerinə yetirməsi üçün məscidlərdə onlara lazımi şərait yaradırlar.

Mingəçevir keçmişdə şəhər olmayıbdır. Bu şəhər 50 il bundan öncə yaranıbdır. Bizim elə yerlər var ki, orada əsrlər boyu məscidlər olub, onlar dağıdılıb, yenidən tikilib. Amma burada heç bir şey olmayıbdır. Burada yaradılanların hamısı yenidir. Bəli, bu şəhərin əsası 50 il bundan öncə qoyulubdur və məscid də burada yenidir. Mən məmnunam ki, burada xeyirxah insanlar məscid də tikiblər, islam universitetinin filialını da yaradıblar, dərs də verirlər. Mən burada gördüm ki, gənc qızlar nə qədər gözəl danışırlar – həm dini nöqteyi-nəzərdən, həm də bugünkü mədəniyyətimizə uyğun olaraq. [14-15] Onlar məni həm Azərbaycan dilində, həm də başqa dillərdə salamladılar. Bu onu göstərir ki, xalqımız təhsillənir, inkişaf edir.

Din həmişə bizim mənəvi dəyərlərimizin qoruyucusu olubdur, mənəvi dəyərlərimizi yaşadan olubdur. Mənəvi dəyərlərimizin əksəriyyəti keçmişdə islam dininin dəyərləri əsasında, müqəddəs kitabımız Qurani-Şərifin ayələri əsasında, surələri əsasında yaranıbdır. Ona görə də dinimizə yenidən qayıtmaq, yenidən müqəddəs kitabımızın, həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yolla getmək və Qurani-Şərifin tələblərinə riayət etmək, şübhəsiz, insanları həmişə saflığa, təmizliyə, saf mənəviyyata aparır, düz yola, doğru yola aparır. Ona görə də mən burada böyük bir məscid kompleksinin tikilməsini – məscid binasının, təhsil yerinin, İslam Universiteti filialının yaranmasını çox əlamətdar hadisə hesab edirəm və bu işin təşəbbüskarlarına, bunu yaradanlara təşəkkürümü bildirirəm.

Şübhəsiz ki, indi bu cür məscidlər, dini müəssisələr insanların yardımı, insanların vəsaiti əsasında tikilir. Bu da onu göstərir ki, insanlar öz mənəvi köklərinə, keçmişinə, dininə necə sadiqdirlər. Ona görə heç kəs burada sorğu-sual etməməlidir – bu, haradan tikilib, pul haradan gəlib, haraya gedib. Əsas o deyildir. Əsas odur ki, yeni-yeni binalar tikilibdir. Əsas odur ki, Allah evi tikilibdir. Əsas odur ki, məscid tikilibdir. Əsas odur ki, burada təhsil almaq üçün bina tikilibdir. Ona görə mən bunu bəyənirəm, alqışlayıram və bu işi görənlərə təşəkkür edirəm.

Mən çox təşəkkür edirəm ki, əziz dostlar, siz – bu məscidi, kompleksi yaradanlar buranı mənim adımla bağlamısınız, hətta bura mənim adımı verirsiniz. Mən bunu özüm üçün şərəf hesab edirəm. Azərbaycan xalqını əsrlər boyu yaşadan, onu böyük bəlalardan, fəlakətlərdən qurtaran Azərbaycanın əsrlər boyu

yaratdığı mənəvi dəyərlər olmuşdur. Bu mənəvi [15-16] dəyərlərin də yaranmasının əsasını, təməlini islam dini təşkil edir. Bu işdə islam dininin xüsusi rolu vardır. Odur ki, mən yeni yaranmış belə bir məscidin və kompleksin mənim adımla bağlanmasına çox məmnunam, buna görə təşəkkür edirəm.

Sizi əmin edirəm ki, mən həmişə yüksək mənəviyyat uğrunda mübarizə aparmışam, mənim həyatım saf mənəviyyat əsasında qurulubdur, mənim bütün əməllərim saf mənəviyyat əsasında qurulubdur, mənim gördüyüm işlər də saf, təmiz mənəviyyat əsasında qurulubdur. Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm. Ona görə də mən indiyə qədər buna sadiq olduğum kimi, bundan sonra da sadiq olacağam.

Sizə təşəkkür edirəm. Sizə cansağlığı arzu edirəm. Bizim xalqımızı əsrlər boyu yaşadan o böyük Allahdır. Hər birimizi yaşadan, o cümlədən məni də həyatımda böyük fəlakətlərdən xilas edən böyük Allahdır. Böyük Allahın adı ilə sizə cansağlığı, səadət, yeni-yeni uğurlar arzulayıram. [16]

## AZƏRBAYCAN DÖVLƏT MUSİQİLİ KOMEDİYA TEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*9 oktyabr 1998-ci il*

Əziz dostlar, xanımlar və cənablar!

Bu gün biz həddindən artıq sevinc içərisindəyik. Çünki Azərbaycanın həyatında təkcə bu gün iki böyük əlamətdar hadisəni qeyd edirik. Şəhidlər xiyabanında ucaldılmış, şəhidlərin xatirəsinə həsr olunmuş abidəni bu gün səhər açıb, orada əbədi məşəl yandırdıq. Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, Qarabağın müdafiəsi uğrunda həlak olmuş, şəhid olmuş insanların xatirəsinə Bakının ən uca yerində, dağın üstündə layiqli bir abidə yarada bildik. Bəli, 1938-ci ildən 1990-cı ilə qədər Bakının ən uca nöqtəsində olmuş Kirovun heykəlinin yerində bu gündən Azərbaycanın müstəqilliyini, suverenliyini və xalqımızın qəhrəmanlığını təcəssüm etdirən gözəl memarlıq abidəsi və əbədi məşəl olacaqdır.

Gün sona çatır. İndi biz Azərbaycan Dövlət Musiqili Komediya Teatrının açılışını bayram edirik. 1998-ci il Azərbaycanda ilk dünyəvi, peşəkar teatrın yaranmasının 125-ci ilidir. Mən Azərbaycan teatrının 125 illiyini bayram etmək üçün avqust ayında sərəncam vermişəm. Ancaq bu sərəncam, sadəcə, yubiley qeyd etmək üçün deyil, Azərbaycan tarixinin, Azərbaycan teatrının əsas məqamlarını özündə əks etdirən bir sənəddir. Şübhə etmirəm ki, biz bu il Azərbaycan teatrının 125 illik yubileyini qeyd edəcəyik.

Mən nə üçün Azərbaycan teatrına və onun tarixinə bu qədər çox böyük əhəmiyyət verirəm? Mədəniyyət xadimləri, [17-18] ictimaiyyətimizin nümayəndələrinin əksəriyyəti yəqin xatırlayırlar ki, Azərbaycanda dünyəvi, peşəkar teatrın yaranmasının 100 illiyini də 1973-cü ildə mənim təşəbbüsümlə bayram etdik. Bu, böyük, təntənəli bayram idi. Çünki teatr Azərbaycanda mədəniyyətin, xalqımızın milli ruhunun, milli dirçəlişin inkişafında, ümumiyyətlə, xalqımızın mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynamışdır. Azərbaycanda teatr dərin köklərə malikdir və insanlar teatrı sevirlər. Mədəniyyət xadimləri, xüsusən özünü səhnə sənətinə, teatra həsr edənlər Azərbaycanda həmişə hörmətli insanlar olmuşlar.

Burada – bu gün biz toplaşdığımız yerdə əsrin əvvəlində Hacı Zeynalabdin Tağıyev təşəbbüs göstərərək teatr binası tikdirmişdir. Bəli, millətinin qayğılarına qalan bir insan kimi o, dərk etmişdir ki, 1873-cü ildən fəaliyyət göstərən teatr üçün bir bina lazımdır və bu teatr binasını tikdirmişdir. Bu teatr binası da on illərlə, demək olar ki, 1980-ci illərin sonuna qədər xalqımıza xidmət etmişdir. Bu teatrın səhnəsində, salonunda neçə-neçə nəsillər Azərbaycanın böyük teatr əsərləri ilə və teatr sənətkarlarının yaradıcılığı ilə tanış olmuşlar, onlardan zövq almışlar, bəhrələnmişlər, teatr Azərbaycan xalqının həyatına daxil olmuşdur.

Mən bunu dəfələrlə demişəm, - güman edirəm, təkcə mənim yox, çoxlarının həyatında və şüurunun formalaşmasında, inkişaf etməsində teatrın çox böyük təsiri olubdur. Mən Tağıyev teatrının binasına ilk dəfə uşaqkən, 1937-ci ildə gəlmişəm. Ondan sonrakı illərdə də mən gəlib burada bir çox tamaşalara baxmışam. Azərbaycanın böyük sənətkarları bu binada öz yaradıcılıqlarını, teatr sənətini inkişaf etdiriblər, xalqımıza xidmət göstəriblər.

Mən bu səhnədə Abbas Mirzə Şərifzadəni, Mirzağa Əliyevi, Sidqi Ruhullanı, Fatma Qədrini, Mərziyə Davudovanı, Ələsgər Ələkbərovu, Ağasadıq Gəraybəylini, Ağadadaş [18-19] Qurbanovu və başqalarını xatırlayıram. Bu teatr böyük insanlar, sənətkarlar yetirmişdir. Biz onlarla fəxr edirik.

Teatr öz xidmətini göstərmiş və biz Hacı Zeynalabdin Tağıyevə rəhmət oxumalıyıq, onun tarixi xidmətlərini qiymətləndirməliyik. Ancaq burada deyildiyi kimi, vaxtilə bu bina uçub dağılmışdı. Burada bərpa işləri aparmaq yox, yeni bina tikmək lazım idi və bu da başlanmışdı.

Mən 1993-cü ilin iyun ayında Bakıya işləməyə gələndən sonra və Azərbaycanda dövlətə rəhbərlik etməyə başladığım ilk günlərdən, aylardan dərhal burada tikintinin vəziyyəti ilə maraqlandım. Bilirsiniz ki, o vaxt çox çətin bir dövr idi. İş çox idi, vəziyyət gərgin idi və hələ Azərbaycanda vətəndaş müharibəsi sovuşmamışdı. Ancaq mən o vaxt tikintiyə gəldim, inşaatçılarla, Əliş Ləmbəranski ilə görüşdüm, binanın bütün mərtəbələrini gəzdim. O vaxt bu binanın divarları tikilmişdi. Burada deyildiyi kimi, mən öz tövsiyələrimi, mülahizələrimi və təkliflərimi bildirdim və ondan sonra bu tikintini nəzarətə götürdüm.

Doğrudur, indi bizim belə zəngin binalar tikməyə imkanımız yoxdur. Biz keçmişdə çoxlu belə binalar tikmişdik. Biz Azərbaycanın büdcəsinin gərgin, ölkəmizin iqtisadi, maliyyə vəziyyətinin çətin olmasına baxmayaraq, başqa sahələrdən vəsaiti kəsib bu tikintinin müntəzəm aparılmasına verirdik. Nəhayət, teatr binası tikilib hazır oldu.

Mən bu ilin əvvəlində tikintinin vəziyyəti ilə maraqlandım. Dedilər ki, hələ çox işlər görülməlidir. Bildirdilər ki, guya teatrın binasını 1998-ci ildə başa çatdırmaq mümkün deyildir. Mən bununla razı olmadım və tələb etdim ki, əlavə tədbirlər görülsün, teatr binası payıza qədər hazır olsun, istifadəyə verilsin.

Burada deyildi, - bu binanın tikinti işləri ilə Əliş Ləmbəranski məşğul olubdur. Mən Əliş Ləmbəranski ilə on illərlə birgə işləmişəm və onun inşaat, təşkilatçılıq sahəsində böyük təcrübəsi olduğuna, bu işi çox

sevdiyinə, ona can yandırdı[19-20]ğına görə 1970-ci illərdə bir çox böyük binaların inşasına rəhbərliyi ona həvalə edirdim.

Məsələn, o dövrdə biz Respublika sarayının tikintisinə başladıq və qısa müddətdə, 1972-ci ilin dekabrında onu istifadəfə verdik. Orada təntənəli mərasim keçirdik. Mən həmin sarayın, Bakı məişət kondisionerləri zavodunun, «Gülüstan» sarayının da tikintisinə rəhbərliyi Əliş Ləmbəranskiyə həvalə etmişdim. Ona görə ki, Əliş Ləmbəranskiyə inanırdım və o da bu işləri canla-başla edirdi.

Bilirsiniz ki, bir müddət mən onunla əlaqəmi itirmişdim. 1993-cü ildə mən yenidən Bakıya qayıdanda onunla maraqlandım və eşitdim ki, Əliş Ləmbəranski bu binanın tikintisinə rəhbərliyi öz üzərinə götürübdür. Mən buraya gəlib onunla görüşdüm və bu işdə ona dəstək verdim. Bilirəm ki, o, burada çox işlər görüb, əziyyət çəkibdir. Xatirimdədir, mən ilk dəfə buraya gələndə gördüm ki, o, toz-torpağın içində, çox ağır vəziyyətdə özü də işləyirdi, başqalarını da işlətməyə çalışırdı. Mən elə bir şəraitdə bu işin vəziyyəti ilə tanış oldum.

Şübhəsiz ki, bu işi Əliş Ləmbəranski təkcə görə bilməzdi. Mühəndislər, texniklər, inşaatçılar, fəhlələr, quraşdırıcılar böyük işlər görmüşlər. Burada böyük bir kollektiv işləyibdir. Mən bu gün bu binanı belə yaraşıqlı və müasir tələblərə uyğun görərək bütün inşaatçılara təşəkkür edirəm. Çox sağ olun ki, siz respublikanın bu çətin və ağır dövründə belə bir işi görmüsünüz, Azərbaycana gözəl bir hədiyyə təqdim etmisiniz.

Mən Əliş Ləmbəranskiyə xüsusi təşəkkür edirəm və çox sevinirəm ki, o, 20,30 il bundan əvvəl olduğu kimi, bu gün də fədakarcasına çalışır. Hesab edirəm ki, o, mənim ona daha hansı növbəti işi tapşıracağımı gözləyir. Güman edirəm ki, o, belə bir tapşırığı alacaqdır.

Bu bina həqiqətən çox gözəldir. Bir daha qeyd edirəm, biz Hacı Zeynalabdin Tağıyevə rəhmət oxumalıyıq. Ancaq yaranan bu bina, teatr, şübhəsiz ki, əvvəlkindən qat-qat fərqlənir. [20-21] Burada deyildiyi kimi, bu bina öz avadanlığı, texnikası, texnologiyası ilə müasir tələblərə cavab verir. Güman edirəm ki, bu özü müstəqil Azərbaycan dövlətinin hətta bu çətin dövrdə mədəniyyətə, teatra nə qədər böyük qayğı göstərdiyini nümayiş etdirir.

Bizim mədəniyyət sahəsində gördüyümüz bu işlərə bəzi adamlar dodaq büzürlər, yaxud da onları gözdən salmaq istəyirlər, əleyhinə çıxırlar. Çünki özləri bir şey bacarmırlar, heç bir şeyə qabil deyillər. Deyirlər ki, nə üçün Azərbaycanda yubileylər keçirilir? Biz kimin yubileylərini keçiririk? Biz Azərbaycanın həyatında, tarixində, millətin inkişafında böyük xidmətlər göstərmiş mədəniyyət xadimlərinin yubileylərini keçiririk. Bununla da öz xalqımızın zənginliyini dünyaya nümayiş etdiririk və eyni zamanda gənc nəsli tərbiyə edirik, mədəniyyətimizin gələcək inkişafı üçün yol açırıq. Buna ancaq sevinmək lazımdır. Sevinmək lazımdır ki, bəli, məhz belə bir ağır dövrdə bütün çətinliklərə baxmayaraq, biz mədəniyyətimizi yaşadırıq, inkişaf etdiririk, mədəniyyət xadimlərinə qayğı, diqqət göstəririk və elm, mədəniyyət xadimlərinin yubileylərini keçiririk. Bundan, eləcə də bu gün bu teatrın inşasının başa çatmasından, açılmasından gözəl nə ola bilər? Bəlkə kimsə deyə bilər ki, biz ağır vəziyyətdəyik, nə üçün teatr binasının tikintisinə bu qədər xərc qoyulubdur və belə gözəl bina yaradılıbdır? Ancaq yox, biz Azərbaycan xalqının mədəniyyətinin inkişafını heç vaxt dayandıra bilmərik. Bizim xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir. Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcəyik, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq.

Müstəqil Azərbaycan dövlətinin başçısı, Azərbaycan prezidenti kimi mənim siyasətimin böyük bir rolu bundan ibarətdir. Əmin ola bilərsiniz ki, bu siyasəti mən bundan sonra da davam etdirəcəyəm. [21-22]

Bu teatr binasının tikilib başa çatdırılması və bu gün istifadəyə verilməsi bütün Azərbaycan teatrı üçün böyük hadiyyədir. Azərbaycan teatrı buradan başlayır. Bu, bütün Azərbaycan teatrı üçün böyük bir nemətdir. Ona görə də mən bu binanın hazır olması və istifadəyə verilməsi münasibətilə Azərbaycanın bütün mədəniyyət, incəsənət, teatr xadimlərini, səhnə ustalarını, teatr işçilərini ürəkdən təbrik edirəm və hamıya cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram.

Bu teatrın binası keçmişdə işlənmiş vəziyyətdə olduğuna görə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivinə verilmişdi və onlar burada yerləşmişdilər. Ancaq güman edirəm, bu yeni bina tikiləndən sonra başqa teatrların kollektivləri şübhəsiz, buna həm sevinirlər, həm də müəyyən qədər düşünürlər ki, o, nə üçün Musiqili Komediya Teatrına verildi. İş burasındadır ki, bu bina vaxtilə Dövlət Musiqili Komediya Teatrının əlinə keçibdir, onlar da bunun varisi olublar. Ancaq şübhəsiz, bu, elə bir binadır ki, bütün Azərbaycan mədəniyyətinə xidmət edəcəkdir. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivi də gərək öz işini teatrın bugünkü müasir tələbləri səviyyəsinə gətirib çatdırsın.

Əziz dostlar, mən sizə – Azərbaycanın mədəniyyət, incəsənət, teatr xadimlərinə yeni-yeni uğurlar arzulayıram. Mənə göstərdiyiniz xoş münasibətə və mənim fəaliyyətimə burada verdiyiniz qiymətə, mənə daim dəstək verdiyinizə görə sizə təşəkkür edirəm. Siz bilirsiniz, mənim bütün həyatım, fəaliyyətim sizin gözünüzün qabağındadır. Mənim ömrümün, həyatımın mənası xalqa xidmət etməkdən ibarət olmuşdur. Mən bu gün də bu xidməti edirəm, gələcəkdə də edəcəyəm. Buna əmin ola bilərsiniz.

Yaşasın mədəniyyət!

Eşq olsun Azərbaycan teatrına!

Yaşasın Azərbaycan mədəniyyəti! [22]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNDƏ SEÇKİ MƏNTƏQƏSİNDƏ YERLİ VƏ XARİCİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ MÜXBİRLƏRİNİN SUALLARINA CAVAB

*Bakı, Səbail rayonunun 17 nömrəli seçki məntəqəsi*

*9 oktyabr 1998-ci il*

**S u a l**: **Cənab prezident, Siz kimə səs verəcəksiniz**?

**C a v a b**: Yəni fikirləşirsiniz ki, kiməsə başqasına səs verəcəyəm?

**S u a l**: **İndi səs verəcəyiniz adam Azərbaycanın prezidenti olacaqmı**?

**C a v a b**: Şübhəsiz.

**S u a l**: **Bəs o, necə prezident olacaqdır**?

**C a v a b**: Yaxşı, layiqli prezident.

**S u a l**: *(Rusiya ictimai televiziyası)*: **Heydər Əliyeviç, nə qədər səs toplamağı nəzərdə tutursunuz**?

**C a v a b**: Nə qədər səs versələr. Nə qədər səs verəcəklərini bilmirəm.

**S u a l**: **Əhval-ruhiyyəniz necədir**?

**C a v a b**: Görürsünüz, əhval-ruhiyyəm çox yaxşıdır.

**S u a l**: **Seçkilərdə qələbədən sonra Sizin atacağınız ilk addımınız nə olacaq**?

**C a v a b**: Azərbaycanı, onun müstəqilliyini, suverenliyini, iqtisadiyyatını möhkəmləndirmək, hələ həll olunmamış problemləri həll etmək. Bu problemlərin bir çoxunu həll [23-24] etmişik, amma həll olunmayanlar da çoxdur. Onları da həll etmək lazımdır və həll edəcəyik.

**S u a l**: **Qarabağ problemini necə həll edəcəksiniz**?

**C a v a b**: Biz onu sülh yolu ilə həll edirik. Mən daha müharibə olmasını, qan tökülməsini istəmirəm. Hesab edirəm ki, artıq Ermənistan tərəfi də dərk edir ki, bu məsələnin həllinin hərbi yolu yoxdur. Sülh danışıqları aparırıq və aparacağıq. Mütləq həll edəcəyik. Seçkilər ərəfəsində mən, demək olar, bütün qaçqın düşərgələrində olmuşam. Qaçqınlar çadırlarda çox çətin, mən deyərdim ki, son dərəcə ağır şəraitdə yaşayırlar, bunu hətta təsəvvür etmək də mümkün deyildir. İndi ilin hələ nisbətən babat fəslidir, amma qarşıdan qış, sonra da yay gəlir. Onlar beş-altı il, hətta bundan da çox müddətdə çadırlarda yaşayırlar. Ona görə də bu problemi həll etmək lazımdır. Həm də bu, yalnız bizim xalqımız üçün, mənim üçün problem deyildir, bütün dünya birliyi üçün problemdir. Heç bir ölkədə Azərbaycandakı qədər qaçqın, köçkün, öz yaşayış yerlərindən zorla qovulmuş insan yoxdur. Ona görə də bu, ancaq Azərbaycanın yox, bütün dünyanın problemidir. Biz bu məsələ ilə təkidlə məşğul oluruq və onu həll edəcəyik.

**S u a l**: **Rusiyanın Qəbələdəki radiolokasiya stansiyasının taleyi necə olacaqdır**?

**C a v a b**: Bilirsiniz, bu, çox spesifik məsələdir. Yəni, Azərbaycan dövlət müstəqilliyinə malikdir, eyni zamanda öz ərazisində Qəbələ radiolokasiya stansiyasının mövcudluğu ilə razılaşır. Biz onu əsas tuturuq ki, hər halda, raket müharibəsinin, strateji təyinatlı raketlərin hücumunun qarşısının alınmasından söhbət gedir və hesab edirik ki, bu stansiyanın taleyini həll etmək lazımdır. Biz bu məsələyə çox diqqətlə yanaşırıq, baxmayaraq ki, Rusiya tərəfi onu heç də həmişə düzgün həll etmir. Hətta çox vaxt istifadə etdikləri elektrik enerjisinin haqqını da ödəmirlər. Bununla belə, biz bu məsələni səbrlə həll edirik və edəcəyik. [24-25]

**S u a l** *(AzərTac)*: **Cənab prezident, bir vaxtlar Azərbaycanda silah gücünə hakimiyyətə gəlmək hallarını, sonralar dövlət çevrilişi yolu ilə hakimiyyəti ələ almaq cəhdləri göstərildiyini, indi də radikal, dağıdıcı müxalifətin zorla hakimiyyətə gəlmək çağırışlarını nəzərə alsaq, indiki prezident seçkilərini Sizin hakimiyyətə qanuni yolla gəlmək ənənənizin bərqərar olması kimi də qiymətləndirmək olarmı**?

**C a v a b**: Mən hakimiyyətə həmişə qanuni yolla gəlmişəm. Təəssüflər olsun, Azərbaycanda zorla hakimiyyətə gəlmək halları olub, - bu, tarixdən Sizə məlumdur. Hakimiyyəti zorla ələ keçirmək istəyən insanlar, qruplar, dəstələr, hətta partiyalar indi də mövcuddur. Onlar cürbəcür yollara əl atırlar, bilirsiniz, hətta təxribatdan, terrordan da çəkinmirlər. Belə qüvvələr hələ var.

Amma görürsünüz, xalqın milli həmrəyliyi, vətəndaş həmrəyliyi seçkiqabağı kampaniyada tamamilə nümayiş etdirildi. Son on-on beş gündə mən respublika ərazisinin demək olar ki, əksər hissəsində oldum, milyonlarla insanla görüşdüm. Onlar zorakılığı, hakimiyyətin qeyri-qanuni yolla zəbt olunmasını rədd edirlər, buna imkan vermirlər və güman edirəm ki, verməyəcəklər. O insanlar da, - hansılar ki, köhnə xəstəlikdən hələ xilas olmayıblar, - onlar da ayılmalı, anlamalıdırlar ki, dünya dəyişib, Azərbaycan dəyişibdir. Azərbaycan 1991-ci, 1992-ci, 1993-cü illərdə olan Azərbaycan deyil, əmin-amanlıq, rahatlıq yaranıbdır, ictimai-siyasi sabitlik əldə etmişik və bunu qoruyuruq.

Mən seçkiqabağı görüşlərimdə dəfələrlə demişəm: Azərbaycan xalqı qazandığı bu ictimai-siyasi sabitliyi, sakitliyi, rahatlığı gərək heç vaxt əldən verməsin. Çünki inkişafımızın təminatı məhz budur. Güman edirəm ki, həmin qüvvələr bunu bilməli, geri çəkilməlidirlər. Yaxud da normal qanun-qayda ilə, Konstitusiya əsasında, dünya təcrübəsində olan yollarla hakimiyyət uğrunda mübarizə aparmalıdırlar. Haki[25-26]miyyət uğrunda mübarizə aparmaq heç kəsə qadağan edilmir. Heç kəs bu hüquqdan məhrum deyildir. Ancaq hakimiyyət uğrunda mübarizə aparan, birincisi, gərək bilsin ki, o, hakimiyyəti idarə edə, iqtidarda ola, ölkəyə rəhbərlik edə bilərmi? Gərək birinci bunu düşünsünlər.

Təəssüf ki, bu seçkilərdə bunu dərk etmədən deyirlər ki, «Bunu da edirəm, onu da edərəm». Bu, asan məsələ deyildir. İnsanlar beş ildir yaşayırlar, biz bütün bu bəlalardan keçib gəldik, bütün çətinliklərin öhdəsindən gəldik. Neçə dəfə dövlət çevrilişinə cəhd oldu, - qarşısını aldıq. Mən onların qarşısını xalqın gücü ilə aldım. Neçə dəfə mənə qarşı terror, təxribat aksiyaları oldu, - onların da qarşısı alındı. Əlbəttə, Allah da bizə kömək edir. Allah həmişə baxır, ədalət tərəfindədir, bizə kömək edir. Bunların hamısının nəticəsində yaranmış ictimai-siyasi sabitliyi ayrı-ayrı insanlar öz şəxsi məqsədlərinə, iddialarına görə pozmağa çalışırlar. Hətta indi də bu niyyətlərindən, pis əməllərindən əl çəkməyiblər. Ancaq xalq buna yol verməyəcəkdir. Görürsünüz, bu gün hava da gözəldir. Allah da bizə kömək edir ki, hava yaxşı olsun, insanlar seçki məntəqələrinə rahat gəlsinlər, səs versinlər. Güman edirəm ki, onlar Azərbaycanın xoşbəxt gələcəyinə, müstəqilliyinə, suverenliyinə səs verəcəklər, Azərbaycanın problemlərini həll edə biləcək insana səs verəcəklər.

**S u a l**: *(«Amerikanın səsi» radiostansiyasının Azərbaycan təmsilçisi)*: **Cənab prezident, bir var ki, seçkilərə iqtidarlı-müxalifətli bizim özümüz qiymət verək, bir də var dünya ictimaiyyətinin nümayəndələri, xaricdən gələn müşahidəçilər qiymət versinlər. Siz dünən həmin müşahidəçilərin böyük bir dəstəsini qəbul etdiniz. Onların söhbətlərindən, ilkin müşahidələrindən aldığınız təəssürat nədər ibarətdir?**

**C a v a b**: Siz mətbuat işçiləri çoxunuz mənim danışıqlarımda iştirak edirdiniz. Onlar mənə bəyan ediblər ki, ədalətli yanaşacaqlar. Birincisi, onlar Azərbaycanda indiyə [26-27] qədər görülən işləri qiymətləndirirlər. Radikal müxalifətdə olanların, yaxud namizədlərin bəzilərinin fikrinin əksinə olaraq deyirlər ki, Azərbaycanda görülən işləri bilir, qiymətləndirirlər. Azərbaycanda əldə olunmuş ictimai-siyasi sabitliyi, makroiqtisadi sabitliyi, inkişafı da görürlər və respublikamızın inkişaf etməsini istəyirlər. Müşahidəçilər əsasən Qərbdən gəliblər, onlar istəyirlər ki, Azərbaycan müstəqil dövlət kimi yaşasın və inkişaf etsin, onun müstəqilliyi dəyişməz, toxunulmaz olsun və Azərbaycan dünya dövlətləri, o cümlədən Qərb ölkələri ilə normal münasibətlərdə olsun, əməkdaşlıq etsin. Ona görə də hesab edirəm ki, onlar ədalətli qiymət verməlidirlər.

**S u a l** *(Rusiya jurnalisti)*: **Cənab prezident, yenidən seçilsəniz, komandanızda hansı dəyişiklikləri edəcəksiniz?**

**C a v a b**: Bu, çox mənasız sualdır. Yenidən seçilən, yaxud yeni gələn prezident, şübhəsiz ki, öz işlərini quracaqdır. Mən indi ayaqüstü deyim ki, hansı dəyişikliklər edəcəyəm? Mən yüz iş görəcəyəm, onun hansını sizə deyim? Komanda yaxşı komandadır, amma hər bir komanda inkişaf etməlidir, hər bir komandada işlər daha da mütəşəkkil olmalıdır. Müxalifətdə olanlar, yaxud namizədlər deyirlər ki, «komanda belə gəldi, elə getdi». Kimin bundan yaxşı komandası var? Müstəqillik əldə ediləndən bəri Azərbaycanda nə vaxt belə komanda olubdur? Nə vaxt belə sabit rəhbərlik olubdur? Əvvəl necə idi? Bir prezident altı ay işləyə bildi, bir il də o birisi. Niyə qalmadılar? Xalq guya onları seçmişdi, niyə dövləti saxlaya bilmədilər? Niyə xalqa xidmət göstərmədilər? Hansı komandaları vardı? Komandamız var, ondan da yaxşı olacaqdır. Yaxud da, - siz bilirsiniz, - namizədlərdən biri deyir ki, «komandam var, beşməkanım var». 1993-cü ildə Azərbaycan təhlükə qarşısında olanda, vətəndaş müharibəsi başlayanda həmin adam – Etibar Məmmədov da burada, Azərbaycanda siyasətin içində idi. İndi iddia edir ki, Azər[27-28]baycanın müstəqillik qazanmasında guya xidmətlər göstəribdir. Bəs niyə qabağa çıxmadı, Azərbaycanı o fəlakətdən qurtarmadı, vətəndaş müharibəsinin qarşısını almadı, qan tökülməsini dayandırmadı? İndi gəlib komandadan danışır.

Bu gözəl rəqs edən uşaqları görürsünüz. Budur Azərbaycanın reallığı. Beş il müddətində Azərbaycanda gördüyüm işlərin nəticəsidir ki, gənclər, uşaqlar belə şən, rahat, xoşbəxtdirlər, oynayırlar, oxuyurlar. Sağ olun, balalarım!

**S u a l** *(Türkiyənin TRT kanalının müxbiri)*: **Cənab prezident, Türkiyə-Suriya sərhədindəki vəziyyətlə bağlı fikrinizi bilmək istərdim.**

**C a v a b**: Biz Türkiyəni dəstəkləmişik, Türkiyə ilə bir yerdəyik. Türkiyə bizim dostumuz, qardaşımızdır. Ona görə də həmişə Türkiyənin arxasındayıq, onunla bir yerdəyik. Türkiyə öz siyasətini doğru-düzgün aparır.

Prezident Heydər Əliyev sonra Türkiyənin «Kanal-6» televiziyası müxbirinin sualına cavabında dedi: Türkiyəyə öz hörmət və ehtiramımı bildirirəm. Türkiyə bizim ən yaxın qonşumuz, dostumuzdur. Bilirəm ki, Türkiyədə insanların çoxu Azərbaycandakı prezident seçkilərinə böyük maraq, diqqət göstərirlər. Əziz dostum, qardaşım Süleyman Dəmirəl dünən axşam mənə telefon etdi, vəziyyəti öyrəndi. Dedim ki, hər şey yaxşıdır. Soruşdu ki, Sizi nə vaxt təbrik edim? Dedim ki, məlumat alan kimi telefon edə bilərsiniz. Bizim

daim əlaqələrimiz var, dostuq, qardaşıq və bundan sonra da qardaş olacağıq. Türkiyə xalqına, Türkiyədəki qardaşlarımın hamısına salamımı, hörmətimi bildirirəm. [28]

# AZƏRBAYCANDA KEÇİRİLMİŞ PREZİDENT SEÇKİLƏRİ BARƏDƏ YERLİ VƏ XARİCİ JURNALİSTLƏR ÜÇÜN BƏYANAT VƏ MƏTBUAT KONFRANSI

*Prezident sarayı*

*13 oktyabr 1998-ci il*

Hörmətli jurnalistlər, mətbuat nümayəndələri!

Mən sizi salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Sizin Azərbaycanın həyatına və xüsusən Azərbaycanda keçirilən prezident seçkilərinə göstərdiyiniz marağa görə təşəkkür edirəm.

Biz son günlər hiss etdik ki, Azərbaycanda oktyabr ayının 11-də keçirilmiş prezident seçkiləri, demək olar ki, dünyanın çox ölkələrinin marağını və diqqətini cəlb edibdir. Təsadüfi deyil ki, bura, Azərbaycana çoxsaylı müşahidəçilər gəlibdir və eyni zamanda mətbuat, informasiya orqanlarının, təşkilatlarının nümayəndələri - jurnalistlər gəliblər. Biz bunu müsbət hal hesab edirik.

Siz bu gün Azərbaycandasınız, bizim ölkəmizlə tanış olursunuz və ölkəmizin bugünkü həyatını görürsünüz. Onu da görürsünüz ki, həqiqətən, indi Azərbaycan müstəqil dövlətdir və insanlar müstəqil, azad ölkədə yaşayırlar. Burada ölkəmizin, insanların nailiyyətləri də vardır, bir çox problemləri də vardır. Ancaq ən əsas amil ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlətdir və müstəqilliyini son illərdə yaşadıb, möhkəmlədib və inkişaf etdiribdir. [29-30]

Müstəqil ölkə, dövlət kimi biz öz həyatımızı qururuq və dövlət quruculuğu prosesində əsas mərhələlərdən biri də şübhəsiz ki, hakimiyyət orqanlarının seçilməsidir, o cümlədən prezidentin secilməsidir. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi apararaq, şübhəsiz ki, bütün bu prinsiplərin Azərbaycanda tətbiq olunmasına çalışırıq. Biz demokratiya yolu tutmuşuq və Azərbaycanda demokratiyanı yaradıb inkişaf etdirməyə çalışırıq.

Şübhəsiz ki, bizim ölkəmiz müstəqil ölkə, dövlət kimi gənc olduğuna görə Azərbaycanda demokratiya gəncdir. Ancaq burada əsas ondan ibarətdir ki, biz bu yol ilə gedirik. Bir tərəfdən demokratiyanı öyrənirik, ikinci tərəfdən də demokratik prinsiplər əsasında yaşayıb fəaliyyət göstərmək istəyirik. Biz bu münasibətlə Azərbaycanda növbəti prezident seçkilərini, Azərbaycanın bir müstəqil dövlət kimi ilk Konstitusiyası əsasında keçirilən birinci prezident seçkilərini demokratik prinsiplər əsasında keçirməyə çalışmışıq.

Hər halda seçkilərin demokratik, azad, sərbəst, ədalətli keçirilməsi üçün seçkiqabağı dövrdə, mən hesab edirəm ki, biz çox iş görmüşük və seçkilərin məhz bu şəraitdə keçirilməsi üçün əsas yaratmışıq. Artıq indi seçkilər keçirilibdir. Onların nəticələri müəyyən olunur, ilkin nəticə məlumdur. Hesab edirəm ki, Azərbaycanda oktyabr ayının 11-də keçirilmiş prezident seçkiləri bir müstəqil dövlət kimi Azərbaycanın inkişafında mühüm bir mərhələdir və Azərbaycanda demokratiyanın inkişafında da çox böyük bir mərhələdir.

Seçkilər keçirilibdir, prezident seçilibdir.Güman edirəm ki, Mərkəzi Seçki Komissiyası bu günlərdə seçkilərin nəticəsini elan edəcəkdir və beləliklə, Azərbaycan öz həyatının, öz inkişafının yeni mərhələsinə başlayır. Mən çox məmnunam ki, siz bunların hamısını özünüz müşahidə etmisiniz. Güman edirəm ki, bizim həyatımızın müsbət tərəflərini də görmüsünüz və şübhəsiz ki, nöqsanları da görmüsünüz. [30-31]

Mən bir daha sizə təşəkkür edirəm. Mənə bir sözünüz, sualınız varsa, sizi dinləməyə hazıram.

**S u a l** *(«Səs» qəzeti)*: **Cənab prezident, bu seçkilər göstərdi ki, Azərbaycanda demokratiyadan daha çox danışanlar qeyri-demokratik yollarla hakimiyyətə can atdılar. Bunu seçkiyə qatılan müxalifətçilər haqqında da, qatılmayanlar haqqında da söyləmək olar. Hamı gördü ki, Azərbaycanda demokratiyanı, demokratik seçkini Siz və Sizin komandanız keçirdi. Qarşıdan gələn beş ildə həmin bu müxalifətə nə arzu edərdiniz**?

**C a v a b**: Bilirsiniz, mən bu beş il müddətində həmişə arzu etmişəm ki, Azərbaycanda insanların hamısı demokratiya yolu ilə getsin. Ötən beş ildə mən çalışmışam ki, Azərbaycanda demokratik proses inkişaf etsin və hər kəs demokratiyaya alışsın. Şübhəsiz ki, demokratiya olan yerdə iqtidar-müxalifət vardır. Mən hesab edirəm ki, bir gənc müstəqil, demokratik dövlət kimi, bizdə həm iqtidar, həm də müxalifət demokratiya prinsiplərinə riayət etməlidir. Hamı ölkənin Konstitusiyasına, ölkənin qanunlarına riayət etməlidir.

Mən arzu edərdim ki, bu seçkilərdən o radikal müxalifətdə duran və seçkiyə qatılmayanlar özləri üçün nəticə çıxarsınlar, Azərbaycanda yaranmış demokratik mühitdən, şəraitdən hər birisi qanunlar çərçivəsində istifadə edib Azərbaycanın ictimai-siyasi həyatında sivil formada, mədəni formada iştirak etsinlər. Onlara da və seçkilərdə iştirak etmiş, müxalifət mövqeyində duran namizədlərə və namizədlərin mənsub olduğu təşkilatlara da tövsiyə edərdim ki, gələn seçkilərə hazırlaşsınlar. Qanun çərçivəsində özlərini də hazırlasınlar, öz təşkilatlarını da hazırlasınlar.

Mən bu fürsətdən istifadə edib onu bəyan etmək istəyirəm ki, Azərbaycanın üzləşdiyi böyük problem ilə əlaqədar - həm Azərbaycanın daxilində olan problemləri, həm də Azərbaycanın Ermənistan ilə münaqişəsini və Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasını, işğal edilmiş torpaq[31-32]lardan bir milyondan artıq azərbaycanlıların yerindən-yurdundan çıxarılmasını, onların çadırlarda ağır vəziyyətdə yaşamasını nəzərə alaraq, mən bu gün Azərbaycanda olan hər bir siyasi partiya, hər bir təşkilata, hər bir vətəndaşa bir daha müraciət edirəm ki, bizim ölkəmizdə milli birliyin, milli həmrəyliyin yaranmasına çalışaq.

Bizim, Azərbaycanın müstəqil dövləti qarşısında çox böyük, çətin problemlər durur. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirməli, inkişaf etdirməli və onu daimi etməlidir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi davam etməlidir və inkişaf etməlidir. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilməlidir. Azərbaycanda demokratik cəmiyyət yaradılması prosesi davam etməlidir və bizim üçün ən əsas problem olan Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmalıdır. Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqları azad edilməlidir. Yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz evinə-obasına qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Ümumiyyətlə, biz bölgəmizdə sülhün, əmin-amanlığın yaranması üçün çalışırıq.

Bütün bu ali məqsədlərə nail olmaq üçün Azərbaycanda milli birlik, milli həmrəylik, vətəndaş həmrəyliyi lazımdır. Hər bir vətəndaş, hər bir siyasi-ictimai təşkilat, hər bir siyasi partiya bu ali məqsədlərin həyata keçirilməsi üçün öz səylərini göstərməlidir və əməkdaşlıq etməlidir. Ona görə də mən bütün qüvvələri, xüsusən müxalifət düşərgəsində olan qüvvələri bir daha milli həmrəyliyə dəvət edirəm. Onlar bəzən dialoq bəyan edirlər. Mən onları dialoqa da dəvət edirəm. Müstəqil Azərbaycanın bu günü və gələcəyi naminə Azərbaycanın Konstitusiyası, qanunları çərçivəsində bütün işlərin sivil normada, sivil şəraitdə həyata keçirilməsinə dəvət edirəm. [32-33] Mən sizin sualınızdan istifadə edib özümün bir neçə fikrimi də bildirdim.

**S u a l** *(Naxçıvan» qəzeti)*: **Cənab prezident, biz Sizi prezident seçkilərinin demokratik və müvəffəqiyyətlə keçirilməsi münasibətilə təbrik edirik.**

**Sizə belə bir sualım vardır. Biz jurnalistlər prezident seçkiləri günü onlarca seçki məntəqələrində olduq. Yəqin ki, hamımız seçkilərin demokratik, tam azad şəraitdə keçdiyinin şahidiyik. Bundan əlavə, partiya rəhbərləri ilə, eləcə də beynəlxalq müşahidəçilərlə söhbətlərdə bu fakt bir daha vurğulandı və təsdiqləndi. Lakin bununla bərabər, müxalifət mətbuatı və onların təsiri altında olan bəzi beynəlxalq müşahidəçilər seçkilərin guya qeyri-demokratikliyi barədə fikir yayırlar. Sizin buna münasibətiniz necədir?**

**Bir də bizim üçün bilmək maraqlı olardı ki, beynəlxalq müşahidəçilərin seçkilər barədə bu və ya digər fikirləri, yəni müsbət və mənfi fikirləri Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasına nə dərəcədə təsir göstərə bilər?**

**C a v a b**: Mən hesab edirəm ki, Azərbaycanda oktyabr ayının 11-də prezident sekiləri mütəşəkkil keçirilibdir, seçicilərin yüksək fəallığı şəraitində keçibdir və demokratik şəraitdə, demokratik prinsiplər əsasında keçirilibdir. Azərbaycanda indiyə qədər keçirilmiş bütün seçkilərlə müqayisə ediləndə bu seçkilər onlardan çox yüksək səviyyədədir, çox fərqlənir və məhz özünün demokratikliyi, mütəşəkkilliyi, sərbəstliyi, azadlığı ilə fərqlənir.

Mən əvvəldə dedim, - Azərbaycanda demokratiya gəncdir. Əgər Azərbaycanın seçiciləri oktyabrın 11-də böyük fəallıqla seçki məntəqələrinə gəlib öz səslərini veriblərsə, bu, artıq göz qabağındadır. Bu, özü-özlüyündə artıq böyük nailiyyətdir.

Müxalifətin bu barədə fikirlərinə gəldikdə, şübhəsiz, təəssüflər olsun ki, müxalifət qüvvələri çox vaxt müxalifət ol[33-34]duqlarına görə yox, qərəzli mövqe tutduqlarına görə bu məsələlərə obyektiv, ədalətli qiymət vermirlər.

Xarici müşahidəçilərin fikirlərinə gəldikdə isə, şübhəsiz, bunlar bizim üçün çox əhəmiyyətlidir. Xarici ölkələrdən çox sayda - yüzlərlə müşahidəçinin Azərbaycanda olması özü-özlüyündə çox əlamətdar hadisədir. Mən ümid edirəm ki, onlar ədalətli, obyektiv olacaqlar. Əgər kimsə belə mövqedə, yəni ədalətli olmasa - nə deyə bilərik, - buna ancaq təəssüf etmək olar.

Biz Azərbaycanın Avropa Şurasına daxil olması üçün son illərdə çox iş görmüşük. Avropa Şurasının nümayəndələri dəfələrlə Azərbaycanda olublar və gördüyümüz işləri yüksək qiymətləndiriblər. Prezident seçkilərinin demokratik keçirilməsi ilə əlaqədar da biz Avropa Şurasına daxil olmaq üçün yeni tutarlı bir addım atmışıq. Ümid edirəm ki, Azərbaycan Avropa Şurasına daxil olacaqdır. Avropa Şurasının üzvü olmaq vacibdir, çünki Azərbaycan Avropanın ən şərqində, sərhədində, çox mühüm bir bölgədə yerləşən və xüsusi əhəmiyyətə malik olan bir ölkədir.

Bizim gördüyümüz işlər məlumdur. Bütün dünyanın şərqində, müsəlman dövlətləri içərisində Azərbaycan ölüm hökmünü ləğv edən yeganə ölkədir. Bunun özü demokratiyaya, humanizmə, insan haqlarına Azərbaycanın nə qədər hörmət etdiyini və sədaqətli olduğunu göstərir. Güman edirəm ki, Avropa Şurası bunların hamısını nəzərə alacaqdır.

**S u a l: Cənab prezident, mən Türkiyənin «Sabah» qəzetindənəm. Biz seçkiləri izlədik. Seçkilərin nəticəsi hələ tam məlum deyildir. Sizə gələn məlumatlara əsasən nə qədər səs aldığınızı deyə bilərsinizmi?**

**C a v a b:** Aldığım məlumatlara görə mən 75 faiz səs almışam.

**S u a l: Cənab prezident, mən də Türkiyədənəm. Siz xalqınızı milli birliyə və vətəndaş həmrəyliyinə çağırırsınız. Siz yeni[34-35]dən prezident seçildiyinizə görə Azərbaycanı bütün müxalifət qüvvələri ilə birlikdə daha da inkişaf etdirmək istəyirsiniz?**

**C a v a b:** Bilirsiniz ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra ağır və çətin bir yol keçmişdir. Məlumdur ki, keçmiş illərdə də ölkəmizin daxilində Azərbaycanın müstəqilliyini dağıda, poza bilən hadisələr olmuşdur, dövlət çevrilişinə cəhdlər edilmişdir. Biz bunların hamısının qarşısını ala bilmişik. Ancaq bunların hamısı xalqımıza çox zərər veribdir, daha doğrusu, necə deyərlər, baha başa gəlibdir. Ona görə də bizə milli birlik daim - bu gün də, gələcəkdə də lazımdır.

Bilirsiniz ki, radikal müxalifət düşərgəsində olan qüvvələr Azərbaycanda prezident seçkilərində iştirak etmədilər. Onlar cürbəcür iddialar irəli sürürdülər və öz qəzetlərində bəzən hakimiyyəti zorla ələ keçirmək fikirlərini bəyan edirdilər. Mən belələrini qanunsuz hərəkətlərdən çəkindirmək istəyirəm. Eyni zamanda, milli birlik deyərkən bütün müxalifət qüvvələrinə, radikal müxalifət düşərgəsində olanlara da məsələlərin hamısının danışıq, dialoq vasitəsilə həll edilməsini məsləhət görürəm.

**S u a l** (*Türkiyənin «Nərgiz TV» kanalı*): **Cənab prezident, Azərbaycanda keçirilmiş prezident seçkiləri Türkiyədə böyük diqqətlə izlənilmişdir. Amerikanın «Nyu-York Tayms» qəzeti Xəzərin Azərbaycan sektorundan hasil olunan nefti dünya bazarına çıxaracaq əsas boru kəmərini – Bakı–Ceyhan xəttinin guya çox baha başa gələcəyi haqqında məqalə dərc etmişdir. Bu da Türkiyədə müəyyən narahatlıq doğurmuşdur. Türkiyənin prezidenti Süleyman Dəmirəl bu barədə öz fikirlərini bildirmişdir. Sizcə, Bakı–Ceyhan boru xəttinin çəkilməsi barədə oktyabr ayının sonunadək qəti qərar qəbul ediləcəkmi?**

**C a v a b:** Mətbuat azaddır, qəzetlər istədiklərini yazırlar. Ona görə də hər bir qəzetdə, o cümlədən «Nyu-York Tayms»da dərc olunan bir yazı heç də hansısa bir dövlətin [35-36] fikrini ifadə etmir. Azərbaycanda prezident seçkilərindən bir gün əvvəl «Nyu-York Tayms» qəzetində verilmiş bu yazı bəlkə də təsadüf, yaxud da qəsdən yazılıbdır. Mən bu barədə bir şey deyə bilmərəm.

Ancaq mən onu bir daha bildirmək istəyirəm ki, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil ediləcək neftin dünya bazarlarına çıxarılması üçün Bakı- Ceyhan boru xəttinin çəkilməsi haqqında Azərbaycan dövləti və bir prezident kimi, mən öz fikrimizi dəfələrlə bildirmişik. Mənim bu fikrim, qərarım dəyişməyibdir.Mən bunu bu gün bir daha bəyan edirəm. İnanmıram ki, Amerika Birləşmiş Ştatlarının hökuməti Bakı–Ceyhan boru xəttinin çəkilməsinə dair əvvəl aparılmış danışıqlar barədə öz fikrindən geri çəkilsin.

Bilirsiniz ki, dünyada Bakı–Ceyhan xəttinin əleyhinə olan ölkələr, qüvvələr də çoxdur. Bəzi neft şirkətləri də bu məsələnin həll olunmasında iqtisadi maraqları başqa maraqlardan daha üstün tuturlar. Ona görə də, ola bilər, ayrı-ayrı şirkətlər bu barədə müxtəlif fikirlər söyləsinlər. Ancaq mən hesab edirəm ki, bizim əvvəl apardığımız danışıqlar və birgə qəbul etdiyimiz qərar dəyişilməyəcəkdir. Mən ümid edirəm ki, biz oktyabr ayının sonunadək bu məsələnin həllinə nail olacağıq.

**S u a l** (*Yaponiyanın «NHK» teleşirkəti*): **Cənab prezident, mən öz sualımda iki məqama toxunmaq istəyirəm. Birinci sualım diplomatiya ilə əlaqədardır. Məlumdur ki, dünyanın bir çox ölkələri, o cümlədən Yaponiya Azərbaycanın strateji cəhətdən əhəmiyyətinə böyük maraq göstərir. Bizim hətta xüsusi Qafqaz diplomatiyamız da vardır. Cənab prezident, Siz dünya ölkələri ilə əlaqələri necə inkişaf etdirmək fikrindəsiniz?**

**İkinci sualım isə belədir: Siz Azərbaycanın iqtisadiyyatını XXI əsrdə necə inkişaf etdirməyi planlaşdırırsınız? Mən Azərbaycanın xarici investisiya vasitəsilə inkişafını nəzərdə tuturam.** [36-37]

**C a v a b:** Yaponiya ilə Azərbaycan arasında son illərdə çox yaxşı əlaqələr yaranıbdır. Biz iqtisadi sahədə əməkdaşlıq edirik.

Mən 1998-ci ilin fevralında Yaponiyanın Baş naziri cənab Haşimotonun dəvəti ilə Yaponiyada rəsmi səfərdə oldum. Biz hökumətlərarası bir neçə vacib müqavilələr imzaladıq. Mən Yaponiyanın işgüzar dairələrinin, şirkətlərinin nümayəndələri, rəhbərləri ilə çoxsaylı görüşlər keçirdim. Yaponiyanın böyük şirkətlərinin, işgüzar dairələrinin Azərbaycana həddindən artıq böyük marağı olduğunu hiss etdim.

Yaponiyanın şirkətləri Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənilməsinə çox böyük maraq göstərirlər. Bilirsiniz ki, Yaponiyanın «İtoçu» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə bir sıra xarici şirkətlər arasında imzalanmış iki müqavilənin iştirakçısıdır. Mən Tokioda olarkən biz üçüncü müqaviləni də imzaladıq, bu ölkənin «Mitsui» şirkəti yeni bir müqavilədə özünəməxsus pay aldı. Bir qrup şirkətlər konsorsium yaradıblar, Xəzər dənizindəki digər neft yataqlarının birgə işlənilməsi üçün bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz hazırda onların təkliflərinə baxırıq.

Bilirsiniz ki, Azərbaycan böyük neft - kimya sənayesinə malikdir. Yaponiyanın «Niçimen» şirkəti bu sahədə bizimlə çox sıx əməkdaşlıq edir. Sumqayıtda etilen istehsalının yenidən qurulması və yaradılması üçün «Niçimen» şirkəti ilə Azərbaycanın «Azərikimya» Dövlət Şirkəti arasında müqavilə imzalanıbdır. Bu məsələ ilə əlaqədar Yaponiya Azərbaycana 90 milyon ABŞ dolları məbləğində kredit ayırıbdır. Yaponiya hökuməti Azərbaycanda «Şimal» elektrik stansiyasının yenidən tikilməsi üçün Azərbaycana 160 milyon

ABŞ dolları məbləğində güzəştli kredit ayırıbdır. Bu elektrik stansiyasının tikilməsi ilə «Mitsui» şirkəti məşğul olacaqdır. Ümumiyyətlə, qısa bir zamanda Yaponiya ilə Azərbaycan [37-38] arasında çox yaxşı iqtisadi əməkdaşlıq yaranıbdır. Biz bundan çox məmnunuq və bu əməkdaşlığı davam etdirəcəyik. Hesab edirəm ki, bunun çox gözəl gələcəyi vardır.

Sizin ikinci sualınıza cavab verərək deyirəm ki, mən XXI əsrdə Azərbaycanın çox yaxşı gələcəyini gözləyirəm. Mən onu da nəzərə alıram ki, Azərbaycan bir müstəqil dövlət kimi inkişaf edəcəkdir. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar öz nəticəsini verəcəkdir. Xaricdən Azərbaycana investisiya axını davam edəcəkdir. Bunların hamısının nəticəsində Azərbaycanın gəlirləri xeyli artacaq, iqtisadiyyatı inkişaf edəcək və insanların rifah halı yaxşılaşacaqdır.

S u a l (*«Yeni Azərbaycan» qəzeti*): **Cənab prezident, Siz prezidentliyə namizədlərin hamısının qibtə edəcəyi və hamıya örnək ola biləcək bir seçki kampaniyası keçirdiniz. Bu kampaniyanın ən yaddaqalan hadisələrindən biri də Sizin qaçqınlarla görüşləriniz oldu. Qaçqınlarla Bərdədə keçirdiyiniz görüş zamanı Siz onların vəziyyətinin yaxşılaşdırılması üçün görüləcək əlavə tədbirlərdən danışdınız. Deyə bilərsinizmi, bu tədbirlər nədən ibarət olacaqdır**?

C a v a b: Bilirsiniz ki, mən seçkiqabağı ərəfədə iki həftə, 15 gün ərzində demək olar, hər gün Azərbaycanın müxtəlif bölgələrində seçicilərlə görüşmüşəm. Bu görüşlərin hamısı mənim üçün çox əhəmiyyətli, qiymətli idi. Mənim üçün ən əhəmiyyətli, ən qiymətli görüşlər işğal olunmuş torpaqlardan zorla qovulmuş, çıxarılmış insanlarla çadır düşərgələrində, onların yaşadıqları yerlərdə keçirdiyim görüşlərdir. Mən Azərbaycandakı çadır düşərgələrinin demək olar ki, əsas hissəsini ziyarət etdim, qaçqınlarla, köçkünlərlə görüşüb, onlarla danışıq apardım.

Mən bilirdim, ancaq onların vəziyyətini gördəndən sonra bir daha belə fikrə gəldim ki, biz qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün ciddi əlavə tədbirlər görməliyik. Şübhəsiz, bizim əsas vəzifəmiz və məqsədimiz işğal olunmuş torpaqları [38-39] azad etmək, qaçqınları öz evlərinə, doğma torpaqlarına qaytarmaqdır. Biz o vaxta qədər onların yaşayış şəraitini, maddi vəziyyətini xeyli yaxşılaşdırmalıyıq. Tədbirlər geniş və müxtəlif olacaqdır. Güman edirəm ki, bunların hamısını burada demək vaxt apardı. Ancaq mən bunu qəti bəyan etmişəm və bu gün bir daha təsdiq edirəm ki, biz bu tədbirləri həyata keçirəcəyik və onların vəziyyətinin yaxşılaşdırılmasına nail olacağıq.

S u a l *(Frans Press Agentliyi)*: **Cənab prezident, Siz beynəlxalq müşahidəçilərin verdikləri qiymətin ədalətli və obyektiv olmasını istəyirsinizmi**?

**Mən istərdim biləm, - Sizin məhz ATƏT-in, Avropa Şurasının və Beynəlxalq Respublika İnstitutunun müşahidəçilərinin verdikləri qiymətə münasibətiniz necədir? Siz onları dəvət etmisiniz və onlar beynəlxalq müşahidəçilərin əksəriyyətini təşkil edirlər. Onlar bildirirlər ki, bir çox hallarda, xüsusən icra hakimiyyəti orqanları tərəfindən kobud pozuntulara yol verilmişdir. Sizcə, bu, seçkilərin nəticələrinə necə təsir göstərəcəkdir**?

C a v a b: Bilirsiniz, seçkilərin ədalətli, demokratik prinsiplər əsasında keçməsi, heç bir pozuntunun olmaması üçün hər şey etmişik. Əgər kimsə, haradasa, hansısa pozuntuya yol veribsə, bu, seçkilərə qiymət verməyə əsas deyildir. Azərbaycanda 4400 seçki məntəqəsi var. Azərbaycan bu səviyyədə seçkiləri, demək olar, birinci dəfədir keçirir. Hesab edirəm ki, seçkilərin özünün baş tutması Azərbaycanda demokratiyanın böyük müvəffəqiyyətidir.

Sizin dediyiniz müxtəlif müşahidəçilərin rəyinə gəldikdə isə, əlbəttə, hər kəs öz fikrini düşündüyü kimi deyə bilər. Mən hesab edirdim ki, onlar daha obyektiv qiymət verə bilərdilər. O ki qaldı seçkilərin nəticələrinə, bunu Mərkəzi Seçki Komissiyası elan edir. Yəni bu, nə məndən, nə də müşahidəçilərdən asılı deyildir. Bunu Mərkəzi Seçki Komissiyası müəyyən edir. [39-40] O, xüsusi olaraq seçkilərin keçirilməsi və onun nəticələrinin müəyyən edilməsi üçün yaradılmışdır.

S u a l *(Türkiyənin «Kanal -6» televiziya kanalı)*: **Cənab prezident, Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov bugünkü mətbuat konfransında Sizin bütün səslərin üçdə ikisini aldığınızın elan olunacağı və Sizin cümhur başqanı elan ediləcəyiniz təqdirdə Konstitusiya Məhkəməsinə müraciət edəcəyini və burada onun müraciətinə baxılmazsa, Sizin prezidentliyinizi tanımayacağını söylədi. Bu barədə nə deyə bilərsiniz**?

**Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illiyində Azərbaycanın Bakı–Ceyhan neft kəməri haqqında sənəd imzalanması söylənilir. Bu barədə oktyabrın sonunda hər hansı bir sənəd imzalanacaqmı**?

C a v a b: Prezidentliyə namizəd Etibar Məmmədovun seçkilərin nəticəsi haqqında dediyi sözlər onun öz fikridir. O, prezidentliyə namizəd kimi istədiyi sözü deyə bilər və istədiyi hərəkəti də edə bilər. Ancaq hansısa bir dövlət orqanını, hansısa bir kəsi öz iradəsinə tabe edə bilməz.

Siz deyirsiniz, o bəyan edib ki, Heydər Əliyevin prezidentliyini tanımayacaq, - bu da onun öz işidir. Əgər Azərbaycanın seçiciləri səs çoxluğu ilə Heydər Əliyevi prezident seçiblərsə və Mərkəzi Seçki Komissiyası belə bir nəticəyə gəlmiş olsa, onda Etibar Məmmədovun fikri o seçicilərin ümumi fikrinin yanında heç bir şeydir.

Mən artıq Bakı–Ceyhan boru xətti haqqında dedim. Bilirəm ki, oktyabr ayının sonunda Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyi olacaqdır. Mən çox arzu edərdim ki, o vaxta qədər Bakı–Ceyhan boru xətti haqqında qərar qəbul edilsin.

**S u a l** *(«525-ci qəzet»):* **Cənab prezident, Siz bir az bundan əvvəlki çıxışınızda həmrəylik məqsədi ilə müxalifəti dialoqa çağırdınız. Ancaq məlum olduğu kimi, müxalifətin tələblərindən biri də siyasi məhbusların azadlığa buraxılması ilə bağlıdır.** [40-41] **Hakimiyyətinizin yeni mərhələsində bu məsələyə baxılması nə dərəcədə realdır?**

**C a v a b:** Sualınıza cavab verərək bəyan edirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur. Cinayət etmiş adamlar məhkəmə ilə cəza alırlar və məhkəmənin qərarını da məhkəmə özü dəyişə bilər. Mən isə son iki ildə çox humanist addımlar atmışam.

Birincisi, - dedim, yenə təkrar edirəm, - ölüm hökmünü Azərbaycanda ləğv etmişəm. Son iki ildə iki minə qədər cəza çəkən insanı cəzadan azad etmişəm, yəni bir prezident kimi, öz fərmanlarımla əfv etmişəm. Cəzaya məhkum olunmuş 40 minə qədər Azərbaycan vətəndaşları mənim təşəbbüsümlə qəbul edilmiş amnistiya vasitəsilə cazadan azad olunublar. Mən bundan sonra da bu humanistlik fəaliyyətimi davam etdirəcəyəm. Düşünürəm ki, bu yaxın zamanlarda yenidən amnistiya keçirilməsi haqqında təşəbbüs edəcəyəm. Əgər o müxalifətin dediyi adamlar bu amnistiyaya düşərlərsə, şübhəsiz ki, azad olunacaqlar. Ancaq yenə də deyirəm, Azərbaycanda siyasi məhbus yoxdur.

**S u a l** *(«Azadlıq» radiostansiyası, «Literaturnaya qazeta», «Obşaya qazeta»):* **Seçkilərin nəticələri elan edildikdən sonra və Siz ikinci müddətə prezident seçildiyiniz təqdirdə icra hakimiyyətinin yeni strukturunu və yeni Nazirlər Kabinetini formalaşdırmaq niyyətiniz varmı, yoxsa köhnə komanda ilə işləməyi lazım biləcəksiniz?**

**İkinci sual. Əgər yeni Nazirlər Kabineti formalaşdırılacaqsa, seçkilərdə Sizdən sonra daha çox səs toplamış namizədlərə bu işdə əməkdaşlıq təklif edəcəksinizmi?**

**C a v a b:** Siz mənim fəaliyyətimi bir çox illərdir ki, izləyirsiniz və yəqin hiss edirsiniz ki, mən hökuməti , icra hakimiyyəti orqanlarını silkələməyin və kadrları tez-tez dəyişməyin tərəfdarı deyiləm. Çoxillik təcrübəm məni inandırır ki, bəzi liderlərin nümayişkaranə şəkildə gördükləri belə tədbirlər [41-42] praktiki nəticələr vermir. İcra hakimiyyəti orqanlarının işini daim təkmilləşdirmək lazımdır. İcra hakimiyyəti orqanlarının təkmilləşdirilməsi zərurəti, şübhəsiz ki, ayrı-ayrı kadrların dəyişdirilməsinin mümkünlüyünü də müəyyən edir.

Mənim qarşımda yeni Nazirlər Kabineti formalaşdırmaq məqsədi və vəzifəsi də durmur. Təcrübə toplamış, işləyən, özü də pis işləməyən adamları nə üçün dəyişməliyəm? Təkmilləşdirmə prosesidir, şübhəsiz ki, bu gün öz vəzifəsinin öhdəsindən gələ bilməyənlər dəyişdirilməlidir.

Məndən sonra müəyyən sayda səs toplamış insanlardan istifadə edib-etməyəcəyim barədə sualınıza gəldikdə isə, bilirsiniz, bu səslər hələ həmin adamların hazırda icra orqanlarında hansısa yüksək vəzifələr tutmağa qadir, yararlı olmasını müəyyən etmir.

**S u a l** *(Azərbaycan televiziyası):* **Son günlər kütləvi informasiya vasitələri belə bir məlumat yayır ki, Ermənistan Dağlıq Qarabağın «müstəqilliyinin» tanınması, Ermənistana birləşdirilməsi haqqında iddialardan əl çəkir. Bunu onunla əsaslandırırlar ki, bu, Ermənistanın ziyanınadır, ona görə də Azərbaycanla əməkdaşlığa qoşulmaq istəyirlər. Ermənistanın mövqeyindəki belə kəskin dəyişikliyi necə izah edərdiniz?**

**C a v a b:** Bəli, son aylar Ermənistanın liderləri bəyan edirlər ki, onlar Dağlıq Qarabağın «müstəqilliyi» məsələsini də qoymur və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini də irəli sürmürlər. Bu barədə Ermənistanın prezidenti və Baş naziri mənimlə görüş zamanı bilavasitə mənə də demişdilər. Ancaq onlar mənim sualıma dürüst cavab verə bilmirlər: Bəs onda nə istəyirlər? Çünki indiyə qədər onlar deyirdilər ki, «Dağlıq Qarabağ müstəqil olmalıdır». Demək, əgər onlar artıq Dağlıq Qarabağın «müstəqilliyini» tələb etmirlərsə, ATƏT-in zirvə görüşündə qəbul olunmuş prinsiplərlə, yəni, Azərbaycanın tərkibində Dağlıq Qarabağın özünüidarə statusu alması ilə razılaşmalıdırlar. Şübhəsiz ki, bütün [42-43] bu sözlər Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli çərçivəsində gedən danışıqların bir hissəsidir. Ancaq Ermənistan tərəfinin verdiyi bəyanatları reallaşdırmaq üçün şübhəsiz ki, konkret tədbirlər görmək lazımdır. Güman edirəm ki, gələcək danışıqlarda bu məsələləri daha da aydınlaşdıracağıq.

**S u a l** *(«Ayna-Zerkalo» qəzeti):* **Cənab Əliyev, ötən prezident seçkiləri ilə müqayisədə Sizin xeyrinizə olan səslərin sayı bir qədər aşağı düşübdür. Sizcə, bu, demokratiyanın təzahürüdür, yoxsa Sizin reytinqinizin aşağı düşməsi ilə bağlıdır?**

**Bir də, Siz bəyan etdiniz ki, komandanızda dəyişiklik etməyəcəksiniz, çünki komandanız kifayət qədər mütəşəkkildir. Lakin sirr deyil ki, Sizin komandaya daxil olan bəzi şəxslər bir-birini korrupsiyada və digər cinayətlərdə ittiham edirlər. Buna Sizin münasibətiniz necədir?**

**C a v a b:** Mən hesab edirəm ki, 1993-cü ildəki prezident seçkilərinin də, indiki - 1998-ci ildəki prezident seçkilərinin nəticəsi də Azərbaycanda demokratiyanın varlığını təsdiq edir. Mənim reytinqimə gəldikdə isə, hesab etmirəm ki, o, aşağı düşübdür və seçkilərin nəticəsini bununla bağlamaq olmaz.

İkinci suala da cavab verirəm. Deyirsiniz ki, guya hakimiyyətdə olan adamların bəziləri bir-birini korrupsiyada günahlandırırlar. Təəssüf ki, bu, Azərbaycanda çox geniş bir dəb olubdur, indi hər bir adam o birisini korrupsiyada günahlandırır. Ən qəribə hal odur ki, özləri uzun müddət korrupsiya ilə, rüşvətxorluqla məşğul olmuş adamlar başqalarını belə günahlarda təqsirləndirirlər. Ancaq qanun tələb edir ki, hər bir kəsi nədəsə günahlandıran gərək bunu qanunla sübut etsin.

Mən inkar eləmirəm, Azərbaycanın bugünkü icra orqanlarında olan insanların içərisində rüşvətxorlar da, korrupsiya ilə məşğul olanlar da var. Mənim qarşımda duran vəzifələr[43-44]dən biri də ondan ibarət olacaq ki, Azərbaycanda korrupsiya ilə mübarizəni gücləndirəm. Şübhəsiz ki, bu mübarizə korrupsiya ilə məşğul olan adamların aşkara çıxarılmasını və cəzalandırılmasını təmin edə biləcəkdir.

**S u a l** (*Türkiyənin «İhlas» xəbər agentliyi*): **Cənab prezident, PKK qrupu Ermənistanda öz təmsilçilərini saxlayır. Ermənistan dövləti bu işlərdə onlara yardımçı olur.**

**C a v a b**: Mənim buna münasibətim həmişə aydındır. PKK-ya kim havadarlıq edirsə, kim onları gizlədirsə, saxlayırsa, şübhəsiz ki, belələri ilə heç vaxt barışmaq olmaz. Bütün bunlara mənim münasibətim tam mənfidir.

**S u a l** (*Yaponiya televiziyası*): **Mən əvvəl verdiyim, diplomatiya haqqında olan suala qayıtmaq istəyirəm. Siz Amerika Birləşmiş Ştatları və Rusiya ilə əlaqələri necə qurmaq istəyirsiniz? Bir sualım da var. Məlumdur ki, seçki kampaniyası başa çatıb və siz praktiki olaraq qələbənizi təmin etmisiniz. İndi hansı şəxsi hissləri keçirirsiniz?**

**C a v a b**: Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında çox sıx əməkdaşlıq, tərəfdaşlıq əlaqələri yaranıbdır və şəxsən mən bundan sonra da bu əlaqələrin dərinləşməsini və inkişaf etməsini arzu edirəm və biz bu istiqamətdə hərəkət edəcəyik. Rusiya ilə Azərbaycan arasındakı əlaqələr də dostluq, əməkdaşlıq xarakteri daşıyır və bundan sonra bu əlaqələri də inkişaf etdirəcək və genişləndirəcəyik.

Ümumiyyətlə, müstəqil dövlət olaraq Azərbaycan dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurur, yaradır və inkişaf etdirir, xüsusən iqtisadi əməkdaşlığa çox böyük əhəmiyyət verir.

Seçkilərdən sonra mənim şəxsi hisslərimi yəqin siz özünüz də təsəvvür edə bilərsiniz. Bu seçkilər çox demokratik olduğuna və çox böyük mübarizə tələb etdiyinə görə, şübhəsiz ki, məndən çox böyük enerji tələb etmişdir. Son on-on beş gün içərisində mən Azərbaycanın bütün bölgələrini, çox vaxt [44-45] da avtomobillə gəzmişəm. Elə olurdu ki, bir gündə altı-yeddi görüş keçirir və bir şəhərdən o birisi şəhərə gedirdim. Hətta gecələr də yatmırdım.

Bunlar öz nəticəsini verdi. Prezident seçkiləri baş tutdu, mən də prezident seçilmişəm. Şübhəsiz ki, indi daha da rahatam. Ancaq mən indi bugünkü, gələcək işlərlə məşğulam. Bir dəqiqə də olsun fasilə vermirəm.

**S u a l** (*«Azad Azərbaycan» radiostansiyası*): **Cənab prezident, 1993-cü ildə Siz xalqın tələbi ilə hakimiyyətə gələndə müxalifəti hakimiyyətdə təmsil olunmaq üçün dəvət etmişdiniz. Bu seçkilərdə 75 faiz səs toplamaqla hakimiyyətə gəlibsiniz. Prezident seçkilərində iştirak edən namizədləri, sağlam müxalifəti işləməyə dəvət edəcəksinizmi?**

**C a v a b**: Siz bilirsiniz ki, mən 1993-cü ildə hakimiyyətə gələndə heç kəsə fərq qoymadım. Kim işi bacarırdısa, onları da işə cəlb etdim. Hətta məndən öncə, keçmiş hakimiyyət dövründə işləyən adamların da çoxunu işdə saxladım və onların bir çoxu indiyə qədər də mənimlə işləyirlər. Bəziləri özləri işləmək istəmədilər, vəzifələrini «dondurdular», yaxud qaçdılar, gizləndilər, - bu, onların öz işidir.

Azərbaycanın prezidenti kimi, mən bu gün də dövlət işində işləməyə və dövlətə, cəmiyyətə fayda verməyə qadir olan hər bir insanı dövlət, hökumət işinə cəlb etməyə hazıram.

**S u a l** (*«7 Gün» qəzeti*): **Hörmətli Heydər Əliyev, Mərkəzi Seçki Komissiyası seçkilərdən əvvəl bayan etmişdi ki, 8 ölkədə Azərbaycan vətəndaşlarının səsvermədə iştirakı üçün şərait yaradılmışdır. Ancaq üç ölkədə - Rusiyada, Türkiyədə və Ukraynada bu şəraitin yaradılmasını mümkünsüz bilmişdir. Yəni, belə izah edirdi ki, Türkiyədə on minlərlə, Ukraynada da bu qədər, Rusiyada isə 2 milyondan artıq azərbaycanlı olduğu üçün bu, mümkün deyildir. Həmin dövlətlərdə azərbaycanlıların seçkilərə qatılmasını necə qiymətləndirirsiniz?** [45-46]

**İkinci sual. Dəfələrlə dediyiniz və bizim də şahidi olduğumuz kimi, 1993-cü ildə xalqın tələbi ilə, vətəndaş müharibəsinin qarşısını almaq məqsədi ilə Bakıya gəlmişdiniz. Əgər indi xalqın əksəriyyəti Sizin istefanız tələbini qoysa, bununla razılaşarsınızmı?**

**C a v a b**: Bilirsiniz, ümumiyyətlə, ictimaiyyətin ağzına bəzi ifadələr düşüb və çoxları da mənasına varmadan onu təkrar edirlər. Məsələn, deyirlər ki, Rusiyada 2 milyon azərbaycanlı var. Birincisi, bunu kim sayıbdır? İkincisi, əgər Rusiyada bir belə azərbaycanlı varsa, demək, onlar Rusiyanın vətəndaşlarıdır. Biz Rusiya vətəndaşlarını Azərbaycanda seçkilərdə iştirakamı dəvət edəcəyik? Qonşu Gürcüstanda, bizim sərhədimizdə, Qazax rayonu ilə yanbayan - Borçalı diyarında beş yüz min, yarım milyon azərbaycanlı yaşayır. Amma bunlar Gürcüstan vətəndaşlarıdır. Televiziya ilə gördünüz - oktyabr ayının 7-də mən oraya, Gürcüstan ərazisinə getmişdim, prezident Şevardnadze ilə görüşürdüm, orada körpünün açılışında iştirak edirdik. Oraya toplaşanların əksəriyyəti azərbaycanlılar, amma Borçalıda, Gürcüstanda yaşayan azərbaycanlılar idi. Onlar deyirdilər ki, biz Heydər Əliyevə səs veririk. Mən sizi inandırıram, Qazax rayonundan o tərəfə bir məntəqə yaradılsaydı, orada hamı gəlib səs verə bilərdi, əksəriyyəti də Heydər Əliyevə səs verərdi. Ancaq bunu etmək mümkün deyil, çünki onlar Gürcüstan vətəndaşlarıdır.

Yaxud, Dağıstanda 150 min azərbaycanlı yaşayır. Onların da çoxu Dərbənddə, bizim Qusar, Xaçmaz rayonlarımızın yaxınlığında yaşayır. Onlar da bizim seçkilərdə məmnuniyyətlə iştirak edə bilərdilər. Ancaq bu, mümkün deyil, çünki Rusiya vətəndaşlarıdır.

Bu gün səhər mən televizora baxırdım. Azərbaycana gəlmiş bir azərbaycanlı Xarkovda «Ocaq» cəmiyyətinin başçısıdır. O deyirdi ki, Xarkovda 30 min azərbaycanlı yaşayır. Amma onların tam əksəriyyəti Ukrayna vətəndaşıdır.

Bu ölkələrdə, o cümlədən Türkiyədə yaşayan Azərbaycan vətəndaşlarının seçkidə iştirakını Mərkəzi Seçki Komissiyası imkan dairəsində təmin etmişdir. [46-47]

İkinci sualınız isə bir az gülməlidir. Çünki seçki keçirilib, seçicilərin 75 faizi mənə səs veribdir və mən prezident seçilmişəm. Belə halda mənə sual verirsiniz ki, əgər Azərbaycan əhalisinin əksəriyyəti tələb etsə, istefa verərsinizmi? Bu, gülməli bir şeydir.

Təşəkkür edirəm. Sağ olun, gələn görüşlərə qədər. [47]

## MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*15 oktyabr 1998-ci il*

**H e y d ə r   Ə l i y e v**: Xoş gəlmişsiniz. Sizi Bakıda görməyimə çox şadam. Əminəm ki, bu dəfə də rəssamlıq məharətinizlə, gözəl tablolarınızla bizi sevindirəcəksiniz.

**N i k a s   S a f r o n o v**: Sağ olun, cənab prezident. Mən bu yaxınlarda Azərbaycanın gözəl diyarı Naxçıvanda oldum. Və orada çəkdiyim şəkillərdən birini – «İlanlı dağ» əsərimi Sizə təqdim etmək istəyirəm.

**H e y d ə r   Ə l i y e v**: Çox sağ olun, siz məni olduqca məmnun etdiniz.

**N i k a s   S a f r o n o v**: İcazə verin tablonun arxasında yazdığım sözləri Sizə oxuyum: «Azərbaycan Respublikasının prezidenti, çox hörmətli və ürəkdən sevdiyim Heydər Əliyeviç Əliyevə və Azərbaycan üçün tarixi gün olan 1998-ci il 11 oktyabr - prezident seçkiləri günündə. Qoy bu şəkil Sizə olan insani rəğbətimizi və mənim Sizə olan sədaqətimi və ehtiramımı həmişə xatırlatsın. Sizin Nikas Safronov».

Hörmətli cənab prezident. Məni bu gün - seçkilərdən əvvəl buraya gətirən Sizə olan məhəbbət və rəğbətimdir.

**H e y d ə r   Ə l i y e v**: Çox sağ olun, mən də Sizi yalnız məharətli rəssam kimi deyil, eləcə də gözəl insani keyfiyyətlərə malik şəxs kimi qiymətləndirirəm.

**N i k a s   S a f r o n o v**: Cənab prezident. Mən bu seçkilərdə Sizin qələbənizə şübhə etmirəm. Sizi dahi insan hesab edi[48-49]rəm. Sizin kimi insanlar 100 ildə deyil, 1000 ildə bir dəfə doğulurlar. Bu böyük ölkəni düzgün seçim etməsi münasibətilə təbrik edirəm, mən özüm də buna şadam və sevinirəm.

**H e y d ə r   Ə l i y e v**: Seçkilərdəki qələbə ürəyimdəki məsuliyyət yükünü daha da artırır. Sizə isə xoş sözlərinizə görə təşəkkür edirəm. İndi isə istərdim ki, Naxçıvan təəssüratınızı bölüşdürəsiniz.

**N i k a s   S a f r o n o v**: Sözün düzü, mən bu diyara vurulmuşam. Onu İsveçrədən daha gözəl hesab edirəm. Tablonu çəkərkən keçirdiyim hissləri kətan üzərinə keçirməyə çalışırdım. Görürsünüz, tablonun mərkəzində buludların arasından süzülən günəş şüalarının işıqlandırdığı İlandağ əzəmətlə ucalır. Dağın ətəyində isə arxeoloji qazıntı işləri aparılır. Mən bu mənzərəni təsvir etməklə Sizin kimi böyük insanları dünyaya gətirən, xüsusi daxili enerjiyə malik Naxçıvan torpağının qədimliyini təsdiq etmək istəmişəm.

**H e y d ə r   Ə l i y e v**: Çox sağ olun, əziz cənab Safronov! Bu gözəl əsərinizə görə, eləcə də Naxçıvana gedərək, bu torpağın bütün gözəlliyini, əzəmətli dağlarını gördüyünüzə və əsərinizlə əbədiləşdirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

**N i k a s   S a f r o n o v**: Sözün doğrusu, bu cür dağlar nə Almaniyada, nə də İsveçrədə görmüşəm. Naxçıvanlılar öz dağları ilə çox fəxr edirlər. Mən ümidvaram ki, təkraredilməzliyi ilə məni də heyran qoymuş bu qədim diyarın gözəlliklərini mən yenə də vəsf edəcəyəm. «İlandağ» mənim Naxçıvan haqqında son əsərim olmayacaq.

**H e y d ə r   Ə l i y e v**: Mən də buna çox ümid edirəm. Bir daha Sizə təşəkkür edir, Sizi prezident seçilməyim münasibətilə oktyabrın 18-də keçiriləcək təntənəyə dəvət edirəm.

**N i k a s   S a f r o n o v**: Təşəkkür edirəm, hörmətli cənab prezident. Mən Sizin seçkilər ərəfəsində etdiyiniz səfərlərdən və keçirdiyiniz görüşlərdən xəbərdaram. Sizin gördüyünüz [49-50] işlərin öhdəsindən heç bir siyasətçi, heç bir insan gələ bilməz. Əgər dini mövzuda tablolar çəkən rəssam olsaydım, Sizi fövqəladə işlər, adi adamların görə bilmədikləri işləri görən müqəddəslər kimi təsvir edərdim.

**H e y d ə r   Ə l i y e v**: Bir daha Sizə təşəkkür edirəm. Sağ olun. Sizə işlərinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram və Sizi yenə də gözləyirəm. [50]

**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ VƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİ GÜNÜ ÖLKƏMİZİN AZADLIĞI, SUVERENLİYİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA HƏLAK OLMUŞ MƏRD MÜBARİZLƏRİN XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDƏRKƏN FƏXRİ QONAQLAR KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ**:

*18 oktyabr 1998-ci il*

*«Azərbaycanın müstəqilliyi, suverenliyi, milli azadlığı, ərazi bütövlüyü, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xatirəsi bizim qəlbimizdə, Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

*Azərbaycan Respublikasının Prezidenti*
*HEYDƏR ƏLİYEV»*

* * *

*Bakıya gəlmiş ABŞ-ın «Hollivud Media İnternəşnl» televiziya kanalının müxbirinin Şəhidlər xiyabanında sualına cavab.*

**S u a l**: **Cənab prezident, andiçmə günü nə üçün səhər buradan başlandı**?

**C a v a b**: Burada bizim milli azadlığımız, müstəqilliyimiz, suverenliyimiz uğrunla mübarizədə, ölkəmizin ərazi bütöv[51-52]lüyünün, doğma torpaqlarımızın qorunması uğrunda həlak olmuş övladlarımız uyuyur. Onlar öz igidlikləri ilə özlərinə abidə ucaltmışlar. Qədirbilən Azərbaycan xalqının yaratdığı bu memorial da onların bugünkü Azərbaycan naminə öz həyatlarını qurban vermələrinin qiymətləndirilməsinin rəmzidir.

Biz bu anları heç vaxt unutmayacağıq. Onların xatirələri daim bizim qəlbimizdə yaşayacaqdır. [52]

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı*

*18 oktyabr 1998-ci il*

Andiçmə mərasimində Heydər Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq dedi:
*– Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!*

Sonra prezident müqəddəs Qurani-şərifə əl basaraq dedi:
*– Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sadiq olacağıma, onları ümumbəşəri dəyərlərlə zənginləşdirəcəyimə və inkişaf etdirəcəyimə and içirəm!*

***

Əziz həmvətənlər!
Xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi səmimi qəlbdən salamlayıram, Azərbaycan prezidentinin andiçmə mərasiminə təşrif gətirdiyinizə görə təşəkkür edirəm. Azərbaycan xalqına, vətəndaşlarına məni yenidən Azərbaycan Respublikasının prezidenti seçdiklərinə görə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm. [53-54]

Müstəqil Azərbaycanın yenidən prezidenti seçilməyimdən qürur hissi keçirirəm və mənə göstərilən bu etimadı Azərbaycan prezidenti kimi, fəaliyyətimə verilən yüksək qiymət kimi dəyərləndirirəm.

İndicə Azərbaycan Respublikasının Konstitusiyasına, müqəddəs kitabımız Qurani-şərifə əl basaraq sizin qarşınızda, bütün Azərbaycan vətəndaşlarının qarşısında and içdim. Bəyan edirəm ki, mən andıma daim sadiq qalacağam və ömrümün sonuna qədər doğma vətənimiz Azərbaycana, millətimizə, xalqımıza sədaqətlə xidmət edəcəyəm.

Mənim Azərbaycan Respublikasının prezidenti seçilməyim münasibətilə bir çox ölkələrdən dövlət, hökumət başçıları, ictimai-siyasi xadimlər, elm-mədəniyyət xadimləri təbriklər göndərmişlər. Bütün bu təbriklərə görə təşəkkür edirəm.

Azərbaycan prezidentinin andiçmə mərasimində bilavasitə iştirak etmək üçün qonşu ölkələrdən yüksək səviyyəli dövlət nümayəndələri, dövlət başçıları respublikamıza gəlmişlər. Onlar bu gün bizimlə bir yerdədirlər, bu salondadırlar. Xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri də bizimlə bərabərdirlər. Azərbaycana çoxsaylı qonaqlar gəlmişlər. Azərbaycana gəlmiş bütün qonaqlara deyirəm: Xoş gəlmisiniz, səfa gətirmisiniz.

Mən bunları dostluğumuzun, əməkdaşlığımızın parlaq nümunəsi kimi qiymətləndirirəm. Qafqaz respublikalarının prezidentlərinin, dövlət başçılarının, nümayəndə heyətlərinin Azərbaycana gəlməsi və Azərbaycan prezidentinin andiçmə mərasimində bilavasitə iştirak etməsi böyük əhəmiyyət kəsb edir. Bu, Qafqaz xalqlarının birliyinin və həmrəyliyinin parlaq təzahürüdür, «Ümumi Qafqaz evi» ideyasının reallığını göstərir, Qafqaz xalqlarının, respublikalarının sıx əməkdaşlıq etmək əzmində olduğunu nümayiş etdirir, Qafqaz xalqlarının, respublikalarının bir-biri ilə daha da yaxın əlaqədə olmaq [54-55] istəyini nümayiş etdirir, Qafqazda sülhü, əmin-amanlığı təmin etmək arzularını ifadə edir.

Qafqazda sülhün yaranması, Qafqazın sülh bölgəsinə çevrilməsi, mövcud olan münaqişələrin aradan qaldırılması bütün Qafqaz xalqlarının, respublikalarının ən ümdə istəyi və arzusudur.

Qafqaz xalqlarının bu gün bir yerdə olması, Qafqaz respublikaları prezidentlərinin Azərbaycanda toplaşması bir daha onu göstərir ki, biz – Qafqaz xalqları, respublikaları sülh, əmin-amanlıq istəyirik və Qafqazı dünyanın ən möhkəm sülh və əmin-amanlıq olan bölgəsinə çevirmək istəyirik. Mən əminəm ki, hamımızın ümumi səylərimizlə biz buna nail olacağıq.

Əziz dostlar!

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti xalqın iradəsini ifadə edərək Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktını qəbul etmişdir və Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmişdir. Bu gün bu tarixi hadisənin yeddinci ildönümüdür. Bu, Azərbaycanın bayram günüdür. Bu bayram münasibətilə mən Azərbaycan xalqını, bütün vətəndaşlarımızı ürəkdən təbrik edirəm və Azərbaycana, xalqımıza müstəqillik yolunda yeni-yeni uğurlar arzulayıram.

1993-cü ildə Azərbaycan xalqı məni hakimiyyətə dəvət etdi, 1993-cü ilin oktyabr ayında Azərbaycanın prezidenti seçdi. Ötən beş ildə Azərbaycan yaşamış, ölkəmizin dövlət müstəqilliyi möhkəmlənmiş və inkişaf etmişdir. Ötən beş ildə Azərbaycan xalqı çətin, mürəkkəb, ağır, eyni zamanda çox şərəfli yol keçmişdir. 1993-cü ildə Azərbaycanda baş vermiş vətəndaş müharibəsinin, o vaxt Azərbaycanın parçalanmasının qarşısı alınmışdır. Sonra Azərbaycanda zor ilə dövlət çevrilişi cəhdlərinin, terror, təxribat aktlarının qarşısı alınmışdır.

1994-cü ildə Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs yaranmış və bu atəşkəs rejimi davam edir. Bunların nəti[51-56]cəsində Azərbaycanda ictimai-siyasi sabitlik təmin olunmuşdur. Bunun üçün biz çətin və ağır bir yol keçmişik. O illər Azərbaycanda mövcud olan özbaşınalığa, hərc-mərcliyə, hakimiyyətsizliyə son qoyulmuş, qanunsuz silahlı dəstələr ləğv olunmuş, cinayətkar qruplar zərərsizləşdirilmişlər. İndi respublikamızda ictimai-siyasi sabitlik şəraitində Azərbaycanın vətəndaşları rahat, sərbəst, azad, asudə yaşamaq imkanındadırlar.

Azərbaycan dövlətinin düşünülmüş, ardıcıl, xalqımızın milli mənafelərinə cavab verən daxili və xarici siyasəti həyata keçirilir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Azərbaycanda müstəqil dövlətin, hakimiyyətin bölgüsünə, demokratik prinsiplərə əsaslanan bütün dövlət təsisatları yaranıb və fəaliyyət göstərirlər. Müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olunmuşdur. Demokratik seçkilər əsasında müstəqil Azərbaycanın ilk parlamenti – Milli Məclisi seçilib və qanunvericilik hakimiyyətinin fəaliyyəti ilə Azərbaycanda çoxsaylı qanunlar qəbul olunmuşdur. Bunlar hamısı Azərbaycanda müstəqil dövlətin yaşamasını, inkişaf etməsini dünyaya nümayiş etdirir.

Azərbaycanda ordu quruculuğu prosesi ötən illərdə əsas yer tutmuşdur. Bu gün iftixar hissi ilə demək olar ki, ölkəmizdə nizami, peşəkar ordu yaranmışdır və Azərbaycanın suverenliyini, dövlətçiliyini, müstəqilliyini və torpaqlarını qorumağa qadir olan güclü ordusu vardır.

Ötən illər Azərbaycanda demokratiyanın yaranması, dərinləşməsi və inkişaf etməsi illəri olmuşdur. demokratik prinsiplərin əsasında dövlətin, hökumətin işləri qurulmuş, Azərbaycanın cəmiyyəti formalaşmışdır. Azərbaycanda insan haqlarının qorunması, insan azadlıqlarının təmin edilməsi həmişə diqqət mərkəzində olmuşdur. Azərbaycanın vətəndaşları dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq [56-57] eyni hüquqlara malikdirlər və bu hüquqlardan istədikləri kimi istifadə edə bilirlər.

Azərbaycanda plüralist cəmiyyət yaranmışdır. Mətbuat, söz, fikir azadlığı tamamilə təmin olunmuşdur. Azərbaycanda siyasi partiyalar, ictimai təşkilatlar, müxtəlif qruplar, mətbuat orqanları sərbəst fəaliyyət göstərirlər. Vətəndaşların azadlıqları və eyni zamanda hüquqları dövlət tərəfindən qorunur və qorunmaqdadır. Məhz bunların nəticəsində Azərbaycanda ilk demokratik Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi mümkün olmuşdur, Azərbaycanda ilk parlamentin – Milli Məclisin demokratik prinsiplər əsasında seçilməsi mümkün olmuşdur.

1998-ci ildə respublikamızda keçirilmiş prezident seçkiləri müstəqil Azərbaycanın demokratiya yolu ilə getməsini bir daha bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda 1993-cü ildə seçilmiş prezidentin beş il müddətində öz səlahiyyətlərini yerinə yetirə bilməsi və səlahiyyətləri bitən zaman növbəti seçkilərin keçirilməsi özü-özlüyündə Azərbaycanda demokratiyanın varlığını təsdiq edir və ölkəmizdə demokratiyanın inkişafını göstərir.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkəmizdə daxili ictimai-siyasi sabitliyin olmaması nəticəsində və başqa müxtəlif səbəblərdən Azərbaycanın dövlətçiliyi inkişaf edə bilməmişdi. Ötən beş il Azərbaycanda dövlətçiliyin yaranması, inkişaf etməsi illəri olubdur. Azərbaycanda prezident seçkiləri tam demokratik prinsiplər əsasında həyata keçirilmişdir. Azərbaycanda azad, sərbəst, ədalətli seçkilər keçirilmişdir.

Bir çox partiyaların və təşkilatların bu seçkilərdə fəal iştirak etməsi, prezidentliyə altı namizədin olması, seçkiqabağı kampaniyanın tam sərbəst, azad, aşkarlıq şəraitində keçirilməsi, prezidentliyə namizədlərin çox ciddi rəqabət aparması, bunun nəticəsində də prezident seçkilərinin baş [57-58] tutması, Azərbaycanda seçicilərin indiyə qədər görünməmiş fəallığı və seçicilərin əksəriyyətinin prezident seçkilərində iştirak etməsi, nəhayət, bütün bunların nəticəsində Azərbaycanda prezident seçkilərinin vaxtında keçirilməsi – bunlar hamısı Azərbaycanda demokratiyanın varlığını və demokratiyanın inkişafı istiqamətində atılan böyük addımların olduğunu göstərir.

Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək üçün dövlət orqanları cinayətkarlıqla mübarizəni gücləndirmişlər. Bu gün məmnuniyyətlə deyə bilərəm ki, bu mübarizə öz müsbət nəticələrini vermişdir. Bir neçə il bundan əvvəl Azərbaycanda mövcud olan mütəşəkkil cinayətkarlar dəstəsi zərərsizləşdirilmiş, ləğv olunmuş, cinayətkarlar cəzalandırılmış və beləliklə də Azərbaycan vətəndaşlarının rahat yaşaması, işləməsi, fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Ancaq bununla yanaşı, biz ötən illərdə Azərbaycanda bir tərəfdən dövlətçiliyi möhkəmləndirərək, qanun-qayda yaradaraq, nizam-intizamın gözlənilməsinə nail olaraq, eyni zamanda humanistlik siyasətini aparmışıq.

Bugünkü Azərbaycan dövlətinin fəaliyyətinin əsas istiqamətlərindən biri də humanistlikdir. Məhz bu humanist siyasətin nəticəsində son iki ildə mənim fərmanlarımla 1856 vətəndaş cəza yerlərindən, cəzadan azad olunmuşdur. Cəza çəkən 40 mindən yuxarı adam mənim təşəbbüsümlə həyata keçirilən

amnistiyaların nəticəsində cəza yerlərindən, cəza çəkməkdən azad olunmuşdur. Biz bu siyasətimizi bundan sonra da davam etdirəcəyik. Bəyan edirəm ki, bu yaxın vaxtlarda mən yenə əfv fərmanları verəcəyəm və böyük amnistiya həyata keçirmək üçün yeni təşəbbüs irəli sürəcəyəm.

Azərbaycanda dövlət quruculuğu prosesi iqtisadi quruculuq prosesi ilə yan-yana gedir. Azərbaycanda iqtisadiyyatın keçmiş vəziyyəti məlumdur. Sovet İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın müstəqillik əldə etməsi dövründə və [58-59] bununla yanaşı, 1988-ci ildən başlayaraq Ermənistan tərəfindən ölkəmizə edilmiş hərbi təcavüz nəticəsində Azərbaycanın böyük iqtisadi potensialı müəyyən qədər dağıdılmışdır. Azərbaycanda iqtisadiyyat 1980-cı illərin sonundan başlayaraq tənəzzülə uğramışdır. İqtisadiyyatın tənəzzülü 1992-93-cü illərdə ildə 20-25 faizə bərabər olmuşdur.

Aparılan düzgün iqtisadi siyasət nəticəsində biz bu sahədə də vəziyyəti gözəçarpacaq dərəcədə dəyişdirə bilmişik. Bunun əsası isə Azərbaycanda həyatın bütün sahələrinin demokratikləşdirilməsidir. İctimai-siyasi, dövlət quruculuğu sahəsində aparılan islahatlarla, demokratik prinsiplərin tətbiq olunması ilə yanaşı, biz ötən illərdə iqtisadiyyatın demokratikləşdirilməsi, liberallaşdırılması üçün bir çox islahatlar – iqtisadi və sosial sahələrdə islahatlar həyata keçirmişik. Bunların əsasını bizim tutduğumuz strateji yol təşkil edir.

Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatına uyğun qurur. Ölkəmiz bazar iqtisadiyyatı prinsiplərini qəbul edibdir. Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin əldə etdiyi təcrübələri Azərbaycan reallıqları ilə birləşdirərək respublikamızda bazar iqtisadiyyatını qurub-yaratmaq bizim əsas vəzifəmiz olmuşdur. Məmnuniyyətlə bəyan edirəm ki, biz bu sahədə görkəmli nailiyyətlər əldə etmişik.

Azərbaycanın həm Ermənistanla münaqişəsi ilə, həm də daxildə baş vermiş məlum hadisələrlə əlaqədar respublikamız iqtisadi islahatların keçirilməsinə Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa ölkələrə nisbətən gec başlamışdır. Ancaq buna baxmayaraq, biz qısa bir müddətdə iqtisadi islahatların həyata keçirilməsinə nail olmuşuq və artıq bunun müsbət nəticələrini görürük.

Bu islahatlar demək olar ki, əsasən 1995-ci ilin sonundan, 1996-cı ildən başlayaraq həyata keçirilibdir və bu gün də həyata keçirilir. Bunların nəticəsində artıq 1996-cı ildə biz Azərbaycanda iqtisadiyyatın tənəzzülünün qarşısını aldıq, [59-60] iqtisadiyyatı sabitləşdirə və iqtisadiyyatda tədricən inkişafa nail ola bildik.

Biz 1996-cı ildə sabitləşməni əldə etdik, 1997-1998-ci illər isə Azərbaycan iqtisadiyyatında, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında və ümumi daxili məhsul istehsalında artım, inkişaf illəri olubdur.

Bunların nəticəsində Azərbaycanda ötən iki il müddətində xalqın rifah halının yaxşılaşdırılması, sosial problemlərin həll olunması üçün gözəçarpacaq işlər görülmüş və onların gələcəkdə də görülməsi üçün əsaslar yaranmışdır. Biz Azərbaycanda inflyasiyanın qarşısını ala bildik. 1994-95-ci illərdə inflyasiya Azərbaycanın iqtisadiyyatını boğurdu. Aparılan iqtisadi islahatlar, iqtisadiyyatın liberallaşdırılması, maliyyə sahəsində həyata keçirilmiş tədbirlər inflyasiyanın qarşısını almağa imkan verdi.

Bilirsiniz ki, son aylar dünyanın bir neçə bölgəsində maliyyə böhranı baş vermişdir. Bu böhran Rusiyada da öz əksini tapmışdır və Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrə də sirayət etmişdir.

Biz Rusiya ilə, Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrlə sıx iqtisadi əlaqələr həyata keçiririk. Ona görə də həmin maliyyə böhranı, şübhəsiz, Azərbaycana da təsir edə bilərdi. Ancaq bizim əvvəl apardığımız tədbirlər və bu hadisə ilə əlaqədar həyata keçirdiyimiz tədbirlər bunların qarşısını aldı. Bu gün Azərbaycanda maliyyə vəziyyəti sağlamdır, sabitdir, Azərbaycanın milli valyutası – manat tam sabitdir.

Bizim iqtisadiyyat sahəsində həyata keçirdiyimiz tədbirlər sırasında dünyanın bir çox ölkələri ilə səmərəli əməkdaşlığımız mühüm yer tutur. Biz ölkəmizi bütün dünya üçün açmışıq. Biz açıq, sərbəst iqtisadiyyat yolu ilə gedən ölkəyik. Bunun əsasında Azərbaycan dünyanın bir neçə böyük neft şirkəti ilə ölkəmizin neft və qaz yataqlarından müştərək istifadə olunması barədə tarixi əhəmiyyətə malik müqavilələr [60-61] imzalamışdır. Bu müqavilələr artıq həyata keçirilir. Biz onların əməli nəticəsini görürük. Bunlar və iqtisadiyyat sahəsində apardığımız bütün başqa işlər Azərbaycana xarici sərmayənin sürətlə gəlməsini təmin edibdir.

Azərbaycanda adambaşına gələn sərmayə indi 160 dollar təşkil edir. Bu göstərici Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr içərisində ən yüksək göstəricidir. Biz neft və qaz sahəsində dünyanın böyük şirkətləri ilə apardığımız işi təkcə Azərbaycan üçün yox, eyni zamanda bütün Qafqaz üçün, Mərkəzi Asiya üçün, Xəzər dənizi hövzəsi üçün çox əhəmiyyətli bir iş hesab edirik.

Neft və qaz sahəsində imzalanmış müqavilələr əsasında Azərbaycana əldə olan layihələrə görə qarşıdakı 25-30 il müddətində təxminən 45-50 milyard ABŞ dolları həcmində sərmayə qoyulacaqdır. Azərbaycanın bu müqavilələrdən götürəcəyi gəlir təxminən 200 milyard dollar dəyərindədir. Azərbaycanın bu sahədə gördüyü işlər, qeyd etdiyim kimi, Azərbaycan ərazisindən Transqafqaz neft və qaz kəmərinin çəkilməsi və belə bir böyük layihənin həyata keçirilməsi üçün də yaxşı əsas yaradır.

Bunların hamısı Azərbaycanın bu günü üçün və gələcəyi üçün çox əhəmiyyətlidir. Ancaq bizim digər ölkələrlə əməkdaşlığımız iqtisadiyyatın artıq bütün sahələrini əhatə edir. İndi Azərbaycanda xarici ölkələrin 1300-dən çox şirkəti fəaliyyət göstərir.

İqtisadi islahatlar özəlləşdirmə proqramı əsasında geniş həyata keçirilir. Özəlləşdirmə proqramının həyata keçirilməsi öz müsbət nəticəsini verir. Azərbaycanda kiçik və orta müəssisələrin özəlləşdirilməsi sona çatıb, böyük müəssisələrin özəlləşdirilməsi qarşımızda duran vəzifədir.

Azərbaycanda iqtisadi islahatların keçirilməsində torpaq islahatı xüsusi yer tutur. Biz 1995-ci ilin sonunda çox cəsarətli addımlar atdıq, «Torpaq islahatı haqqında» radikal qanun [61-62] qəbul etdik və ötən qısa dövr ərzində o qanunu həyata keçiririk. Torpaq islahatı qanunu Azərbaycanda torpağın xüsusi, şəxsi mülkiyyətə verilməsi prinsipi əsasında həyata keçirilir. Biz artıq bunu həyata keçiririk. Bu günə qədər Azərbaycanda şəxsi mülkiyyətə, xüsusi mülkiyyətə veriləcək torpaqların 80 faizi artıq xüsusi mülkiyyətdədir.

Aqrar sektorun heyvandarlıq sahəsi tamamilə özəlləşdirilibdir. Bunların nəticəsində Azərbaycanda kənd təsərrüfatı məhsullarının, ərzaq məhsullarının istehsalı xeyli artıb və güman edirəm ki, yaxın zamanlarda Azərbaycan ərzaq məhsulları ilə özü-özünü təmin etməyə nail olacaqdır.

Mən dünən Moskva televiziyası ilə Qırğızıstanda torpağın şəxsi mülkiyyətə verilməsi haqqında referendum keçirilməsi barədə məlumatı dinlədim. Sevindirici haldır. Ancaq biz artıq bunu qəbul etdiyimiz qanunla həyata keçirmişik. Xalq da bizim qanunu düzgün qəbul edib və həyata keçirir. Məlumdur ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan bir çox ölkələrdə bu məsələ – torpaq islahatı, torpağın xüsusi mülkiyyətə verilməsi məsələsi çox kəskin xarakter daşıyır. Ancaq Azərbaycan nümayiş etdirdi ki, Azərbaycan xalqı həqiqətən mülkiyyətçiliyin yaranmasına, sahibkarlığın yaranmasına və sərbəst iqtisadiyyatın yaranmasına meyllidir və ona görə də bizim qəbul etdiyimiz qanunlar, həyata keçirdiyimiz tədbirlər xalq tərəfindən, vətəndaşlar tərəfindən bəyənilir və onları müvəffəqiyyətlə həyata keçirirlər.

Beləliklə, Azərbaycan ötən beş il müddətində dövlət böhranından, siyasi böhrandan, iqtisadi böhrandan çıxdı. Azərbaycanda ictimai-siyasi sabitlik təmin olunub və bu proses davam edir. Biz iqtisadiyyatda makroiqtisadi sabitliyə nail olmuşuq. Bunların hamısı qarşıdakı illərdə Azərbaycan dövlətinin daha da müvəffəqiyyətlə inkişaf etməsinə əsas yaratmışdır.

Bu nailiyyətlərlə yanaşı, biz həyatımızın bütün sahələrində olan nöqsanları, çatışmazlıqları da görürük və buraxılan [62-63] səhvləri də bilirik. Onların ölkəmizə nə qədər zərər vurduğunu da yaxşı bilirik. Təəssüf ki, Azərbaycanda hakimiyyət orqanlarında, dövlət orqanlarında, icra orqanlarında hələ öz vəzifələrini layiqincə yerinə yetirə bilməyən şəxslər də var. Vəzifələrindən öz şəxsi mənafeləri üçün sui-istifadə edənlər, qanunları pozanlar, rüşvətxorluq, korrupsiya ilə məşğul olanlar da var. Azərbaycanda sərbəst iqtisadiyyatın həyata keçirilməsinə mane olan ünsürlər də var. Biz bir tərəfdən Azərbaycanda sahibkarlığın inkişaf etməsi uğrunda çalışırıq, sahibkarlar təbəqəsi yaratmaq istəyirik, insanlara mülkiyyətçilik keyfiyyətləri aşılamaq istəyirik və insanların hər birinin öz işi ilə sərbəst, özü istədiyi kimi məşğul olmasına şərait yaratmaq istəyirik, beləliklə də sərbəst iqtisadiyyatın, bazar iqtisadiyyatının inkişaf etməsini istəyirik.

Ancaq təəssüf ki, hakimiyyət orqanlarında bizim bu işlərimizə maneçilik göstərənlər də var. Yerli icra orqanlarında, ayrı-ayrı nazirliklərdə olan qanunsuzluqlar, hüquq-mühafizə orqanlarında olan səhvlər və nöqsanlar bizim bu siyasətimizin və tədbirlərimizin həyata keçirilməsinə mane olur.

Biz yaxşı bilirik ki, aparılan iqtisadi siyasət, həyata keçirilən islahatlar iqtisadiyyatı ümumən inkişaf etdirməklə yanaşı, aztəminatlı təbəqənin vəziyyətinə müəyyən qədər mənfi təsir göstərir. Ona görə də biz islahatlarımızın sosial yönümünə xüsusi fikir veririk və bundan sonra da bu, bizim diqqət mərkəzimizdə olacaqdır. Aztəminatlı insanların həyat tərzini yaxşılaşdırmaq üçün biz səmərəli tədbirlər görəcəyik. İqtisadiyyatın inkişafını nəzərə alaraq, gəlirlərimizi artıraraq, büdcəni inkişaf etdirərək gələcək dövrdə maaşların artırılmasına nail olacağıq, pensiyaların, müavinətlərin artırılmasına nail olacağıq. Beləliklə, aztəminatlı ailələrə, aztəminatlı təbəqəyə xüsusi diqqət yetirəcəyik. Bu, bizim əsas vəzifələrimizdən biridir. [63-64]

Bu sahədə xüsusən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlardan zorla köçürülmüş, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızın vəziyyəti, onların yaşayış şəraiti və maddi vəziyyəti bundan sonra da bizim diqqət mərkəzimizdə olacaqdır. Mən bu gün etiraf etməliyəm ki, bütün görülən işlərə, aparılan tədbirlərə baxmayaraq, çadır düşərgələrində yaşayan soydaşlarımızın vəziyyəti ağırdır, çətindir. O çadırlarda yaşayan insanları görən hər bir kəs, bir tərəfdən dəhşətə gəlir, digər tərəfdən isə bu, xalqımızın dərdə nə qədər dözümlü olduğunu göstərir.

Mən işğal olunmuş torpaqlardan köçürülmüş və qaçqın düşərgələrində yaşayan insanlarla əvvəllər də, xüsusən son aylarda da görüşmüşəm. Çadır düşərgələrinin, demək olar, əksəriyyətində oldum. Çadırlarda oldum, insanlarla danışdım, onların vəziyyətini öz gözümlə bir daha gördüm. Həqiqətən, evini-eşiyini, var-yoxunu itirib, yaxınlarını itirib, qanı tökülüb, indi gəlib yayın qızmar vaxtında da, qışın şaxtalı vaxtında da çadırda yaşamaq böyük dözümlülükdür, böyük qəhrəmanlıqdır.

Ona görə də mən bəyan etmişəm və bu gün bir daha deyirəm ki, əhalinin o təbəqəsinin vəziyyətini işğal olunmuş torpaqlar azad edilən vaxta qədər yaxşılaşdırmaq, yüngülləşdirmək üçün biz əlavə tədbirlər görməliyik. Ancaq bizim tədbirlərlə yanaşı, hakimiyyət orqanlarında işləyən hər bir şəxs, hər bir məsul vəzifəli şəxs, hər bir imkanlı vətəndaş soydaşlarımıza qayğı göstərməlidir. Bu, bizim milli borcumuzdur. Bu, bizim vətəndaşlıq borcumuzdur.

Mən bu gün bəyan edirəm ki, həyatın müxtəlif sahələrində mövcud olan nöqsanların aradan qaldırılması işi ilə və hakimiyyət orqanlarının strukturlarında fəaliyyətinin təkmilləşdirilməsi işi ilə bundan sonra daha ciddi məşğul olacağıq. Nazirlər Kabinetinin işi təkmilləşdirilməlidir. Nazirliklərin işləri təkmilləşdirilməlidir. Siz bilirsiniz, ancaq bunu bir daha [64-65] qeyd etmək istəyirəm ki, son iki il ərzində biz Azərbaycanda respublika icra orqanlarının strukturlarında böyük dəyişikliklər etmişik. Bir çox nazirliklər, dövlət komitələri və baş idarələr, şirkətlər ləğv olunubdur. Onlara məxsus olan müəssisələr, təşkilatlar özəlləşdirilib, ya da özəlləşdirmə prosesindədir. Bizim bu tədbirlərimiz bundan sonra da davam edəcəkdir. Həm nazirliklərin strukturunda dəyişikliklər aparılacaq, həm də Nazirlər Kabinetinin işi təkmilləşdiriləcəkdir.

Biz iqtisadiyyat sahəsində gördüyümüz işlərin hamısını dünya təcrübəsindən istifadə edərək aparırıq. Bu baxımdan biz Beynəlxalq Valyuta Fondu ilə, Dünya Bankı ilə, Avropa Birliyinin iqtisadi komissiyası ilə çox sıx əməkdaşlıq edirik, onların tövsiyələrindən səmərəli istifadə edirik. Mən bu gün bəyan edirəm ki, bunlar bizə çox fayda gətirir. Məmnunam ki, bizim bu sahədə gördüyümüz işlər, iqtisadiyyatda baş vermiş müsbət dəyişikliklər, iqtisadi islahatların həyata keçirilməsi və onların nəticələri Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən yüksək qiymətləndirilir. Mən bu əməkdaşlığa görə təşəkkür edirəm və bu gün bəyan edirəm ki, biz bundan sonra da bazar iqtisadiyyatı yolu, iqtisadi islahatlar yolu ilə gedəcəyik, dünya iqtisadiyyatı ilə daha da sıx əməkdaşlıq edəcəyik və dünya iqtisadiyyatının artıq sınaqdan çıxmış təcrübələrindən səmərəli istifadə edəcəyik.

Mən xalq tərəfindən yenidən seçilmiş prezident kimi bəyan edirəm ki, biz Azərbaycandan mövcud vəziyyəti tam obyektiv, düzgün, ədalətli qiymətləndiririk. Əldə olunan nailiyyətləri də görürük, ancaq eyni zamanda çatışmazlıqları, nöqsanları, qüsurları və buraxılan səhvləri də görürük. Buna görə mən Azərbaycan prezidenti kimi qarşıdakı fəaliyyətimdə müsbət meyllərin inkişaf etdirilməsinə nail olmağa və mövcud nöqsanların aradan qaldırılmasına çalışacağam. Güman edirəm ki, biz bunlara nail olacağıq. [65-66]

Azərbaycan ötən beş ildə sübut etdi və dünyaya nümayiş etdirdi ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur, Azərbaycan demokratiya yolu ilə gedir. Bu gün mən bir daha bəyan edirəm ki, bu, bizim strateji yolumuzdur və biz bu yolla ardıcıl olaraq gedəcəyik və bu yoldan heç vaxt dönməyəcəyik.

Demokratik inkişaf yolu, demokratik quruculuq yolu hər bir ölkədə, o cümlədən Azərbaycanda iqtidar-müxalifət münasibətlərini də özündə əks etdirir. Təbiidir ki, biz demokratiya quraraq, demokratiya yaradaraq, demokratiyanı inkişaf etdirərək müxalifətin varlığını və mövcudluğunu dərk edirik. Onsuz demokratiya ola bilməz. Ona görə də mən gələcək fəaliyyətimdə iqtidar-müxalifət münasibətlərinin tənzimlənməsini arzu edirəm və onların dünya təcrübəsindən istifadə edərək daha sağlam səviyyəyə çatdırılmasını arzu edirəm. Biz – iqtidar müxalifətin varlığını dərk edirik və Azərbaycanda bu amilin reallığını və gələcəkdə də var olacağını tamamilə dərk edirik.

Ona görə də bütün müxalifət qüvvələri ilə qarşılıqlı anlaşma, lazım olan danışıqların aparılması üçün bizim iqtidarın qapısı həmişə açıqdır. Mən ümid edirəm ki, artıq biz beş illik bir mərhələ keçəndən sonra, Azərbaycanda dövlətçilik prinsipləri möhkəmlənəndən sonra və nəhayət, Azərbaycanda oktyabr ayının 11-də ədalətli, sərbəst, azad şəkildə prezident seçkiləri keçiriləndən sonra bizim iqtidar-müxalifət münasibətlərini tənzimləmək imkanlarımız daha da çoxdur. Hər bir danışığa, hər bir dialoqa Azərbaycan prezidenti və Azərbaycan iqtidarı hazırdır. Güman edirəm ki, müxalifət düşərgəsində olan qüvvələr də Azərbaycanın milli mənafeyini hər şeydən üstün tutmalıdır, Azərbaycanın dövlət müstəqilliyini hər şeydən üstün tutmalıdır, Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və inkişaf etməsini hər şeydən üstün tutmalıdır və bu prinsiplərə əsasən, buna söykənərək biz bundan sonra əməkdaşlıq edə bilərik. [66-67]

Azərbaycan ötən beş il müddətində ardıcıl, düşünülmüş xarici siyasət aparmışdır. Bizim xarici siyasətimiz uğurlu olmuş və öz müsbət nəticələrini vermişdir. Məhz bunların nəticəsində ötən beş il müddətində dünyanın bir çox ölkələri ilə, o cümlədən inkişaf etmiş ölkələri ilə, aparıcı ölkələri ilə Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələri yaranmışdır. Azərbaycandan bu ölkələrə çoxsaylı rəsmi səfərlər edilib, Azərbaycana dünyanın bir çox ölkələrindən dövlət, hökumət başçıları, parlament başçıları, yüksək səviyyəli nümayəndə heyətləri gəlibdir. Ölkələrarası çoxsaylı müqavilələr, sazişlər imzalanıbdır. Ötən illərdə Azərbaycan bütün beynəlxalq təşkilatlarda təmsil olunubdur və beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstəribdir.

Bütün bunların nəticəsində Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi, demokratik dövlət kimi, sərbəst, azad iqtisadiyyat yolu ilə gedən bir dövlət kimi dünyada tanınıbdır və dünyanın bir çox ölkələri Azərbaycana çox böyük maraq göstərir və Azərbaycan ilə daha çıx əlaqələr qurmaq haqqında təşəbbüslər irəli sürürlər.

Azərbaycan apardığı xarici siyasətlə Qafqaz bölgəsində də öz xidmətlərini göstərmişdir. TRASEKA proqramının həyata keçirilməsi sahəsində aparılan işlər nəticəsində bu il sentyabr ayının 7-8-də Azərbaycanda tarixi Böyük İpək yolunun bərpası ilə əlaqədar çox mötəbər beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 32 ölkənin nümayəndələri iştirak etmişlər, o cümlədən 9 ölkəni prezidentlər və hökumət başçıları təmsil etmişlər. Konfransda 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişlər. Böyük İpək yolu orta əsrlərdə artıq öz fəaliyyətini dayandırdığı dövrdən indiyə qədər ilk dəfə Bakıda,

beynəlxalq konfransda tarixi qərarlar qəbul olunmuşdur. Böyük İpək yolunun bərpası ilə əlaqədar Bakı bəyannaməsi və müqavilələr imzalanmışdır. Bu, bizim üçün [67-68] tarixi hadisədir, eyni zamanda Azərbaycanın Şərq ilə Qərbi, Avropa ilə Asiyanı birləşdirməsi üçün çox gərəkli olduğunu göstərir və Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi fəaliyyətinin nəticəsini göstərir.

Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük və hesab edirəm ki, Bakı Beynəlxalq konfransı da bu sahədə çox yüksək qiymətə layiqdir.

Biz bundan sonra da bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik. Bizim xarici siyasətimizdə tutduğumuz yol bundan sonra da davam edəcəkdir. Azərbaycan sülhpərvər ölkədir. Biz dünyada sülh istəyirik, Qafqazda sülh istəyirik, bölgəmizdə sülh istəyirik, ölkəmizdə sülh istəyirik və buna nail olmağa çalışırıq. Ermənistanın Azərbaycana qarşı 10 il bundan öncə başladığı hərbi təcavüz Ermənistanla Azərbaycan arasında müharibə yaratmışdır, hərbi münaqişə yaratmışdır, eyni zamanda bizim bölgədə, Qafqazda sülhün pozulmasına gətirib çıxarmışdır.

Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz nəticəsində müəyyən səbəblərdən Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq soydaşımız zorla köçürülüb və onlar ağır şəraitdə yaşayırlar. İşğal olunmuş torpaqlarda Azərbaycanın tarixi abidələri, dini müqəddəs yerləri, məscidləri, bütün varidatı, bütün iqtisadiyyatı viran olunubdur. Azərbaycana böyük zərbələr dəyibdir, on minlərlə insan şəhid olub, canlarını qurban verib, qanlar tökülübdür. Müharibə nəticəsində on minlərlə insan əlil, şikəst olubdur, Azərbaycanda şəhid ailələrinin böyük bir [68-69] dəstəsi yaranıbdır. Bunların hamısı birlikdə Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsidir.

Azərbaycan xalqı heç bir ölkəyə qəsd etməyib, heç bir ölkəyə hücum etməyibdir, yalnız öz suverenliyini, öz torpaqlarını qoruyubdur. Azərbaycanın mərd oğulları öz vətənini, torpaqlarını qoruyarkən şəhid olublar. 1990-cı ildə Sovet hökumətinin Azərbaycana etdiyi təcavüz nəticəsində də Azərbaycanda qan tökülüb, Azərbaycanın günahsız insanları təcavüz nəticəsində şəhid olublar.

Mən bu gün bu andiçmə mərasimində Azərbaycanın müstəqilliyi, suverenliyi, torpaqlarının müdafiəsi uğrunda şəhid olanların hamısının xatirəsi qarşısında baş əyirəm və onların xatirəsini yad etmək üçün bir dəqiqə sükut etməyi rica edirəm.

Allah bütün şəhidlərə rəhmət etsin.

Bütün bu itkilərə, bütün bu yaralara baxmayaraq, Azərbaycan dövləti Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etməyə çalışır. 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalanıbdır. Ötən dörd ildən artıq bir zamanda biz atəşkəs sazişinə sadiq olmuşuq və sülh danışıqları aparırıq. Ötən dövrdə aparılan danışıqlar və görülən işlər məsələnin sülh yolu ilə həll olunmasına əsas yaradır və bizə bu yolda inam yaradır. Bu məsələlərin sülh yolu ilə həll edilməsi ilə ATƏT, onun təşkil etdiyi Minsk qrupu məşğul olur. İndi Minsk qrupuna üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. ATƏT-in Minsk qrupunun gördüyü işləri mən bu gün qiymətləndirirəm və xüsusən 1994-cü ildə ATƏT-in Budapeşt zirvə görüşündə və 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş qərarları və bəyanatları yüksək qiymətləndirirəm. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin 1997-ci ilin ikinci yarısında və 1998-ci ilin əvvəlində verdikləri təklifləri də qəbul etmişik və onların əsasında sülh danışıqlarını başa [69-70] çatdırmağa hazırıq. Bu gün mən bir daha bəyan edirəm ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına üstünlük verir. Biz ATƏT-in Minsk qrupuna, onun həmsədrlərinə inanırıq, onlarla indiyə qədər əməkdaşlıq etdiyimiz kimi, bundan sonra da əməkdaşlıq etməyə hazırıq.

Ancaq dünya da bilməlidir, hamı bilməlidir və ATƏT, onun Minsk qrupu da bilməlidir ki, məsələnin sülh yolu ilə həll olunması Azərbaycanın ərazi bütövlüyü prinsipinə söykənməlidir. Biz heç vaxt heç bir qonşu ölkənin torpağına qəsd etməmişik və bu gün də qəsd etmirik. Heç kəsin torpağına göz dikməmişik. Biz Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışıq, Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik.

Dağlıq Qarabağ probleminin, Ermənistan–Azərbaycan münaqişəsinin həlli məhz bu çərçivədə ola bilər. Biz torpağımızın hansısa bir hissəsini heç vaxt heç bir ölkəyə verə bilmərik. Azərbaycanın sərhədlərinin bütövlüyü, ərazi bütövlüyü bizim üçün müqəddəsdir. Biz bu müqəddəs məqsədlərə nail olmaq üçün bundan sonra da çalışacağıq və bütün vasitələrdən istifadə edib Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olacağıq.

Əziz dostlar, əziz həmvətənlər!

Biz müstəqil Azərbaycanın inkişafının yeni mərhələsinə qədəm qoyuruq. Qarşımızda böyük vəzifələr var. Biz XXI əsrə doğru gedirik. XX əsr Azərbaycan xalqının tarixində xüsusi yer tutur. XX əsrdə Azərbaycan böyük çətinliklərdən keçibdir. 1918-ci ildə dövlət müstəqilliyini əldə edib, sonra isə itiribdir. 70 il totalitar rejim, kommunist rejimi altında yaşayıbdır.

Dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycanın həyatı ağır yol keçibdir. On il bundan öncə Ermənistanın [70-71] etdiyi hərbi təcavüz Azərbaycanın həyatını, insanların yaşayışını gərginləşdirib və Azərbaycanın inkişafı üçün çox çətinliklər yaradıbdır. Ancaq bunlara baxmayaraq, biz gələcəyə nikbinliklə baxırıq. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Bizim bu gün gördüyümüz işlər və həyata keçirdiyimiz tədbirlər Azərbaycanın ardıcıl inkişafını təmin edəcəkdir.

Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın bugünkü gənc nəsli, Azərbaycanın gələcək nəsilləri üçün yaxşı bünövrələr qoyur, yaxşı əsaslar yaradırıq. Ən əhəmiyyətli amil ondan ibarətdir ki, Azərbaycanın müstəqil dövləti yaranıb, möhkəmlənib, inkişaf edir. Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır və əbədidir.

Biz XXI əsrə daha da qüdrətli, müstəqil Azərbaycan dövləti çatdırmaq istəyirik. Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq. Biz bundan sonra da dünya birliyində özümüzə məxsus olan yeri tutmağa, saxlamağa çalışacağıq. Biz dünyanın mütərəqqi dövlətləri, birlikləri ilə bundan sonra da əməkdaşlıq edəcəyik. Azad, sərbəst, demokratik ölkə kimi Azərbaycan inkişaf edəcək və Avropa ilə Asiyanın qovuşduğu bir yerdə öz tarixi xidmətlərini göstərəcəkdir.

Əziz həmvətənlər, siz əmin ola bilərsiniz ki, mən bu ağır və məsuliyyətli vəzifələrimi dərk edirəm və sizin mənə göstərdiyiniz etimadın mənim üçün nə qədər əziz olduğunu xahiş edirəm, biləsiniz. Mən bu etimada yüksək məsuliyyət hissi ilə yanaşıram. Sizi əmin edirəm ki, bütün varlığımla bu etimadı doğrultmağa çalışacağam və gələcək illərdə Azərbaycanın sürətlə inkişaf etməsinə nail olacağam.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın demokratik, qüdrətli, müstəqil Azərbaycan! [71]

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*18 oktyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar, dostlar!
Hörmətli qonaqlar!

Bu gün Azərbaycan xalqının tarixində əlamətdar bir gündür: Azərbaycan Dövlət Müstəqilliyinin elan edilməsinin yeddinci ildönümüdür və oktyabr ayının 11-də keçirilmiş prezident seçkilərində xalq tərəfindən seçilmiş Azərbaycan prezidentinin andiçmə günüdür.

Bu iki əlamətdar hadisənin bir günə düşməsi Allahın işidir. Ancaq hesab edirəm ki, bu, heç də təsadüfi bir hal deyildir. Çünki Azərbaycan yeddi il bundan öncə öz dövlət müstəqilliyini dünyaya bəyan edərkən hələ faktiki olaraq müstəqil deyildi. O, sadəcə, öz müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və dünyaya bəyan etdi ki, müstəqil yaşamaq istəyir. Bu, öz-özlüyündə böyük tarixi hadisədir. Ancaq bəyan etməklə müstəqil yaşamaq arasında çox çətin bir yol olmuşdur. Azərbaycan xalqı itkilər verməsinə, zərbələr almasına, daxilində çox mürəkkəb proseslər getməsinə baxmayaraq bu çətin, ağır yolu uğurla keçmişdir.

1993-cü ilin iyun ayında Azərbaycan məhz 1991-ci ilin oktyabr ayından başlanmış prosesin zirvəsi olan, - «Zirvə» sözü müsbət mənada işlənildiyi halda, təəssüf ki, mən bu gün onu mənfi mənada deyirəm, - vətəndaş müharibəsi ilə [72-73] üzləşmiş və parçalanma təhlükəsi qarşısında olmuşdur. 1993-cü il Azərbaycan üçün çox həlledici il olmuşdur. Azərbaycanın müstəqilliyi davam edəcək, Azərbaycan bir müstəqil dövlət kimi yaşayacaq, yaxud da ki, daxili çəkişmələr, vətəndaş müharibəsi nəticəsində, meydana çıxmış separatçı qüvvələrin pozuculuq və dağıdıcılıq fəaliyyəti nəticəsində parçalanacaq, məhv olacaqdı. Əgər məşhur ifadədən istifadə etsək, Azərbaycan «olum, ya ölüm» qarşısında idi. Ancaq xalqıma öz müdrikliyini, zəkasını, qüdrətini, daxili potensialını bu ağır böhran dövründə bir daha nümayiş etdirdi və Azərbaycan bu təhlükələrdən xilas oldu.

Biz Azərbaycanı bu təhlükələrdən xilas etdik. O vaxt həmin təhlükələrin, Azərbaycanı böyük faciə həddinə gətirib çıxarmış əməllərin səbəbkarları indi o dövrü, günləri, ağır məqamı unutmağa çalışırlar. Ancaq xalq heç bir şeyi unutmayıb və unutmayacaqdır.

Özümü xoşbəxt hesab edirəm ki, Azərbaycanın o ağır, çətin, müqəddəratının həll edildiyi bir məqamda mənə üz tutuldu, müraciət edildi. Mən öz vətənimə oğulluq borcumu yerinə yetirdim, sədaqətimi bir daha nümayiş etdirdim, özümü oda-alova atdım. Biz birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxara bildik. Azərbaycan xalqı həmin o ağır ildə məni özünə prezident seçdi. Mən doğma xalqıma, millətimə, Azərbaycan vətəndaşlarına həyatımın bütün mərhələlərində mənə göstərdikləri etimada görə əbədi minnətdaram. Ancaq Azərbaycan xalqı da bilir ki, mənim bütün həyatım xalqıma xidmət etməyə həsr olunubdur.

Azərbaycan xalqının 1993-cü ildən bu günə qədər keçdiyi bu ağır, çətin yolda mən öz xidmətlərimi göstərmişəm. Ona görə heç də təsadüfi deyil ki, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması günü, eyni zamanda ölkəmizdə qəbul edilmiş müstəqil Azərbaycanın Konstitusiyası əsasında Azərbaycanda keçirilən ilk prezident seçkilərində xalq [73-74] tərəfindən seçilmiş prezidentin andiçmə mərasimi ilk dəfə eyni günə düşmüşdür.

Vətəninə, xalqına xidmət etmək hər bir vətəndaşın borcudur. Heç kəs buna görə ölkəsinə, vətəninə, xalqına minnət qoya bilməz. Ancaq xidmətə görə etimad almaq və bu etimadı doğrultmaq böyük şərəfdir. Mən xoşbəxtəm ki, həyatım boyu vətənimə, ölkəmə, xalqıma xidmət etmişəm. Mən bunu həmişə həyatımın, ömrümün mənası hesab etmişəm. Bu gün də sona qədər mənim ömrümün mənası xalqa sədaqətlə xidmət etməkdən ibarət olacaqdır. Ancaq xalqa xidmət edən hər bir kəs öz xidmətinin qiymətləndirilməsi arzusunda olur. Mən də həmişə bu arzuda olmuşam. Mən bəxtəvərəm ki, xalqa etdiyim xidmətlər qiymətləndirilib. Mən, adi bir Azərbaycan oğlu xalqımın on illərlə böyük etimadına layiq ola bilmişəm. Bir daha təkrar edirəm, öz xalqına xidmət etmək hər bir vətəndaşın ümdə borcudur. Ancaq xidmətinə görə qiymətləndirilmək və böyük etimada layiq görülmək hər bir kəsə nəsib olmur. Mən isə xoşbəxtəm ki, belə bir böyük etimada layiq olmuşam və xalq mənə etimad göstəribdir.

Bu gün mənim keçirdiyim ən ülvi hissiyyatlar vətənimə, xalqıma, millətimə, vətəndaşlarımıza hədsiz minnətdarlığımdır. Mən hədsiz dərəcədə minnətdaram ki, gördüyüm işlərə bu qədər yüksək qiymət verilibdir. Hədsiz minnətdaram ki, mənə yenidən etimad göstərilibdir və mən yenidən Azərbaycanın xalq tərəfindən, demokratik prinsiplər əsasında seçilmiş prezidentiyəm.

Mən bununla fəxr edirəm, şərəf duyuram, Azərbaycan xalqına, vətəndaşlarına bir daha, bir daha minnətdarlığımı bildirirəm. Ona görə də qədəhləri müstəqil Azərbaycanın şərəfinə qaldırmağı rica edirəm. Azərbaycan xalqına hədsiz minnətdarlıq hissi ilə xalqımızın şərəfinə badə qaldırmağı rica edirəm. [74-75]

Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır. Azərbaycan haqqında hər bir vətəndaş öz ürək sözlərini deyə bilər. Mənim ürəyim daim öz doğma vətənim Azərbaycanla bağlı, Azərbaycan haqqında hissiyyatlarla dolu olubdur. Bu hissiyyatları sözlə demək mümkün deyildir. Hətta böyük şairimiz Səməd Vurğunun dediyi sözlər də bunun hamısını əhatə etmir. Ancaq şerə ehtiyac olduğuna görə Səməd Vurğunun sözlərini bir daha təkrar etmək istəyirəm:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən,*
*Anam doğma vətənimsən.*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Azərbaycan, Azərbaycan! Azərbaycanın şərəfinə, Azərbaycan xalqının şərəfinə!

Mən böyük məmnuniyyət hissi ilə bildirirəm ki, bu gün müstəqil Azərbaycanın prezidentinin andiçmə mərasiminə qonşu ölkələrdən bizim hörmətli qonaqlarımız gəlmişlər.

Bilirsiniz ki, adət və ənənəyə, müəyyən diplomatik qaydalara görə andiçmə mərasiminə adətən dəvət göndərilmir. Ancaq bizə qonşu, dost ölkələrin nümayəndələri öz dövlətlərinin iradəsini ifadə edərək təşəbbüs göstərib Azərbaycana qonaq gəliblər və bizim bu mərasimdə iştirak edirlər. Şübhəsiz ki, bu, bizim xalqımızı,vətəndaşlarımızı və şəxsən məni çox sevindirir.

Mən çox məmnunam ki, bu gün bu əlamətdar gündə bizimlə bərabər sevincimizi bölüşənlərin içərisində qonşu, dost ölkələrin yüksək səviyyəli və çox mötəbər tərkibli nümayəndə heyətləri vardır. Rusiya Federasiyasının, Türkiyə Cümhuriyyətinin, İran İslam Respublikasının, Gürcüstanın [75-76] nümayəndə heyətləri Azərbaycana gəliblər. Rusiya Federasiyası Qafqaz respublikalarının prezidentləri bu hadisəyə xüsusi əhəmiyyət verərək özləri Azərbaycana gəliblər və bizimlə bir yerdədirlər. Bunlar ictimaiyyətimizi sevindirir.

Mən çox məmnunam ki, bizə dost ölkə olan Rusiya Federasiyasının nümayəndə heyəti bu gün burada bizimlədir. Rusiyanı və Azərbaycanı bir çox tellər bağlayır. Müstəqil Azərbaycan Rusiya Federasiyası ilə dostluq münasibətlərini inkişaf etdirməyi və möhkəmləndirməyi vacib sayır. Xalqlarımızın, ölkələrimizin, dövlətlərimizin mənafeyi naminə biz bunu edirik və edəcəyik.

Mən şadam ki, Rusiya Federasiyasının mötəbər nümayəndə heyəti - xarici işlər naziri İqor Sergeyeviç İvanov, Müstəqil Dövlətlər Birliyi İşləri naziri Boris Nikolayeviç Pastuxov, Rusiya Dövlət Duması sədrinin müavini Mixail Qutseriyev, Azərbaycanın və Rusiyanın xalq artisti, sevimli müğənnimiz Lyudmila Georgiyevna Zıkina və bir çox başqa dostlarımız bu gün bizimlədirlər.

Şadam ki, Müstəqil Dövlətlər Birliyinin icraçı katibi Boris Abramoviç Berezovski bizimlədir. Bütün bunlar bizim dostluq münasibətlərimizin həm rusiyalılar, həm də azərbaycanlılar üçün nə qədər əziz olduğunu inandırıcı şəkildə göstərir. Mən bu gün bəyan edirəm ki, biz bu münasibətləri möhkəmləndirəcək, inkişaf etdirəcək və dərinləşdirəcəyik. Hörmətli dostlar, mən təşəkkür edirəm ki, siz buraya gəlmisiniz və bizimləsiniz.

Bizim üçün dost, qardaş olan Türkiyə Cümhuriyyətinin yüksək səviyyəli nümayəndə heyətinin məhz bu gün Azərbaycanda olması bizim üçün çox əzizdir və hörmətlidir. Mən çox məmnunam ki, Türkiyə Cümhuriyyətinin nümayəndə heyətini Türkiyənin enerji və təbii ehtiyatlar naziri, bizim dostumuz cənab Cümhur Ərsümər təmsil edir. Türkiyədən gəlmiş dostlarımıza, qardaşlarımıza və Türkiyənin naziri, dostumuz Cümhur Ərsümərə təşəkkürümü bildirirəm. Bir daha bəyan [76-77] edirəm ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri əbədi, daimi və sarsılmazdır. Biz bu əlaqələri bundan sonra da inkişaf etdirəcək və möhkəmləndirəcəyik.

Şadam ki, bizə dost ölkə olan Gürcüstanın nümayəndə heyəti - Gürcüstan Parlamentinin sədri, dostumuz Zurab Jvaniya başda olmaqla, nümayəndə heyəti buradadır. Böyük tarixi, dərin kökləri olan və bu gün bütün dünyaya xeyirxah hisslərini, münasibətlərini nümayiş etdirən Gürcüstan - Azərbaycan dostluğu dostluq etməyə, bir-birini sevməyə, əsrlər boyu yanaşı, qonşuluqda, mehriban qonşuluq münasibətləri şəraitində yaşayaraq öz aralarında heç bir münaqişə yaratmamağa parlaq misaldır. Bu, beynəlxalq münasibətlər, dövlətlərarası münasibətlər nümunəsidir və biz bunun qədrini bilirik. Biz bütün tədbirləri görəcəyik ki, xalqlarımız, ölkələrimiz arasında dostluğu möhkəmləndirək və inkişaf etdirək.

Mən çox məmnunam ki, qonşu, dost İran İslam Respublikasının yüksək səviyyəli nümayəndəsi də bu gün Azərbaycanda, bizimlə birlikdədir və Azərbaycanın müstəqillik günündə, Azərbaycan prezidentinin andiçmə mərasimində iştirak edir.

Qafqaz respublikaları prezidentlərinin şəxsən bu gün Azərbaycana gəlmələri və Azərbaycan Respublikasının xalq tərəfindən seçilmiş prezidentinin andiçmə mərasimində iştirak etmələri xalqımız və ictimaiyyətimiz üçün tarixi hadisədir. Mən bunu yüksək qiymətləndirir və hesab edirəm ki, bu, xüsusi əhəmiyyəti olan bir hadisədir. Bu, Qafqaz xalqlarının həmrəyliyini, «Ümumi Qafqaz evi» ideyasının

reallığını, dinc Qafqaz yaratmağın mümkünlüyünü, onların azad yaşamağı, öz xalqlarının ənənələrinə, tarixi köklərinə sadiq qalmaqla yaşamağı arzu edərək, eyni zamanda bir yerdə olmağı, qarşılıqlı əlaqə saxlamaq, bir-birini dəstəkləmək istədiklərini göstərir. Qafqazın müxtəlif regionlarında baş verən hadisələr fonunda bu, müstəsna dərəcədə vacibdir. [77-78]

Qafqaz xalqlarının liderlərinin, Qafqaz respublikaları prezidentlərinin bu gün Bakıdakı, Azərbaycandakı görüşü onu göstərir ki, biz Qafqazın hər bir xalqının, hər bir Qafqaz Respublikasının mənafeyi naminə, eyni zamanda Qafqazda dostluq, qarşılıqlı anlaşma naminə, sülhün və sabitliyin möhkəmləndirilməsi naminə səylərimizi birləşdirə bilərik. Biz qafqazlılara bu, indi xüsusilə zəruridir. Qafqaz dünyanın nadir regionudur, öz təbiətinə, çoxmilliliyinə, adət və ənənələrinə, tarixi köklərinə görə nadir bir regiondur. Bizim xalqlarımız bu qocaman Qafqazda əsrlərlə, min illər boyu bir yerdə yaşamışlar, bir-birini dəstəkləmiş, bir-birinə kömək göstərmişlər. Onda bəs bu gün biz Qafqazı dinc, sabit regiona çevirmək, Qafqazın sülhsevərlik, dini dözümlülük, bütün dünya üçün əmin-amanlıq nümunəsi olması üçün niyə birlikdə irəliləməyək? Mən inanıram ki, biz bunu etməyə qadirik. Bunun da rəhni odur ki, bu gün biz bir yerdəyik.

Mən Dağıstan xalqlarını və onların lideri, bizim dostumuz Məhəmmədəli Məhəmmədovu səmimi qəlbdən salamlayıram.

Mərd çeçen xalqını və Çeçenistanın layiqli lideri Aslan Məshədovu ürəkdən salamlayıram.

Mən cəsur inquş xalqını və onun şanlı oğlu, qəhrəman Ruslan Auşevi ürəkdən salamlayıram.

Kabarda - Balkarı - Qafqazın mərkəzində yerləşən, gözəl təbiəti, mərd insanları, eyni zamanda bir çox problemləri olan respublikanı ürəkdən salamlayıram. Mən şadam ki, Kabarda - Balkarın lideri, bizim dostumuz Valeri Məhəmmədoviç Kokov bu respublikaya layiqincə rəhbərlik edir. Bu gün onun ad günüdür. Mənə xüsusilə xoşdur ki, o, özünün ad günündə Azərbaycana gəlib, dostları ilə bir yerdədir. Hesab edirəm ki, biz bunu layiqincə qiymətləndirməli və dostumuz Valeri Kokovun ad gününü birlikdə qeyd etməliyik.

Şimali Osetiya - Alaniya prezidenti, dostumuz Aleksandr Sergeyeviç Dzasoxovu səmimi qəlbdən salamlayıram. Alek[78-79]sandr Sergeyeviç Dzasoxov Moskvada yüksək vəzifələrdə işləyərkən Azərbaycanda tez-tez olmuşdur. O, Azərbaycanı çox gözəl tanıyır və biz onu yaxşı tanıyırıq. Onun sonuncu seçkilərdə inandırıcı qələbə qazanaraq Osetiya Respublikasının prezidenti seçilməsi bizim üçün çox xoş hadisə idi. Mən osetin xalqına səadət və firavanlıq, dostumuz Aleksandr Sergeyeviç Dzasoxova yeni-yeni uğurlar arzulayıram.

Adıgey prezidenti Aslan Carimovun burada olmasından biz hamımız son dərəcə şadıq. Adıgey nadir respublika, nadir ölkədir. Təəssüf ki, keçmişdə o, Krasnodar diyarına qatılmışdı. İndi isə Adıgey ayrıca respublika, Rusiya Federasiyasının subyektidir. Biz buna çox şadıq. Ona da şadıq ki, Adıgey prezidenti Aslan Carimov buradadır. Mən onu ürəkdən təbrik edir və Adıgey xalqına müvəffəqiyyətlər arzulayıram.

Qaraçay-Çərkəz Respublikasının taleyi hamımıza yaxşı məlumdur. 1944-cü ildə çeçenləri, inquşları olduğu kimi, qaraçaylıları da deportasiya etmişdilər. Onlar çox böyük faciəyə məruz qalmışlar. Mən şadam ki, indi Qaraçay – Çərkəz Respublikası mövcuddur, inkişaf edir və Qafqazda özünün layiqli yerini tutur. Əminəm ki, mərd xalqlar olan qaraçaylılar, çərkəzlər doğma, çox gözəl torpaqlarında öz həyatlarını istədikləri kimi quracaqlar. Bizə xoşdur ki, Qaraçay - Çərkəz Respublikasının prezidenti Vladimir Xubiyev bu gün Bakıda, Azərbaycandadır.

Deyəsən, mən Qafqazdan gələnlərin hamısının adını çəkdim. Heç kimi yaddan çıxarmadım ki? Görürsünüz, bu, mənim üçün nə qədər əzizdir, xoşdur ki, bu barədə birnəfəsə danışıram.

Bir daha Qafqaz, onun gözəl gələcəyi haqqında danışıram. Hesab edirəm ki, biz qafqazlılar mehriban qonşularımızla, dost ölkələrimizlə birlikdə Qafqazı dinc, azad, sabit və çiçəklənən diyara çevirəcəyik.

Azərbaycanın öz qonşuları ilə dostluğu və əməkdaşlığı şərəfinə, Qafqaz ölkələrinin və xalqlarının dostluğu və əmək[79-80]daşlığı şərəfinə, sülh və firavanlıq, azadlıq və müstəqillik şərəfinə, səmimi və sədaqətli, əbədi dostluq şərəfinə badə qaldırıram. Azərbaycan bu cür dostluğa hazırdır, Azərbaycan bundan sonra da bütün ölkələrlə mehriban dostluq münasibətləri yaratmağa çalışacaq, öz qonşuları ilə isə həmişə sülh, həmrəylik və qarşılıqlı anlaşma şəraitində yaşayacaqdır. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan Qafqazda sülh, regionumuzda sülh olması, qonşularımızla dinc, dostluq münasibətlərinin olması üçün hər şeyi edəcəkdir.

Qonaqlarımızın, dostlarımızın şərəfinə, əziz dostlar, sizin hamınızın şərəfinə! [80]

## BAKIDA AKKREDİTƏ OLUNMUŞ DİPLOMATİK KOPRUSUN ÜZVLƏRİNİN– XARİCİ ÖLKƏLƏRİN RESPUBLİKAMIZDAKI SƏFİRLƏRİNİN, BEYNƏLXALQ TƏŞKİLATLARIN NÜMAYƏNDƏLƏRİNİN AZƏRBAYCAN PREZİDENTİNƏ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Prezident iqamətgahı*

*20 oktyabr 1998-ci il*

Hörmətli səfirlər, diplomatlar!
Hörmətli xanımlar və cənablar!

Mənim yenidən Azərbaycan Respublikasının prezidenti seçilməyim münasibətilə bu gün məni təbrik etdiyinizə görə sizin hamınıza təşəkkür edirəm. Sizə, sizin təmsil etdiyiniz ölkələrə və təşkilatlara ən xoş arzularımı çatdırıram. Bugünkü görüş məni çox sevindirir. Çünki bu görüş öz-özlüyündə Azərbaycanın müstəqil dövlət olmasını və müstəqil dövlət kimi Dünya Birliyində özünəməxsus yer tutmasını bir daha nümayiş etdirir.

Ötən beş il ərzində Azərbaycanda xarici ölkələrin səfirliklərinin və beynəlxalq təşkilatların nümayəndəliklərinin sayı demək olar ki, iki dəfə artıbdır. Bu, onu göstərir ki, Azərbaycan dünyanın bir çox ölkələri ilə qurduğu əlaqələri həm Azərbaycandakı, həm də başqa ölkələrdəki səfirliklərin vasitəsilə həyata keçirir. Beləliklə, biz Azərbaycanın xarici siyasətini həyata keçirmək, Azərbaycanın başqa ölkələrlə əlaqələrini, əməkdaşlığını uğurlu etmək üçün yaxşı imkanlar əldə etmişik. [81-82]

Şübhə etmirəm ki, qarşıdakı illərdə Azərbaycanda xarici ölkələrin səfirliklərinin sayı daha da artacaqdır. Bunlar hamısı bir müstəqil ölkə kimi Azərbaycanın inkişafını nümayiş etdirəcəkdir. Sizin təmsil etdiyiniz ölkələrlə və beynəlxalq təşkilatlarla Azərbaycan ötən beş ildə səmərəli əməkdaşlıq etmişdir. Mən oktyabr ayının 18-də andiçmə mərasimində bəyan etmişəm, bu gün bir daha bəyan edirəm ki, Azərbaycan bundan sonra da ardıcıl, düşünülmüş xarici siyasət aparacaqdır və dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əlaqələr yaradacaqdır.

Azərbaycan sülhpərvər ölkədir. Respublikamızın xarici siyasətinin əsasını sülh yaratmaq niyyətləri təşkil edir. Sizin ölkələrinizlə, təmsil etdiyiniz təşkilatlarla Azərbaycanın etdiyi əməkdaşlıq respublikamızın qarşısında duran böyük və çox mühüm vəzifələrin həyata keçirilməsinə kömək edir.

Biz Azərbaycanda demokratik, hüquqi, müstəqil, dünyəvi dövlət quraraq sizin ölkələrinizin təcrübəsindən və xalqlarınızın keçdiyi yolda əldə etdiyi təcrübələrdən səmərəli istifadə edirik. Biz Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurub inkişaf etdirərək, Azərbaycanda iqtisadi islahatları həyata keçirərək, respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə inteqrasiya etməyə çalışaraq sizin ölkələrin, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsindən səmərəli istifadə edirik.

Müstəqil Azərbaycan üçün ən mühüm və əsas problem olan Emənistan - Azərbaycan münaqişəsinin sona çatdırılması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi, Azərbaycanın müstəqil dövlət kimi ərazi bütövlüyünün bərpa edilməsi üçün apardığımız sülh danışıqlarında biz sizin ölkələrinizlə, təşkilatlarınızla daim əməkdaşlıq edirik və bu əməkdaşlığı yüksək qiymətləndiririk.

Ötən beş il ərzində müstəqil Azərbaycan Respublikası böyük yol keçmiş, təcrübə toplamışdır. Biz qarşıda duran [82-83] vəzifələrimizi çox aydın dərk edirik. Mən ümid edirəm ki, bu vəzifələrin həyata keçirilməsində biz sizinlə gələcəkdə də daha səmərəli əməkdaşlıq edəcəyik.

Azərbaycanda əldə olunan nailiyyətlər sizə məlumdur. Ancaq hər bir vətəndaşın rahat yaşaması və xarici ölkələrin Azərbaycanla uzunmüddətli əməkdaşlıq etməsi, xarici investisiyanın Azərbaycana gəlməsi üçün hər bir ölkədə tələb olunan kimi, Azərbaycanda da ictimai-siyasi sabitliyin yaranması əsas şərtlərdən biridir. Mən məmnunam ki, biz ictimai-siyasi sabitliyə nail olmuşuq. Bu şəraiti həm öz ölkəmizin vətəndaşları üçün, həm də xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən təşkilatları və vətəndaşları üçün yarada bilmişik. Əmin ola bilərsiniz ki, biz bu istiqamətdə öz fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik.

Xarici investisiyanın Azərbaycana gəlməsi və respublikamızda həyata keçirilən iqtisadi islahatlarda, xüsusən özəlləşdirmə prosesində xarici şirkətlərin iştirak etməsi Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox əhəmiyyətli bir amildir. Biz sizin ölkələrinizlə, təşkilatlarınızla indiyə qədər bu istiqamətdə əməkdaşlıq etmişik və bu əməkdaşlığı bundan sonra da dava m etdirəcəyik.

Bəyan edirəm ki, Azərbaycanın xarici siyasəti indiyə qədər olduğu kimi, bundan sonra da sülhsevər siyasət olacaqdır. Azərbaycanın xarici siyasətində heç bir dəyişiklik olmayacaqdır. Azərbaycan öz daxili

həyatında demokratiya yolu ilə gedir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi davam edəcəkdir. Biz əldə edilən nailiyyətlər əsasında demokratiyanın inkişaf etdirilməsinə nail olacağıq.

Gənc müstəqil Azərbaycan dövləti demokratiya sahəsində də gənc bir ölkədir. Biz demokratiya yolunda ilk addımlarımızı atırıq, ancaq inamlı addım atırıq. Oktyabrın 11-də Azərbaycanda keçirilmiş prezident seçkiləri - sərbəst, azad, [83-84] ədalətli, tam demokratik prinsiplər əsasında keçirilmiş prezident seçkiləri – Azərbaycanın demokratiya yolunda irəliləməsini göstərir. Biz hesab edirik ki, bu, demokratiyanın inkişafında yeni böyük bir addımdır. Biz bu sahədə əldə etdiyimiz nailiyyətləri heç də ideal hesab etmirik. Biz buna qadir də deyilik. Ancaq əsas bundan ibarətdir ki, biz bu yolla gedirik və gələcəkdə də bu yolla gedəcəyik.

Siz, sizin ölkələriniz, ölkələrinizdə olan demokratik institutlar indiyə qədər Azərbaycanla əməkdaşlıq edərək bu yolla getməkdə bizə yardımlar etmisiniz. Mən bütün bunlara görə təşəkkür edirəm.

Mən ümumiyyətlə, sizin təmsil etdiyiniz ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlığımızı uğurlu hesab edirəm və bu əməkdaşlığa görə minnətdarlığımı bildirirəm. Mən bu əməkdaşlıqda səfirliklərin, səfirlərin, səfirliklərdə, beynəlxalq təşkilatların nümayəndəliklərində fəaliyyət göstərən insanların da əməyini yüksək qiymətləndirirəm. Ümid edirəm ki, qarşıdakı beş il müddətində bizim əməkdaşlığımız daha da uğurlu olacaqdır, ölkələrimiz arasında daha da sıx əlaqələr yaranacaqdır. Biz sizinlə bunların nəticələrini görəcəyik.

Mən bugünkü görüşə görə sizə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə də tez-tez görüşüb yaxşı əməkdaşlıq edəcəyik. Bir daha təbriklərinizə görə sağ olun. [84]

## QAZAXISTANIN MİLLİ BAYRAMI – RESPUBLİKA GÜNÜ ŞƏRƏFİNƏ QAZAXISTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*«Gülüstan» sarayı*

*25 oktyabr 1998-ci il*

Qazaxıstanın hörmətli cənab Baş naziri!
Hörmətli səfir!
Xanımlar və cənablar!

Qazaxıstanın milli bayramı - Respublika günü münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

Biz şadıq ki, Azərbaycan xalqı kimi, qazax xalqı da yeddi il öncə öz dövlət müstəqilliyini elan etmiş və Qazaxıstan üçün, onun xalqı üçün yeni dövr başlanmışdır.

Qazax xalqı zəngin tarixə malikdir, dünya sivilizasiyasına misilsiz töhfə vermişdir. Lakin o, tam milli azadlığı, dövlət müstəqilliyini ilk dəfə 1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar qazanmışdır. İndi Qazaxıstan Dünya Birliyinə daxildir, öz taleyini özü müəyyənləşdirir, öz məsələlərini özü həll edir və istədiyi ölkələrlə qarşılıqlı surətdə faydalı münasibətlər yaradır. Bunu eşitmək xoş idi ki, Qazaxıstan dünyanın 150 ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır, Qazaxıstanda 50 xarici səfirlik fəaliyyət göstərir. Bunların hamısı müstəqilliyin, azadlığın bəhrələri və ötən yeddi ilin real nəticələridir.

Qazax və Azərbaycan xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin zəngin tarixi, dərin kökləri var. Bəli, biz həqiqətən eyni köklərə mənsubuq, əcdadlarımız bir olub, [85-86] dillərimiz çox oxşardır, adətlərimizdə, mərasimlərimizdə və milli ənənələrimizdə oxşar cəhətlər olduqca çoxdur. Bütün bunlar əsrlər boyu xalqlarımız arasında dostluğu, onların qarşılıqlı köməyini və qarşılıqlı dəstəyini müəyyən edibdir. Keçmişdə və sona yetməkdə olan XX əsrdə bu dostluğu sübut edən bir çox parlaq səhifələr var. Ancaq mən hesab edirəm ki, həm qazax xalqı üçün, həm də Azərbaycan xalqı üçün həyatın ən xoşbəxt mərhələsi son dövr – müstəqilliyimizin, suverenliyimizin və azadlığımızın yeddi ilidir.

Bu yeddi ildə Azərbaycanda biz çox çətinliklərlə üzləşdik. Çətinliklər bu gün də, xüsusən Ermənistan tərəfindən hərbi təcavüzlə, ərazimizin bir hissəsini Ermənistan silahlı birləşmələrinin işğal etməsi, vətəndaşlarımızın, soydaşlarımızın öz yaşayış yerlərindən didərgin salınması ilə, - hazırda onlar bir milyon nəfərdən artıqdır və çox ağır şəraitdə, çadırlarda yaşayırlar, - əlaqədar indi də var.

Digər bir çox problemlər, çətinliklər də var. Ancaq bütün bunlara baxmayaraq, bu həyat, bu şərait Azərbaycan xalqı üçün ən xoşbəxt, ən fərəhli həyat və şəraitdir. Ona görə ki, biz azadıq, müstəqilik, öz müstəqil, demokratik, hüquqi, dünyəvi dövlətimizi qururuq, bütün vətəndaşlarımıza azadlıq vermişik, şərait yaratmışıq ki, ölkəmizin hər bir vətəndaşı öz bacarığından, imkanlarından istifadə edə bilsin və öz həyatını istədiyi kimi qura bilsin.

Bütün bunlar eyni dərəcədə Qazaxıstanda da baş verir. Qazaxıstan Mərkəzi Asiyanın ən iri ölkəsidir, çox geniş əraziyə, böyük təbii ehtiyatlara malikdir və çox mühüm coğrafi-strateji mövqe tutur. Biz Qazaxıstanla bir çox sahələrdə, o cümlədən Xəzər dənizinin mineral və digər ehtiyatlarından istifadə olunmasında əməkdaşlıq edirik. Buna görə də bu gün qeyd etmək xoşdur ki, biz müvəffəqiyyətlə əməkdaşlıq edirik və əməkdaşlığımızın nəticələri, ən başlıcası isə zəngin perspektivi var. [86-87]

Biz bütün bu məsələləri Baş nazir, dostumuz Nurlan Utepoviç Balqimbayev başda olmaqla Qazaxıstan nümayəndə heyəti ilə dünən və bu gün müzakirə etdik. Dünən hökumətlərimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızı daha da inkişaf etdirmək yolunda yeni addımdır. Biz bir çox məsələləri müzakirə etdik və onların hamısı barədə yekdil rəyə gəldik, mövqelərimizin eyni, oxşar olduğunu gördük. Dövlətlərarası münasibətlərimizə gəldikdə isə, biz bunun çox yaxşı vəziyyətdə olduğunu, xüsusən də, təkrar edirəm, daha gözəl perspektivi olduğunu qeyd edə bilərik.

Hesab edirəm ki, Azərbaycan da, Qazaxıstan da öz müstəqillik bayramını qeyd edərək gələcəyə nikbinliklə baxırlar. Əminəm ki, qazax xalqı demokratikləşdirmə, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, iqtisadi, sosial islahatlar aparılması yolu ilə gedərək bütün sahələrdə, iqtisadiyyatın inkişafında və Qazaxıstan vətəndaşlarının rifahının əhəmiyyətli dərəcədə yaxşılaşmasında yeni nəticələrə nail olacaqdır.

Bu gün biz cəsarətlə deyə bilərik ki, Qazaxıstanla Azərbaycan arasında münasibətlər dostluq və qardaşlıq xarakteri daşıyır. Azərbaycanda biz buna böyük əhəmiyyət veririk və bu münasibətləri inkişaf etdirmək və dərinləşdirmək üçün hər şey edəcəyik.

Qazaxıstan prezidenti Nursultan Nazarbayevin 1996-cı ildə Azərbaycana rəsmi səfəri və Azərbaycan prezidentinin 1997-ci ildə Qazaxıstana rəsmi səfəri zamanı bir çox mühüm sənədlər, başlıcası isə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Bu sənədlər münasibətlərimizin daha da inkişaf etməsi

üçün yaxşı zəmin yaratmışdır. Biz bütün müqavilələri, sazişləri həyata keçirmək və Qazaxıstan – Azərbaycan münasibətlərini yüksək sürətlə inkişaf etdirmək arzusundayıq.

Qazaxıstanda qarşıdan prezident seçkiləri gəlir. Qazaxıstan prezidentinin seçkiləri yanvarın 11-nə təyin olunubdur. [87-88] Əminik ki, seçkilər demokratik prinsiplər əsasında keçəcək, Qazaxıstanın müstəqillik, azadlıq və demokratiya yolu ilə daha da irəlilədiyini nümayiş etdirəcək və qazax xalqı öz ölkəsinin gələcək inkişafı üçün düzgün qərar çıxaracaqdır.

Sizin hamınızı, bütün Qazaxıstan vətəndaşlarını bu əlamətdar bayram münasibətilə bir daha təbrik edirəm. Qazax xalqına, müstəqil Qazaxıstana sülh, firavanlıq, xoşbəxtlik və öz dövlət müstəqilliyini daha da inkişaf etdirmək və möhkəmləndirmək yolunda uğurlar arzulayıram. Sağ olun. [88]

## TARİXİ «İPƏK YOLU»NUN BƏRPASI ÜZRƏ BEYNƏLXALQ BAKI KONFRANSININ QƏRARLARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1998-ci il sentyabr ayının 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakı şəhərində tarixi «İpək yolu»nun bərpası üzrə keçirilmiş beynəlxalq konfrans və burada imzalanmış sənədlər böyük siyasi və iqtisadi əhəmiyyət kəsb edərək Avropa–Qafqaz– Asiya nəqliyyat dəhlizində yerləşən ölkələrin inkişafı, onların təbii ehtiyatlarının mənimsənilməsi, iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarətin və iqtisadi əməkdaşlığın genişlənməsi üçün etibarlı zəmin yaradır. Tarixi «İpək yolu»nun bərpası üzrə aparılan işlər Azərbaycan Respublikasının Dünya Birliyi ölkələri ilə inteqrasiyasının daha da güclənməsinə xidmət edir.

Azərbaycan Respublikasının Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində faydalı və səmərəli əməkdaşlığına və onun inkişaf etdirilməsi əsasında tarixi «İpək yolu»nun bərpası üzrə beynəlxalq konfransın müvəffəqiyyətlə başa çatmasına böyük əhəmiyyət verərək Avropa–Qafqaz–Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə imzalanmış çoxtərəfli əsas sazişin və digər sənədlərin ardıcıl və səmərəli həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Nazirlər Kabineti, müvafiq mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət təşkilatları «Avropa–Qafqaz–Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə [89-90] beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas sazişi» («Əsas saziş») və onun beynəlxalq avtomobil nəqliyyatı, beynəlxalq dəmir yolu nəqliyyatı, beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələrini işdə rəhbər tutsunlar və icrasını təmin etsinlər.

2. «Avropa–Qafqaz–Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş» üçün depozitar funksiyası Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə həvalə olunsun.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

– TASİS - TRASEKA proqramı üzrə Bakı şəhərində hökumətlərarası komissiyanın daimi katibliyinin təsis edilməsinin əhəmiyyətini nəzərə alaraq iştirakçı ölkələrlə işlərin əlaqələndirilməsi və Avropa İttifaqının Komissiyası ilə müntəzəm iş aparılması məqsədi ilə nazirlikdə və Azərbaycan Respublikasının Belçikadakı (Brüssel şəhərində) səfirliyində mütəxəssislərdən ibarət qrup yaratsın;

– Hökumətlərarası komissiyanın daimi katibliyinin əsasnaməsi və strukturu haqqında təklifləri Avropa İttifaqı ilə birlikdə işləyib hazırlasın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti;

– Müvafiq dövlət orqanlarını cəlb etməklə Azərbaycan Respublikasının ərazisi üzrə tarixi «İpək yolu»nun bərpası və ölkənin yol-nəqliyyat kompleksinin material-texniki bazasının inkişafına yönəldilmiş inventisiya proqramının layihəsini və onun maliyyələşdirilməsi barədə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

– Hökumətlərarası komissiyanın təklifinə müvafiq olaraq daimi katibliyin maliyyələşdirilməsi işində ölkəmizin iştirak payını nəzərdə tutsun;

- «Əsas saziş»ə uyğun olaraq yaradılan hökumətlərarası komissiyanın tərkibinə Azərbaycan Respublikasından namizəd barədə 15 gün müddətində təklif versin; [90-91]

- «Əsas saziş»ə uyğun olaraq Bakı şəhərində hökumətlərarası komissiyanın daimi katibliyinin yerləşdirilməsi üçün Bakı Şəhəri İcra Hakimiyyəti ilə birlikdə müvafiq bina ayrılmasını həll etsin;

- «Əsas saziş»ə uyğun olaraq hökumətlərarası komissiyanın birinci iclasının keçirilməsi məsələsini Avropa İttifaqının Komissiyası ilə birlikdə nəzərdən keçirib həll etsin.

5. Beynəlxalq daşımalara yardım göstərilməsinin səmərəliliyini artırmaq üçün Azərbaycan Dövlət Dəmir Yolu, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, «Azəravtonəqliyyat» Dövlət Konserni, «Azəravtoyol» Dövlət Şirkəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə birlikdə məqsədyönlü tədbirlər hazırlayıb həyata keçirsinlər.

6. Azərbaycan Dövlət Dəmir Yolu, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, «Azəravtonəqliyyat» Dövlət Konserni, «Azəravtoyol» Dövlət Şirkəti ölkə ərazisində beynəlxalq daşımalar zamanı hərəkətin, sərnişinlərin, yüklərin və nəqliyyat vasitələrinin, habelə ətraf mühitin mühafizəsini təmin etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi ilə birlikdə müvafiq tədbirlər hazırlayıb həyata keçirsinlər.

7. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi:

- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə ölkə ərazisində beynəlxalq daşımaların həyata keçirilməsinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının beynəlxalq konvensiyalara qoşulması barədə təkliflərini hazırlayıb müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

- Ölkə daxilində TPASEKA proqramı üzrə bütün işlərin əlaqələndirilməsini təmin etsin. [91-92]

8. Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi, Azərbaycan Respublikasının Elmlər Akademiyası, Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, kütləvi informasiya vasitələri 1998-ci il 7-8 sentyabrda Bakı şəhərində keçirilmiş tarixi «İpək yolu»nun bərpası üzrə beynəlxalq konfransın yekunlarının və onun tarixi əhəmiyyətinin, imzalanmış sənədlərin şərhinin, «Əsas saziş»in ölkələr və beynəlxalq təşkilatlar tərəfindən yerinə yetirilməsi gedişinin geniş işıqlandırılmasını təmin etsinlər.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 oktyabr 1998-ci il*
[93]

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ

Möhtərəm cənab Şröder!

Sizi Almaniya Federativ Respublikasının federal kansleri seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, Almaniya ilə Azərbaycan arasında möhkəm dostluq və əməkdaşlıq münasibətləri mövcuddur. Biz Azərbaycan - Almaniya münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk.

Əminəm ki, sizin federal kansler vəzifəsində çalışacağınız dövrdə əlaqələrimiz hər iki dövlətin xalqlarının mənafeyi, Avropada və bütün dünyada sülh və tərəqqi naminə daha da genişlənəcək və dərinləşəcəkdir.

Fürsətdən istifadə edib sizə cansağlığı və uğurlar, alman xalqına sülh, səadət və çiçəklənmə arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 oktyabr 1998-ci il*

[93]

## TÜRKİYƏ CÜMHURİYYƏTİ YARADILMASININ 75-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ QARDAŞ ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*27 oktyabr 1998-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!
Dostlar!

Türkiyə Cümhuriyyəti yaranmasının 75 illiyi münasibətilə sizi ürəkdən təbrik edirəm. Türkiyə Cümhuriyyətinə, türk xalqına gələcək işlərində uğurlar arzulayıram.

75 il öncə Türkiyə Cümhuriyyətinin yaranması XX əsrdə dünyada baş vermiş ən mühüm tarixi hadisələrdən biridir. Osmanlı imperatorluğunun dağıntıları içərisində yeni dövlət, Cümhuriyyət - Türkiyə Cümhuriyyəti qurulmuşdur.

Böyük öndər Mustafa Kamal Atatürkün zəkası, iradəsi və uzaqgörənliyi ilə yaranmış Türkiyə Cümhuriyyəti 75 illik şanlı bir yol keçmiş, bu yol türk xalqına böyük nailiyyətlər gətirmişdir.

Türkiyə Cümhuriyyəti Avropa ilə Asiyanın, Şərqlə Qərbin sintezindən əmələ gəlmiş və bütün müsəlman şərq aləmi üçün örnək cümhuriyyət olmuşdur.

Türk xalqı 75 il böyük Mustafa Kamal Atatürkün yolu ilə inamla irəliləmiş və Türkiyə bu gün dünyanın ən inkişaf etmiş dövlətlərindən biri olaraq Dünya Birliyində özünə layiq yer tutmuşdur. 75 il ərzində Türkiyənin bütün sahələrdə əldə [94-95] etdiyi nailiyyətlər, keçdiyi inkişaf yolu, Türkiyədə aparılan dövlət quruculuğu prosesi və bu Cümhuriyyətin özü müstəqil Azərbaycan üçün örnəkdir.

Biz Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yolu, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində əldə etdiyi böyük nailiyyətləri yüksək qiymətləndirir və Azərbaycan üçün örnək hesab edirik.

Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıbdır, bu gün də dostluğumuzun, əməkdaşlığımızın əsasını təşkil edir.

Türkiyə Azərbaycana həmişə dayaq olmuşdur. XX əsrdə -1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti elan olunarkən Türkiyənin Azərbaycana etdiyi yardımlar və o illərdə ölkəmizə qarşı təcavüzün qarşısının alınmasında türk qardaşlarımızın göstərdikləri qəhrəmanlıqlar Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Yeddi il bundan öncə Sovetlər İttifaqı dağılarkən Azərbaycan öz dövdət müstəqilliyini elan etdiyi zaman Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. O, müstəqillik yollarında irəliləmək, yaşamaq, inkişaf etmək üçün Azərbaycana daim dayaq olmuşdur və dostluq, qardaşlıq köməyi etmişdir. Azərbaycan müstəqil dövlət kimi ötən illərdə böyük çətinliklərdən keçərək yaşayıb, inkişaf edibdir. Azərbaycanın dövlət müstəqilliyi qorunaraq saxlanılıb, dönməz, dəyişməz, əbədi olubdur. İndi ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Azərbaycan öz ictimai-siyasi, iqtisadi həyatını köklü surətdə dəyişdirir və iqtisadi islahatların həyata keçirilməsi yolu ilə, siyasi və sosial islahatlar vasitəsilə ölkəni inkişaf etdirməyə çalışır. [95-96]

Bütün bu proqramların həyata keçirilməsi, Azərbaycanın hüquqi, demokratik dövlət kimi inkişaf etməsi, ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri əsasında yeni iqtisadi qurumların yaranması, inkişaf etməsi və digər sahələrdə biz həmişə Türkiyənin dəstəyinə, köməyinə arxalanmışıq, bu dəstəyi həmişə almışıq. Bu gün Azərbaycanda demokratik cəmiyyəti formalaşdırarkən, demokratik, hüquqi, dünyəvi dövlət qurarkən Türkiyənin 75 illik təcrübəsindən səmərəli istifadə edirik.

Türkiyə və Azərbaycan xalqları arasındakı dostluq həmişə qırılmaz olubdur. Ancaq Azərbaycanın dövlət müstəqilliyi yolu ilə inamla irəlilədiyi son illərdə Türkiyə – Azərbaycan dostluğu tarixdə görünməmiş zirvəyə çatmışdır. Biz həyatın bütün sahələrində Türkiyə – Azərbaycan dostluğuna, əməkdaşlığına xüsusi əhəmiyyət veririk, bu əməkdaşlıqdan çox böyük bəhrələr götürürük.

Mən bu gün bəyan edirəm ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri gündən-günə inkişaf edəcəkdir. Azərbaycanın ən mühüm problemi olan Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasında, Dağlıq Qarabağ probleminin həll edilməsində Türkiyə Azərbaycana həmişə dayaq, arxa olmuş və bu məsələnin həll edilməsi üçün Türkiyə Cümhuriyyəti, hökuməti həmişə əlindən gələni etmişdir.

Mən bu gün böyük məmnuniyyətlə qeyd edirəm ki, Ermənistanın Azərbaycana təcavüzünün başlandığı gündən indiyədək Türkiyə həmişə Azərbaycanın yanında olmuş, beynəlxalq təşkilatlarda xalqımızın və dövlətimizin hüquqlarını müdafiə etmişdir. Azərbaycanı həmişə dəstəkləmiş, Ermənistanı Azərbaycana

təcavüz edən bir ölkə kimi məhkum etmiş, bu hərbi təcavüzü daim pisləmiş və Ermənistandan bu təcavüzdən əl çəkməsini, işğal olunmuş torpaqlarımızı azad etməsini tələb etmişdir. Məhz bu səbəbdən Ermənistanın Türkiyə ilə diplomatik əlaqələr qurmaq və Türkiyə [96-97] sərhədlərindən istifadə etmək cəhdinə Türkiyə hökuməti, dövləti hər dəfə etiraz edibdir, buna razılıq verməyibdir. Türk xalqının, dövlətinin «Ermənistan Azərbaycana qarşı təcavüzünü dayandırmayınca, işğal edilmiş torpaqlardan çəkilməyincə, bu torpaqlardan didərgin düşmüş azərbaycanlılar öz yerlərinə-yurdlarına qayıtmayınca Ermənistan Türkiyə ilə hər hansı bir əlaqənin yaranmasına nail olmayacaqdır», - deməsini hər bir Azərbaycan vətəndaşı xüsusi qiymətləndirir.

Biz Türkiyə dövlətinin bu cəsarətli, ədalətli mövqeyini və Azərbaycana göstərdiyi qardaşlıq münasibətini çox yüksək dəyərləndiririk. Azərbaycan da Türkiyənin dostu, qardaşı olaraq dünya miqyasında onun mövqelərini müdafiə etmək üçün əlindən gələni edib və bundan sonra da edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edirik. Çünki beynəlxalq aləmdə gedən proseslərə bizim baxışlarımız, görüşlərimiz eynidir.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələr gündən-günə genişlənir. Türkiyənin iş adamlarının Azərbaycana sərmayə qoymasını biz yüksək qiymətləndiririk, onların burada səmərəli işləməsi üçün lazımi imkanlar yaratmışıq və bundan sonra da yaradacağıq. Respublikamızda son illər bəzi müştərək müəssisələrin yaranması, Türkiyənin iş adamlarına məxsus olan ayrı-ayrı ticarət, sənaye müəssisələrinin fəaliyyətə başlaması, bir çox inşaat işləri aparılması türk qardaşlarımızın Azərbaycanda geniş iş görmək imkanlarını nümayiş etdirir. Elə içərisində olduğumuz bu binanın, bu ərazidə bir neçə ticarət mərkəzinin də yaranması Türkiyə və Azərbaycan iş adamlarının sağlam əməkdaşlığı nəticəsində mümkün olmuşdur.

Biz Türkiyə ilə iqtisadi əməkdaşlığımızı bundan sonra da genişləndirəcəyik, Türkiyə sərmayəçilərinin Azərbaycana investisiya qoyması üçün daha əlverişli imkanlar yaratmağa çalışacağıq. [97-98]

Bizim əlaqələrimiz bütün sahələri, o cümlədən mədəniyyət, təhsil, elm sahələrini də əhatə edir. Mən çox məmnunam ki, Azərbaycanın bir çox elm, mədəniyyət xadimləri Türkiyənin universitetlərində, mədəniyyət ocaqlarında, elmi idarələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər, öz biliklərini, elmi ixtiralarını Türkiyə cəmiyyətinə çatdıra bilirlər. Eləcə də Türkiyənin bəzi təhsil təşkilatlarının Azərbaycanda məktəblər, təhsil ocaqları yaratması və beləliklə də təhsilimizin, elmimizin, mədəniyyətimizin bir-biri ilə daha da yaxınlaşması cəhdlərini biz bəyənirik və bundan sonra da belə imkanlar yaradacağıq.

Əminəm ki, Türkiyə ilə Azərbaycanın sıx əməkdaşlığı, ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin vasitəçilik fəaliyyəti nəticəsində Ermənistan–Azərbaycan münaqişəsi sülh yolu ilə həll ediləcək, Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaq, respublikamızın ərazi bütövlüyü bərpa ediləcək və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz evlərinə qayıdacaqlar. Bu, bütün Azərbaycan xalqının arzusu və istəyidir. Mən yaxşı bilirəm ki, bu, eyni zamanda bütün türk xalqının, Türkiyə vətəndaşlarının arzusu və istəyidir.

Mən bir daha bəyan edirəm ki, Türkiyə dövlətinin, hökumətinin bu sahədə səyləri Azərbaycan xalqına, ictimaiyyətinə məlumdur. Bunu biz yüksək qiymətləndiririk.

Biz Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini öz doğma bayramımız kimi qeyd edirik. Bu həm türk xalqının, cümhuriyyətinin, həm də Azərbaycan xalqının və respublikamızın bayramıdır. Məhz buna görə sabah mən Ankaraya gedirəm, Türkiyə Cümhuriyyətinin 75 illik yubiley mərasimində iştirak edəcəyəm. Bunu özüm üçün böyük şərəf hesab edirəm.

Bu bayram şənlikləri Türkiyə və Azərbaycan dostluğunu, qardaşlığını dünyaya bir daha nümayiş etdirir. Hamınız əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan dövlətinin gələcək siyasətində də Türkiyə həmişə görkəmli yer tutacaq və [98-99] Türkiyə–Azərbaycan əlaqələri bundan sonra da siyasətimizin əsas istiqamətlərindən biri olacaqdır.

Mən bu bayram günü turk xalqına yeni-yeni uğurlar, səadət, əmin-amanlıq, sülh arzulayıram. Arzu edirəm ki, Türkiyə-Azərbaycan əlaqələri bundan sonra daha da inkişaf etsin və parlasın. İnanıram ki, Türkiyə-Azərbaycan dostluğu daimi, sarsılmaz olacaqdır.

Türkiyə Cümhuriyyətinin şərəfinə!

Yaşasın və yüksəlsin Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti!

Əbədi, sarsılmaz Türkiyə–Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun! [99]

**TÜRKİYƏ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Hörmətli cənab prezident!
Əziz dostum, qardaşım!

Türkiyə Respublikasının Milli bayramı – Respublika elan olunmasının 75 illiyi münasibətilə Sizi və qardaş türk xalqını səmimi qəlbdən təbrik edirəm.

Türk dünyasının öndəri, böyük Mustafa Kamal Atatürkün 75 il öncə Osmanlı İmperiyasının dağıntıları üzərində qurduğu və ucaltdığı Türkiyə Cümhuriyyəti təkcə türk xalqının deyil, həm də bəşəriyyət tarixinin ən şanlı və önəmli bir hadisəsi olmuşdur.

Türkiyə Respublikası keçən illərdə böyük öndərin yolu ilə irəliləyərək, cəsur və qəhrəman türk xalqının gərgin əməyi, ardıcıl və yenilməz səyi nəticəsində sürətlə inkişaf etmiş, dünyanın ən qabaqcıl ölkələri sırasına qoşulmuşdur. Şərq ilə Qərbin sintezini özündə yaşadan qardaş türk xalqı həm öz milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamış, həm də dünyanın ən mütərəqqi və ümumbəşəri dəyərlərindən, qabaqcıl texnologiyalarından bəhrələnib yüksək inkişaf etmiş, qüdrətli bir dövlət yaratmışdır. Cümhuriyyət dövründə keçilən 75 illik şərəfli tarixi yol böyük türk xalqına insan hüquqlarının, vicdan, din, söz azadlığının bərqərar olduğu demokratik vətəndaş cəmiyyəti, dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə qalxmış dünyəvi və hüquqi dövlət bəxş etmişdir. Türkiyənin bu günü bizi çox sevindirir və böyük iftixar hissi doğurur. [100-101]

Sizin keçdiyiniz bu möhtəşəm, şərəfli yol, qazandığınız təcrübə gənc, müstəqil Azərbaycan dövləti üçün böyük örnəkdir. Eyni mədəniyyətə, milli-mənəvi dəyərlərə və adət-ənənələrə malik olan xalqlarımız tarixən bir yerdə olduqları kimi indi də, gələcəkdə də birgə addımlayacaq, böyük Atatürkün sözləri ilə desək, sevincimiz də, kədərimiz də bir olacaqdır.

Əziz dostum!

Bu şanlı bayram günü Sizin Türkiyə Cümhuriyyətinin inkişafında əvəzsiz xidmətinizi məmnuniyyətlə qeyd edirəm.

Türkiyə – Azərbaycan qardaşlığının möhkəmlənməsində və regionda sülhün yaranmasında Siz böyük xidmətlər göstərirsiniz. Əmin olduğumu bildirirəm ki, birgə səylərimiz nəticəsində ölkələrimiz arasında uğurla inkişaf edən dostluq əlaqələri və işbirliyi bundan sonra daha da möhkəmlənəcək, xalqlarımızın rifahına, əmin-amanlığına, regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əziz gündə sizə və qardaş türk xalqına səadət və xoşbəxtlik arzulayır, Türkiyə dövlətinin bundan sonrakı inkişafı və tərəqqisi yolunda uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 oktyabr 1998-ci il*
[101]

**TÜRKİYƏ RESPUBLİKASININ
BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB HİKMƏT ÇƏTİNƏ**

Hörmətli cənab sədr!

Türkiyə Respublikasının Milli bayramı – Respublika gününün 75 illiyi bəşəriyyət tarixində şanlı və əlamətdar bir hadisədir. Türk aləminin öndəri Mustafa Kamal Atatürkün 75 il öncə böyük mərdlik və şücaətlə yaratdığı müstəqil və demokratik Türkiyə Respublikası bu gün dünyanın ən nüfuzlu, ən mütərəqqi dövlətlərindən biri kimi bütün Şərq xalqları üçün gözəl bir örnək olmuşdur.

Cümhuriyyətin yaranmasından keçən 75 ildə qəhrəman, cəsur və zəhmətsevər türk xalqı böyük nailiyyətlər əldə etmiş, dünya sivilizasiyasına yeni-yeni dəyərli töhfələr vermişdir.

Türkiyə Respublikasında hüquqi və dünyəvi dövlətin qurulmasında, demokratiyanın, vətəndaş cəmiyyətinin iknişafında, insan haqlarının qorunmasında əsası 1920-ci ildə dahi Atatürk və onun silahdaşları tərəfindən qoyulmuş Türkiyə Böyük Millət Məclisinin rolunu xüsusi qeyd etmək istərdim. Türkiyə Böyük Millət Məclisi 78 ildir ki, uğurla fəaliyyət göstərir, Türkiyənin dünya miqyasında layiqli yer tutması üçün çox böyük işlər görmüş, mühüm xidmətlər göstərmişdir. Bütün bunlar Millət Məclisinin böyük öndərin ideyalarına sədaqətinin əyani sübutudur.

Azərbaycan xalqını, müstəqil Azərbaycan Respublikasını Türkiyə və türk xalqı ilə dərin kökləri olan milli-mənəvi yaxınlıq, əbədi və müştərək tale birliyi bağlayır. Mən fəxrlə bəyan edirəm ki, Azərbaycanla Türkiyənin dostluq və qar[102-103]daşlıq əlaqələri bütün sahələr üzrə uğurla inkişaf edir, siyasi və iqtisadi maraqları üst-üstə düşür və bir-birini tamamlayır.

Əmin olduğumu bildirirəm ki, bizim dövlətlərimiz və xalqlarımız arasında olan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri, parlamentlərimiz arasında sıx əlaqələr bundan sonra daha da dərinləşəcək və genişlənəcəkdir.

Sizi, Böyük Millət Məclisinin bütün üzvlərini, bütün qardaş türk xalqını bu böyük bayram münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 oktyabr 1998-ci il*

[103]

**TÜRKİYƏ RESPUBLİKASININ**
**BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏSUD YILMAZA**

Hörmətli cənab Baş nazir!

Türkiyə Respublikasının Milli bayramı – Cümhuriyyət gününün 75-ci ildönümü münasibətilə sizə, Türkiyə hökumətinə və bütün qardaş türk xalqına ən səmimi təbriklərimi yetirirəm.

Türkiyə Cümhuriyyətinin keçən 75 ildə iqtisadi inkişaf və ümumi tərəqqi yolunda əldə etdiyi böyük nailiyyətlər, Qərbin qabaqcıl texnologiyalarına yiyələnərək dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevrilməsi bütün Azərbaycan xalqında və şəxsən məndə böyük iftixar hissi doğurur. Bu gün böyük Atatürkün yolu ilə gedən Türkiyə Respublikası bizim üçün nümunə olmaqla bərabər, həm də Qafqazın və Azərbaycanın iqtisadi inkişafına, regionda əmin-amanlığın və ümumi tərəqqinin əldə edilməsinə önəmli töhfələr bəxş edir. Bütün bunlar qardaş türk xalqı kimi, bizi də ürəkdən sevindirir.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın ənənəvi dostluğu və qardaşlığının qədim və möhkəm kökləri var. Müştərək mədəniyyətimiz, mənəviyyatımız, qarşılıqlı hörmət və sevgimiz iki qardaş xalq, onları təmsil edən hökumət və dövlət arasında sarsılmaz əlaqələrin əsasını qoymuşdur. Mən Türkiyə ilə çoxtərəfli və möhkəm əməkdaşlığımızın bütün sahələrdə inkişaf etməsindən, xüsusilə son illərdə sürətlə inkişaf edən iqtisadi əlaqələrdən məmnunluq duyuram.

Əminəm ki, birgə səylərimiz sayəsində qardaş xaqlarımız arasında uğurla inkişaf edən iqtisadi əlaqələr və işbirliyi bundan sonra daha da genişlənəcək və dərinləşəcək, qırılmaz [104-105] tellərlə bir-birinə bağlı olan xalqlarımızın ümumi rifahına və əmin-amanlığına, regionda iqtisadi yüksəlişin, sabitlyin möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Hörmətli cənab Baş nazir!

Bu əziz bayram günündə qardaş Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə səadət, tərəqqi və daim çiçəklənmə arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 oktyabr 1998-ci il*
[105]

## TÜRKİYƏ CÜMHURİYYƏTİ YARADILMASININ 75-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ YUBİLEY MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QARDAŞ ÖLKƏYƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*28 oktyabr 1998-ci il*

**S u a l**: **Cənab prezident, Siz Türkiyə Respublikasının 75 illik yubileyi münasibətilə keçiriləcək təntənəli bayram mərasimlərində iştirak edəcəksiniz. Yəqin ki, əməkdaşlıq məsələləri də diqqət mərkəzində olacaqdır.**

**C a v a b**: Şübhəsiz. Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyi bizim də bayramımızdır. ÇünkiTürkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri xüsusi xarakter daşıyır və böyük tarixə malikdir. Ona görə də mən bu bayrama öz bayramımız kimi gedirəm. Hesab edirəm ki, bu, çox əlamətdar bir hadisədir.

Şübhəsiz ki, orada bizim Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrə dair söhbətlərimiz, danışıqlarımız olacaqdır. Eyni zamanda bir çox başqa ölkələrin də dövlət və hökumət başçıları oraya dəvət olunublar. Yəqin, onların bir hissəsi Türkiyəyə gələcəkdir. Xüsusən Gürcüstanın, Mərkəzi Asiya ölkələrinin və başqa ölkələrin dövlət başçıları orada olacaqlar. Doğrudur, vaxt azdır, çünki orada bir neçə bayram tədbirləri vardır və onların hamısında iştirak etmək lazım gələcəkdir. Onlarla da imkan dairəsində görüşlərimiz, danışıq[106-107]larımız olacaqdır və bunların da hamısının Azərbaycan üçün xüsusi əhəmiyyəti vardır.

**S u a l**: **Cənab prezident, əsas neft kəməri ilə bağlı konkret qərar nə vaxt qəbul ediləcəkdir?**

**C a v a b**: Yəqin ki, biz əsas neft kəməri ilə bağlı birgə bəyannamə imzalayacağıq.

**S u a l**: **Cənab prezident, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) rəhbərləri ilə oktyabrın 27-dəki görüşünüzdə əsas neft kəməri barədə qərarın qəbul edilməsi günü müəyyənləşdirildimi?**

**C a v a b**: Bilirsiniz, bu danışıq lazım idi. Çünki ABƏŞ-in rəhbərliyinin bəzi fikirləri ilə bizim fikirlərimiz üst-üstə düşmür. Ona görə də mən oktyabrın 27-də ABƏŞ-in rəhbərləri ilə ətraflı danışıqlar apardım, öz tövsiyələrimi verdim, onlar bununla razılaşacaqlar. Mən Bakıya qayıdandan sonra onlarla bir daha görüşəcəyəm.

**S u a l**: **Siz nə üçün Bakı-Ceyhan marşrutunu üstün tutursünüz?**

**C a v a b**: Biz lap əvvəldən müəyyən etmişik ki, bu marşrut hər cəhətdən – təhlükəsizlik, Qərbə çıxış baxımından daha sərfəlidir. Əslinə qalanda, biz bu qərara indi gəlməmişik. Hələ 1994-cü ildə birinci müqaviləni imzalayanda bu variantın üstünlüyü barədə fikrimizi söyləmişdik.

**S u a l**: **Noyabrın 12-də rəhbər komitənin iclası keçiriləcəkdir. Güman etmək olarmı ki, ABƏŞ məhz həmin gün daha optimal variantı Sizə təqdim edəcəkdir?**

**C a v a b**: Hesab edirəm ki, təqdim edəcəkdir. Görünür, bizim görüşlərimiz zamanı, - mən Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan prezidentlərinin görüşünü nəzərdə tuturam, - yəqin ki, biz də müəyyən vahid fikrə gələcəyik. Çünki həmin marşrut ancaq bizim üçün faydalı deyil, ona Mərkəzi Asiya ölkələri, ilk növbədə Qazaxıstan, Türkmənistan və hətta Özbəkistan da maraq göstə[107-108]rirlər. Bilirsiniz ki, bu günlərdə Qazaxıstanın Baş naziri Azərbaycanda rəsmi səfərdə olubdur. Onlar bizimlə protokol imzalayıblar və istəyirlər ki, 1999-cu ildə «Tengiz» yatağından çıxarılacaq 10 milyon ton neftin daşınmasını təmin edək. Bu il 2 milyon ton neft daşınacaq, gələn il isə beş dəfə artırmaq istəyirlər. Deməli, maraq böyükdür. Ona görə də, görünür, boru kəməri hamıya lazımdır.

**S u a l**: **Cənab prezident, Qərb şirkətləri təkid etsələr, Bakı-Ceyhana alternativ marşrut nəzərdən keçirilə bilərmi?**

**C a v a b**: Bilirsiniz, gəlin hələ bu məsələni müzakirə edək, sonra baxarıq.

**S u a l**: **Son vaxtlar Murtuz Ələsgərov barədə söhbətlər gəzir. Öz tərəfinizdən bu barədə nə deyə bilərdiniz?**

**C a v a b**: Niyə bu söhbətləri aparırsınız?

**M ü x b i r**: **Mən aparmıram.**

**C a v a b**: Bəs kim aparır? Kim aparırsa, onlardan soruş. Gündə bir adam bir şey uyduracaq, yayacaq, mən də buna cavab verəcəyəm?

**S u a l**: **Türkiyədə hansı məsələlərin müzakirəsi nəzərdə tutulur?**

**C a v a b**: Çox məsələlər. Sağ olun. [108]

## TÜRKİYƏNİN «TRT-1» TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara,*
*Azərbaycan Prezidentinin iqamətgahı –*
*«Hilton» mehmanxanası*

*28 oktyabr 1998-ci il*

S u a l: **Azərbaycanın sayın cümhur başqanı Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi bayramında Türkiyə xalqına və dövlətinə nə arzu edərdiniz?**

C a v a b: Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi tarixi bir hadisədir və bu, türk xalqının, Türkiyə Cümhuriyyəti vətəndaşlarının böyük bayramıdır. Eyni zamanda Azərbaycanın da bayramıdır. Azərbaycan xalqının da bayramıdır. Çünki bizim xalqlarımızın dostluğu və qardaşlığı böyük tarixə malikdir və bu dostluq və qardaşlıq daha da genişlənməli, daha da inkişaf etməlidir.

Bu bayram günündə mən arzu edirəm ki, Türkiyə, türk xalqı daha da xoşbəxt olsun. Türkiyəyə daha da firavan gələcək arzulayıram və əsas da onu arzulayıram ki, indiyə qədər olduğu kimi, bundan sonra da Türkiyə, türk xalqı böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə getsin. Çünki 75 il öncə bu cümhuriyyəti yaradan Mustafa Kamal Atatürk olmuşdur. Türk xalqı 75 il bu Cümhuriyyətin içində böyük xoşbəxtlik əldə etmişdir, böyük nailiyyətlər əldə etmişdir. [109-110]

Mən əminəm ki, Türkiyənin çox parlaq gələcəyi vardır və bu gələcək də uğurlu olmalıdır. Yəni Mustafa Kamal Atatürkün yolu ilə getməsi türk xalqını daha da yüksəklərə qaldıracaqdır.

*Müsahibəni «TRT-1» televiziya kanalının müxbiri Kaya Yurdqala aparmışdır.*
[110]

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YUBİLEYİNƏ XARİCİ ÖLKƏLƏRDƏN GƏLMİŞ ALİ QONAQLARIN-DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TÜRKİYƏ PREZİDENTİ TƏRƏFİNDƏN VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏN SONRA SÜLEYMAN DƏMİRƏLLƏ SÖHBƏTDƏN

*Ankara,*
*Çankaya köşkü*

*28 oktyabr 1998-ci il*

**Süleyman Dəmirəl**: Mənim dəvətimi qəbul edib, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünə həsr olunan şənliklərdə iştirak etdiyinizə görə Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sayın Heydər Əliyev, Sizi xalqın iradəsi ilə yenidən Azərbaycanın prezidenti seçilməyiniz münasibətilə təkrar-təkrar təbrik edirəm. Sizə uğurlar diləyirəm. Mən Azərbaycan Cümhuriyyətinin də 75-ci ildönümünün qeyd olunmasını arzulayıram.

**Heydər Əliyev**: – Əziz dostum, qardaşım Süleyman Dəmirəl. Mən buraya sizin dəvətinizlə gəlmişəm. Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramına onu təbrik etmək üçün gəlmişəm. Mən bütün Azərbaycan xalqının qəlbində olan ən gözəl, yaxşı duyğuları, ən səmimi hissiyyatları Türkiyə xalqına çatdırmaq üçün gəlmişəm və bunu da sizin vasitənizlə, Azərbaycan xalqının böyük dostu, qardaşı, mənim şəxsi [111-112] dostum, qardaşım, cümhur başqanı, Türkiyənin prezidenti əziz Süleyman Dəmirəlin vasitəsilə bütün Türkiyə xalqına çatdırıram. Bizim təbriklərimizi qəbul edin.

Mən bu təbrik məktubunu və Mustafa Kamal Atatürkün muncuqdan düzəldilmiş portretini Sizə təqdim edirəm.

Mən ürək sözlərimi, xoş arzularımı, təbriklərimi bu namədə yazmışam. Bütün sözlər bunun içərisindədir. Bu, Azərbaycan xalqının qəlbindən gələn sözlərdir. Bünları mən sizə təqdim edirəm. Bu isə Azərbaycan xalqının hədiyyəsidir. Bu, böyük öndər Mustafa Kamal Atatürkün Azərbaycan rəssamının muncuqlardan toxuduğu, yaratdığı bir portretidir, əl işidir. Arxasında hamısı yazılıbdır. Bunun pasportu da vardır. Bu, çox nadir bir sənət əsəridir. Pasporta bunun bütün təfsilatı yazılıbdır.

Böyük öndər Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətini qurub-yaradıb və 75 ildir ki, bu cümhuriyyət yaşayır. Bu cümhuriyyəti Atatürkdən sonra yaşadan insanlar onun silahdaşları, onun işinin davamçılarıdır. Onlardan da ən birincisi, ən yüksəyi mənim dostum, qardaşım Süleyman Dəmirəldir. Ona görə də rica edirəm ki, bu hədiyyəni qəbul edəsiniz. Bu, bütün Azərbaycan xalqının hədiyyəsidir, müstəqil Azərbaycan Cümhuriyyətinin hədiyyəsidir.

**Süleyman Dəmirəl**: Sayın cümhur başqanı, çox sağ olun. Bu, çox gözəl bir hədiyyədir. Üzərində Atatürkün portreti olan belə bir dəyərli sənət əsərini çox qiymətli hədiyyə kimi qəbul edirəm. Biz bundan çox böyük şərəf duyduq. Siz bununla azərbaycanlı qardaşlarımızın hissiyyatını bizə göstərdiniz. Bu, bizi çox məmnun və şərəfli etdi. Ötən illərdə əldə etdiyiniz nailiyyətlər kimi, Sizə yeni prezidentlik dövrünüzdə də uğurlar arzulayıram. «Azərbaycanın sevinci bizim sevincimizdir, dərdi bizim dərdimizdir» demişik. Türk millətinin, türk qardaşlarımızın hissiyyatı bundan daha gözəl ifadə edilə bilməz. [112-113]

Böyük Ataturkün qurduğu Türkiyə Cümhuriyyətinin əbədi olaraq yaşayacağını nəzərə çarpdırıram. Mən böyük məmnunluq hissi ilə Cümhuriyyətin 75 illik yubileyi münasibətilə hazırlanmış xatirə medalını Sizə təqdim edirəm.

**Heydər Əliyev**: Əziz dostum, qardaşım Süleyman Dəmirəl. Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi münasibətilə mənə təqdim etdiyiniz xatirə medalı Azərbaycan prezidenti kimi mənim üçün, Azərbaycan xalqı üçün çox dəyərli bir töhfədir. Mən bunu çox yüksək qiymətləndirir və öz tərəfimdən söz verirəm ki, ölkələrimiz və qardaş xalqlarımız arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi naminə bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

**Süleyman Dəmirəl**: Sayın Heydər Əliyev. Türkiyə Cümhuriyyəti müstəqil Azərbaycanın daha da inkişaf etməsi yolunda atılacaq addımların uğurlu olması, qarşılıqlı maraq doğuran məsələlərin müvəffəqiyyətlə həll olunması üçün həmişə Sizinlə birlikdə çalışacaqdır.

**Heydər Əliyev**: Sizə dərin təşəkkürümü bildirirəm. Xəzər neftinin dünya bazarına ixrac olunması, Bakı-Ceyhan neft kəməri marşrutunun həyata keçirilməsi məsələlərini və başqa maraqlarımızı sözsüz ki, birlikdə həll edəcəyik. Bir daha Sizə dərin təşəkkürümü bildirirəm. [113]

## ABŞ PREZİDENTİ BİLL KLİNTONUN XƏZƏRYANI BÖLGƏ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, SƏFİR RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*«Hilton» mehmanxanası*

*28 oktyabr 1998-ci il*

**R i ç a r d  M o r n i n q s t a r**: Cənab prezident, Sizi səmimiyyətlə salamlayır və yenidən görüşməyimizdən şərəf duyduğumu bildirirəm. Məlumat verim ki, Türkiyəyə səfərim zamanı bu ölkənin yüksək vəzifəli şəxsləri - prezident Süleyman Dəmirəl, xarici işlər naziri və digər nazirlərlə çox mənalı və dolğun görüşlər keçirmişəm.

Cənab prezident, biz Bakı - Ceyhan layihəsinin, Bakı-Ceyhan boru xəttinin arxasında çox möhkəm dayanmışıq. Mən prezident Bill Klintonun və vitse-prezident Albert Qorun ən səmimi salamlarını Sizə yetirmək istəyirəm, onlardan Sizə salamlar gətirmişəm. İstəyirəm ki, onların Sizə olan rəğbətini bildirim. Siz bu layihəni dəstəklədiyinizə görə onlar Sizə böyük rəğbət və hörmət bəsləyirlər.

Bakı–Ceyhan boru xəttinin çəkilməsi ilə bağlı layihənin həyata keçirilməsi, bu işin irəliyə aparılması barədə ABŞ-da cəhdlər və səylər göstərmişdir.

Biz Ağ evdə bir neçə Amerika şirkətlərinin rəhbərləri - prezidentləri və aparıcı mütəxəssisləri ilə görüşmüşük. Şirkətlərin rəhbərlərinə izah etmişik ki, Bakı–Ceyhan layihəsi [114-115] region üçün siyasi cəhətdən çox vacibdir. Onlara demişik ki, Türkiyə Bakı–Ceyhan xəttindən əl çəkməyəcəkdir.

Cənab prezident, Sizin özünüz də Bakı–Ceyhan xəttini çox möhkəm dəstəkləyərsiniz. Biz onları həvəsləndirmişik ki, bu mövqelərində çox dəqiq olsunlar və adı çəkilən neft boru xəttinin arxasında dayansınlar. Biz anlayırıq ki, burada kommersiya məsələləri ön plana çəkilir. Eyni zamanda başa düşürük ki, Türkiyə hökuməti bu məsələ haqqında dərindən düşünərək şirkətlərlə bunu həll edə bilər.

Bir neçə həftə ərzində danışıqlar vasitəsilə bu məsələnin həlli yolunun tapılmasının mümkün olduğunu vurğulayıram. Onu da əlavə edim ki, Türkiyənin xarici işlər naziri ilə keçirilən görüşdə cənab nazir İsmayıl Cəm öz ölkəsinin Bakı–Ceyhan xəttinə münasibətinin dəyişməzliyi barədə bəyanat vermişdir. Türkiyə tam anlayır ki, bu məsələnin həllində aparıcı rol oynayan Azərbaycandır.

Cənab prezident, məhz Sizin sözünüz vacib olacaqdır. Sizin rolunuz həm bu layihənin tamamlanması, başa çatması üçün, həm də bu layihənin regional əməkdaşlığı təmin etməsi üçün çox vacibdir.

**H e y d ə r  Ə l i y e v**: ABŞ prezidenti cənab Bill Klintondan və vitse-prezident cənab Albert Qordan mənə çatdırdığınız salamlara, xoş arzulara görə, cənab, Sizə təşəkkürümü bildirirəm.

Rica edirəm ki, mənim salamlarımı, hörmət və ehtiramımı prezident cənab Bill Klintona və vitse-prezident cənab Albert Qora çatdırasınız.

Əsas məsələ haqqında onu deyə bilərəm ki, Azərbaycanın əvvəldən Bakı–Ceyhan marşrutunu dəstəklədiyini siz bilirsiniz və mən bu barədə dəfələrlə bəyanat vermişəm. Bu yaxın zamanlarda cənab Yan Kalitski mənə vitse-prezident cənab Albert Qorun məktubunu gətirdi və mən o məktubla da tanış olmuşam. Ona görə də burada Azərbaycanın mövqeyi sizə məlumdur. [115-116]

Ancaq siz bilirsiniz ki, məsələ mürəkkəbləşibdir. Beynəlxalq Əməliyyat Şirkəti, konsorsium, hansı ki, bu işləri maliyyələşdirir, - onlar indi Bakı - Ceyhan xəttini dəstəkləmirlər. Mən dünən, yəni oktyabrın 27-də Bakıda onlarla bir saat yarım danışıq aparmışam. Bizim Dövlət Neft Şirkətinin rəhbərləri Natiq Əliyev, İlham Əliyev əvvəllər də onlarla bu barədə danışıqlar aparmışlar. Ancaq mən işlərimin çox olmasına baxmayaraq dünən onları qəbul etdim. Mənimlə görüşməyi onlar çoxdan xahiş etmişdilər. Biz çox ətraflı danışdıq. Onlar bir çox rəqəmlər gətirirlər və sübut edirlər ki, Bakı - Ceyhan boru xətti iqtisadi nöqteyi-nəzərdən səmərəsizdir, səmərəli deyildir. Təklif edirlər ki, əsas boru xətti Bakıdan Supsaya qədər tikilsin.

Mən sizə deyim ki, o nümayəndə heyətinin tərkibində «AMOKO»nun da nümayəndəsi var idi. Yəni mənimlə danışıq aparanlar əsas «Bi-Pi»nin nümayəndələri idilər. Ancaq «AMOKO»nun da nümayəndəsi orada idi. O bildirdi ki, mən ABŞ hökumətinin mövqeyini bilirəm və onunla razıyam. Ancaq biz kommersiya prinsiplərinə daha çox üstünlük veririk.

Mən bunlarla razı olmadım və onlara öz fikrimi bildirdim. Bizim Dövlət Neft Şirkətinin rəhbərləri Natiq Əliyevə, İlham Əliyevə göstəriş verdim ki, bir neçə gün ərzində bütün bu rəqəmləri araşdırsınlar, - yəni Bakı-Ceyhan xəttinin ümumi qiyməti nə qədərdir. Konsorsiumun nümayəndələri sübut edirlər ki, Bakı-Supsa Bakı – Ceyhandan təxminən bir milyard dollar ucuz olacaqdır. Onlar nefti Supsadan tankerlərlə Türkiyənin Bosfor boğazındakı Karıkgöl limanına çatdırmaq, oradan isə 50 kilometr uzunluğunda neft borusu vasitəsilə Mərmərə dənizinə çıxarmaq istəyirlər. Mən bu təklifləri qəbul

etmədim. Ancaq belə problemlər vardır. Ona görə də biz gərək bu məsələnin nə cür həll olunması barədə fikir mübadiləsi aparaq. [116]

## TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*«Hilton» mehmanxanası*

*29 oktyabr 1998-ci il*

**S a p a r m u r a d   N i y a z o v**: İlk öncə Sizi yenidən Azərbaycan prezidenti seçilməyiniz münasibətilə təbrik edir və Sizə Azərbaycan xalqının rifahı naminə yeni-yeni uğurlar arzulayıram.

**H e y d ə r   Ə l i y e v**: Təbriklərə və dəstəyə görə, mənə bəslədiyiniz münasibətə görə Sizə təşəkkürümü bildirir və qeyd edirəm ki, «Türkmənistan və Azərbaycan ayrılmaz qardaşlardır».

**S a p a r m u r a d   N i y a z o v**: Bilirsiniz ki, Türkmənistan xalqı da azad, müstəqil olmaq istəyirdi və nəticədə o da Sovet İttifaqı respublikaları arasında öz müstəqilliyini elan etdi. Türkmənistan ilə Azərbaycan arasında, xalqlarımız arasında həmişə ən xoş və mehriban münasibətlər olmuşdur. Dövlətlərimiz arasında bir çox mühüm sənədlər imzalanmışdır və bu sənədlər bütün sahələrdə əməkdaşlığımız üçün əlverişli şərait yaratmışdır. O ki qaldı Türkmənistan ilə Azərbaycan arasındakı mübahisəli məsələyə, bildirirəm ki, gələn ayın ortalarında mən və prezident Heydər Əliyev Türkmənbaşı şəhərinə gəldikdən sonra, buraya neft kəməri və qaz kəməri ilə məşğul olacaq şirkətlər də dəvət ediləcəklər. Biz hamının qarşısında deyəcəyik ki, bizim məsələmiz həll edilmişdir. [117-118]

**H e y d ə r   Ə l i y e v**: Bir halda ki, Siz bunu mənimlə razılaşdırmadan bəyan edirsiniz, mən bunu qəbul edirəm.

**S a p a r m u r a d   N i y a z o v**: «Biz Sizinlə realistlərik, çevik siyasətçilərik və ixtilafın nə demək olduğunu və qardaşlığın qədir-qiymətini bilirik və bu qardaşlıq naminə hər ikimiz bir balaca güzəştə gedəcəyik və məsələni Sizin xalqınızın və bizim xalqımızın mənafeyi naminə həll edəcəyik. Onu da vurğulayım ki, Xəzərin sərvətləri ölkələrimizə kifayət edər, Azərbaycanla Türkmənistanın arasını vurmağa can atanlar isə açıq-aşkar səhv edirlər. Xalqlarımız onlar üçün ümumi olan Xəzərin sahillərində əsrlər boyu yaşamış, bir-biri ilə dostluq etmişlər və aralarında heç vaxt anlaşılmazlıq olmayıbdır. Hesab edirəm ki, Türkmənbaşı şəhərində Azərbaycan sektorunda Türkmənistanın və Türkmənistan sektorunda Azərbaycanın müəyyən iştirakı barədə razılığa gəlmək mümkün olacaqdır. Heç kim düşünməsin ki, kimsə kimə güzəştə getmişdir. Əgər biz Xəzərin statusu haqqında eyni fikirdəyiksə, onda dünya praktikasını nəzərə alaraq Xəzəri sektorlara bölmək lazımdır. Özü də təkcə onun səthini deyil, eləcə də hər şeyi bölmək gərəkdir.

Onu da demək istərdim ki, sovet dövründə Azərbaycana Sizin rəhbərlik etməyinizdən Azərbaycan xalqı çox şey qazanmışdır. Türkmənistanda Azərbaycanın indiki problemlərini, ən əvvəl Qarabağ məsələsi ilə bağlı problemlərini yaxşı bilir və başa düşürlər, Azərbaycanın münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün göstərdiyi səylərə, iqtisadi çətinliklərə və iqtisadiyyatın sağlamlaşdırılması sahəsində görülən tədbirlərə bələddirlər. Heydər Əliyev, Siz müdrik rəhbərsiniz, Qafqaza aid bir çox çətin məsələləri həll edirsiniz. Sizin bizimlə də problemləriniz olmayacaqdır. Biz Xəzərin bir qarış hissəsinə görə bir-birimizlə heç vaxt çəkişməyəcəyik. Türkmənistan Azərbaycanla əməkdaşlıq edəcək və onun üçün ağır anlarda Azərbaycan xalqına həmişə arxa-dayaq olacaqdır. [118-119]

**H e y d ə r   Ə l i y e v**: Siz Türkmənistana 12 ildir rəhbərlik edirsiniz. Bu illər ərzində ölkə sabit, normal, dinc yaşayır, onun prezidenti isə rəhbərliyi öz xalqının hörmət və məhəbbətinə arxalanaraq həyata keçirir. Mən Sizin sözlərinizə haqq qazandırır və razılaşıram ki, xalqlarımız arasında qarşılıqlı münasibətlərə aid baxışlarımız və rəylərimiz uyğun gəlir. Xalqlarımız həmişə dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamış, bir-birinə kömək etmişlər. Çoxəsrlik tarix ərzində Türkmənistan və Azərbaycan xalqları arasında bir dənə belə münaqişə faktı və ya hər hansı ziddiyyət olmayıbdır. Bunlar XX əsrdə də olmayıbdır.

Bütün çətinliklərə və problemlərə, - onların başlıcası Ermənistan – Azərbaycan münaqişəsidir, - baxmayaraq, Azərbaycan öz müstəqilliyini möhkəmlətmək yolu ilə qətiyyətlə gedir. Bu münaqişənin Azərbaycan üçün ağır nəticələrinə baxmayaraq ölkəmiz məsələni dinckliklə həll etməyə ümid bəsləyir.

Mən Azərbaycan ilə Türkmənistan arasında əməkdaşlığı daha da genişləndirməyin çox böyük əhəmiyyəti olduğunu vurğulayıram. Müasir dünyada, Qərb ilə Şərq birləşməyə çalışdığı bir vaxtda Azərbaycanın və Türkmənistanın coğrafi, coğrafi-siyasi və coğrafi-strateji mövqeləri həlledici əhəmiyyətə malikdir. Biz Şərqi və Qərbi birləşdirən Xəzərin hər iki tərəfindəyik və ölkələrimiz əsas birləşdirici arteriyadır. Buna görə də, əslinə qalsa, bizim üzərimizə nəinki xalqlarımız qarşısında, həm də Dünya Birliyi qarşısında tarixi bir vəzifə – ön sıraya çəkilən məsələləri həll etmək vəzifəsi düşmüşdür. Zənnimcə, biz sizinlə bunu etməyə qadirik və bunun üçün öz ölkələrimizdə işi həyata keçirəcək və xüsusən Xəzərə aid problemlərdə qarşılıqlı fəaliyyət göstərəcəyik. Buna görə də sizin bütün fikirlərinizlə tamamilə razıyam.

Hesab edirəm ki, biz heç vaxt çəkişməmişik və heç vaxt çəkişməyəcəyik və heç kəs bunu edə bilməyəcəkdir. Biz həmişə sülh, dostluq [118-119] şəraitində yaşamışıq. Biz bu dostluğu möhkəmlətməliyik, axı biz artıq müstəqil dövlətlərik, azad xalqlarıq və öz taleyimizi, öz məsələlərimizi özümüz həll edirik. Zənnimcə, biz bunların hamısını edəcəyik və sizin fikirləriniz doğrudur. Mən sizinlə razıyam. [120]

## BAKI–TBİLİSİ-CEYHAN MARŞRUTUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİ NƏZƏRDƏ TUTAN ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Türkiyə Böyük Millət Məclisinin binası*

*29 oktyabr 1998-ci il*

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli cənab Süleyman Dəmirəl!
Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli cənab Hikmət Çətin!
Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli cənab Məsud Yılmaz!
Gürcüstan prezidenti cənab Eduard Şevardnadze!
Qazaxıstan prezidenti cənab Nursultan Nazarbayev!
Özbəkistan prezidenti cənab İslam Kərimov!
Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson!

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzaladığımız bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan Respublikası Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması üçün bir neçə il bundan əvvəl əməli işlərə başlamışdır. [121-122] 1994-cü il sentyabrın 20-də dünyanın nüfuzlu 11 neft şirkəti ilə, konsorsium yaratmış şirkətlərlə böyük bir müqavilə – Xəzər dənizindəki «Azəri», «Çıraq» yataqlarından və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasil edilməsi haqqında müqavilə imzalanıbdır. Bu müqavilə «Əsrin müqaviləsi» adı alıbdır.

Biz keçən il noyabrın 12-də «Çıraq» neft yatağından ilkin neftin alınmasını qeyd etdik. Hazırda həmin yataqdan gündə 10 min ton neft hasil olunur və dünya bazarlarına çıxarılır. Aparılan işlər nəticəsində yaxın vaxtlarda hasilat 3 dəfə artacaqdır.

Biz 1994-cü ildə bu müqaviləni imzalayarkən Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün bir neçə boru kəməri yaradılmasını nəzərdə tutmuşduq. Onlardan birincisi Bakı-Novorossiysk marşrutu, ikincisi – ilkin neftin ixracı üçün Bakı-Supsa, Gürcüstan marşrutu və ən əsas, böyük neft kəməri isə – dörd il bundan əvvəl də fikrimiz belə idi – Bakı- Ceyhan marşrutu olmalıdır.

Xəzərin Azərbaycan sektorunda ötən dörd il müddətində bir çox yataqlar barədə 10-dan artıq beynəlxalq konsorsiumla müqavilələr imzalanmış və həmin neft, qaz yataqlarından gələcəkdə böyük neft alınması gözlənilir.

Məlumdur ki, Xəzərin digər ölkələrə – Qazaxıstana, Türkmənistana, Rusiyaya, İrana məxsus sektorlarında da neft yataqları vardır. Məmnuniyyətlə qeyd edirəm ki, bu sektorlarda da, xəsusən Qazaxıstana məxsus sektorda artıq əməli işlər aparılır.

Mərkəzi Asiyanın, Xəzəryanı ölkələrin – Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın ərazilərində də böyük neft və qaz yataqları vardır. Həmin yataqların gələcəkdə işlənilməsi, neftin və qazın dünya bazarlarına çıxarılması üçün yollar araşdırılır.

Bunlar hamısı 1994-cü ildə bizim nəzərdə tutduğumuz Bakı -Ceyhan böyük, əsas neft kəmərinin çəkilməsini bu gün daha [122-123] da reallaşdırır. Məlumdur ki, Qazaxıstanın «Tengiz» yatağında zəngin neft və qaz ehtiyatları vardır. Oradan hasil edilən neftin bir hissəsi artıq Qazaxıstan, Azərbaycan, Gürcüstan respublikalarının ərazilərindən, Xəzər dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Məlumat verirəm ki, bu yolla artıq 2 milyon 500 min ton Qazaxıstan nefti daşınıbdır.

«Tengiz»dəki zəngin neft yataqlarının gələcəkdə işlənilməsi Qazaxıstanın Aktay limanı ilə bizim Bakı limanı arasında bir neft borusu tikilməsi zərurətini də meydana çıxarmışdır. Bütün bunlar hamısı Bakı–Ceyhan əsas neft boru kəmərinin bu gün çox real olduğunu əyani surətdə sübut edir. Ona görə də bu gün burada, Türkiyədə, Ankarada hamımızın birlikdə imzaladığımız bu bəyannamə bizim dörd il müddətində apardığımız işin böyük bir nəticəsidir.

Doğrudur, Bakı–Ceyhan marşrutuna, Bakı–Tbilisi–Ceyhan marşrutuna etiraz edənlər və onun həyata keçirilməsinə mane olmaq istəyənlər də vardır. Bəzi şirkətlər kommersiya nöqteyi-nəzərindən bu marşrutun səmərəli olmadığını iddia edirlər. Şübhəsiz ki, bu şirkətlərin kommersiya maraqları da nəzərə alınmalıdır. Biz həmin şirkətlərlə bundan sonra da iş aparacağıq. Ancaq hesab edirəm ki, mərasimdə iştirak edən ölkələrin dövlət başçılarının bu gün ifadə etdikləri siyasi iradə bu proqramın, layihənin həyata keçirilməsinin təməlini qoyur.

Bilirsiniz ki, bu işlərin təməlini, əsasını müstəqil Azərbaycan Respublikası Xəzər dənizindəki enerji ehtiyatlarının birgə işlənilməsi barədə qəbul etdiyi 4 qərarlarla qoymuşdur. Mən çox məmnunam ki, dörd

il bundan əvvəl təməlini qoyduğumuz iş bu gün böyük vüsət almışdır və bu gün burada iştirak edən dövlət başçılarının hamısının birgə iradəsi ilə böyük bir bəyannamənin qəbul olunmasına gətirib çıxarmışdır.

Mən Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft [123-124] borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq.

Mən bu gün bəyannamənin imzalanması münasibətilə dost ölkələrin dövlət başçılarını – Türkiyəni, Qazaxıstanı, Gürcüstanı, Özbəkistanı, Amerika Birləşmiş Ştatlarını və Xəzəryanı ölkələrin hamısını təbrik edirəm. Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun! [124]

## ANKARA BƏYANNAMƏSİ

*Ankara*

*29 oktyabr 1998-ci il*

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarlarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, habelə bu məsələlər barədə təxirə salmadan qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq bu bəyannaməni imzaladılar.

1. Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən [125-126] məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər–Aralıq dənizi (Bakı–Tbilisi–Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər. [126-127]

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

***Azərbaycan Respublikası adından Heydər ƏLİYEV***
***Gürcüstan adından Eduard ŞEVARDNADZE***
***Qazaxıstan Respublikası adından Nursultan NAZARBAYEV***
***Türkiyə Respublikası adından Süleyman Dəmirəl, Məsud YILMAZ***
***Özbəkistan Respublikası adından İslam KƏRİMOV***
***Şahid sifətində Bill RİÇARDSON, ABŞ-ın energetika üzrə katibi.***
[127]

## ANKARA BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİNİN ADINDAN TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ RUSİYA TELEKANALININ «VESTİ» İNFORMASİYA PROQRAMININ BAKI MÜXBİRİNƏ MÜSAHİBƏSİ

*29 oktyabr 1998-ci il*

**S u a l**: **Ankara bəyannaməsi qəbul edildikdən sonra növbəti addımlar necə olacaqdır**?

**H e y d ə r Ə l i y e v**: Biz bəyannaməni imzalayarkən siz orada idiniz?

**M ü x b i r**: **Əlbəttə**, **orada idim.**

**H e y d ə r Ə l i y e v**: Bu, tarixi hadisədir. Mən artıq demişəm, - əgər siz mənim nitqimi dinləmisinizsə, təkrar etməyəcəyəm, - biz dörd il bu işlə məşğul olmuşuq, bu bəyannaməyə doğru irəliləmişik. Bu gün isə, bir baxın, onu nə qədər dövlət imzaladı. Əvvəllər bu barədə yalnız bizimlə Türkiyə danışırdı. İndi isə Gürcüstan, Qazaxıstan, Özbəkistan da bizə qoşulmuşlar. Hesab edirəm ki, bu gün Türkmənistan da, əlbəttə, Amerika Birləşmiş Ştatları da qoşulacaqlar.

**S u a l**: **Bəs bu məsələdə Rusiya hansı siyasəti yeridir**?

**C a v a b**: Bildiyiniz kimi, biz Rusiya ilə Bakı-Novorossiysk neft kəmərinə malikik. Mən onun barəsində bu gün danışdım. Biz bu neft kəməri ilə nefti Rusiya limanına göndəririk. Odur ki, Rusiya vəziyyəti, zənnimcə, düzgün qiymətləndirir. Bizim çoxlu neftimiz var və onun hamısını Rusiya vasitəsilə buraxmaq mümkün deyildir. Bu gün dediyim kimi, bizdən [128-129] başqa, Qazaxıstan da böyük imkanlara malikdir. Ona görə də bu neft kəməri zəruridir.

**S u a l**: **Cənab prezident**, **konkret tikinti nə vaxt başlanacaqdır**?

**C a v a b**: Yəqin ki, tezliklə. Biz maliyyə məsələlərini həll edəcəyik. Ona görə ki, mən orada dedim, konsorsium etiraz edir, maliyyə-iqtisadi məsələləri ön sıraya çəkir. Lakin, zənnimcə, orada hesablamalarda fikir ayrılıqları var.

**M ü x b i r**: **Sağ olun**. [129]

## ABŞ-ın ENERGETİKA NAZİRİ BİLL RİÇARDSONLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Ankara,
*«Hilton» mehmanxanası*

*29 oktyabr 1998-ci il*

**B i l l R i ç a r d s o n**: Cənab prezident, Sizinlə görüşdən böyük şərəf duyduğumu bildirirəm. Bu gün çox cazibədar bir gün oldu. Siz Ankara bəyannaməsinin imzalanması mərasimində Bakı-Ceyhan xətti haqqında qısa çıxışınızla öz böyük liderliyinizi bir daha göstərə bildiniz. Bugünkü görüşdən, bəyannamənin imzalanmasından sonra Birləşmiş Ştatlar belə hesab edir ki, biz Bakı-Ceyhan xəttinin çəkilməsi məsələsində böyük tərəqqi əldə etmişik. Bunların da çoxu məhz Sizin liderliyiniz sayəsində baş veribdir.

Hər iki dostunuzdan – prezident Bill Klintondan və vitse-prezident Albert Qordan Sizə salamlar gətirmişəm. Mən elə bilirəm ki, bu gün göstərdiyiniz təşəbbüs Bakı-Ceyhan xəttinin çəkilişinin uğurla başa çatması ilə nəticələnəcəkdir. İndi elə bir vaxt gəlib çatmışdır ki, Ankara bəyannaməsini həyata keçirmək lazımdır.

**H e y d ə r Ə l i y e v**: Mən dediyiniz sözlərə görə sizə təşəkkür edirəm. Ən öncə, prezident cənab Bill Klintondan və vitse-prezident cənab Albert Qordan mənə çatdırdığınız salamlara görə də minnətdarlığımı bildirirəm.

Bir daha güman edirəm siz bu gün də gördünüz ki, mən verdiyim sözlərə və gördüyüm işlərə sadiqəm. Mən bu gün [130-131] söylədiyim qısa nitqimdə Bakı-Ceyhan xəttinin tarixini, güman edirəm, izah edə bildim. Ona görə də təkrar etmək istəmirəm. Ancaq bir daha bildirmək istəyirəm ki, həqiqətən, bu gün biz dörd il apardığımız işi son bir nəticəyə gətirib çıxardıq.

Bakı-Ceyhan boru xəttinin əsasını da biz qoymuşuq, yəni Azərbaycan qoyubdur və bugünkü bəyannamənin yaranmasının təşəbbüskarı da Azərbaycandır, bizik. Mən həmişə hiss etmişəm ki, Amerika Birləşmiş Ştatları, prezident cənab Bill Klinton və vitse-prezident cənab Qor Bakı-Ceyhan xəttinə böyük maraq göstəriblər. Vitse-prezident cənab Albert Qorun mənə son dəfə göndərdiyi məktubda da bu məsələ qaldırılmışdır. Biz bu gün bunların hamısını həyata keçirdik. Görürsünüz ki, Ankara bəyannaməsini təkcə Türkiyə, Azərbaycan, Gürcüstan yox, Qazaxıstan, Özbəkistan da imzaladılar. İndi biz işin ikinci mərhələsinə keçməliyik. Güman edirəm, bunu da edəcəyik.

Bizim bu işi aparmağımıza olan manеələri də siz bilirsiniz. Konsorsiumun bunun əleyhinə olmasını da bilirsiniz. Amma biz bu gün özümüzün siyasi iradəmizi bildirdik. Mən bundan çox məmnunam. [131]

## «MƏRMƏRƏ» QRUPUNUN STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VAQFININ KEÇİRDİYİ MƏRASİMDƏ NİTQ

*İstanbul, «Hilton» mehmanxanası*

*30 oktyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

«Mərmərə» qrupunun başçıları və bu salona toplaşmış dostlarımız, qardaşlarımız!

Mən sizi səmimi qəlbdən salamlayıram. Sizə və sizin şəxsinizdə bütün türk xalqına, Türkiyə Cümhuriyyətinin vətəndaşlarına ən dərin sevgimi və məhəbbətimi bildirmək istəyirəm.

Bilirsiniz ki, sizin ölkənizə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramı münasibətilə gəlmişəm. Bu bayramlarda əvvəldən axıradək sizinlə bərabər iştirak edirəm və biz bu gün də bu bayram içərisindəyik. Mən sizi, türk xalqını, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarını Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Türkiyəyə sülh, əmin-amanlıq və Türkiyənin vətəndaşlarına səadət, bütün işlərində uğurlar arzulayıram.

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramı eyni zamanda Azərbaycan xalqının bayramıdır. Çünki Türkiyə ilə Azərbaycan arasında, xalqlarımız arasında olan dostluq, qardaşlıq əlaqələri bunun əsasını yaradıbdır. Sizin bayramınız bizim də bayramımızdır.

Bu günlər sizin kimi, Azərbaycanda biz də, hər bir vətənpərvər azərbaycanlı iftixar hissi keçirir. Çünki 75 il bundan [132-133] öncə Osmanlı imperatorluğunun dağıntıları içərisində çox çətin şərtlər çərçivəsində belə böyük bir cümhuriyyət yaranıbdır və o, 75 ildir ki, yaşayır. Bu cümhuriyyəti yaradan, onun banisi, qurucusu, böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir. Biz bu bayramı qeyd edərkən hər şeydən öncə, bu cümhuriyyətin banisinin xatirəsinə, onun yaratdığı demokratik, dünyəvi cümhuriyyətin 75 illik tarixinə öz hörmətimizi və hədsiz sədaqətimizi bildiririk.

Həmin illərdə, Türkiyənin ağır dövründə cümhuriyyət yaratmaq böyük cəsurluq, mərdlik, qəhrəmanlıq, vətənpərvərlik və uzaqgörənlik tələb edirdi. Türk xalqının ən böyük nailiyyəti və xoşbəxtliyi ondan ibarətdir ki, XX əsrin əvvəlində ağır və çətin bir dövrdə xalqın lideri, böyük şəxsiyyəti meydana çıxdı və onun iradəsi ilə 1920-ci ildə ilk dəfə Böyük Millət Məclisi yarandı. Onun zəkası, iradəsi, uzaqgörənliyi ilə 1923-cü ildə Türkiyə Cümhuriyyəti yarandı. Biz bu tarixə, bu xidmətlərə sizin kimi həmişə minnətdarıq və sona qədər, ömür boyu minnətdar olacağıq.

Mustafa Kamal Atatürk cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu, böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir. Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını, təməlini qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.

Türkiyənin bugünkü nəsillərinin nailiyyəti yüksək qiymətə layiqdir. Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıcıl olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir. Baxmayaraq ki, bu cümhuriyyətin müxtəlif tarixi dövrlərində çətinliklər də, [133-134] müxtəlif fikirlər də olubdur. Onlar bəlkə bu gün də mövcuddur. Ancaq Türkiyə hökuməti, xalqı, vətəndaşlarının tam əksəriyyəti Türkiyə Cümhuriyyətinin Mustafa Kamal Atatürkün yolu ilə, dünyəvi yolla irəli getməsini istəyir. Biz də bunu istəyirik. Biz bütün bu məsələlərdə sizinlə bir yerdəyik, bərabərik.

Türkiyə Cümhuriyyətini 75 ildə yaşadan və bu günlərə çatdıran Türkiyənin dəyərli insanları xalqınız tərəfindən heç vaxt unudulmayacaqdır. Qardaş, dost olaraq biz də bu xidmətləri heç vaxt unutmamışıq və unutmayacağıq.

Bu gün bizi sevindirən odur ki, Türkiyə dövlətinin bu ölkəni Mustafa Kamal Atatürkün yolu ilə apara bilən liderləri vardır. Bu liderlər içərisində Türkiyənin siyasi səhnəsində 40 ildən çox fəaliyyət göstərən və böyük uğurlar qazanan Türkiyə prezidenti, cümhur başqanı, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəldir.

Mən bu hissiyyatlarla, duyğularla bu günlərdə Türkiyədəyəm, bu böyük bayramı sizinlə birlikdə keçirirəm. Mən məhz bu hissiyyatlarla sizin dəvətinizi qəbul edib Ankaradan İstanbula gəldim, indi burada sizin qrupla görüşürəm. Sizinlə bu görüşə gecikməyimizin səbəbkarı mən deyiləm, təyyarədir. Mən Ankara hava limanında buraya gəlməkdən ötrü bir saat gözləməli olmuşam.

Mən əvvəl də bilirdim, amma bu gün hiss etdim ki, ‘‘Mərmərə’’ qrupu həqiqətən çox böyük hörmətə layiqdir.Buraya dəvət olunanların adları artıq çəkildi. Mən hiss etdim ki, buraya görkəmli iş adamları, elm xadimləri, alimlər, ziyalılar, yazarlar, mühəndislər, dövlət adamları toplaşıblar. Şübhəsiz ki, belə tərkibdə bir qruq öz işlərində çox uğurlu ola bilər. Mən belə başa düşdüm ki, siz 14 ildir fəaliyyət göstərirsiniz. Sizin

fəaliyyətiniz indiyə qədər uğurlu olubdur. Mən ümid edirəm ki, bundan sonra da uğurlu olacaqdır. Hər halda [134-135] "Mərmərə" qrupu mənim şəxsimdə öz dostunu qəbul edə bilər.

Azərbaycan barədə, bizim həyatımız haqqında, mənim haqqımda sizin yetərli qədər məlumatlarınız vardır. Burada verilən məlumatlardan gördüm ki, siz hər şeyi bilirsiniz. Ona görə də mən burada əlavə məlumat verməyimə ehtiyac duymuram. Bu da çox sevindiricidir ki, siz bunları bilirsiniz. İnsan o şeyi bilir ki, onunla maraqlanır. Əgər sən bir şey ilə maraqlanmasan, onu bilməyəcəksən. Əgər sən bir şey bilirsənsə, deməK, sən onunla maraqlanmısan, öyrənmisən, ona görə də bilirsən.

Mən çox məmnunam ki, Türkiyədə Azərbaycana böyük maraq var. Türkiyə Azərbaycanı həmişə öyrənir, bilir, Azərbaycanın keçmişini də, həyatını da, bu gününü də bilir. Bu da bizim dostluğumuzun, qardaşlığımızın və gələcək iş birliyimizin çox uğurlu olduğunu göstərir.

Azərbaycan yeddi ildir ki, öz dövlət müstəqilliyini elan edibdir. Mən Azərbaycan dilində danışıram. Bilirsiniz, mən sizinlə Türkiyə türkcəsində sizin kimi danışa bilərəm. Yəni Türkiyə türkcəsində danışmaq imkanım var. Ancaq mən bunu etmirəm. Çünki mən istəyirəm ki, siz də mənim dilimi öyrənəsiniz, mən sizin dilinizi bildiyim kimi, siz də mənim dilimi biləsiniz. Ancaq bu dillərin də fərqi yoxdur. Bunlar eyni dildir. Bizim ən böyük uğurumuz, ən böyük xoşbəxtliyimiz odur ki, əcdadlarımız, ulu babalarımız bizi eyni dildə yaşadıblar və bu dil də tarix boyu yaşayıbdır.

Dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq, Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır, bir dilimiz vardır. Ancaq Azərbaycan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur. [135-136]

Mən slavyan dilləri qrupunu da yaxşı bilirəm. Slavyan dilləri qrupuna bir çox dillər daxildir. Ancaq Ukrayna ilə Rusiyanı götürsək, onlarda Azərbaycan - Türkiyə qədər yaxınlıq yoxdur. Bu, bizim - Türkiyə ilə Azərbaycanın bir-biri ilə nə qədər əlaqəli olmasını göstərir. Ona görə də bizə tərcüməçi lazım deyildir. Mən dediyimi siz anlayırsınız, siz dediyinizi isə mən anlayıram. Mən sizi Azərbaycan dilində danışmağa öyrətmək istəyirəm. Ona görə də mənim dilimi dinləyin və hansı sözü anlamasanız məndən soruşun. Mən onu sizə izah edərəm.

Əziz dostlar, beləliklə, bugünkü görüş Türkiyə – Azərbaycan dostluğunun yeni bir təzahürüdür. Bilirsiniz, dostluq hissələrdən ibarətdir. İnsanların, ailələrin, qrupların bir-biri ilə dostluğu, əlaqələri xalqların, ölkələrin, dövlətlərin dostluğunu yaradır. Biz bax, beləliklə, belə görüşlərlə dostluğumuzu daha da inkişaf etdiririk, daha da möhkəmləndiririk.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti Türkiyə ilə dostluğuna, qardaşlığına, əməkdaşlığına xüsusi əhəmiyyət verir. Bu, Azərbaycanın prezidenti kimi mənim xarici siyasətimin əsas istiqamətlərindən biridir və bundan sonra da belə olacaqdır. Bu, xalqın ürəyindən gələn hissiyyatlardır. Amma xalqın ürəyindən gələn hissiyyatları dövlət siyasətinə keçirməyin özü də çox əhəmiyyətlidir. Çünki Azərbaycana bir müstəqil dövlət kimi müxtəlif yerlərdən, cürbəcür istiqamətlərdən maraq çoxdur. Soruşurlar ki, Azərbaycan hansı ölkə ilə daha yaxındır, Azərbaycan ən çox hansı ölkəyə önəm, diqqət verir, Azərbaycan hansı ölkə ilə daha yaxın əlaqə qurur. Bunları sual verənlər çoxdur. Amma dünya da bilir, qoy hamı da bilsin – Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm ki, bu dostluğumuz əbədidir, sarsılmazdır. [136-137]

Biz yeddi ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Amma bu illər bizim üçün çox ağır bir dövr olubdur. Bilirsiniz ki, Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən 10 il bundan öncə, 1988-ci ildə Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz, Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdi olmuşdur. Bunun əsasında müharibə, savaş başlanmışdır. Ancaq bu, istənilən nəticəni verməmişdir. Cürbəcür səbəblər olmuşdur. Siz bunları bilirsiniz. Bunların nəticəsində Azərbaycan öz torpaqlarının bir qismindən geri çəkilibdir, yəni Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının yüzdə iyirmi faizini işğal edibdir. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı, Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıbdır. İndi onların əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayırlar və şübhəsiz ki, öz torpaqlarına qayıtmaq istəyirlər. Ancaq məlumdur ki, o işğal olunmuş torpaqlarda hər şey viran edilib, dağıdılıbdır. Orada Azərbaycanın əsrlər boyu topladığı iqtisadi potensial dağıdılıbdır. İnsanların əsrlər boyu qurduğu, yaratdığı evlər, əmlak, hər şey dağıdılıbdır. Bizim dini ocaqlarımız – məscidlərimiz, camelərimiz dağıdılıbdır. Xalqımızın qəbiristanlıqları, müqəddəs yerləri dağıdılıbdır. Bu, Azərbaycanın həyatının bütün sahələrini pozmuş bir haldır.

Bilirsiniz ki, 1994-cü ilin may ayında biz atəşi dayandırdıq və atəşkəs haqqında saziş imzaladıq. İndi dörd ildən artıqdır ki, atəş yoxdur. Atəşkəs şəraitində, rejimində yaşayırıq. Ancaq hələ tam sülh də əldə etməmişik. Biz sülh istəyirik. Ancaq sülhün də şərti vardır. Bu şərt ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, Azərbaycanın ərazi, torpaq bütövlüyü təmin olunmalıdır. Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən tanınmış dövlət sərhədlərinin hamısı təmin olunmalıdır və bunun nəticəsində Ermənistanla Azərbaycan arasında sülh yarana bilər. Dağlıq Qarabağ [137-138] Azərbaycanın tərkibində kiçik bir vilayətdir. Orada 50 min azərbaycanlı yaşayırdı, onlar oradan

çıxarılıbdır. Orada cəmi 100 min erməni yaşayır. Nəhayət, onlar üçün Dağlıq Qarabağa özünüidarəetmə statusu verməyə razı olmuşuq.

Mənim əziz dostum burada çıxışında bildirdi ki, 1996-cı ilin dekabr, yəni aralık ayında ATƏT-in Lissabon zirvə görüşündə biz bu şərtləri qəbul etdirə bildik. 54 dövlətdən Ermənistan istisna olmaq şərti ilə, - Ermənistan bunu dəstəkləmədi, - 53 dövlət başçısı bunu qəbul etdi və Lissabon zirvə görüşündə belə bir qərar qəbul edildi. Fürsətdən istifadə edib demək istəyirəm ki, həmin o tarixi qərarın qəbul olunmasında da Türkiyənin böyük xidmətləri olmuşdur. Biz Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsi üçün, Dağlıq Qarabağ məsələsini həll etmək üçün həmişə Türkiyə ilə bərabərik, Türkiyə həmişə bizə dəstək verir, kömək edir və Türkiyə bizimlə birlikdə bu məsələnin həll olunmasına çalışır. Biz Lissabonda da bir yerdə idik. Mənim dostum Süleyman Dəmirəl də, mən də Lissabonda idik. Biz bir yerdə çalışdıq və Türkiyənin, Süleyman Damirəlin dəstəyi, bir çox başqa dövlətlərin dəstəyi, demək olar ki, 54 dövlətdən 53-nün bizə dəstək verməsi nəticəsində Lissabon zirvə görüşünün qərarı qəbul olunubdur. Biz indi bunun əsasında tamamilə sülh əldə etmək istəyirik. Mustafa Kamal Atatürkün dediyi sözlər təkcə Türkiyə üçün yox, hamı üçün bu gün də aktual sözlərdir: «Yurdda sülh, bölgədə sülh, cahanda sülh». Biz bunu istəyirik.

Bu barədə, bu mövzuda danışarkən mən xüsusi qeyd etmək istəyirəm ki, - burada bu, bir daha səsləndi, - bizim mücadiləmizdə Türkiyə Azərbaycanla bərabər hərəkət edir və edəcəkdir. Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir ki, Türkiyə Ermənistanla ümumi sərhədi olmasına baxmayaraq, indiyə qədər Ermənistanla diplomatik əlaqələr qurmayıbdır, Ermənistanla heç bir iş birliyi yapmır və Türkiyə Ermənistana bəyan edibdir ki, Azərbaycanın işğal olunmuş torpaq[138-139]larından Ermənistan silahlı qüvvələri çıxmayana qədər, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə, heç bir ilişki ola bilməz. Biz bunu yüksək qiymətləndiririk. Bizim xalqımız da buna çox həssasdır.

Mən 1996-cı ildə Türkiyəyə gələndə burada bir neçə söz dedim. Bəzi iş adamları ticarət naminə sərhədlərin açılması, Qarsdan qapının açılması, İqdırdan qapının açılması və s. məsələləri qoymuşdular. Mən gəldim. Böyük Millət Məclisində nitq söylədim, gəldim, İstanbulda da nitq söylədim. Mən dedim ki, bilirsiniz, bizim Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı hər bir ticarətdən alınan gəlirdən qat-qat üstündür. Bizim bu dostluğumuzu, qardaşlığımızı ticarətə qurban vermək olmaz. Bizim xalqımız etiraz etmişdi, qəzetlər yazmışdı ki, bəzi iş adamları Ermənistana getmişdilər, orada iş birliyi yaratmaq istəmişdilər. Sonra mənim dostum Süleyman Dəmirəl bir çox ağıllı, gözəl sözlər dedi. Dedi ki, bu, bizdən asılı deyildir. Bu, Türkiyə xalqından, kamoyundan asılıdır. Kimsə bunu istəsə Türkiyə xalqı, Türkiyə kamoyu buna yol verməz. Biz buna görə minnətdarıq. İnanıram ki, biz bu və bütün başqa məsələlərdə sona qədər bir olacağıq. İnanıram ki, biz birlikdə mücadilə edib, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik. Bütün Qafqazda, bütün bölgədə tam sülhün yaranması bizim üçün də, Türkiyə üçün də, Ermənistan üçün də lazımdır. Ermənistan özü anlamır ki, indi artıq Ermənistan tamam təcrid olunmuş vəziyyətdə qalıbdır.

Məsələn, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində bütün Qafqaz burada, dünyanın bütün ölkələri burada, Mərkəzi, Orta Asiya hamısı burada, amma Qafqazdan bir Ermənistan yoxdur. Ermənistan təcrid olunmuş vəziyyətdə qalıbdır. Ona görə də Ermənistan bunu anlamalıdır. Siz də, biz də bilirik ki, ermənilər tarixən Türkiyəyə qarşı, Azərbaycana qarşı nə qədər cinayətlər ediblər. Onlar bizə qarşı cina[139-140] yətlər ediblər, amma eyni zamanda bütün dünyaya yayıblar ki, guya Türkiyə Ermənistana qarşı soyqırım edibdir. Bu, yanlış bir fikirdir. Türkiyə heç vaxt soyqırım etməyibdir. Ermənilər Türkiyəyə qarşı soyqırım ediblər. Ermənilər Azərbaycana qarşı soyqırım ediblər. 1918-ci ildə Bakıda ermənilər böyük bir qırğın törətdilər və Türkiyə ordusu gəlib azərbaycanlıları ermənilərin əlindən xilas etdi. Bütün bu tarix bizi birləşdiribdir və biz bundan sonra da bir olacağıq. Bizim bugünkü, gələcək işlərimizin əsası məhz buradadır.

Siz bu gün Bakı – Ceyhan boru xətti haqqında danışdınız və mənim xidmətlərimi qiymətləndirdiniz. Çox təşəkkür edirəm. Mən məmnunam ki, bunu Türkiyədə hamı anlayır, bilir və buna lazımi qiymət verir. Həqiqətən, bu, tarixi bir hadisədir, olaydır. Çünki Xəzər dənizinin enerji ehtiyatlarının dünyaya açılmasının əsasını, təməlini Azərbaycan qoyubdur, Azərbaycan 50 ildir ki, Xəzər dənizində neft hasil edir. Ancaq bu onu Sovetlər Birliyi çərçivəsində edirdik. Azərbaycan müstəqillik, istiqlaliyyət əldə edəndən sonra, Azərbaycan suveren dövlət olandan sonra bütün işlərini, öz taleyini özü həll edir. Mən bunu dünən imzalanma mərasimində də dedim. Dedim ki, indi ən böyük hadisə bir də ondan ibarətdir ki, biz müstəqilik, müstəqil olaraq özümüz öz taleyimizi həll edirik və istədiyimiz addımı atırıq. Dünən Bakı – Ceyhan haqqında bəyannamənin imzalanması da tarixi bir hadisə olmuşdur.

Biz buna uzun bir yol ilə gəlmişik. Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan dünyanın ən böyük şirkətləri ilə, 7 ölkənin 11 şirkətinin yaratdığı bir konsorsiumla müqavilə imzaladı. Bu, dünyada bir partlayış oldu. Elə bil ki, bomba partladı. Çünki bu, böyük müqavilədir və buna dünya «Əsrin müqaviləsi» adı verdi. Buna sevinənlər də oldu, ancaq bundan rahatsız olanlar da oldu. Azərbaycana qarşı təzyiqlər, basqınlar başladı: - Nə üçün Azərbaycan bunu etdi? Nə [140-141] üçün Azərbaycan Amerika, İngiltərə, Türkiyə, Norveç və başqa ölkələrin şirkətlərini Xəzər dənizinə gətirdi? – Bizi qınadılar, məhkum etdilər, bizim əleyhimizə təbliğat apardılar. Guya bu müqavilə həyata keçməyəcəkdir, çünki Xəzər dənizinin

statusu məlum deyildir. Hətta o müqaviləni imzalayan şirkətlər qorxdular, bizim yanımıza gəldilər ki, bu nədir, deyirlər bu müqavilə işləməyəcəkdir.

Rusiya bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Amma Rusiyanın bir şirkəti bu müqavilənin içindədir. Rusiyanın xarici işlər nazirliyi bəyanat verdi ki, Rusiya bu müqaviləni tanımır. Başqa bir xarici Qərb ölkəsinin xarici işlər naziri mənim yanıma gəldi, dedi ki, bəs nə olacaqdır, bunu tanımırlar. Dedim, bunun tanınmamasına görə sən niyə rahatsız olursan? Bizə onların tanıması lazımdırmı? Bizim buna ehtiyacımız yoxdur.

Sonra Xəzər dənizinin statusu məsələsi meydana çıxdı: «Xəzər dənizinin statusu müəyyən olunmayıbdır, belə halda bu müqaviləni imzalamaq olmaz». Biz də dedik ki, Xəzər dənizinin statusu hələ 1970-ci ildə Sovetlər Birliyi tərəfindən müəyyən olunubdur. Çünki o vaxt Xəzər dənizi Sovetlər Birliyinə məxsus idi. Xəzər dənizinin cənubunun kiçik bir hissəsi İrana məxsus idi. Qalan hamısı Sovetlər Birliyinə məxsus idi. İndi Sovetlər Birliyi dağılıbdır. Xəzər dənizi ətrafında ölkələr vardır – Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran. Cəmi beş ölkə. Keçmişdə yaranmış ənənəyə görə Xəzər dənizi sektorlara bölünübdür. Burada yerləşən hər cümhuriyyətin Xəzər dənizində öz sektoru vardır. Biz öz sektorumuzun içindəyik, öz sektorumuzdan kənara çıxmamışıq. Söylədilər ki, bu sektor prinsipi qəbul edilmir. Xəzər dənizi ümumi dəniz olmalıdır – kim harada istəyir, qoy orada iş görsün. Biz isə dedik ki, belə olmaz. Bu sektor prinsipini bizdən başqa heç kəs qəbul etmədi. Ancaq mən sizə deyə bilərəm ki, indi hamı, bütün Xəzər dənizi [141-142] ölkələri – Rusiya da, Qazaxıstan da, Türkmənistan da, hətta İran da sektor prinsipini qəbul edir. Yəni 1994-cü ildə bizim müqavilənin əleyhinə çıxanlar deyirdilər ki, sektor prinsipi qəbul olunmur, status müəyyən deyil və bu işi görmək olmaz.

Amma görün onlar nə işlər gördülər. 1994-cü il sentyabr ayının 20-də biz müqavilə imzaladıq. Sentyabr ayının 21-22-də Azərbaycanda böyük bir cinayət törədildi. Azərbaycanda dörd cinayətkar bir ölkənin xüsusi xidmət orqanları tərəfindən həbsxanadan çıxarılıb qaçırıldı. Azərbaycan daxilində bir qarışıqlıq yarandı.

Mən Nyu-Yorka, Birləşmiş Millətlər Təşkilatının toplantısına getmişdim. Mən Nyu-Yorkda olanda Azərbaycanın Milli Məclisinin başqa yardımçısını və bir albayı terror edib öldürdülər.

Mən Nyu-Yorkdan geriyə dönərkən buraya, İstanbula gəldim. Süleyman Dəmirəl məni burada qarşıladı. Azərbaycanda elə bir vəziyyət yaranmışdı ki, Azərbaycanda artıq çevriliş baş verirdi. Güman edirdilər ki, Heydər Əliyev Azərbaycana qayıda bilməyəcəkdir. Ancaq mən buraya, İstanbula gəldim. Burada dostum Süleyman Dəmirəllə görüşdüm və Bakıya getdim. Ondan bir həftə sonra, oktyabr ayının 3-4-də Azərbaycanda çevriliş, dərbə olayı başladı. Mən nə etməli idim? O vaxt mənim əlimdə o qədər də güc, silah yox idi. O vaxta qədər Azərbaycanın durumu ayrı-ayrı qanunsuz silahlı dəstələrin əlində idi. Mən televiziya vasitəsilə xalqa müraciət etdim. Siz onu eşitdiniz. İki saatın içərisində gecə vaxtı prezident, cümhur başqanı sarayının önünə yarım milyon insan toplaşdı. Onlar Azərbaycanın dövlətini, Azərbaycanın prezidentini, cümhur başqanını qorudular.

Çevriliş cəhdini nə üçün edirdilər? Bu, həmin o müqaviləyə zərbə vurmaq üçün edilirdi. Bunu bizi pozmaq, müstəqil Azərbaycan dövlətini dağıtmaq üçün etdilər. Amma biz dözdük, bunun qarşısını aldıq. [142-143]

1995-ci ilin mart ayında da bir dərbə olayı oldu. Siz bunu bilirsiniz, bu məlumdur. Təəssüflər olsun ki, Türkiyədən də bəzi məmurlar, Türkiyənin Bakıdakı böyük elçiliyində işləyənlərin bəziləri də bu işə qatılmışdılar. Siz bunu bilirsiniz. Onlar da Azərbaycanın prezidentini öldürmək, hakimiyyəti ələ almaq istəyirdilər. Bu da cürbəcür ölkələrin xüsusi xidmət orqanlarının işləri idi. Bu da Azərbaycanın nefti üçün edilirdi, Azərbaycanın o müqaviləsini dağıtmaq üçün edilirdi. Biz bunun da qarşısını aldıq.

Sonra biz işləməyə başladıq. Dedilər ki, bu olmayacaq, o olmayacaq və s. Ancaq işlədik və keçən il noyabr ayının 12-də ilkin nefti aldıq. Hörmətli Baş nazir Məsud Yılmaz da gəlib orada bizim bayramımızda iştirak etdi. Oraya bütün dünya gəldi. İlkin nefti aldıq və onu Bakı – Novorossiysk xətti ilə Rusiyanın Qara dənizdə olan Novorossiysk limanına ixrac etdik. İndi ora neft gedir.

Həmin o «Çıraq» neft yatağında səkkiz quyu qazılıbdır. Biz hər quyudan bir gündə 500 ton neft gözləyirdiksə, indi iki min ton, yəni dörd dəfə artıq alırıq. İndi həmin o bir yataqdan gündə 10 min ton neft çıxır. Amma orada 8 quyu yox, 24 quyu olmalıdır və bu yaxınlarda da olacaqdır. Demək, gündə üç dəfə artacaqdır. Hesablayın, bir yataqdan gündə 30-35 min ton neft çıxacaqdır. Biz müqaviləni imzalayanda üç yataqdan – «Azəri», «Çıraq», «Günəşli» yataqlarından proqnoz olaraq 510 milyon ton neft gözlənilirdi. Amma işlədiyimiz müddətdə bu rəqəm artıb – 630 milyon ton neft gözlənilir.

Biz sonralar yeni müqavilələr imzaladıq. Dörd il içərisində biz 15 müqavilə imzalamışıq. Hər bir müqavilənin özünün böyük bir işi vardır və bütün bu 15 müqavilədən gözlədiyimiz proqnoza görə, bir milyard beş yüz milyon ton neft çıxacaqdır, ola bilsin ki, 60-70 milyard kubmetr qaz çıxacaqdır. 15 Müqavilə üzrə şirkətlərin Azərbaycana yatırımı 50 milyard dollar məbləğində olacaqdır. [143-144]

Bilirsiniz ki, bu nefti ixrac etmək lazımdır. Yenə də bizə maneçilik törədirdilər. Mən Bakı-Ceyhanı 1994-cü ildə bəyan etdim. Yəni bildirdim ki, Azərbaycandan dünya bazarına çıxan neft Bakı – Ceyhan xətti ilə getməlidir. Dörd ildir ki, biz bu Bakı – Ceyhan marşrutunu reallaşdırmaq üçün çalışmışıq.

Türkiyədə də çox rahatsızdırlar. Hər dəfə Türkiyənin qəzetçiləri məndən soruşanda – ya buraya gələndə, yaxud da başqa yerdə – birinci sual belə olubdur ki, Bakı –Ceyhan necə olacaqdır? Hər dəfə demişəm ki, Bakı – Ceyhan olacaqdır. Nə vaxt olacaqdır? Demişəm ki, tələsməyin, gözləyin, olacaqdır. Mən bunu bir-iki il bundan öncə İstanbulda demişəm, Bakıda Türkiyənin bütün mətbuat nümayəndələrinin hamısına demişəm. İndi bu gün sizə də deyirəm. Bakı – Ceyhan artıq var.

Dünən bizim imzaladığımız bəyannaməni bir neçə vaxtdır hazırlayırdıq. Şübhəsiz ki, bu bəyannamə birinci növbədə Azərbaycan ilə Türkiyə arasında idi. Amma Gürcüstan olmasa biz Türkiyəyə keçə bilmərik. Deməк, Gürcüstan da olmalıdır. Ancaq biz son vaxtlar işlərimizi genişləndiririk və bu işə Qazaxıstan da, Özbəkistan da cəlb olundu. Hətta biz Türkmənistanı da cəlb etməyə çalışdıq, amma o, dünən imza atmadı. Güman edirəm, gələcəkdə atacaqdır.

Beləliklə, əgər dörd il bundan öncə Bakı – Ceyhan haqqında ancaq Azərbaycan və Türkiyə düşünürdüsə, indi, dörd il keçəndən sonra Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və ABŞ-ın energetika naziri bu bəyannaməni imzaladı, bunu, Bakı-Ceyhanı dəstəklədi. Bu, artıq real bir şeydir.

Doğrudur, buna bu gün də mane olanlar vardır. Siz bilməlisiniz ki, digər konsorsiumlar hələ iş aparırlar. Amma Xəzər dənizindən neft çıxaran əsas konsorsium – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti 11 şirkətdən ibarətdir. Bunlar [144-145] Bakı – Ceyhanı istəmirlər və bir neçə dəfə bizim Dövlət Neft Şirkətində olublar, rəqəmlər, yazılar, kağızlar veriblər. Onlar deyirlər ki, «Bakı-Ceyhan bahadır, biz ucuz istəyirik. Siyasət bizə lazım deyildir. Bizə para, kommersiya lazımdır. Biz para qoymuşuq və para, qazanc götürmək istəyirik». Son zamanlar onlar Bakı-Ceyhanın qiymətini də artırıblar. Məlumat verdilər ki, bu, 3 milyard 900 milyon dollara başa gələcəkdir. Bir il bundan öncə demişdilər ki, 2 milyard 700 milyon dollar olacaqdır. İndi deyirlər 3 milyard 900 milyon dollar. Şübhəsiz ki, bu paranı, vəsaiti onlar qoymalıdırlar. Buraya özəl şirkətlər para qoya bilməz, bunu onlar qoymalıdırlar. Çünki bu layihəni onlar həyata keçirirlər.

Məsələn, indiyə qədər həmin konsorsium Azərbaycana 1 milyard 600 milyon dollar yatırım, sərmayə gətiribdir. Yəni indiyədək görülən işlərə 1 milyard 600 milyon dollar yatırım qoyulubdur. Bundan sonra da qoyulacaqdır.

Mən sizə dedim, Bakı–Novorossiysk boru xətti tikildi. İndi oradan neft gedir. İndi Gürcüstanın Qara dənizdə Supsa limanı vardır, oraya Bakı–Supsa boru xətti çəkilir. O da gələn il aprel ayının sonuna qədər hazır olacaqdır. Biz oradan da neft ixrac edəcəyik. Ona görə də konsersiumun rəhbərləri deyirlər ki, bizim iki boru xəttimiz vardır - biri Novorossiyskə, biri də Supsaya gedir. Hələ ki, biz çıxardığımız nefti ixrac edirik. Bakı–Ceyhanı tikməyə nə üçün tələsməliyik, ora nə üçün para qoymalıyıq? Biz paranı qoyan kimi, gərək qazancı da götürək. Bunları da anlamaq, başa düşmək olar. Ona görə də onlar buna etiraz edirlər.

Mən buraya gəlməmişdən öncə onları qəbul etdim, onlarla danışdıq. Bizim Dövlət Neft Şirkətinin prezidenti və onlar mənə 15 gün ərzində bu layihənin həqiqi qiyməti barədə birgə hesabat verməlidirlər. Bunlara baxmayaraq mən qərar qəbul etdim ki, Bakı–Ceyhan yaradılmalıdır və bu bəyannamə imzalanmalıdır. Bilin ki, bu bəyannamənin layihəsini də biz [145-146] hazırlamışıq. Burada Türkiyəyə və başqalarına payladıq və dünən də buna imza atdıq. Bu, tarixi bir hadisədir.

Hesab edirəm ki, Bakı–Ceyhan bir bu gün, ya da sabah üçün deyildir. Bizim bu işimiz yüz ildən çox yaşayacaqdır. Mən sizə dedim, çünki bizim Azərbaycan sektorunla 15 müqavilə imzalanıbdır. İndi Qazaxıstan bizdən rica edir. Qazaxıstanın həm Xəzər dənizi sektorunda, həm də qurudakı «Tengiz» yatağında çoxlu nefti vardır. Onlar da bunu ixrac etmək istəyirlər. Gələcəkdə Türkmənistan da bu yol ilə getməyə məcbur olacaqdır, bu da olacaqdır.

İndi mən deyirəm ki, bizim müqavilələr üzrə bir milyard 500 milyon ton proqnozlaşdırılır, amma bu proqnoz bir neçə dəfə artacaqdır. Onlar da gələcəkdir. Ona görə bu, ən azı XXI əsrin sonuna qədər yaşayacaqdır. Biz xalqlarımızı, dövlətlərimizi, ölkələrimizi birləşdirən və gələcək nəsillərə XXI əsrdə böyük bir töhfə olan Bakı–Ceyhan boru xətti haqqında bəyannaməni dünən imzaladıq. Mən bunu böyük tarixi hadisə hesab edirəm və bu münasibətlə sizi də təbrik edirəm. Sizin bu işə yüksək diqqət verməyinizi, maraq göstərməyinizi mən qiymətləndirirəm və əmin ola bilərsiniz ki, Azərbaycanın siyasəti, Azərbaycan prezidenti Heydər Əliyevin siyasəti sabitdir və axıra qədər də sabit olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında olan əməkdaşlıq, iş birliyi genişdir. Mənim dostum artıq bu barədə dedi ki, Azərbaycanda Türkiyənin 10 mindən çox insanı çalışır. Şirkətlər çoxdur. Amma hələ imkanlar da bundan çoxdur.

Mən prezident seçiləndən sonra oktyabr ayının 18-də andiçmə mərasimində demişəm və bunu burada bir daha bəyan edirəm: Biz Azərbaycana xarici sərmayənin, yatırımın gəlməsi üçün daha da əlverişli şərtlər yaradacağıq. Mən bilirəm ki, Azərbaycanda bəzi iş adamlarının iş görməsi üçün ayrı-ayrı məmurlar maneçilik edirlər. Ayrı-ayrı yerlərdə bəlkə qanunlar da o qədər ona imkan vermir. Bilin ki, bunlar bizə [146-147] çatır. Amma siz də anlayın ki, mən müstəqilliyin yeddi ilinin beş ilində bütün bu mərhələləri keçib gəlməyə məcbur oldum. Bunların hamısını birdən etmək mümkün deyildir. Ancaq biz bunları edirik və edəcəyik. Yəni xarici sərmayənin, o cümlədən Türkiyədən yatırımların, iş adamlarının gəlib Azərbaycanda iş görməsi üçün biz bundan sonra daha da uyğun, əlverişli şərait yaradacağıq.

Mən hesab edirəm ki, bugünkü görüşümüz Türkiyə - Azərbaycan dostluğunun, əməkdaşlığının inkişaf etməsi üçün yeni bir addımdır. Ona görə bu görüşə, mənə göstərdiyiniz bu qayğıya, diqqətə, hörmət və ehtirama görə sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, mən bundan sonra da bu dostluğa, bu qardaşlığa sadiq olacağam. Sağ olun.

***Görüş iştirakçılarının ümumiləşdirilmiş sualına cavab.***

**S u a l**: **Çox hörmətli prezident**, **Sizcə**, **petrol boğazlardan keçməlidir**, **yoxsa keçməməlidir**?

**C a v a b**: Bakı -Ceyhan boru xəttinin əsas mənası ondan ibarətdir ki, petrol, neft boğazlardan keçməsin, petrol Bakı - Ceyhan xətti ilə Ağ dənizə çıxsın. Ancaq konsorsium, - hansı ki, bu Bakı - Ceyhan xəttinə etiraz edir, - o, hesab edir ki, bu nefti Gürcüstanın Qara dənizdəki Supsa limanına qədər boru xətti ilə daşımaq, oradan isə tankerlərlə Qara dənizin Qarasu limanından İzmirə qədər 50 kilometrlik bir boru xətti keçirmək olar və oradan da Mərmərə dənizinə çıxarmaq olar. Türkiyə tamamilə bunun əleyhinədir. Dünən Türkiyənin cümhur başqanı və bütün Türkiyə hökuməti bildirdilər ki, Türkiyə çıxarılan petrolun, neftin bundan sonra boğazlardan keçirilməsinə heç vaxt razı olmayacaqdır. Ona görə də Bakı–Ceyhan xətti lazımdır. [147]

## «SAVARONA» GƏMİSİ İLƏ GƏZİNTİ

*İstanbul*

*30 oktyabr 1998-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev Türkiyənin Baş naziri Məsud Yılmazla birlikdə Mərmərə dənizi sahilində yerləşən Quruçeşmə limanına gəldi.*

*Türkiyə Cümhuriyyətinin yubileyində iştirak edən Pakistan prezidenti Məhəmməd Rəfiq Tərar, Qırğızıstan prezidenti Əsgər Akayev, Bolqarıstan Xalq Məclisinin sədri Jordan Sokolov, Ukraynanın Baş naziri Valeri Pustovoytenko və digər ölkələrdən gəlmiş hörmətli qonaqlar, Türkiyənin yüksək vəzifəli şəxsləri, dövlət və iş adamları da burada idilər.*

*Böyük öndər Mustafa Kamal Atatürkün vaxtilə mindiyi «Savarona» gəmisi sahilə yan aldı.*

*Gəmidə Türkiyə Cümhuriyyətinin yaranmasından və böyük Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən bəhs edən «Cümhuriyyət» filmi nümayiş etdirildi.*

*Sonra ali qonaqlar Mustafa Kamal Atatürkün adını daşıyan «Savarona» gəmisində gəzintiyə çıxdılar.*

*Heydər Əliyev gəmidə düzəldilmiş Atatürk muzeyini ziyarət etdi, burada saxlanılan xatirə əşyaları və sənədlərlə tanış oldu.*

*Muzeyin fəxri qonaqlar kitabına ürək sözləri:*

*«Türkiyə Cümhuriyyətinin banisi, qurucusu ulu öndər Mustafa Kamal Atatürkün gəmisini cümhuriyyətin 75-ci ildönümü günü ziyarət etmək mənə nəsib olduğundan böyük* [148-149] *qürur duyuram. O böyük şəxsiyyətin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev.*

*30 oktyabr 1998-ci il».*

*Gəzinti başa çatdıqdan sonra Heydər Əliyev «TRT-1» televiziya kanalının İstanbul bölməsi vasitəsilə Türkiyə xalqına, dost və qardaş ölkəyə cümhuriyyətin 75-ci ildönümü münasibətilə sülh, əmin-amanlıq, səadət, gələcək illərdə işlərində uğurlar və müvəffəqiyyətlər arzuladı, ən xoş arzu və diləklərini çatdırdı.* [149]

## TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA GÖRÜŞDƏKİ ÇIXIŞ

*İstanbul, «Hilton» mehmanxanası*

*31 oktyabr 1998-ci il*

Hörmətli Baş nazir, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə sizə təbrik məktubu gətirmişəm. Bu günlərdə sizə təqdim etmək imkanı olmadı, ancaq indi bunu sizə rəsmən təqdim edirəm. Burada Türkiyənin Baş bakanı olaraq sizə cümhuriyyətinizin 75-ci ildönümü münasibətilə mənim təbrikim yazılıbdır. Mən bunu sizə təqdim edirəm. Sizi bir daha təbrik edirəm. Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına və şəxsən sizə uğurlar, başarılar diləyirəm.

Mən bu günlər Türkiyəyə gəlməyimdən və Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü bayramında sizinlə, türk xalqı ilə bərabər olmağımdan çox məmnunam. Mən buraya Azərbaycan xalqının sevgisini, məhəbbətini Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyənin vətəndaşlarına çatdırmaq üçün gəlmişəm. Artıq bu gün Azərbaycana dönürəm. İndi hörmətli dostum. Türkiyənin Baş naziri cənab Məsud Yılmazla da bəzi məsələləri müzakirə edəcəyik və bu da demək olar ki, mənim görüşümün son mərhələsidir. Bundan sonra Azərbaycana, Bakıya gedirəm.

Bu günlər burada olduğum zaman mən Türkiyə Cümhuriyyətinin 75 il ərzində keçdiyi böyük şanlı yolun, əldə edilən böyük nailiyyətlərin bir daha şahidi oldum. Biz daim Türkiyənin həyatını izləyirik, onunla maraqlanırıq. Türkiyənin həyatında baş verən hər bir hadisə bizim üçün maraqlıdır. [150-151]

Şübhəsiz, biz istəyirik ki, həmişə uğurlar olsun, həmişə nailiyyətlər olsun. Xoşbəxtlik də ondan ibarətdir ki, bunlar vardır və Türkiyə Cümhuriyyəti 75-ci ildönümü münasibətilə bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə böyük, əzəmətli bir dövlətdir, dünya miqyasında özünəməxsus yerini tutubdur.

Türkiyə Cümhuriyyəti türk xalqını, Türkiyəni böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə uğurla aparır. Bu günlər bayramlarda olduğum zaman bir daha düşündüm ki, Mustafa Kamal Atatürk cümhuriyyəti yaratmaqla, qurmaqla nə qədər böyük uzaqgörənlik, nə qədər böyük alilik göstəribdir. Məmnunedici cəhət bir də ondan ibarətdir ki, Türkiyənin bugünkü rəhbərləri, yönəticiləri – Türkiyənin hökuməti, Türkiyənin dövləti Mustafa Kamal Atatürkün yoluna sadiqdirlər, bu yol ilə gedirlər və Türkiyə bu gün də, gələcəkdə də Dünya Birliyində bir cümhuriyyət, iqtisadi cəhətdən, demokratiya cəhətdən inkişaf etmiş dünyəvi bir dövlət, ölkə kimi yaşayır və yaşayacaqdır.

Mən türk xalqını, Türkiyə Cümhuriyyətini bu nailiyyətlərlə, bu bayram münasibətilə bir daha təbrik edirəm və bu günlərdə burada olduğum zaman son görüşümü- mənim dostum, Türkiyənin Baş naziri, Azərbaycanda çox hörmətli olan cənab Məsud Yılmazla görüşümü də çox əhəmiyyətli hesab edirəm. Hesab edirəm ki, biz bu görüş zamanı bəzi məsələləri də müzakirə edəcəyik. Bu məsələlər də yalnız və yalnız Azərbaycan - Türkiyə əlaqələrini inkişaf etdirməkdən ibarətdir.

Bilirəm ki, hamınızı Bakı - Ceyhan layihəsi maraqlandırır. Ancaq siz də bilirsiniz ki, Bakı - Ceyhan dörd il müddətində böyük bir doğum yolu keçdi və nəhayət, nöqtəni də qoyduq. İndi biz bunun ikinci mərhələsindəyik, yəni bunu yaratmaq lazımdır. Güman edirəm, indiyə qədər bizim bu işləri gördüyümüzü nəzərə alaraq, bütün maneələri, çətinlikləri aradan qaldırdığımızı nəzərə alaraq inana bilərsiniz ki, biz bundan sonra da bu layihəni həyata keçirəcəyik. [151-152]

**Məsud Yılmaz**: Azərbaycanın cümhur başqanı hörmətli Heydər Əliyev bizim 75-ci ildönümümüzdən bir neçə gün öncə Azərbaycan xalqının iradəsi və səsi ilə yenidən prezident vəzifəsinə seçilmişdir. Bu münasibətlə ali qonağımızı Türkiyə hökuməti adından bir daha ürəkdən təbrik edirik. Cənab Heydər Əliyev cümhuriyyətimizin 75-ci ildönümü tədbirlərində iştirak etməklə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığa nə qədər əhəmiyyət verdiyini bir daha sübut etmişdir.

Bildiyiniz kimi, oktyabrın 29-da, cümhuriyyətimizin 75-ci ildönümündə bizim üçün çox əhəmiyyətli olan iki mühüm sənəd imzalanmışdır. Bunlardan birincisi türkmən qazının Türkiyəyə gətirilməsidir, ikincisi isə Bakı – Tbilisi – Ceyhan boru xəttinin gerçəkləşdirilməsi sahəsində bütün iştirakçı ölkələrin ortaq iradəsini ifadə edən Ankara bəyannaməsidir. Bu bəyannamə ilə bütün iştirakçı dövlətlər boru xətti sahəsindəki iradələrini ortaya qoymuşlar. Ancaq bu xəttin gerçəkləşməsinə və bunu həyata keçirəcək konsorsiuma dair şirkətlərin hələ bəzi tərəddüdləri vardır. Bunları həll etmək üçün qarşımızdakı günlərdə bu şirkətlərlə, konsorsiumla yaxından danışıqlar aparılacaqdır. Amma məsələnin ən önəmli səhifəsi artıq tamamlanmışdır. Dövlətlərin və hökumətlərin siyasi iradəsi bu bəyannamə ilə təsdiqlənmişdir. Bunun geriyə dönüşü də ola bilməz. Sonrakı görüşlərimiz daha çox texniki və iqtisadi xarakter daşıyacaqdır.

Hörmətli cümhur başqanı Heydər Əliyevin babası olduğu, yaradıcısı olduğu və əsrin ən önəmli layihələrindən biri olan Bakı–Tbilisi–Ceyhan, inanıram ki, qarşımızdakı aylarda görüşlər zamanı tamamlanaraq həyata keçiriləcəkdir.

Bu gün sayın cümhur başqanı ilə bu məsələni, habelə ATƏT-in Minsk qrupunun fəaliyyətini yenidən müzakirə edəcəyik. Azərbaycanla Türkiyənin iş birliyinin necə irəliyə aparılması, hökumətlər olaraq bu sahədə hansı addımların atılmasının vacibliyi barədə fikir mübadiləsi edəcəyik. [152-153]

Həm bu böyük bayramımızda iştirak etdiyi üçün, həm də Bakı – Tbilisi – Ceyhan layihəsinə verdiyi böyük dəstək üçün çox hörmətli cümhur başqanı Heydər Əliyevə bütün millətimiz, hökumətimiz adından bir daha təşəkkürlərimi bildirirəm. [153]

## TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZIN ADINDAN HEYDƏR ƏLİYEVİN ŞƏRƏFİNƏ «BEYTİ GÜLƏR» LOKANTASINDA VERİLMİŞ RƏSMİ NAHARDAKI SÖHBƏTDƏN

*İstanbul*

*31 oktyabr 1998-ci il*

Mən dost, qardaş Türkiyə torpağında çox yerlərdə oldum, çox maraqlı şeylər gördüm. Bu gördüklərimin içərisində ən maraqlı yerlərdən birində də bu gün oldum. Həqiqətən də, «Beyti Gülər» lokantası çox məşhur olsa da, adi restoran deyil. Burada dadlı, milli türk yeməklərindən aldığım zövqü qarşılaşdığım yüksək mədəniyyət, xoş münasibət və göz oxşayan səliqə və təmizlik tamamlayır. Lakin bu lokanta başqalarından qeyri-adi, gözəl muzeyi ilə də fərqlənir.

Bu muzeydə dünya xalqlarının milli mədəniyyətini nümayiş etdirən nadir eksponatlar içərisində XII əsrin dünya şöhrətli memarı Əbu Bəkr Əcəmi Naxçıvaninin portreti olan vazanı görmək mənə olduqca xoş təsir etdi. Keçirdiyim duyğuları, ürək sözlərimi muzeyin fəxri qonaqlar kitabında yazmaqla Sizə olan sevgilərimi bir daha təsdiq edir, təşəkkürümü bildirirəm.

*Muzeyin fəxri qonaqlar kitabına ürək sözləri:*

*«Beyti lokantasını ziyarət etməkdən çox məmnun oldum. Onun çoxillik tarixi və dəyərli xidmətləri məni valeh etdi. Türkiyədə, bütün dünyada böyük hörmət qazanmış bu lokanta* [154-155] *milli ənənələrə sədaqətin, çağdaşlığın parlaq nümunəsidir. Hörmətli cənab Beyti Gülərin görkəmli xidmətləri heyran edir. Ən xoş arzularla gələcək uğurlar diləyirəm.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
[155]

## SNN TELEVİZİYA KANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*31 oktyabr 1998-ci il*

**S u a l: Çox hörmətli cümhur başqanı Heydər Əliyev! Demək olar ki, məhz Sizin şəxsi iradənizlə Bakı-Ceyhan layihəsinin son nöqtəsi artıq qoyuldu. Sizcə, bu layihə tam həyata keçiriləcəkmi?**

**C a v a b:** Dörd il ərzində Bakı-Ceyhan bu nöqtəyə asanlıqla gəlib çıxmayıbdır. Bakı-Ceyhanı bu nöqtəyə gətirmək üçün biz dörd ildir ki, çox işlər görmüşük və bir çox maneələrin qarşısını almışıq, buna müxalif olan qüvvələrin qarşısını almışıq. Nəhayət, Bakı-Ceyhan boru xəttinin yaranması, tikilməsi haqqında bəyannaməni imzalamışıq. Əgər biz indiyə qədər bu çətinliklərin öhdəsindən gələ bilmişiksə, onları aradan götürə bilmişiksə, güman edirəm, bundan sonra da bunları edə biləcəyik.

Mən bu bəyannaməni hazırlayarkən, onu buraya gətirərkən və Ankarada imzalayarkən yaxşı dərk edirdim ki, konsorsium Bakı – Ceyhanı qəbul etmir. Onun da səbəbi yalnız kommersiya prinsiplərinə görədir. Yəni onlar bunu çox baha hesab edirlər. Hesab edirlər ki, əgər biz onların layihəsini qəbul etsək bu bir milyard dollar ucuz ola bilər. Ancaq mən hesab edirəm ki, onların bu barədə verdikləri rəqəmlər o qədər də doğru deyildir. Ona görə də mən Azərbaycan Dövlət Neft Şirkətinə göstəriş vermişəm ki, onlar konsorsiumla birlikdə bunu hesablasınlar. Bir də ki, başqa yol yoxdur. Konsorsiumun təklif etdiyi yol Türkiyə tərəfindən də qəbul olunmur. Yəni Qara dənizdən, Supsadan tankerlərlə bu nefti, [156-157] petrolu Qarasu limanına daşımaq, oradan isə bir boru xətti ilə İzmirə, Mərmərə dənizinə çıxarmaq yolunu Türkiyə qəbul etmir. Ona görə də onlar başqa bir yol tapa bilməyəcəklər. Beləliklə, biz Bakı – Ceyhanı real həyata keçirəcəyik.

**S u a l: Sayın cümhur başqanı, Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı bir irəliləyiş, görüş olacaqmı?**

**C a v a b:** Olmalıdır. Çünki biz ölkəmizi belə vəziyyətdə saxlaya bilmərik. Yəni Ermənistan silahlı qüvvələri Azərbaycanın torpaqlarının yüzdə iyirmi faizini işğal ediblər. Bizim bir milyondan artıq vətəndaşımız köçkün vəziyyətində çadırlarda yaşayır. Ona görə biz bu məsələnin həllində irəliləyişə nail olmalıyıq.

Son altı ay içərisində bəzi obyektiv səbəblərə görə bu sülh danışıqları zəifləyibdir. Ancaq güman edirəm, yaxın vaxtlarda biz bu işə bir daha sürət verəcəyik, danışıqlar aparılacaqdır və bu məsələnin həllinə nail olacağıq.

***Müsahibəni SNN televiziya kanalının müxbiri Ahu Özyurd aparmışdır.***
[157]

## İSTANBULUN ATATÜRK ADINA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ SƏFƏRİNİN YEKUNLARI BARƏDƏ JURNALİSTLƏR QARŞISINDA BƏYANAT

*31 oktyabr 1998-ci il*

Hörmətli Baş nazir!
Hörmətli mətbuat nümayəndələri!

Mənim Türkiyəyə bu səfərim, ziyarətim başa çatır. Mən artıq hava limanındayam, Azərbaycana, Bakıya dönürəm. Bəyan edirəm ki, mənim bu səfərim çox əhəmiyyətli və çox gözəl olubdur. Birinci, ona görə ki, Türkiyə xalqı ilə, Türkiyənin vətəndaşları ilə, Türkiyənin dövləti, hökuməti ilə bərabər və Türkiyəyə gəlmiş başqa ölkələrin nümayəndə heyətləri ilə bərabər Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etdik. Mən bütün bayram mərasimlərinin hamısında iştirak etdim. Hamısından böyük məmnunluq duyuram və fəxr edirəm ki, Azərbaycanın prezidenti, dövlət başçısı kimi, mən bu bayramda Türkiyədə Azərbaycan xalqını təmsil etmək imkanına malik oldum və Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyə xalqına,vətəndaşlarına xoş arzularını bildirdim.

Burada çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Türkiyəyə gələn gün axşam Türkiyənin prezidenti, əziz dostum Süleyman Dəmirəllə görüşdüm və bayram təbrikləri ilə yanaşı, bir neçə məsələləri müzakirə etdik. Sonra da bir çox başqa ölkələrin cümhur başqanları, prezidentləri, hökumət və parlament başçıları ilə görüşdüm. Bunlar hamısı müstəqil [158-159] Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki biz Azərbaycanın əlaqələrini genişləndirmək əzmindəyik və bunları çox yararlı hesab edirəm.

Düşünürəm ki, burada olduğum günlərdə hamımızın birlikdə gördüyümüz işlərdən ən önəmlisi cümhuriyyətin qurulmasının 75-ci ildönümü günündə Ankarada Bakı-Ceyhan boru xətti haqqında Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan cümhur başqanlarının, prezidentlərinin və Amerika Birləşmiş Ştatlarını təmsil edən energetika nazirinin imzaladıqları bəyannamə oldu. Bu bizim, Azərbaycanın Xəzər dənizində olan sektorunda hasil olacaq neftin dünya bazarlarına çıxarılması üçün əvvəldən əsasını qoyduğumuz, ancaq bunun reallaşdırılması üçün dörd il müddətində çalışdığımız Bakı-Ceyhan boru xəttinin artıq siyasi nöqteyi-nəzərdən dövlətlərin, dövlət başçılarının iradəsini ifadə edərək bəyannamənin qəbul edilməsidir. Bu, böyük bir tarixi hadisədir. Güman edirəm ki, biz bununla bu layihəni tam reallaşdırdıq.

Doğrudur, indi mətbuatda çox danışıqlar gedir. Bu məlumdur, mən bəyannaməni imzalayan zaman da demişdim ki, neft hasilatı ilə məşğul olan şirkətlərin yaratdığı konsorsium indi Bakı-Ceyhan xəttinin çəkilişinə başlanmasına o qədər də razı deyildir. Çünki bunu iqtisadi nöqteyi-nəzərdən səmərəsiz hesab edir, yəni lazımi səviyyədə səmərəli hesab etmir. Ancaq bunlara baxmayaraq mən hesab edirəm ki, biz tarixi bir iş görmüşük. Bunun iqtisadi cəhətini də konsorsium ilə araşdırırıq və bundan sonra da araşdıracağıq.

Türkiyənin və Azərbaycanın neft sahəsində olan təşkilatları – Azərbaycan Dövlət Neft Şirkəti və Türkiyənin Enerji Şirkəti indi danışıqlar aparırlar. Bu danışıqlar nəticəsində bəzi məsələlər də müzakirə ediləcəkdir, həll olunacaqdır. Beləliklə, biz böyük bir tarixi işin əsasını qoymuşuq.

Bütün bunların sonu olaraq mən dünən də və bu gün də İstanbuldayam. Burada, İstanbulda olmağımdan da çox məm[159-160]nunam. Dünən biz gözəl bir tədbirdə olduq. Vaxtilə böyük Atatürkün yaratdığı və ona məxsus olan gəmidə səyahət etdik. Çox gözəl bir bayram konserti verildi. O, Türkiyə Cümhuriyyətinin bugünkü həyatını, reallığını, bugünkü varlığını dünyaya bir daha nümayiş etdirdi. Mən də bu mərasimdə iştirak edirdim və bundan çox məmnunam.

Dünən də, bu gün də apardığımız danışıqların son mərhələsi olaraq Türkiyənin Baş naziri, hörmətli dostum cənab Məsud Yılmazla çox əhəmiyyətli danışıqlar aparmışıq. Həm Türkiyə-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm Bakı-Ceyhan boru xəttinin praktiki olaraq həyata keçirilməsinin yolları haqqında, həm də Azərbaycanın ən ağır problemi olan Ermənistanın təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağ məsələsini həll etmək, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi və bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerinə-yurduna qayıtması, Azərbaycanın ərazi bütövlüyünün, torpaq bütövlüyünün bərpa olunması – bütün bu məsələləri biz birinci gün həm cümhur başqanı Süleyman Dəmirəllə, həm də bu gün və dünən Baş nazir Məsud Yılmazla ətraflı müzakirə etdik. Mən bunları Azərbaycan üçün çox əhəmiyyətli, çox səmərəli hesab edirəm. Ona görə də hesab edirəm ki, mənim bu ziyarətim həm bayram şənlikləri ilə bağlı olubdur, həm də çox gərgin iş olubdur. Yəni iş də görmüşük, bayram da etmişik və şənliklərdə də iştirak etmişik. Bunlar hamısı şəxsən məni sevindirir. Mən bu gün çox böyük sevinc, məmnuniyyət hissi ilə Türkiyəni tərk edirəm və Bakıya, Azərbaycana gedirəm.

Türkiyə Cümhuriyyətinə bundan sonrakı illərdə daha da böyük uğurlar arzulayıram. Türkiyənin vətəndaşlarına, türk xalqına gələcəkdə də Mustafa Kamal Atatürkün yoluna sadiq olmağı arzulayıram. İnanıram ki, Türkiyə bu qədər böyük inkişafın gələcəyini də təmin edəcəkdir və biz gələcəkdə Tür[160-161]kiyənin yeni-yeni böyük qələbələrinin, nailiyyətlərinin şahidi olacağıq.

Biz Türkiyə – Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ona görə də Türkiyədə olan hər bir yeni nailiyyəti biz böyük iftixar hissi ilə qəbul edirik və Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsi üçün əlimizdən gələni edirik.

Mən sizin hamınıza can sağlığı arzu edirəm. Türkiyəyə sülh, əmin-amanlıq və səadət arzulayıram. [161]

## TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ SƏFƏRİNİ BAŞA ÇATDIRIB VƏTƏNƏ QAYIDANDAN SONRA BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*31 oktyabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hər şeyi televiziya vasitəsilə görmüsünüz, bilirsiniz. Mənim orada olduğum günlərdə Türkiyə televiziyası bu barədə geniş məlumatlar veribdir, bunlar respublikamızda yayımlanıbdır. Ona görə də əlavə məlumat verməyə ehtiyac yoxdur.

**S u a l**: **Cənab prezident, Ankarada Cənab Riçardsonla görüşünüzdə o bildirmişdir ki, «AMOKO» şirkəti Bakı – Ceyhan marşrutunun əleyhinə çıxaraq belə hesab edir ki, Bakı – Supsa marşrutu daha əlverişlidir. Sizcə, dövlət başçılarının Ankarada imzaladıqları bəyannamə konsorsium iştirakçılarına təsir göstərəcəkdirmi?**

**C a v a b**: Mən bu gün İstanbuldan Bakıya yola düşərkən hava limanında Türkiyə televiziyalarının, qəzetlərinin, digər kütləvi informasiya vasitələrinin çoxsaylı nümayəndələri var idi. Məni Türkiyənin Baş naziri Məsud Yılmaz yola salırdı. Mən hava limanına toplaşmış mətbuat işçiləri qarşısında Türkiyəyə bu səfərimlə, səyahətimlə əlaqədar bəyanat verdim.

Sizə də bildirmək istəyirəm ki, mənim bu ziyarətim çox əhəmiyyətli bir səfər idi. Çünki Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etmək Türkiyə üçün əziz olduğu kimi, Azərbaycan Respublikası, xalqı üçün də əzizdir. Buna görə də mən, birincisi, həmin yubiley mərasimlərində iştirak etmək[162-163]dən çox məmnunam. Türkiyədə Azərbaycana əvvəllər olduğu kimi, indi də daim çox böyük diqqət, qayğı, hörmət göstərilir. Mən bunların hamısını həm hökumət, dövlət, həm də xalq tərəfindən bir daha hiss etdim. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycana böyük diqqəti, marağı və böyük məhəbbəti vardır. Mən bunu əvvəllər də hiss etmişdim. Bu səfər zamanı çox böyük kütləvi mərasimlər keçirildi, orada çoxlu insan iştirak edirdi. Mən bunları gördüm, hiss etdim.

Ümumiyyətlə, bu bayramlar çox gözəl keçdi, Türkiyə Cümhuriyyətinin 75 illik həyat yolunu yaxşı göstərdi. Dünyanın 75-dən çox ölkəsindən oraya nümayəndələr, bir çox ölkələrdən dövlət, hökumət başçıları gəlmişdilər. Bunlar hamısı Türkiyənin 75 ildə böyük inkişafını dünyaya bir daha nümayiş etdirdi.

Biz Türkiyə ilə dost, qardaş ölkə olaraq bu bayramların belə keçməsinə çox sevinirik. Şəxsən mən çox məmnunam ki, bu tədbirlərin hamısında iştirak etdim.

Bilirsiniz ki, bütün bunlarla yanaşı, orada Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri Bakı – Ceyhan boru xətti haqqında birgə bəyannamə imzaladılar. Bu bəyannaməni Amerika Birləşmiş Ştatlarının enerji naziri cənab Riçardson da imzaladı. Bu da çox tarixi bir hadisədir. Çünki biz 1994-cü ilin sentyabr ayında birinci müqaviləni imzalayandan sonra, həmin müqaviləni imzalayarkən də, hasil ediləcək neftin ən əsas ixrac borusu olaraq Bakı-Ceyhan marşrutunu nəzərdə tutmuşduq. Ancaq bu müddətdə onun əleyhinə çıxanlar, mane olanlar və səmərəsiz olduğunu daim bildirənlər də var idi. Çox vaxt belə bir fikir yaradılırdı ki, Bakı-Ceyhan xətti real bir şey deyil. Ona görə də birgə bəyannamənin imzalanması bütün bunların hamısına son qoydu və bəyan etdi ki, Bakı–Ceyhan boru xətti yaranacaqdır.

Şübhəsiz ki, konsorsiumun üzvlərinin ümumiyyətlə hamısı, çoxu rəqəmlər veriblər və bu rəqəmlərlə belə sübut edirlər ki, [163-164] guya bu, onların təklif etdikləri digər marşrutdan iqtisadi cəhətdən bir milyard dollar bahadır.

Mən Türkiyəyə getməmişdən bir gün əvvəl konsorsiumun nümayəndələrini qəbul etmişdim, onlarla danışmışdım. Onlar bunu mənə bildirmişdilər. Bu mənə əvvəl də məlum idi. Mən onlara bildirdim ki, bu məlumat o qədər də inandırıcı deyildir. Mən Azərbaycan Dövlət Neft Şirkətinə göstəriş verdim ki, konsorsiumla, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə bu rəqəmləri 15 gün müddətində birgə araşdırsınlar və mənə birgə raport versinlər. Mən onu gözləyirəm.

Onların verdikləri bu təkliflərə görə də sizin verdiyiniz bu sual meydana çıxır. Onlar bunu özləri üçün iqtisadi cəhətdən səmərəli hesab etmirlər. Ancaq birincisi, bu rəqəmlər hələ araşdırılacaqdır. Çünki onların özləri bir-iki il bundan əvvəl başqa rəqəmlər vermişdilər. İkincisi, Türkiyə ilə Azərbaycan arasında Bakı-Ceyhan boru xəttinin çəkilməsi barədə danışıqlar aparılır. Çünki əgər boru xəttinin məsafə cəhətdən yarısı Azərbaycan, Gürcüstan ərazisindən, - mən yuvarlaq olaraq deyirəm, tutaq ki, Azərbaycan ərazisindən 500 kilometr, təxminən o qədər də Gürcüstan ərazisindən – keçirsə, 1000 kilometri Türkiyə ərazisindən keçir. Ona görə də bu boru xəttinin keçmə şərtləri, onun vergiləri və iqtisadi cəhətdən başqa şərtləri müzakirə olunur. Bu məsələ Azərbaycan ilə Gürcüstan və Azərbaycan ilə Türkiyə arasında müzakirə edilir. Çünki Azərbaycan çıxarılan neftin sahibidir.

Biz nefti şübhəsiz ki, konsorsiumla birgə ixrac edəcəyik və indi ixrac edirik. Ona görə də buradan nə qədər qazanc götürəcəyimiz bizim üçün heç də xırda şey deyildir. Əgər konsorsium qazancı itirmək istəmirsə, biz qazancımızı itirməyi ondan da çox istəmirik. Çünki bu boru xətti onların dediyi kimi əgər

baha olsa, onun iqtisadi çətinliyi həm onların, həm də bizim üzərimizə düşəcəkdir. Onlar deyirlər ki, guya bizim gəlirimiz azalacaqdır. Yəni «azalacaq» deyəndə, [164-165] nəzərdə tutulduğundan az olacaqdır. Amma bu nə qədər həqiqətdir? Bunlar araşdırılmalıdır.

Bunların hamısını nəinki araşdırmaq, həm də bu boru xəttinin yaranması, həm də onun iqtisadi cəhətdən səmərəli olması və ölkəmiz üçün ən əsası – Azərbaycanın nəzərdə tutulan gəlirlərinin əldə edilməsi bizim üçün əsas şərtdir. Bu şərtləri həyata keçirmək üçün danışıqlar aparılır. Azərbaycan Dövlət Neft Şirkəti, Türkiyənin Enerji Nazirliyi və başqa şirkətlər bu danışıqları noyabrın 5-də İstanbulda davam etdirəcəklər. Bunların nəticəsində də bizdə son rəylər, təkliflər olacaqdır. Güman edirəm ki, bunlar hamısı normal olacaqdır.

**S u a l: Cənab prezident, Ankara bəyannaməsinə Türkmənistanın imza atmamasını necə qiymətləndirirsiniz?**

**C a v a b**: Bunu Türkmənistandan soruşun.

**S u a l: Deyirlər ki, Rusiya Türkiyə və Azərbaycan arasındakı münasibətlərdən qorxuya düşəcəkdir.**

**C a v a b**: Rusiya heç bir şeydən qorxmur. Mən inanmıram ki, onlar qorxsunlar.

**S u a l: Cənab prezident, Sizin fikrinizcə, neft kəməri ilə bağlı bütün işlər hansı müddətə tamamlanar və nəhayət, qərar qəbul edilər?**

**C a v a b**: Mən bunun müddətini indi deyə bilmərəm. Artıq elə bir mərhələyə gəlib çatmışıq ki, biz siyasi iradəmizi bildirmişik və bəyannaməni imzalamışıq. İndi biz bunun iqtisadi cəhətini də hazırlayıb, son qərar qəbul etməliyik. Bu, uzun çəkməyəcəkdir.

**S u a l: Cənab prezident, Türkmənistan prezidenti Saparmurad Niyazov Sizinlə görüşdə bildirmişdir ki, Xəzərin statusu ilə bağlı noyabrın 15-də görüş keçiriləcəkdir. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b**: Saparmurad Niyazovla mənim çox səmimi görüşümüz oldu. Onu bizim televiziya çəkibdir, verəcək, özünüz [165-166] görəcəksiniz. Görüşümüz çox yaxşı, mehriban oldu. Görüş zamanı belə nəticəyə gəldik, qərar qəbul etdik ki, Azərbaycan və Türkmənistan ekspertləri, Azərbaycan Dövlət Neft Şirkəti, Türkmənistan tərəfindən bu işlə məşğul olan şəxslər, Azərbaycanın və Türkmənistanın xarici işlər nazirləri qısa müddətdə, təxminən 15-20 gün ərzində danışıqlara yenidən başlamalıdırlar. Biz bu mübahisəli məsələləri aradan götürməliyik. Hər halda Saparmurad Niyazov bu görüşdən dərhal sonra mətbuat qarşısında geniş bir bəyanat verdi ki, Türkmənistan ilə Azərbaycan tarixən dost olub, biz dostuq, qardaşıq, bizim dostluğumuza heç kim mane ola bilməz. Kimlərsə bizi bir-birimizlə savaşdırmaq, yaxud küsdürmək istəyirlər. Biz nə küsərik, nə də savaşarıq. Biz dost olacağıq. O, belə sözlər deyibdir, bizim televiziya bunları çəkibdir. Siz bunların hamısını özünüz izləyə bilərsiniz.

Biz bunların nəticəsində qərara aldıq ki, yaxın vaxtlarda danışıqlar başlanacaq və o məsələləri həll edəcəyik. Sağ olun. [166]

## ZAQAFQAZİYA DÖVLƏTLƏRİ ONKOLOQLARININ BİRİNCİ KONQRESİNƏ

Hörmətli konqres iştirakçıları!

Sizi ürəkdən salamlayır və əhalinin sağlamlığının qorunması sahəsində nəcib fəaliyyətinizdə sizə müvəffəqiyyətlər arzulayıram.

Zaqafqaziya respublikaları onkoloqlarının 1949-cu ildə Azərbaycanın paytaxtı Bakıda keçirilmiş birinci müşavirəsindən təqribən yarım əsr ötdükdən sonra siz yenidən bir yerə toplaşmısınız. Onuncu belə konfrans 10 il bundan əvvəl Bakıda keçirilməli idi, lakin məlum siyasi hadisələr onun keçirilməsinə imkan vermədi.

Dünyada bir çox politoloqlar regional münaqişələri, separatizmi və terrorizmi obrazlı şəkildə Dünya Birliyinin xərçəng şişi adlandırırlar. Təəssüf ki, bu gün Qafqazı məhz belə bir xəstəlik bürümüşdür. Biz siyasətçilər dinc Qafqaz ideyasını elan etməklə, bütün mövcud münaqişələrin aradan qaldırılması ilə məşğul olmaqla Qafqazın bütün xalqlarının dinc və xoşbəxt gələcəyinə nail olmaq istəyirik. Dünyada ən humanist peşənin nümayəndələrinin əməkdaşlığa hazır olması da bir daha göstərir ki, «Umumqafqaz evi» konsepsiyasının tamamilə gerçəkləşdirilməsi üçün hər cür əsas vardır.

Müstəqil Azərbaycan Respublikası sosial yönümlü siyasət yeridərkən səhiyyəni öz xəttinin başlıca strateji istiqamətlərindən biri kimi qiymətləndirir. Respublikamızın onkoloqlarının şəksiz nailiyyətləri olsa da bütün dünyadakı həmkarları kimi, onlar da bu gün dünya elminin təsirli müalicə metodları təklif edə bilmədiyi adamların dərdini [167-168] bəzən ancaq yüngülləşdirə bilirlər. Biz hamımız ümid edirik ki, dünya onkoloqlarının əlbir səyləri ilə sosial və ekoloji sarsıntılar əsri olan bizim əsrimizdə milyonlarla adamın ölümünə bais olan bu dəhşətli xəstəliyin müalicəsi üçün əsaslı vasitə tapılacaqdır.

Ümidvaram ki, konqres onkologiyanın aktual problemləri ilə bağlı məsələləri müzakirə edərək tibb elminin və səhiyyənin inkişafına yeni vüsət verəcəkdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 noyabr 1998-ci il*
[168]

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ GENİŞ İCLASINDA GİRİŞ NİTQİ

*Prezident sarayı*

*6 noyabr 1998-ci il*

Hörmətli iclas iştirakçıları!
Xanımlar və cənablar!

Nazirlər Kabinetinin geniş iclasını açıq elan edirəm. Bildiyiniz kimi, oktyabrın 11-də Azərbaycanda prezident seçkilərindən sonra Azərbaycanın Konstitusiyasına əsasən Nazirlər Kabineti oktyabr ayının 19-da istefa vermişdir. Mən Nazirlər Kabinetinin istefasını qəbul etmişəm və Nazirlər Kabinetinə tapşırmışam ki, yeni kabinet formalaşana qədər onlar öz səlahiyyətlərini həyata keçirsinlər.

Mən ötən günlərdə Baş nazir təyin etmişəm. Artur Rasizadə Baş nazir təyin olunubdur. Bir neçə nazirlər təyin olunubdur və Konstitusiyaya əsaslanaraq bu proses davam edir.

Ancaq bizim qarşımızda duran bəzi vəzifələr o qədər vacib, o qədər əhəmiyyətlidir ki, indi, məhz bu gün onların müzakirə olunması zəruridir. Ona görə də mən Nazirlər Kabinetinin bugünkü geniş iclasını çağırmışam. Bu geniş iclasın gündəliyi sizə məlumdur. O, mətbuatda dərc olunubdur, bunu bilirsiniz. 9 ay müddətində Azərbaycanda sosial-iqtisadi inkişaf və qarşıda duran vəzifələr, payız-qış mövsümündə sosial [169-170] məsələlərin həyata keçirilməsi üçün zəruri tədbirlər və ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar 27 iyun ümumrespublika müşavirəsindən sonra qəbul olunmuş proqramın həyata keçirilməsinin gedişi. Gündəliyə bu məsələlər çıxarılıbdır və bu gün müzakirə olunmalıdır. Ancaq güman edirəm, siz bilirsiniz ki, bu məsələlər indi Azərbaycanın bütün məsələlərini əhatə edir. Yəni, əgər biz respublikada 9 ay müddətində sosial-iqtisadi inkişafın yekunlarını müzakirə ediriksə, biz eyni zamanda ölkəmizdə indiyə qədər iqtisadiyyatda gedən prosesləri təhlil etməliyik və qarşıda duran vəzifələr haqqında danışmalıyıq.

Yəni bu müzakirə keçmiş illərdə olan ənənəvi müzakirələrə bənzəməməlidir. Çünki son illər Azərbaycanın iqtisadiyyatında ciddi dəyişikliklər prosesi gedir. Biz iqtisadi islahatlar aparırıq. İndi iqtisadi islahatlar bizim həyatımızın, sosial-iqtisadi həyatımızın demək olar ki, bütün sahələrini əhatə edir. Bu islahatların bir qismi artıq arxada qalıbdır və onların müsbət nəticələri vardır. Ancaq eyni zamanda bu islahatların bundan sonra daha da sürətlə aparılması birbaşa respublikada iqtisadiyyatın inkişafını, sosial problemlərin həll olunmasını təmin etməlidir. Ona görə də özəlləşdirmə proqramının həyata keçirilməsi, başqa iqtisadi islahatların həyata keçirilməsi, torpaq islahatı proqramının həyata keçirilməsi və başqa məsələlər, yəni islahatlarla əlaqədar olan məsələlər bu gün müzakirə olunmalıdır. Çünki biz bu gün təkcə görülən işlərə yekun vurmaq yox, qarşıda duran vəzifələr haqqında və o vəzifələrin həyata keçirilməsi yolları haqqında danışmalıyıq.

Şübhəsiz ki, payız-qış vaxtı respublikada həm ümumi həyatın, xüsusən respublikanın vətəndaşlarının sosial vəziyyətinin təmin olunması məsələsi daha da gərginləşir. Yanacaqla təminat məsələsi, vətəndaşların, əhalinin elektrik enerjisi, qaz [170-171] və başqa yanacaq vasitələri ilə təmin olunması və buna bənzər başqa məsələlər həll edilməlidir.

Qaçqınların və məcburi köçkünlərin vəziyyəti isə daim bizim diqqət mərkəzimizdə olmalıdır. Çünki bu təbəqə Azərbaycan əhalisinin ən ağır vəziyyətdə yaşayan hissəsidir. Nə qədər çox iş görmüş olsaq da, biz görülən işlərlə heç də razı ola bilmərik. Baxmayaraq ki, iyun ayında biz bu məsələni müzakirə etmişdik və buna həsr olunmuş geniş müşavirə keçirmişdik, ancaq yerlərdə vəziyyətlə tanışlıq göstərir ki, indiyə qədər görülən tədbirlər yetərli deyildir. Xüsusən, mən seçkiqabağı dövrdə yerlərdə olarkən, məcburi köçkünlərin yaşadıqları çadır düşərgələri ilə yaxından tanış olarkən bir daha hiss etdim ki, indiyə qədər görülən işlər onların həyat tərzini yüngülləşdirmək, yaxşılaşdırmaq üçün hələ şərait yaratmayıbdır və bu işlər qənaətbəxş hesab edilə bilməz. Doğrusu, mən o gördüklərimdən çox narahat oldum və bunu öz çıxışlarımda da demişəm. Ona görə də məhz bu məsələnin bir daha müzakirə olunması və bu barədə əlavə tədbirlərin görülməsi zəruridir.

Bax, bütün bu səbəblərə görə də mən Nazirlər Kabinetinin geniş iclasının çağırılması barədə qərar qəbul etmişəm və iclasa bu gündəliyi təqdim edirəm. Ümid edirəm ki, bizim iclasımız işgüzar şəraitdə keçəcəkdir və bu məsələlərin, izah etdiyim məsələlərin hamısını müzakirə edib lazımi tədbirlər görə biləcəyik.

## YEKUN NİTQİ

Hörmətli iclas iştirakçıları!

Xanımlar və cənablar!

Nazirlər Kabinetinin geniş iclasına çıxarılmış məsələlərin müzakirəsi bir daha onların çox aktual olduğunu sübut etdi və onların məhz indi müzakirə edilməsinin zəruri olduğunu [171-172] göstərdi. Hesab edirəm ki, məsələlər ətraflı müzakirə olundu və çıxışlarda həm doqquz ay müddətində sosial-iqtisadi inkişafın yekunları, həm qaçqınların və məcburi köçkünlərin problemləri ilə əlaqədar 27 iyun müşavirəsindən irəli gələn və sentyabr ayında imzalanmış proqramın həyata keçirilməsi ilə əlaqədar işin gedişatı aydın oldu, eyni zamanda payız-qış mövsümündə respublikanın bütün həyat fəaliyyətini təmin etmək məsələləri müzakirə olundu. Bu müzakirələr bugünkü vəziyyəti həm bizim üçün, müşavirədə iştirak edənlər üçün, həm də Azərbaycanın ictimaiyyəti üçün, - çünki bizim bu iclas əvvəldən axıra qədər Azərbaycan televiziyası ilə canlı yayımla yayılır, - daha da tam aydın, aşkar etdi.

Biz hamımız bu gün ona görə məmnunluq duyuruq ki, doqquz ay ərzində Azərbaycanın sosial-iqtisadi inkişafı yaxşı nəticələr veribdir. Azərbaycan artıq iqtisadi, sosial, siyasi böhrandan çıxıbdır, inkişaf yolu ilə gedir. Bu, 1997-ci ildə də özünü göstərmişdir. 1998-ci ilin doqquz ayı bu inkişafın daha da yüksəlməsini nümayiş etdirir. Məruzələrdə, çıxışlarda doqquz ay ərzində sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlərin, iqtisadi göstəricilərin rəqəmləri gətirildi. Bu rəqəmlər çox qiymətlidir, yəni bu nailiyyətlər qiymətlidir. Çünki məlumdur ki, 1990-cı ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı tənəzzül dövrü yaşayıbdır. İlbəil iqtisadiyyat aşağı düşübdür və 1993, 1994, 1995-ci illərdə Azərbaycanda sənaye istehsalı, kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsul, başqa iqtisadi göstəricilər artmaq əvəzinə təxminən 20-25 faiz aşağı düşürdü.

Biz 1996-cı ildə vəziyyəti sabitləşdirə bildik, 1997-ci ildə artım əldə etdik və 1998-ci ildə bu artım daha da inkişaf edibdir. Bunu qiymətləndirmək lazımdır, çünki keçən illərdə ölkəmizdə sosial-iqtisadi vəziyyət o qədər ağır idi, o qədər çətin idi, hətta bəzən mən özüm də təsəvvür edə bilmirdim ki, [172-173] bu vəziyyətdən biz tam çıxa biləcəyik, yoxsa yox və nə vaxt çıxa biləcəyik.

Bu nailiyyətlər özü-özlüyündə baş verməyibdir, 1994,1995-ci illərdən başlayaraq bizim apardığımız iqtisadi siyasətin, ümumiyyətlə, daxili siyasətimizin nəticəsidir və bununla bərabər ardıcıl surətdə apardığımız xarici siyasətin nəticəsidir. Bizim ölkəmiz müstəqil ölkədir, müstəqil dövlətdir. Biz artıq hansısa bir ölkənin tərkibində deyilik, ona görə də ölkəmizin həyatının hər bir sahəsi dünya ilə bağlıdır, başqa ölkələrlə bağlıdır və dünya iqtisadiyyatı ilə, dünyada gedən proseslərlə bağlıdır. Bunu nəzərə alaraq mən xüsusi qeyd edirəm ki, bizim böhran vəziyyətindən çıxmağımız və artıq inkişaf yolu ilə getməyimiz müstəqil Azərbaycanın həyatında yeni bir mərhələdir və bu gün tam qətiyyətlə demək olar ki, biz 1998-ci ili də bu nailiyyətlərlə başa çatdıra biləcəyik və 1999-cu ildə daha da sürətlə inkişaf etməyin əsasını qoyacağıq.

Ümumi daxili məhsul doqquz ay müddətində 8,5 faiz artıbdır. Əgər nəzərə alsaq ki, keçən il artım 5,8 faiz olmuşdur, demək, o artımdan sonra ümumi daxili məhsulun 8,5 faiz artması çox yüksək göstəricidir. Sənaye istehsalı 1,1 faiz artmışdır. Bəlkə də bu az görünür, ancaq bizim sənayenin indiki vəziyyətini nəzərə alsaq və keçmiş illərdə sənayemizdə mövcud olan vəziyyəti və tənəzzülü nəzərə alsaq, doqquz ay müddətində 1,1 faiz artımı təmin etmək, hesab edirəm ki, çox dəyərli işdir. Kənd təsərrüfatı istehsalı da təxminən 1,1 faiz artıbdır.

Ən sevindirici odur ki, Azərbaycanda maliyyə sabitliyi təmin olunubdur. Mən yenə də 1994-cü ili xatırlayıram, 1993-cü ili xatırlayıram – inflyasiya o dərəcədə idi ki, o, böyük bir təhlükə doğururdu. Ancaq indi iki ildir - 1997-ci ildə də, 1998-ci ildə də inflyasiya sıfır dərəcəsindədir, inflyasiya 0,2 faizdir. Bu, tamamilə normal bir haldır. Əgər nəzərə alsaq ki, [173-174] ətrafımızda olan ölkələrdə vəziyyət başqadır, yəni fərqlidir və fərq də ondan ibarətdir ki, inflyasiya yüksəkdir və xüsusilə nəzərə alsaq ki, dünyanın bir çox ölkələrində baş vermiş sosial-iqtisadi böhran və maliyyə böhranı o cümlədən Rusiyaya da böyük zərbə vurdu, Rusiyada bu böhran böyük çətinliklərə gətirib çıxardı və burada deyildiyi kimi, Rusiyanın milli valyutası 3 dəfədən artıq ucuzlaşdı, o cümlədən Ukrayna və başqa ölkələrdə də, - belə bir halda Azərbaycanda milli valyutanın dəyərinin sabit saxlanılması böyük nailiyyətdir.

Təbiidir ki, bu, öz-özünə alınmayıbdır. Ümumiyyətlə, maliyyə sahəsi çox həssas sahədir. Bir halda ki, biz bütün ölkələrin milli valyutaları ilə maliyyə mübadiləsi aparırıq, ona görə bu həssaslığı həmişə bilirik. Belə olan halda ətrafımızda olan ölkələrdə baş vermiş maliyyə böhranının Azərbaycanda qarşısının alınması da böyük nailiyyətdir.

Sevindiricisi budur ki, Azərbaycanda artıq bazar iqtisadiyyatı qurulur, yaradılır. Burada məlumatlar verildi ki, nə qədər müəssisələr özəlləşdirilibdir. Torpaq islahatı müvəffəqiyyətlə həyata keçirilir və demək olar ki, torpağın əksəriyyəti şəxsi mülkiyyətə verilibdir. Heyvandarlıq sahəsi tamamilə özəlləşdirilibdir və çox yüksək nəticələr əldə olunubdur. Mən bu gün sizə deyə bilərəm ki, Azərbaycanda tarixən heç vaxt indiki qədər mal-qara – iribuynuzlu mal, yaxud da xırdabuynuzlu mal olmayıbdır.

70-ci illərdə mən Azərbaycanda işləyərkən kənd təsərrüfatı ilə çox ciddi və ardıcıl məşğul olurdum və bunu öz xüsusi nəzarətimdə saxlayırdım. O vaxt bizim gördüyümüz işlər yaxşı nəticələr vermişdi.

Azərbaycanda kənd təsərrüfatı istehsalı 70-ci illərdə təxminən ildə 7-8 faiz artırdı, o cümlədən heyvandarlıq məhsulları da artırdı. Ancaq biz çox çalışırdıq ki, bundan da artıq olsun. Bunun üçün həm mal-qaranın sayı artıq olmalı idi, həm də məhsuldarlıq artıq [174-175] olmalı idi. Amma istədiyimizə nail ola bilmirdik. İndi isə qısa bir zamanda heyvandarlıq sahəsinin özəlləşdirilməsi, şəxsi mülkiyyətə verilməsi həm iribuynuzlu mal-qaranın, həm də xırdabuynuzlu mal-qaranın xeyli artmasına gətirib çıxarıb. Deyilən rəqəmlər mənim hafizəmdədir, təxminən 1 milyon 850 min, elədirmi?

**A b b a s A b b a s o v**: 1 milyon 878 min.

**H e y d ə r Ə l i y e v**: 1 milyon 878 min iribuynuzlu mal-qaradır. Heç vaxt Azərbaycanda bu qədər iribuynuzlu mal-qara olmayıbdır. Xırdabuynuzlu mal-qara isə 5 milyon…

**A b b a s A b b a s o v**: 5 milyon 345 min.

**H e y d ə r Ə l i y e v**: 5 milyon 345 min. Heç vaxt bu olmayıbdır. Azərbaycanda ən yuxarı rəqəm 4 milyon, 4 milyondan bir balaca artıq xırdabuynuzlu mal olubdur. Heç vaxt bu qədər olmayıbdır.

Bu, onun sadəcə sayıdır, amma məhsuldarlığı, şübhəsiz ki, bundan da qat-qat artıqdır. Çünki məlumdur ki, kolxozlarda, sovxozlarda, dövlət sektorunda, ümumi sektorda saxlanılan mal-qaranın məhsuldarlığı da az olurdu. Çünki bir tərəfdən ona yaxşı baxmırdılar, bir tərəfdən də oradan-buradan o qədər oğurlayırdılar ki, o vaxtlar həqiqi məhsuldarlıq da aşağı düşürdü. Amma indi hərə öz malını, heyvanını saxlayır. Kim onu oğurlayacaqdır? Nə ferma müdiri var orada ki, oğurlasın, nə hesabdar var, nə kolxoz sədri var, nə də raykom katibi var. İndi ola bilər ki, bəlkə icra hakimiyyəti başçısı, nə bilim, prokuror, polis, filan. Ancaq bu da yenə dövlətin deyil, özəl sektorundur.

Bax, budur özəlləşdirmənin nəticəsi. Mənim xatirimdədir, «Torpaq islahatı haqqında» qanun nə qədər çətinliklə qəbul olundu. Bəziləri təsəvvür edə bilmirdilər – nə cür ola bilər ki, biz bunu edək. Yəqin ki, burada oturanların çoxu xatırlayırlar ki, hələ «Torpaq islahatı haqqında» qanun qəbul olunmamışdan mən göstəriş verdim ki, mal-qaranı özəlləş[175-176]dirsinlər. Çünki bunu mən Naxçıvanda artıq 1992-ci ildə etmişdim və onun nəticələrini Naxçıvan əhalisi görür – bu gün Naxçıvanın Ali Məclisinin sədri Vasif Talıbov bu barədə rəqəmlər göstərdi. Çoxları anlamırdılar ki, bu, yaxşı nəticə verə bilər. Ancaq bu nəticələr var və bu, təkcə kənd təsərrüfatında deyil, bütün başqa sahələrdə də var.

Məsələn, deyirik ki, indi bizim ümumi daxili məhsulumuz 8,5 faiz artıbdır. Ümumi daxili məhsul istehsalında özəl sektorun payı 51 faiz təşkil edir, dövlət sektoru 49 faiz təşkil edir. Demək, özəl sektor inkişaf edibdir. Bəlkə də özəl sektorun artımını götürsək o, 8,5 faizdən də çox artıbdır. Ola bilər ki, dövlət sektoru, hələ sənayedə olan dövlət sektoru bunu bir az aşağı salır, amma buna baxmayaraq yenə 51 faizdir. Məsələn, ümumi daxili məhsulun artımında özəl sektorun payı 51 faizdir. Yaxud da ki, sənaye məhsulunun 25 faizi özəl sektora məxsusdur. Kənd təsərrüfatında isə istehsal olunan məhsulun 90 faizi özəl sektorun hesabınadır. Tikintidə 69 faiz, ticarətdə isə 98 faiz özəl sektorun hesabınadır.

Bunlar çox sevindirici göstəricilərdir və onu göstərir ki, biz iqtisadi siyasətdə düz yoldayıq, bazar iqtisadiyyatını biz yaratmışıq, bazar iqtisadiyyatı formalaşır, bazar iqtisadiyyatı inkişaf edir. Ona görə də bizim vəzifəmiz ilin sonuna qədər işləri daha da yaxşı qurmaqdan və doqquz ayda əldə etdiyimiz nəticələri daha da artırmaqdan, ili daha da yüksək göstəricilərlə başa çatdırmaqdan ibarətdir.

Sevindirici bir də odur ki, bu doqquz ay müddətində bizim sənayenin bəzi başqa sahələrində də canlanma başlayıbdır. Neft sənayesi məlumdur. Amma, məsələn, mən dünən rəqəmlərə baxdım, son aylarda maşınqayırmada inkişaf var, kimya sənayesində inkişaf var. Bunlar onu göstərir ki, imkanlar var. Ayrı-ayrı müəssisələrin, hətta indi özəlləşdirilməmiş müəssisələrin son aylarda iş nəticələri onu göstərir ki, işi yaxşı təşkil [176-177] edən yaxşı da nəticələr əldə edir. Bir də deyirəm, ümid edirəm ki, ilin sonuna qədər bu nəticələr daha da artacaqdır.

Bir halda ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik, demək, bizim büdcənin formalaşması bundan asılıdır, özəl sektorun inkişafından asılıdır və özəl sektordan gələn gəlirlərdən asılıdır. Təsadüfi deyil ki, mən dünən bu iclasa aid materiallarla tanış olarkən bir neçə əlavə arayışlar tələb etdim, o cümlədən vergi ilə əlaqədar arayışlar. Artıq o rəqəmləri mən dedim, təkrar etmək istəmirəm. İndi bizim vəzifəmiz 1999-cu ilin büdcəsinin hazırlığını başa çatdırıb Milli Məclisə təqdim etmək, müzakirə etmək və qəbul etməkdir. Bunu biz bu ayda etməliyik, bu ayın içində etməliyik. Elədir, maliyyə naziri, yoxsa yox?

**F i k r ə t Y u s i f o v**: Tamamilə düzdür.

**H e y d ə r Ə l i y e v**: Bu ayın içində etməliyik. Ona görə də biz gərək həm bu ili başa çatdırmaq üçün, həm də gələn ilin büdcəsini yaxşı tərtib etmək üçün vergi sahəsində işlərimizi qaydaya salaq. Mən hesab edirəm ki, bizim Baş Dövlət Vergi Müfəttişliyinin işi, əldə etdiyim rəqəmlərə görə, bugünkü tələblərə cavab vermir, bəlkə də qeyri-qənaətbəxşdir. Mən bunu artıq dünən Baş nazirə demişəm, göstəriş vermişəm və bu gün bir daha təkrar edirəm ki, 10 gün müddətində bizim Baş Dövlət Vergi Müfəttişliyindəki vəziyyət təhlil olunmalıdır. Çünki əgər Baş Dövlət Vergi Müfəttişliyi doqquz ayda vergi planını 71 faiz yerinə yetiribsə, bunu da neft satışından gəlirin azalması ilə izah edirsə və özəl sektordan gələn vergilər, burada bu gün aydın olduğu kimi, yığılmırsa, onda biz büdcəni nə cür tərtib edəcəyik? Bu göstərici ilə biz 1999-cu ilin büdcəsini tərtib edə bilmərik.

Beləliklə, bazar iqtisadiyyatı yolu ilə gedən ölkə üçün birinci növbəli məsələ vergilərin yığılmasıdır. Doğrusu, mən Rusiyada son bir il müddətində vergilərin yığılmaması ilə əlaqədar gedən prosesləri, hətta bir il deyil, iki ildə gedən [171-178] prosesləri görərkən, hər dəfə fikirləşirdim ki, bizdə bu sahədə işlər yaxşıdır. Hətta Rusiyadan gələn bəzi nümayəndələri də qınayırdım, deyirdim ki, siz niyə orada vergiləri yığa bilmirsiniz? Biz vergilərin hamısını yığırıq. Bilirsiniz ki, Rusiyada son altı ayda 3 dəfə vergi müfəttişliyinin rəhbəri dəyişdirilibdir. Birini təyin edirlər, iki aydan sonra çıxarırlar, o birisini təyin edirlər, iki aydan sonra çıxarırlar. Bunlar bizim gözümüzün qabağındadır, televiziya ilə verilir.

Mən bunu niyə xatırlayıram? Çünki hesab edirdim ki, bizdə vəziyyət belə deyil. Amma mən indi görürəm ki, bizdə də vəziyyət buna bənzərdir. Dediklərimi bir də təkrar edirəm. Dövlət müəssisələrindən vergi yığmaq böyük bir məharət tələb etmir. Çünki dövlət müəssisələrinin işləri göz qabağındadır, onların əldə etdiyi məhsul və gəlirləri göz qabağındadır və onlar vergiləri verməlidirlər və verirlər də. İndi burada Vəkilov dedi ki, guya bəziləri verməyibdir, onunla Nazirlər Kabineti məşğul olmalıdır. Ancaq özəl sektor bizdə bu qədər inkişaf etdiyi halda və bizim daxili məhsulun 51 faizi özəl sektorun payına düşdüyü halda, doqquz ayda yığılan vergilərin cəmi 7 faizinin özəl sektordan yığılması heç bir çərçivəyə sığa bilməz. Bu məni çox narahat edir.

Burada Müslüm İmanov çıxış edərkən dedi ki, Bakıda 16 min özəl müəssisə elektrik enerjisindən istifadə etmək üçün onlarla birbaşa əlaqəyə girib və elektrik enerjisinin haqqını verir. Bu 16 min özəl müəssisə əgər elektrik enerjisini işlədirsə və ona haqq verirsə, bunlar iş görürlərsə, gəlir götürürlərsə, bəs bu gəlirdən niyə vergi vermirlər? Ona görə də mən bir də deyirəm, bu məni çox narahat edir və 10 gün müddətində Nazirlər Kabineti bu işlə məşğul olmalıdır, lazımi tədbir görməlidir.

Bizim ikinci vergi mənbəyimiz Dövlət Gömrük Komitəsidir. Doğrudur, Dövlət Gömrük Komitəsi doqquz aylıq [178-179] planı 103 faiz yerinə yetiribdir və keçən ilə nisbətən artım da xeyli çoxdur. Nə qədər artımdır? Yadındadırmı sənin?

**A r t u r R a s i z a d ə**: 20 faiz olar.

**K ə m a l ə d d i n H e y d ə r o v**: 31 faiz.

**H e y d ə r Ə l i y e v**: 31 faiz artımdır. Bu, nəyi göstərir? Onu göstərir ki, bizim Dövlət Gömrük Komitəsində də hələ istifadə olunmamış ehtiyatlar var. Çünki mənim xatirimdədir, keçən il də, 1997-ci ildə də 1996-cı ilə nisbətən Dövlət Gömrük Komitəsində artım çox yüksək idi. Əgər o artımın üzərinə doqquz ayda 31 faiz artım varsa, bu, bir tərəfdən onların yaxşı işləməsini göstərir, amma ikinci tərəfdən də daha çox ehtiyatların olmasını göstərir. Mən güman edirəm ki, ilin axırına qədər qalan aylarda Dövlət Gömrük Komitəsi bu göstəriciləri daha da artıracaqdır və mənə belə gəlir ki, gələn il üçün büdcədə onlara daha gərgin plan vermək lazımdır və vergiləri orada artırmaq lazımdır.

Burada Vəkilov dedi və məndə də bu məlumat var ki, Vergi Məcəlləsi hazırlanıbdır. Səhv etmirəmsə, bu Vergi Məcəlləsi Nazirlər Kabinetindədir. Sizdədir?

**A r t u r R a s i z a d ə**: Bəli.

**H e y d ə r Ə l i y e v**: Nazirlər Kabinetindədir. Qısa bir müddətdə, - indi mən buna vaxt qoymuram, bilmirəm sizin imkanınız nə qədərdir, amma bunu gecikdirmək olmaz, - qısa bir müddətdə Vergi Məcəlləsinə Nazirlər Kabinetində baxılmalıdır, mənə təqdim edilməlidir, biz bu Vergi Məcəlləsini Milli Məclisə təqdim etməliyik və onun qəbul olunmasına nail olmalıyıq. Bu, çox vacibdir. Çünki çox deyirlər ki, vergilər çoxdur – oradan da vergi, buradan da vergi. Amma ikinci tərəfdən də görürsünüz, vergi planı yerinə yetirilmir. Deməli, burada vergilərin özünün təyin olunmasında köhnədən qalmış uyğunsuzluqlar var. Ona görə də vergi məcəlləsi qəbul olunmalıdır. Ümumiyyətlə, vergi işi ilə bizim iqtisadiyyatımızın və bütün iqtisadi-maliyyə sistemimizin ən əsas [179-180] bir sahəsi kimi ciddi məşğul olmaq lazımdır. Nazirlər Kabineti bu sahəyə çox böyük diqqət yetirməlidir və bu işlə ciddi məşğul olmalıdır.

İqtisadi islahatlar bundan sonra sürətlə həyata keçirilməlidir. Burada əsas yer tutan özəlləşdirmədir. İndiyə qədər aparılan özəlləşdirmənin nəticələri haqqında burada məlumat verildi. Ancaq mən hesab edirəm ki, biz özəlləşdirmədə gecikirik. Biz keçmişdə də gecikmişdik, amma indi də gecikirik. Ona görə də 10 gün müddətində Dövlət Əmlak Komitəsi, Nazirlər Kabineti özəlləşdirmənin qarşıda duran vəzifələri haqqında, yaxud, tutaq ki, yeni proqram haqqında, yaxud 1999-cu ildən başlayaraq gələn illərdə özəlləşdirmənin həyata keçirilməsi tədbirləri haqqında təklifləri hazırlayıb mənə təqdim etməlidirlər. Biz bu məsələlərə təxirə salınmadan baxmalıyıq, özəlləşdirməni sürətləndirməliyik. Bizim Milli Məclis tərəfindən qəbul olunmuş proqramımız 1998-ci ildə bitir. Doğrudur, biz o proqramı hələ tamamilə yerinə yetirə bilməmişik. Amma onun müddəti 1998-ci ilə qədərdir. Ona görə də indi adı nə olacaq, onu mən deyə bilmərəm – yeni bir proqram olacaq, ya onun davamı olacaq, ya özəlləşdirmənin sürətləndirilməsi ilə əlaqədar tədbirlər planı olacaq, nə olacaq, - onun adını sonra verərik. Əsas məsələ təkliflərdən ibarətdir. Təkliflərə baxmalıyıq və lazım olan məsələləri Milli Məclisə təqdim etməliyik. Hansı məsələləri ki, özümüz həll edə bilərik, özümüz həll etməliyik. Özəlləşdirmə sürətləndirilməlidir.

Burada məruzədə də və çıxışlarda da göstərildi ki, özəlləşdirilmiş müəssisələrin bəziləri istənilən nəticələri vermir. Bu həqiqətdir. Deyildi ki, demək olar, son iki il ərzində, bəlkə də iki ildən az – bir il, bir il yarım ərzində biz iyirmiyə qədər nazirlik, dövlət komitəsi, konsern, şirkət ləğv etmişik və onların müəssisələrini özəlləşdirmək üçün Dövlət Əmlak Komitəsinə vermişik. Burada bildirildi ki, onların bir

hissəsi özəlləşdirilib, [180-181] bir hissəsi isə özəlləşdirilməyibdir. Özəlləşdirilməyənlər gərək tezliklə özəlləşdirilsinlər. Əgər onların özəlləşdirilməsi müəyyən çətinlik törədirsə və burada deyəsən İrşad Əliyev dedi ki, bəzi, məsələn, konserv zavodlarının özəlləşdirilməsi, yaxud başqa belə müəssisələrin özəlləşdirilməsi onların qiymətinə görə çətinlik törədirsə, demək, bunları da həmin təkliflərin içərisinə salmaq lazımdır. Məlumdur, o qiymətə ki, biz hesab edirik müəssisələr başa gəliblər, indi onları o qiymətə bəlkə alan olmasın. Ona görə də biz bu işi dayandıra bilmərik. Məlum bir fakt var ki, nə vaxtsa keçmişdə Türkiyədə dövlətin inhisarında olan böyük metallurgiya zavodunu Türkiyə hökuməti bir lirəyə satıbdır, özəlləşdiribdir və nəticəsini də alıbdır. Simvolik olaraq, yəni bir lirəyə.

Ona görə də bu özəlləşdirmədə cürbəcür yollar var. Şübhəsiz, biz çalışmalıyıq ki, özəlləşdirilən müəssisələr, bizim əmlakımız büdcəyə maksimum xeyir gətirsin. Bizim məqsədimiz bundan ibarətdir ki, özəlləşdirmədən maliyyə vəziyyətimizi və iqtisadi vəziyyətimizi inkişaf etdirmək üçün istifadə etməliyik. Elə özəlləşdirmənin özündən. Amma eyni zamanda, əgər özəlləşdirilməyə verilən bəzi obyektlər biz istədiyimiz qiymətlərə özəlləşdirilə bilmirsə, demək, biz bunun yolunu axtarmalıyıq. Onlar nə qədər qalırsa, o qədər də dağıdılır. Təəssüflər olsun ki, bu dağıdılma prosesi gedir.

Amma eyni zamanda artıq özəlləşdirilmiş müəssisələrdən biz, şübhəsiz ki, iqtisadiyyatın inkişafı üçün nəticə əldə etməliyik. Təbii ki, özəlləşdirmə məqsəd deyil, vasitədir və özəlləşdirmənin əsas məqsədi iqtisadiyyatı inkişaf etdirmək və iqtisadiyyatın inkişafı nəticəsində gəlir əldə etmək və xalqın rifah halını yaxşılaşdırmaqdır. Əgər müəssisələrin bir qismi özəlləşdirilibsə, onlar indi işləmirsə, yaxud lazımi səviyyədə işləmir, nəticə vermirsə, bu, özəlləşdirmənin müsbət nəticəsi deyil. Təbiidir, bunlar artıq şəxsi mülkiyyətdədir. Biz bunlara hansısa hökm edə bilmərik. Ancaq eyni zamanda biz bunları [181-182] öz nəzarətimizdən kənarda da saxlaya bilmərik. Demək, burada əsas məsələlərdən biri sahibkarlığa yardım göstərmək, özəlləşdirilmiş müəssisələrin fəaliyyətini təmin etmək üçün onlara yardım etmək, onlara kömək etməkdir.

Buna görə də mən hesab edirəm ki, - bu, şübhəsiz ki, Dövlət Əmlak Komitəsinin işi deyil, - ancaq Nazirlər Kabinetində bəlkə belə bir struktur yaratmaq və bununla məşğul olmaq lazımdır. Bunu özbaşına buraxmaq olmaz. Kiməsə nəsə kömək etmək lazımdır, kiməsə bəlkə kredit vermək lazımdır, kimisə bəlkə hansısa vergidən azad etmək lazımdır. Bizim məqsədimiz ondan ibarət olmalıdır ki, özəlləşdirilən hər bir müəssisə fəaliyyət göstərsin və xüsusən bizim üçün lazımdır ki, özəlləşdirmənin istehsala təsiri olsun.

Ticarətdə məlumdur, - indi burada mən dedim, - ticarətdə əmtəə dövriyyəsinin 98 faizi özəl sektorda yaranıbdır və mağazaları, ticarət müəssisələrini artıq onların sahibləri yaxşı işlədirlər. Bəlkə onların da problemləri var, ancaq istehsal kimi problem yoxdur. Biz özəlləşdirilmiş istehsal sahələrinə xüsusi fikir verməliyik və istehsal sahələrini canlandırmaq, istehsalı artırmaq bizim üçün lazımdır. Ümumiyyətlə, iqtisadiyyatımızda daxili istehsalın artırılması indi əsas vəzifələrdən biridir. Bu da özəlləşdirmə prosesi ilə üzvi surətdə bağlıdır. Məsələn, əgər idxal-ixrac haqqında rəqəmlərimizi götürsəniz, bizdə ixrac azalıb, idxal artıb. Bu barədə də lazımi tədbirlər görülməlidir. Bu, bir tərəfdən də ona görədir ki, bizdə daxili istehsal lazımi səviyyədə inkişaf etmir – sənaye istehsalı, kənd təsərrüfatı istehsalı. Ona görə də özəlləşdirilmiş müəssisələrin, xüsusən istehsalla məşğul olan müəssisələrin sahiblərinə yardım etmək, onların problemlərini həll etmək bizim vəzifəmizdir. Onları ayağa qaldırmaq lazımdır. Onları ayağa qaldırandan sonra özləri istehsalı aparacaqlar. Onlara kömək etmək lazımdır.

Bir sözlə, bu məsələlər bizim qarşımızda duran əsas məsələlərdən biridir və iqtisadi islahatların sürətləndirilməsi [182-183] 1999-cu ildə və bu ilin axırına qədər bizim əsas vəzifəmizdir və bu vəzifəni həyata keçirmək lazımdır.

Sahibkarlığın inkişafı haqqında mən keçmiş müşavirələrdə də, iclaslarda da öz fikrimi bildirmişəm. Bu dediyim sözlər də məhz Azərbaycanda sahibkarlığın inkişaf etməsi ilə əlaqədar olan fikirlərdir. Hesab edirəm ki, biz artıq bu barədə də bir proqram qəbul etməliyik. Mən bunu hələ prezident seçkilərindən əvvəl bəyan etmişdim ki, Azərbaycanda olan sahibkarlarla xüsusi görüş keçirmək istəyirəm. O vaxt bu mümkün olmadı. İndi mən yenidən bəyan edirəm və bu gün bütün respublikaya bildirirəm ki, sahibkarlar da bunu eşitsinlər, bilsinlər. Ancaq bu görüş adi söhbət olmamalıdır. Bu görüşə gərək biz də hazırlıqlı gələk, sahibkarlar da öz təklifləri ilə hazırlıqlı gəlsinlər. Bizim hazırlığımız ondan ibarət olmalıdır ki, biz sahibkarlığa yardımla və sahibkarlığın Azərbaycanda inkişaf etməsi ilə əlaqədar problemlərin həll olunması üçün tədbirlər görməliyik.

Ona görə də mən Nazirlər Kabinetinə tapşırıram, - müvafiq nazirliklərlə və komitələrlə birlikdə bu barədə qısa müddətdə, 10-15 günün içərisində konkret təkliflər hazırlasınlar. Bu təklifləri biz müzakirə edək, ola bilər, əvvəl Nazirlər Kabinetində müzakirə olunsun, sonra mənimlə bərabər müzakirə edək və bunları hazırlayandan sonra o vaxta qədər, güman edirəm, sahibkarlar da öz təkliflərini hazırlayarlar. Bu gün mən onları çağırıram ki, onlar öz təkliflərini yazılı surətdə ya birbaşa mənə – prezidentə, mənim aparatıma göndərsinlər, yaxud Nazirlər Kabinetinə göndərsinlər ki, biz onlardan da istifadə edə bilək. Bütün bu təklifləri hazırlayandan sonra biz sahibkarlarla görüşməliyik və bu görüşümüz də, yenə də deyirəm, adi söhbət olmamalıdır, bu görüş konkret tədbirlər qəbul etmək üçün olmalıdır. Bu tapşırığı da mən verirəm. [183-184]

Bu məsələ ilə əlaqədar xarici investorların Azərbaycana daha da çox gəlməsi və fəaliyyət göstərməsi məsələsi indi əsas məsələlərdən biridir. Doğrudur, son iki-üç il içərisində Azərbaycana güclü investisiya axını var. Bu güclü investisiya axınının əsas hissəsi neft və qaz sənayesinə gedir, amma başqa sahələrə də gedir. Eyni zamanda investorlar, sahibkarlar, - həm Avropadan olanlar, həm Amerika Birləşmiş Ştatlarından olanlar, başqa ölkələrdən olanlar, eləcə də bizim çox iqtisadi əlaqələr saxladığımız Türkiyədən olan şirkətlər, sərmayə qoymaq istəyənlər – Azərbaycanda lazımi iş görmək üçün bir çox çətinliklərin olmasını bildirirlər.

Mən Türkiyəyə son səfərim zamanı İstanbulda olarkən orada «Mərmərə qrupu» ilə görüş keçirirdim. Onlar məndən xahiş etmişdilər, mən orada bəyan etdim, görünür, televiziya ilə sizə çatmış olar ki, Türkiyənin Azərbaycanda iş görən iş adamları ilə və Azərbaycanda iş görmək istəyən iş adamları ilə ayrıca bir görüş keçirməliyik. Ancaq bu görüşə də hazırlaşmaq lazımdır. Bizdə Nazirlər Kabinetində komissiya var, - Türkiyə–Azərbaycan iqtisadi əlaqələr komissiyası. Gərək ki, ona Şərifov rəhbərlik edir. Ona görə də mən Nazirlər Kabinetinə tapşırıram – bu komissiya çərçivəsində siz Türkiyə ilə özəl sektorda bizim əlaqələrimizin inkişaf etdirilməsi ilə əlaqədar birlikdə təkliflər hazırlayın. Orada bu işlərlə Əli Yücəl məşğul olur, - sən, Şərifov, bunu bilirsən, - o, rəhbərlik edir. İstanbulda həmin «Mərmərə» qrupu ilə görüşdə o da iştirak edirdi. Ola bilər, onu dəvət edəsən, təkliflərini versin, siz burada təkliflərinizi hazırlayasınız və Türkiyənin iş adamları ilə ayrıca bir görüş aparmaq lazımdır. Çünki indi Türkiyədə Azərbaycana maraq daha da artıbdır və biz də bunu təmin etməliyik.

Amma təkcə Türkiyə yox, başqa ölkələr də. Məsələn, mən iyul ayında İngiltərədə olarkən orada da çox şirkətlərlə görüş keçirdim. Onlar da Azərbaycana böyük maraq göstərirlər. [184-185]

Bunlarla yanaşı, xarici sərmayəçilər şikayət edirlər ki, Azərbaycanda iş görmək üçün bəzi məneçiliklər var. Bu maneçiliklərin bir hissəsi Azərbaycanda ayrı-ayrı hökumət, dövlət strukturlarında mövcud olan ayrı-ayrı məmurların vəzifəsindən sui-istifadə etməsi, rüşvətxorluq etməsi, hər bir işi görmək üçün müəyyən bir imtiyazlar əldə etməsi hallarıdır, ikinci tərəfdən də Azərbaycanda ayrı-ayrı şirkətlərin bizim hüquq-mühafizə orqanlarının yoxlamalarından şikayət etməsidir. Bunlar həqiqətdir. Mən deyə bilmərəm, bunlar hansı miqyasdadır, nə qədərdir. Ancaq bu hallar var. Biz bu halları aradan qaldırmalıyıq. Ona görə də gərək Nazirlər Kabineti xüsusi bir sistem hazırlasın – nə edək ki, xarici investorların, sərmayəçilərin Azərbaycanda gəlib iş görməsinə maneçilik törədən əngəllərin hamısını aradan qaldıraq.

İkinci tərəfdən, bizim hüquq-mühafizə orqanları da gərək bu şirkətlərin işinə qarışmasınlar, bu yoxlamalardan əl çəksinlər. Baş prokuror öz çıxışında dedi ki, yoxlamalar azalıbdır və mənim 1996-cı ildə verdiyim fərmandan sonra xeyli azalıbdır, amma yenə də var. Ona görə bu barədə də mən hesab edirəm ki, hüquq-mühafizə orqanları, yəni prokurorluq, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi gərək otursunlar, yeni bir tədbirlər planı hazırlasınlar: nə etmək lazımdır ki, bu yoxlamaların qarşısı tamamilə alınsın, xarici şirkətlərin, ümumiyyətlə, özəl sektorun işinə müdaxilə aradan götürülsün və onlara sərbəstlik verilsin.

Doğrudur, məsələnin ikinci tərəfi də var. O da ondan ibarətdir ki, təəssüf ki, bizim özəl sektorda da – Azərbaycanın özəl sektorunda da, bəzi xarici şirkətlərin fəaliyyətində də çox qüsurlar olur. Elə bu gəlirin gizlədilməsi, verginin təmin edilməməsi bunların biridir. Ancaq bu qüsurların olmağına baxmayaraq, biz eyni zamanda bu cür vəziyyəti də saxlaya bilmərik. Ona görə hüquq-mühafizə orqanları da gərək otursunlar, işləsinlər və birgə təkliflərini təqdim etsinlər. Bir sözlə, [185-186] biz gərək həm xarici investorlar üçün, həm də Azərbaycanın sahibkarları üçün, özəl sektorun inkişafı üçün bütün imkanları yaradaq. Amma eyni zamanda, şübhəsiz ki, gərək bizim özəl sektor da, xarici investorlar da Azərbaycanın qanun-qaydalarına riayət etsinlər. Əgər bizim qanunlarımızda bu barədə hansısa bir dəyişikliklər etmək lazımdırsa, mən onların da həyata keçirilməsinin tərəfdarıyam.

Bir sözlə, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün, iqtisadi islahatların həyata keçirilməsi ilə yanaşı, xarici investisiyanın Azərbaycana gəlməsi, xarici investorlara Azərbaycanda əlverişli şərait yaradılması və Azərbaycanda özəl sektorun inkişafı üçün imkan, əlverişli şərait yaradılması bizim hamımızın qarşısında duran əsas vəzifədir və bu vəzifəni həyata keçirmək lazımdır.

Yoxlamalar haqqında deyərkən, mən ümumiyyətlə, hüquq-mühafizə orqanlarının işində də bir çox tədbirlərin görülməsini bu gün tələb edirəm. Azərbaycanın hüquq-mühafizə orqanları ötən beş ildə yaxşı işləyiblər. Azərbaycanın dövlətçiliyinin qorunmasında, Azərbaycanda cinayətkarlığın qarşısının alınmasında da cinayətkarlarla mübarizədə yaxşı işləyiblər və yaxşı nəticələr də əldə ediblər. O barədə konkret rəqəmləri baş prokuror Eldar Həsənov burada gətirdi. Mən bu barədə onlardan razı olduğumu bildirirəm. Amma eyni zamanda hüquq-mühafizə orqanlarının işində çox nöqsanlar da var, çatışmayan cəhətlər də var. Ayrı-ayrı hüquq-mühafizə orqanları işçilərinin vəzifəsindən sui-istifadə etməsi, rüşvətxorluq etməsi və başqa hallar da var. Müxtəlif yoxlamalar aparılır. Təkcə xarici investorları və ya özəl sektoru deyil, elə hər adamı yoxlayırlar. Mən bir daha bunu demişəm, bir də deyirəm. Bu yol polisi nə qədər maşını saxlaya bilər? Vətəndaş avtomobilində gedir, yol polisi saxlayır – orada saxlayır, burada saxlayır. Azərbaycanın müxtəlif bölgələrindən Bakıya gələn avtomobilləri saxlayırlar, xaricdən gələn avtomobilləri [186-187] saxlayırlar. Mən bizim Daxili İşlər Nazirliyinə bir də xəbərdarlıq edirəm ki, bu nöqsanları aradan qaldırmaq lazımdır. Ümumiyyətlə, hüquq-mühafizə orqanlarında əldə edilən nailiy-

yətlər əsasında daha da sağlam mühit yaratmaq lazımdır. Korrupsiya ilə mübarizəni gücləndirmək lazımdır, cinayətkarlıqla mübarizəni gücləndirmək lazımdır. Onun üçün də birinci növbədə hüquq-mühafizə orqanlarının işində rüşvətxorluğu, korrupsiyanı aradan götürmək lazımdır.

Biz ümumiyyətlə, bütün işlərimizi daha da təkmilləşdirməliyik. İcra orqanlarının işi keyfiyyətcə köklü surətdə yaxşılaşmalıdır. Seçkiqabağı kampaniyada müxalifət qüvvələri və o cümlədən prezidentliyə namizədlər Azərbaycanda icra orqanlarının işini çox ciddi tənqid edirdilər. Doğrudur, çox böhtanlar da deyiblər, yalanlar da deyiblər, şər də atıblar, əsassız sözlər də deyiblər. Onların heç birini biz qəbul edə bilmərik. Böhtan kimi, yalan kimi, şər kimi onların hamısına mən bu gün etirazımı bildirirəm. Amma eyni zamanda tək onlar yox, ümumiyyətlə, ictimaiiyyət tərəfindən, vətəndaşlar tərəfindən icra orqanlarının işində olan nöqsanlar kəskin surətdə tənqid edilir.

Bu tənqiddən nəticə çıxarmaq lazımdır.

Mən hesab edirəm ki, biz yeni prezident seçkiləri keçirəndən sonra, işimizin yeni mərhələsinə başlayaraq, öz işimizi çox ciddi özünütənqid nöqteyi-nəzərindən təhlil etməliyik. Özümüz öz işimizə çox ciddi, tənqidi yanaşmalıyıq. Şübhəsiz ki, ictimaiyyət tərəfindən, hər kəs tərəfindən – kim olur-olsun, fərqi yoxdur – əgər ədalətli tənqid olunursa, tənqid varsa, konkret fakt varsa, ona baxmaq lazımdır, onu istifadə etmək lazımdır və işi yaxşılaşdırmaq lazımdır.

Hesab edirəm ki, Nazirlər Kabinetinin işi çox ciddi şəkildə yaxşılaşdırılmalıdır, təkmilləşdirilməlidir. Nazirlər Kabinetinin tərkibi bu yaxın zamanlarda təsdiq olunacaqdır. Ancaq nazirliklərdə, komitələrdə və Nazirlər Kabinetinin əhatə etdi[187-188]yi bütün icra orqanlarında olan nöqsanlar aradan götürülməlidir və işlər ciddi surətdə yaxşılaşdırılmalıdır.

Yerli icra orqanlarının işində çox nöqsanlar var. Şəhər, rayon icra hakimiyyəti orqanlarının işində çox nöqsanlar var. Onları mənə gələn məktublarda vətəndaşlar da yazırlar. Seçkiqabağı toplantılarda da deyiblər və biz özümüz də bunları görürük. Ona görə mən bu gün yerli icra hakimiyyəti orqanlarından və onların başçılarından tələb edirəm ki, öz işlərində olan nöqsanları aradan qaldırsınlar və öz imkanlarından istifadə edərək rəhbərlik etdikləri şəhərdə, rayonda, bölgədə bütün problemlərin həll olunmasına çalışsınlar. Bizim bir çox icra hakimiyyəti başçılarına konkret iradlarımız var.

Birinci növbədə, - mən həmişə demişəm, - vəzifəli şəxs gərək vəzifəsindən sui-istifadə etməsin. Biz bununla mübarizə aparmışıq və aparacağıq. Bilirsiniz ki, belə hallara görə bizim bir neçə yüksək vəzifəli şəxslərimiz – həm nazirlər, həm yerli icra hakimiyyəti orqanlarının başçıları vəzifələrindən kənarlaşdırılıblar, cəzalandırılıblar. Biz bunu bundan sonra da davam etdirəcəyik, heç kəsə güzəşt etməyəcəyik. Bu gün bütün icra orqanlarında işləyən işçiləri, rəhbər vəzifəli şəxsləri xəbərdar edirəm ki, bizim bu tələblərimiz bundan sonra da artacaqdır və siz öz işinizi bu artan tələblər səviyyəsində qurmalısınız.

Burada bir neçə faktlar gətirildi. Məsələn, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı. O adam orada çoxdan işləmir. Mənim xatirimdədir, iki il bundan öncə əvvəlki icra hakimiyyəti başçısı orada vəzifəsindən sui-istifadə etdiyinə görə biz onu işdən kənarlaşdırdıq, yeni adamı təyin etdik. Dedilər ki, bu orada təhsil şöbəsinin müdiridir, təhsil adamıdır, demək, ziyalıdır, - bu, daha yaxşı işləyə bilər. Amma nəticə nədir? Burada gətirilən faktlar. O, vəzifəsindən sui-istifadə edib, dövlətin vəsaitinə əl atıbdır. Şübhəsiz ki, belə adam vəzifədə qala bilməz. Ona görə də mən bu gün bəyan [188-189] edirəm ki, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Süleyman Rəşidov öz vəzifəsindən azad olunur.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı haqqında hələ bir neçə ay bundan öncə məlumatlar gəlmişdi və yoxlamalar aparılmışdır. Yoxlamalar təsdiq etmişdir ki, orada da yenə dövlət vəsaiti dağıdılıbdır. O vaxt mən dedim ki, bəlkə özü üçün nəticə çıxarar.

**Əvəz Hüseynquliyev** – *(Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab prezident, mən qətiyyətlə, cəsarətlə deyirəm, Sizin qarşınızda başımla cavab verirəm, - bu faktlar düzgün deyil. Əli Nağıyev tərəfindən verilən fakt,–85 faiz o, çörək puludur. Yerdə qalan isə, mən Sumqayıtda 9 yardımçı məktəb tikdirmişəm. Sizin dövlət nəzarəti şöbəsi o məsələni yoxlayıbdır. Bu məsələni Nazirlər Kabinetinin geniş iclasında müzakirə etdik. Mən xahiş edirəm, bu iş ciddi yoxlanılsın. Düzgün olsa, mən sizin qarşınızda başımla cavab verirəm.

**Heydər Əliyev**: Bu axı yoxlanılmışdı, Siz mənə arayış vermişdiniz.

**Eldar Həsənov**: Verilən məlumatlar mübahisəlidir.

**Heydər Əliyev**: O arayışı kim vermişdi?

**Ramiz Mehdiyev**: Arayışı Salman Cəfərov vermişdir.

**Heydər Əliyev**: (*Salman Cəfərova müraciət edir)*: Sən nə deyirsən?

**Salman Cəfərov** – *(Prezidentin İcra Aparatının dövlət nəzarəti şöbəsinin müdiri)*: Mənfi faktlar çoxdur, icazə verin bir daha yoxlayaq.

**Heydər Əliyev**: Yox ey, mənfi faktlar yox, siz demişdiniz guya 4 milyard manatdır, nə qədərdirsə, burada pul mənimsənilibdir.

**Salman Cəfərov**: İcazə verin bir daha yoxlayaq.

**Heydər Əliyev**: Nəyə bir də icazə verməliyəm sizə? Əgər fakt yoxdursa, niyə mənə gətirib verirsiniz? [189-190]

**Salman Cəfərov**: Deyilən faktlar hamısı düzdür.

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz, Ramiz Mehdiyev, onda bəs siz niyə mənə belə məlumat verirsiniz?

**R a m i z M e h d i y e v**: Faktlar olubdur, faktlar haqqında məlumat verilibdir.

**H e y d ə r Ə l i y e v**: Yaxşı, mən sizə bir həftə vaxt verirəm, bir həftənin içərisində bir də baxın, məsələni mənə deyin.

Mənim bu xəbərdarlığımdan hamı özü üçün nəticə çıxarmalıdır.

Səbail bankında baş vermiş hadisə haqqında burada geniş məlumat verildi. Şübhəsiz, müxalifət və başqaları bunu şişirdərək istifadə edirlər. Ancaq fakt ondan ibarətdir ki, 100 milyard manata qədər məbləğ oradan oğurlanıbdır. Prokurorluq iş aparır, burada məlumat verdi ki, nə qədər adam məsuliyyətə cəlb olunubdur. İnsanlar məsuliyyətə cəlb olunub, amma dövlətin vəsaiti itibdir. Dedilər ki, 20 milyard manat qaytarılıbdır, 10 milyardlıq da əmlaka həbs qoyulubdur. Amma yenə də, bu yolverilməzdir. Ona görə də prokurorluq bu işi davam etdirməlidir. O qaçmış adam, - Daxili İşlər Nazirliyinə göstəriş vermişəm, - axtarılıb tapılmalıdır və məsuliyyətə cəlb olunmalıdır. Bütün günahkarlar məsuliyyətə cəlb edilməlidir.

**E l d a r H ə s ə n o v**: Aydındır, cənab prezident.

**H e y d ə r Ə l i y e v**: Ancaq bu işdə bizim Milli Bankın sədri Elman Rüstəmovun və maliyyə naziri Fikrət Yusifovun da günahı var. Onların günahını mən demişəm. Bu gün mən Elman Rüstəmova və Fikrət Yusifova töhmət elan edirəm və sizi xəbərdar edirəm – belə şeylərə son qoymaq lazımdır. Sizi xəbərdar edirəm və bilin ki, əgər siz bundan nəticə çıxarmasanız daha da ciddi ölçülər götürəcəyəm. Əyləşin.

Baş Vergi Müfəttişliyi haqqında mən dedim, Nazirlər Kabineti araşdıracaqdır. Ancaq əldə olunan məlumata görə, [190-191] Baş Vergi Müfəttişliyinin rəisi Vəkilovu bu gün xəbərdar edirəm ki, onun işindən mən narazıyam. Bu məsələləri araşdırandan sonra mən bu məsələni müzakirə edəcəyəm.

Müzakirə olunan məsələlərdən ən əsası, ən böyüyü qaçqınların və məcburi köçkünlərin vəziyyəti və 27 iyunda keçirilən müşavirənin yekunları, sonra, sentyabr ayında qəbul edilmiş proqramın həyata keçirilməsi məsələsidir. Müəyyən işlər görülüb, bu barədə məruzələrdə, çıxışlarda da dedilər: Ancaq sizə açıq deyim ki, mən seçkiqabağı görüşlər zamanı çadır düşərgələrində olub, onları görəndən sonra çoxt narahat olmuşam. Şübhəsiz ki, yerindən-yurdundan didərgin düşmüş insanlar, çadırda yaşayan insanlar ağır vəziyyətdə yaşayırlar. Bu məlumdur. Ancaq bu ağırlıq harada nə dərəcədədir, nə cürdür – biz niyə bilmirik və niyə imkanlarımızdan istifadə etmirik ki, bunların vəziyyətini müəyyən qədər yaxşılaşdıraq? Bu məni təəccübləndirir.

Aydındır ki, bunların problemi əsasən o vaxt həll olunacaq ki, işğal olunmuş torpaqlar azad ediləcək, onlar öz yerlərinə-yurdlarına qayıdacaqlar. Mən bu gün bəyan edirəm ki, biz bu sahədə indiyə qədər çox iş görmüşük və bundan sonra da görəcəyik. Sülh danışıqları yaxın günlərdə bərpa olunacaqdır. Ayın 7-8-də Minsk qrupunun həmsədrləri Azərbaycana gələcəklər, biz görüşlər keçirəcəyik. Deyilənlərə görə, onlar müəyyən təkliflərlə gəlirlər və bu danışıqlar prosesini biz sürətləndirəcəyik. Bu gün mən bir daha hesab edirəm ki, biz sülh danışıqları prosesindən maksimum istifadə etməliyik və məsələnin bu yolla həll olunmasına çalışmalıyıq. Biz çalışırıq, bundan sonra da çalışacağıq.

Müxalifət haqqında mən sonra deyəcəyəm. Amma onlar orada mitinq edirlər, burada yürüş keçirirlər, burada danışırlar. Yaxud da ki, prezidentliyə namizədlər – onlar nə təklif edirlər? «Qarabağ məsələsi, Qarabağ məsələsi». Qarabağ məsələsi barədə nə təklif edirlər? Qarabağ məsələsini yaradan [191-192] da onlardır, Qarabağ məsələsini bu qədər ağır vəziyyətə salan da onlardır. Biz dörd-beş ildir ki, bu Qarabağ məsələsinin, yəni Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması üçün çalışırıq. Onlar nə ediblər? Onlar bu problemi yaradıblar, Azərbaycan torpaqlarının işğal olunmasını təmin ediblər, indi də gəlib bu kartdan istifadə edirlər. Vaxtilə onlar bu kartdan istifadə edib özləri üçün bir imic yaratdılar. İndi nə təklif edirlər? Təklif etməyə heç bir şeyləri yoxdur.

Mən oktyabrın 18-də andiçmə mərasimində bəyan etdim ki, hər bir kəslə, o cümlədən hər bir müxalifət partiyası ilə əməkdaşlıq etməyə hazıram və xüsusən Ermənistan – Azərbaycan münaqişəsinin həll olunması sahəsində, işğal edilmiş torpaqların azad olunması sahəsində əməkdaşlıq etməyə hazıram. Amma bu əməkdaşlığın əsasını konkret təkliflər təşkil etməlidir. Kimin biz gördüyümüz işdən fərqli iş görülə biləcək təklifi, sözü varsa, gəlsin ortaya, biz onun fikrinə də qulaq asarıq. Əgər doğrudan da onun təklifi bizim gördüyümüz işlərdən yararlı olsa, onu da qəbul edərik və onunla bu sahədə əməkdaşlıq etməyə də hazırıq. Amma heç bir iş görmək qabiliyyəti olmayan və heç bir konkret təklifi olmayan bu uydurma partiyalar, qruplar indi bloklar düzəldirlər, bu məsələni istismar edirlər və Azərbaycanda ictimai-siyasi sabitliyi yenə də pozmaq istəyirlər. Şübhəsiz ki, biz bunlara yol verməyəcəyik.

Ona görə də mən hesab edirəm ki, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın problemi onlar öz yerlərinə-yurdlarına qayıtdıqda həll olunacaqdır. Biz buna nail olmalıyıq və güman edirəm, nail olacağıq.

Ancaq hələ ki, biz buna nail ola bilməmişik, hələ ki, onlar müxtəlif yerlərdə, o cümlədən çadır düşərgələrində yaşayırlar, - biz onların vəziyyətini yaxşılaşdıra bilərik. Bu, bizim əlimizdədir, biz bunu edə bilərik. Təəssüflər olsun ki, bu işlə məşğul olan şəxslər və ümumiyyətlə, bütün başqa rəhbər [192-193] vəzifəli şəxslər indiyə qədər bu məsələ ilə ciddi məşğul olmayıblar.

İyun ayının 27-də biz müşavirə keçirdik, bütün günü müzakirə etdik, hamını dinlədik. Sonra mən Baş nazirin rəhbərliyi ilə komissiya təşkil etdim. Bunlar bir müddət işlədilər, sentyabr ayında proqramı təqdim etdilər. Proqramı təsdiq etdik.Ancaq mən gedib o çadır düşərgələrində olarkən gördüm ki, yox, bu proqram da yetərli deyil.

Məsələn, mən Biləsuvarda düşərgələrə getdim. Palçıqdan divarlar düzəldilib, yer torpaq, yuxarı torpaq. İndi bu üç-dörd ildə bunu başqa bir şeydən də etmək olardı ki, bu adam palçığın içində yaşamasın. Getdim, İmişlidə gördüm ki, metaldan, plastik materiallardan, taxtadan evlər düzəldiblər. Düzdür, onlar bahadır, onları bizə hansısa humanitar yardım təşkilatı göndəribdir. Ancaq bunu biz özümüz də edə bilərdik. Bəlkə də hamısını birdən edə bilməzdik, amma xırda-xırda edə bilərdik. Biləsuvarda məskunlaşmış adamlar dörd ildir orada yaşayırlar. Dörd il müddətində bunu etmək olardı. Yaşayır, evi yoxdur, eşiyi yoxdur. Bu, niyə belə vəziyyətdə yaşamalıdır? Heç olmasa bunun bir yaşayış yeri gərək olsun. Məsələn, İmişlidə mənim gördüyum yaşayış yeri ilə Biləsuvarda gördüyüm yaşayış yeri arasında fərq böyükdür.

Qaçqınlar Komitəsi var, böyük bir təşkilatdır. Orada işlə məşğul olmurlar, bir-biri ilə intriqa aparırlar. Baş nazirin müavini İzzət Rüstəmovu vaxtilə xüsusi olaraq bu işlər üzrə təyin etmişəm. Gedirlər, görürlər, nə üçün təklif vermirlər? Bilirsiniz, hər bir sahədə işləyən adam gərək çalışsın, o sahənin işlərini daha da yaxşı qursun, bunun üçün hansı təklifi istəyir versin. Hansı mümkündür, - onu etmək olar, hansı mümkün deyil, - etmək olmaz. Amma təklif verilməyib axı. Onların belə bir vəziyyətdə olmasını heç kəs görməyibdir. Mən Biləsuvarda olanları görməmişdim. Burada mənim [193-194] sağımda, solumda oturanlar da görməyiblər. Amma İzzət Rüstəmov görübsə, bəs niyə tədbir görməyibdir?

Bilirsiniz, mən çadır düşərgələrinə gələndə onlar mənim oraya gəlməyimin məqsədini səhv başa düşdülər. Onlar hesab etdilər ki, mən oraya gəlirəm mitinq keçirəm. Onlar bir meydança hazırlamışdılar ki, orada mitinq olsun, hamısı yığışsın oraya, mən onlara söz deyim, onlar da mənə söz desin. Bununla da qurtarım gedim. Mən bundan imtina etdim. Dedim, mən gedirəm evlərə baxmağa. Getdim birinə, ikisinə, bir neçəsinə baxdım, vəziyyəti gördüm. Ondan sonra gəldim, hamı toplaşdı, orada görüş keçirdim. Bunu hiss etdilər. İmişliyə gedəndə İmişlidəki çadır düşərgəsində bir-iki ev hazırladılar ki, hə, gəl, cənab prezident, bu evlər var. Evi də hazırlayıblar, onun içində yaşayan adamı da hazırlayıblar. Mənim portretimi də vurublar içəri. Mən dərhal bildim ki, bunu hazırlayıblar. Bilirsiniz, gözdən pərdə asmaq lazım deyil, mənə belə şeylər lazım deyil. Mən həqiqəti görmək istəyirəm, həqiqəti bilmək istəyirəm. Nə isə xüsusi düzəldib, gətirib göstərəsən ki, bax, budur, amma həqiqət isə başqa cürdür – bu yaramaz. Mən bunu bu gün İzzət Rüstəmova da deyirəm, başqalarına da deyirəm və hamıya da deyirəm. Bir bu məsələlərlə əlaqədar yox, bütün məsələlərlə əlaqədar həqiqəti bilməliyik. Biz nə qədər çox həqiqəti bilsək, o qədər də işimizi düzgün qura bilərik. Kim ki, guya ya özünün vəziyyətini saxlamaq üçün, yaxud da bizə xoş gəlmək üçün bizi aldadır, - o, cinayət edir, o, bizə xəyanət edir. Belə lazım deyil. Mən belə işləri qəbul etmirəm, bilin.

Mən Biləsuvara gedəndə bizim «Avtonəqliyyat» Dövlət Konsernindən gəldilər mənə dedilər ki, həmin evlərdən 20 dənə hazırlayıblar – o keçmiş konteynerlərdən – və oraya vermək olar. Mən oradakı vəziyyəti hələ bilmirdim. Getdim, oraya bir neçəsini gətirdilər. Orada hətta getdim bir xoş hadisənin üstünə də çıxdım – toya hazırlaşırdılar, çörək [194-195] bişirirdilər ki, toy etsinlər. Təzə evlənən oğlana o evin birini bağışladım. Həmin 20 evi qısa bir zamanda hazır etdilər. Amma bir il, iki il, üç il bundan qabaq bu iş ilə müşğul olunsaydı… Düzdür, buna xərc də lazımdır, vəsait də lazımdır, amma bunu etmək olardı. Yenə də deyirəm, o, onsuz da ev deyil. Lap onlara gətir böyük bir imarət də tik. Öz torpağından ki, onlar ayrılıblar, rahat yaşaya bilməyəcəklər. Biz də bu yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza hansısa bölgələrdə yeni evlər tikmək və onları orada daimi yaşatmaq fikrində deyilik. Onlar da gərək bu fikirdə olmasınlar, biz də bu fikirdə deyilik. Bizim fikrimiz və qəti məqsədimiz ondan ibarətdir ki, işğal edilmiş torpaqlar azad olunmalıdır və hər kəs öz torpağına qayıtmalıdır.

Mən demişəm, artıq bizə bu sahədə beynəlxalq təşkilatlar yardım edir. Füzuli rayonunun işğaldan azad olunmuş kəndlərində, o cümlədən Horadizdə aparılan bərpa işləri, orada tikilən evlər, məktəb – bunlar hamısı əyani sübutdur ki, biz bunu edə bilərik. İndi Ağdamda da, onun işğaldan azad olunmuş kəndlərində də bu ediləcəkdir, başqa yerlərdə də, Sədərəkdə də ediləcəkdir. Yəni bizim imkanımız var və mümkün olacaqdır ki, işğaldan azad edilən bütün rayonlarda, bütün kəndlərdə onlar üçün yeni evlər, yeni yaşayış binaları yaradaq ki, öz torpaqlarında yaşasınlar. Biz buna nail olmalıyıq və məqsəd də bundan ibarətdir. Onlar da bu arzularla yaşamalıdır, biz də bu arzularla yaşamalıyıq. Ancaq hələ ki, qaçqınlar müvəqqəti hansı yerdə yaşayırlarsa, onların heç olmasa vəziyyətini müəyyən qədər yaxşılaşdırmaq lazımdır.

Ona görə də mən hesab edirəm ki, o müşavirədən sonra mənim yaratdığım komissiya bu işə səthi yanaşıbdır. Bu komissiyanın üzvləri gərək gedəydilər, o çadır düşərgələrində olaydılar, vəziyyəti görəydilər və baxaydılar ki, nə etmək olar. Məhz buna görə də bu məsələni mən bir daha müzakirəyə [195-196] çıxarmışam və hesab edirəm ki, biz Nazirlər Kabinetinin bugünkü iclasında bu barədə müəyyən qərarlar qəbul etməliyik, müəyyən tapşırıqlar verməliyik, müəyyən işlər görməliyik. Mənə deyirlər ki, İmişliyə, yaxud da ki, Biləsuvara verdiyiniz həmin o evlərdən – 20 evdən indi onlar 100 dənəsini hazırlayıblar.

**A r t u r  R a s i z a d ə**: 160-nı.
**H e y d ə r  Ə l i y e v**: 160-nı hazırlayıblar. Görürsən, qısa müddətdə bu olub.
**A r t u r  R a s i z a d ə**: 160-ı hazırdır, 400 olacaqdır.
**H e y d ə r  Ə l i y e v**: Həmin o «Avtonəqliyyat» konserni?
**A r t u r  R a s i z a d ə**: Bəli. O tipdə.
**H e y d ə r  Ə l i y e v**: O tipdə 400 olacaq.
**A r t u r  R a s i z a d ə**: Bəli, başqa forma da var.
**H e y d ə r  Ə l i y e v**: Mənim bu barədə tapşırığımdan heç bir ay da keçməyib. Demək, 160-ı hazırdır, deyir 400 ədəd olacaqdır. Hörmətli İzzət Rüstəmov, əgər siz təşəbbüskar olsaydınız, əgər siz bu məsələləri qoysaydınız, əgər siz bu barədə mübarizə aparsaydınız, bir il, iki il, üç il bundan qabaq da buna nail olmaq olardı. Mənim Biləsuvarda olmağımdan heç bir ay da keçməyib, amma indi 160-ı hazırdır. Əyləşin.
**İ z z ə t  R ü s t ə m o v**: Hazırlanıb, oraya göndəriləcəkdir.
**H e y d ə r  Ə l i y ev**: Yaxşı, indi, əlbəttə, göndəriləcək, bu işə mən qarışdım, göndəriləcək. Amma iş burasındadır ki, yaxşı olardı bunu siz edəydiniz. Təklif edəydiniz, həmin o 27 iyun müşavirəsindən sonra gəlib deyəydiniz ki, belədir, mən bu yerlərdə oluram, belə bir şey etmək lazımdır. Mən bilmirəm, siz gedib onun hamısını görürsünüz, ya yox? Bəlkə siz də gedirsiniz, ev göstərirlər, ya sizə göstərmirlər, rayon mərkəzində kimləsə görüşüb qayıdırsınz – bəlkə belədir, bilmirəm.
**İ z z ə t  R ü s t ə m o v**: Yox, elə deyil. [196-197]
**H e y d ə r  Ə l i y e v**: Əgər elə deyilsə, bəs siz onları görüb necə dözürsünüz ona?
**İ z z ə t  R ü s t ə m ov**: Əvvəllər çit parçalardan ibarət idi. Çadır şəhərciklərində iki ildən artıqdır ki, çiy kərpicdən evlər tikilir. Əlbəttə, bunu təbliğat üçün demirəm, sizin gəlməyiniz həqiqətən bizim üçün böyük rol oynadı.
**H e y d ə r  Ə l i y e v**: Ay qardaş, mən tutaq ki, bilmirəm. Sən istəyirdinsə nəsə edəsən, gərək birinci mənə bunu deyəydin ki, vəziyyət belədir, gəl səni aparım ora, çünki orada işlər görmək lazımdır, mən görə bilmirəm. Sən bunu mənə demədin. Bir dəfə deyəydin də. Deməmisən. Əyləş.
Bu sahədə işləri mən qeyri-qənaətbəxş hesab edirəm və yenə də deyirəm, - bugünkü qərarımızda bu tədbirlər öz əksini tapmalıdır, lazımi işlər görməliyik və bu məsələlər üzrə bizim ayrıca proqramımız olmalıdır. Mən Baş nazirə göstəriş vermişəm və tələb edirəm ki, qısa müddətdə həmin proqram mənə təqdim olunsun.
Ancaq bizim bu Qaçqınlar Komitəsinin rəhbərliyi bu işləri apara bilmir. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm. Qaçqınlar Komitəsinin sədrinə də xəbərdarlıq etmişəm. Bir neçə dəfə müşavirələrdə ona söz vermişik, çıxıb danışıb, söz veribdir, ancaq bunları apara bilmir.
Ümumiyyətlə, mən hesab edirəm ki, bizim Nazirlər Kabinetinin tərkibində bu sahə əsas sahələrdən biridir. Bu sahəyə indiyə qədər olduğu kimi baxmaq olmaz. Bu, xüsusi diqqət mərkəzində olmalıdır, Baş nazirin də xüsusi nəzarəti altında olmalıdır, prezidentin də xüsusi nəzarəti altında olmalıdır, başqalarının da xüsusi nəzarətində olmalıdır.
Mənə indi deyirlər ki, bəli, mən həmin o çadır düşərgələrində olandan sonra, mənim çıxışlarımdan sonra bir neçə nazirlər gediblər, yardım göstəriblər, indi də göstərirlər. Deyirlər ki, bəlkə əlavə də bir iş görək, siz bizə deyin. [197-198]
Bilirsiniz, bu yardımlar da çox pərakəndə gedir. İndi məlumat verirlər ki, nə bilim, filan ölkədən 30 milyon dollar yardım gəlib, filan ölkədən 20 milyon dollar yardım gəlib. Bunlar o qədər pərakəndə gəlir, pərakəndə gedir ki, bunların harada, nə nəticə verməsini müəyyən etmək mümkün deyil. Bu işi Qaçqınlar Komitəsi görməlidir və Qaçqınlar Komitəsində hər həftə konkret məlumatlar olmalıdır, haqq-hesab aparılmalıdır. Amma bunun əvəzinə, - burada gərək ki, Baş prokuror dedi, - bu Qaçqınlar Komitəsinin tam mərkəzi aparatında yox… Sən dedin də, gərək ki?
**E l d a r  H ə s ə n o v**: Hansı fikri?
**H e y d ə r  Ə l i y e v**: Ya kim dedi? Əli Nağıyev dedi, bağışlayın. Bütün rayon təşkilatlarında da saxtakarlıq, filan-peşməkan var, bunu deyiblər. Ona görə də mən hesab edirəm ki, Qaçqınlar Komitəsinin rəhbərliyi bu tərkibdə fəaliyyət göstərə bilməz. Mən bu gün Qəhrəmanovu Qaçqınlar Komitəsinin sədri vəzifəsindən və onun müavinlərini müavin vəzifəsindən azad edirəm.
İş tək onların azad edilməsində deyil, iş ondadır ki, biz bir gün, iki gün müddətində gərək oraya çox təcrübəli adamlar təyin edək və lazımdır ki, tək onlar yox, bizim hamımız bu məsələ ilə bilavasitə məşğul olaq. İzzət Rüstəmova mən töhmət elan edirəm və xəbərdarlıq edirəm sizə. Hörmətli İzzət Rüstəmov, siz yaxşı alimsiniz, yaxşı müəllimsiniz, yaxşı da insansınız. Amma siz bu sahəyə yaxşı alim olduğunuz kimi, yaxşı da rəhbərlik etməlisiniz və mən sizə töhmət verərək, bir daha xəbərdarlıq edirəm və bilin ki, mən sizə olan bu etimadımı da sonra geri götürə bilərəm və bundan nəticə çıxarın.
**İ z z ə t  R ü s t ə m o v**: Mən elə hərəkət etmərəm ki, sizin etimadınızı doğrultmayım.
**H e y d ə r  Ə l i y e v**: Bilirsiniz, bu cür işləmək məni qane etmir. Məni qane etmir. [198-199]
Payız-qış aylarında sosial-iqtisadi sahələri təmin etmək barədə burada məlumatları biz dinlədik. Mən belə anlayıram ki, respublikanın elektrik enerjisi ilə təmin edilməsi Azərbaycanın hər yerində təşkil olunacaqdır. Mən Müslüm İmanovun sözündən belə başa duşdüm və tələb edirəm ki, bu olsun. Ancaq bu,

real olmalıdır, həqiqi olmalıdır. Çünki çox vaxt məlumat verirlər ki, filan yerdə elektrik enerjisi var, amma oradan məlumat gəlir ki, elektrik enerjisi yoxdur. Bizim elektrik stansiyalarında Azərbaycanın hər yerinə elektrik enerjisi vermək imkanı var, bir Naxçıvandan savayı. Çünki Naxçıvana imkan yoxdur. Oranı biz Türkiyədən, ya İrandan gələn elektrik vasitəsilə təmin etmişik və Naxçıvan əhalisi də öyrənibdir ki, artıq bu elektrik enerjisini saatla alırlar, elədirmi?

**V a s i f  T a l ı b o v**: 2 saat alırlar, 2 saat fasilə.

**H e y d ə r  Ə l i y e v**: 2 saat alırlar, 2 saat fasilə. Çünki İrandan və Türkiyədən gələn enerjinin miqdarı o qədərdir. Gələcəkdə biz çalışırıq və bizim proqramımız var ki, Mingəçevirdə bir elektrik stansiyası tikək və oradan Türkiyəyə elektrik enerjisi verək ki, Türkiyə Naxçıvanı tamamilə təmin etsin. Belə bir proqramımız var bizim. Amma hələ ki, belədir və Naxçıvan belə də yaşayır. Hələ indi yaxşıdır, amma 1991-1992-ci illərdə heç bu da yox idi - Türkiyədən, İrandan elektrik xətlərini gətirənə qədər bu da yox idi. Bir o Arazın üzərindəki stansiyadan biz 20 meqavat elektrik enerjisi alırdıq, onunla yaşayırdı Naxçıvan.

Amma Azərbaycanın bütün hər yerinə elektrik enerjisi vermək imkanımız var. Sadəcə, bunu «Azərenerji» Səhmdar Cəmiyyəti təmin etməlidir və bu işə nəzarət etməlidir. İşi indi elə təşkil etməlidir ki, - hələ havalar yaxşı keçir, - havalar soyuyan zaman, şaxta zamanı, elektrik enerjisinə tələbat artan vaxta indidən hazırlıq görməlidir ki, bu təminat olsun və bir problem meydana çıxmasın. Müslüm İmanova mən bu [199-200] gün deyirəm və onu xəbərdar edirəm ki, bunu etməlidir və biz arxayın olmalıyıq ki, respublikanın bütün bölgələri, bütün rayonlar, bütün yaşayış məntəqələri elektrik enerjisi alır.

Qaz təminatı barəsində. Mən bunu keçən dəfə də demişəm, - bizim qaz imkanlarımız məhduddur. Ancaq mən hesab edirəm ki, burada bir proqram olmalıdır. İndi «Azəriqaz» Səhmdar Cəmiyyəti işini guya bir az yaxşılaşdırıbdır və burada məlumat verdilər ki, bir neçə yaxın rayonlara da qaz verirlər. Ancaq burada bir proqram olmalıdır ki, biz qazla haraları, nə cür, nə qədər təmin edə bilərik – həm bu təbii qazla, xətdən gələn qazla, həm də maye qazla. Mən hesab edirəm ki, bu işlər «Azəriqaz» Səhmdar Cəmiyyətində çox pərakəndə gedir. Özləri özbaşına nə cür istəyirlər, o cür edirlər. Bunu da bir proqramlaşdırmaq lazımdır. Bizim maye qaz zavodumuz indi çox qaz istehsal edir və onun bir hissəsini aparıb Türkiyədə satırlar, bir hissəsini aparıb Gürcüstanda satırlar. Mən etiraz etmirəm ki, bunları aparıb Türkiyədə, Gürcüstanda satsınlar, amma əgər öz tələbatımız təmin olunubsa. Özümüzün burada tələbatımız təmin olunmayıb, bunlar ticarət aparırlar. Ona görə Nazirlər Kabinetinin qərarında bu, öz əksini tapmalıdır, bizim qəbul edəcəyimiz bugünkü qərarda bu, əksini tapmalıdır. «Azəriqaz», eyni zamanda bizim Dövlət Neft Şirkəti, çünki o maye qaz zavodu – deyəsən, onlara tabedir. Elədir, onlara tabedir?

**A r t u r  R a s i z a d ə**: Elədir.

**H e y d ə r  Ə l i y e v**: Onlar ikisi birlikdə bizə konkret proqram verməlidirlər ki, bizdə qazla hara və nə qədər təmin olunur və hansı vaxt nə qədər təmin olunacaq. Çünki bu iş planlı şəkildə həyata keçirilməlidir. Elə olmamalıdır ki, bu gün «Azəriqaz» istəyir oraya verir, sabah istəyir oraya verir, filan qədər istəyir oraya verir. İndi dedilər və mən belə başa düşdüm ki, orada yarım milyard kubmetr ehtiyat toplanıb.

**A r t u r  R a s i z a d ə**: Ondan da çox. [200-201]

**Ə l i h ü s e y n  C a m a l o v**: 600 milyon kubmetr.

**H e y d ə r  Ə l i y e v**: 600 milyon kubmetr toplanıbdır. Ondan nə cür istifadə olunacaq, nə vaxt istifadə olunacaqsa, bunu müəyyən etmək lazımdır. Ona görə bu məsələ də öz əksini tapmalıdır. Məlumdur və bu gün mən bir daha ictimaiyyətə də deyirəm ki, biz bu gün Azərbaycanın hər məntəqəsini qazla təmin etmək imkanına malik deyilik. Burada Baş nazirin məruzəsində deyildi ki, bunun üçün bizə 10 milyard kubmetr qaz lazımdır, elədir də?

**A r t u r  R a s i z a d ə**: Ən minimal halda 9-10 milyard kubmetr qaz lazımdır.

**H e y d ə r  Ə l i y e v**: Ən minimal halda 10 milyard kubmetr qaz lazımdır. Bu qədər qaz bizdə yoxdur. Mən bunu bir dəfə seçicilər qarşısında çıxış edərkən demişdim. O vaxt, 70 –ci illərdə mən Azərbaycana rəhbərlik edərkən gördüyüm işlərdən ən dəyərlisi də ondan ibarət idi ki, bütün Azərbaycanın dağ kəndlərinə də qaz kəmərləri çəkdirdim. Nəinki qaz kəmərləri çəkdim, onları qazla təmin etdim. O vaxt biz 20 milyard kubmetrə qədər qazdan istifadə edirdik. Ancaq indi bu imkan yoxdur. Ona görə də heç kəsi aldatmaq lazım deyil. Mən heç kəsi heç vaxt aldatmamışam. Ancaq müəyyən etmək lazımdır, - hara nə qədər qaz alacaqdır. Bu da bizim proqramda yazılmalıdır.

Bəzi populistlər həmin seçkiqabağı dövrdə çıxış edirdilər ki, «hə, sizin burada meşələriniz kəsilir, nə bilim, mən sizə qaz çəkəcəyəm, sizin meşələriniz də kəsilməyəcəkdir». Bilirsiniz, onun xəbəri yoxdur ki, həmin meşələr olan yerdə insanlar əsrlər boyu qazsız yaşayıblar. Həmin yerlərə, meşələr olan yerlərə qaz 70-ci illərdə gedibdir və mənim fəaliyyətim nəticəsində gedibdir. Amma indi dünyadan xəbəri olmayan adam deyir ki, meşələr kəsiləcəkdir. Bəs onda qaz yox idi, niyə meşələri kəsmirdilər. Nə üçün meşələri kəsəcəklər? Türkiyənin əksər yerlərində qaz yoxdur, bəs necə qazsız [201-202] yaşayırlar? Yaşayırlar. Elə bir Türkiyə deyil, bir çox ölkələrdə qaz yoxdur, qazsız yaşayırlar. Ona görə də hər şeyi doğru-düzgün bildirmək lazımdır. Amma eyni zamanda yanacaqla təmin olunmaq bir qazla təmin olunmaq deyil – elektrik enerjisidir, qazdır və neft məhsullarıdır.

**A r t u r  R a s i z a d ə**: Ağ neft, soba mazutu.

**H e y d ə r Ə l i y e v**: Ağ neft, soba mazutu. Ona görə siz gərək proqramı müəyyən edəsiniz və mənə təklif verəsiniz ki, hansı rayon ağ neftlə nə qədər təmin olunur, hansı rayon soba mazutu ilə nə qədər təmin olunur, hansı rayon maye qazla nə qədər təmin olunur və bilək ki, - bu, qısa müddətdə olmalıdır, - bu qış dövründə bunların təminatını biz həll etdik. Bax, bu məsələ kompleks şəklində olmalıdır. Yenə də deyirəm, həm qaz, həm neft məhsulları, həm də maye qaz.

Mən bir məsələ haqqında danışdım, amma onu bir daha qeyd etmək istəyirəm, bu korrupsiya ilə mübarizə barəsində. Bu barədə biz xeyli tədbirlər görmüşük. Ancaq mən tapşırmışdım, xüsusi proqram hazırlanıbdır. Siz o proqramı hazırlamısınız?

**A r t u r R a s i z a d ə**: Təqdim etmişik.

**H e y d ə r Ə l i y e v**: Təqdim etmisiniz. Yaxın vaxtlarda bu proqrama baxılacaq, qəbul olunacaq. Amma iş təkcə proqramda deyil, əməli işdədir. Ona görə də mən bu gün bir daha bəyan edirəm: Azərbaycanda ictimai-siyasi mühiti, dövlət orqanlarında olan mühiti, hakimiyyət orqanlarında olan mühiti, hüquq-mühafizə orqanlarında olan mühiti sağlamlaşdırmaq üçün və bizim ideallarımızın səviyyəsinə qaldırmaq üçün bütün mənfi hallarla, vəzifəli şəxslərin vəzifədən sui-istifadə etməsi halları ilə, rüşvətxorluqla, korrupsiyanın bütün növləri ilə ciddi mübarizə aparılmalıdır. Proqramı biz qəbul edəcəyik, elan edəcəyik, amma əməli surətdə bunu siz görməlisiniz.Bu, sizin vəzifənizdir. [202-203]

Bu gün burada məruzələrdə, çıxışlarda Azərbaycanda oktyabr ayının 11-də keçirilmiş prezident seçkilərinin yekunları haqqında da natiqlər öz fikirlərini bildirdilər. Mən bu fikirlərə və bu arzulara görə təşəkkür edirəm və bəyan edirəm ki, biz ötən beş ildə əldə etdiyimiz nailiyyətləri gələcək illərdə bütün sahələrdə daha da yüksəklərə qaldıracağıq, Azərbaycanın qarşısında duran problemləri həll edəcəyik.

Mən oktyabr ayının 18-də andiçmə mərasimindəki nitqimdə bu barədə öz fikirlərimi, öz proqramımı bəyan etmişəm. Təkrar etmək istəmirəm. Sadəcə, bir də bildirmək istəyirəm ki, beş il müddətində biz ağır və çətin yol keçmişik. Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq. Azərbaycanı böyük fəlakətlərdən, böyük xətalardan xilas etmişik. Azərbaycanda cinayətkarlığın qarşısını almışıq. Qanunsuz silahlı dəstələri ləğv etmişik. Azərbaycanda zorakılığın qarşısını almışıq və bunların nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik yaranıbdır. Azərbaycanın dünya miqyasında hörmətini qaldıran həm onun apardığı məqsədyönlü, ardıcıl xarici siyasətidir, həm də ki, Azərbaycanın daxilində yaranmış ictimai-siyasi sabitlik, əmin-amanlıq, insanların rahatlığıdır. Hesab edirəm, bütün nailiyyətlərdən bizim ən böyük nailiyyətimiz budur, ictimai-siyasi sabitliyin yaranmasıdır. Bunu başqa ölkələrdə də qiymətləndirirlər və buna görə də Azərbaycan öz keçmiş illərindən fərqlənir. Vəzifəmiz bunu qorumaq, saxlamaq və daha da möhkəmləndirməkdən ibarətdir. Kimsə bunu pozmaq istəyirsə, kimsə qanunsuz hərəkət etmək istəyirsə, kimsə bizə bu işdə mane olmaq istəyirsə, onlara qarşı Azərbaycanın qanunları tətbiq olunacaq və heç kəsə Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi, yaranmış bu sağlam mühiti pozmağa biz heç vaxt yol verməyəcəyik.

Beş il müddətində əldə olunan bu nailiyyətlər asan başa gəlməyibdir və bu nailiyyətlərin əldə olunmasında həmin o [203-204] müxalifətdə duran və Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərən insanlar nəinki iştirak etməyiblər, bəzi hallarda həmin o təxribatların, terror aktlarının, dövlət çevrilişinə göstərilən cəhdlərin iştirakçısı olublar. Ona görə də bu gün onların mənəvi haqqı yoxdur. Azərbaycanda gəlib iqtidarla mübarizə aparsınlar. Mənəvi haqları yoxdur. 1993-cü ildə Azərbaycan fəlakət vəziyyətində olanda həmin adamlar qaçıb gizləndilər, vəzifələrini atdılar, kənara çəkildilər. İndi artıq Surət Hüseynovdan istifadə edib yenə də Azərbaycanda sabitliyi pozmaq istəyirlər. Yox!

Əgər o ağır vəziyyətdə, 1993-cü ildə hamısı qaçdı, gizləndisə, hamısı kənara çəkildisə, əgər biz vəziyyəti normallaşdıra bildiksə və ardıcıl surətdə Azərbaycanda iqtisadi-siyasi sabitliyi təmin edə bildiksə, - indi vəziyyət beş il bundan əvvəlkindən xeyli fərqlidir, - indi heç kəs bizə mane ola bilməz və heç kəsə biz imkan verə bilmərik. Ona görə də mən həmin o partiyaları, qrupları, blokları xəbərdar edirəm: Azərbaycanda müxalifət Azərbaycanın Konstitusiyası və Azərbaycanın demokratiya yolu ilə getməsi mənasında təbii bir anlayışdır. Ancaq müxalifət qanunlar çərçivəsində hərəkət etməlidir. Gündə bir mitinq keçirmək, həftədə bir küçə yürüşü keçirmək və beləliklə, Azərbaycandakı bu vəziyyətə təsir etmək – bu yollara biz imkan verməyəcəyik. Heç vaxt imkan verməyəcəyik! Ona görə də mən onları xəbərdar edirəm.

Biz respublikanın qarşısında duran vəzifələri həyata keçirməyə başlamışıq, biz işləyirik. Beş ildə Azərbaycanın əldə etdiyi nailiyyətləri biz əldə etmişik. Azərbaycanı bu iqtisadi vəziyyətə biz gətirib çıxarmışıq, Azərbaycanı dünya miqyasında özünə layiq yer tutmağa biz gətirib çıxarmışıq, müxtəlif müqavilələri əldə etməyə biz nail olmuşuq və bunların son nəticəsi sentyabr ayının 7-8-də Azərbaycanda İpək yolunun bərpası ilə əlaqədar keçirilən beynəlxalq konfrans və onun qəbul etdiyi qərarlar, Bakı bəyannaməsidir. Bunların nəticəsi [204-205] Xəzər dənizi hövzəsinin neft ehtiyatlarının dünyanın ehtiyacını təmin etmək üçün istifadə edilməsi yolunda dörd il müddətində aparılan işlər və onun müsbət nəticəsi, nəhayət, tarixi əhəmiyyət kəsb edən sənəd – oktyabr ayının 29-da Ankarada imzalanmış birgə bəyannaməsidir.

Bu, bizim gördüyümüz işlərin nəticəsidir. Bəli, bizim gördüyümüz işlərin nəticəsidir ki, dörd il bundan öncə imzaladığımız müqavilə işləyir və artıq bir ildir ki, «Çıraq» neft yatağından biz neft hasil edirik. Oradan bir milyon tondan artıq neft hasil olunubdur və, - burada artıq deyildi, - proqnozlar göstərir ki,

oradan nəzərdə tutulandan bir neçə dəfə artıq neft alınacaqdır. Bəli, bu, artıq Azərbaycanın gəliridir, Azərbaycanın sərvətidir və bütün bu görülən işlər Azərbaycan xalqının gələcək nəsilləri üçün görülən işlərdir. Biz tarixi işlər görürük, gələcəyi – böyük Azərbaycanın parlaq gələcəyini yaratmağa çalışırıq. Bakı–Ceyhan boru xətti haqqında imzalanmış bəyannamə tarixi əhəmiyyətə malik olan bir sənəddir. Bunun da əsasını qoyan bizik, Azərbaycanı bu səviyyəyə çatdıran da bizik. Bu bəyannamənin Ankarada imzalanmasında da Azərbaycanın xidmətləri orada artıq bəyan edildi.

Biz bu və başqa işlərlə məşğul oluruq və bundan sonra da məşğul olacağıq. Ona görə də hakimiyyət orqanlarının, hüquq-mühafizə orqanlarının cürbəcür yürüşlərlə, cürbəcür mitinqlərlə vaxtını almağa biz imkan verə bilmərik. Müxalifətin nə sözü varsa, çoxsaylı qəzetləri var, orada desin. Nə sözü varsa, onların ayrı-ayrı binalarda, ayrı-ayrı qruplarla, ayrı-ayrı yerlərdə toplaşıb danışmaq imkanları var, onları desinlər. Müxalifət üçün bütün imkanlar yaranıbdır. Azərbaycanda insan haqlarının qorunması sahəsində görülən işlər dünya miqyasında qiymətləndirilibdir. Siz Azərbaycanda görülən işlər haqqında Helsinki qrupunun, Londondakı İnsan Hüquqları İnstitutunun bəyanatını oxudunuz. Ölüm hökmünün [205-206] ləğv edilməsi, nə qədər insanların amnistiya vasitəsilə, əfv vasitəsilə cəzadan azad olunması. Mən oktyabr ayının 18-də demişəm, bu yaxın vaxtlarda bu barədə mən yeni təşəbbüslər irəli sürəcəyəm. Bunların hamısı – mətbuat azadlığı, fikir azadlığı, - bunların hamısı Azərbaycanda demokratiyanın varlığını göstərir, Azərbaycanda demokratik şəraiti göstərir və hər bir müxalifət təşkilatına normal fəaliyyət şəraiti yaranmasını göstərir. Bu şəraitdən istifadə edərək normal fəaliyyət göstərmək lazımdır. Dağıdıcı fəaliyyətə biz yol verməyəcəyik, hansısa dağıdıcı cəhdlərə biz yol verməyəcəyik. Bəziləri xəyalla yaşayırlar ki, guya 1992-ci ildə olduğu kimi bunlar nə isə edə bilərlər. Bunlar mümkün deyil! Azərbaycanın müstəqil dövləti var, beş il müddətində bu müstəqil dövlət möhkəmlənibdir və biz bunu qoruyub saxlamalıyıq. Bunu özümüzün müqəddəs vəzifəmiz hesab edirik!

Azərbaycanda görülən işlər, Azərbaycanın geostrateji vəziyyəti, Azərbaycanın coğrafi vəziyyəti, Azərbaycanın təbii sərvətləri, Xəzər dənizində Azərbaycanın apardığı işlər və nəhayət, İpək yolunun yaranması, bərpa olunması, Bakı – Ceyhan xəttinin yaranması haqqında bəyannamənin imzalanması – bunlar hamısı Azərbaycanın müxtəlif ölkələrdəki düşmənləri tərəfindən Azərbaycana qarşı təzyiqləri, təxribatları artırmaq üçün şərait yaradıbdır və biz bunları artıq hiss edirik. Ona görə Azərbaycanın müstəqilliyini qorumaq üçün, Azərbaycanı müstəqil dövdət kimi yaşatmaq üçün Azərbaycanda daxili ictimai-siyasi sabitliyi də qoruyub saxlamaq lazımdır. Bu, bizim müqəddəs vəzifəmizdir və biz buna sadiq olacağıq.

Mən sizi əmin edirəm ki, indiyə qədər görülən işlərin nəticəsində və əldə olunan təcrübələrin nəticəsində Azərbaycanın iqtisadiyyatının inkişafı bundan sonra da təmin olunacaqdır, Azərbaycan vətəndaşlarının rifahı günü-gündən yaxşı[206-207]laşacaqdır və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq və özünün xoşbəxt gələcəyinə gedəcəkdir.

Mən Nazirlər Kabinetinə tapşırıram ki, burada verilən bütün təkliflərin – həm məruzələrdə, həm çıxışlarda, həm mənim nitqimdə verilən təkliflərin, tapşırıqların, bunlar hamısı stenoqramda var, - bunların əsasında bir həftə müddətində bizim bugünkü iclasın qərarını hazırlasın. Biz geniş qərar qəbul etməliyik və burada müzakirə olunan məsələlər, irəli sürülən təkliflər və qəbul olunan fikirlər o qərarda öz əksini tapmalıdır.

Bununla da bugünkü iclası bağlı elan edirəm. Yerlərdən gəlmiş nümayəndələrə, yerli icra hakimiyyəti orqanlarının nümayəndələrinə tapşırıram ki, onlar dərhal öz yerlərinə qayıtsınlar və təbiidir ki, bu iclasın nəticələri yerlərdə də təhlil olunmalıdır və hər şəhərdə, hər rayonda lazımi tədbirlər görülməlidir. Mən hamıdan tələb edirəm ki, bugünkü iclasın əhval-ruhiyyəsi hər yerə yayılsın və işlərin hamısı bundan sonra daha da yaxşı təşkil edilsin. Sağ olun. [207]

# XALQ ARTİSTİ İQOR MOİSEYEVİN RƏHBƏRLİYİ İLƏ DÜNYA ŞÖHRƏTLİ RUSİYA DÖVLƏT AKADEMİK XALQ RƏQSLƏRİ ANSAMBLININ KONSERTİNDƏN SONRA ANSAMBLIN KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Respublika sarayı*

*6 noyabr 1998-ci il*

Mən Sizə gözəl çıxışınıza görə, bizə böyük zövq bəxş etdiyinizə və bizdə böyük təəssürat doğurduğunuza görə təşəkkür edirəm. Sizin ansambl məşhurdur, onun artıq 62 yaşı var, mən özüm onu 30, yaxud 40 il olar ki, tanıyıram və rəqqaslarınızın çıxışına da həmişə məftun olmuşam. Siz Bakıya «Azərbaycan mədəniyyətinin dostları» fondunun, onun sədri Mehriban Əliyevanın dəvəti ilə gəlmişsiniz. Sizin Azərbaycana gəlişiniz, gözəl çıxışınız xalqımıza, dövlətimizə çox dərin hörmətin ifadəsidir. Sizin yaradıcılığınız həmişə heyranlıq doğurubdur və görüşümüz zamanı dediyim kimi, bu, nəinki Rusiyanın və keçmiş Sovet İttifaqının mədəni həyatında, həm də bütün dünyada nadir hadisədir. Məsələn, mən ikinci belə ansambl tanımıram. Siz başqalarında olmayan öz dəst-xəttinizə, özünüzə xas gözəlliyə, xarakterə, temperamentə maliksiniz.

Sizin rəqqasları seçmək istedadınızı da qeyd edir və bildirirəm ki, onların dəyişməsi ansamblın ustalığının yüksək səviyyəsinə təsir göstərmir. [208-209]

Siz tamaşaçıların münasibətini hiss etdiniz və bunu görmək mənə çox xoş idi. Bu, tamaşaçılarımızın sizin sənətinizə məhəbbətindən də, sənətinizi başa düşməsindən də xəbər verir. İndi müxtəlif dövlətlərdə yaşamağımıza baxmayaraq, tamaşaçılarımız sənətinizi yenə də qiymətləndirirlər. Mən belə alqışları, nidaları çoxdan eşitməmişdim. Sizin hamınızı təbrik edirəm, sizin hamınız gözəl və heyrətamiz rəqs edirsiniz. Məsələn, «Fin polkası»nı götürək. Onu iki adam ifa edir. Amma nə qədər orijinaldır! Ancaq məni hamısından çox nanay xalq oyunu heyrətləndirdi. Mən bu rəqsi ilk dəfə gördüm. Nə isə qeyri-adi bir rəqsdir. O, bunların hamısını necə edir? Bunu bir nəfərin etdiyini dərhal başa duşmürsən. Gözəldir, hamınızı təbrik edirəm, çox şadam ki, siz bizə təşrif gətirdiniz.

**İ q o r  M o i s e y e v**: Cənab prezident, bizim Azərbaycan tamaşaçılarından 13 illik ayrılığımız onlara bəslədiyimiz xoş hissləri və onların bizə səmimi duyğularını əsla azaltmayıb. Bunu biz bugünkü uğurdan və bizi necə qarşılamaqlarından görürük. Biz «Azərbaycan mədəniyyətinin dostları» fondunun sədri Mehriban Əliyevaya dəvətə görə təşəkkür edirik. Ansambl bu dəvətə həvəslə cavab vermişdir, çünki kollektivi Bakı həmişə yaxşı qəbul etmiş və o, buraya həmişə ən səmimi hisslərlə gəlmişdir. Mən də, truppamız da xoşbəxtik ki, əlaqələrimiz nəinki qırılmamışdır, hətta möhkəmlənmişdir.

Sizə böyük bir sevinclə «Mən xatırlayıram…» kitabını hədiyyə edirəm.

**H e y d ə r  Ə l i y e v**: Çox sağ olun, təşəkkür edirəm. Şübhəsiz, bu kitab İqor Moiseyevin həyat və yaradıcılığı kimi maraqlıdır.

Siz bu xanımı, Əminə xanımı tanıyırsınız. Əminə xanım Azərbaycanda bütün xalq rəqslərinin ifaçılığının banisidir.

**Ə m i n ə  D i l b a z i**: Cənab prezident, İqor Moiseyevi lap çoxdan tanıyıram. O, bizim çox sevdiyimiz nərdə və armudu [209-210] stəkanlara pərəstiş edir. Mən gənclik illərimi, Moiseyevin ansamblının bütün gözəlliyini xatırladım. Moiseyevin bütün məktəbini saxlayıb yaşatmaq lazımdır, çünki bu məktəb ümumdünya əhəmiyyətinə malikdir. Bu məktəb standart pedaqoqlar, baletmeysterlər məktəbi deyildir, o, tapıntıdır, rəqs mədəniyyətidir, rəqs tarixidir.

**H e y d ə r  Ə l i y e v**: Bu gün bizə böyük zövq bəxş etdiyinizə görə sizə təşəkkür edirəm. «İki körpənin güləşi» nanay xalq oyununun ifaçısı Aleksandr Matus-Marçuku gözəl və heyranedici çıxışa görə xüsusi təbrik edirəm. Gözəl konsertə görə ansamblın bütün üzvlərinə bir daha təşəkkür edirəm. Sağ olun, sizə uğurlar arzulayıram. [210]

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Prezident sarayı*

*9 noyabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli qonaqlar, mən sizi ürəkdən salamlayıram. Azərbaycana yenidən xoş gəlmisiniz. Sizi çoxdan gözləyirdik. Çox məmnunuq ki, nəhayət, siz işə başlamısınız və Azərbaycana gəlmisiniz.

Mən keçən görüşümüzdə də bəyan etmişdim – biz çox təəssüf edirik ki, 1997-ci ilin payızından Minsk qrupu həmsədrlərinin Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində işləri zəifləyibdir və danışıq prosesi demək olar ki, dayandırılıbdır. Bu bizi, Azərbaycan dövlətini, Azərbaycan ictimaiyyətini çox narahat edir. Danışıq prosesinin zəifləməsinin səbəblərini siz bizə izah etmişdiniz. Biz bunları anlayırıq. Ancaq eyni zamanda Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində Azərbaycanın düşdüyü ağır vəziyyət, xüsusən işğal olunmuş ərazilərdən zorla çıxarılmış bir milyondan artıq azərbaycanlıların çətin şəraitdə, çadırlarda yaşaması və belə bir ağır vəziyyətin yaranması, şübhəsiz ki, biz bu səbəbləri nə qədər başa düşmüş olsaq da bizi və ictimaiyyəti rahat qoya bilmir. Ancaq nə etməli, - biz o dövrü də yaşadıq. Hiss edirik ki, indi artıq siz danışıq prosesini əvvəlki səviyyəyə gətirib çatdırmaq istəyirsiniz. Biz [211-212] bunu alqışlayırıq. Mən danışıqları intensivləşdirmək və məsələni həll etmək arzusu ilə sizinlə görüşürəm. Ümid edirik ki, bundan sonra bizim işimizdə fasilə olmayacaqdır, danışıqlar prosesi intensiv gedəcəkdir və sizin köməyinizlə, hamımızın ümumi səyləri ilə Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsinə, böyük sülhün yaranmasına nail olacağıq. Mən bu fikirlərlə, arzularla sizi məmnuniyyətlə dinləyirəm.

**J o r j V o j y e**: Cənab prezident, həmsədrlər danışıqlar prosesini gücləndirmək əzmindədirlər. Bakıda axırıncı görüşdən sonra çox hadisələr baş vermişdir. Azərbaycanda prezident seçkilərinin nəticələrini öz adımdan və həmkarlarım adından məmnunluqla qeyd edir və Sizin yenidən respublika prezidenti seçilməyiniz münasibətilə həmsədarət adından təbrik edirəm. Habelə Fransa prezidenti Jak Şirak tərəfindən Sizin ünvana təbriklər olduğunu təsdiqləyirəm. Prezident Heydər Əliyevin bu vəzifəyə yenidən seçilməsi Azərbaycanın sabitliyinin perspektivliyinə, habelə Qarabağ böhranının aradan qaldırılacağına təminata dəlalətdir.

Axırıncı görüşümüzdən bəri Ermənistan tərəfi ilə danışıqlar aparmağa imkanımız olmuşdur. Ümumi dövlət konsepsiyasına, Sizin kimi, onlar da maraq göstərmişlər. Beləliklə, bu anlayışa əsaslanan prinsipləri müəyyənləşdirmək üçün biz çox əlbir işlədik. Bu prinsiplər özünün yalnız bir hissəsində yenidir. Onların çoxu Sizə artıq yaxşı məlumdur. Zənnimizcə, onlar bu mənada yenidir ki, bütün tərəflər üçün məqbul ola biləcək əsasları özündə əks etdirəcəyinə və danışıqlar prosesinə bacardıqca daha tez bir zamanda yenidən başlanılmasına gətirib çıxaracağına ümid bəsləməyə imkan verir. Bu gün Xarici İşlər Nazirliyində həmin məsələ barəsində çox ətraflı fikir mübadiləsi aparmağa imkanımız oldu. Əlbəttə, biz də məmnun qalardıq ki, bu söhbəti genişləndirməyə və onu bu əsasda davam etdirmək üçün həmin cəhətlər barəsində Sizin ilk təəssüratınızı öyrənməyə imkanımız olsun. [212-213]

İstərdim ki, həmkarlarım da öz fikirlərini söyləsinlər.

**Y u r i Y u k a l o v**: Cənab prezident, Sizin Rusiya prezidentindən və Rusiya Federasiyasının bir çox digər şəxslərindən almış olduğunuz təbriklərə Rusiya həmsədarəti də qoşulmaq istərdi. Biz danışıqlara yenidən başlanması ilə Zaqafqaziyada möhkəm sülhün və sabitliyin bərqərar olmasına doğru uğurlu irəliləyişi Sizin adınızla bağlayırıq. Danışıqlara yenidən başlamaq və onları illərlə davam etdirmək olar. Lakin biz hamımız, - zənnimcə, mən bütün həmsədrlərin rəyini ifadə edirəm, - bölgədə sülhün və sabitliyin bacardıqca tez bir zamanda bərqərar olmasını istəyirik. Ona görə ki, bu, bütün ölkələrin xalqlarının mənafelərinə və istəyinə cavab verir.

**D o n a l d K a y z e r**: Cənab prezident, icazə verin, Sizin prezident vəzifəsinə yenidən seçilməyiniz münasibətilə həmsədarətin Amerika tərəfi adından ən səmimi təbrikləri ifadə edim. Bir daha nəzərə çarpdırmaq istəyirəm ki, bizim prezident Klinton da Sizə şəxsi məktubunda öz hisslərini ifadə etmişdir.

Əlbəttə, ümumi nizamasalmaya nail olmaq yolunda axtarışımızda hazırda olduğumuz mərhələ barəsində həmsədr həmkarlarımın söylədikləri fikrə mən də şərikəm. Cənab prezident, ayrıca vurğulamaq istəyirəm ki, Sizinlə sentyabrda görüşümüz zamanı özünü büruzə vermiş əhval-ruhiyyə bizi çox ruhlandırdı. Həmin görüşdə Sizin iştirakınız nizamasalmaya nail olmaq məqsədilə irəli sürdüyümüz təkliflərin qəbul edilməsinə razılığı təsdiqlədi. Həmçinin qeyd etmək istərdim ki, Bakıda TRASEKA-ya dair konfrans keçirilərkən nümayiş etdirilmiş dövlət müdrikliyi və bu konfrans zamanı Ermənistan

---

* Görüşdə Jorj Vojye (Fransa), Yuri Yukalov (Rusiya) və Donald Kayzeri (ABŞ) iştirak etmişlər.

nümayəndələrinə göstərilmiş münasibət bizə çox böyük təəssürat bağışladı. Mənə elə gəlir ki, bunların hamısı Minsk qrupunun işinə təkan vermək üçün lazımi mühit yaradılmasına kömək etmişdir. Beləliklə, təsdiqləmək istərdim ki, [213-214] məqsəd və vəzifələrimiz məhz Sizin verdiyiniz təkliflərdən – işimizi gücləndirmək, məsələyə baxılmasına ən ədalətli yolla ciddi yanaşmaq və ona tərəflərin iştirakı ilə qoşulmaq təkliflərindən ibarətdir.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Vojye, hörmətli cənab Yukalov, hörmətli cənab Kayzer. Mənim yenidən prezident seçilməyim münasibətilə söylədiyiniz xoş sözlərə görə, təbriklərinizə görə sizə təşəkkür edirəm. Eyni zamanda Fransanın prezidenti cənab Jak Şiraka, Rusiyanın prezidenti cənab Boris Yeltsinə, ABŞ-ın prezidenti cənab Bill Klintona mənim yenidən prezident seçilməyim münasibətilə mənə göstərdikləri diqqətə, göndərdikləri təbrik məktüblarına görə təşəkkür edirəm. Sizin hamınıza təşəkkür edirəm və bildirirəm ki, mən yenidən Azərbaycanın prezidenti seçilərək, sizin ölkələrinizlə indiyə qədər olan əlaqələrimizi bundan sonra da ardıcıl surətdə inkişaf etdirmək əzmindəyəm.

Azərbaycanda prezident seçkilərinin vaxtında, Konstitusiyaya əsasən, demokratik şəraitdə keçirilməsi, əldə olunan nəticələr və mənim yenidən Azərbaycan prezidenti seçilməyim Ermənistan – Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün çox mühüm bir amildir. Ötən beş ildə biz, Azərbaycan Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində həmişə çalışmışıq və bu məsələnin həll olunmasında da Minsk qrupuna və onun həmsədrlərinə, bilavasitə sizin ölkələrə – Fransaya, Rusiyaya, ABŞ-a çox böyük ümidlər bəsləmişik.

Məmnuniyyətlə qeyd edirəm ki, biz bu beş ildə nə qədər çətin olsa da sizinlə birlikdə çox işlər görmüşük və məsələnin sülh yolu ilə həll olunması üçün yaxşı əsaslar yaranıbdır. Mən Minsk qrupunun, onun həmsədrləri Fransa, Rusiya və ABŞ-ın fəaliyyətini qiymətləndirirəm və gələcək prezidentlik dövrümdə də sizinlə, Minsk qrupu ilə, onun həmsədrləri ilə sıx əməkdaşlıq etmək fikrində olduğumu bildirirəm. [214-215]

Mən çox ümid edirəm və bildirmək istəyirəm ki, seçkiqabağı görüşlərdə də seçicilər, Azərbaycanın ictimaiyyəti bütün danışıqlarda, bütün görüşlərdə Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması, işğal olunmuş torpaqların azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsini ön plana çıxarıblar, bir nömrəli məsələ kimi həmişə irəli sürüblər və bir prezident kimi məndən bu məsələnin həll olunmasını tələb ediblər. Seçkiqabağı günlərdə mən işğal olunmuş torpaqlardan zorla çıxarılmış və indi çadır şəhərciklərində məskunlaşmış Azərbaycan vətəndaşları ilə demək olar ki, bütün çadır şəhərciklərində görüşdüm. Onların yaşayış vəziyyəti həddindən artıq ağırdır və çətindir. Bu, bizə də, sizə də məlumdur və ayrı-ayrı ölkələrdən Azərbaycana yeni gələn hər bir kəs o çadır şəhərciklərinə gedib insanların yaşadıqları şəraiti görərkən dəhşətə gəlir. Mən çadır şəhərciklərində ağır vəziyyətdə yaşayan bütün vətəndaşlarımıza bildirmişəm, onları əmin etmişəm ki, biz işğal olunmuş torpaqların azad edilməsinə nail olacağıq, onların öz yerlərinə-yurdlarına qayıtmasına nail olacağıq və bunu da Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında görürük, Minsk qrupu ilə əməkdaşlığımızda görürük. Onlar mənə indiyə qədər də inanıblar, indi də inanırlar və çox böyük ümidlərlə yaşayırlar.

Sizə bildirmək istəyirəm ki, mənə verilən məlumatdan görünür ki, çadır şəhərciklərində qaçqın vəziyyətində yaşayan insanlar, ümumiyyətlə, işğal olunmuş torpaqlardan didərgin düşmüş və Azərbaycanın müxtəlif bölgələrində yaşayanların tam əksəriyyəti prezident seçkilərində mənə səs veriblər. Hətta onlar başqa təbəqələrə nisbətən daha da çox mənə səs veriblər. Bu səslər mənim üçün çox qiymətlidir və deyə bilərəm, bəlkə başqa təbəqələrdən verilən səslərdən də mənim üçün çox qiymətlidir. Amma eyni zamanda mən dərk edirəm ki, bu səslər ümid, inam səsləridir. Yəni onlar inanırlar, ümid [215-216] edirlər ki, biz onların öz yerlərinə qayıtmasına nail olacağıq. Mən şəxsən onları bu barədə əmin etmişəm.

Bunlar hamısı şəxsən mənim üzərimə böyük vəzifə qoyubdur. Mən də bu vəzifəni yerinə yetirmək istəyirəm və bu vəzifəni də yalnız Sizinlə birlikdə, hamımızın ümumi birliyi nəticəsində yerinə yetirmək mümkündür. Ona görə də Sizin yenidən intensiv işə başlamağınız bizim hamımız üçün böyük bir hadisədir, sevindirici haldır və mən, bütün Azərbaycan Sizin işlərinizə, bizim əməkdaşlığımıza çox böyük ümidlər bəsləyirik.

Mən bilirəm, Siz bu gün Xarici İşlər Nazirliyində danışıqlar aparmısınız və bilirəm ki, Sizin müəyyən yeni təklifiniz vardır. Şübhəsiz ki, biz onları öyrənməliyik, ətraflı təhlil etməliyik və bundan sonra öz fikrimizi deməliyik.

Cənab Vojye, istəyirəm ki, diqqətinizi bir məqama cəlb edim. Siz dediniz ki, biz ümumi dövlət prinsipini qəbul etmişik və bu da işlərin, təkliflərin hazırlanmasına kömək edibdir. Həqiqətən, bizim keçən danışıqlarımızda ümumi dövlət prinsipi haqqında fikir mübadiləsi olubdur və bu, maraqlı bir fikirdir. Ancaq bunu dəqiqləşdirmək lazımdır. Çünki xüsusi dövlət anlayışı bizim üçün yeni bir anlayışdır və xüsusi dövlət anlayışının da cürbəcür formaları ola bilər. Ona görə bu məsələnin böyük təhlilə ehtiyacı vardır. Yəni bu barədə birmənalı söz demək mümkün deyildir.

Məlumdur ki, bu məsələnin həll edilməsi üçün bizim əsas götürdüyümüz prinsiplər Lissabonda qəbul olunmuş prinsiplərdir. Aydındır ki, bu Lissabon prinsipləri Ermənistan tərəfindən indiyə qədər qəbul

olunmur. Eyni zamanda Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsi yolunu biz dəfələrlə bəyan etmişik və bu gün də bildirirəm ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Azərbaycanın vahid bir dövdət kimi təmin olunması yolunda görürük. Buna müxtəlif adlar da vermək olar. Ancaq mənası məlum[216-217]dur ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində özünüidarəetmə hüququ almalıdır. Mən sadəcə olaraq, diqqətinizi bu məsələyə cəlb etdim və bu məsələni geniş şəkildə müzakirə etmək fikrində deyiləm. İndi yəqin ki, Siz o təklifləri təqdim edəcəksiniz. Biz ondan sonra bunları öyrənib fikirlərimizi Sizə çatdıracağıq. Danışıqların yenidən başlanması münasibətilə Sizə bir daha təşəkkür edirəm.

**J o r j  V o j y e**: Cənab prezident, Sizə təşəkkür edirəm. Zənnimcə, haqqında danışdığınız bütün tələbləri biz ahəngdar şəkildə birləşdirməyə çalışacağıq. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə gəldikdə, elə formullar tapmağa çalışmışıq ki, onlar Dağlıq Qarabağa özünüidarə statusunu geniş səpgidə həyata keçirməyə imkan versin. Həmçinin qeyd etmək istərdim ki, biz insan amili ilə, yəni qaçqınların vəziyyəti ilə bağlı problemlərin həllinə birinci dərəcəli əhəmiyyət veririk. Ümidvarıq ki, işləyib hazırladığımız təkliflər Sizin müsbət diqqətinizə səbəb olacaq, Sizin tərəfinizdən müsbət qarşılanacaq və sonra tərəflər arasında gələcək danışıqlar üçün zəmin olacaqdır. Ola bilsin ki, biz yolun axırında deyilik, amma bu yolun əvvəlində də deyilik. İnanırıq ki, işlənib hazırlanmış nə varsa, onlar problemin həllinə müəyyən dərəcədə yaxınlaşmağa imkan verəcəkdir. Biz problemin həllinə nəhayət, tamamilə yaxınlaşacağıq.

Cənab prezident, bizim bu danışıqlar məxfiliyin bəzi şərtlərinin gözlənilməsini tələb edir. Buna görə də bəlkə biz, öz iştirakı ilə bizə şərəf göstərmiş olan jurnalistlərimizə təşəkkürümüzü bildirək.

**H e y d ə r  Ə l i y e v**: Mən Sizi anlayıram. Sizin təklifinizlə razıyam. Mən jurnalistlərə təşəkkür edirəm. Biz söhbətimizi davam etdirməliyik. [217]

## 12 NOYABR KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz Azərbaycan vətəndaşları!

Sizi 12 noyabr Konstitusiya günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan, müstəqil dövlətimiz və xalqımız üçün taleyüklü əhəmiyyət kəsb edən bu Konstitusiya Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu üçün əsaslı zəmin yaratmışdır.

Xalqımızın keçdiyi tarixi yolun, müstəqillik uğrunda apardığı ardıcıl mübarizənin məntiqi yekunu və parlaq təntənəsinin əksi olan Konstitusiyamız xalqın iradəsini ifadə edərək dövlətimizin fəaliyyətinin əsas istiqamətlərini, demokratik dövlət quruculuğu prosesinin başlıca prinsiplərini, vətəndaşların əsas hüquq və vəzifələrini müəyyən etmişdir.

Azərbaycanda demokratik proseslərin getdikcə dərinləşdiyi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişaf etdiyi bir mərhələdə Konstitusiyanın əsas müddəalarının həyata keçirilməsi, respublika həyatının bütün sahələrinin yeniləşməsində onun açdığı geniş imkanlardan hərtərəfli istifadə olunması hər bir vətəndaşdan böyük səy və məsuliyyət tələb edir. Qarşımızda duran ən mühüm vəzifə Konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, respublika həyatına tətbiq etmək və onun verdiyi təminatları reallaşdırmaqdan ibarətdir. [218-219]

Əziz vətəndaşlar!

Əmin olduğumu bildirirəm ki, müstəqil dövlətimizin möhkəmlənməsi və tərəqqisi yolunda hər bir vətəndaş böyük məsuliyyət hissi duyaraq, yeniləşən cəmiyyətimizin bütün sahələrində Konstitusiyanın əsas müddəalarının qorunmasına və həyata keçirilməsinə çalışacaqdır. Sizə bu yolda müvəffəqiyyət və səadət arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 1998-ci il*
[219]

## FİKRƏT ƏMİROVUN «SEVİL» OPERASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*15 noyabr 1998-ci il*

Axşamınız xeyir olsun!

Sizin hamınızı təbrik edirəm. Ümumiyyətlə, bizim mədəniyyət və incəsənət işçilərini, Opera və Balet Teatrının kollektivini, sizi – «Sevil» operasının yeni tamaşasını hazırlayanları bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı və gələcək yaradıcılıq fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Bu tamaşanın yeni quruluşda hazırlanması çox əlamətdar hadisədir. «Sevil» operası Azərbaycan Opera və Balet Teatrının səhnəsində çoxdan göstərilmir. Bu, çox dəyərli bir sənət əsəridir, Azərbaycanın musiqi və opera sənətinə böyük töhfədir. Ona görə də əsərin yenidən canlanması, səhnəyə gəlməsi Azərbaycanın mədəni həyatında, incəsənətində, ümumiyyətlə, respublikamızın ictimai həyatında mühüm hadisədir. Tamaşaya məmnuniyyətlə baxdım, sizi dinlədim və çox böyük təəssüratlar altındayam.

45 il öncə «Sevil» operası yarananda da mən onun ilk tamaşasında olmuşam. Rəhmətlik Fikrət Əmirovla mənim şəxsi münasibətlərim və dostluğum var idi. O, bu operanı yazarkən, hələ əsər səhnəyə qoyulmamış, bir neçə dəfə görüşlərimizdə opera üzərində işləməsi haqqında mənə [220-221] danışmışdı, söyləmişdi. 50-ci illərin əvvəllərində bu operanın yaranması ictimaiyyətə artıq məlum idi. Ona görə də operasevərlər bu əsəri səbirsizliklə gözləyirdilər. Hamı düşünürdü, - görəsən əsər necə alınacaq? Çünki «Sevil» öz süjetinə görə yeni əsər deyil. Bu pyesi Cəfər Cabbarlı yaradıbdır. Deyə bilərəm ki, Cəfər Cabbarlının «Sevil» pyesi Azərbaycanın ictimai-siyasi həyatında çox böyük rol oynamışdır. Qadın azadlığı, insan mənəviyyatı mövzusunun qələmə alınmasında Cəfər Cabbarlının xidmətləri böyükdür. Onun pyeslərinin hər biri, demək olar ki, «Sevil» tamaşası qədər böyük əhəmiyyətə malik əsərlərdir. Ancaq «Sevil» pyesinin yarandığı dövrdə – 1920-30-cu illərdə Azərbaycanda gedən ictimai-siyasi proseslərdə, qadınların azadlığının əldə olunması prosesində bu əsər çox böyük rol oynamış, güclü təsir bağışlamışdır. Deyirdilər ki, o vaxt qadınlar Bakıda indi bizim bərpa etdiyimiz Hacı Zeynalabdin Tağıyevin teatrına çadra altında gəlirdilər. Bunu siz də tamaşada göstərdiniz. Əsər o qədər təsirli idi ki, tamaşaya baxan qadınlar heç nədən – atasından, qardaşından, ərindən çəkinmədən zaldan çadralarını atıb çıxırdılar. Bu barədə mətbuatımızda, kitablarda çox yazılıb. Ona görə də «Sevil» pyesi bizə, şəxsən mənə məlum idi. Xatirimdədir, 30-cu illərdə dəfələrlə «Sevil» pyesinə baxmışam. Böyük təəssüratlarım var.

Ancaq «Sevil» pyesinin opera əsəri kimi təqdim olunmasını biz müəyyən qədər təsəvvür edə bilmirdik. Çünki yazılmış operaların çoxusunun mövzusu əfsanələrdən götürülmüşdür. Deyək ki, «Leyli və Məcnun», yaxud «Əsli və Kərəm», «Şahsənəm», «Aşıq Qərib», «Şah İsmayıl»... «Koroğlu» da böyük qəhrəmanlıq əfsanəsinə həsr olunmuşdur. Ona görə də müasir həyata dair belə bir əsərin opera vasitəsilə çatdırılmasını mən təsəvvür edə bilmirdim. Xatırlayıram, «Sevil» operasının ilk tamaşasını, yaradıcı kollektivi, operanın müəllifi Fikrət Əmirovu həmin bu salon çox böyük ehtiramla qarşıladı. O [221-222] vaxt Rəşid Behbudov ilk dəfə idi ki, operada çıxış edirdi. Həmin dövrdə o, estrada artisti hesab olunurdu. Hamı düşünürdü ki, estrada artisti operada necə çıxış edəcək? Amma çox gözəl oxudu. Firəngiz Əhmədova o vaxt opera artisti kimi məlum idi. O da, başqaları da öz rollarını çox gözəl ifa etdilər. Mən indi onların hamısının adlarını demək istəmirəm.

Mən o ilk tamaşanı da dinləmişəm. Həmin vaxtdan 45 il keçibdir. Deyirlər ki, əsər 20 ildir səhnədə olmayıbdır. İndi siz bunu yaratmısınız, çox da gözəl yaratmısınız. 45 il bundan öncə gördüyümü də, eşitdiyimi də unutmamışam, o mənim xatirimdədir. O da gözəl idi, bu da gözəldir. Siz böyük iş görmüsünüz, ictimai həyatımıza, mədəniyyətimizə böyük töhfə vermisiniz. Hamınızı təbrik edirəm və bu xidmətinizə görə sizə təşəkkürümü bildirirəm.

Burada hərə öz əməyini sərf edibdir, rejissor da öz işinin öhdəsindən yaxşı gəlibdir. Mənə dedilər ki, tamaşanın ümumi musiqi rəhbəri Fərhad Bədəlbəylidir. Əsərin musiqisində, mizanlarında, ümumiyyətlə, məzmununda da müəyyən dəyişikliklər var. Onları da mən hiss edirəm. Opera muasirləşibdir. Bunun özü də böyük işdir. Dekorasiyalar da çox gözəldir. Teatrda belə dekorasiyalardan çoxdan idi ki, uzaqlaşmışdıq və bunun həsrətində idik. Bu səhnədə keçmişdə tamaşaya qoyulan əsərlər gözəl dekorasiyalarla tərtib olunurdu. Lakin bir vaxt dedilər ki, eləcə səhnə boş olsun və ifaçılar tamaşanı göstərsinlər. Amma indi gözəl dekorasiyalardan istifadə olunur, rəssamın da işi yaxşıdır.

Əsərin əsasını təşkil edən, şübhəsiz ki, musiqidir. Orkestr çox gözəl çaldı. Dirijor da yaxşı idarə edirdi. Amma bunların hamısını səhnədə göstərən, söz yox ki, siz ifaçılarsınız. Xuraman Qasımova həmişə olduğu kimi, bu gün bizi yenə də heyrətə gətirdi, çox sevindirdi.

**X u r a m a n  Q a s ı m o v a**: Möhtərəm prezident, çox sağ olun. [222-223]

**H e y d ə r  Ə l i y e v**: Bu, opera janrında Xuraman xanımın birinci çıxışı deyil. O, çox rollarda və həmişə də yüksək səviyyədə çıxış edibdir. Ancaq bu gün yeni bir tamaşada, yeni bir rolda iştirak edir.

**X u r a m a n  Q a s ı m o v a**: Heydər Əliyeviç, sevinirəm ki, mənim ifamda bu tamaşanı Siz ikinci dəfədir ki, görürsünüz. Mən Sizin yadınıza salmaq istəyirəm, bu əsər 17 il bundan əvvəl opera teatrının səhnəsində göstərilmişdi. Bilirsiniz ki, müəyyən səbəblərə görə tamaşa uzun müddət repertuardan çıxarıldı. Çox razıyam ki, sənət yoldaşlarım əsəri yenidən, təkrar yaratmaq üçün əmək sərf etdilər. Bu əsəri yenidən canlandırdıqlarına görə mən xüsusilə tamaşanın dirijoru Cavanşir Cəfərova və musiqi rəhbəri Fərhad Bədəlbəyliyə öz təşəkkürümü bildirirəm. Amma 17 il bundan əvvəl – Azərbaycanın 60 illiyində mən bu əsərdə Sevil və Dilbər rollarında çıxış etmişəm. Sevil rolunu Fidan xanım da oynamışdı, o zaman Validə Paşayeva Gülüş rolunu oynayırdı. Bu, 17 il bundan qabaq olmuşdur. Çox sevinirəm ki, əsər yeni quruluşda səhnəmizdə təkrar tamaşaya qoyulmuşdur.

**H e y d ə r  Ə l i y e v**: Bunların hamısı düzdür. Amma 45 il öncə göstərilən «Sevil» operası mənim xatirimdə daha yaxşı qalıbdır. Siz yada saldınız, mən onu da xatırlayıram. Lakin o tamaşadan bu tamaşanı böyük bir dövr ayırır. Respublikamız son on ildə çox böyük proseslərdən keçibdir. Opera teatrı bir müddət işləməyib, yaşamayıbdır. Belə bir dövrü biz yaşadıq. İndi mədəniyyət inkişaf edir. Mən tənəffüs zamanı opera və balet teatrına, ümumiyyətlə, mədəniyyətimizə sponsorluq edən şirkətlərin nümayəndələri ilə görüşdüm, söhbət etdim. Opera teatrımıza, mədəniyyətimizə yardım etdiklərinə görə onlara təşəkkürümü bildirdim. Mən Polad Bülbüloğluna da deyirdim ki, mədəniyyət işçilərimiz, incəsənət xadimlərimiz, müğənnilərimiz, musiqiçilərimiz yəqin bilirlər ki, mən son 4-5 ildir dünyanın böyük şirkətlərini Azərbaycana gətirirəm. [223-224] Bunun ölkəmizə, onun iqtisadiyyatına, söz yox ki, böyük faydası var.

Ölkəmiz, xalqımız gələcəkdə, bir neçə ildən sonra bu faydanı daha çox hiss edəcəkdir. Gördüyümüz işlərin faydası 5-10 ildən sonra daha da artacaqdır. Neft çıxarmaq, iqtisadiyyatı inkişaf etdirmək üçün respublikamıza gətirdiyimiz şirkətlərin mədəniyyətimizə, o cümlədən opera teatrına qayğısı, teatrın nəzdində «qayğı fondu» yaratması hazırladığınız tamaşanın meydana gəlməsinə kömək edibdir. Belə bir çətin mərhələdən keçərək incəsənətimizi, mədəniyyətimizi yaşatmaq, bu gün «Sevil» operasını belə gözəl təqdim etmək böyük işdir. Ona görə də mən bunu qeyd edirəm.

Azər Zeynalov da Balaş rolunu çox gözəl ifa etdi. Yəqin ki, Balaş rolunu Azər ilk dəfədir ifa edir.

**A z ə r  Z e y n a l o v**: Bəli, cənab prezident, ilk dəfədir.

**H e y d ə r  Ə l i y e v**: İlk dəfədir... Bu rolu Rəşid Behbudovun, sonra Lütfiyar İmanovun sizin iştirak etdiyiniz tamaşada oynaması yadımdadır.

**X u r a m a n  Q a s ı m o v a**: Bəli, onda Fidan xanım Sevil rolunda oynayırdı, mən isə Dilbər rolunda.

**H e y d ə r  Ə l i y e v**: Görürsünüzmü, indi yeni nəsil, gənc ifaçılar, musiqiçilər yetişib. Azər Zeynalov operada da gündən-günə özünü gözəl göstərir. Bunu da mən çox qiymətləndirirəm. Dilbər rolu da çox gözəl ifa olundu. Bu, bir qədər maraqlı obrazdır. Hər obrazın özünəməxsus xüsusiyyəti var. O xüsusiyyəti açmağın özü, şübhəsiz ki, ifaçının ən böyük nailiyyətidir. Obrazın müsbət və ya mənfi olmasının fərqi yoxdur. Müsbəti müsbət, mənfini mənfi kimi göstərmək hər ifaçının, artistin, aktrisanın böyük məharətidir. Dilbəri də çox gözəl göstərdilər, vaxtınızı almaq istəmirəm, başqalarını da həmçinin.

Mən sizin hamınıza təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm. [224-225]

**X u r a m a n  Q a s ı m o v a**: Bu balamızı da təbrik edək.

**P o l a d  B ü l b ü l o ğ l u**: Gündüz rolunun ifaçısı balaca İsmayıl Azər Zeynalovun oğludur.

**H e y d ə r  Ə l i y e v**: Hə, sənin oğlundur? Necə gözəl, sərbəst, çəkinmədən oynadı. Elə bil doğrudan da artistdir.

**F ə r h a d  B ə d ə l b ə y l i**: Amma ona qonorar vermirlər.

**H e y d ə r  Ə l i y e v**: Böyüyəndən sonra qonorar da alacaqdır. Təbrik edirəm. İki saatdan çoxdur ki, buradayıq, «Sevil» operası Azərbaycanın opera sənətinin ən parlaq əsərlərindən biridir. Müqayisə etmək istəmirəm, mən sənətşünas, müsiqişünas deyiləm və bu vəzifəni də öz üzərimə götürmək istəmirəm. Ancaq hesab edirəm ki, Fikrət Əmirov «Sevil» operası ilə yaradıcılığının ən yüksək zirvəsinə qalxmışdır. Çünki bu əsər həm müasir həyatımızın mövzusu, həm də milli musiqimizin üzərində qurulmuşdur. Operanın ən dəyərli cəhəti də bundan ibarətdir. Fikrət Əmirov dünyasını dəyişib, Allah ona rəhmət eləsin. Vaxt ötdükcə belə insanların xidmətləri daha aydın görünür. Yaşadığı dövrdə insanı bəzən o qədər də yaxşı anlamırlar, qiymətləndirmirlər. Ancaq mənim vicdanım təmizdir.

Respublikaya rəhbərliyə gəlməzdən əvvəl də Fikrət Əmirovla çox yaxın dostluq etmişəm. Təsəvvür edin, 1969-cu ildə respublikaya rəhbərliyə başlamışdım. Əgər 1953-cü ildən Fikrət Əmirovla yaxın əlaqədə idimsə, ilk tamaşasında iştirak edib onu təbrik etmişdimsə bu da bizim əlaqələrimizi göstərir. O vaxt da mən ona çox mənəvi dayaq olurdum. Hətta bəzi fikirlərini, dərdlərini mənə danışırdı. Amma respublikaya rəhbərlik etməyə başladıqdan sonra, bilirsiniz ki, mən həmişə mədəniyyətə böyük qayğı göstərmişəm. Məhz bu qayğının nəticəsi idi ki, o, sonra «Nizami» simfoniyasını, «Min bir gecə» baletini yaratdı. Onun böyük istedadı, potensialı vardı. Ancaq bu potensialı reallaşdırmaq üçün ona kömək etmək lazım idi. Biz o vaxtlar ona bu köməyi, yardımı etdik. O, [225-226] doğrudan da Azərbaycanın incəsənətində, mədəniyyətində, musiqisində böyük iz qoyub getmişdir. Buna görə də mən bu gün onu xüsusi xatırlayıram.

45 il bundan öncə səhnəyə gətirdiyi əsər bu gün də yaşayır. «Sevil» operasını sizin kimi incəsənət xadimlərimiz yaşadır. Hamınızı təbrik edirəm. Sağ olun. [226]

## YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ ALTINCI İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Respublika sarayı*

*21 noyabr 1998-ci il*

Əziz dostlar!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi, Yeni Azərbaycan Partiyasının bütün üzvlərini Yeni Azərbaycan Partiyasının yaranmasının altıncı ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Yeni Azərbaycan Partiyasının üzvlərinə, partiyanın təəssübkeşlərinə, tərəfkeşlərinə cansağlığı, səadət və bütün işlərdə uğurlar arzulayıram.

Yeni Azərbaycan Partiyası Azərbaycanda gərgin, mürəkkəb, ağır bir dövrdə - 1992-ci ildə yaranmış, təqribən altı il ərzində, zaman nöqteyi-nəzərindən çox qısa bir dövrdə böyük, uğurlu, şanlı yol keçmiş və Azərbaycanın ən böyük, aparıcı partiyası yerini tutmuşdur.

Yeni Azərbaycan Partiyasının yaranması o illər Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyətdən irəli gələn zərurətdən doğulmuşdur. Yeni Azərbaycan Partiyasını bir adam yaratmayıbdır. Yeni Azərbaycan Partiyasını yaratmaq istəyən respublikamızın hörmətli insanları, ziyalıları, ölkəmizin taleyini düşünən, onunla yaşayan insanlar bir fikrə gələrək bu partiyanı yaratmışlar. [227-228]

Yeni Azərbaycan Partiyası respublikamızda indi mövcud olan bütün partiyalardan keyfiyyətcə ona görə fərqlənir ki, bunu yaradanlar Azərbaycan, millətimiz, dövlətçiliyimiz haqqında düşünərək axtarışlarla məşğul olmuş, fikir mübadilələri, məsləhətlər aparmış və ölkəmizin o ağır dövründə müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsində, ictimai-siyasi vəziyyətin normallaşmasında öz xidmətlərini göstərmək üçün bu partiyanın yaranması fikrinə gəlmişlər və bu təşəbbüslə çıxış etmişlər.

Partiyanın yaranma tarixi və yaranma günündən əvvəlki proseslər məlumdur. Bu barədə bugünkü çıxışlarda da deyildi. Ancaq mən bunu bir daha ona görə qeyd edirəm ki, bu partiyanı yaradan insanlar şəxsi mənafe haqqında düşünməmişlər, Azərbaycan xalqının taleyi, ölkəmizin milli mənafeyi, müstəqilliyi, dövlətçiliyi haqqında düşünmüşlər. Ona görə də çıxış yolu olaraq öz ictimai-siyasi fəaliyyətlərini həyata keçirib, öz xalqına, vətəninə, millətinə xidmət etmək üçün Yeni Azərbaycan Partiyasını bir vasitə kimi yaratmışlar.

İndi Azərbaycanda qeyd olunmuş və qeyd olunmamış fəaliyyət göstərən siyasi partiyalar çoxdur. Amma onlar da etiraf eməlidir və bu, tam həqiqətdir ki, bunların əksəriyyəti ayrı-ayrı şəxslərin öz ictimai-siyasi fəaliyyətini həyata keçirmək üçün yaratdıqları partiyalardır. Ona görə də onlar heç vaxt geniş bir təsirə malik ola bilməzlər, böyük bir nüfuz əldə edə bilməzlər. Bunu yaradanlar və yaxud yaradan partiyadan yalnız öz şəxsi siyasi məqsədləri üçün istifadə edə bilər və bəziləri də bu gün istifadə edirlər.

Yeni Azərbaycan Partiyasının təməli sağlam amallar əsasında qoyulubdur. Buna görə də Yeni Azərbaycan Partiyası ötən altı il müddətində yaşayıb, inkişaf edib və ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır.

Yeni Azərbaycan Partiyasının böyük gələcəyi vardır. Çünki ötən altı il müddətində Yeni Azərbaycan Partiyası vətəndaş[228-229]larımıza və dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir bir partiyadır, Azərbaycan xalqının taleyi ilə əlaqədar olan məsuliyyəti öz üzərinə götürüb daşıya bilən bir partiyadır. Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaqdır.

Yeni Azərbaycan Partiyası yaranarkən mən Naxçıvanda ağır vəziyyətdə yaşayan, blokada şəraitində olan muxtar respublikanın qayğıları ilə məşğul idim. Həqiqəti deyim ki, o vaxt mən Naxçıvanın qayğıları ilə o qədər ciddi məşğul idim və bunlar mənim vaxtımı, bütün fəaliyyətimi o qədər əhatə edirdi ki, başqa məsələlərlə məşğul olmağa vaxt tapa bilmirdim. Ancaq Azərbaycanın qabaqcıl adamları, ziyalıları, respublikamızın taleyini düşünənlər mənə dəfələrlə müraciət etdilər. Mən bu partiyanın yaradılmasına razılıq verdim. Bununla demək istəmirəm ki, mən bütün Azərbaycanın taleyi haqqında düşünmürdüm, yaxud bu qayğılarla yaşamırdım. Mən bu qayğılarla yaşayırdım, bunlar haqqında düşünürdüm.

Mənim həyatım ən gənc vaxtlarımdan Azərbaycan xalqının taleyi ilə bağlıdır, Azərbaycana həsr olunubdur. Ancaq hər dövrün bir hökmü vardır. Biz Yeni Azərbaycan Partiyasının təməlini birlikdə qoyduğumuz, Yeni Azərbaycan Partiyasının proqramını, nizamnaməsini hazırladığımız zaman həmin sənədlərdə bu partiyanın böyük gələcəyinin nəzəri əsaslarını əks etdirdik.

Altı il keçəndən sonra Yeni Azərbaycan Partiyasının proqramını oxuyanlar, təhlil edənlər, ona lap tənqidi nöqteyi-nəzərdən yanaşanlar görəcəklər ki, bizim partiyanın əsasını yaradan həmin sənəddə -

proqramda Azərbaycan xalqının bu günü, gələcəyi ilə əlaqədar olan bütün siyasi prinsiplər öz əksini tapıbdır. [229-230]

Mən tədqiqatçılara, siyasi elmlər sahəsində tədqiqat aparanlara məsləhət görərdim ki, araşdırsınlar, başqa partiyalarla Yeni Azərbaycan Partiyasının proqramını müqayisə etsinlər. Onda fərqi də görər, Yeni Azərbaycan Partiyasının Naxçıvanda, ağır şəraitdə yazılmış proqramında müstəqil Azərbaycanın dövlətçiliyinin, xarici, daxili siyasətinin, sosial-iqtisadi siyasətinin əsaslarının hamısını da orada tapa bilərlər, müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında yaranması və qurulması müddəalarının hamısını bu proqramda taparlar.

Mən həmin proqrama yenidən baxanda bir daha görürəm ki, biz bu partiyanı yaradarkən onun siyasi-iqtisadi istiqamətin, siyasi yolunu nə qədər düzgün müəyyən etmişik. Məhz buna görə də bu partiya altı ildir ki, fəaliyyət göstərir və günü-gündən təkmilləşir, inkişaf edir.

Yeni Azərbaycan Partiyasının Azərbaycan xalqı qarşısında böyük xidmətləri vardır. Şübhəsiz ki, Azərbaycanda olan hər bir siyasi partiya respublikamızın ictimai-siyasi həyatında iştirak edir və respublikamızda gedən proseslərə müəyyən təsir edir. Ancaq Azərbaycanın müqəddəratını həll edən məsələlərin hamısı Yeni Azərbaycan Partiyasının üzvlərinin, onun nümayəndələrinin üzərinə düşür.

Yeni Azərbaycan Partiyası 1992-ci il noyabrın 21-də yarandı. Amma heç bir il keçmədən, yəni 1993-cü ilin iyun ayında Yeni Azərbaycan Partiyası və onun lideri respublikamızda yaranmış siyasi-iqtisadi, sosial böhranın, vətəndaş müharibəsinin aradan qaldırılması vəzifəsini öz üzərinə götürdü.

Yeni Azərbaycan Partiyasından əvvəl yaranmış bir neçə partiya vardır. Həmin partiyaların fəalları, liderləri 1988-1989-cu illərdən Azərbaycanın ictimai-siyasi həyatında fəaliyyət göstərirdilər. Mən onların fəaliyyətinin xalq üçün nə qədər xeyirli, yaxud zərərli olduğunu indi təhlil etmək istəmirəm. [230-231] Ancaq fakt odur ki, onlar fəaliyyət göstəriblər və Azərbaycanın daxili ictimai-siyasi vəziyyətinə təsir edirdilər, öz partiyalarını yaratmışdılar. Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyası, Milli İstiqlal Partiyası və bir neçə digər partiyaların hamısı Yeni Azərbaycan Partiyasından xeyli əvvəl yaranmışdı.

Dediyim kimi, bu partiyaların fəalları, liderləri artıq bir neçə il idi ki, Azərbaycanın siyasi səhnəsində idilər. Ancaq onların bir qismi iqtidarda olduqları zaman 1993-cü ilin iyun ayında Azərbaycanı fəlakətə, respublikamızı parçalanma həddinə gətirib çıxardılar, Azərbaycanda vətəndaş müharibəsinin baş verməsinin səbəbkarı oldular. Ağır məqamda xalqı, ölkəni, dövləti qoyub, pərən-pərən düşərək hərəsi bir tərəfə qaçdılar. Digərləri isə o ağır dövrdə Azərbaycanda vəziyyəti normallaşdırmaq, ölkəni bu böhran vəziyyətindən çıxarmaq məsuliyyətini öz üzərinə götürə bilmədilər və götürmədilər. Çünki bilirdilər ki, onlar buna qadir deyillər, bunu edə bilməyəcəklər.

Beləliklə, həqiqət ondan ibarətdir ki, biz bu günlərdə Azərbaycanın dövlət müstəqilliyinin yeddinci ilini yaşayırıq. Azərbaycanın Ali Soveti 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edib və 1991-ci il dekabrın 29-da Azərbaycanın dövlət müstəqilliyi haqqında referendum keçirilibdir. O vaxtlardan yeddi il keçir. Ötən yeddi ilin demək olar ki, beş il altı ayı, bəlkə də beş il səkkiz ayı bizim Azərbaycana rəhbərlik etdiyimiz dövrdür.

Azərbaycanın Ali Soveti müstəqilliyi elan etdi, ancaq tam müstəqillik əldə olunmadı. 1992-ci ildə guya Azərbaycan müstəqil dövlət kimi yaşayırdı, ancaq tam müstəqil olmaq üçün hələ bir çox işləri görə bilməmişdi. Nəhayət, 1993-cü ilin iyununda iqtidarda olan partiyalar, siyasi qruplar, şəxslər Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qoruyub saxlaya [231-232] bilmədilər. Bu tarixi vəzifəni, missiyanı biz - Yeni Azərbaycan Partiyası öz üzərinə götürdü.

Hər bir şəxsin, hər bir təşkilatın, qurumun, siyasi partiyanın fəaliyyəti onun şüarları, çağırışları, nəzəri fikirləri ilə yox, onun əməli işləri ilə qiymətləndirilir. Bu, həmişə belə olub, dünyanın hər yerində də belədir. Əməli işə gəldikdə isə, Azərbaycan xalqının qarşısındakı xidmətlərə görə Yeni Azərbaycan Partiyasının, onun fəallarının və liderinin fəaliyyəti Azərbaycan xalqının gözü qarşısındadır.

Bütün bunlara görə də mən bu gün bəyan edirəm ki, Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycanın xalqı qarşısında böyük xidmətləri vardır. Biz partiyamızın yaranmasının altıncı ildönümünü bu gün böyük iftixar hissi ilə qeyd edirik. Mən əminəm ki, Yeni Azərbaycan Partiyası gələcək illərdə də günü-gündən möhkəmlənəcək, cəmiyyətdə bizim partiyamıza inam artacaq və Yeni Azərbaycan Partiyası 1993-cü ilin iyununda öz üzərinə götürdüyü məsuliyyəti axıra qədər apara biləcəkdir.

Yeni Azərbaycan Partiyası bu gün iqtidardadır. Yeni Azərbaycan Partiyasının lideri Azərbaycanın prezidentidir. Azərbaycanın ali qanunvericilik orqanında, Milli Məclisində deputatların tam əksəriyyətini Yeni Azərbaycan Partiyasının üzvləri təşkil edirlər. Respublikanın icra hakimiyyəti orqanlarında - Nazirlər Kabinetində, başqa icra orqanlarında, yerli hakimiyyət orqanlarında Yeni Azərbaycan Partiyasının nümayəndələri yüksək vəzifələrdə çoxluq təşkil edirlər. Ona görə də Yeni Azərbaycan Partiyası iqtidar partiyasıdır.

Şübhəsiz ki, hər bir demokratik cəmiyyətdə iqtidar partiyası ilə yanaşı, müxalifətdə olan partiyalar, siyasi qurumlar, təşkilatlar da mövcuddur. Azərbaycanda da bu reallıq artıq göz qabağındadır. Eyni zamanda, Azərbaycanda bir çox partiyalar, ictimai təşkilatlar, cəmiyyətlər var ki, onlar müstəqil fəaliyyət göstərirlər, ancaq Azərbaycan preziden[232-233]tinin siyasətini dəstəkləyirlər, Yeni Azərbaycan Partiyasının siyasətini bəyənirlər və bu partiya ilə əməkdaşlıq edirlər.

Təəssüflər olsun ki, son vaxtlar, xüsusən 1997-ci ildə Azərbaycan cəmiyyətində radikal müxalifət mövqeyində duran partiyaların, siyasi qrupların məhz radikal siyasətinin nəticəsində iqtidar ilə müxalifət arasındakı münasibətlər çox kəskinləşibdir. Mən dəfələrlə demişəm, - bunun səbəbi iqtidarda deyildir. Bunun səbəbi radikal mövqedə duran həmin siyasi partiyalarda, təşkilatlardadır.

Şübhəsiz ki, belə bir şəraitdə Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq edən və Azərbaycan prezidentinin, iqtidarının siyasətini, fəaliyyətini dəstəkləyən, ona tərəfdaş olan partiyalar, ictimai təşkilatlar daha da sıx birləşirlər. Son zamanlar belə bir alyans yaranıbdır. Bu partiyaların, təşkilatların nümayəndələri bu gün Yeni Azərbaycan Partiyasının altı illik yubileyində iştirak edirlər.

Mən belə bir alyansın yaranmasını bəyənirəm və dəstəkləyirəm, inanıram ki, bu alyans get-gedə daha da genişlənəcək, Azərbaycanın bu günü və gələcəyi, taleyi, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi haqqında düşünən daha çox qüvvələr respublikamızın iqtidarı ətrafında birləşəcək və Yeni Azərbaycan Partiyası ilə birlikdə böyük bir alyans təşkil edəcəklər.

Mən bu gün bu yubiley mərasimində iştirak edən bütün digər siyasi partiyaları, ictimai təşkilatları, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq edən, Azərbaycan prezidentinin fəaliyyətini bəyənən, ona dəstək verən və onunla əməkdaşlıq edən bütün partiyaları, təşkilatları salamlayıram və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Bu gün məmnuniyyətlə qeyd edirəm ki, qardaş Gürcüstandan «Gürcüstan Vətəndaş Həmrəyliyi İttifaqı» Partiyasının böyük nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının bu mərasimində iştirak edir. Gürcüstan ilə Azərbaycan [233-234] arasında olan dostluq, qardaşlıq əlaqələri bütün dünya üçün nümunədir. Mən bu barədə fikirlərimi bildirmişəm və bu gün bunun mənasını təhlil etməyə ehtiyac duymuram. Onu bir daha qeyd edirəm ki, biz bu əlaqələri yüksək qiymətləndiririk. Gürcüstanda yerli hakimiyyət orqanlarına bir həftə bundan əvvəl keçirilmiş seçkilərdə - bilirsiniz ki, Gürcüstanda bir neçə rayonda Azərbaycan millətindən olan Gürcüstan vətəndaşları yığcam halda yaşayırlar - indiki iqtidar partiyasına, «Cürcüstan Vətəndaş Həmrəyliyi Partiyası»na əgər ən çox səs veriblərsə, demək, bunun özü də ölkələrimiz arasında, Gürcüstan prezidenti ilə Azərbaycan prezidenti arasında olan səmimi dostluq və qardaşlıq əlaqələrinin yeni parlaq təzahürüdür.

Mən Gürcüstan nümayəndə heyətini səmimi-qəlbdən salamlayıram və buradan, bu möhtəşəm salondan gürcü xalqına, Gürcüstanın bütün vətəndaşlarına, o cümlədən Gürcüstanda yaşayan azərbaycanlılara, Gürcüstanın prezidenti, mənim əziz dostum Eduard Şevardnadzeyə səmimi salamlarımı yetirir və hörmət, ehtiramımı bildirirəm.

Türkiyənin Doğru Yol Partiyasının nümayəndəsinin, millət vəkilinin Yeni Azərbaycan Partiyasının ildönümü mərasimində iştirak etməsi Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin nə qədər sıx, səmimi olduğunu bir daha göstərir. Mən şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyası vaxtında dəvətlər göndərsəydi başqa partiyaların nümayəndələri də burada iştirak etmiş olardı. Çünki Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri Türkiyə Cümhuriyyətinin bütün sahələrini əhatə edir. Azərbaycanın prezidenti kimi mən Türkiyənin həm iqtidarda olan partiyaları ilə sıx əməkdaşlıq edirəm, həm də müxalifətdəki partiyalarla bizim əlaqələrimiz vardır. Çünki Türkiyənin parlamentində istər iqtidarda, istər müxalifətdə olan partiyaların hamısı Türkiyənin dövlətçiliyi, milli məna[234-235]feyi mövqeyində dururlar. Biz də Türkiyənin daha da güclü, qüdrətli dövlət olmasını, bu ölkənin qarşısında duran problemlərin həll edilməsini istəyirik. Ona görə də biz Türkiyənin bütün cəmiyyəti ilə əməkdaşlıq edirik.

Mən çox məmnunam ki, Türkiyənin Doğru Yol Partiyasının nümayəndəsi burada çox səmimi və hərarətli sözlər dedi. Mən Yeni Azərbaycan Partiyasının mərasimində iştirak edən Türkiyə Cümhuriyyətinin nümayəndəsini salamlayıram, onun şəxsində bütün Türkiyə xalqını, cümhuriyyətini, dövlətini salamlayıram. Azərbaycan xalqının sevgisini və məhəbbətini, hörmətini Türkiyəyə çatdırıram.

Mən Türkiyənin prezidenti əziz dostum Süleyman Dəmirəllə bu gün səhər telefonla danışdım. Biz Türkiyə və Azərbaycan üçün çox vacib olan bir neçə məsələləri müzakirə etdik. Bizim əlaqələrimizdə artıq bu, adi bir hala çevrilmişdir. Biz çox tez-tez telefon əlaqələri saxlayırıq. Mən, sadəcə, telefon danışığı bu gün olduğuna görə bunu bəyan edirəm. Amma çox vaxt bəyan etməyə ehtiyac yoxdur, çünki bunlar hamısı işgüzar xarakter daşıyır.

Mən bununla sadəcə, onu demək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr sarsılmazdır, əbədidir. Bunu təsdiq edən ən böyük amillərdən biri də Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində bizim bir yerdə olmağımız və həmin gün, oktyabrın 29-da Ankarada tarixi əhəmiyyətə malik olan Bakı - Ceyhan boru kəmərinin çəkilməsi haqqında böyük bir bəyannamənin imzalanması olmuşdur.

Mən Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki digər siyasi, ictimai təşkilatlarla əlaqələri haqqında danışıram. Ona görə də bir daha bildirmək istəyirəm ki, Azərbaycan iqtidarı, prezident, dövlət başçısı kimi mən və Yeni Azərbaycan Partiyası respublikamızda olan bütün siyasi, ictimai təşkilatlarla əməkdaşlıq etməyə hazırdır. Mən son bir ayda üçüncü dəfədir ki, bu fikri bəyan edirəm. Oktyabr ayının 18-də bu salonda, [235-236] andiçmə mərasimində, noyabrın 6-da Nazirlər Kabinetinin geniş iclasında və bu gün, Yeni Azərbaycan Partiyasının 6-cı ildönümündə bir daha bəyan edirəm ki, Azərbaycanda qarşıdurma meyllərinin qarşısı kəsilməlidir, alınmalıdır. Azərbaycanda hər bir şəxs, hər bir partiya milli birlik,

vətəndaş həmrəyliyi istiqamətində hərəkət etməli, fəaliyyət göstərməlidir. Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirmək yox, yaranmış sabitliyi daha da möhkəmləndirmək lazımdır. Çünki bu, Azərbaycanın yaşaması, onun müstəqilliyinin qorunması üçün ən əsas şərtdir. Ona görə də mən bu gün müxalifətdə olan bütün partiyalara və siyasi qurumlara bir daha bəyan edirəm ki, Azərbaycan iqtidarı hər bir dialoqa hazırdır. Ancaq bu dialoq şərtsiz olmalıdır. Heç kəs heç kəsin qarşısında heç bir şərt qoya bilməz.

Mən bunu ona görə deyirəm ki, cəmiyyətdə bəzi partiyaların təxribatçı hərəkətlərinin qarşısı alınsın, onlar get-gedə cinayətkarlıq düşərgəsinə yuvarlanmasınlar. Bilsinlər ki, yalnız qarşılıqlı anlaşma, danışıq, dialoq vasitəsilə bu məsələləri həll etmək olar. İddialar, ultimatumlar, kiminsə özünə xüsusi hüquq istəməsi heç bir cəmiyyətdə ola bilməz. Bizim cəmiyyətdə qəti ola bilməz.

Hamı bilməlidir ki, 1993-cü ildə Azərbaycanı vətəndaş müharibəsinə, parçalanma şəraitinə gətirib çıxaranlar öz günahlarından utanmalıdırlar. Əgər onlar bu əməllərinə və bu cinayətlərinə görə indiyə qədər Cinayət Məcəlləsinin maddələri ilə məsuliyyətə cəlb olunmayıblarsa, bu o demək deyildir ki, onlar məsuliyyətdən azaddırlar. Əgər məsuliyyətə cəlb olunmayıblarsa, demək, onlara şans verilibdir ki, öz günahlarını yusunlar, öz təxribatçı, dağıdıcı əməllərindən əl çəksinlər, Azərbaycanı yenidən fəlakətlərə aparmağa cəhd etməsinlər.

Mən bunu bəyan edirəm və bildirirəm ki, beş il ərzində bütün həmin partiyaların - hətta bitərəfliyi şəraitində yox -[236-237] işlərimizə maneçilik etdikləri şəraitdə biz Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq, inkişaf etdirmişik. Azərbaycanda böyük sosial-iqtisadi problemləri həll etmişik və həll edirik. Azərbaycanın ardıcıl milli mənafelərini təmin edən xarici siyasət aparmışıq. Ən nəhayət, - mənim fikrimin əvvəli də, axırı da budur, - Azərbaycanda hərc-mərcliyi aradan götürmüşük, cinayətkarlığın, qırğının, qan tökülməsinin qarşısını almışıq, Azərbaycanda əmin-amanlıq yaratmışıq, ictimai-siyasi sabitliyi təmin etmişik. Bunun nəticəsində də Azərbaycana bütün xarici ölkələrin sərmayəsinin gəlməsini və iqtisadi əməkdaşlığı təşkil etmişik. Bu, beş ildə bizim gördüyümüz işlərin nəticələridir. Bu, bizim əldə etdiyimiz nailiyyətlərdir. Hamı bilsin, biz bu nailiyyətləri heç vaxt heç bir kəsə qurban verə bilmərik.

Mən bütün müxalifət qüvvələrini dialoqa dəvət edirəm, məsələləri ancaq danışıq yolu ilə həll etməyə dəvət edirəm. Heç kəs Azərbaycanda güc yolu ilə, zorla heç bir şeyə nail ola bilməz. Bu, artıq xülyadır. Bu, artıq 1991-ci, 1992-ci il deyil, 1993-cü il də deyildir. Azərbaycanın müstəqil, qüdrətli dövləti vardır, Azərbaycanın dövlətçiliyini qorumaq üçün ölkənin dövlət strukturları vardır. Onlar Azərbaycanda kiminsə tərəfindən güc işlətməyə, güclə nəyəsə nail olmağa heç vaxt imkan verməyəcəkdir.

Prezident kimi mən bəyan edirəm ki, bəli, mən Azərbaycan xalqının, onun müstəqilliyinin keşiyində 1993-cü ildən durduğum kimi, bundan sonra da duracağam və heç kəs mənim iradəmi sındıra bilməz.

1993-cü ildə vətəndaş müharibəsinin qarşısını alanda bu gün müxalifətdə olan, o vaxt Azərbaycanı fəlakətə gətirən həmin insanlar bizə heç bir kömək etmədilər, əksinə, öz hərəkətləri ilə bizə mane olmağa çalışdılar, orada-burada təxribatlar apardılar, Azərbaycan prezidentinə qarşı terror əməliyyatı keçirdilər. Unudulmayıbdır ki, 1993-cü ilin [237-238] sentyabr ayında həmin o Xalq Cəbhəsinin fəalları Azərbaycan prezidentinə terror etmək üçün Türkiyədən zavallı bir gənci yolundan çıxarıb buraya gətirdilər və burada onun əli ilə atəş açıb Azərbaycan prezidentini məhv etmək istədilər. Bu, onların tərəfindən 1993-cü ildə olubdur. O adamlar həbs olundu, indi həbsxanalarda yatırlar. Amma onların təşkilatçıları, o cümlədən onun başında duran Əbülfəz Elçibəy heç olmasa vicdan əzabı çəkirmi? O gənc türk tələbəsinin Ərzurum Universitetindən gətirilib burada Azərbaycanın həbsxanasına düşməsinə görə vicdan əzabı çəkirmi? Yaxud, o Xalq Cəbhəsinin üzvləri, - mən onları tanıyırdım, - Naxçıvandan gələn gənc insanların beynini zəhərləyib onları bu yola sövq etdilər və indi onlar həbsxanalarda yatırlar. Bunu təşkil edənlər vicdan əzabı çəkirlərmi? Çəkmirlər, çünki özləri hələ həbsxanaya düşməyiblər.

1994-cü ilin oktyabr ayında Surət Hüseynov, Rəhim Qazıyev və başqaları Azərbaycanda dövlət çevrilişi cəhdi göstərdilər. Məlumdur, biz onun qarşısını necə aldıq. Xalq bizi dəstəklədi. O vaxt həmin bu müxalifətdə olan partiyalar bizə dəstək verdilərmi? Azərbaycanın müqəddəratı təhlükə altında idi. Mən televiziya vasitəsilə xalqa müraciət etdim. Heç bir partiyaya mənsub olmayan, - şübhəsiz ki, Yeni Azərbaycan Partiyası orada idi, - yüz minlərlə adam iki saatın içərisində Prezident sarayının qarşısına axıb gəldi. Səhərisi gün onlar Azadlıq meydanında Azərbaycanın dövlətçiliyini dəstəklədilər və müdafiə etdilər. İndi müxalifətdə duran partiyalar onda harada idi? Kənardan durub baxırdılar, - görək Surət Hüseynov bu hakimiyyəti yıxa biləcək, yoxsa yox. Anlamırdılar ki, əgər Surət Hüseynov bu hakimiyyəti yıxsa, Azərbaycan da olmayacaqdı, onlar da olmayacaqdı.

1995-ci ilin mart ayında OMON dəstəsi Azərbaycanda hakimiyyəti ələ keçirmək istədi. Yəni «OMON dəstəsi» deyəndə, orada toplaşmış cinayətkarlar. Onlar adi insanlar[238-239] idi. Bəli, atəş aça bilən adamlar idilər. Amma onların siyasət barəsində o qədər böyük bilikləri, yaxud da ki, səriştələri yox idi. Ancaq onları bu işə sövq edənlər var idi. Çünki Azərbaycan artıq inkişaf edirdi.

Bəli, Azərbaycanda 1994-cü il sentyabr ayının 20-də böyük müqavilə imzaladıq. İndi o, bütün dünyaya səs salıbdır və bunların hamısının nəticəsində Bakı- Ceyhan layihəsini biz artıq təsdiq etdik. O zaman ondan on gün sonra, həmin oktyabr ayının əvvəlində burada dövlət çevrilişi cəhdi baş verdi. Bu, sadə bir şey deyildi. Bəli, gördülər ki, Azərbaycan artıq ayaq üstə durur, Azərbaycan öz iqtisadi məsələlərini həll

edir, sonra Azərbaycana güc gəlmək mümkün olmayacaqdır. Deməm, hakimiyyəti yıxmaq lazımdır. Bu, tək Surət Hüseynovun işi deyildi, xarici xidmət orqanlarının birlikdə işi idi. Ancaq əgər həmin o müxalifətdə olan şəxslər o vaxt da, indi də Azərbaycanın milli mənafeyi haqqında düşünürdülərsə, nə üçün gəlib Azərbaycan iqtidarı ilə bir yerdə olmadılar? Bu, o hal idi ki, dövlət çevrilişi etmək istəyən Surət Hüseynov onlara 1993-cü ildə qənim kəsilən adam idi, onları devirmək istəyən adam idi, onlarla vuruşan adam idi. Onlar gəlib bizimlə bir yerdə olmadılar.

1995-ci ilin mart ayında isə həmin o cinayətkar qrupları, dəstələri qızışdırıb ortaya salan ayrı-ayrı xarici ölkələrin xidmət orqanları ilə onları maliyyələşdirən, onlara bəzi sursatlar, vasitələr verənlər - hamısı birlikdə Azərbaycan prezidentini yox etmək istədilər və Azərbaycanda dövlət çevrilişi etmək istədilər. Bunun iştirakçıları da məlumdur. Moskvadan gələn Mütəllibovun adamı, cəhdin iştirakçısı, indi həbsxanada yatır. Əbülfəz Elçibəyin emissarını qaçırdılar. O, Türkiyədə gizlənir, amma axıra qədər gizlənə bilməyəcəkdir. Bir o deyildi, Müsavat Partiyasının da nümayəndələri var idi - hamısı birlikdə o vaxt həmin OMON-da olan [239-240] cinayətkarların vasitəsilə yenə də hakimiyyəti devirmək istəyirdilər. Biz bunun da qarşısını aldıq.

Ondan sonra 1996-cı ilin payızında qaçıb gizlənmiş OMON dəstələri Rusiya xüsusi xidmət orqanlarının köməyi ilə Dağıstana gəldilər. Balakənə keçdilər, Zaqatalaya keçdilər. Gəldilər Qazaxda adamlar öldürdülər və Bakıya gəlib yenidən Azərbaycan prezidentini məhv etmək istədilər. Onun da qarşısı alındı. Bu müxalifətdə olan ayrı-ayrı qüvvələr onlarla da əlaqədə idilər.

Görürsünüz, nə qədər təxribatçılıq, nə qədər dağıdıcılıq əməllərinə yol veriblər. Mən hər dəfə də hamını milli birliyə dəvət edirəm, milli həmrəyliyə dəvət edirəm, hamınızı birlikdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa dəvət edirəm. Ancaq bunun əvəzində nələr görürük?

Xarici xidmət orqanlarının sifarişi ilə burada 1995-ci ildə Azərbaycan prezidentinin təyyarəsini vurmaq istəyənlərin çoxu indi həbsxanadadır. Amma təşkilatçılarından biri- ikisi indiyə qədər hələ əlimizə keçməyibdir. O da keçəcəkdir.

Belə bir dövrü yaşamış Azərbaycanı bu cür fəlakətlərdən qurtarmış, hamar yola çıxarmış prezident indi kiminsə tərəfindən Azərbaycanın dağıdılmasına, parçalanmasına, buradakı təxribatlara yol verə bilərmi? Heç vaxt yol verə bilməz!

Gənclər təşkilatının nümayəndəsi burada çox doğru dedi. Türkiyədə Osmanlı imperatorluğu dağılandan sonra, - 700 illik imperatorluq dövründə dünyanın bir çox ölkələrini yüz illərlə əlində saxlamış Türkiyə sonra məğlub olub çox şeyləri itirdiyi zaman və müxtəlif xarici qüvvələr Türkiyəni dağıtmaq, yox etmək istədiyi zaman Türkiyənin qəhrəman insanları, birinci növbədə ulu öndər Mustafa Kamal Atatürk Osmanlı imperatorluğunun külləri içində Türkiyə Cümhuriyyətini yaratdı. Çətin bir dövr idi. O, böyük bir addım atdı. Türkiyə Cümhuriyyətini yaratmaq özü-özlüyündə tarixi bir hadisə idi. Amma onu yaşatmaq, onu qüdrətli cümhuriyyət [240-241] etmək ondan da çətin, ondan da ağır bir vəzifə idi. Bəli, əgər Mustafa Kamal Atatürk olmasaydı, bəlkə də Türkiyə Cümhuriyyəti yaranmazdı. Əgər Mustafa Kamal Atatürk olmasaydı, Türkiyə Cümhuriyyəti yaşayıb inkişaf edə bilməzdi. Bəli, Mustafa Kamal Atatürkün iradəsi, onun müdrikliyi, dahiliyi, qəhrəmanlığı Türkiyə Cümhuriyyətinin yaşamasının əsas amili olmuşdur. Bu, bizim üçün örnəkdir. Bəli, biz də Azərbaycanı böyük bəlalardan çıxarmışıq. Sovetlər İttifaqı dağılandan sonra Azərbaycan böyük çətinliklərdən keçərək öz müstəqilliyini əldə edibdir. İndi biz bu müstəqilliyi saxlamalıyıq, müstəqil Azərbaycanı yaşatmalıyıq, inkişaf etdirməliyik. Bu böyük tarixi vəzifəni, bu tarixi missiyanı hansısa xırda siyasətçilərin iddialarına, şıltaqlıqlarına, yaxud da ki, ayrı-ayrı hay-küylərinə biz qurban verə bilərikmi? Bu, heç vaxt ola bilməz!

Müstəqillik əldə edən hər bir ölkə, milli azadlığını əldə edən xalq öz xoşbəxtliyinə gəlib çatır. Ancaq müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir.

XX əsrdə 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Bu gün tarixi düzgün təhlil etmək lazımdır. Əgər Rus Çar İmperiyası dağılmasaydı, belə bir tarixi ictimai-siyasi şərait yaranmasaydı, bizim mütərəqqi insanlarımız nə qədər mübarizə aparmış olsaydılar da, heç bir müstəqillik əldə edə bilməzdilər. Müstəqillik əldə olundu ona görə ki, Rus Çar İmperiyası dağıldı, Rusiyada vətəndaş müharibəsi başladı, Rusiya öz başının hayına qaldı və bu fürsətdən istifadə edən cənubi Qafqaz ölkələri - Gürcüstan, Azərbaycan, Ermənistan, bu ölkələrin mütərəqqi insanları, milli ruhla yaşayan insanlar öz xalqlarını milli azadlığa çıxarmaq, ölkələrini müstəqil etmək məramına gəldilər, mübarizə apardılar. Əvvəl müstəqil Zaqafqaziya yaratmaq istəyirdilər, sonra ayrıldılar. [241-242]

Müstəqillik elan olundu. 23 aydan sonra bu dövlət, hökumət məhv oldu. Birinci, ona görə ki, daxili çəkişmələr imkan vermirdi ki, bu dövlət yaşasın. O vaxt hökumətin daxilindəki çəkişmələr məlumdur. İkincisi də, Çar Rusiyası dağıldısa, bir, iki, üç vətəndaş müharibəsi gedəndən sonra özünü möhkəmləndirdi və onun yerində Sovet İmperiyası yarandı. Sovet İmperiyası da Çar Rusiyasına mənsub olan torpaqları əldən vermək istəmədi. Ona görə də kommunist ideologiyası olsun, nə olur - olsun, həmin siyasət davam etdi və müstəqil Azərbaycan yox oldu, Azərbaycanda Sovet hakimiyyəti quruldu, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Demək, müstəqilliyi əldə etmək, onu yaşatmaq tarixi ictimai-siyasi şəraitdən asılıdır. Bunu belə təhlil etmək lazımdır, belə qiymətləndirmək lazımdır.

1991-ci ildə də Sovetlər İttifaqı dağılmasaydı, heç bir qüvvə,15 müttəfiq respublikanın heç biri öz müstəqilliyini elan edə bilməzdi. Kimsə bəyan edir ki, biz müstəqilliyi əldə etmişik, biz müstəqilliyə nail olmuşuq, biz müstəqil dövlət yaratmışıq. Bunlar başdan-ayağa cəfəngiyatdır. Sovetlər İttifaqının dağılması müttəfiq respublikaların müstəqillik elan etməsinin səbəbi, əsası oldu. Hətta bəziləri fikirləşirdilər ki, biz bu müstəqilliyi elan etməliyik, ya etməməliyik? Bəziləri düşünürdülər ki, biz bunu saxlayacağıq, ya saxlamayacağıq? Bəzi respublikalar məcburi müstəqillik elan etdilər. Bu həqiqətdir. Doğrudur, Azərbaycanda da müstəqillik istəyən qüvvələr də var idi. Amma təsadüfi deyil ki, Sovetlər İttifaqında qalmaq istəyən qüvvələr, o vaxt hakimiyyətdə olan qüvvələr onlardan çox idi. Təsadüfi deyil ki, 1991-ci il oktyabr ayının 18-də Konstitusiya aktı elan olundu, ancaq müstəqillik haqqında referendum dekabr ayının 29-na təyin edildi. Soruşuram, niyə? Referendumu keçirmək üçün ən çoxu bir ay vaxt lazımdır. Noyabr ayının 15-nə referendum təyin etmək lazım idi. Ancaq 29-na təyin olundu. Nə üçün? [242-243] Fikirləşdilər ki, «hələ gözləyək, baxaq görək nə olacaqdır». Nə oldu? Dekabr ayının 8-də Rusiya- Ukrayna- Belorusiya «Belovej razılığı» deyilən bir müqavilə imzaladılar. Ondan sonra Sovetlər İttifaqının dağılması prosesi gücləndi. Dekabr ayının 25-də Sovetlər İttifaqının rəhbəri Qorbaçov elan etdi ki, o, öz vəzifəsindən imtina edir. Dekabr ayının 29-da Azərbaycan referendum keçirdi.

Yəni 1991-ci ildə də 1918-ci ildə olduğu kimi, Azərbaycanın dövlət müstəqilliyini elan etməsi yaranmış tarixi ictimai-siyasi vəziyyətin nəticəsində olmuşdur. İstəsəydin də, istəməsəydin də müstəqilliyi elan etmək lazım idi və çox böyük hadisədir ki, Azərbaycan öz müstəqilliyini elan etdi. Ancaq bu müstəqilliyi yaşatmaq nə cür oldu?

1991-ci ilin sonunu və 1992-ci ili götürək. 1992-ci ildə Azərbaycan müstəqilliyini saxlaya bilirdimi? Yox. 1993-cü ilin iyun ayında başlanmış vətəndaş müharibəsi Azərbaycanın müstəqilliyini məhv edirdi.

Beləliklə, mən o fikri ifadə etmək istəyirəm ki, müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir.

Mən bu gün iftixar hissi ilə bəyan edirəm ki, biz, o cümlədən Yeni Azərbaycan Partiyası və onun lideri 1993-cü ilin iyun ayından Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, inkişaf etdirmək, möhkəmləndirmək üçün xüsusi xidmətlər göstərmiş və bunun nəticəsində indi Azərbaycanda müstəqil dövlət yaşayır və onun gələcək yaşayışı üçün də böyük bir təməl qoyulubdur. Bizim vəzifəmiz qarşıdakı dövrdə, illərdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdır. [243-244] Bütün başqa məsələlər bu çərçivədə olmalıdır. Ən yüksəkdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaqdır. Başqa proseslər, yaxud başqa amillər buna tabe olan amillərdir. Biz də bunu edirik və edəcəyik.

Beləliklə, Yeni Azərbaycan Partiyasının qarşısında çox böyük və möhtəşəm vəzifələr durur. Mən əminəm ki, biz bu vəzifələri gələcəkdə də uğurla həyata keçirəcəyik.

Bir müstəqil dövlət olaraq biz artıq yeddi ildir ki, yaşayırıq. Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası, mən bu gün cəsarətlə deyə bilərəm ki, Yeni Azərbaycan Partiyasının məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm sosial-iqtisadi sahədə gördüyümüz işlər həmin bu milli ideologiyanın üzərində qurulur.

Bu milli ideologiya nədən ibarətdir?

Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun.

Mən bu barədə yenə də Türkiyəni örnək kimi göstərmək istəyirəm. Türkiyənin həyatında indi cürbəcür proseslər vardır. Ancaq Türkiyədə insanlarda milli vətənpərvərlik hissi, vətənə sədaqət hissi çox yüksəkdir. Bəlkə də Türkiyəni bu 75 ildə saxlayan amillərdən biri də məhz bundan - milli vətənpərvərlik, milli qürur hissindən ibarətdir. Gərək hər bir vətəndaş öz vətəninə görə, öz millətinə görə, öz xalqına görə, [244-245] öz ana dilinə görə milli qürur hissi keçirsin, azərbaycanlı olması ilə fəxr etsin. Bəzən keçmişdə olduğu kimi, gedib deməsin ki, "mən rusdilli azərbaycanlıyam", yaxud da «tamam azərbaycanlı deyiləm, filanam». Belələri bizim sıramızdan çıxmalıdır. Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək, onlardan istifadə edirsə, o öz doğma Azərbaycan dilinə diqqətini və hörmətini azaltmamalıdır. Əksinə, öz doğma dilini daha da mükəmməl bilməli və ona daim hörmət etməlidir.

Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir. Şübhəsiz ki, dövlət dövlətçiliyi möhkəmləndirir. Amma dövlət cəmiyyətə arxalanır. Cəmiyyət insanlardan ibarətdir. İnsanların isə hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər vətəndaş olsun, milli qurur hissi ilə yaşayan vətəndaş olsun. Onda bu vətəndaş dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaqdır. Bu, bizim milli ideologiyamızın əsas hissəsidir.

Milli ideologiyamızın ikinci hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli əxlaqi mentalitetimizdir. Bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir.

Biz bunların hamısı ilə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimizin heç biri bizə ləkə salmır, bizi utandırmır. Mən [245-246] niyə bunu xüsusi qeyd edirəm? Çünki sovet hakimiyyəti dövründə kommunist ideologiyası bu milli-mənəvi dəyərləri sıxışdırıb çıxarmaq istəyirdi. Hesab edilirdi ki, kommunist ideologiyası var, ümumi mənəvi dəyərlər var və Sovetlər Birliyində yaşayan hər bir xalq bu ümumi mənəvi kommunist ideologiyasına əsaslanan ümumi mənəvi dəyərlərlə yaşamalıdır.

Belə bir zamanda qəribə bir proses gedirdi. Bir tərəfdən, bizim bu milli-mənəvi dəyərlərimiz o qədər dərin köklərə malikdir ki, onlar yaşayırdı və heç kəs də onları laxlada bilmirdi. Amma eyni zamanda, bəzi konyunktur xarakterli insanlar bizim öz milli -mənəvi dəyərlərimizə xor baxırdılar, özlərini onlardan ayırmaq istəyirdilər. Guya ki, «bu, geri qalmış bir şeydir, bizim keçmişdə olan adətlərimizdir, biz bundan deyilik, biz qabaqcılıq, nə bilim, mütərəqqiyik, filanıq».

Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir, bizim adət-ənənələrimizdir. Bir də təkrar edirəm, bizim mənəvi-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli- mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və bu milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır.

Azərbaycan xalqı müstəmləkəçilik zülmü altında nə qədər yaşayıbdır. Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, dinini də, adət-ənənələrini də, öz mənəvi-əxlaqi mentalitetini də saxlayıbdır, bütün əxlaqi normalarını - hamısını saxlayıbdır. Bu, xalqımızın nə qədər dərin kökləri olduğunu göstərir. Bu, bizim milli ideologiyamızın bir istiqamətidir. Bizim borcumuz bu ideologiyanı təbliğ etmək, bu ideologiyanı genişləndirmək, bu ideologiyanı inkişaf etdirmək, insanlara başa salmaqdır. [246-247]

Bilirsiniz, bəzən bu «mentalitet» sözünü çoxları mənfi bir məfhum kimi qiymətləndirirlər və bəzən də deyirlər,bəli, Azərbaycan xalqının mentaliteti belədir. Yəni «mədəniyyəti o qədər yoxdur, dünya mədəniyyəti ilə hələ o qədər yaxınlaşmayıbdır, filan olmayıbdır».

Mən sonra ümumbəşəri dəyərlər haqqında da danışacağam. Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumbəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi - əxlaqi mentaliteti onun ən böyük sərvətidir, xalqımızın milli-mənəvi dəyərləri onun milli sərvətidir. Biz bunları qiymətləndirməliyik. Şübhəsiz ki, mentaliteti o birisindən fərqli olmayan xalq öz xarakterini göstərə bilməz. Hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl əxlaqi qaydalar var. İndi onları nəyəsə başqa şeylərə qurban vermək olmaz.

Məsələn, bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin də öz övladlarına olan qayğısı və məhəbbəti. Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik. Ancaq bəziləri indi nəyi təbliğ edirlər: «Heç kəsi sayma, nə ağsaqqal var, nə böyük var, nə filan var, bəsmekan var. Burada mənəm və mən nə dedim - o da olmalıdır». Yox, bu, ola bilməz.

Mən bir dəfə demişəm, vaxtilə - 70-ci illərdə mən burada işləyəndə Moskvadan nümayəndələr gəlirdilər, gedib bizim şəhərləri, kəndləri gəzirdilər. Gəlib təəccüblə mənə deyirdilər ki, «biz getdik, filan yerdə 10-15 gənc oturmuşdu. Bizi görən kimi hamısı ayağa qalxdı. Biz təəccüb etdik. Necə oldu ki, bunlar ayağa qalxdılar? Bu niyə belədir?». Deyirəm ki, bu, təbii bir haldır. Deyir ki, «axı biz indi Rusiyada bir kəndə, şəhərə gedək - bizi görüb heç danışdırmayacaqlar, heç bizə fikir verməyəcəklər. Amma burada bunlar ayağa qalxdılar». [247-248] Dedim ki, bu, bizim xalqımızın xüsusiyyətidir. Bu, xalqımızın mentalitetidir. Bu, kiçiyin böyüyə hörmətidir. Bu, ev sahibinin qonağa hörmətidir.

Bunlar əsrlər boyu bizim əcdadlarımız tərəfindən yaranmış adət-ənənələrdir. Biz bunları qorumalıyıq, saxlamalıyıq. Bu, böyük bir mövzudur. Mən indi burada çox danışa bilərəm, ancaq hesab edirəm ki, əsas fikirləri bəyan etdim. Güman edirəm ki, bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə çox geniş iş görməlidirlər. Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz - hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur.

Din haqqında da demək istəyirəm. Biz müstəqillik əldə edəndən sonra islam dinimizi özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu. Şübhəsiz ki, müqəddəs kitabımızda, Qurani-şərifdə böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır və onları yaymaq, inkişaf etdirmək lazımdır. Amma eyni zamanda, biz imkan verməməliyik ki, dini bəzi şəxsi məqsədlər üçün istismar etsinlər. Buna imkan

verməməliyik. Dinin ondan öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən ayrı-ayrı adamların əlinə keçməsinə imkan verilməməlidir. Din həqiqi din xadimləri tərəfindən istifadə və tətbiq olunmalıdır. Burada da bizim görəcəyimiz işlər çoxdur və biz dini təbliğ edərkən, müqəddəs islam dininin əxlaq normalarını ölkəmizdə vətəndaşların arasında geniş yayarkən, eyni zamanda fundamentalizmə, fanatizmə yol verməməliyik. Fundamentalizm, fanatizm heç də müqəddəs kitabımızın mənası deyil. Bu, sonradan, yenə də dindən istifadə edib öz siyasi məqsədlərinə nail olmaq üçün, yaxud da ki, öz dövlət işlərini qurmaq üçün yaranmış ayrı-ayrı istiqamətlərdir. Biz Azərbaycanda bunlara yol verməməliyik. [248-249]

Nəhayət, bizim milli ideologiyamızın bir şaxəsi, bir qolu da ümumbəşəri dəyərlərdir. Ümumbəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən artıq çox on illərdir, əsrlərdir ki, qavranıbdır, qəbul olunubdur. Ümumbəşəri dəyərlər birinci növbədə bizim yaratdığımız Konstitusiyada əsas məqsəddir. Biz dünyəvi dövlət qururuq. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax, bu bir cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz əksini tapıbdır. Eyni zamanda, ümumbəşəri dəyərlərlə bərabər, Azərbaycanın milli-mənəvi dəyərlərinin vəhdəti öz əksini tapıbdır. Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir.

Bir də qeyd edirəm, biz tarixi köklərimizdən heç vaxt ayrıla bilmərik. Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq. Yenə də deyirəm, bunun içərisində həm demokratiya, həm hüquq normaları, həm dünyəvi dövlət, həm insan azadlığı, insan haqlarının qorunması, plüralizm, sərbəst ticarət, insan sərbəstliyi, sərbəst bazar ticarəti, sərbəst bazar iqtisadiyyatı var - bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli-mənəvi dəyərlərlə vəhdətindən meydana gələn müddəalardır. Bunlar bizim milli ideologiyamızın böyük bir hissəsini təşkil edir.

Mən bu fikirlərimi bu gün izah edərkən hesab edirəm ki, bu fikirlər Yeni Azərbaycan Partiyasının siyasətində və əməli fəaliyyətində öz əksini tapacaqdır. Bu fikirlər Azərbaycan dövlətinin xarici və daxili siyasətində, əməli fəaliyyətində öz əksini tapır və bundan sonra da tapacaqdır.

Bəlkə siz diqqət yetirməmisiniz, ancaq mən bu barədə geniş danışdığıma görə bildirmək istəyirəm ki, mən bu [249-250] fikirləri oktyabr ayının 18-də and içərkən bəyan etmişdim. Mən and içərək, yəni əlimi Azərbaycan Konstitusiyasına basaraq bəyan etdim ki, Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm! Bu dediyim sözlərin hamısı orada var. Bunlar hamısı dövlətçilik mənasını, məfhumunu əhatə edən sözlərdir.

Əlimi Qurani-şərifə basaraq dedim ki, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sadiq olacağıma, onları ümumbəşəri dəyərlərlə zənginləşdirəcəyimə və inkişaf etdirəcəyimə and içirəm! Yəni bu fikirləri mən ifadə etmişəm. Mən sadəcə, bu gün partiyanın yığıncağından istifadə edərək, bu fikirlərə bir az geniş təhlil verdim ki, bizim Yeni Azərbaycan Partiyasının üzvləri öz ideoloji işində bu fikirlərlə, yəni bu müddəalarla milli ideologiyamızın əsas prinsiplərindən daha da səmərəli istifadə edə bilsinlər.

Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər -bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir.

Yeni Azərbaycan Partiyasının qarşısında böyük vəzifələr durur. Bu vəzifələri həyata keçirmək üçün Yeni Azərbaycan Partiyası daha da təşkilatlanmalıdır, daha da inkişaf etməlidir, daha da genişlənməlidir. Şübhəsiz ki, bizim dövlətimizin, hökumətimizin işində də və o cümlədən Yeni Azərbaycan Partiyasının işində də qüsurlar, nöqsanlar çatışmazlıqlar da var. Mən bu barədə, yəni bizim hökumətin, dövlətin işində olan səhvlər, nöqsanlar haqqında noyabrın 6-da Nazirlər Kabinetinin geniş iclasında çox ətraflı danışdım.

Bilirsiniz ki, Nazirlər Kabinetinin geniş iclasından sonra qəbul olunmuş qərarlarla əlaqədar mən noyabr ayının 19-da [250-251] böyük bir sərəncam imzaladım. O, Azərbaycan mətbuatında dünən dərc olunubdur. O sənəddə, - mən hesab edirəm ki, o, çox vacib bir sənəddir, - həm Azərbaycanın sosial-iqtisadi həyatında əldə olunan nailiyyətlər və xüsusən bu ilin 9 ayında əldə edilən nailiyyətlər əks olunubdur, həm də bizim işimizdə olan nöqsanlar, çatışmazlıqlar və qüsurlar göstərilibdir.

Mən bu gün bir daha bəyan edirəm, - biz heç də hesab etmirik ki, Azərbaycandakı problemlərin hamısını həll etmişik və həll edirik. Yox, hələ həll olunası, xüsusən sosial-iqtisadi sahədə həll ediləsi məsələlər çoxdur.

Bilirsiniz, sosial-iqtisadi sahədə bizim bir çox çətinliklərimiz vardır. Biz iqtisadi, sosial islahatları həyata keçiririk. Bunlar öz nəticələrini verir. Ancaq bunlar daha güclü nəticələrini bir müddətdən sonra verəcəkdir.

Şübhəsiz ki, biz keçid dövründə böyük çətinliklərlə rastlaşırıq. Məsələn, məlumdur, indi bəyan edildi, ötən 9 ayda respublikamızda ümumi daxili məhsul 8,5 faiz artıbdır. Sənaye məhsulu istehsalı 1,1 faiz, kənd təsərrüfatı məhsulları istehsalı da 1,1 faiz artıbdır. Ancaq bu artım bizim gördüyümüz işlərin və xüsusən özəl sektorun hesabına - ümumi daxili məhsulun artımının 51 faizini özəl sektor təmin edir - əldə olunubdur. Ancaq bizim böyük sənaye müəssisələrimiz vardır. Ona görə də Bakıda, Gəncədə, Sumqayıtda, Əli Bayramlıda, Mingəçevirdə, çox böyük sənaye müəssisələri olan başqa yerlərdə ağır, çətin problemlər

vardır. Biz bunları bilirik. Bu sənaye müəssisələrinin bəziləri az gücü ilə işləyir, bəziləri də heç işləmir. Burada çalışan insanlar işsiz qalırlar, vaxtlı-vaxtında maaş ala bilmirlər, iqtisadi vəziyyətləri ağırlaşır. Biz bunları bilirik.

Təsəvvür edin, indi bəziləri, o cümlədən müxalifətdə olanlar bundan da sui-istifadə edirlər: «Bəli, burada insanların sosial vəziyyəti nə isə ağırdır, gəlin onları hakimiyyətə qarşı qaldıraq». Siz onları qaldırıb nə əldə edəcəksiniz? Siz [251-252] bunlardan sadəcə, öz məqsədləriniz üçün istifadə edirsiniz. Siz o sənaye müəssisələrini işlədə bilərsinizmi? İşlədə bilməzsiniz. Əgər o sənaye müəssisələrini yaradanlar biziksə, - 1970-1980 -ci illərdə biz o sənaye müəssisələrini yaratmışıq və onlar o vaxt saat kimi işləyirdi, yüksək məhsul verirdi, insanlar da yaxşı maaş alırdılar, - indi biz onları niyə işlədə bilmirik? Ona görə yox ki, bizim o vaxtkı bacarığımız yoxdur. Ona görə ki, bazar iqtisadiyyatına keçid dövründə, SSRİ-nin vaxtında olan iqtisadi əlaqələr itdiyi bir dövrdə həmin müəssisələri işlətmək sadəcə, mümkün deyildir.

Məsələn, Sumqayıtın boru-prokat zavodunu götürün. Mən 1969-cu ildən bu zavodun problemləri ilə məşğul olmuşam. Biz bu zavodda nə qədər işlər görmüşük, orada nə qədər böyük müasirləşdirmə işləri aparmışıq. 1970-ci illərdə həmin zavod çox gözəl işləyirdi, borular, metal istehsal edirdi, bunu SSRİ-nin bütün respublikalarına verirdi. Amma indi vəziyyət necədir?

Həmin o peçlər, marten peçləri köhnəlibdir. Mən hələ 1970-ci illərdə onları elektrik peçləri ilə dəyişdirmək istəyirdim. Çünki onlar daha səmərəlidir. Ancaq bu, mümkün olmayıbdır. Biz hələ o vaxt onlardan o qədər də razı deyildik. Amma indi bunlar köhnəlibdir. İkinci tərəfdən, istehsal olunan məhsulun bazarı yoxdur. Bu məhsul hara gedirdi, biz bu boruları hara göndərirdik? Rusiyaya, Sibirə, neft çıxan yerlərə göndərirdik. Bu, neft hasilatı üçün idi. İndi isə bu yoxdur. Rusiyada olan iqtisadi böhran nəticəsində biz oraya heç bir şey sata bilmirik. Çünki pulları, maliyyə imkanları yoxdur ki, alsınlar. Deməli, bu zavodları, o cümlədən Sumqayıtdakı alüminium zavodunu, Gəncədəki gil-torpaq kombinatını, Mingəçevirdəki bir neçə zavodu işlətmək çətin olubdu.

Əli Bayramlı şəhəri vaxtilə «Şirvanneft» yaranandan sonra salınmış şəhərdir. Yəni, orada neft tapıldı, «Şirvanneft», [252-253] ondan sonra şəhər yarandı. Mən isə 1970-ci illərdə çalışdım ki, bu şəhər təkcə neft şəhəri olmasın. Müasir maşınqayırma zavodları gətirib bu şəhərdə yaratdıq. Biz həmin zavodları Moskvadan böyük çətinliklərlə aldıq, gətirdik, yaratdıq. Bunlar cihazqayırma, radiotexnika, başqa zavodlardır. Ancaq indi bu məhsulu satmaq mümkün deyildir, bunu istehsal etmək üçün başqa ölkələrdən, yəni keçmiş SSRİ-nin başqa yerlərindən xammal gətirmək mümkün deyildir. Bunlar, bu çətinliklər vardır.

Mən bununla demək istəmirəm ki, biz ümidsizik. Yox. Mən sadəcə, bu problemlərin səbəblərini bildirmək istəyirəm. Biz bunları açıq-aydın bilirik, heç kəsdən gizlətmirik. Biz Nazirlər Kabinetinin noyabrın 6-da keçirilmiş geniş iclasını televiziya ilə başdan-ayağa canlı yayımla bütün respublikaya yaydıq, - qoy xalq görsün ki, biz bütün problemləri nə cür müzakirə edirik. Hansı məsələnin nə qədər çətin olduğunu qoy xalq da bilsin, xalq da bizimlə bir yerdə olsun.

İndi müxalifət qüvvələri bu çətinliklərdən istifadə edib, ayrı-yarı müxalif qüvvələri, qrupları, təbəqələri qaldırmaq istəyirlər ki, «gəlin qalxaq, mübarizə aparaq». Mübarizə aparmaqla nəyə nail olacaqsan?

Birincisi, biz heç bir şeyə yol verməyəcəyik. Çünki biz bunların hamısını bilirik və lazımi tədbirlər görürük. İkincisi, siz burada öz şəxsi məqsədlərinizi daşıyırsınız. Biz isə ümumi xalqın iqtisadi, sosial problemləri ilə məşğuluq.

Bir sözlə, mən bununla onu demək istəyirəm ki, bizim həyatımızın bütün sahələrində nailiyyətlərlə yanaşı, çatışmazlıqlar, nöqsanlar da vardır. Bunların obyektiv səbəbləri də, subyektiv səbəbləri də vardır. Subyektiv səbəblərlə biz hamımız mübarizə aparmalıyıq. Bu bürokratizmdir, vəzifəli adamların öz vəzifələrinə məsuliyyətsiz yanaşmasıdır, vəzifələrindən sui-istifadə etməsidir, cürbəcür çirkin yollara getməsidir. Biz bunlarla mübarizə edirik və edəcəyik. Bütün bu [253-254] tələblər, fikirlər mənim noyabrın 19-da imzaladığım və mətbuatda dərc olunmuş sərəncamda öz əksini tapıbdır.

Bizim Yeni Azərbaycan Partiyasının üzvlərinin əksəriyyəti hakimiyyət orqanlarındadırlar - parlamentdədirlər, nazirliklərdə, yerli hakimiyyət orqanlarında işləyirlər. Ona görə Yeni Azərbaycan Partiyasının üzərinə ikiqat vəzifə düşür, bu partiyanın işi - partiyanın işi mücərrəd xarakter daşıya bilməz - Azərbaycan hökumətinin, dövlətinin işidir, Azərbaycanda sosial-iqtisadi problemlərin həll olunması, respublikamızda islahatların həyata keçirilməsi işidir.

Bunlara nail olmaq üçün partiyanın təşkilatlarını daha da gücləndirmək, fəallaşdırmaq lazımdır. Partiya daha da geniş təşkilatlanmalıdır. Ona görə də bir neçə təşkilati tədbirlər həyata keçirilməlidir. Bunları həyata keçirəndən sonra da partiyanın qurultayı keçirilməlidir. Belə hesab edirəm ki, partiyanın idarə heyəti bu məsələlərlə ciddi məşğul olacaqdır. Mən təsəvvür edirəm ki, məsələn, 1999-cu il may ayının sonunda, yaxud iyun ayının əvvəlində biz Yeni Azərbaycan Partiyasının qurultayını keçirə bilərik.

Görürəm ki, bunu çox istəyirsiniz. Mən anladım, - siz mənim fikrimi nəinki bəyənirsiniz, hətta alqışlayırsınız.

Beləliklə, qərar qəbul edilmiş hesab olunsun ki, partiyanın qurultayı mən dediyim o zamanda keçirilməlidir. Ancaq ona qədər çox təşkilati işlər görülməlidir. Hər bir şəhərdə, rayonda, hər bir ilk təşkilatda işlər aparılmalıdır. Mən hesab edirəm ki, partiyada daimi fəaliyyət göstərən təşkilatlar yaranmalıdır. Çünki bizim partiya indi əksərən iqtidarda olduğuna görə partiyanın fəallarının çoxu yüksək

dövlət, hökumət vəzifələri daşıyırlar. Şübhəsiz ki, dövlət, hökumət vəzifələri daşıyaraq partiya işinə ya o qədər diqqət yetirə bilmirlər, ya vaxt tapa bilmirlər, ya da, sadəcə olaraq, hesab edirlər ki, «partiyada var idim, indi dövlət işi var», partiya işini unudurlar. [254-255]

Mən görürəm ki, siz də belə fikirdəsiniz. Ona görə də biz indi qurultaya qədər bu qarşıdakı aylarda gərək çox dəqiq müəyyən edək ki, partiya təşkilatlarında kim hansı şərtlərlə işləyəcək və partiyanın işini aparacaqdır, partiyadan hakimiyyət orqanlarında kim işləyəcək və onların partiya təşkilatlarında iştirakı nədən ibarət olacaqdır. Amma bəzisi həm buradadır, həm oradadır, - indi, ola bilər, burada bir az çox, orada az işləyir, yaxud da ki, heç ikisində də yaxşı işləmir. Belə də ola bilər. Bu, bizim həm dövlət işinə, həm də partiyanın işinə zərər vurur.

Mən keçən görüşlərimdə də demişdim, indi də bildirmək istəyirəm ki, partiyanı təşkil edənlərə, əgər belə demək mümkün olsa, partiyanın təşkilatçılarına, veteranlarına, ağsaqqallarına biz həmişə hörmət etmişik və hörmət edəcəyik. Amma hər bir siyasi təşkilat gərək inkişafda olsun, hər bir siyasi təşkilat gərək daim gəncləşsin. Ona görə də Yeni Azərbaycan Partiyasında geniş fəaliyyət göstərmək üçün gənclərə daha da çox imkanlar vermək, şərait yaratmaq lazımdır.

Mən bilirəm, hiss edirəm ki, partiyanın artıq çox sağlam əqidəli, çox iradəli gənclər təşkilatı vardır. Bu gənclər təşkilatına çox əqidəli gənclər toplaşmışlar. Bu gənclər təşkilatı həmişə olmalıdır. Amma partiyanın strukturlarına və partiyanın əhatə etdiyi başqa yerlərə bu gənclər təşkilatından daha da cəsarətli gəncləri irəli çəkmək lazımdır. İmkan vermək lazımdır ki, onlar işləsinlər. Bizim müstəqil Azərbaycanın gələcəyi və Yeni Azərbaycan Partiyasının gələcəyi gənclərə məxsusdur, gənclərin əlində olmalıdır.

Hesab edirəm ki, qarşıdakı aylarda bu təşkilati işlərdə mənim bu fikirlərimi siz nəzərə almalısınız. Bilin ki, mən də bu partiya işlərindən geri çəkilməyəcəyəm, - öz iştirakımı da təmin edəcəyəm, qayğımı da göstərəcəyəm. Çünki mən Yeni Azərbaycan Partiyasını Azərbaycanın ictimai-siyasi həyatın[255-256]da ən güclü, ən səviyyəli, ən mütəfəkkir fikirli, ən tərəqqipərvər bir siyasi təşkilat kimi görürəm və Azərbaycanın gələcəyi də bu partiyanın fəaliyyətindən asılı olacaqdır.

Hörmətli dostlar, qonaqlar, xanımlar və cənablar!

Mən çox məmnunam ki, Yeni Azərbaycan Partiyası altı il müddətində belə bir böyük qüvvəyə çevrilibdir. Mən çox məmnunam ki, altı il bundan öncə bizim atdığımız ilk addımlar böyük bir nəticə veribdir. Mən çox məmnunam ki, bu gün bu salonda Yeni Azərbaycan Partiyasının nümayəndələri yüksək əhval-ruhiyyə ilə yaşayırlar.

Siz əmin ola bilərsiniz, Azərbaycanın bu günü, gələcəyi üçün prezident kimi mən və mənim ətrafımda olan şəxslər, o cümlədən Yeni Azərbaycan Partiyası, -biz çox işlər görürük, görməliyik və biz bu işləri görəcəyik. Bu işləri görmək üçün bizim artıq böyük təcrübəmiz vardır. Biz böyük sınaqlardan, çətinliklərdən keçmişik. Biz ümumi xalqın dəstəyini almışıq. Əhalinin, vətəndaşların əksəriyyəti Azərbaycan prezidentinin siyasətini dəstəkləyir və Yeni Azərbaycan Partiyasına rəğbətlə, hörmətlə münasibət göstərir. Bunlar hamısı bizim üçün çox böyük əsasdır, böyük imkandır. Biz bu imkanlardan səmərəli istifadə etməliyik. Mən sizin hamınıza bu yolda uğurlar arzulayıram. Sizə, Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, bütün Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Əmin ola bilərsiniz ki, Azərbaycanda sülhün, əmin-amanlığın qorunub saxlanması üçün bundan sonra da öz səylərimi əsirgəməyəcəyəm. Mən bütün həyatımı Azərbaycana, xalqa həsr etmişəm. Mən gələcək illərdə də yalnız və yalnız bu cür yaşayacağam, öz məsuliyyətimi bu cür həyata keçirəcəyəm.

Bizim ən ağır problemimiz işğal olunmuş torpaqların azad olunması və münaqişənin ləğv edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır. Mən bu barədə geniş danışmaq istəmirəm. Bunlar sadəcə, mətbuatdan sizə məlumdur ki, biz danışıqlar aparırıq. [256-257]

Minsk qrupunun son təklifləri bizi qane etmədi. Biz iki gün bundan öncə onlara cavab verdik və həmin təklifləri qəbul etmədik. Amma bu, o demək deyildir ki, biz danışıqları aparmayacağıq. Yox. Biz keçən ilin sentyabr ayında verilmiş təklifləri, Lissabon zirvə görüşünün prinsipləri əsasında verilmiş təklifləri qəbul etmişik. Ancaq iki ildir ki, Ermənistan bunları qəbul etmir. Görürsünüz, necə vəziyyət yaranıb. Ermənistan Lissabon zirvə görüşünün prinsiplərini qəbul etmir və heç yaxına buraxmır. Amma Azərbaycanın müxalifəti Lissabonda əldə etdiyimiz nailiyyətlərə görə bizi günahlandırır ki, «biz orada məğlub olmuşuq». Yox, orada heç kəs nə məğlub olub, nə qalib gəlibdir. İlk dəfə olaraq 1996-cı ilin dekabr ayında, ATƏT-in Lissabon zirvə görüşündə biz böyük bir nailiyyət əldə etdik - münaqişənin həll edilməsinin prinsipləri müəyyən olundu. Ancaq Ermənistan o prinsipləri indiyə qədər qəbul etmir. Keçən ilin sentyabr ayında həmin prinsiplər əsasında təkliflər verilmişdi, biz onu qəbul etdik, Ermənistan qəbul etmədi. Ondan sonrakı proseslər də sizə məlumdur.

Ancaq Minsk qrupu həmsədrlərinin indi verdiyi təklifi, o cümlədən «ümumi dövlət» anlayışını - ortaq dövlət, ümumi dövlət, birgə dövlət - biz heç vaxt qəbul edə bilmərik. Biz Dağlıq Qarabağa Lissabon zirvə görüşündə qəbul olunan prinsiplər əsasında, Azərbaycan dövləti daxilində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə razı olmuşuq. Bundan bir damcı da o tərəfə keçə bilmərik. Ona görə də biz o təkliflərdən imtina etdik. Ancaq biz danışıqları aparırıq və aparacağıq. Əminəm ki, biz münaqişəni sülh yolu ilə həll

edəcəyik, işğal olunmuş torpaqlar azad olunacaq və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz torpaqlarına qayıdacaqlar.

Sizə bütün işlərinizdə bir daha uğurlar arzulayıram.

Yaşasın Yeni Azərbaycan Partiyası!

Yaşasın demokratik, qüvvətli, müstəqil Azərbaycan! [257]

## XALQ ARTİSTİ RASİM OCAQOVA

Hörmətli Rasim Ocaqov!

Sizi – müasir Azərbaycan kinemotoqrafiyasının görkəmli nümayəndəsini anadan olmağınızın 65 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan kinosunda gözəl sənət əsərləri yaratmış mahir operator və kinorejissor kimi şöhrət qazanmısınız. Kino sənətinin incəliklərinə dərindən yiyələnərək, siz adları kino tariximizə qızıl hərflərlə yazılmış onlarla kinofilm yaratmısınız. Kinomuzun özünəməxsus ənənələrini ləyaqətlə davam etdirən bu filmlər tamaşaçıların rəğbətini qazanmışdır. Məhz sizin gərgin və məhsuldar əməyiniz sayəsində Azərbaycan kinosunun şöhrəti ölkəmizin hüdudlarından çox-çox uzaqlara yayılmışdır.

Çəkdiyiniz kinofilmlər milli-mənəvi dəyərlərimizin təbliğinə verdiyiniz böyük əhəmiyyəti təcəssüm etdirir. Öz məzmun və fikir dolğunluğu, rejissor və operator işinin kamilliyi ilə səciyyələnən əsərləriniz müxtəlif səviyyəli bir çox mötəbər kinofestivalın yüksək mükafatlarına layiq görülmüşdür.

Əminəm ki, böyük sənət yolunda qazandığınız zəngin təcrübədən istifadə edərək müstəqil Azərbaycanımızda kino sənətinin inkişafı və daha da çiçəklənməsi üçün əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni sənət uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 noyabr 1998-ci il*

[258]

## XALQ ARTİSTİ HƏSƏN MƏMMƏDOVA

Hörmətli Həsən Məmmədov!

Sizi - müasir Azərbaycan kinosunun və milli teatrımızın görkəmli nümayəndəsini anadan olmağınızın 60 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan teatr sənətinin zəngin ənənələri sizin yaradıcılığınızla müasir kinomuzda öz təcəssümünü tapmışdır. 60-70-ci illərdə ekran həyatı verdiyiniz parlaq obrazlar qalereyası kino salnaməmizin unudulmaz səhifələrini təşkil edir. Fitri istedad və zəhmətsevərliklə səciyyələnən yaradıcılığınız sizə kişi rolunun ən yaxşı ifaçısı kimi kino həvəskarlarının dərin hörmət və rəğbətini qazandırmışdır. Böyük aktyorluq məharətiniz sayəsində Azərbaycan kinosu ölkəmizin hüdudlarından kənarda da şöhrət tapmışdır.

Xalqımızın keçmiş və müasir tarixi çəkildiyiniz rolların əsas ilham mənbəyi olmuşdur. Siz müasirlərimizin və tarixi qəhrəmanlarımızın obrazlarını tam təbiiliyi və dolğunluğu ilə ekranda canlandırmaqla milli-mənəvi dəyərlərimizin təbliğində və yetişməkdə olan nəslin qəhrəmanlıq, vətənpərvərlik ruhunda tərbiyəsində böyük xidmətlər göstərmisiniz.

Dədə Qorqud və Bəxtiyar, Əsgər və Qaraş kimi qəhrəmanlarımız azərbaycanlı mentalitetinin bütün incəliklərini özündə əks etdirir. Yaratdığınız obrazlar öz fikir və düşüncələrini tamaşaçıya təkcə sözlə deyil, həm də təbiətinizə xas olan təmkinlilik və həyata fəlsəfi münasibəti ifadə edən müxtəlif bədii vasitələrlə çatdıra bilir.

Müxtəlif illərdə layiq görüldüyünüz yüksək dövlət mükafatları və fəxri adlar yaradıcılığımıza olan ümumxalq məhəbbətinin aydın ifadəsidir. [259-260]

Əminəm ki, böyük sənətkar təcrübəsi toplamış kamil bir aktyor kimi müstəqil Azərbaycanımızın mədəniyyətinin inkişafı və onun uca zirvələr fəth etməsi yolunda bundan sonra da səmərəli fəaliyyət göstərəcək və pərəstişkarlarınıza yeni-yeni sevinclər bəxş edəcəksiniz.

Sizə xoşbəxtlik və cansağlığı, sənət yollarında böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 noyabr 1998-ci il*
[260]

## ATƏT-in HAZIRKI SƏDRİ, POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ BRONİSLAV GEREMEK İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*25 noyabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Cənab Geremek, mən Sizi səmimiliklə, mehribanlıqla salamlayır, hörmətli qonağın respublikamıza səfərindən çox məmnun qaldığımı bildirirəm, ATƏT-in üzvü olan müstəqil Azərbaycan dövlətinin bu beynəlxalq təşkilatın fəaliyyətinə həmişə böyük əhəmiyyət verdiyini nəzərə çarpdırıram. Biz ATƏT-lə bütün sahələrdə əməkdaşlığın daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetiririk.

Polşa ilə Azərbaycan arasında yaranmış dostluğumuzu və qarşılıqlı surətdə faydalı əməkdaşlığımızı razılıqla qeyd edirəm. 1997-ci ilin avqustunda Polşaya rəsmi səfərimi məmnunluqla xatırlayır və həmin səfər zamanı imzalanmış sənədləri, xüsusilə prezident Heydər Əliyevin və prezident Aleksandr Krasnevskinin imzaladıqları «Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi haqqında bəyannamə»ni yüksək qiymətləndirirəm.

Respublikalarımızın sıx əlaqələrinin böyük perspektivləri olduğunu nəzərə çarpdırmaq istəyirəm, xüsusən iqtisadi əməkdaşlığı inkişaf etdirmək, Azərbaycan neftinin ixracı, gəmi təmiri, neft kimyası, TRASEKA proqramının həyata keçirilməsində Polşanın iştirakı və bir çox digər sahələrdə [261-262] ölkələrimizin çox səmərəli münasibətlərini daha da genişləndirmək imkanları çox böyükdür.

Tarixi İpək yolunun bərpası üzrə Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramının həyata keçirilməsi üçün 1998-ci il sentyabrın 7-8-də Bakıda təşkil olunmuş beynəlxalq konfransda 32 dövlətin nümayəndələri, o cümlədən Polşa böyük nümayəndə heyəti ilə iştirak etmişdir. Bilirsiniz ki, Avropa-Qafqaz -Asiya nəqliyyat dəhlizi bütün dünya ölkələri arasında daha sıx əlaqələr qurulmasında çox böyük əhəmiyyət daşıyır.

Polşa prezidentinin 1999-cu ildə Azərbaycana rəsmi səfərini respublikamızda səbirsizliklə gözlənildiyini vurğulayıram. Cənab Gvasnevski ilə birlikdə cənab Geremekin də ölkəmizə yenidən gəlməsini arzulayıram.

Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in fəaliyyətinə respublikamızın xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdırır və indiyə qədər bu sahədə görülmüş işləri qiymətləndirirəm. Azərbaycan müstəqil bir dövlətdir və bu müstəqillik əbədi və dönməzdir. Lakin ölkəmiz müstəqilliyə nail olduqdan sonra problemlərlə qarşılaşmışdır. Onlardan ən ağrılısı Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək məqsədi ilə Ermənistanın ölkəmizə qarşı etdiyi hərbi təcavüzdür. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan artıq vətəndaşımız yurd-yuvasından zorla qovulmuşdur və əksəriyyəti ağır vəziyyətdə çadırlarda yaşayır.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Minsk qrupu çərçivəsində, zirvə görüşlərində və xarici işlər nazirlərinin görüşlərində bu beynəlxalq təşkilat çox böyük səylər göstərmiş, 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə görüşündə qəbul olunmuş qərardan razı qaldığımı bildirir, 1996-cı ilin dekabrında Lissabon zirvə görüşündə müəyyən edilmiş [262-263] prinsipləri yüksək qiymətləndirirəm. Biz bu prinsipləri əsas olaraq qəbul etmişik. Belə hesab edirik ki, Minsk qrupunun həmsədrləri məhz bu prinsiplər əsasında böyük sülh sazişinin hazırlanmasına nail ola bilərlər.

Minsk qrupu həmsədrlərinin - Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın bu münaqişənin aradan qaldırılması üçün gördüyü işləri, irəli sürdüyü təklifləri nəzərdən keçirərək bildirirəm. 1997-ci ilin sentyabrında həmsədrlərin münaqişənin iki mərhələdə həll olunması barədə verdikləri təklifləri biz prinsip etibarilə qəbul etdik. Məlumatlar gəldi ki, Ermənistan tərəfi də bunları qəbul edir. Lakin sonradan həmin təklifləri həyata keçirmək mümkün olmadı. Müəyyən səbəblərdən həmsədrlərin işi bir müddət dayandı. Ancaq biz həmin təkliflərin həyata keçirilməsi ilə əlaqədar Minsk qrupunun həmsədrlərinə müraciətlər, xahişlər etdik. Onlar vəd verdilər ki, yeni təkliflər hazırlayıb təqdim edəcəklər.

Biz həmsədrlərin 1998-ci il noyabrın 9-da verdikləri yeni təklifləri çox diqqətlə öyrənmişik, onlara çox məsuliyyətlə yanaşmışıq. Biz noyabrın 9-da axşam Minsk qrupunun həmsədrlərinə bəyanat vermişik ki, bu təkliflər Azərbaycan tərəfindən qəbul edilə bilməz. Onlar söz verdilər ki,bizim fikirlərimizi nəzərə alacaqlar. Gələn məlumatlardan aydın oldu ki, Ermənistan tərəfi həmin təklifləri prinsip etibarilə qəbul edib. Biz bu təkliflər haqqında öz fikrimizi Minsk qrupunun həmsədrlərinə noyabrın 19-da rəsmi olaraq yazılı bildirmişik.

Azərbaycanın bu təklifləri nə üçün qəbul etmədiyini bildirərək, qeyd edirəm ki, bir çox dövlətlərin çox yaxından yardımı və dəstəyi nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini

işğal etmişdir, bu torpaqlardan didərgin düşmüş bir milyondan çox insan altı ildir ki, çadırlarda ağır vəziyyətdə yaşayır. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Ermənistan tərəfindən [263-264] işğal edilibdir. Amma Azərbaycan öz torpaqlarının hansısa bir hissəsini başqa dövlətə heç vaxt verə bilməz. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq normaları, o cümlədən ATƏT-in prinsipləri ilə qorunur və qorunmalıdır.

Biz kompromisə gedərək, Dağlıq Qarabağa Azərbaycanın tərkibində beynəlxalq praktikada, beynəlxalq hüquq normalarında mövcud olan yüksək özünüidarə statusu verilməsinə razı ola bilərik. Ancaq indi verilən yeni təkliflərin əsas prinsipi «ümumi dövlət» prinsipidir ki, nə beynəlxalq təcrübədə, nə də beynəlxalq hüquq normalarında belə bir dövlət forması yoxdur. Bu təkliflərdən belə məna çıxır ki, Azərbaycan mövcud olmayan və heç kəs tərəfindən tanınmayan «Dağlıq Qarabağ Respublikası» ilə ümumi dövlət yaratmalıdır. Müstəqil Azərbaycan Respublikası öz tərkibində, müəyyən səbəblərdən və Ermənistanın ölkəmizə qarşı etdiyi hərbi təcavüzün, apardığı işğalçılıq siyasətinin nəticəsində müəyyən sərbəstlik almış Dağlıq Qarabağla ümumi dövlət yarada bilməz. Bu təklif Azərbaycan dövlətinin, xalqının milli mənafelərinə ziddir. Azərbaycana edilən təcavüzü, ölkəmizə vurulan zərbələri, respublikamızın böyük məhrumiyyətlərlə üzləşməsini görənlər Azərbaycana qarşı gərək belə hərəkət etməsinlər.

Yeni təkliflərin Azərbaycanla razılaşdırılmadan irəli sürülməsindən təəssüfləndiyimi bildirirəm. Müharibədə atəşkəs rejimi 1994-cü ildən bəri davam edir. Əmin olduğumu bildirirəm ki, Dünya Birliyinin və ATƏT-in birgə səyləri nəticəsində ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerlərinə qayıdacaq, Dağlıq Qarabağ isə Azərbaycanın tərkibində yüksək özünüidarə statusu olaraq normal yaşayacaqdır.

**Bronislav Geremek**: Respublikanıza səfərimdən və prezident Heydər Əliyevlə görüşümdən çox məmnun qaldığımı bildirirəm. ATƏT Azərbaycanın ərazi bütövlüyü[264-265]nün təmin edilməsi, qaçqınların öz daimi yşayış yerlərinə qayıtması, bölgədə sülhün, sabitliyin və ədalətin bərqərar olunması üçün öz dəstəyini verəcəkdir.

Mən Sizin, cənab prezident, fikirlərinizi məmnuniyyətlə qəbul etdiyimi vurğulayıram. Minsk qrupunun işini dəstəklədiyinizə görə təşəkkür edirəm və Azərbaycanın sülh təşəbbüslərini, atəşkəs rejiminin davam etməsini yüksək qiymətləndirirəm.

Sizin 1997-ci ildə Polşaya rəsmi səfərinizin çox yüksək nəticələr verdiyini vurğulayır və ümidvar olduğumu bildirirəm ki, prezident Kvasnevskinin Azərbaycana qarşıdakı səfəri ölkələrimiz arasındakı tərəfdaşlığın daha da möhkəmləndirilməsinə, siyasi, iqtisadi, mədəni və digər sahələrdəki əlaqələrin ardıcıl surətdə inkişafına kömək edəcəkdir. [265]

## ATƏT-in HAZIRKI SƏDRİ, POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ BRONİSLAV GEREMEK İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*25 noyabr 1998-ci il*

Hörmətli cənab nazir, hörmətli cənab sədr!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

ATƏT-in hazırkı sədri, nazir cənab Geremekin başçılığı ilə ATƏT-in nümayəndə heyətinin Azərbaycana gəlməsi ölkəmizin həyatında əlamətdar bir hadisədir. Azərbaycan ATƏT-in fəaliyyətinə həmişə çox böyük əhəmiyyət verir, müstəqil dövlət kimi ATƏT-in üzvü olmağından çox məmnundur. Biz bundan sonra da ATƏT-lə əməkdaşlıq edib, bütün sahələrdə Azərbaycan dövlətinin quruculuğunu və ölkədə ictimai-siyasi həyatı ATƏT-in tələbləri səviyyəsinə qaldırmaq istəyirik.

Cənab Geremek Polşanın xarici işlər naziridir və Polşa ilə Azərbaycan arasında da dostluq, əməkdaşlıq əlaqələri yaranıb və inkişaf edir. Bu əlaqələrin inkişaf etməsi üçün 1997-ci ilin avqust ayında mənim - Azərbaycan prezidentinin Polşaya rəsmi səfəri zamanı çox səmərəli işlər görmüşük və Polşa ilə Azərbaycan arasında bir çox mühüm sənədlər imzalanıbdır. [266-267] O cümlədən Polşa-Azərbaycan dostluq əlaqələrinin inkişaf etdirilməsi haqqında Polşa prezidenti cənab Kvasnevski ilə Azərbaycan prezidenti birgə bəyannamə imzalayıblar.

Mən prezident cənab Kvasnevskini Azərbaycana rəsmi səfərə dəvət etmişəm və biz 1999-cu ildə onun Azərbaycana səfərini səbirsizliklə gözləyirik. Arzu edirəm ki, prezident cənab Kvasnevski ilə birlikdə nazir cənab Geremek də yenidən Azərbaycana gəlsin.

Biz bu gün nazirlə təkbətək görüşdə Polşa - Azərbaycan əlaqələri haqqında çox geniş fikir mübadiləsi etdik. Mən çox məlumatlar verdim. Bizim ümumi fikrimiz belə oldu ki, Polşa ilə Azərbaycan arasında əlaqələr yaxşı səviyyədədir, uğurla inkişaf edir və bunların çox gözəl gələcəyi var. Xüsusən iqtisadi əlaqələri inkişaf etdirmək üçün böyük imkanlar var. O cümlədən, Azərbaycanın nefti və qazının ixracı barəsində Polşa ilə Azərbaycan arasında gələcəkdə çox səmərəli əlaqələr yaratmaq olar. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan 1997-ci ilin avqust ayında Varşavada apardığımız danışıqların əsasında bu istiqamətdə öz işlərini davam etdirəcəkdir.

ATƏT-in indiki sədri cənab Geremek ilə bizim təkbətək danışıqlarımızın çox hissəsi Ermənistan - Azərbaycan münaqişəsinin ATƏT çərçivəsində həll edilməsi məsələlərinə həsr olundu. Biz ATƏT-in bu sahədə fəaliyyətinə çox böyük əhəmiyyət veririk və indiyə qədər görülən işləri qiymətləndiririk.

Altı il bundan öncə, 1992-ci ildə ATƏT Ermənistan - Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək üçün öz tərkibində Minsk qrupu yaradıbdır. Ötən illərdə biz Minsk qrupu ilə çox səmərəli əməkdaşlıq etmişik. ATƏT həm Minsk qrupu çərçivəsində, həm də ATƏT-in zirvə görüşlərində və xarici işlər nazirlərinin [267-268] görüşlərində Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün çox səylər qoymuşdur.

1994-cü ilin dekabr ayında ATƏT-in Budapeşt zirvə görüşündə qəbul olunmuş qərarı biz Ermənistan – Azərbaycan münaqişəsinin həlli sahəsində irəliyə atılan dəyərli bir addım kimi qiymətləndirmişik. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün prinsiplər müəyyən edilmişdir. Biz bu prinsipləri əsas olaraq qəbul etmişik. Hesab edirik ki, Minsk qrupunun həmsədrləri bu prinsiplərin əsasında böyük sülh sazişinin hazırlanmasına nail ola bilərlər.

Təəssüflər olsun ki, ATƏT-in Lissabon zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa o qədər də fəal işləməmişlər, işlər biz istədiyimiz səviyyədə getməyibdir. Ancaq eyni zamanda Minsk qrupunun həmsədrləri 1997-ci ilin iyun ayında Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün təkliflər vermişlər və biz bu təklifləri prinsip etibarilə qəbul etmişdik. Ermənistan tərəfi bu təklifləri qəbul etmədiyinə görə Minsk qrupunun həmsədrləri 1997-ci ilin sentyabr ayında yeni təkliflər vermişdilər. Bu təkliflər məsələnin iki mərhələdə həll olunmasını nəzərdə tutmuşdu. Biz o təklifləri də prinsip etibarilə qəbul etdik. Sentyabr - oktyabr aylarında Ermənistan tərəfindən də məlumatlar gəldi ki, onlar da bunu prinsip etibarilə qəbul edirlər. Sonra isə bu təklifləri

həyata keçirmək mümkün olmadı. Ermənistanın rəhbərliyində baş vermiş hadisələrə və başqa səbəblərə görə Minsk qrupu həmsədrlərinin işi müəyyən qədər dayandı.

Ancaq biz Minsk qrupunun həmsədlərinə təkliflərin həyata keçirilməsi ilə əlaqədar həmişə müraciətlər, xahişlər etmişik. Minsk qrupunun həmsədrləri də bizə vədlər veriblər ki, onlar yeni təkliflər hazırlayıb təqdim edəcəklər. [268-269]

Bu il, 1998-ci il noyabr ayının 9-da Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın nümayəndələri Azərbaycanda olmuşlar və məsələnin həll edilməsi üçün yeni təkliflər vermişlər. Biz o təklifləri çox diqqətlə, qayğı ilə öyrənmişik, onlara çox məsuliyyətlə yanaşmışıq. Ancaq bu təkliflərin Azərbaycan tərəfindən qəbul edilə bilməməsi haqqında noyabr ayının 9-da axşam Minsk qrupunun həmsədrlərinə bəyanat vermişik.

Biz Minsk qrupunun həmsədrlərinə izah etdik ki, onların verdikləri yeni təklifləri nə üçün qəbul edə bilmirik. Yəni, biz o yeni prinsipi qəbul edə bilmirik. Onlar da bizə söz verdilər ki, bu fikirlərimizi nəzərə alacaqlar. Sonra Minsk qrupunun həmsədrləri Ermənistanda olmuşlar. Gələn məlumatlardan belə anladıq ki, Ermənistan tərəfi prinsip etibarilə o təklifləri qəbul edibdir. Biz noyabr ayının 9-da verdiyimiz şifahi cavabla yanaşı, noyabrın 19-da bu təkliflər haqqında öz fikrimizi Minsk qrupunun həmsədrlərinə rəsmi olaraq, yazılı bildirmişik.

Nazir cənab Geremek ilə təkbətək danışığımız zamanı bu barədə çox geniş fikir mübadiləsi apardıq. Mən hörmətli sədrə, nazirə çox ətraflı məlumat verdim ki, Azərbaycan nə üçün bu təklifləri qəbul edə bilməz.

Bu gün burada çox böyük saylı nümayəndə heyəti, mətbuat nümayəndələri var. Ona görə mən o təklifləri bizim qəbul edə bilməməyimizin səbəblərini aydınlaşdırmaq istəyirəm.

Məlumdur ki, ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin həll olunması üçün pinsiplər müəyyən edilmişdir. O prinsiplərdən biri də Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarə hüququ, statusu verilməsidir. Biz bu prinsipə razılığımızı vermişik, yəni hökumət, dövlət, Azərbaycanın prezidenti buna razılıq veribdir. Amma cəmiyyətdə hamı eyni fikirdə deyildir. Azərbay[269-270]can cəmiyyətində çoxları hesab edir ki, buna razılıq vermək lazım deyildi və ona görə də bizim bu fikrimizə müxalifdirlər.

Ancaq bunlara baxmayaraq, biz vəziyyətdən çıxmaq, bölgəmizdə sülh yaratmaq və torpağımızın işğal olunmuş hissəsini - Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, - azad etmək, işğal olunmuş torpaqlardan zorla çıxarılmış bir milyon azərbaycanlının, Azərbaycan vətəndaşlarının öz yerinə-yurduna qayıtması üçün kompromisə gedərək bu prinsipə razılıq vermişik. Biz bu barədə Minsk qrupunun həmsədrləri ilə dəfələrlə danışmışıq, Ermənistanın rəhbərləri ilə danışmışıq. Bu gün də mən deyirəm ki, əgər biz Dağlıq Qarabağa özünüidarə statusu verilməsinə razılıq veririksə, dünyada, beynəlxalq praktikada, beynəlxalq hüquq normalarında mövcud olan ən yüksək statusu Dağlıq Qarabağa verməyə razı ola bilərik. Nəzərə alaraq ki, bu, Azərbaycanın tərkibində olacaqdır.

Ancaq indi verilən yeni təkliflərin əsas prinsipi «ümumi dövlət» prinsipidir. Bu, rusca daha da yaxşı anlaşılır - «obşeye qosudarstvo». Bu, nə beynəlxalq təcrübədə var, nə də beynəlxalq hüquq normalarında. Bu, yeni icad olunmuş bir dövlət formasıdır. Şübhəsiz ki, yeni icad edilmiş hər bir şey də yaxşı ola bilər. Ona görə mən bunu pisləmək istəmirəm ki, bu, yeni icad edilib, indiyə qədər heç yerdə olmayıbdır. Söhbət bunun məzmunundan gedir. Elə məzmunu da onun özünü əks etdirir: «ümumi dövlət». Verilən təkliflərdən belə çıxır ki, - orada beləcə də yazılıbdır, - «Dağlıq Qarabağ Respublikası» Azərbaycan ilə birlikdə «ümumi dövlət» yaradır.

Məlumdur ki, Azərbaycan dövləti mövcuddur. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini əldə edib və müstəqil dövlət kimi bütün beynəlxalq təşkilatlarda tanınıb, o cümlədən ATƏT-də təmsil olunubdur. Amma bu təklifdən belə məna çıxır ki, Azərbaycan «Dağlıq Qarabağ Respublikası»nı - hələ mövcud olmayan, orada faktiki bir şey var, amma bir [270-271] respublika kimi onu heç kəs tanımayıb, biz də tanımamışıq, - guya tanımalıdır və biz onunla birlikdə «ümumi dövlət» yaratmalıyıq.

Burada da tənqid ediləsi çox müddəalar var, ancaq bizim əsas etirazımız bunadır. Biz razı ola bilmərik ki, Azərbaycan dünyada müstəqil dövlət olduğu bir zamanda öz tərkibində, ərazisində, müəyyən səbəblərdən və Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzün, Azərbaycana qarşı aparılan işğalçılıq siyasətinin nəticəsində müəyyən sərbəstlik almış Dağlıq Qarabağ Azərbaycanla birlikdə bir dövlət yaratsın. Bu təklif Azərbaycan dövlətinin, Azərbaycan xalqının milli mənafelərinə zidd olan təklifdir. Mən çox təəccüb edirəm ki, Minsk qrupunun həmsədrləri bizimlə bir neçə il əməkdaşlıq edərək, indi qəflətən belə, Azərbaycan üçün heç bir vəchlə qəbul oluna bilməyən təklif irəli sürüblər. Belə təsəvvür yaranır ki, kimsə, nəyə görəsə, nəyin bahasına olur-olsun, bu məsələni guya həll etmək istəyir. Son on ildə Ermənistanın Azərbaycana təcavüzü başlayandan indiyə qədər Azərbaycana vurulan zərbələri, ölkəmizin həyatında baş vermiş hadisələri görən adam və Azərbaycanın böyük məhrumiyyətlərlə üzləşməsini görənlər gərək Azərbaycana qarşı belə hərəkət etməsinlər.

Doğrudur, bəzi səbəblərdən Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Bunun nəticəsində həm işğal olunmuş torpaqlarda Azərbaycanın varidatı dağıdılıb, həm də oradan - bu torpaqlardan didərgin düşmüş bir milyondan artıq insan altı ildir ki, çadırlarda, ağır vəziy-

yətdə yaşayır. Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilib, faktiki olaraq Ermənistanla birləşibdir. Bu da bugünkü reallıqdır. Amma bunlar hamısı hərbi təcavüz nəticəsində olmuşdur. Bu, güclünün gücsüzə vurduğu zərbələrin nəticəsində olmuşdur və [271-272] məlumdur ki, bir çox dövlətlərin Ermənistana çox yaxından yardımı və dəstəyi nəticəsində baş vermişdir.

Bəli, Azərbaycan belə yaralar alıbdır. Amma Azərbaycan heç vaxt öz torpağının hansısa bir hissəsini başqa dövlətə verə bilməz. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq normaları, o cümlədən ATƏT-in prinsipləri ilə qorunur və qorunmalıdır. Ərazi bütövlüyü formal xarakter yox, faktiki xarakter, suverenlik xarakteri daşımalıdır. Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqlarının 20 faizinin işğal olunması və işğalçı ordunun əlində qalması gərək təkcə Azərbaycanı yox, bütün dünya birliyini, o cümlədən ATƏT-in bütün üzvlərini narahat etsin. Xüsusən, ATƏT-in Minsk qrupunun üzvləri, Minsk qrupunun həmsədrləri bu işlərə gərək çox məsuliyyətlə yanaşsınlar.

Ona görə də biz bu təklifləri qəbul edə bilmərik. Doğrudur, biz istəyirik ki, müharibə qurtarsın, sülh olsun. Biz 1994-cü ildə atəşkəs haqqında saziş imzalamışıq. Dörd il yarımdır ki, atəşkəs rejimini qoruyub saxlamışıq və bu gün də bəyan edirəm ki, biz atəşkəs rejimini qoruyacağıq. Hesab edirik ki, bunlar hamısı müvəqqəti xarakter daşıyır. Şübhə etmirik ki, Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcək, Azərbaycan vətəndaşları öz yerinə-yurduna qayıdacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və Dağlıq Qarabağ da Azərbaycanın tərkibində yüksək özünüidarə statusu alaraq normal yaşayacaqdır. Biz buna inanırıq. Ancaq bu məsələni həll etmək üçün təklif olunan bu yolları qəbul edə bilmərik.

Bəzi fikirlər yaradırlar ki, guya bu təklif əvvəl Azərbaycan tərəfi ilə razılaşdırılıbdır. Bu, düzgün olmayan məlumatdır. Dünən Rusiyanın xarici işlər naziri cənab İvanov mənə telefon etmişdi. O mənə dedi ki, Minsk qrupunun həmsədrləri bu təkliflər barədə ona məruzə edərkən belə anlatmışlar ki, guya Azərbaycan tərəfi bununla razıdır və qəbul edə bilər. Mən ona dedim ki, bunlar hamısı yanlış fikirlərdir. Bu tək[272-273]liflər Azərbaycan tərəfi ilə heç vaxt razılaşdırılmayıbdır. Biz bu təklifləri noyabr ayının 9-da almışıq və dərhal öz mövqeyimizi bildirmişik, öz cavabımızı vermişik.

Mən bu məsələlər barəsində ATƏT-in sədrinə, xarici işlər naziri cənab Geremekə ətraflı məlumat vermişəm. Bəlkə də bunları onun üçün təkrar edirəm. Ancaq bunları burada deməyə məcburam. Cənab Geremek, mən sizdən xahiş etdim və bir daha xahiş edirəm ki, Azərbaycanın bu probleminə çox diqqətlə və qayğı ilə yanaşasınız. Biz o təklifləri qəbul edə bilmərik. İndiyə qədər çox təkliflər olub, - hansıları ki, biz qəbul etməmişik, Ermənistan qəbul edib; ya Ermənistan qəbul etməyib, biz qəbul etmişik. Minsk qrupu isə sonra öz işini davam etdiribdir. Ancaq indi, ATƏT-in xarici işlər nazirlərinin dekabr ayının 2-də Osloda keçiriləcək görüşü ərəfəsində belə bir təkliflə bizi ağır vəziyyətdə qoymaq ədalətsizlikdir. Mən ümid edirəm ki, Minsk qrupunun üzvləri, ATƏT-in üzvləri, xüsusən ATƏT-in sədri Geremek bizim bu fikirlərimizə diqqətlə, qayğı ilə yanaşacaqdır. Təşəkkür edirəm.

**Bronislav Geremek**: Cənab prezident,bundan əvvəlki görüşə və indiki görüş zamanı ifadə etdiyiniz mövqeyə görə Sizə minnətdarlığımı bildirirəm. Mənim sədrliyim ərzində Azərbaycana gələn ATƏT missiyası hər şeydən əvvəl, bu ölkədə sülhə və sabitliyə öz sədaqətini bildirmək üçün gəlibdir. ATƏT-in missiyası buraya gəlib ki, Azərbaycan xalqının düşdüyü vəziyyəti, çəkdiyi bəlaları anladığını bildirsin. Biz bu problemi həqiqətən anlayır, hiss edirik. Bu problemin həll olunması üçün bu çətinliklərin başa düşülməsi həqiqətən vacibdir.

Cənab prezident, məndə belə qənaət var ki, Sizin ölkəyə sülh lazımdır. Bu, elə bir sülh olmalıdır ki, hər iki tərəfin maraqları gözlənilsin. Dağlıq Qarabağ ermənilərinin milli özünüdərki gözlənilsin, eyni zamanda Azərbaycanın işğal olunmuş əraziləri geri qaytarılsın. Azərbaycanın qaçqınlarına [273-274] və köçkünlərinə öz daimi yaşayış yerlərinə qayıtmaq imkanı yaradılsın. Mən tam əminəm ki, ATƏT bu problemin həllində öz qüvvələrini əsirgəməyəcək, sülhün, sabitliyin və ədalətin bərqərar olması üçün öz dəstəyini verəcəkdir.

Cənab prezident, bir qədər əvvəl Siz Minsk qrupu həmsədrlərinin son təkliflərinə öz münasibətinizi bildirdiniz. ATƏT-in hazırkı sədri kimi mən Sizin dediklərinizin hamısını nəzərə alacağam. Mən böyük məmnuniyyətlə Sizin sözlərinizdən eşitdim ki, sülh uğrunda işinizi davam etdirəcəksiniz, Minsk qrupunun səylərini dəstəkləyirsiniz və atəşkəs rejimi davam etdiriləcəkdir. Başa düşürəm ki, Siz bu münaqişəyə qatılmış tərəflər arasında Minsk qrupunun simasında gələcək danışıqların sxemini görürsünüz. Cənab prezident, mən elə bilirəm ki, biz hamımız sülh danışıqlarının bərpası üçün şərait yaranması uğrunda işimizi davam etdirəcəyik.

Polşanın xarici işlər naziri kimi isə demək istəyirəm ki, Polşaya Sizin rəsmi səfəriniz çox yaxşı nəticələndi. Ümid edirəm ki, prezident Kvasnevskinin Azərbaycana səfəri yaranmış dialoqun davamı olacaq və artıq yaranmış əlaqələri – mədəni, siyasi və iqtisadi əlaqələri yeni səviyyəyə qaldıracaqdır.

Cənab prezident, Sizin icazənizlə mən bir neçə spesifik məsələlərə toxunmaq istəyirəm. Lakin hesab edirəm ki, mətbuat nümayəndələrinin burada olması həmin məsələləri müzakirə etmək üçün yaxşı mühit yaratmır.* [274]

---

* Sonra görüş jurnalistlərin iştirakı olmadan davam etdirildi.

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSU ARASINDA MEMORANDUM İMZALANDIQDAN SONRA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN KEÇİRİLMİŞ BRİFİNQDƏ BƏYANAT

*Prezident sarayı*

*25 noyabr 1998-ci il*

*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Hörmətli xanımlar, cənablar!
Hörmətli mətbuat nümayəndələri!

Siz hamınız bizim danışıqlarımızda, yəni ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri cənab Geremek və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə danışıqlarımızda iştirak etmisiniz. Ona görə də eşitdiyiniz sözləri yenidən təkrar etməyə ehtiyac yoxdur.

Özünüz eşitdiniz və bilirsiniz ki, bizim danışıqlarımızda əsas yeri Ermənistan– Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına dair ATƏT-in Minsk qrupunun təklifləri və bu barədə Azərbaycanın mövqeyinin bildirilməsi tutmuşdur. Mən danışıqlarımızdan məmnunam və ümidvaram ki, ATƏT-in fəaliyyətdə olan sədri cənab Geremek Azərbaycanın mövqeyini qəbul edəcək və bəyan etdiyi kimi, bunları gələcək işlərdə nəzərə alacaqdır. Sizin şahidliyinizlə ATƏT ilə Azərbaycan arasında bir memorandum imzaladıq. Bu [275-276] memorandum da ATƏT ilə gələcək əməkdaşlığımızın əsas istiqamətlərini müəyyən edir. Hesab edirəm, bu da Azərbaycan üçün əlamətdar hadisədir.

Biz Polşa - Azərbaycan əlaqələri haqqında da ətraflı danışdıq və ümid edirəm ki, əlaqələrimiz gələcəkdə də daha sürətlə inkişaf edəcəkdir.

Azərbaycana göstərdiyi diqqətə və bu səfərə görə ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri cənab Geremekə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə bir daha təşəkkür edirəm.

*ATƏT-in hazırkı sədri Bronislav Geremekin bəyanatı*

Mən ümid edirəm ki, Azərbaycana səfərim Azərbaycanla ATƏT arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Azərbaycan xalqının əzablarını, əziyyətlərini yaxşı bilirəm, ona görə də regionda və Azərbaycanda sülh prosesinə kömək etməyə çalışıram. Mən çox şadam ki, geri qayıdarkən, ATƏT-ə dönərkən prezident Əliyevin görüş zamanı ifadə etdiyi fikri ATƏT-dəkilərə çatdıra biləcəyəm. Prezident Əliyev görüş zamanı dedi ki, o, atəşkəs rejiminə sadiqdir, Azərbaycan atəşkəs rejiminə sadiq olacaq və sülh əldə etmək üçün qüvvəsini əsirgəməyəcəkdir.

Biz çalışacağıq ki, Dağlıq Qarabağ probleminin həll olunması üçün yollar axtarıb arayaq. Sülh yolu ilə həll Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağdakı ermənilərin milli özünüdərkini nəzərə alacaqdır.

Mən həm də çox şadam ki, biz hərbi əsirlərin dəyişdirilməsi haqqında müzakirələr apardıq. Cənab prezident Əliyev əsirlərin dəyişdirilməsi haqqında öz fikrini açıqladı və bu işə sadiq olduğunu bildirdi. [276-277]

Çox şadam ki, Azərbaycana bu səfərim zamanı mən yalnız ATƏT-in nümayəndəsi kimi deyil, eyni zamanda Polşanın xarici işlər naziri kimi də çıxış elədim. Prezident Əliyevin Polşaya səfərindən sonra biz çox ümid edirik ki, gələn il prezident Kvasnevski də Azərbaycanda qəbul olunacaqdır. Polşa ilə Azərbaycan arasında iqtisadi, mədəni və siyasi əlaqələr qüvvətlənə bilər. Çox sağ olun. [277]

## XALQ RƏSSAMI TAHİR SALAHOVA

Hörmətli Tahir Salahov!

Sizi – dünya şöhrətli Azərbaycan rəssamını 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli mədəniyyətimizin inkişafında yeni bir mərhələ təşkil edən yaradıcılığınız mövzu və janr zənginliyi, bədii forma rəngarəngliyi və estetik kamilliyi ilə səciyyələnir. İncəsənətimizin zəngin ənənələrini Avropa rəssamlıq sənətinin nailiyyətləri ilə birləşdirən əsərləriniz özündə Qərb və Şərq mədəniyyətlərinin üzvü vəhdətini təcəssüm etdirir.

Siz sənət aləminə öz dünyagörüşü olan, həyatın və zamanın nəbzini duyan kamil sənətkar kimi inamla qədəm qoymusunuz. Hələ ali təhsili başa vurarkən yaratdığınız «Növbədən qayıdanlar» diplom əsəri təsviri sənətimizə böyük bir istedadın gəldiyini xəbər verdi. Yaradıcı əməyin romantikasını, insanın cismani və mənəvi gözəlliyini, intellekt və qüdrətini tərənnüm edən tablolarınız qurub-yaratmaq, layiqli bəşər övladı olmaq əhval-ruhiyyəsi aşılayır.

Yaradıcılığınızda insan kainatın ən başlıca, ən böyük dəyəri kimi həmişə ön plandadır. Portretlərinizdə qəhrəmanlarınızın mürəkkəb daxili aləmi ilə yanaşı, müasiri olduqları əsrin cizgiləri mütəfəkkir sənət salnaməçisinin fırçası ilə öz əksini tapmışdır. Mirzə Ələkbər Sabir, Dmitri Şostakoviç, Qara Qarayev, Fikrət Əmirov, Rəsul Rza və başqa görkəmli şəxsiyyətlərin portretləri təkcə obrazların möhtəşəmliyini, onların mənəvi-fəlsəfi düşüncələrini deyil, eləcə də sizin özünüzün insana, yaşadığınız dövrə olan münasibətinizi açıqlayır. [278-279]

Azərbaycanın təbiətini və insanlarını vəsf edən tablolarınız doğma diyara bəslədiyiniz səmimi və dərin övlad məhəbbətindən xəbər verir. Yaratdığınız mənzərə və natürmortlar ətraf mühitlə, təbiətlə təmasdan doğan hədsiz sevinc və nikbinlik duyğularını ifadə edir.

Sizin istedadlı teatr rəssamı kimi xidmətləriniz böyükdür. Səhnə əsərlərinə verdiyiniz tərtibat obrazların parlaqlığı, bu janrın mürəkkəb məsələlərinin həllində böyük məharət, hadisələrin cərəyan etdiyi dövrün xüsusiyyətlərini duymaq bacarığı ilə səciyyələnir.

Dünyanın bir çox ölkələrində nümayiş etdirilmiş fərdi sərgiləriniz, məşhur muzeylərdə qorunub saxlanılan əsərləriniz dünya təsviri sənətinin inkişafına xidmət etməklə sizə, eləcə də Azərbaycan Rəssamlıq Məktəbinə böyük şöhrət gətirmişdir.

Sizin ictimai fəaliyyətiniz də yaradıcılığınızla həmişə sıx bağlı olmuşdur. Aldığınız fəxri ad və mükafatlar, müxtəlif orden və medallar sənətinizə və ictimai fəaliyyətinizə verilən yüksək qiymətin aydın ifadəsidir.

Əminəm ki, öz dəst-xətti ilə dünya mədəniyyətində layiqli yer tutmuş sənətkar kimi Azərbaycan incəsənətinin şöhrətini daha da artırmaq üçün bundan sonra da var qüvvənizi sərf edəcək, yaradıcılığınızın pərəstişkarlarını yeni əsərlərinizlə sevindirəcəksiniz.

Sizə cansağlığı və xoşbəxtlik, sənət yollarında daha böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 noyabr 1998-ci il*
[279]

## AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*28 noyabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi Azərbaycan Respublikası Prokurorluğunun 80 illik yubiley münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan prokurorluğunun bütün əməkdaşlarına çox əhəmiyyətli və məsuliyyətli vəzifələrinin yerinə yetirilməsində uğurlar arzulayıram.

Respublikamızın milli prokurorluğunun yaranması Azərbaycanda 1918-ci ildə dövlət müstəqilliyinin əldə olunması ilə bağlıdır. O vaxta qədər Azərbaycan milli prokurorluğa malik olmamışdır. Azərbaycan Xalq Cümhuriyyəti respublikamızın dövlət müstəqilliyini möhkəmləndirərək və dövlət orqanlarını yaradaraq bu sahəyə də diqqət yetirmişdir, dövrün çətinliklərinə baxmayaraq, Ədliyyə Nazirliyinin tərkibində prokurorluğun yaranması haqqında da qərar qəbul etmişdir.

Beləliklə, Azərbaycan prokurorluğunun 80 yaşı vardır. Ancaq bu dövr bütün Azərbaycan xalqı, respublikamız üçün mürəkkəb və ziddiyyətli bir dövr olduğu kimi, prokurorluq orqanları üçün də mürəkkəb olmuşdur. Bəlkə də bu dövrdə prokurorluq orqanlarının fəaliyyəti Azərbaycanın başqa [280-281] dövlət orqanlarının fəaliyyətinə nisbətən daha da mürəkkəb olmuşdur. Çünki onlar müxtəlif vaxtlarda müxtəlif orqanların tərkibində fəaliyyət göstərmiş, yalnız 30-cu illərdə Azərbaycanda stabil prokurorluq orqanı, prokurorluq yaranmışdır.

Azərbaycan xalqının həyatının bütün mərhələlərində əldə etdiyi nailiyyətləri də və itkiləri də bizim tariximiz əks etdirir. Prokurorluq orqanları da Azərbaycanda gedən bu proseslərin iştirakçısı olmuşdur. 1920-1930-cu illərdə Azərbaycanda kütləvi repressiyaların aparılmasında o dövrün hakimiyyətinin siyasətini yerinə yetirən dövlət orqanları ilə bərabər prokurorluq orqanları da bu repressiya tədbirlərinin iştirakçısı olmuşdur. Ancaq bunlarla yanaşı, Azərbaycanda sovet hakimiyyəti illərində xalq yaşamış, inkişaf etmiş, böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanda prokurorluq orqanlarının mütəşəkkilləşməsi, formalaşması və inkişaf etməsi prosesi də bunların içərisində öz əksini tapmışdır.

Düz 7 il bundan öncə, 1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar dövlət müstəqilliyimizi əldə etdik və müstəqil dövlətimizi qurmağa başladıq. Ancaq bu gün böyük məmnuniyyət hissi ilə deməliyik ki, biz dövlət müstəqilliyini elan edərkən Azərbaycanın demək olar ki, bütün sahələrində dövlət orqanlarını müstəqil yaratmaq və onların fəaliyyətini təmin etmək üçün bütün imkanlar yaranmışdı. 1991-ci ildə respublikamızda dövlət müstəqilliyi elan olunan zaman Azərbaycan böyük prokurorluq kadrları korpusuna malik idi.

Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, for[281-282]malaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır.

Biz bu gün prokurorluğun 80 illik yubileyini qeyd edirik. Bu yubileyi qeyd edərkən keçmiş illərdə də, o illərdə də Azərbaycanda prokurorluq orqanlarında sədaqətlə işləmiş və xidmətlərini göstərmiş insanları da unutmuruq. Ancaq Azərbaycanın həyatında prokurorluq orqanlarının son illərdəki fəaliyyəti bu gün xüsusi əhəmiyyət kəsb edir.

Mən hesab edirəm ki, beləliklə, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik.

Prokurorluq orqanlarının dünyanın müxtəlif ölkələrində müxtəlif səlahiyyətləri vardır. Şübhəsiz ki, bu, hər bir ölkənin öz spesifik xüsusiyyəti, onun inkişaf səviyyəsi ilə əlaqədardır. Biz Azərbaycanda dövlət müstəqilliyini inkişaf etdirərək, hüquqi, demokratik, dünyəvi dövlət quraraq respublikamızın dövlət orqanlarını, o cümlədən hüquq-mühafizə orqanlarını Azərbaycanın milli mənafelərinə uyğun olaraq təşkil edir və onların vəzifələrini, səlahiyyətlərini də ölkəmizin milli mənafelərini müdafiə etmək nöqteyi-nəzərindən müəyyənləşdiririk.

Azərbaycan keçid dövrü yaşayan bir ölkədir. Keçmişdə Sovetlər İttifaqına mənsub olmuş ölkələrin hamısı bu dövrü yaşayır. Bu keçid dövrünün özünəməxsus xüsusiyyətləri vardır. Keçid dövrünün əsas məqsədi Azərbaycanda demokratik dövlət quruculuğunu təmin etməkdən, hüquqi vətəndaş cəmiyyəti yaratmaqdan, iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmaqdan, insan hüquqlarını

qorumaq və təmin etməkdən, insanlara bütün azadlıqları, o cümlədən mətbuat, söz, fikir azadlıqlarını verməkdən, siyasi plüralizmi təmin etməkdən ibarətdir. [282-283]

Belə bir dövrdə Azərbaycan prokurorluğu Konstitusiyada müəyyən olunmuş səlahiyyətlərini həyata keçirmək ölkəmizin dövlətçiliyinin qorunmasına və möhkəmlənməsinə xidmət etməlidir, qanunun aliliyini təmin etməli və qanunun aliliyinə riayət etməlidir, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının keşiyində durmalıdır. Bütün bunlar hamısı Konstitusiyada öz əksini tapıbdır. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan prokurorluğu son illərdə bu vəzifələri uğurla yerinə yetirir.

Azərbaycanın 80 illik tarixində hər dövrün özünəməxsus xüsusiyyətləri vardır. Son on il Azərbaycanın həyatında ən ağır, ən çətin problemlər dövrü olmuşdur. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə başladığı münaqişə Ermənistanın Azərbaycana qarşı silahlı hərbi təcavüzü ilə həyata keçirilmişdir. Bunların nəticəsində Azərbaycana böyük zərbələr dəymişdir.

Azərbaycan öz torpaqlarını müdafiə edərək itkilər vermişdir. Məlum səbəblərdən bir çox ölkələr tərəfindən Ermənistana verilən köməyin və dəstəyin nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş və işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız zorla çıxarılmış, onlar bir çox ildir ki, ağır vəziyyətdə, çadırlarda yaşayırlar.

On il davam edən bu vəziyyət Azərbaycanın həyatının xüsusiyyətini təşkil edir. Belə bir dövrdə, zamanda, keçmiş Sovetlər İttifaqı tərkibində olduğu dövrdə Azərbaycana lazımi qayğı, yardım göstərilməyibdir. Əksinə, Azərbaycana torpaq iddiası edildiyi zaman, respublikamızda Ermənistan ilə Azərbaycan arasında müharibə getdiyi bir zaman – 1990-cı ilin yanvar ayında sovet hökumətinin silahlı qüvvələrinin böyük bir hissəsi Bakıya, Azərbaycana yeridilib, dinc insanlar öldürülüb, əzilib, şəhid olublar. Bu da son on ildə Azərbaycanın həyatının xüsusiyyətini təşkil edən bir amildir. Bun[283-284]larla yanaşı, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət də pozulubdur.

Məlumdur ki, Azərbaycanın keçmiş hakimiyyəti Ermənistan təcavüzündən qorunmaq, torpaqlarımızı müdafiə etmək əvəzinə daxildə xalqa qarşı ədalətsiz hərəkətlər etmişdir. Azərbaycanın daxilində hakimiyyət mübarizəsi aparan qüvvələrin bu qanunsuz hərəkətləri son nəticədə çoxsaylı cinayətkar dəstələrin yaradılmasına gətirib çıxarmışdır. Beləliklə, 1990, 1991,1992-ci illərdə və 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, hərc-mərclik, cinayətkarlığın artması respublikamızın həyatının bütün sahələrinə böyük zərbələr vurmuşdur.

Bu illər prokurorluq orqanlarında da qeyri-sağlam vəziyyət olmuşdur. Təbiidir, belə bir dövrdə prokurorluq orqanları öz fəaliyyətini qanun çərçivəsində apara bilməzdi. Bütün bunların nəticəsində Azərbaycanda daxili ictimai-siyasi vəziyyət tamamilə pozulmuşdu. Ən dəhşətlisi odur ki, bir çox gəncləri, vətəndaşları cinayətkarlığa sövq etmişdilər, onlar cinayətkar dəstələrə qoşulmuşdular və cinayətkarlıq artmışdı.

Məhz bunların nəticəsidir ki, 1992-ci ildə Azərbaycanda cinayətkarlığın səviyyəsi demək olar ki, ən yüksək dərəcəyə gəlib çatmışdı. Bir ildə 22 min 440 cinayət baş vermişdi. Bu, müqayisədə əvvəlki bütün illərin hamısından çox olmuşdur.

1993-cü ildən Azərbaycanda aparılan işlər birinci növbədə respublikamızda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirməyə və bunun üçün də cinayətkarlıqla mübarizəni gücləndirməyə yönəldilmişdir. Bütün bu işlərdə hüquq-mühafizə orqanlarının hamısı, o cümlədən Azərbaycan prokurorluğu fəal iştirak etmişdir. Aparılan işlərin nəticəsini rəqəmlər artıq özü-özlüyündə göstərir. Keçən il, 1997-ci ildə cinayətkarlıq 1992-ci ilə nisbətən xeyli azalmışdır. 1992-ci ildə 22 min 450, 1997-ci ildə isə 16 min 400 cinayət baş vermişdir. Şübhəsiz ki, [284-285] bu da çoxdur, biz bununla da razı ola bilmərik. Ancaq biz görülən işlərin nəticəsini də qiymətləndirməliyik.

Bütün bu işlərdə Azərbaycan prokurorluğu fəal iştirak etmişdir, öz xidmətlərini göstərmişdir. Xüsusən, Azərbaycanda cinayətkar dəstələr tərəfindən güclə, silah yolu ilə dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında və bunun nəticəsində cinayətkarların yaxalanmasında, edilmiş cinayətlərin açılmasında, cinayətkarların qanun əsasında məsuliyyətə cəlb olunmasında, beləliklə də cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətləri böyükdür.

1994-cü ilin oktyabr hadisələri, 1995-ci ilin mart hadisələri, ondan sonra yenə də böyük cinayətkar dəstələrin Azərbaycanda terror aktları, təxribat aktları həyata keçirmək cəhdləri – bunlar hamısı bizim yaxın tariximizin hadisələridir. Biz bu illəri çox ağır yaşamışıq və hüquq-mühafizə orqanlarının apardığı işlər nəticəsində, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi nəticəsində, Azərbaycan dövlətinin qətiyyətli tədbirləri nəticəsində bu cinayət hadisələrinin, Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş qəsdlərin qarşısı alınmış və cinayətkarlar qanun əsasında cəzalanmışlar.

Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir. Ötən beş il müddətində Azərbaycanda istintaq işlərinin çoxu bu cinayətlərlə əlaqədar aparılıbdır və bu gün məmnuniyyətlə demək olar ki, bunların nəticəsində cinayətlər açılıb, edilən cinayətlərin məzmunu aşkar olunub, ictimaiyyətə göstərilib və aparılan istintaq işləri nəticəsində çıxarılan məhkəmə hökmləri cinayətkarların cinayət etdiklərini sübut edib və beləliklə də cəmiyyətimiz, vətəndaşlarımız belə cinayətkarlardan xilas

olublar. Bunlar hamısı çox əhəmiyyətli [285-286] işlərdir və mən bu işlərdə prokurorluğun xidmətlərini yüksək qiymətləndirirəm.

Prokurorluq hüquq-mühafizə orqanları sistemində demək olar ki, məhkəmə ilə polis orqanları, daxili işlər orqanları, milli təhlükəsizlik orqanları arasında duran bir orqandır. Ona görə də prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır. Ümid edirəm ki, Azərbaycan prokurorları öz üzərinə düşən bu məsuliyyəti dərk edirlər və bundan sonra öz işlərini daha da mütəşəkkil aparacaqlar.

Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək – bu, çox şərəfli vəzifədir. Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu vəzifələrini uğurla yerinə yetirirlər. Son beş ildə Azərbaycanda gedən proseslər, əldə olunmuş ictimai-siyasi sabitlik, cinayətkarlığın qarşısının sürətlə alınması – bunlar hamısı bizim böyük nailiyyətlərimizdir və bu nailiyyətlərin əldə edilməsində də hüquq-mühafizə orqanlarının hamısının, o cümlədən Azərbaycan prokurorluğunun xidmətləri böyükdür.

Prokuror olmaq, şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir. Biz bəzən özümüz-özümüzə lazımi qədər qiymət verə bilmirik. Ancaq deyə bilərəm ki, qısa bir dövrdə, son 30-40 il ərzində Azərbaycanda yüksək səviyyəli, peşəkar prokuror [286-287] kadrları yetişibdir. Mən Azərbaycanda prokuror orqanlarını şəxsən 50 ildir ki, tanıyıram və müşahidə edirəm. Bəlkə ondan da bir az çox.

Mən 40-50-ci illəri xatırlayıram. Həqiqət bundan ibarətdir ki, bizim hüquq-mühafizə orqanlarında, o cümlədən prokurorluqda milli Azərbaycan kadrları azlıq təşkil edirdi və olanların da təəssüflər olsun ki, çoxları yüksək hüquq təhsilinə, biliyə malik deyildi. Şübhəsiz, sədaqətli idilər, öz işlərini görürdülər, ancaq onların bilik səviyyəsi o qədər də yüksək deyildi. İndi isə bizim bu prokurorluq orqanlarına baxıram: bizim nə qədər yüksək səviyyəli, bilikli kadrlarımız vardır. Bunlar bir gündə, bir ildə, beş ildə əldə olunmur. Qeyd etdiyim kimi, - mənim müşahidəm əsasında deyirəm, - bu, 60-70-80-ci illərdə görülən işlərin nəticəsidir. İndi Azərbaycan bir müstəqil dövlət olaraq hüquq-mühafizə orqanlarının hər bir sahəsində istənilən qədər səviyyəli kadrlara malikdir.

Mən bu gün prokurorluğun yubiley mərasimində onu da qeyd etmək istəyirəm ki, bu mərasim prokurorluq orqanlarının üzərinə çox böyük vəzifələr qoyur. İndiyə qədər bizim bu 80 illik tariximizdə prokurorluq günü, yaxud prokurorluğunda peşə bayramı heç vaxt olmamışdır.

Məsələn, bizdə milis günü var idi, hər il o milis gününü bayram edirdik. Yaxud, çekist günü vardı. Təhlükəsizlik orqanlarının bayramını qeyd edirdik. Ordu günü var idi, bunu bayram edirdik. Ancaq prokurorluq günü və məhkəmələr günü əvvəllər heç vaxt olmamışdır. Doğrudur, burada, bizim dostumuz cənab Skuratov qeyd etdi ki, Rusiya prokurorluğunun 276 yaşı vardır. Ancaq o vaxt – sovet hakimiyyəti dövründə nə o 276 illik tarixi qəbul edirdilər, nə də sovet prokurorluğunun yaranması gününü qeyd edirdilər. Ona görə də mən hər halda bu prokurorluq bayramını heç vaxt görməmişdim və prokurorluq gününü də görməmişdim. İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı [287-288] göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər.

Mən tarix haqqında danışarkən nailiyyətlər barəsində dedim. Ancaq eyni zamanda, Azərbaycanda prokurorluğun işində keçmiş onilliklərdə qüsurlar, nöqsanlar da çox olmuşdur. Biz bunları unutmamalıyıq. Ona görə ki, indi, bundan sonra bu nöqsanlara yol verilməsin. Bu nöqsanlar əsasən prokurorluq orqanları işçilərinin öz vəzifəsindən sui-istifadə etməsi ilə əlaqədar olmuşdur.

Mən 70-80-cı illərdə Azərbaycana rəhbərlik etdiyim zaman bu mənfi hallarla çox ciddi mübarizə aparmışam. O illərdə prokurorluq orqanlarında çox sədaqətli, sağlam mənəviyyatlı əməkdaşlarla yanaşı, təəssüflər olsun ki, öz vəzifələrindən sui-istifadə edənlər də var idi.

Bu gün bizim qarşımızda duran vəzifələrdən biri ölkəmizdə korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək və korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına nail olmaqdan ibarətdir. Bu mübarizə yeni bir mübarizə deyildir. Bu, keçmiş dövrlərdə də aparılmışdır. Ancaq bu mübarizədə hüquq-mühafizə orqanları gərək dövlətin əsas aləti olsun. Yəni bu mübarizəni biz dövlətin bütün orqanları vasitəsilə aparmalıyıq. Bununla yanaşı, hüquq-mühafizə orqanlarının bu cinayətin qarşısını almaq üçün daha da böyük imkanları vardır. Ancaq hüquq-mühafizə orqanlarının özlərində belə hadisələr, yəni belə hallar olduğu bir zamanda, şübhəsiz ki, bu mübarizə səmərəli ola bilməz.

Həmin 60-70-ci illərdə də belə hallar Azərbaycanın hüquq-mühafizə orqanlarında, o cümlədən prokurorluq orqanlarında var idi. Yəqin ki, tarixdən məlumdur, - mən o illərdə çox qəti qərarlar qəbul edirdim. Məsələn, Daxili İşlər Nazirliyinin rəhbərliyini çox ciddi qərarlarla vəzifədən azad etmişdim, [288-

289] prokurorluğun rəhbərliyini azad etmişdim və onların işlərində olan ciddi nöqsanlar haqqında qərarlar qəbul edilmişdi. Bunlar hamısı həmin bu hüquq-mühafizə orqanlarında olan qüsurlarla əlaqədar idi.

Mən hesab edirəm ki, indi müstəqil Azərbaycanda hüquq-mühafizə orqanları gərək belə ünsürlərdən təmizlənsinlər. Hüquq-mühafizə orqanlarına verilən səlahiyyət heç bir başqa dövlət orqanına verilmir. Hüquq-mühafizə orqanlarının içərisində isə prokurorların ən çox, ən yüksək səlahiyyəti vardır. Təsəvvür edin, prokuror vətəndaşın həbs olunması üçün qərar qəbul edir. Bunu ancaq prokuror edə bilər. Ancaq, birincisi, prokuror həmişə çalışmalıdır ki, bu qərar əsaslı olsun, ədalətli və düzgün olsun. İkincisi, əgər prokuror belə bir yüksək səlahiyyətə malikdirsə, əgər prokurora bu qədər böyük etimad göstərilirsə, prokuror nə qədər məsuliyyətli olmalıdır və mənəviyyatca nə qədər saf olmalıdır.

Mən bu gün, bayram günü bir daha bildirmək istəyirəm ki, hüquq-mühafizə orqanlarında, prokurorluqda mənəvi saflıq uğrunda mübarizə daim aparılmalıdır. Heç kəs hesab etməməlidir ki, əldə olunan nailiyyətlər, görülən işlər kiməsə vəzifəsindən sui-istifadə etməyə hüquq verir, kiməsə qanunu pozmağa hüquq verir, kiməsə rüşvət almağa hüquq verir. Bu məsələlər məni şəxsən çox narahat edir. Güman edirəm ki, hüquq-mühafizə orqanlarının hamısı və o cümlədən Azərbaycan prokurorluğu bu orqanlara dövlət, hökumət tərəfindən göstərilən yüksək qayğıya, diqqətə və ictimaiyyət tərəfindən göstərilən böyük hörmətə cavab olaraq gərək öz sıralarını təmizləsinlər, o orqanları ləkələyən ünsürlərdən azad olsunlar. Siz də çalışmalısınız, hamımız çalışmalıyıq ki, hüquq-mühafizə orqanları dövlət orqanları içərisində həqiqətən, ictimaiyyət tərəfindən dövlətin qanunlarını həyata keçirən mənəviyyatca sağlam orqanlar kimi tanınsın. [289-290]

Mən bilirəm ki, bu o qədər də asan məsələ deyil. Əgər 60-70-ci illərdə Azərbaycanda vəzifəli şəxslərin vəzifəsindən sui-istifadə etməsi, rüşvətxorluqla məşğul olması halları mövcud idisə və biz onlarla mübarizə aparırdıqsa, bu mübarizədə çox ciddi qərarlar qəbul edirdiksə, bu gün mən hesab edə bilmərəm ki, biz bu mübarizəni qurtarmışıq və indi artıq belə hallar keçmişdə qalıb, sovet hakimiyyəti dövrünə məxsus idi. Əksinə, mən hesab edirəm ki, bu keçid dövrünün bir çox problemləri ilə əlaqədar qanun pozuntuları təkcə hüquq-mühafizə orqanları tərəfindən deyil, ümumiyyətlə dövlət, hökumət orqanları tərəfindən çoxalıbdır. Vəzifəli şəxslərin vəzifəsindən sui-istifadə etmək halları artıbdır və bunların cəzasızlığını görən kütlə, ictimaiyyət də tək bu orqanlardan yox, eyni zamanda iqtidardan, hakimiyyətdən də narazı olurlar. Mən bunu deyirəm ona görə yox ki, narazılıqlar olmasın. Deyirəm ona görə ki, belə hallar bizim cəmiyyətdə, bizim ölkədə, bizim dövlətdə kökündən çıxarılıb atılmalıdır. Mən ümidvaram ki, bizim hüquq-mühafizə orqanları və xüsusən prokurorluq bu sahədə lazımi tədbirlər görəcək və qoyulan vəzifələrin həyata keçirilməsinə nail olacaqdır.

Şübhəsiz ki, keçmişdə Azərbaycan prokurorluğu sərbəst deyildi. Azərbaycan özü sərbəst olmadığı kimi, prokurorluq da sərbəst deyildi. Ancaq eyni zamanda sovet hakimiyyəti dövründə prokurorluq həddən artıq mərkəzləşmiş bir təşkilat idi. Mərkəzləşdiyinə görə də Azərbaycana qarşı ədalətsizliklər də edilirdi.

Məsələn, mən 1990-cı il 20 Yanvar hadisələrini yada saldım. Azərbaycan xalqı, ictimaiyyəti 1990-cı ilin yanvar ayında xalqımıza qarşı edilmiş bu cinayətin açılmaması və cəzasız qalmasından çox narahatdır. Bu işdə o illərdə Azərbaycan prokurorluğunun da günahı çoxdur.

Şübhəsiz ki, hər bir cinayətə qarşı tədbir görülməlidir. Ancaq hesab edirəm ki, XX əsrin ikinci yarısında Azərbaycan [290-291] xalqına qarşı edilən ən böyük cinayət bəzi ölkələrin köməyi ilə Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz və bunun nəticəsində insanların həlak olması, Azərbaycan torpaqlarının işğal edilməsi və işğal olunmuş torpaqlarda ölkəmizin varidatının dağıdılması olmuşdur. İkincisi isə 1990-cı ilin yanvar ayında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdür.

Keçmiş haqqında danışarkən onu da qeyd etmək istəyirəm ki, məsələn, 1988-1989-cu illərdə Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz edildiyi bir vaxtda, eyni zamanda Azərbaycanın rəhbərliyi ilə birlikdə mərkəz prokurorluğu da xalqımıza başqa bir təcavüz edirdi. O illərdə burada heç bir cinayəti olmayan, yaxud xırda bir cinayət törətmiş nə qədər insanlar həbs olunmuşdu. Bu gün mən o günləri xatırlayıram. Böyük cinayətlər qalmışdı kənarda – Azərbaycan xalqına təcavüz edilmişdi, bu qaldı kənarda – Azərbaycanın içində Azərbaycan prokurorluğunun özü də və Moskva prokurorluğu da bir cinayəti olan və yaxud cinayəti olmayan insanları həbs edib, onlara əziyyətlər verirdilər. Prokuror-luğun tarixində belə qara səhifələr də vardır.

Bütün bunlar hamısı, yəni 1988-ci ildən başlayaraq Azərbaycanda gedən proseslər respublikanın bütün dövlət orqanlarında mənfi hadisələrin baş verməsinə gətirib çıxardığı kimi, prokurorluq orqanlarında da hakimiyyətsizlik, məsuliyyətsizlik, özbaşınalıq halları geniş yayılmışdı.

Bəlkə də bu, başqa yerlərdə çox təəccüb doğura bilər ki, məsələn, bizim hüquq-mühafizə orqanlarının içərisində 1991-ci, 1992-ci, 1993-cü illərdə cinayətkar dəstələr yaranmışdı. Daxili İşlər Nazirliyinin içərisində OMON dəstəsi cinayətkar bir dəstəyə çevrilmiş, reketlə məşğul olmuş, insanlara çox böyük əzab-əziyyətlər vermiş, insanları oğurlamış, öldürmüş və nəhayət, 1995-ci ilin mart ayında dövlət çevrilişinə cəhd göstərmişdi. Ancaq bu məsələ öz başlanğıcını 1994-cü il [291-292] oktyabr ayının 2-dən götürür. O günü Azərbaycan prokurorluğuna hücum olunmuş və cinayətkar dəstələr tərəfindən işğal

edilmiş, Azərbaycan prokuroru həmin cinayətkar dəstələr tərəfindən əsir götürülmüşdü. Bu da tariximizin bir səhifəsidir.

Bu nə cür olmuşdu? Bakı şəhərində Xətai rayonunun prokuroru neçə illərdi ki, cinayətkarlıqla məşğul idi, qanunsuz silahlı dəstələr saxlayırdı, ətrafında daim avtomatla silahlanmış quldurlar gəzdirirdi. Ancaq dövlət orqanları, o cümlədən prokurorluq buna laqeyd münasibət göstərirdilər, biganə baxırdılar. Onlar da elə bir səviyyəyə gəlib çıxdılar ki, 1994-cü il oktyabr ayının 2-də Azərbaycan prokurorluğunu işğal etdilər və baş prokuroru, prokurorluğun bir neçə işçisini əsir götürdülər. Bu da Azərbaycan tarixinin, o cümlədən prokurorluğun tarixinin qara bir səhifəsidir.

Mən bu bayram günü bunları xatırlayıram ona görə ki, hər kəs bunlardan özü üçün nəticə çıxarsın. Əgər o illərdə belə cinayətkarlara qarşı lazımi tədbirlər görülsəydi, cinayətkarların azğın hərəkətlərinin qarşısı alınsaydı, onlar bu qədər qudurub prokurorluğun binasını zəbt etməzdilər və baş prokuroru əsir götürməzdilər.

Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, məhz hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluq orqanlarının öz işçilərinin fəaliyyəti nəticəsində bütün bu cinayətlərin qarşısı alındı, cinayətkarlar yaxalandı, - hesab edirəm ki, yaxalanmayan da yaxalanacaqdır, - cinayətlər açıldı və Azərbaycanda cinayətkarlığın qarşısı güclü surətdə alınıbdır.

Burada çıxışlarda deyildi ki, MDB ölkələri içərisində ən az cinayət törədilən ölkələrdən biri Azərbaycandır. Bu, şübhəsiz, bizi arxayınlaşdırmamalıdır. Cinayət elə bir şeydir ki, onun qarşısını daim almaq lazımdır. Əgər bizim hüquq-mühafizə orqanları bir gün, yaxud bir ay zəiflik göstərsələr, yaxud diqqəti azaltsalar, cinayətkarlar yenə də baş qaldıra bilərlər. [292-293]

İndi Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bu, Azərbaycan dövlətinin, hökumətinin, o cümlədən hüquq-mühafizə orqanlarının əldə etdiyi ən böyük nailiyyətdir. Biz bu ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq. İctimai-siyasi sabitlik Azərbaycanda dövlət quruculuğunu uğurla həyata keçirmək üçün vacibdir, Azərbaycanda iqtisadi-sosial islahatları həyata keçirmək üçün lazımdır, Azərbaycanda bazar iqtisadiyyatı yaratmaq üçün lazımdır. Bu baxımdan hüquq-mühafizə orqanlarının və prokurorluğun qarşısında çox böyük vəzifələr durur.

Prokurorluq peşəsi hörmətli peşədir. Hörmətli, şərəfli peşədir. Müstəqil dövlət kimi Azərbaycan keçmiş tarixindən, ənənələrindən istifadə edərək yeni dövlət quruculuğu prosesini həyata keçirir. O cümlədən, müstəqil Azərbaycanın prokurorluğu yaranır və inkişaf edir. Bu orqanın inkişaf etməsində xidmət göstərən hər bir Azərbaycan vətəndaşı şərəfli iş görür. Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. O, öz peşəsinin adını qoruyaraq öz şəxsi adını qoruyacaqdır. Arzu edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və hər bir prokuroru cəmiyyətdə ən hörmətli, ən layiqli adam sayılsın. Bunun üçün böyük imkanlar var. Mən qeyd etdim, artıq Azərbaycanda güclü, yüksək səviyyəli prokuror kadrları korpusu yaranıbdır. Bu kadrlardan səmərəli istifadə etmək lazımdır. Hər bir prokurorluq işçisi də öz peşəsinə sadiq olmalıdır, müstəqil Azərbaycanın dövlətçiliyinə sadiq olmalıdır.

Son illər mən Azərbaycan prezidenti kimi hüquq-mühafizə orqanları, o cümlədən Azərbaycan prokurorluğu əməkdaşlarının ölkəmizin müstəqilliyinə, dövlətçiliyinə sadiqliyini müşahidə edirəm. Bu sədaqətə görə də təşəkkür edirəm.

Bizim qarşımızda çox böyük vəzifələr durur. Müstəqil Azərbaycan ilk addımlarını atır. Ancaq mən inanıram ki, [293-294] müstəqil Azərbaycanın çox parlaq gələcəyi var. Biz əsas problemi həll etməyə çalışırıq – Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsinə çalışırıq, məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Son illər bütün dünyaya nümayiş etdirmişik ki, Azərbaycan sülhsevər dövlətdir, Azərbaycan xalqı sülhpərvər xalqdır. Biz müharibənin yenidən başlanmasını istəmirik. ATƏT-in Minsk qrupu həmsədrlərinin verdikləri təklifləri son günlər müzakirə edərkən mən bunu bir daha bəyan etdim.

Təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun noyabr ayının 9-da bizə verdiyi təkliflər məsələnin sülh yolu ilə ədalətli həllini təmin etmir. Ona görə də biz o təklifləri qəbul etmədik. Bu gün bir daha bəyan edirəm ki, biz o təklifləri qəbul edə bilmərik. ATƏT-in həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa məsələnin həll olunması üçün daha ədalətli təkliflər hazırlamalıdırlar.

Bu barədə mən noyabr ayının 25-də Azərbaycanda səfərdə olan ATƏT-in hazırkı sədri, Polşanın xarici işlər naziri cənab Geremek ilə də ətraflı danışdım və öz fikirlərimizi ona bildirdim. Yəni ATƏT-in həmsədrlərinin verdikləri təklifləri qəbul etməməyimizin səbəbini bildirdim. Mən dünən bu barədə Rusiyanın Baş naziri cənab Primakov ilə də telefonla danışdım. Ona da izah etdim ki, biz bu təklifləri qəbul edə bilmərik. Çünki bunlar məsələnin ədalətlə həll olunmasını təmin etmir.

Heç kəs hesab etməsin ki, əgər Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal edibsə və işğalçı ordular Azərbaycan torpaqlarındadırsa, demək, biz hər bir təklifi qəbul edə bilərik. Mən bəyan etmişəm və bu gün bir daha bəyan edirəm ki, biz məsələnin ədalətlə həll olunmasının tərəfdarıyıq. Heç vaxt Azərbaycan torpağının hansısa bir hissəsini hansı şəkildə olursa-olsun, Azərbaycanın ərazisin[294-295]dən ayrı təsəvvür edə bilmərik. Ona görə də biz bu təklifləri qəbul etməmişik.

Ancaq eyni zamanda, mən bəyan etmişəm ki, biz Minsk qrupu həmsədrlərinin yeni təkliflərini gözləyirik və bu təkliflərə öz münasibətimizi bildirəcəyik. Beləliklə, biz sülh danışıqları prosesinə, atəşkəs rejiminin

saxlanmasına sadiq qalırıq, məsələnin Minsk qrupu çərçivəsində həll olunmasına sadiq qalırıq. Mən Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransaya bir daha müraciət etmişəm ki, yenidən bu təkliflər üzərində işləyib bizə təqdim etsinlər.

Bunları sizə çatdırarkən eyni zamanda bildirmək istəyirəm, mən tam əminəm ki, biz məsələnin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik. Beləliklə, Azərbaycan özünün ərazi bütövlüyünü bərpa edəcək, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz doğma torpağına qayıdacaqlar, müstəqil dövlət kimi Azərbaycan özünün bütün ərazisinin sahibi olacaq və inkişaf edəcəkdir.

Qarşıda bizim çox böyük vəzifələrimiz var. Bu vəzifələrin həyata keçirilməsində Azərbaycan prokurorluğunun da özünəməxsus yeri var. Bu gün biz 80 illik yubileyi qeyd edərkən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir.

Əziz dostlar, mən sizi bir daha ürəkdən təbrik edirəm. Bir də qeyd edirəm, prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, siz həmişə çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. [295-296] Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan prezidenti kimi, mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.

Hər bir Azərbaycan prokuroruna səadət, hamınıza gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [295]

## ƏLİLLƏRİN BİRİNCİ ÜMUMRESPUBLİKA BƏDİİ YARADICILIQ BAXIŞ-MÜSABİQƏSİ QALİBLƏRİNİN YEKUN KONSERTİ BAŞA ÇATDIQDAN SONRA TƏDBİR İŞTİRAKÇILARI QARŞISINDA ÇIXIŞ

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*30 noyabr 1998-ci il*

Əziz dostlar!

Əziz müsabiqə iştirakçıları, müsabiqənin qalibləri!

Mən sizi Azərbaycanda son aylarda keçirilmiş müsabiqə münasibətilə və müsabiqədə əldə etdiyiniz dəyərli nailiyyətlər münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanda əlillər dövlətin, cəmiyyətin daim qayğısı ilə əhatə olunublar. Bugünkü qeyri-adi gözəl mərasim də məhz bunu əyani surətdə sübut edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü ilə Azərbaycanda son aylar əlillərin istedadlarını araşdırmaq və yüksək istedadlıları cəmiyyətə təqdim etmək üçün keçirilmiş müsabiqəni, festivalı mən ölkəmizdə baş vermiş əlamətdar bir hadisə kimi qiymətləndirirəm. Bu təşəbbüs həqiqətən çox təqdirəlayiq təşəbbüsdür və bunların nəticəsində biz, Azərbaycan ictimaiyyəti bir daha görürük ki, əlillərə nə qədər böyük qayğı vardır və onların bu problemləri ilə məşğul olaraq, eyni zamanda onların istedadlarının inkişaf etməsi üçün də imkanlar yaradılır.

Bu gün bizə təqdim olunan incəsənət nümunələri bizi həddindən artıq sevindirdi, heyran etdi, həyəcanlandırdı. Bu gün bu səhnədən çıxış edənlər özlərinin yüksək istedadlarını [297-298] nümayiş etdirdilər. Eyni zamanda onlar böyük iradəyə malik olduqlarını nümayiş etdirdilər. Bugünkü tamaşa insanın nə qədər böyük imkanlara malik olduğunu bir daha bizə göstərdi. Bizi sevindirən odur ki, fiziki cəhətdən qüsuru, çatışmazlığı olan insanlar nikbin yaşayırlar və öz iradələrinə söykənərək istedadlarını inkişaf etdirirlər və hətta ölkənin festivallarında, müsabiqələrdə çıxış edərək onları ictimaiyyətə nümayiş etdirirlər. Bu, insanın ən gözəl xüsusiyyətlərindən biridir. Bu, insanın nə qədər yüksək mənaviyyata, nə qədər yüksək gücə, nə qədər yüksək iradəyə malik olduğunu bir daha göstərir. Biz bu halları qiymətləndirməliyik və hər bir insanın cəmiyyətdə özünün daxilində olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq.

Mən məmnuniyyətlə deyə bilərəm ki, son illər Azərbaycanda bu işlər dövlət orqanları tərəfindən, cəmiyyət tərəfindən görülür və bunların hamısı bir daha onu göstərir ki, Azərbaycanda hər bir insana qayğı vardır. Xüsusən, vətənini, torpağını, ölkəsinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qoruyarkən əlil olmuş, şikəst olmuş insanlara qayğı daha da çoxdur. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycanın dövləti, Azərbaycanın hökuməti, Azərbaycanın bütün dövlət xidmət orqanları əlillərə, şikəstlərə və xüsusən döyüşlərdə əlil olmuş insanlara bundan sonra da bütün qayğıları göstərəcəklər, əllərindən gələni əsirgəməyəcəklər.

Bugünkü mərasim çox böyük əhəmiyyət kəsb edir. Güman edirəm ki, bu, bizim cəmiyyətdə olan insanların hamısına müsbət təsir göstərəcək və insanlarda daha da yaşamaq eşqi, yaratmaq eşqi nümayiş etdirəcəkdir.

Bəli, insan çox şeyə qadirdir. İnsan nikbin olmalıdır. İnsan nə qədər çətinliklərlə rastlaşsa da, öz istedadını, öz biliyini, öz bacarığını cəmiyyətə təqdim etməlidir, cəmiyyətə, ölkəsinə həsr etməlidir. Bu gün bu möhtəşəm salonda, bu teatr [298-299] səhnəsində böyük məharətlə öz istedadlarını nümayiş etdirən insanlar məhz belə insanlardır. Mən onları ürəkdən təbrik edirəm və onlara, bütün müsabiqədə iştirak edənlərə cansağlığı, səadət arzulayıram. Qarşıdan gələn beynəlxalq əlillər günü münasibətilə bütün əlilləri təbrik edirəm. Bir daha bəyan edirəm ki, Azərbaycanda hər bir vətəndaş dövlətin qayğısı altındadır və xüsusən əlillik ömrü keçirən, yaşayan vətəndaş dövlətin qayğısı altındadır.

Hamınıza cansağlığı arzu edirəm və bütün Azərbaycan vətəndaşlarını yanında olan insana, qonşusuna, dostuna və xüsusən çətinlik içərisində yaşayan insana, fiziki məhrumiyyətlərə məruz qalmış insana əl uzatmağa dəvət edirəm, kömək etməyə dəvət edirəm. Bizim dövlətimiz bu prinsiplər əsasında yaşayır, işləyir və bu prinsiplər əsasında işləyəcəkdir. Bu mənim şəxsən həyatımın və həyat fəaliyyətimin ən əsas xüsusiyyətlərindən biridir.

Ona görə də mən bu dəvəti mümnuniyyətlə qəbul etdim və güman edirəm, sizin hamınızın fikrini ifadə edərək deyə bilərəm ki, biz hamımız bugünkü konsertdən, bu mərasimdən yüksək zövq aldıq. Burada çıxış edən insanlar həqiqətən gözəl incəsənət nümunələri göstərdilər, özlərinin gözəl qabiliyyətlərini nümayiş etdirdilər, gözəl istedadlarını nümayiş etdirdilər. Mən bundan çox məmnunam və bu hissiyyatlarla, bu arzularla da sizin hamınızı, xüsusən bu gün bizi sevindirənləri ürəkdən bir daha təbrik edirəm. Çox sağ olun. [299]

## DÜNYA ŞÖHRƏTLİ KARDİOLOQ MAYKL DEBEYKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*3 dekabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Mən Sizi, məşhur kardioloqu, «Debeyki Ürək Cərrahlığı Mərkəzi»nin direktorunu, Beyler Universitetinin fəxri prezidentini və Sizin səfər yoldaşlarınızı səmimi qəlbdən salamlayıram. Dünya şöhrətli kardioloqla yenidən görüşməyimdən məmnun qaldığımı bildirirəm. Sizin 90 illik yubileyiniz münasibətilə təbrik məktubu göndərmişdim, indi isə bu fürsətdən istifadə edərək Sizi bir daha təbrik edirəm. 90 yaşdan sonra belə fəaliyyət göstərmək dünya üçün sağlamlığa nümunədir. Siz həm tibb sahəsindəki böyük işlərinizlə, minlərlə insanın həyatını xilas etməyinizlə, həm də şəxsi həyatınızla, əməksevərliyinizlə örnəksiniz. Ona görə də Sizi çox hörmətli qonaq kimi qarşılayırıq. Belə bir böyük cərrahın, alimin Azərbaycana diqqət və qayğı göstərməsindən, ölkəmizdə də kardiocərrahiyyə mərkəzi yaradılması üçün təşəbbüs göstərməsindən məmnun qaldığımı vurğulayıram.

**D e b e y k i**: Bizi yüksək qonaqpərvərliklə qaşıladığınıza görə Sizə təşəkkür edirəm. Bildirirəm ki, bu dəfə Bakıya bir qrup mütəxəssislə gəlmişəm və bundan məqsəd ürək-damar xəstəliklərinin müalicəsi ilə məşğul olacaq mərkəzin bazasını indidən yaratmaqdır. Bununla bağlı müvafiq strukturlarla əlaqə saxlanmış, xüsusilə səhiyyə naziri ilə yaxşı fikir mübadi[300-301]ləsi aparılmış və o, faydalı tövsiyələr vermişdir. Azərbaycanda ürək-damar xəstəliklərinin geniş yayıldığını xatırlamaqla yanaşı, onu da vurğulamaq istəyirəm ki, hazırda belə xəstəliklərin müalicəsi mümkündür. Son 25 ildə ABŞ-da bu xəstəliklərdən ölüm halları 45 faiz azalmışdır. Təxminən 35 il əvvəl infarkt keçirib xəstəxanaya gətirilən adamların sağ qalmaq imkanı 50 faiz idisə, indi 95 faizdir. Azərbaycanda da mərkəzin yaradılmasından əsas məqsəd belə xəstələri müalicə etməkdir. Biz bunu Sizin ölkənin əhalisi üçün etmək istəyirik. Bildirirəm ki, Bakıda mərkəzin harada tikiləcəyi müəyyənləşdirilmişdir. Mənim fikrimcə, mərkəzin gözəl xarici görünüşü və müasir avadanlığı olmalıdır. Mərkəzin nəzdində ambulator-poliklinika da yaratmaq nəzərdə tutulur. Səhiyyə naziri ilə olan razılaşmaya əsasən, mərkəzin tikintisi qurtaranadək Azərbaycandan savadlı həkimləri və mütəxəssisləri Hyüstona bir illik məşğələlərə göndərmək istəyirik. Bundan əlavə, Hyüstondakı institutla Bakıda yaradılacaq mərkəz arasında yaxşı əlaqə saxlamaq üçün NASA-nın peyklərindən istifadə etmək planımız var. Onu da qeyd edim ki, ilkin maliyyələşdirmənin bir hissəsini «Eksson» şirkəti edəcək, əsas maliyyələşdirməni isə Eksimbank həyata keçirəcəkdir. Bu, bankın Azərbaycana ilk maliyyə dəstəyi olacaqdır.

**A n n a  P e ç o r s k a y a**: (Debeykinin yaxın həmkarlarından) Cənab prezident, bizə göstərilən diqqətə görə minnətdarlığımı bildirirəm, inanıram ki, Azərbaycan prezidentinin bu layihəyə böyük maraq göstərməsi öz bəhrəsini verəcəkdir.

**H e y d ə r  Ə l i y e v**: Sizə təşəkkür edərək bildirirəm ki, təklifləriniz Azərbaycan üçün çox əhəmiyyətlidir. Cənab Debeyki, Siz ürək-damar xəstəliklərinin müalicəsi sahəsində dünyada ən böyük mütəxəssis kimi, Azərbaycanda bu xəstəliklərin geniş yayılması barədə fikirlərinizi bildirdiniz. Sizin iştirakınızla Azərbaycanda ürək-damar xəstəliklərinin müalicəsi üçün böyük tibb mərkəzinin yaradılması və onun [301-302] Hyüstondakı mərkəzlə birbaşa əlaqələndirilməsi, tibb heyəti kadrlarının hazırlanması barədə təşəbbüsünüz çox xeyirxah işdir. Mən bu təşəbbüsü məmnuniyyətlə qəbul edirəm. Əgər Sizinlə birlikdə bunu həyata keçirə bilsək, bu, Azərbaycan xalqı üçün böyük nemət olacaqdır. Eyni zamanda bu, təkcə Azərbaycan üçün yox, həm də Qafqaz və Orta Asiya ölkələri üçün çox əhəmiyyətli mərkəz olacaqdır.

ABŞ-ın «Eksson» şirkətinin də bu işə maraq göstərməsindən razı qaldığımı bildirirəm. Onu da xatırladım ki, ötən il Vaşinqtonda olarkən Eksimbank ilə müqavilə imzalamışdıq, ancaq ondan indiyədək istifadə edə bilməmişik. Əgər bu layihəni həyata keçirə bilsək, həmin müqavilənin reallaşdırılmasında ilk addım olacaqdır.

Son illər Azərbaycanın Amerika ilə neft sənayesi sahəsində əməkdaşlıq etdiyini məmnunluqla qeyd edirəm. İndiki təklif isə tibb sahəsində, xüsusən cənab Debeyki kimi böyük alimin iştirakı ilə əməkdaşlığa aiddir.

Bildirirəm ki, Baş nazir və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Sizinlə görüşləri barədə mənə məruzə ediblər. Mərkəz üçün şəhərin gözəl bir guşəsində yaxşı yer seçmisiniz. İndi gərək Sizinlə danışaq ki, bu gözəl, xeyirxah niyyəti necə həyata keçirək. [302]

## AZƏRBAYCAN BMT-nin ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİNİN 50 İLLİK YUBİLEYİNİ KEÇİRƏN DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ

*3 dekabr 1998-ci il*

*Prezident sarayı*

Bu il Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında qəbul etdiyi Ümumdünya bəyannaməsinin 50-ci ildönümüdür. Azərbaycanda da bu il insan hüquqları problemlərinə həsr olunan ildir. Biz bu münasibətlə ilin əvvəlində lazımi qərarlar qəbul etmişik və Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə tədbirlərin hazırlanması, keçirilməsi üçün Dövlət Komissiyası təşkil etmişik.

Hesab edirəm ki, ilin əvvəlindən indiyədək çox işlər görülmüşdür və bu gün Dövlət Komissiyasının iclasına toplaşmışıq. İclasa komissiyanın üzvləri ilə yanaşı, respublikanın dövlət, hökumət orqanlarının məsul vəzifəli şəxsləri, Azərbaycanda fəaliyyət göstərən qeyri-dövlət təşkilatlarının nümayəndələri də dəvət olunubdur.

Bugünkü iclasın məqsədi görülən işləri təhlil etmək və Azərbaycanda insan hüquqları ilə əlaqədar gələcək tədbirləri müəyyən etməkdir. [303]

## YEKUN NİTQİ

Hörmətli komissiya üzvləri, xanımlar və cənablar!

Komissiyanın iclasında komissiya üzvlərinin və iclasa dəvət olunmuş qeyri-dövlət təşkilatları nümayəndələrinin çıxışlarında Azərbaycanda insan hüquqlarının vəziyyəti və son illər görülən işlər, əldə olunan nailiyyətlər haqqında ətraflı məlumat verildi. Bunların əsasında məmnuniyyətlə demək olar ki, Birləşmiş Millətlər Təşkilatının Ümumdünya beynəlxalq insan hüquqlarının qorunması haqqında qəbul etdiyi bəyannaməni biz Azərbaycanda son illərdə əməli surətdə həyata keçiririk və xeyli işlər görülüb, müəyyən nailiyyətlər də əldə olunubdur.

Bu sahə Azərbaycan cəmiyyəti üçün yeni sahədir. Bu sahə Azərbaycanın dövlət müstəqilliyi əldə olunandan sonra Azərbaycanda real yaranmış bir sahədir. Doğrudur, keçmişdə bizim tərkibində olduğumuz Sovetlər İttifaqı dövləti də 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş bəyannaməyə qoşulmuşdur. Ancaq etiraf etmək lazımdır ki, Sovetlər İttifaqında bəyannamədən irəli gələn vəzifələr demək olar ki, həyata keçirilməmişdir. Çünki Sovetlər İttifaqı öz ideoloji prinsipləri çərçivəsində yaşayırdı. Bir də, demək olar ki, bu bəyannamənin məzmunu, mənası, əhəmiyyəti haqqında az məlumata malik idi.

Azərbaycan dövlət müstəqilliyini əldə edən andan Birləşmiş Millətlər Təşkilatının bəyannaməsinə qoşulmuş hesab olunur. Ancaq Azərbaycanda da dövlət müstəqilliyi əldə ediləndən sonra dərhal bu sahədə lazımi işlər görülməsinə başlanmamışdı. Bəlkə də bunu heç gözləmək də mümkün deyil. Çünki dövlət müstəqilliyini bəyan edən hər bir ölkə bir çox çətin və ağır problemlərlə rastlaşır və bilirsiniz ki, Azərbaycan daha da çətin, daha da ağrılı problemlərlə rastlaşmışdır. Ermənistanın Azərbaycana etdiyi təcavüz, [304-305] gedən müharibə və o illər Azərbaycanın daxilində mövcud olan mürəkkəb, çətin, qarmaqarışıq ictimai-siyasi vəziyyət - bunlar hamısı, təbiidir ki, insan hüquqlarının qorunması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının bəyannaməsinin Azərbaycanda həyata keçirilməsi üçün lazımi şərait yaratmamışdı. Amma eyni zamanda, bunun subyektiv səbəbləri də vardır. Bəzi dövlət orqanları, yaxud dövləti təmsil edən şəxslər, əksinə, insan hüquqlarını kobudcasına pozmuşlar və insan hüquqları ilə əlaqədar olan tələblərin həyata keçirilməsinin qarşısını almışlar, yaxud da ona mane olmuşlar.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesini apararkən bu prosesin içində insan hüquqları əsas yer tutur və beləliklə biz bu quruculuq işini ötən illərdə apararkən insan hüquqlarının Azərbaycanda təmin olunması sahəsində çox işlər görə bilmişik. Bu barədə bu gün ətraflı məlumatlar verildi və mən bəyan edirəm ki, nəhayət, müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası Azərbaycanda insan hüquqlarının təmin edilməsi, qorunması və o cümlədən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsinin həyata keçirilməsi üçün bütün imkanları yaradıbdır. Bizim vəzifəmiz və borcumuz Konstitusiyanın tələblərini həyata keçirməkdir və Azərbaycanın ali qanunvericilik orqanı tərəfindən qəbul olunmuş qanunları yerinə yetirməkdir.

Ola bilər, hələ bəzi qanunlar da qəbul olunmayıbdır, bundan sonra olacaqdır. Ancan əgər biz Konstitusiyanın müddəalarını və qəbul olunmuş qanunları həyata keçirə bilsək, demək olar ki, müstəqil dövlətimizin indiki mərhələsində çox iş görmüş olarıq. Ona görə də mən bu gün komissiyanın iclasında Azərbaycanın bütün dövlət, hökumət orqanlarını və Azərbaycanda fəaliyyət göstərən bütün qeyri-dövlət təşkilatlarını - hamısını öz səylərini birləşdirməyə və insan hüquqlarının qorunması, təmin olunması ilə əlaqədar [305-306] Konstitusiyanın və qanunların tələblərini həyata keçirməyə səy göstərməyə dəvət edirəm.

Şübhəsiz ki, bu mövzu çox geniş mövzudur. İnsan hüquqlarına dar çərçivədə baxmaq olmaz. Təəssüflər olsun ki, bəzi təşkilatlar və bəzi insanlar tək Azərbaycanda yox, elə dünyanın beynəlxalq təşkilatlarında da insan hüquqlarına yalnız ayrı-ayrı şəxslərin, fərdlərin hüquqları çərçivəsində baxırlar. Şübhəsiz ki, bu, yanlış fikirdir və bəyannamə özü də göstərir ki, insan hüquqları geniş mənada anlanılmalıdır. Burada bu barədə dəyərli fikirlər söylənildi və xüsusən bu fikir Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki hər bir fərdin hüququ qorunmalıdır və təmin olunmalıdır, ancaq əgər insanların hüququ kütləvi surətdə pozulursa, hüquqları tapdalanırsa, yaxud da ki, bütün xalqın hüququ pozulursa, tapdalanırsa bu məsələ daha da çox diqqəti cəlb etməlidir və buna münasibət daha da üstün xarakter daşımalıdır. Mən də bu fikirlə razıyam ki, Azərbaycan xalqına qarşı son iki əsrdə edilən soyqırım, təcavüz insan hüquqlarının pozulması, tapdalanması baxımından ən dəhşətli bir hadisədir.

İndi Ermənistan adlanan torpaqlardan azərbaycanlıların əsrlər boyu, min illər boyu yaşadıqları ana torpaqlarından, ana vətənindən zorla çıxarılması, sürgün edilməsi və bunların hamısının qanlı hadisələrlə müşayiət olunması, insanların həlak olması, tələf olması, varidatını itirməsi - bütün bunlar Azərbaycan xalqının böyük bir tarixi dövründə hüquqlarının pozulmasını göstərir.

Biz bu gün şikayətlənə bilərik ki, xalqımızın hüquqlarının pozulmasına dünya ictimaiyyəti, beynəlxalq aləm, beynəlxalq təşkilatlar diqqət yetirməyiblər, bizə qayğı göstərməyiblər. Ancaq eyni zamanda onu da etiraf etməliyik ki, bizim özümüz də, yəni Azərbaycan xalqı da öz hüquqlarının kütləvi, dəhşətli, kobud şəkildə tapdalanması faktı ilə müəyyən qədər razılaşmış və təəssüflər olsun ki, dünyada bu vəhşiliyə, bu [306-307] cinayətə qiymət verilməsi üçün lazımi tədbirlər görülməmişdir. Başqa xalqlar öz hüquqlarını

qorumaq üçün bu barədə bəlkə də həddindən artıq çox işlər görürlər. Bəlkə də onların hüquqları heç o qədər pozulmayıb, amma onlar bunu dünya ictimaiyyətinə nə qədər çatdırırlar. Ancaq biz isə on illər, min illər boyu bunlara dözmüşük. Çox vaxt səsimizi də gur çıxarmamışıq və lazımi işlər də görməmişik. Elə bu əsrin özündə, XX əsrin özündə Azərbaycan xalqının hüquqları çox anlarda pozulubdur. Sovet hakimiyyəti tərəfindən də xalqımızın hüquqları dəhşətli şəkildə pozulubdur. İndi bunu belə qiymətləndirmək olar ki, bütün Sovet İttifaqı ərazisində yaşamış insanların hamısının hüquqları pozulubdur. Bu, ümumi bir xarakter daşıyıbdır və dövlətin xüsusiyyətindən irəli gəlibdir.

Ancaq eyni zamanda, azərbaycanlıların sovet hakimiyyəti dövründə 1948-ci ildə Ermənistandan kütləvi deportasiya olunması, yaxud da 30-cu illərdə azərbaycanlıların kütləvi şəkildə bizim bugünkü Azərbaycandan İrana sürgün edilməsi, yaxud 1944-cü ildə Gürcüstan ərazisindən azərbaycanlıların sürgün edilməsi və bir çox belə hallar lazımi qiymətini almayıbdır. XX əsrin əvvəllərində, tutaq ki, 1918-ci ildə, yaxud da 1920-ci ildə ermənilər tərəfindən azərbaycanlıların soyqırımları o vaxt hakimiyyətsizlik dövründə olubdur. Ancaq 1920-ci ildən sonra, yəni sovet hakimiyyəti dövründə Azərbaycan xalqının hüquqlarının tapdalanması, pozulması mövcud dövlət hakimiyyəti dövründə olubdur.

Nəhayət, 1988-ci ildə azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılması və onlara verilən işgəncələr, itkilər, ölümlər və nəhayət, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ölkəmizin ərazisinin bir qisminin işğal edilməsi ilə əlaqədar azərbaycanlıların öz doğma torpaqlarından, işğal olunmuş torpaqlardan zorla çıxarılması - bunlar hamısı Azərbaycan xalqının və hər bir azərbaycanlının hüquqlarının [307-308] vəhşicəsinə pozulmasıdır. Ancaq təəssüflər olsun ki, - yenə də deyirəm, - bu, hamıya aiddir, bunlar adi bir hala çevrilibdir.

İndi isə biz müstəqil dövlət çərçivəsində yaşayarkən və insan hüquqları problemləri ilə məşğul olarkən, yalnız ayrı-ayrı fərdlərin hüquqları haqqında danışıq gedir, yaxud mübarizə gedir, mübahisə gedir. Bir daha qeyd edirəm, hər bir insanın hüququ qorunmalıdır. Ancaq əgər bu gün Azərbaycanın müasir mənzərəsini biz siyasi nöqteyi-nəzərdən qiymətləndirsək, dünya miqyasında Azərbaycan xalqının hüquqlarının kütləvi surətdə, vəhşicəsinə pozulması aşkardır, göz qabağındadır. Biz Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsi haqqında danışarkən, yaxud bu bəyannamə haqqında iş görərkən bütün sahələrdə, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda, hər yerdə bu məsələni, yəni Azərbaycan xalqının hüquqlarının kütləvi şəkildə, vəhşicəsinə pozulmasını ön plana çatdırmalıyıq və bunu yaymalıyıq, bunu bildirməliyik. Bu, bizim tarixi vəzifəmizdir, hər bir azərbaycanlının tarixi vəzifəsidir. Hərə öz imkanları çərçivəsində gərək bu vəzifəni yerinə yetirsin. Ola bilər, kiminsə bu barədə imkanı böyük olsun, kiminsə kiçik olsun. Ancaq elə görülən kiçik iş də başqa böyük işlə birlikdə bizim ümumi işimizi təşkil edir.

Mən hesab edirəm ki, bizim dövlət orqanlarımız, hökumət orqanlarımız bu məsələlərlə ciddi məşğul olmalıdırlar - kampaniya şəklində yox, mütəmadi olaraq, ardıcıl. Bizim mətbuat orqanlarımız, elmi tədqiqat təşkilatlarımız, ictimai təşkilatlarımız, qeyri-dövlət təşkilatlarımız - hamısı bu işlə ciddi məşğul olmalıdırlar. Bu məsələ barəsində Azərbaycanda hamı həmfikir olmalıdır. Bu məsələ barəsində iqtidar-müxalifət ola bilməz. Bu bizim ümumi milli işimizdir. Bu bizim ümumi mənəvi işimizdir, mənəvi borcumuzdur. Burada heç kəs özü üçün bir fayda axtarmamalıdır. Heç kəs bu [308-309] məsələni özü üçün istismar etməməlidir. Heç kəs bu məsələdən öz şəxsi məqsədi üçün sui-istifadə etməməlidir. Hamı əl-ələ verib, birləşib bütün dünya ictimaiyyətinə, dünya dövlətlərinə, dünya xalqlarına sübut etməlidir ki, Azərbaycan xalqının hüquqları on illərlə, yüz illərlə pozulur və XX əsrin sonunda Azərbaycan xalqının hüquqları dəhşətli pozulubdur və tapdalanıbdır.

Şübhəsiz ki, bununla yanaşı, biz insan hüquqları ilə əlaqədar bütün başqa sahələrdə də öz fəaliyyətimizi göstərməliyik. Son illər görülən işlər barədə verilən məlumatlar onu göstərir ki, biz həqiqətən hüquqi dövlət yaradırıq, demokratik dövlət yaradırıq və insan hüquqlarının qorunmasını ümumxalq işi, ümumdövlət işi etməyə çalışırıq.

Məlumdur ki, görülən işləri qiymətləndirərək, bu sahədə nöqsanların, çatışmazlıqların olduğunu da etiraf etmək lazımdır. Ona görə etiraf etmək lazımdır ki, biz bu nöqsanları və çatışmazlıqları aradan qaldıraq. Ona görə yox ki, bundan kimsə hansı məqsədlərdən ötrüsə istifadə etsin. Biz ictimaiyyətə, xalqa, ölkəyə həmişə həqiqəti bildirməliyik. Ancaq eyni zamanda, həqiqəti təhrif edənlərin də qarşısını almalıyıq. Təhrif edənlərin qarşısı - yəni o mənada ki, bu barədə düzgün məlumat verməklə - alınmalıdır.

Bizim gördüyümüz işlərdən ən əhəmiyyətlisi bundan ibarətdir ki, Azərbaycanda ölüm hökmü ləğv olunubdur. Bilirsiniz, bu, tarixi bir hadisədir. Bizim ictimaiyyət, xalqımız bunu olduğu kimi qiymətləndirməlidir. Bu, adi bir hadisə, addım deyildir.

Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycanın dövləti humanist siyasət aparan bir dövlətdir.

İnsanı öldürmək ən böyük vəhşilikdir. Kimsə kimi öldürürsə o, vəhşilik edir. Ən ağır cinayət edən şəxs də əgər dövlət [309-310] məhkəməsi tərəfindən qəbul olunmuş hökmlə öldürülərsə bunun özü də ağır bir işdir. Yenə də deyirəm, ölüm hökmünün ləğv edilməsi qlobal xarakter daşıyan bir hadisədir. Yəni əsrlər

boyu yaşadığımız Azərbaycanda bizim millətimizin və keçmiş zamanlardan indiyə qədər olan dövlətlərimizin ardıcıl surətdə həyata keçirdiyi bu ölüm cəzası siyasətinə biz «yox» dedik, onun qarşısını aldıq.

Ona görə də mən hesab edirəm ki, bax, elə bu mövzunun özü bizim elmi tədqiqat təşkilatları, hüquqşünaslar üçün çox əhəmiyyətli bir mövzudur. Yenə də deyirəm, mən çalışdım ki, bunun geniş əhəmiyyətini sizə izah edim. Bu, bir, beş, on adam üçün deyildir. Məsələn, biz ölüm hökmünü ləğv edəndə ölüm hökmü ilə 100-120 nəfər insan həbsxanada idi. Onların hər biri məhkəmələr tərəfindən ədalətli cəzalandırılmışdı.

Bu ölüm hökmünü ləğv etməzdən əvvəl mən bir neçə dəfə təklif vermişdim ki, ölüm hökmünə məhkum olan adamlardan bəzilərinin sənədlərinə baxıb mənə gətirin, əfv edim, yaxud ölüm hökmünü ləğv edin, başqa bir cəza ilə əvəzləndirin. Əfv bölməsi, əfv işi ilə məşğul olanlar bunları təhlil edib gəlib mənə deyirdilər ki, elələri var ki, 5-6 adam öldürübdür, özü də vəhşicəsinə öldürübdür. Onu ölüm hökmündən necə azad etmək olar? Burada da həqiqət vardır. Ancaq bunlara baxmayaraq, 5 adam öldürmüş həmin adamı da biz - dövlət öldürmək istəmədik. Bu, dövlətin nə qədər humanist, insanpərvər olduğunu, insanı nə qədər yüksək qiymətləndirdiyini və eyni zamanda, insanın tərbiyə edilməsinə nə qədər böyük inamını göstərir.

Bizim qeyri-dövlət təşkilatları, başqa təşkilatlar da bu hadisəyə o qədər dəyərli münasibət göstərə bilmədilər, müxalifətdə olan bəzi təşkilatlar isə elə hesab etdilər ki, burada heç bir şey olmayıbdır. Amma tarixi bir hadisə baş veribdir.

Son illərdə Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin olunması sahəsində çox işlər [310-311] görülübdür. O cümlədən, xüsusən, qlavlit ləğv olunubdur. Mətbuat orqanlarında müəyyən məhdudiyyətlər var idi. Yəni həmin qlavlit də senzura fəaliyyətini tam həyata keçirmirdi. Ancaq müəyyən məhdudiyyətlər var idi və onların aradan götürülməsi Azərbaycanda insanlara həqiqətən bütün azadlıqların verildiyini dünyaya nümayiş etdirir. Ancaq verilən bu azadlıqlardan insanlar gərək ağılla, insafla istifadə etsinlər, bu imkanları öz şəxsi məqsədləri üçün istismar etməsinlər, bunlardan sui-istifadə etməsinlər.

Mən bu məsələyə də müəyyən qədər dialektik nöqteyi-nəzərdən yanaşıram. Yəni hesab edirəm ki, bilirsiniz, bu məhdudiyyətdər var idi, bu məhdudiyyətləri götürəndən sonra, ola bilər, bəzi mətbuat orqanları sadəcə, özlərini itiriblər. Hesab ediblər ki, bu azadlıqlardan artıq istifadə edib böhtan da demək, yalan da yazmaq, söyüş də söymək, təhqir də etmək və başqa şeylər də etmək olar.

Məlumdur ki, bu cür məqalələrin, mətbuatda dərc olunan fikirlərin müəllifləri beləliklə, öz mədəni səviyyələrinin hansı dərəcədə olduğunu, yaxud da ki, ümumiyyətlə, mədəni səviyyələrinin olmadığını göstərirlər. Dedim ki, mən buna dialektik nöqteyi-nəzərdən baxıram. Güman edirəm ki, zaman keçdikcə insanlar da anlayacaqlar ki, bu azadlıqlardan qərəzli, böhtançı mövqedən yox, vətəndaş mövqeyindən çıxış edərək istifadə etmək lazımdır.

Ancaq mən təəssüf edirəm ki, dövlətin, hökumətin yaratdığı bu imkanlar gətirib belə mənfi hallara çıxarır. Bir neçə qəzetlərdə son aylarda ardıcıl surətdə böhtan, təhqir xarakterli məqalələr dərc olunubdur və o təhqir olunanlar, böhtanlara məruz qalanlar öz hüquqlarını qorumaq üçün bir azca hərəkət edərkən həmin məqalələrin müəllifləri hay-küy salıblar, «hüquqlarının pozulması» haqqında danışırlar, hətta aclıq aksiyaları da keçirirlər. [311-312]

Aclıq aksiyası keçirmək bəlkə zəiflik əlamətidir. Şəxsən mən bunu belə qiymətləndirirəm. Öz haqqı, hüququ uğrunda mübarizə aparan öz mənliyini qoruyaraq mübarizə aparmalıdır. Aclıq edib kiminsə rəhmini, ona yazığı gəlməsini, yaxud da belə bir ağır vəziyyətdə kiminsə hansısa yola getməsi ilə bir şeyə nail olmaq olmaz. Ona görə də mən aclıq edənlərin hamısına məsləhət görərdim ki, bunlardan əl çəksinlər. Şübhəsiz, həqiqi aclıq edən insanlara mənim yazığım gəlir və istəməzdim ki, kimsə öz bədənini özü zəiflətsin, bunun nəticəsində hansısa bir çətinliklə rastlaşsın.

Rusiya televiziyası ilə dünən məlumat verildi ki, Ulyanovsk vilayətində müəllimlər altı aydır məvacib almırlar, uzun müddət aclıq ediblər və onlardan biri vəfat edibdir. Bunu böyük bir hadisə kimi verdilər. Ancaq o aclığın yəqin ki, əsası vardır. Çünki bu adam işləyibdir, maaş almalıdır, maaşını vermirlər.

Ancaq mən belə düşünürəm ki, bizim Azərbaycanda son vaxtlar aparılan bu aclıqlar dünyada heç analoqu olmayan aclıq kimi bir şeydir. Mən bu gün bir daha bəyan edirəm ki, aclıq aksiyalarının dayandırılmasını məsləhət görürəm. Eyni zamanda, inanıram ki, bizim ədliyyə, məhkəmə orqanları bütün işlərə ədalətli baxacaqlar. Əgər bu işlər xüsusi bir xarakter daşıyan işlər formasına gəlib çıxırsa, bu artıq ictimaiyyətin ümumi nəzarəti altındadırsa, mən heç cür düşünə bilmərəm ki, hansısa bir məhkəmə burada ədalətsizlik edəcəkdir. Bu mətbuat işçiləri əgər doğrudan da həqiqət uğrunda mübarizə aparırlarsa, mən bu gün üzümü bütün ədliyyə, məhkəmə orqanlarına tutaraq müraciət edirəm ki, hamı ədalətli olsun. Ədliyyə, məhkəmə orqanları xüsusən ədalətli olsunlar. Ancaq belə hadisələrlə Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmağa cəhd etmək lazım deyildir. İctimai-siyasi vəziyyəti bunlarla pozmaq olmaz. [312-313]

Beləliklə, bir də qeyd edirəm, Azərbaycanda insan hüquqları ilə əlaqədar aparılan işlər öz müsbət nəticələrini verir. Arzu edirəm ki, bizim dövlət, hökumət oqanları və qeyri-dövlət təşkilatları da bundan sonra insan hüquqlarının qorunması ilə əlaqədar öz səylərini birləşdirsinlər. Bu elə bir sahədir ki, burada bir-birinə fərq qoymaq lazım deyildir.

Mən çox məmnunam ki, bizim bugünkü iclasımızda qeyri-dövlət təşkilatlarının nümayəndələri də iştirak edirlər, bəziləri də çıxış etdilər. Hesab edirəm ki, çox əhəmiyyətli bir neçə fikir söylədilər və təkliflər də irəli sürdülər. Ümumiyyətlə, mən bizim aparata, yəni Prezidentin İcra Aparatına tapşırıram ki, burada irəli sürülən təkliflərin hamısını qısa bir müddətdə təhlil etsinlər və lazımi tədbirlər görsünlər. Əgər bu barədə mənim müvafiq qərarlar qəbul etməyim lazım olarsa, bu təklifləri mənə təqdim etsinlər.

Yenə də qeyd edirəm, qeyri-dövlət təşkilatları nümayəndələrinin bu gün burada iştirak etməsi müsbət haldır. Mən arzu edərdim ki, bu təcrübə gələcəkdə də davam etsin, bütün qeyri-dövlət təşkilatlarının hamısı öz siyasi dünyagörüşündən, hansısa bir partiyaya, təşkilata mənsubluğundan asılı olmayaraq Azərbaycanın ümummilli mənafeləri naminə səylərini birləşdirsinlər.

Azərbaycanın dövlət başçısı kimi mən ölkəmizdə bu qeyri-dövlət təşkilatlarının təbəqələşməsinə, yaxud bir-biri ilə ziddiyyət aparmasına, bir-biri ilə qarşıdurma mövqeyinə gəlməsinə tamamilə etiraz edirəm. Əksinə, mən bütün təşkilatları səylərini birləşdirməyə dəvət edirəm. Bəyan edirəm ki, Azərbaycanın hökumət, dövlət orqanları hər bir təşkilatla bu sahədə əməkdaşlıq etməyə hazırdır.

İndiyədək görülən işlərə qiymət verərək, eyni zamanda demək lazımdır ki, bizim qarşıda hələ görüləsi çox işlərimiz də vardır. Müstəqil Azərbaycan üçün çox şey yenidir. Demokratiya da, bazar iqtisadiyyatı da, sərbəst ticarət də, [313-314] mülkiyyətçilik də yenidir. O cümlədən insan hüquqlarına qayğı, diqqət və onların BMT-nin Ümumdünya bəyannaməsi prinsipləri əsasında qorunması da yeni bir haldır.

Təbiidir ki, biz qısa bir zaman içərisində cəmiyyəti, insanların hamısını bu prinsiplərə alışdıra bilmərik. Hətta dövlət orqanlarında da bu prinsiplərə tam riayət edilməsinə nail ola bilmərik. Reallıq bundan ibarətdir. Məsələn, Konstitusiyanı qəbul etmək, şübhəsiz, böyük iradə tələb edirdi. Amma biz bu iradəmizi Konstitusiya layihəsində əks etdirdik. Konstitusiyanın layihəsi də xalq tərəfindən referendum vasitəsilə qəbul olundu. Qanunlar ali qanunvericilik orqanında müzakirə edilib qəbul olunur. Amma bunların icra olunması - bu, böyük bir prosesdir, çox böyük prosesdir. İnsanların şüurunun dəyişməsi, psixoloji dəyişiklik, hüquqi bilik səviyyəsinin artması - bunlar isə zaman, vaxt tələb edir.

Beləliklə, mən hesab edirəm, biz öz işimizi ardıcıl aparmalıyıq. Ancaq heç kəs də nə özü üçün, nə də başqaları üçün illüziya yaratmasın ki, insan hüquqları sahəsində Azərbaycan yüksək səviyyəyə çatıbdır, ya çatmalıdır. Mən hesab edirəm ki, Azərbaycan buna hələ çata bilməyibdir. Çünki, yenə də deyirəm, biz bütün ictimaiyyətimizi bu işə alışdırmalıyıq. İcra orqanlarını bu işə tam alışdırmalıyıq. Gərək icraçının özünün şüurunda bu, öz yerini tapsın ki, o, qanunu, Konstitusiyanın tələblərini olduğu kimi icra edə bilsin. Amma bu, təkcə icraçıdan da asılı deyildir. Gərək adi bir vətəndaş da anlasın ki, o, qanuna riayət etməlidir, tabe olmalıdır, öz həyatını qanun çərçivəsində qurmalıdır. Ancaq təəssüflər olsun ki, bu gün insan hüquqlarından danışanların bəziləri və «Azərbaycanda insan hüquqlarının pozulması» haqqında hay-küy salanların özləri qanunlara riayət etmirlər, qanunları pozurlar, başqa insanların hüquqlarını pozurlar. Kiminsə hüququnu müdafiə edir, amma başqasının hüququnu pozur, başqasının hüququna təcavüz edirlər. Real vəziyyət bundan ibarətdir. [314-315]

Ona görə də mən yenə deyirəm, heç kəs, o cümlədən müxalifətdə olan təşkilatlar hesab etməsin ki, Azərbaycanda insan hüquqlarını qorumaq onlara tapşırılıbdır. Yox. İnsan hüquqları Azərbaycanın dövləti, dövlət və hökumət orqanları, respublikamızın Konstitusiyası və ölkəmizin qəbul etdiyi qanunlar tərəfindən qorunur. Bu sahədə görülən işlər göz qabağındadır. Kim həqiqətən Azərbaycanda insan hüquqlarının qorunmasına və hüquqi dövlətin inkişaf etməsinə çalışırsa, hökumətlə, dövlətlə, bütün təşkilatlarla əlbir olmalıdır, yenə də deyirəm, bu mövzunu istismar etməməlidir, bundan öz şəxsi məqsədləri üçün sui-istifadə etməməlidir.

Biz İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu yaratdıq, yəni bu barədə qərar qəbul etdik. Mən hesab edirəm ki, bu institutun qarşısında çox böyük vəzifələr durur. Arzu edərdim ki, institut bu sahədə bilikli mütəxəssislərlə, alimlərlə təşkil olunsun və yaxşı işlər görsün.

Ümumiyyətlə, mən nitqimin əvvəlində dediyim kimi, ümummilli məsələlər barəsində daha da geniş iş görmək lazımdır. Ayrı-ayrı fərdlərin hüquqlarını müdafiə etmək hər kəsin, dövlətin borcudur. Biz bunu etməliyik və edəcəyik. Amma bizim xalqımızın, millətimizin hüquqlarının qorunmasına çalışmaq və onun tapdalanmasının bundan sonra qarşısını almaq, Azərbaycan xalqına qarşı indiyə qədər edilmiş bu ədalətsizlikləri geniş təhlil etmək, böyük əsərlər, kitablar, böyük bədii əsərlər yaratmaq və bunu bütün dünyaya aşkar etmək, sübut etmək bir nəslin işi deyildir. Bu, bir çox nəsillərin işidir. Ancaq biz indi bu işə könüllü surətdə başlamalıyıq və gələcək nəsillərə də vəsiyyət etməliyik, yəni əsas yaradıb onlara hazır vəziyyətdə çatdırmalıyıq. Bu, on illərlə davam etdirilməlidir. Ancaq biz bunun əsasını könüllü surətdə qoymalıyıq. Mən azərbaycanlıların 1948-ci ildə Ermənistandan deportasiyası ilə əlaqədar verdiyim fərmanda da və başqa təşəbbüslərimdə də bu məqsədi daşıyırdım. [315-316]

İnsan hüquqlarının qorunması ilə əlaqədar son vaxtlar mən öz nitqlərimdə demişəm, bu gün bir daha təkrar edirəm, - biz əfv və amnistiya tədbirləri də görəcəyik. Prezidentin İcra Aparatında bu barədə lazımi işlər görülür və təkliflər hazırlanır. Mən bu gün bir daha tapşırıram ki, bu təkliflərin hazırlanması sürətləndirilsin. Mən verdiyim sözləri həyata keçirmək istəyirəm, əfv fərmanları vermək və amnistiya haqqında təşəbbüs irəli sürmək istəyirəm. Materialları tezliklə hazırlayıb mənə təqdim etmək lazımdır.

Hesab edirəm ki, komissiyamız öz işini davam etdirməlidir. Siz düşünməyin ki, komissiya yalnız bu bəyannamənin 50-ci ildönümünü qeyd etmək üçün yaranıbdır. Bu komissiya daimi xarakter daşımalıdır. Şübhəsiz ki, dekabr ayının 10-da böyük bir təntənəli mərasim də keçiriləcəkdir. İndiyə qədər bir neçə konfrans keçirilibdir, bu günlərdə də keçiriləcəkdir. Ancaq bununla iş bitmir. Yəni bizim bu işimiz kampaniya xarakteri daşımır. Biz bəyannamənin 50-ci ildönümünü qeyd edərək dünyaya bəyan edirik ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quraraq insan hüquqlarının qorunması bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır, dünya miqyasında, Azərbaycanın ərazisində bu bəyannamədən irəli gələn bütün tədbirləri həyata keçirəcəkdir.

Hesab edirəm ki, komissiyanın gələcək işləri haqqında da bir iş planı tərtib etmək lazımdır. Biz bu iş planına sonra baxarıq, onu təsdiq edərik. Həmin iş planı əsasında 1999-cu ildə də işlər görülməlidir və davam etdirilməlidir.

Beləliklə, hesab edirəm ki, bu gün biz komissiyamızın iclasında qarşımızda duran məsələləri müzakirə etdik. Bir daha tapşırıram, irəli sürülən təkliflərin hamısına baxılsın və mənə məruzə edilsin. Sağ olun. [316]

## BEYNƏLXALQ VALYUTA FONDUNUN (BVF) AZƏRBAYCAN ÜZRƏ MİSSİYASININ RƏHBƏRİ DEVİD OUEN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 dekabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Ouen, hörmətli qonaqlar!

Beynəlxalq Valyuta Fondunu salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan arasındakı əməkdaşlıq iqtisadiyyat və maliyyə sahəsində indiyə qədər gördüyümüz və gələcəkdə görüləcək işlərimizin böyük bir hissəsini təşkil edir. Hesab edirəm ki, Beynəlxalq Valyuta Fondu ilə Azərbaycanın indiyə qədər olan əməkdaşlığı uğurludur və ümid edirik ki, gələcəkdə bundan da uğurlu olacaqdır. Siz bizim maliyyə, iqtisadiyyat məsələlərimizi təhlil edirsiniz, araşdırırsınız və həmişə müstəqil fikir söyləyirsiniz, öz təkliflərinizlə, məsləhətlərinizlə bizə çox kömək edirsiniz. Güman edirəm, sizin bu dəfəki səfəriniz zamanı da bu barədə müəyyən iş görmüsünüz. Ona görə də sizi dinləmək istəyirəm.

**D e v i d  O u e n**: Cənab prezident, bugünkü görüş üçün imkan yaratdığınıza görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Gec də olsa, təklif edərdim ki, bugünkü görüşü Sizə təbriklərlə başlayım. Prezident seçilməyiniz münasibətilə Sizi, gec də olsa, təbrik edirəm.

**H e y d ə r  Ə l i y e v**: Sağ olun, təşəkkür edirəm. [317-318]

**D e v i d  O u e n**: Sizin qeyd etdiyiniz kimi, Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan arasında əlaqələr yaxşı səviyyədədir. Mən hətta qeyd etmək istərdim ki, lap əla səviyyədədir. İnanıram ki, Sizin yenidən prezident seçilməyinizdən sonra, Sizin liderliyiniz sayəsində əlaqələrimiz daha da yaxşılaşacaq, Sizdə makroiqtisadi sahədə və digər sahələrdə islahatlar daha sürətlə gedəcəkdir. Ölkədəki makroiqtisadi islahatlarla əlaqədar həm Sizə, həm də iqtisadiyyat sahəsində fəaliyyət göstərən komandanıza təbriklərimi yetirmək istəyirəm.

İqtisadi artım müşahidə olunur, inflyasiya məqbul səviyyədədir və ümumiyyətlə, iqtisadi sahədə uğur əldə etmisiniz. Manatın məzənnəsi sabit səviyyədə qalmaqdadır. Azərbaycan bütün bunların hamısına özündən asılı olmayan, öz nəzarətindən kənarda olan iki xarici şoka baxmayaraq nail olmuşdur. Bu şoklardan biri neftin qiymətinin aşağı düşməsidir. Neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, respublikada iqtisadi vəziyyəti sabit saxlamağa müvəffəq olmusunuz. İkinci şok isə Rusiyanın düşdüyü böhran vəziyyətidir.

Heç də demək olmaz ki, bu şokların heç bir təsiri olmamışdır. Təəssüf ki, onların müəyyən təsiri olmuşdur. Bu da qaçılmaz haldır. Ona görə bunun büdcə gəlirlərinə müəyyən təsiri olmuşdur. Həm də xarici ticarətdə Rusiya müəyyən yer tutduğuna görə, xarici ticarətə də təsir göstərmişdir.

Lakin eyni zamanda mən keçmiş SSRİ-nin digər respublikaları ilə Azərbaycanı müqayisə də etmişəm. Görmüşəm ki, keçmiş SSRİ-nin digər respublikaları ilə müqayisədə bu böhran Azərbaycanda faktiki olaraq baş verməmişdir. Azərbaycan faktiki olaraq bütün bu böhran fırtınalarına sinə gərə bilmişdir. Bu təzyiqlərə davam gətirmək bacarığı, böhran dövründə ehtiyatlardan az istifadə edilməsi Azərbaycanı keçmiş SSRİ səviyyəsində faktiki olaraq ən yüksək göstəricilərə malik respublikalardan biri etmişdir. Azərbaycan öz göstəricilərinə görə hazırda Baltikyanı respublikalarla müqayisə oluna bilər. [318-319]

**H e y d ə r  Ə l i y e v** (*tərcüməçiyə*): Sən tərcümədə bir az düzgün demədin. SSRİ səviyyəsində yox, keçmiş SSRİ-yə mənsub olan ölkələr içərisində.

**D e v i d  O u e n**: Azərbaycanı və Baltikyanı respublikaları çıxmaq şərti ilə, digər keçmiş SSRİ respublikalarında valyuta məzənnəsində 40 faizə qədər fərq olmuşdur. Yəni, onların milli valyutalarının məzənnəsi 40 faizə qədər aşağı düşmüşdür.

Bu, Azərbaycanın həm makroiqtisadi islahatları vaxtlı-vaxtında keçirdiyini, həm də büdcəyə nəzarətin, eyni zamanda xarici borclara nəzarətin lazımi qaydada keçirildiyini göstərir.

Bankların strukturunun dəyişdirilməsi sahəsində atdığınız addımları da tam dəstəkləyir, bu işdə əldə etdiyiniz tərəqqini vurğulamaq istəyirəm. Bu yaxınlarda Sizin Beynəlxalq Bankın özəlləşdirilməsi haqqında fərmanınızı oxudum və biz bunu çox gözəl qəbul edirik. Elə bilirəm ki, bu, vacib addımdır. Eyni zamanda inanmaq istəyirəm ki, bu, yalnız ilkin addımdır və ümumiyyətlə bank sisteminin dəyişdirilməsi üçün daha mühüm işlər görüləcəkdir.

İndi isə, icazə versəydiniz, Azərbaycana bu dəfəki səfərim haqqında danışardım. Bu səfər müddətində həmkarlarımızla çox yaxşı əməkdaşlıq etmişik, faydalı fikir mübadilələri olubdur. Eyni zamanda 1999-cu il üçün nəzərdə tutulmuş maliyyə siyasətini müzakirə etmişik və razılıqlara gəlmişik. Nazirlər Kabinetində keçirdiyimiz əla görüşləri də qeyd etmək istəyirəm. Bu görüşlər zamanı struktur islahatlarını müzakirə etmişik və struktur islahatları proqramı qəbul etmişik. Elə bilirəm ki, Siz bu cür siyasət həyata keçirməklə ötən illərdə əldə etdiyiniz iqtisadi göstəricilərdən daha yüksək uğurlara nail olacaqsınız.

**H e y d ə r Ə l i y e v**: Mən Sizə razılığımı bildirir və təşəkkür edirəm. Azərbaycanın iqtisadi-maliyyə vəziyyəti haqqın[319-320]da söylədiyiniz fikirlər və Beynəlxalq Valyuta Fondunun rəyi məni çox sevindirir.

Məlumdur ki, Azərbaycan keçmişdə Sovetlər İttifaqına daxil olmuş, indi müstəqil dövlət olan digər ölkələrlə bərabər eyni problemlərlə, çətinliklərlə üzləşir. Hətta bizim problemlərimiz Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin bir çoxunun problemlərindən daha da çoxdur. Mən birinci növbədə Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin bir qisminin işğal edilməsini və işğal olunmuş torpaqlardan zorla çıxarılmış bir milyona qədər azərbaycanlının qaçqın-köçkün vəziyyətində, ağır şəraitdə, çadırlarda yaşamasını nəzərdə tuturam.

Bununla bərabər, Amerika Birləşmiş Ştatları Konqresinin Azərbaycana qarşı ayrıseçkilik qərarı - 907-ci düzəliş var və altı ildir ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının keçmiş Sovetlər İttifaqına daxil olan indiki müstəqil dövlətlərə etdiyi maliyyə yardımından məhrumdur. Bilirsiniz ki, bizim qonşularımız Ermənistan və Gürcüstan Amerika Birləşmiş Ştatları hökumətindən ildə 100 milyon dollardan artıq bilavasitə maliyyə yardımı alırlar. Amerika Birləşmiş Ştatları başqa ölkələrə də yardımlar edir. Amma Azərbaycan bu yardımdan da məhrumdur. Mən bunlara görə deyirəm ki, biz öz iqtisadi-maliyyə vəziyyətimizə görə Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa respublikalardan daha da çətin vəziyyətdəyik.

Belə olan halda Azərbaycanın iqtisadiyyatının bugünkü vəziyyəti və onun haqqında xüsusən sizin, dünyanın böyük maliyyə mərkəzi olan Beynəlxalq Valyuta Fondunun fikirləri və rəyi, şübhəsiz ki, bizim gördüyümüz işlərin əyani nəticəsini göstərir. Onu göstərir ki, iqtisadi islahatlar ardıcıl şəkildə həyata keçirilən halda nə qədər çətinliklər olsa da, iqtisadiyyatda nailiyyət əldə etmək mümkündür. Biz isə, bəyan edirəm, indiyə qədər olduğu kimi, bundan sonra da iqtisadi [320-321] islahatların həyata keçirilməsini davam etdirəcəyik. Mən görüşün əvvəlində də qeyd etdim ki, biz bu işlərdə Beynəlxalq Valyuta Fondunun həm tövsiyələrinə, məsləhətlərinə, həm də maliyyə yardımına arxalanırıq. Buna görə də bir daha qeyd edirəm ki, bizim əməkdaşlığımız uğurlu olubdur. Mən Beynəlxalq Valyuta Fonduna bir daha Azərbaycan dövlətinin hörmət və ehtiramını bildirirəm.

Azərbaycana indiyə qədər göstərilən yardımlara görə və bizimlə səmərəli əməkdaşlığa görə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, biz bu əməkdaşlığı davam etdirəcəyik. Birincisi, ona görə ki, biz bunun müsbət nəticəsini görürük. Eyni zamanda bizim üçün bu, kənardan məcburi tətbiq olunan bir şey deyildir. Biz özümüz, Azərbaycan dövləti iqtisadi islahatları həyata keçirməyi iqtisadi siyasətimizin strateji istiqaməti kimi qəbul etmişik. Sadəcə, bu sahədə bizim fikirlərimiz üst-üstə düşür, bu barədə məsələlərə münasibətimizdə ziddiyyətlər yoxdur. Əksinə, biz yaxşı əməkdaşlıq edirik və siz də əməkdaşlığımızın uğurlu olduğunu görərək bizə daha da çox yardım etməyə çalışırsınız.

Beynəlxalq Bankın özəlləşdirilməsi haqqında fərmanım barədə söylədiyiniz fikirlər məni sevindirir. Mən sizin tövsiyələrinizi də qəbul edirəm ki, ümumiyyətlə başqa banklarla da əlaqədar ciddi dəyişikliklər həyata keçirməliyik. Yəni, bank sistemi sahəsində sizin tövsiyələrinizi tamamilə qəbul edirik və sizinlə birlikdə bunları həyata keçirəcəyik.

Ümumiyyətlə biz özəlləşdirmə proqramını bundan sonra da həyata keçirəcəyik. Baxmayaraq ki, özəlləşdirmə müsbət nəticələrlə yanaşı, bizim üçün bir çox problemlər də yaradıbdır, ancaq güman edirəm ki, sizinlə birlikdə biz bu problemlərin də aradan qaldırılmasına nail ola biləcəyik.

Siz Rusiyadakı maliyyə böhranının başqa ölkələrə təsiri haqqında fikirlərinizi bildirdiniiz. Yaxşı bilirsiniz ki, bu böhran bizim maliyyə-iqtisadi sistemimizə də təsir etdi. [321-322] Ancaq gördüyümüz tədbirlər nəticəsində bu təsirin qarşısını ala bildik.

Siz dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi haqqında da söylədiniz. Bilirsiniz ki, Azərbaycanın iqtisadiyyatında neftdən əldə olunan gəlir böyük bir hissəni təşkil edir. Neftin qiymətinin şiddətli aşağı düşməsi iqtisadiyyatımıza çox böyük mənfi təsir edir. Biz bunların da qarşısını alırıq. Amma çətinliklərimiz də var, siz bunu bilirsiniz.

1999-cu ildə bu çətinlikləri aradan qaldırmaq üçün sizinlə əməkdaşlığa və sizin yardımınıza ümid bəsləyirik. İndi Azərbaycanda dövlət büdcəsini hazırlayırlar. Nazirlər Kabineti artıq bunu mənə təqdim edibdir. Hesab edirəm, bu ay ərzində ona baxıb Milli Məclisə - parlamentə göndərəcəyik. Arzu edirəm ki, ilin axırına qədər büdcə qəbul olunsun.

Ancaq sizə məlum olan iki amil - Rusiyada maliyyə böhranı və neftin qiymətinin aşağı düşməsi bizim büdcənin təşkil olunmasında da və gələcəkdə onun yerinə yetirilməsində də böyük çətinliklər yaradır. Biz bu sahədə də sizin yardımınıza ümid bəsləyirik.

Xatirinizdədir, bir il, iki il bundan öncə Beynəlxalq Valyuta Fondunda və Dünya Bankında belə fikir yaranmışdı ki, Azərbaycanda xarici şirkətlərlə neft istehsalına artıq başlanıb, Azərbaycanın neft məhsulları çoxalır, ona görə də Azərbaycan iqtisadi cəhətdən zənginləşir və Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının Azərbaycana yardımını azaltmaq lazımdır. Ancaq Beynəlxalq Valyuta Fondunda və Dünya Bankında bu barədə proqnozların vaxtı düzgün müəyyən olunmamışdır. Biz o vaxt da sizə deyirdik və indi də görürsünüz ki, Azərbaycanın xarici şirkətlərlə birlikdə gördüyü işlərdən böyük gəlir götürməsi üçün hələ bir müddət lazımdır. Təəssüflər olsun ki, bunu siz də, Dünya Bankı da, Avropa

Birliyinin iqtisadi Komissiyası da nəzərə almadı. İndi isə görürsünüz, biz hələ xarici şirkətlərlə birlikdə çox neft [322-323] hasil etməmişik, hasil etdiyimiz neftin də qiyməti iki dəfə aşağı düşübdür. Belə bir vəziyyəti yəqin ki, siz də proqnozlaşdıra bilməzdiniz.

Amma sizdən fərqli olaraq, biz bir şeyi dəqiq bilirdik ki, imzaladığı müqavilələrdən Azərbaycanın hələ qarşıdakı illərdə gəliri olmayacaqdır. Bilirsiniz ki, bir il bundan öncə biz ilk konsorsiumla iş gördüyümüz «Çıraq» neft yatağından hasilata başlamışıq. 2 milyon ton neft hasil olunub və dünya bazarına çıxarılıbdır. Ancaq bundan Azərbaycanın büdcəsinə heç bir gəlir gəlməyibdir. Çünki siz bilirsiniz, müqavilənin şərtlərinə görə, əldə olunan gəlir hələ qoyulmuş xərclərin ödənilməsinə getməlidir.

Bax, belə yanlış fikirlərlə Avropa Birliyi vaxtilə, 1994-cü ildə özünün bizə təklif etdiyi krediti, - hansı ki, heç biz başa düşmürük, bunu bizə kredit verirlər, yaxud sadəcə kömək, qrant kimi verirlər, - keçən il bizdən tələb etdi və biz Avropa Birliyinə 57 milyon dollar qaytarmalı olduq. Gürcüstan, Ermənistan da bizim aldığımız qədər bu kreditdən almışdı. Ancaq onlar o kreditləri qaytarmayıblar. Çünki Avropa Birliyi də, siz də hesab edirsiniz ki, Gürcüstanın, Ermənistanın o kreditləri qaytarmağa imkanı yoxdur, amma Azərbaycan neft ölkəsidir, onun imkanı var. Ona görə biz Avropa Birliyinə 57 milyon dollar qaytardıq.

İndi də Rusiyadakı böhranın təsirinin qarşısını öz imkanlarımızla aldıq. Amma siz deyirsiniz ki, Baltikyanı ölkələrdən və Azərbaycandan başqa qalan ölkələrə bu böhran təsirini göstərib və onlarda maliyyə problemləri yaranıbdır. Belə düşünmək olar ki, siz yenə onlara maliyyə köməyi etməyə başlayacaqsınız, amma Azərbaycana kömək etməyəcəksiniz. Belə bir nəticə çıxarmaq olar ki, yaxşı kömək almaq üçün gərək pis işləyəsən. Yaxşı işləyənə kömək etmirlər. Mən görürəm, indi Beynəlxalq Valyuta Fondu Rusiyaya nə qədər kömək etməyə çalışır və Beynəlxalq Valyuta Fondu ilə hər [323-324] gün danışıqlar aparılır. Şübhəsiz ki, bizim buna etirazımız yoxdur. Amma istəyirik ki, bizə də bu qədər diqqət yetirilsin.

Şübhəsiz ki, mən bu sözlərlə bizə indiyə qədər olan diqqət və qayğını, Beynəlxalq Valyuta Fondunun Azərbaycana yardımını inkar etmirəm. Əksinə, bununla bir daha bildirmək istəyirəm ki, biz sizinlə çox ciddi əməkdaşlıq edirik, Beynəlxalq Valyuta Fondunun fəaliyyətini yüksək qiymətləndiririk. Hesab edirik ki, ümumiyyətlə, dünyada maliyyə prolemlərinin həll olunmasında Beynəlxalq Valyuta Fondunun böyük xidmətləri var. Ümid edirik ki, bizim əməkdaşlığımız gələcəkdə daha da uğurlu olacaqdır. [324]

## ÜZEYİR HACIBƏYOVUN «O OLMASIN, BU OLSUN» MUSİQİLİ KOMEDİYASININ YENİ QURULUŞDA İLK TAMAŞASINA BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Azərbaycan Dövlət Musiqili Komediya Teatrı*

*4 dekabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Sizi təbrik edirəm. Bu gün yeni binada yeni tamaşa təqdim etdiniz. Sizi həm teatrınızın işə başlaması, uzun fasilədən sonra fəaliyyətə başlaması, həm də birinci uğurlu tamaşanız münasibətilə təbrik edirəm.

Bilirsiniz, bəzən elə olur ki, bədbəxt bir hadisə sonra böyük bir xoşbəxtliyə gətirib çıxarır. Əgər bu teatr dağılmasaydı, ola bilər, yeni bina da tikilməyəcəkdi. Vaxtilə Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş bu teatr öz həyatını sürdü, öz dövrünü yaşadı və dağıldı. Ancaq biz də bunun yerində həyatımızın bu çətin dövründə bina tikdik. Düzdür, bu bina əvvəlki binanın arxitekturası üzərində tikilibdir. Amma şübhəsiz ki, bu, ondan da çox yaxşıdır, müasirdir. Bu, çox gözəldir.

**P o l a d  B ü l b ü l o ğ l u** (*Mədəniyyət naziri səlahiyyətlərini icra edən):* Cənab prezident, burada hər cür şərait vardır. Bu, ən müasir texniki tələblərə cavab verən bir teatrdır. Aktyorlar üçün çox gözəl şərait yaradılmışdır.

**H e y d ə r  Ə l i y e v**: Mən bunun hamısını bilirəm. Gəlib baxmışam. Mən sevinirəm ki, indi, həyatımızın çətin dövrün[325-326]də belə bir teatr binasını tikib yarada bildik. Siz də bundan istifadə edirsiniz. Ümid edirəm ki, gələcək nəsillər də bundan istifadə edəcəklər və bu günləri yad edəcəklər ki, biz həyatımızın ağır dövründə bu binanı tikdik və gələcək nəsillərə yadigar verdik.

Bu gün yenidən öz fəaliyyətinizi gözəl bir tamaşa ilə – Üzeyir Hacıbəyovun «Məşədi İbad» müsiqili komediyası ilə başladınız. Biz buna musiqili komediya deyirik, amma o vaxt Üzeyir Hacıbəyov yazanda bunun adını operetta qoymuşdu. Bu, çox gözəl tamaşadır. Cənnət xanım Səlimova tamaşaya gözəl quruluş veribdir. İndi o, universal rejissor kimi müxtəlif tamaşalara quruluş verir.

«Məşədi İbad» tamaşasını çox gözəl göstərdiniz. Düzdür, biz bunun hamısını görmüşük. Məsələn, mən bu tamaşanı Azərbaycan teatrında 40-50 il bundan öncə də görmüşəm. Sonra bunu bizim böyük rejissorumuz Hüseyn Seyidzadə filmə çəkdi. O, çox gözəl filmdir. Ola bilər, film çəkilən vaxt onu yaxşı qiymətləndirə bilmədilər - mənim xatirimdədir, bu, 60-cı illərdə idi. Ancaq indi, zaman keçdikcə bəzən bizim televiziya vaxtaşırı o filmi göstərir. O film göstəriləndə mən böyük həvəslə baxıram. Çox gözəl bir filmdir.

Siz bu əsərə yenidən səhnə həyatı verdiniz və bu gün çox gözəl də tamaşa göstərdiniz. Ona görə də mən sizin hamınızı təbrik edirəm. Quruluşçu rejissor Cənnət xanımı təbrik edirəm ki, belə gözəl quruluş yaradıbdır. Rəssam İsmayıl Məmmədovu təbrik edirəm, çünki tamaşada çox gözəl dekorasiyalar, tərtibatlar vardır. Musiqi çox gözəl müşayiət olunduğuna görə dirijoru təbrik edirəm və səhnədə oynayanların hamısını təbrik edirəm. Hamınızın adınızı demək mənim üçün çətin olacaqdır, amma gərək Hacıbabanın, Afaq xanımın adlarını çəkəm. Bağışlasınlar, başqalarının adlarını bilmirəm. Hamınız rolları çox gözəl ifa edirdiniz. [326-327]

Bilirsiniz, bu əsər ölməz əsərdir. Mən bu gün tamaşaya baxmağa çox həvəslə gəldim. Doğrudur, mənim işim çoxdur. Son zamanlar da ictimai tədbirlər çox olur. Hər axşam bir yerə gedirsən. Mən gecə saat birə qədər respublika əhəmiyyətli işlərlə məşğul oluram. Amma siz bunu görmürsünüz. Bunu nə televiziya, nə teatr, nə də başqası görür. Ona görə də mənim üçün o qədər də asan deyildir. Çünki işim çoxdur. Amma buna baxmayaraq mən bura böyük həvəslə gəldim və bundan da çox razıyam. Nəinki özüm, hətta oğlumla, gəlinimlə birlikdə gəlmişik. Hər halda, Bakıda olan ailə üzvlərimin hamısı buradadır. Təkcə nəvəm evdə qalıbdır. O gələ bilməyibdir. Bura həvəslə gəldim və çox böyük zövq aldım. Ona görə sizə təşəkkür edirəm ki, siz bizi bu gün əyləndirdiniz, sevindirdiniz.

Ancaq mən burada tamaşanın əvvəlindən indiyə qədər bu əsər haqqında düşünürəm. Şübhəsiz ki, birinci növbədə bizim dahi bəstəkarımız, dahi insanımız Üzeyir Hacıbəyov haqqında da düşünürəm. Bəzən bu «Məşədi İbad»ı xalq arasında gülməli bir tamaşa kimi qəbul edirlər. İnsanlar gəlir, baxır, gülür, əylənir və hesab edirlər ki, elə bunun mənası budur. Ancaq bunun çox dərin bir mənası vardır. Bilirsiniz, bu əsər dahi bir əsərdir. Üzeyir Hacıbəyovun əsərlərinin hamısı dahi əsərlərdir.

Məsələn, biz adətən öyrənmişik və deyirik ki, «Koroğlu» operası Üzeyir Hacıbəyovun şah əsəridir. Bunu bizim musiqişünaslar deyir, hamımız deyirik. Doğrudan da «Koroğlu» operası əzəmətli bir əsərdir və bizim opera sənətində ən yüksək zirvədə duran bir əsərdir. Ancaq gəlin baxaq görək, Üzeyir Hacıbəyovun hansı əsəri şah əsər deyildir? Bunu bir-birindən seçmək mümkün deyildir. Çünki hərəsinin

özünəməxsus yeri, məzmunu və mənası vardır. Mən indi bütün personajlara diqqətlə fikir verirdim. Bunları Üzeyir Hacıbəyov sadəcə olaraq insanları güldürmək üçün yox, o vaxtkı [327-328] cəmiyyəti göstərmək üçün yazıbdır və cəmiyyəti o qədər gözəl, ağıllı, real göstəribdir ki, buna heyran olursan.

Məsələn, mən bu gün sizin hazırladığınız tamaşaya baxarkən bir daha hiss etdim ki, Üzeyir Hacıbəyov nə qədər dahi bir insan imiş. İndi bu əsər, - buna operetta da, musiqili komediya da desəniz, - amma bu əsərin əsasını təşkil edən bunun dramaturgiyasıdır. Mən Elçin Əfəndiyevi də bura dəvət etdim. O dramaturqdur, bu işləri məndən yaxşı bilər. Bu əsərin əsasını təşkil edən bunun dramaturgiyasıdır. Yəni biz Üzeyir Hacıbəyova adətən deyirik ki, bəstəkardır, musiqi yazandır. Şübhəsiz ki, Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti də böyük olubdur. Ancaq Üzeyir Hacıbəyov bu əsərləri birinci növbədə dramaturq kimi yaradıbdır. Yəni bu əsərin məzmununu, personajları yaradıbdır, bunların hər birinin xüsusiyyətlərini, obrazını yradıbdır. Ondan sonra bunlara musiqi yazıbdır. Çünki Məşədi İbad obrazı məlumdur, - bəli, 50 yaşında bir kişinin evlənməsi gülməli gəlir ki, 50 yaşında kişi evlənə bilərmi?

**Elçin Əfəndiyev**: O vaxt Üzeyir Hacıbəyov özü bunu etiraf edir. O, 50 yaşı keçəndən sonra yazır ki, mən o yazıq Məşədi İbadı biabır eləmişəm, amma bu, özümün də başıma gəlibdir.

**Heydər Əliyev**: Bəli, zahirən bu görünür. 50 yaşında bir kişi evlənmək istəyir və buna da hamı gülür ki, necə ola bilər, bu yaşda kişi cavan qız alsın. Bu da onu pulnan alır və s. Amma iş burasında deyil. Üzeyir Hacıbəyov o vaxt bir-bir personajın cəmiyyətdəki yerini olduğu kimi göstəribdir. Məşədi İbadın obrazında o dövrün insanlarının bir qismini göstəribdir, Rüstəm bəyin obrazında bir başqasını göstəribdir. Təsəvvür edin, dərindən fikirləşəndə görürsən ki, əsərdəki inteligent Həsən, qəzetçi Rza, qoçu Əsgər obrazlarının hər biri böyük məna daşıyır. O vaxt Üzeyir Hacıbəyov əsəri yazarkən bu insanlar Azərbaycanda var idi. Onların mənfi cəhə[328-329]tini, xüsusiyyətini, cəmiyyətdə yerini və ümumiyyətlə, cəmiyyətin rəngarəngliyini Üzeyir Hacıbəyov bu obrazları yaradaraq göstəribdir.

Məsələn, Məşədi İbadın papağı başına necə qoyması barədə söylədiyi monoloqu götürək. Bunu adi bir söhbət kimi düşünmək olar. Deyir ki, «mən papağımı belə qoysam, deyəcəklər Bakı qoçusudur. Belə qoysam, deyəcəklər Şamaxı lotusudur. Belə qoysam, deyəcəklər Gəncə qumarbazıdır. Belə də qoysam deyəcəklər ki, Qarabağın pambıq bəylərinə oxşayır». Bu sözlər adi sözlər deyildir. Üzeyir Hacıbəyov o vaxt deyib, - bəli, Bakı qoçusu da var, Şamaxı lotusu da var, Gəncə qumarbazı da var, Qarabağın pambıq bəyi də var. Əgər bunu bir az da uzatsaydı, başqalarını da deyə bilərdi. Yəni o dövrün xüsusiyyətlərini, cəmiyyətin tərkibini göstəribdir. Bu, adi bir şey deyildir. Heç kəs hesab etməsin ki, Üzeyir Hacıbəyov bu sözləri bir-birinə sadəcə qoşubdur, yaxud bu monoloqu da insanların gülməsi üçün yazıbdır. Yox. Üzeyir Hacıbəyov burada nə qədər dərin fəlsəfəyə malik fikirlər ifadə edibdir və o dövrün sosial problemlərini, siyasi, ictimai həyatını, bizim xalqımızın o dövrdəki problemlərinin müsbət və mənfi cəhətlərini çox gözəl göstəribdir.

Məsələn, tamaşada hamam səhnəsini götürün. Doğrudan da bu, çox qəribə bir sənhədir. Yəqin ki, indi bizim gənclər bilmirlər, - keçmişdə adət belə olub ki, oğlan və qız evlənəndə mütləq oğlanı da, qızı da hamama aparırdılar və bu, böyük təntənə ilə olurdu. Bu, təbii bir şeydir. Üzeyir Hacıbəyov bunu adət-ənənədən götürübdür, amma eyni zamanda hamam səhnəsini və hamamın o vaxt həyatda rolunu necə gözəl göstəribdir. Yəni mən bunu indi təhlil etmək istəmirəm. Mən bu gün bunu bir daha dərk etdim.

Mən əvvəllər də bu əsər haqqında belə düşünmüşəm. Amma bu gün bir daha bunu başdan-ayağa gördüm. Bir var ki, buna televiziyada kinoya baxırsan, bir də var ki, səhnədə [329-330] canlı insanlara baxırsan və şübhəsiz ki, onların ifaçılıq sənətini qiymətləndirərək, eyni zamanda hər obrazın əhəmiyyətini görərək mən şəxsən belə qənaətə gəlirəm ki, bu əsər dahi bir əsərdir. Bu, heç də gülmək üçün yazılmayıbdır, bəlkə də bəzilərinin ağlaması üçün yazılıbdır. Bu, zamanın reallığıdır, faciəsidir. Bu, əsərdəki hər bir epizodda görünur. Demək, kasıb Rüstəm bəydən pulnan qız almaq olarmış. Bu, doğrudan da o dövrün həqiqətidir. Yaxud, indi də bəzi jurnalistlər gəlib deyirlər ki, «pul ver, gedim məqalə yazım». Bəzən hesab edirlər ki, bu, demokratiyanın, mətbuat azadlığının nəticəsidir. Demək, bu, yüz il bundan öncə də olubdur.

**Hacıbaba Bağırov**: Hörmətli prezident, hələ pul istəmək yaxşıdır. Biz yeni binaya köçəndən sonra cavan bir jurnalist qız gəlmişdi. Mənə deyir ki, bu binanı siz tikdirmisiniz? Mən də dedim ki, bacım, mənim beş nəslim də yığışsa, buna imkanım çatmaz. Bu, hökumət idarəsidir. Yəni belə jurnalistlər də vardır.

**Heydər Əliyev**: Azərbaycanda Məşədi İbad obrazını hamı bilir. Amma bu obrazların hər birinin böyük əhəmiyyəti, xüsusiyyəti vardır. Üzeyir Hacıbəyov onların heç birini təsadüfi yaratmayıbdır. Demək, əsrin əvvəlində də əsrin sonunda yaşadığımız problemlər olub.

Məsələn, tamaşada tost söylənilən səhnədə deyir ki, dünya get-gedə xarab olur. Üstündən yüz il keçibdir, indi də deyirlər ki, dünya get-gedə xarab olur. Amma dünya xarab olmur. Boş söz danışan adamlar iş görmək əvəzinə orada danışıq aparır, burada söz gəzdirir və deyir ki, dünya xarab olur. Dünya xarab olmur. İndi görün, XX əsrdə dünya nə qədər inkişaf edibdir! Əsrin əvvəlinə, Üzeyir Hacıbəyov bu əsəri yaratdığı dövrə baxın, XX əsrin sonuna baxın. Görün dünya nə qədər inkişaf edibdir, o cümlədən Azərbaycan nə qədər inkişaf edibdir. Amma bu gün də, yüz il bundan əvvəki kimi, adamlar çayxanada oturub deyirlər ki, dünya, hər şey xarab olur. [330-331]

Bilirsiniz, bu əsər müasir bir əsərdir, bizim müasirliyimizi göstərir. Yəni yüz il bundan öncə Azərbaycanda olan problemlər bu gün də vardır və bunu bu əsər bir daha göstərir. Heç kəs hesab etməsin ki, bunlar keçmişdə qalıbdır. Yox. Dünya dəyişib, inkişaf edib, Azərbaycan inkişaf edib, cəmiyyət inkişaf edibdir. Amma sosial, əxlaqi və başqa problemlər hələ yaşayır. Ona görə də bu əsər bu gün üçün də, gələcək nəsillər üçün də lazımdır.

Mən bu gün bu sözləri Üzeyir Hacıbəyovun dahiliyinin XX əsrdə Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti olduğuna görə qeyd edirəm və mənim bugünkü tamaşadan ən əsas nəticəm bundan ibarətdir. Bizim Azərbaycanın teatr sənətinin inkişafına gəldikdə isə, şübhəsiz ki, Üzeyir Hacıbəyov bunu səhnəyə qoyanda sizin kimi ifaçılar yox idi. Ancaq indi sizin kimi ifaçılar, belə gözəl teatr vardır. Eyni zamanda başqa imkanlar vardır. Yeni əsərlər yaratmaq lazımdır. Güman edirəm ki, bizim dramaturqlar, yazıçılar, bəstəkarlar yeni əsərlər yaratmalıdırlar. Hər halda güman etmirəm ki, kimsə Üzeyir Hacıbəyovun səviyyəsinə çata bilsin.

**Elçin Əfəndiyev**: Cənab prezident, Üzeyir bəydən sonra çoxlu operettalar yazıldı, amma heç biri onun səviyyəsinə qalxa bilmədi. Baxmayaraq ki, musiqi, təhsil inkişaf etdi, amma ilk nümunəyə gəlib çatan olmadı.

**Heydər Əliyev**: Bəli, yenə də deyirəm, Üzeyir Hacıbəyovu böyük bir musiqiçi kimi hamı, bütün dünya tanıyır və biz də Üzeyir Hacıbəyovun adı çəkiləndə onu bir bəstəkar, musiqiçi kimi tanıyırıq. Amma o, nə qədər böyük filosofdur, alimdir, Azərbaycanın həyatını o vaxtlar təhlil edərək nə qədər belə dahi əsərlər yarada bilibdir. Yenə də deyirəm, o, «Məşədi İbad» pyesinin musiqisini yazmazdan əvvəl əsərin özünü yazıbdır. Onun süjeti, məzmunu həyatdan götürülmüşdür. Ancaq bunlar Üzeyir Hacıbəyov fəlsəfəsin[331-332]dən, onun fikir və mülahizələrindən keçərək yaranmış obrazlar, fikirlər, sözlərdir.

Mən sizin hamınızı bir daha təbrik edirəm. Gözəl aktyorlarsınız, sənət ustalarısınız. Azərbaycan teatrını inkişaf etdirmisiniz və inkişaf etdirirsiniz. Biz hamımız Mirzə Fətəli Axundova, Nəcəf bəy Vəzirova minnətdar olmalıyıq ki, 125 il bundan öncə Azərbaycanda dünyəvi teatr yaradıblar. Üzeyir Hacıbəyova və bizim başqa dahi şəxsiyyətlərimizə minnətdar olmalıyıq ki, onlar belə gözəl, əbədi yaşayan əsərlər yaradıblar. Sizə də minnətdarıq ki, siz Azərbaycanda XX əsrin sonunda teatr sənətini inkişaf etdirirsiniz. Hamınıza uğurlar diləyirəm, yeni-yeni yaradıcılıq uğurları, hər birinizə cansağlığı və səadət arzulayıram. Sağ olun. Gecəniz xeyrə qalsın.

**Hacıbaba Bağırov**: Cənab prezident, Sizin qayğınız və xeyir-duanız ilə yenidən istifadəyə verilən teatrın 60 illiyi və 50-ci teatr mövsümünün açılışı münasibətilə göstərilən «O olmasın, bu olsun» tamaşasına baxdığınıza və verdiyiniz yüksək qiymətə görə Sizə bütün kollektiv adından dərin minnətdarlığımı bildirirəm. [332]

## QAÇQINLAR VƏ KÖÇKÜNLƏR ÜÇÜN HAZIRLANMIŞ EVLƏRƏ VƏ MÜXTƏLİF TƏYİNATLI OBYEKTLƏRƏ BAXDIQDAN SONRA SÖHBƏT

*Keşlə yük stansiyası*

*6 dekabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Çadır şəhərciklərinə yola salınmaq üçün qatara yüklənmiş evlərə və müxtəlif təyinatlı obyektlərə baxdım, Keşlə yük stansiyasında görülmüş abadlıq işləri ilə də tanış oldum. İndi buraya xeyli dəmiryolçu toplanmışdır. Sizlərə müraciətlə soruşmaq istəyirəm: İşləriniz necədir?

**D ə m i r y o l ç u l a r**: Əladır.

**H e y d ə r Ə l i y e v**: Xorla deyirsiniz əladır. Azərbaycanda indi heç bir şey əla deyildir. Nə cür ola bilər ki, siz hər şeyə əla deyirsiniz?

**R a f i q M u s t a f a y e v** (*Keşlə yük stansiyası rəisinin müavini*): Cənab prezident, xoş gəlmisiniz. Sizi burada görməyimizə çox şadıq. Mən Sizi 1992-ci ildə Naxçıvanda görmüşdüm.

**H e y d ə r Ə l i y e v**: Sən Naxçıvanda nə edirdin?

**R a f i q M u s t a f a y e v**: Məzuniyyətə çıxmışdım, bacım oğlu Adillə birlikdə Sizinlə görüşməyə gəlmişdim. Dəmiryolçularımız Sizin siyasətinizi hamılıqla bəyənirlər. Onlar Sizə arxadırlar, hər əmrinizə hazırıq. Desəniz, lap ölümə də gedərik, torpaqlarımızı düşməndən alarıq.

**H e y d ə r Ə l i y e v**: Sən nə vəzifədə işləyirsən? [333-334]

**R a f i q M u s t a f a y e v**: Keşlə yük stansiyası rəisinin müaviniyəm.

**H e y d ə r Ə l i y e v**: Poqonların qəribə görünür. Heç generallarda belə poqonlar yoxdur.

**Z i y a M ə m m ə d o v**: Bu poqonları özümüz düzəltdirmişik. Müdafiə Nazirliyi ilə razılaşdırmışıq.

**H e y d ə r Ə l i y e v**: Kim özünə necə poqon istəyirsə elə düzəltdirir?

**Z i y a M ə m m ə d o v**: Xeyr, vahid fərqləndirmə nişanları var, bu poqonlar onların əsasında hazırlanıbdır.

**H e y d ə r Ə l i y e v**: Yaxşı, bunun poqonu belə olanda, bəs səninki necə olacaq? Hamının belə paltarı var?

**Z i y a M ə m m ə d o v**: Bəli, hamının varıdır.

**H e y d ə r Ə l i y e v**: Bu geyimləri dəmiryolçulara pulsuz verirsiniz?

**Z i y a M ə m m ə d o v**: Xeyr, maaşlarından tutmaq şərti ilə veririk. Hələlik pulsuz verməyə imkanımız yoxdur. Lakin maaşlarından az-az tuturuq.

**H e y d ə r Ə l i y e v**: Döşünüzdəki bu nişan nədir?

**R a f i q M u s t a f a y e v**: «Fəxri dəmiryolçu» nişanıdır.

**H e y d ə r Ə l i y e v**: Bəs bu nədir?

**Z i y a M ə m m ə d o v**: Bu, bizim milli ulduzumuzdur. Onun ortasındakı nişan isə Azərbaycan dəmir yolunun emblemidir.

**H e y d ə r Ə l i y e v**: Dəmir yolu necə işləyir?

**A r t u r R a s i z a d ə**: Yaxşı işləyir, keçən illərə nisbətən irəliləyiş var. Gələn ilin tapşırıqlarını da artırmışıq.

**Z i y a M ə m m ə d o v**: Respublikamızın müstəqillik əldə etdiyi dövrdə büdcəyə ən çox vəsaiti ötən il keçirmişik.

**A r t u r R a s i z a d ə**: Dəmiryolçuların işində dönüş var. Lakin görüləsi işlər də çoxdur.

**H e y d ə r Ə l i y e v**: Təkcə Azərbaycanda deyil, dəmiryolçular hər yerdə cəmiyyətin çox qabaqcıl dəstəsi olublar. [343-335] Ötən əsrin sonunda, bu əsrin əvvəllərində Azərbaycanda dəmir yolunun çəkilməsinin ölkəmiz üçün həddindən artıq faydası olubdur. Gərək biz tarixi düzgün qiymətləndirək. Çəkilmiş dəmir yolu xətləri, tikilmiş binalar, dəmir yolu stansiyalarında inşa edilmiş vağzal binaları nə qədər vaxtdır ki, durur. Bakının vağzal binasını götürün.

**Z i y a M ə m m ə d o v**: Siz onu yenidən qurdunuz.

**H e y d ə r Ə l i y e v**: Yox, binanı genişləndirdik, oranı düzəltdik. Əsas bina indi də durur.

Dəmir yolu sahəsinin Azərbaycanda dərin kökləri və böyük ənənələri var. Dəmiryolçular həmişə çox intizamlı olublar. Dəmir yolunun özü çox intizam tələb edir. Keçmişdə belə bir ifadə var idi ki, saatları həmişə dəmir yolunun saatları ilə düzəldirdilər. Çünki dəmir yolunun saatı həddindən artıq dəqiq işləyən saat idi. Vaxtilə mən bunların hamısını görmüşəm, dəmir yolu qatarları dəqiqəbədəqiqə vaxtında gedib-gəlirdi. Çünki o vaxt intizam, qayda-qanun elə idi ki, hər hansı bir qatarın 10-15 dəqiqə gecikməsi fövqəladə bir hadisəyə çevrilirdi. Bu, 30-cu, 40-cı, 50-ci, hətta 60-cı illərdə də belə idi. 70-ci illərdə də bu sahədə biz çox çalışırdıq. Ondan sonra, Moskvada işləyərkən keçmiş Sovetlər İttifaqının dəmir yollarına rəhbərlik etmək mənim üzərimə düşmüşdü. Mən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi bir

çox sahələrlə yanaşı, nəqliyyata, o cümlədən dəmir yolu sahəsinə də baxırdım. O vaxt mən Sovetlər İttifaqının dəmir yolu sistemi ilə çox yaxından tanış oldum. Bu məsələlərlə çox dərindən məşğul olurdum. O vaxt dünyada ən uzun dəmir yolları olan ölkə Sovetlər İttifaqı hesab edilirdi.

**A r t u r  R a s i z a d ə**: O vaxt Baykal - Amur magistralının tikintisində də Sizin zəhmətiniz böyükdür.

**H e y d ə r  Ə l i y e v**: Təkcə Baykal - Amur magistralında yox, mən Uzaq Şərqə, Vladivostoka, Naxodka stansiyasınadək getmişəm. İş onda deyil, mən Sovetlər İttifaqının dəmir [335-336] yolu xətlərini yaxşı bilirdim. Çünki onlarla hər gün məşğul olurdum. 80-ci illərin əvvəllərində dəmir yolunun işləri müəyyən qədər axsayırdı. Ona görə də, demək olar ki, hər gün mən dəmir yolunun işi ilə məşğul olurdum. Dəmiryolçular yəqin ki, bilirlər, - biz həftədə bir dəfə selektor müşavirəsi keçirirdik. Bütün stansiyalarda bizim danışıqlarımıza selektorla qulaq asırdılar, tələblərimizə baxırdılar.

Azərbaycanda da dəmiryolçular həmişə qabaqcıl olublar və fərqləniblər. Dəmiryolçu peşəsi hörmətli peşə olubdur. Əhalinin başqa təbəqələrinə nisbətən dəmiryolçularımız həmişə yüksək maaş alıblar, yaxşı yaşayıblar. Onların özlərinin xüsusi səhiyyə, təhsil və başqa xidmət sahələri olubdur. Doğrudur, bir vaxt onların səhiyyə və təhsil sahələrini əllərindən almaq istədilər. Yadımdadır, mən əvvəllər Azərbaycanda işləyəndə də belə cəhdlər olurdu. Amma dəmiryolçular tələblərinin üstündə möhkəm durdular.

**Z i y a  M ə m m ə d o v**: Son illərdə də belə cəhdlər olmuşdur.

**H e y d ə r  Ə l i y e v**: Tərcümeyi-halımdan məlumdur ki, mənim atam da dəmiryolçu olubdur. Mən dəmiryolçu ailəsində böyümüşəm. Hələ uşaq ikən dəmir yollarının üzərində, nə qədər atamın yanında olmuşam. Hesab edirəm ki, dəmir yolunu həm bilirəm, həm də sevirəm. Təəssüf ki, 1989-1990-cı illərdən başlayaraq Azərbaycanda dəmir yolunu dağıtmağa başladılar. Biz işə başlayanda da dəmir yolunu elə bir qaydaya sala bilmədik. Mən özüm də nəzarət edirəm və bilirəm ki, indi dəmir yolunun işində ciddi, müsbət dəyişikliklər var. Bu, çox sevindiricidir. Ancaq eyni zamanda imkanların da nə qədər olduğu bəllidir. Məsələn, 3-4 il bundan öncə dəmir yolu belə işləmirdi. Biz buraya yeni vəsait ayırmamışıq. Dəmir Yolu İdarəsi və onun rəhbərliyi öz imkanlarından düzgün və səmərəli istifadə edibdir. Bir də ki, bu, şübhəsiz, biz Transqafqaz magistralının yaradılmasına başladıqdan sonra [336-337] olubdur. Azərbaycanda bəzi adamlar bunu düzgün dərk edə bilmirlər, lakin mütəxəssislər, dəmiryolçular və başqaları bilirlər. İctimaiyyət bunun nə qədər böyük iqtisadi və siyasi əhəmiyyət daşıdığını dərk edə bilmir.

Bu magistralın Azərbaycana nə qədər böyük fayda gətirdiyini də çoxları bilmir. Artıq dəmir yolunun yaxşı işləməsinin, yüksək iqtisadi göstəricilər əldə etməsinin bir səbəbi də odur ki, yükdaşımalar artıbdır. Transqafqaz magistralını biz hərəkətə gətirməsəydik, Mərkəzi Asiya ilə Avropa arasında Azərbaycan vasitəsilə yükdaşımalar artmasaydı bu göstəricilər də olmayacaqdı.

Dəmir yolu ilə yanaşı, Xəzər gəmiçiliyinin gəlirləri də artıbdır. Lakin yaranmış imkanlardan daha səmərəli istifadə etmək lazımdır. Mən baş vermiş müsbət dəyişikliklərin səbəblərini bilirəm. Transqafqaz magistralının yaradılması ilə bağlı gördüyümüz tədbirlər dəmir yolunda yükdaşımaları artırıbdır. Bu da dəmir yolunun iqtisadi inkişafına kömək edir, gəlirlərini artırır. Mən hesab edirəm ki, siz imkanların hamısından tam istifadə edə bilməmisiniz. Lakin bunu etmək lazımdır.

Konteynerlərdən qaçqınlar və köçkünlər üçün evlər və xidmət obyektləri hazırlanması yaxşı təşəbbüsdür. İşğal edilmiş ərazilərdən zorla köçürülmüş insanların vəziyyətini oktyabr ayında gedib gördükdən sonra, demək olar ki, mən bir haray çəkdim. Təəssüflər olsun ki, bunu əvvəl görənlər vəziyyətin bu qədər ağır olduğunu bəyan etməmişdilər, bildirməmişdilər. Görürsünüzmü, qısa bir zamanda «Azəravtonəqliyyat» Dövlət Konserni 222 belə ev hazırlayıbdır, 100-ünü isə Azərbaycan dəmiryolçuları hazırlayıblar. Bunların hamısı 2 ay ərzində - oktyabr-noyabr aylarında görülən işlərdir. Təsəvvür edin ki, ötən illərdə Nazirlər Kabineti, Qaçqınlar Komitəsi bununla məşğul olsaydı, görün bu müddətdə nə qədər iş görülərdi. Lakin qaçqınların, köçkünlərin vəziyyətinə biganə qalıblar. [337-338]

Mən özüm görmüşəm ki, Biləsuvarda, İmişlidə qaçqınlar və köçkünlər döşəməsi torpaq, palçıq, üstü qamışla, polietilenlə örtülmüş otaqlarda yaşayırlar. Əlbəttə, onlara nisbətən, hazırladığınız bu konteynerlər böyük nemət olacaqdır. Aydındır ki, bunların heç birisi insanın adi evini, mənzilini əvəz edə bilməz. Bu təbiidir. Lakin qaçqınlar və köçkünlər öz evlərini işğal edilmiş torpaqlarımız azad olunduqdan sonra alacaqlar. Onlar öz yerlərinə qayıdandan sonra, - mən demişəm, - bu ailələrin hər biri üçün şübhəsiz, biz yeni-yeni binalar, evlər tikəcəyik. Əvvəlkilərdən də yaxşısını tikəcəyik. Buna şıbhə yoxdur. Ancaq hələ ki, biz bunu həll edə bilməmişik, lap bir ay da, iki ay da, üç ay da olsa - bu işi görmək, onların vəziyyətini yaxşılaşdırmaq lazımdır. Onların heç olmasa yaşayış vəziyyətini müəyyən qədər yüngülləşdirmək olar. Sizin göstərdiyiniz təşəbbüs onların vəziyyətinin yaxşılaşmasına xidmət edir.

Burada sizin düzəltdiyiniz poliklinika kompleksi balaca bir şeydir. Lakin qaçqın düşərgəsi üçün çox əhəmiyyətlidir. Orada həkim, dərman olacaqdır, xəstələrə yardım göstəriləcəkdir. Yaxud da, kiçik bir doğum evi düzəltmisiniz. Yəqin ki, mən televiziyada danışanda eşitmisiniz, - bir qaçqın evində qucağında südəmər uşaq olan qadından soruşdum ki, bu uşaq harada dünyaya gəlib. O dedi ki, döşəməsi torpaqdan, palçıqdan olan bu evdə, əlbəttə, hər düşərgədə belə bir doğum evi qoymuş olsanız, bu, qaçqın və köçkünlərə böyük köməkdir. Ona görə də gördüyünüz işləri bəyənirəm və qiymətləndirirəm. Ancaq çox təəssüf edirəm ki, bir neçə il vaxt itirmişik. Belə evlərdən və xidmət obyektlərindən çoxlu miqdarda hazırlamaq olardı. Nə üçün hərə öz sahəsində insanlara qayğı göstərmir? Bu, məni incidir. Sizin gördüyünüz

işlər sevindiricidir. Eyni zamanda mən fikirləşirəm, - nə üçün bu işi bir il, iki il bundan əvvəl etməmişik. [338-339]

Demək, bundan ötrü lazım idi ki, Azərbaycanın prezidenti özü getsin, özü görsün, gəlib məcbur etsin, ondan sonra bu iş görülsün? Belə işləmək yaramaz. Bunlardan, şübhəsiz ki, hərə özü üçün nəticə çıxarmalıdır. Biz Qaçqınlar Komitəsinin işinə xüsusi əhəmiyyət verərək, onun sədrinə Nazirlər Kabineti sədrinin müavini statusu və fövqəladə səlahiyyətlər vermişik. İnanıram ki, Dövlətqaçqınkomun sədri Əli Həsənov ona verilmiş bu səlahiyyətlərdən istifadə edərək bu mühüm dövlət orqanının işlərini yaxşı aparacaqdır.

Mənə məlumat verdilər ki, konteynerlərdən hazırlanmış evlər və xidmət obyektləri Biləsuvara və İmişliyə göndəriləcəkdir. Onların daşınması üçün dəmiryolçular nəqliyyat vasitələri də ayıracaqlar. Saatlıdakı qaçqın düşərgələrinə də belə konteynerlərin göndərilməsi nəzərdə tutulur.

Konteynerlərdən hazırlanmış evləri, ilk növbədə, yaşayış şəraiti ağır olan qaçqın və köçkünlərə ayırmaq barədə Dövlətqaçqınkoma tapşırıq verdi.

Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov ölkəmizin başçısına bildirdi ki, bundan sonra konteynerlərdən hazırlanacaq evlər daha da təkmilləşdiriləcək, sərnişin vaqonlarından hazırlanan evlər daha əlverişli olacaqdır. Bu evlərin səyyar olmasının üstünlükləri də nəzərə çarpdırıldı. Bildirildi ki, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra onlar üçün yeni evlər tikilənədək bu səyyar evlərdən istifadə edə bilərlər.

Azərbaycan prezidenti Heydər Əliyev sözünə davam edərək dedi:

- Bəli, bu evləri qaçqın və köçkünlər özləri ilə aparıb doğma torpaqlarında qoya bilər, ev tikilib hazır olana qədər orada yaşamaq mümkündür. Sonra bu konteyner - ev muzeyə çevrilə bilər. Qoy görsünlər ki, Azərbaycan tarixinin doğrudan da belə səhifələri də olmuşdur. [339-340]

Görürsünüzmü, yaxşı işləri mən həmişə qiymətləndirirəm, ancaq nöqsanlara, qanun pozuntularına yol verənləri, ümumiyyətlə işə laqeyd münasibət göstərənləri bağışlamıram. Bundan sonra belə də olacaqdır. Kim əgər kiçik bir yaxşı iş görürsə o, heç vaxt nəzərdən qaçmayacaqdır və qiymətləndiriləcəkdir. [340]

## DÜNYA ŞÖHRƏTLİ YAZIÇI,
## GÖRKƏMLİ İCTİMAİ XADİM
## ÇİNGİZ AYTMATOVA

Əziz və hörmətli Çingiz Aytmatov, sizi doğum gününüzün 70-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edir, sizə möhkəm cansağlığı, yaradıcılıq və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş bir yazıçı kimi siz həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxrisiniz.

Sizin yaradıcılığınız, xüsusən «Ana torpaq», «Əlvida Gülsarı», «Cəllad kötüyü», «Əsrə bərabər gün» və digər əsərləriniz ümumbəşəri dəyərləri əks etdirməklə yanaşı, türk övladlarının milli mənlik, özünüdərketmə şüurunun formalaşması üçün son dərəcə qiymətlidir.

Sizə ömrünüzün bu yetkin çağında xalqlarımızın mənəviyyatını zənginləşdirən yeni-yeni əsərlər yaratmağınızı arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 dekabr 1998-ci il*
[341]

# AZƏRBAYCANIN ŞƏHİD MİLLİ QƏHRƏMANLARININ VƏ DÖYÜŞÇÜLƏRİNİN VALİDEYNLƏRİNƏ, AİLƏ ÜZVLƏRİNƏ, HABELƏ HƏRBİ QULLUQÇULARA «QIZIL ULDUZ» MEDALLARI, «AZƏRBAYCAN BAYRAĞI» ORDENLƏRİ VƏ «HƏRBİ XİDMƏTLƏRƏ GÖRƏ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

*Prezident İqamətgahı*

*8 dekabr 1998-ci il*

Hörmətli əsgərlər, zabitlər, generallar! Vətənin, torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş övladlarımızın valideynləri, ailə üzvləri!

Mən sizin hamınızı yüksək mükafatların təqdim olunması münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Torpaqlarımızın müdafiə edilməsində fərqlənmiş Azərbaycan Ordusu döyüşçülərinin böyük bir qrupuna, şəhid olanların ailə üzvlərinə, valideynlərinə bu gün Azərbaycan dövlətinin yüksək ordenləri və medalları təqdim olundu.

Bu mərasim onu göstərir ki, müstəqil Azərbaycan dövləti hər bir vətəndaşının xidmətini qiymətləndirir. Əmin ola bilərsiniz ki, heç kəsin xidməti heç vaxt unudulmayacaqdır. İndi Azərbaycanda dövlətçilik də, ordu da möhkəmlənibdir. Ölkəmizin bütün təsisatları da yaranıbdır, o cümlədən Azərbaycanın ali mükafatları olan Milli Qəhrəman nişanları, ordenlər [342-343] və medallar da yaranıbdır. Biz bununla Azərbaycanın dövlətçiliyini, müstəqilliyini bir daha nümayiş etdiririk.

Bu gün orden və medalları alan əsgərlər, zabitlər, generallar əminəm ki, onların xidmətlərinə verilən bu yüksək qiymətə cavab olaraq bundan sonra Vətənə, dövlətə daha da sədaqətlə xidmət edəcəklər və öz vəzifə borclarını ləyaqətlə yerinə yetirəcəklər.

Vətən yolunda şəhid olanların qəhrəmanlıq nümunələri heç vaxt unudulmayacadır. Onlar bizim qəlbimizdə əbədi yaşayacaqlar. Onların valideynləri, ailə üzvləri əmin ola bilərlər ki, şəhid ailələrinə diqqət, qayğı dövlət, Azərbaycan prezidenti tərəfindən daim göstəriləcəkdir. Əmin edirəm ki, bu diqqət, qayğı bundan sonra daha da artacaqdır.

Bu gün biz burada Azərbaycan ordusunun bir dəstəsini görürük, eyni zamanda müstəqil Azərbaycanın bütün ordusunun bugünkü gününü görürük. Məmnuniyyətlə demək olar ki, son illərdə Azərbaycanda ordu quruculuğu işi uğurla həyata keçirilir. Azərbaycanda artıq mütəşəkkil ordu yaranmışdır. orduda hərbi nizam-intizam hökm sürür. Orduda qanun-qayda yaranmışdır. Ordu günü-gündən inkişaf edir. Bu, Azərbaycan dövlətçiliyinin ən böyük nailiyyətlərindən biridir. Azərbaycanın Ordusu müstəqil dövlətimizin əsas dayağıdır. Azərbaycanın torpaqlarını, vətəni müdafiə etmək, ölkəmizin müstəqilliyini qoruyub saxlamaq bütün xalqımızın, dövlətin üzərinə düşür. Ancaq bu vəzifələri icra edən dövlət strukturlarından ən əhəmiyyətlisi, vacibi Azərbaycanın ordusudur.

Azərbaycan ordusu ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra qısa bir zamanda ağır, çətin, şərəfli yol keçmişdir. Bu gün sizə təqdim olunan yüksək dövlət mükafatları və torpaq, Vətən yolunda şəhid olanlar Azərbaycan ordusunun şərəfli, uğurlu yol getməsini nümayiş etdirir.

Eyni zamanda, keçmiş illərdə ordu quruculuğunda çox nöqsanlar da olmuş, səhvlər buraxılmışdır. Ordu quruculuğu[343-344]na xəyanət də edilmiş, bu müqəddəs işə zərbələr də vurulmuşdur. Keçmişdə mövcud olan bütün bu nöqsanların, səhvlərin, cinayətlərin aradan qaldırılması, ləğv edilməsi sahəsində son illər ardıcıl işlər görülmüş və bunlar da öz nəticəsini vermişdir. İndi hər bir Azərbaycan vətəndaşı fəxr edə bilər, biz də fəxr edirik ki, Azərbaycanın artıq mütəşəkkil, güclü ordusu vardır, Azərbaycanın peşəkar və qabiliyyətli döyüş gücünə malik olan zabitlər korpusu vardır, Azərbaycan ordusunda vətənə, millətə, dövlətə sədaqətlə xidmət edən əsgərlərimiz vardır. Bunlar əldə olunan nailiyyətlərdir.

Ancaq bu gün və gələcək günlər ordunun daha da möhkəmlənməsini, inkişaf etməsini tələb edir, zabitlərimizin öz bilik, peşəkarlıq səviyyəsini artırmasını, orduya yeni-yeni gənclərin cəlb olunmasını tələb edir. Bunlar bizim qarşımızda və xüsusən Azərbaycanın Silahlı Qüvvələri qarşısında duran əsas vəzifələrdir.

Bu gün sizə yüksək dövlət mükafatlarını təqdim edərkən mən əmin olduğumu bildirmək istəyirəm ki, siz – Azərbaycanın Silahlı Qüvvələri, Ordusu, respublika Müdafiə Nazirliyinin rəhbərliyi bu vəzifələri dərk edirsiniz və onları sədaqətlə yerinə yetirəcəksiniz.

Bugünkü bu görüş müxtəlif hissiyyatlar doğurur. Bir tərəfdən, hamımız qürur hissi keçiririk ki, Azərbaycan ordusunun dəyərli nümayəndələri döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələrinə görə dövlətin yüksək mükafatlarına layiq görülüblər və bu mükafatları bu gün alıblar. Bununla yanaşı, şübhəsiz, bu gün bizdə qəm, kədər hissi də vardır. Çünki biz döyüşlərdə çox qurbanlar, şəhidlər, itkilər vermişik. Şəhidlərin valideynləri, ailə üzvləri də bu gün bu salondadırlar. Mən onların hissiyyatları ilə şərikəm, övladlarının, ailə üzvlərinin itirilməsinə görə onlar qədər kədərlənirəm, eyni zamanda onlar qədər qürur hissi keçirirəm ki, şəhidlərimiz Vətən yolunda, müstəqil Azərbaycan yolunda, torpaqlarımızın mü- [344-345] dafiəsi yolunda şəhid olublar. Biz şəhid valideynləri tərəfindən bu gün burada deyilən sözlərdə bu ifadələri eşitdik. Bu, məni çox həyəcanlandırdı.

Valideynlərin çoxu dedi, - biz övladımızı böyütmüşük ki, Vətəni müdafiə etsinlər. Onlar övladları Vətən yolunda şəhid olduqlarına görə iftixar hissi keçirirlər. Bu, həqiqətən böyük vətəndaşlıq, vətənpərvərlik nümunəsidir. Mən şəhid valideynlərinə, şəhid ailələrinin üzvlərinə bu sözlərə görə təşəkkür edirəm. Ancaq hamımız eyni zamanda sevinməliyik ki, biz Vətənimizi, torpağımızı, dövlətimizi qorumağa artıq qadirik. Əmin ola bilərsiniz ki, biz Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi uğrunda çalışırıq.

Bildiyiniz kimi, 1994-cü ilin may ayında atəş dayandırılıbdır. Biz atəşkəs dövründə məsələnin sülh yolu ilə həll olunması üçün daha da çox imkanlar əldə etmişik. Biz bu imkanlardan istifadə etməyə çalışırıq. İnanın, əmin olun ki, biz bu məsələ ilə hər gün məşğul oluruq. Bu, təkcə sizin - Vətən yolunda şəhidlər vermiş Azərbaycan vətəndaşlarının, təkcə Azərbaycan Silahlı Qüvvələrində xidmət edənlərin arzusu deyildir. Bu, Azərbaycanın bütün vətəndaşlarının arzusudur. Bu, bizim hamımızın arzusudur. Bu, Azərbaycan dövlətinin, şəxsən mənim arzumdur.

Ancaq biz təkcə arzu etməklə kifayətlənmirik. Biz əməli iş görürük, bu məsələ ilə hər gün məşğul oluruq. Mən bu gün bir daha bəyan edirəm ki, məsələnin sülh yolu ilə həll olunması üçün imkanlar vardır. Biz bu imkanlardan bundan sonra da istifadə etməyə çalışacağıq. Şübhə yoxdur ki, əgər bu imkanlar işğal olunmuş torpaqlarımızın azad olunmasına gətirib çıxarmasa, apardığımız danışıqlar bu nəticəni verməsə, biz hamımız birlikdə nəyin bahasına olursa-olsun, işğal edilmiş torpaqlarımızı azad edəcəyik, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik, gedib şəhidlərimizin işğal olunmuş [345-346] torpaqlarda qalan qəbirlərinin hamısını ziyarət edəcəyik. Biz bu günü hamımız birlikdə görəcəyik.

Bunun üçün də bizim apardığımız işlərlə, yəni sülh danışıqları ilə yanaşı, ordu günü-gündən inkişaf etməlidir, öz döyüş qabiliyyətini yüksəltməlidir, güclü olmalıdır və işğal edilmiş torpaqların azad edilməsinə lazım gələn zaman qadir olmalıdır. Hesab edirəm ki, bunun üçün əsas yaranıbdır. Ancaq gərək bizim Silahlı Qüvvələr, Silahlı Qüvvələrin komandan heyəti, Müdafiə Nazirliyi və onun komandan heyəti, yerdə və mərkəzdə rəhbər vəzifəli şəxsləri öz məsuliyyətini həmişə dərk etsinlər, hiss etsinlər. Ordu hər gün inkişafda olmalıdır. Bir gün də fasilə vermək olmaz. İnanıram ki, artıq bizim ordumuz, Silahlı Qüvvələrimiz bu yolu tutublar və bu yolla da gedəcəklər.

Bu gün məni burada sevindirən bir də odur ki, təltif olunanların çoxu vaxtilə mənim təşəbbüsümlə yaranmış orta hərbi məktəbdə 1970,1971,1972-ci illərlə təhsilə başlamış gənclərdir. O günlər, o illər haqqındakı xatirələr, deyilən sözlər məni həm sevindirdi, həm də coşdurdu. Mən o günləri xatırlayıram. İndi bu gün zabit, general rübtəsində, yüksək hərbi vəzifədə olan, müstəqil Azərbaycanın mükafatlarını alan insanlar o illər Naxçıvanski adına hərbi məktəbdə ilk addımlarını atırdılar.

Mən o illəri heç vaxt unutmayacağam.Mən sevinirəm ki, o vaxt boyca da, yaşca da kiçik olan, amma hərbi xidmətə çox böyük həvəs göstərən və hərbi təhsil almaq üçün Naxçıvanski adına məktəbə gələnlər bu gün Azərbaycan Ordusunun komandan heyətinin əksəriyyətini təşkil edir. Bu həqiqətdir. Əgər o illər, 27-28 il bundan öncə belə bir məktəb yaranmasaydı və bizim gənclər hərbi təhsilə cəlb edilməsəydilər, bəlkə də indi ordumuzun mövcud zabit kadrları bu qədər olmazdı.

Görülən işlərin bəhrəsini görmək böyük səadətdir. Mən bu gün bu xoşbəxtlik hissini keçirirəm. Mən buna çox sevinirəm, [346-347] eyni zamanda hesab edirəm ki, bundan sonra biz bu işləri daha da sürətlə aparmalıyıq.

İndi hərbi litsey adlanan Naxçıvanski adına hərbi məktəb öz fəaliyyətini daha da artırmalı, inkişaf etdirməlidir. Azərbaycanda yerləşən ali hərbi məktəblər, - «yerləşən» sözü keçmişə aiddir, - bu gün Azərbaycan Silahlı Qüvvələrinin ali məktəbləri gərək ölkəmizin ordusu üçün daha da yüksək səviyyəli zabit kadrları hazırlasınlar. Bu iş Müdafiə Nazirliyinin daim diqqət mərkəzində olmalıdır. Bu işlə ciddi məşğul olmaq lazımdır. Hər halda 28 il bundan əvvəl görülən işlərin nəticəsi göz qabağındadır.

Biz gələcəyə baxmalıyıq. Həm bu günümüz, həm də gələcəyimiz üçün Azərbaycanda güclü, yüksək səviyyəli zabitlər yaratmalıyıq. Azərbaycanda zabitlər korpusu gərək böyüsün və inkişaf etsin. Azərbaycanın dövlət müstəqilliyi daim qorunmalıdır. Bunun üçün bizim yüksək səviyyəli peşəkar ordumuz və yüksək səviyyəli zabitlərimiz olmalıdır.

Güman edirəm ki, zabitlərin əməyinə, xidmətinə Azərbaycan dövləti tərəfindən verilən yüksək qiymət və göstərilən qayğı onları daha da yaxşı işləməyə dəvət edir və Azərbaycan gənclərini də zabit peşəsinə yiyələnmək üçün həvəsləndirir. Mən hesab edirəm ki, Azərbaycan gəncləri Silahlı Qüvvələrdə xidmət etmək, vətəni qorumaq peşəsinə daha da həvəslə gəlməlidirlər. Müstəqil Azərbaycanda hər peşə şərəflidir,

ancaq vətəni qorumaq peşəsi ən şərəfli peşədir. Bugünkü zabitlərin simasında onların keçdiyi həyat yolunun nə qədər maraqlı olduğunu görən gənclər vətəni qorumaq peşəsinə daha da çox qoşulmalıdırlar. Mən gəncləri bu peşəyə yiyələnməyə dəvət edirəm. Mən sizi bir daha ürəkdən təbrik edirəm.

Məmnunam ki, bu gün sizinlə bu gözəl görüş keçirildi. Ümidvaram ki, bu görüş təkcə sizin üçün yox, Azərbaycanın Silahlı Qüvvələrində xidmət edən bütün əsgərlər, zabitlər üçün çox əhəmiyyətli bir görüşdür. [347-348]

Mən bu fürsətdən istifadə edib, Azərbaycanın Silahlı Qüvvələrində xidmət edən Azərbaycan övladlarına, səngərlərdə olan əsgərlərimizə, zabitlərimizə salamımı göndərirəm, öz hörmət və ehtiramımı bəyan edirəm. Onlara və Azərbaycanın Silahlı Qüvvələrinə ölkəmizin torpaqlarının, müstəqilliyinin qorunmasında yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [348]

## «İSLAM SİVİLİZASİYASI QAFQAZDA» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Rəyasət Heyətinin binası*

*9 dekabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, simpozium iştirakçıları!

Sizi – Azərbaycanda, Bakıda keçirilən «İslam sivilizasiyası Qafqazda» mövzusuna həsr olunmuş beynəlxalq simpoziumun iştirakçılarını ürəkdən salamlayıram və sizə bu mötəbər işinizdə uğurlar arzulayıram.

Azərbaycanda islam sivilizasiyasına, islam mədəniyyətinin Qafqazda yerinə və əhəmiyyətinə həsr olunmuş ilk beynəlxalq simpozium keçirilir. Bu, Azərbaycan üçün, bütün Qafqaz üçün əlamətdar, tarixi əhəmiyyət kəsb edən bir hadisədir.

İslam Konfransı Təşkilatının nəzdində İstanbulda fəaliyyət göstərən İslam Araşdırma və Tədqiqat Mərkəzi və dünyanın başqa ölkələrində bu sahədə tədqiqat aparan elmi mərkəzlər islamın tarixi, bəşər sivilizasiyasına verdiyi töhfələr və islamın bəşər tarixində oynadığı rol haqqında çox dəyərli işlər görürlər. Mən keçən il İstanbulda olarkən mənə İslam Konfransı Təşkilatının İslam Araşdırma və Tədqiqat Mərkəzində olmaq və onun işi ilə tanışlıq nəsib oldu. Bizim simpoziumda iştirak edən hörmətli cənab Ekmələddin İhsanoğlu ilə birlikdə, az müddət olsa da, mən orada çox şeylər müşahidə [349-350] etdim, öyrəndim. Biz Azərbaycanda da elmi simpozium keçirilməsi haqqında fikir mübadiləsi apardıq. Məmnuniyyətlə qeyd edirəm ki, belə bir simpoziumun keçirilməsi ilə əlaqədar mənim qəbul etdiyim qərar artıq həyata keçirilibdir, beynəlxalq simpozium bu gün öz işinə başlayıbdır. Ümidvaram ki, simpozium çox dəyərli işlər görəcək və Qafqazda islam sivilizasiyasının rolunu və bu sahədə gələcək elmi-tədqiqat işlərinin proqramlarını müəyyən edə biləcəkdir.

Bu, təkcə Azərbaycan üçün yox, bütün Qafqaz xalqları, bütün islam aləmi üçün çox əhəmiyyətli işdir. Azərbaycan dövləti və mən – Azərbaycan prezidenti bu işi çox dəyərli hesab edirik və gələcəkdə də bu işə himayədarlıq etməyi mən öz üzərimə götürürəm.

Qafqaz dünyanın nadir xarakter daşıyan bir bölgəsidir. Qafqaz öz təbiətinə, coğrafi quruluşuna görə və Qafqazda qədim zamanlardan məskunlaşmış, min illər boyu yaşamış insanların xüsusiyyətinə, onların xarakterinə görə çox nadir bir bölgədir. Eyni zamanda hesab edirəm ki, Qafqaz dünya xalqları üçün dünyanın çox maraqlı bir hissəsidir.

Biz qafqazlılar özümüzün qafqazlı olmağımızla fəxr edirik. Bu nə deməkdir? Qafqazın təkcə məğrur dağları, onun gur çayları, gözəl bulaqları, meşələri, gül-çiçəkləri demək deyildir. Qafqazlı olmaqla fəxr etmək Qafqaz xalqlarının tarixi kökləri ilə, Qafqaz xalqlarının bəşər mədəniyyətinə verdikləri töhfələrlə bağlıdır.

Bu baxımdan Qafqazda islamın yayılması və inkişaf etməsi Qafqaz xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir, eyni zamanda islam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələrin olmasını əks etdirir. Qafqaz xalqlarının, demək olar ki, əksəriyyəti islam dininə itaət edir. İslamın Qafqazda yayılması tarixini siz alimlər yaxşı bilirsiniz. Mən sadəcə, bir nöqtəni vurğulamaq istəyirəm ki, Azərbaycan bu sahədə mühüm yer tutur. [350-351]

Məlumdur ki, Qafqazda islamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, islami dəyərlər gətiribdir. Bu dəyərlər – müqəddəs kitabımız Qurani-kərimdən gələn islami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edibdir. Məlumdur ki, Qafqazda yaşayan xalqlar islam dinini qəbul edənə qədər də böyük mədəniyyətə, tarixə və özlərinə məxsus adət-ənənələrə malik olmuşlar. İslamın dini-mənəvi dəyərləri Qafqaz xalqlarının qədimdən yaranmış və inkişaf etmiş mənəvi dəyərləri ilə birlikdə xalqların yüksək milli-mənəvi dəyərlərini təşkil ediblər.

Mən bu sözləri Azərbaycan xalqının tarixi əsasında söyləyirəm. Güman edirəm ki, bu fikirlər Qafqazda yaşayan, islam dininə itaət edən başqa xalqlara da aiddir. Buna görə də mən Azərbaycanın Qafqazda islam dəyərlərinin, islam dininin, islam sivilizasiyasının yayılması və inkişaf etməsində xüsusi rol oynamasının haqlı olduğunu bildirirəm. Əgər Qafqazın başqa xalqları və xüsusən Şimali Qafqaz və ondan şimalda olub islam dininə itaət edən xalqlar islam sivilizasiyasına qatılıblarsa, islam dinini qəbul ediblərsə, onların yolu da məhz Azərbaycandan keçir.

Bildiyiniz kimi, Qafqaz coğrafi nöqteyi-nəzərdən Xəzər dənizi ilə Qara dəniz arasında, - əgər Yer kürəsi miqyasında təsəvvür etsək, - kiçik bir cığırdır. İslamın, Quranın mərkəzindən – Ərəbistandan yayılan

islam dini, islam mədəniyyəti cürbəcür yollarla indi artıq islama mənsub olan əraziləri əhatə edibdir. Qafqazın şimalında və ondan da şimalda olan xalqların o vaxtdan islam dininə, mədəniyyətinə mənsub olduğunu nəzərə alsaq, bunda Qafqazın ən cənubunda yerləşən Azərbaycanın xüsusi rolu şübhəsizdir.

Azərbaycanda islam dini YII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik islam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi [351-352] ilə deyirik ki, Azərbaycanın islam mədəniyyəti, islam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və islam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik.

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlu olmalıdırlar. Dini nöqteyi-nəzərdən ədavət, münaqişə, müharibə yolverilməzdir. Hər halda, XX əsrin sonunda və qarşıdan gələn XXI əsrdə dünyada belə hallara son qoyulmalıdır.

Bu baxımdan biz çox ürək ağrısı ilə deyirik ki, on il bundan öncə Ermənistanın Azərbaycana torpaq iddiası əsasında başladığı hərbi təcavüz böyük müharibəyə, hərbi münaqişəyə çevrilibdir. Bunun nəticəsində, indi Ermənistan adlanan ərazidən islam dininə mənsub olan azərbaycanlılar [352-353] zorla sürgün ediliblər, çıxarılıblar, yerlərindən-yurdlarından, ata-baba evlərindən, öz milli-dini, müqəddəs ocaqlarından, məscidlərindən, qəbiristanlıqlarından, tarixi abidələrindən məhrum olublar. Bu, tarixi cinayətdir və tarixi ədalətsizlikdir! Dünya Birliyi buna biganə qalmamalıdır və güman edirəm ki, biganə qalmayacaqdır.

İslam dini Qafqazın, demək olar, əksər hissəsini əhatə edib və bu gün də əhatə edir və islam mədəniyyəti hər yerdə öz izlərini buraxıbdır. Kimlərsə bu izləri dağıtmaq, pozmaq istəsə də, bəşəriyyət buna yol verməməlidir və verməyəcəkdir. Hesab edirəm ki, bu məsələlər Bakıda keçirilən və indi işinə başlayan beynəlxalq simpoziumda öz əksini tapmalıdır.

Dünyada və xüsusən Avropada, Amerika Birləşmiş Ştatlarında islam sivilizasiyasına böyük maraq var. Bu problemlərlə məşğul olan elmi mərkəzlər keçmişdə də olub, indi də var. Şübhəsiz ki, islamın tarixi kökləri, islam mədəniyyətinin bəşər tarixinə verdiyi töhfələr araşdırılıb, tədqiq olunub, böyük elmi əsərlər yaradılıbdır. İslam ölkələrində belə mərkəzlər var.

Ancaq bu gün mən bu fürsətdən istifadə edərək, elm xadimlərinin qarşısında öz fikrimi bildirmək istəyirəm. Hesab edirəm ki, indiyə qədər görülən işlər yetərli deyildir. Məsələn, əgər keçmiş çar Rusiyası imperiyası ərazisində, sonra Sovetlər İttifaqı ərazisində islam mədəniyyəti haqqında araşdırmalara nəzər salsaq, çox dəyərli əsərlərlə yanaşı, eyni zamanda subyektiv fikirlər də hökm sürür. Məndə belə təəssürat var ki, Avropa ölkələrində, o cümlədən Rusiyada keçmişdə də, indi də bəzi tədqiqatçılar islam mədəniyyətinə, islam dininə subyektiv hissiyyatlar nöqteyi-nəzərindən baxırlar.

Sovetlər İttifaqının mövcud olduğu 70 il ərzində onun ərazisində din yasaq, qadağan edilmiş, ateizm təbliğatı aparılmışdır. Dinə qarşı çox kəskin mübarizə aparılmış, allahsızlıq, dini inkar etmək o illərdə kommunist ideologiyasının əsasını təşkil etmişdir. Biz bu dövrü yaşamışıq və indi, [353-354] Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda dinin, o cümlədən islam dininin nə qədər dərin kökləri olduğunu daha da çox dərk edə bilmişik. Xüsusən sovet hakimiyyəti dövründə dünyaya gəlmiş, yaşamış nəsillər bəlkə də o vaxtkı güclü təbliğatın nəticəsində dinin, bizim üçün isə ələlxüsus islam dininin bu qədər zəngin mənəvi dəyərlərə, bu qədər dərin köklərə malik olduğunu anlaya bildirdilər. Biz özümüz də bunu anlaya bilmirdik. Mən bunu etiraf edirəm.

Ancaq qısa bir zamanda məlum oldu ki, əgər Azərbaycanda kommunist ideologiyası 70 il yox, 170 il də hökm sürmüş olsaydı, insanları islam dinindən ayırmaq mümkün olmayacaqdı. Bu, artıq faktdır. Eyni zamanda bu, islam dininin nə qədər böyük gücə malik olduğunu sübut edir. Ancaq o illər – kommunist ideologiyasında, ümumiyyətlə, dinə qarşı təbliğat aparıldığı zaman islam dininin əleyhinə xüsusi təbliğat aparılırdı.

Bilirsiniz ki, o vaxtlar mən böyük dövlət işləri ilə məşğul idim. Bəzən düşünürdüm – din dindir, nə üçün bir dinə müəyyən qədər loyal münasibət bəslənilir, o birisi dinə isə həddindən artıq düşmən münasibəti göstərilir? Bu həqiqətdir.

Mərkəzdə Kommunist Partiyası Mərkəzi Komitəsinin ateizm təbliğatında islam dininə qarşı təbliğat xüsusi bir istiqamət təşkil edirdi və bu, xüsusi nəzarət altında idi. Sovet hakimiyyəti dövründə belə təsəvvür

yaranırdı ki, sovet quruluşuna təhlükə törədən yalnız islam dinidir, xristian dini, yaxud da sovetlər ölkəsində olan başqa dinlər bu quruluşa o qədər təhlükə yaratmır. Bu, o dövrdə mənim gözümlə gördüyüm və bir çox ideoloji sənədlərdə oxuduğum həqiqətlərdir ki, sizə çatdırıram. Kommunist ideologiyasında dinlərə münasibətdəki bu ayrı-seçkilik, dinləri bir-birindən fərqləndirmək xətti göstərirdi ki, demək, belə çıxır, din var – yaxşı dindir, din də var – çox pisdir, bu pis din də guya islam dini[354-355]dir. Bu da o vaxt Sovetlər İttifaqında tədqiqatçılar tərəfindən olan subyektivlik meyllərini artırırdı.

Hansı dinə mənsubluğundan asılı olmayaraq, gərək tədqiqatçının özü obyektiv olsun. İslam dininə mənsub olan tədqiqatçı da gərək islam dini haqqında obyektiv tədqiqatlar aparsın, subyektivliyə yol verməsin. Başqa dinlərə mənsub olan tədqiqatçılar da həm öz dini haqqında, həm də islam dini haqqında tədqiqatlar apararkən gərək obyektiv olsunlar, heç bir tərəfə əyilməsinlər, heç bir subyektivliyə yol verməsinlər.

Bunları müşahidə etmiş bir insan kimi və bunları şəxsən hiss etmiş və bilmiş bir insan kimi mənim o sözləri deməyə əsasım var. Hesab edirəm ki, indiki dövrdə təkcə Azərbaycan yox, keçmişdə Sovetlər İttifaqına mənsub olan, islam dininə itaət edən başqa ölkələr də, o cümlədən Şimali Qafqazda olan – Rusiya Federasiyasının tərkibindəki respublikalar, yaxud Mərkəzi Asiyada olan ölkələr, müstəqil dövlətlər, yaxud da Volqa çayı hövzəsində, ətrafında yerləşən, islam dininə mənsub olan böyük respublikalar – Rusiya Federasiyasının tərkibindəki respublikalar indi öz tarixi keçmişi haqqında, o cümlədən islam mədəniyyəti, islam sivilizasiyası, islam tarixi haqqında daha doğru-düzgün, elmi cəhətdən əsaslandırılmış əsərlər yarada bilərlər.

Bu baxımdan Rusiyanın paytaxtında olan araşdırma mərkəzləri, islam sivilizasiyası ilə əlaqədar tədqiqatlar aparan elmi mərkəzlər, Avropada, Amerika Birləşmiş Ştatlarındakı elmi tədqiqat mərkəzləri də həmişə müstəqil olmuş ölkələrlə, tutaq ki, ərəb ölkələri, başqa islam ölkələri ilə əməkdaşlıqla – yanaşı, keçmişdə Sovetlər İttifaqının tərkibində olub yeni müstəqillik əldə etmiş ölkələrin alimləri, elmi mərkəzləri ilə də gərək sıx əməkdaşlıq etsinlər.

Bu gün Moskvanın İslamşünaslıq Mərkəzinin nümayəndəsi cənab Medvedkonun çıxışı bizim hamımızın ürəyindən oldu. Çox səmimi çıxış etdi və hiss olundu ki, islam tədqiqatları ilə [355-356] məşğul olan bir alim kimi, eyni zamanda islam mədəniyyətinə dərin hörmət bəsləyən insandır. Belə alimlərlə əməkdaşlıq həmişə onlar üçün də və islam ölkələrinin alimləri üçün də çox faydalı və uğurlu olar.

Fransadan gəlmiş nümayəndə danışmağa başlayarkən, mən hesab etdim ki, o, türkcə, yəni Anadolu türkcəsi ilə ğanışır. Ancaq sonrakı kəlmələrindən hiss etdim ki, o, azərbaycanca danışır. Yəni islamşünas, türkoloq olmaqla yanaşı, eyni zamanda nitqindən görürəm ki, bu gün özünü azərbaycanşünas kimi də təqdim etdi.

Bunlar hamısı sevindirici hallardır. Hesab edirəm ki, islam sivilizasiyası haqqında gələcək elmi tədqiqat işlərində belə əməkdaşlıq üstünlük təşkil edəcəkdir. Beləliklə, ümumiyyətlə, islam mədəniyyətinin dünyadakı rolu, o cümlədən xüsusən islam sivilizasiyasının Qafqazdakı rolu dəqiq, düzgün, elmi nöqteyi-nəzərdən əsaslandırılaraq elmi kitablarda, əsərlərdə öz əksini tapacaqdır.

Biz Azərbaycanda öz milli-mənəvə dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk.

Bu, Azərbaycan üçün yeni bir hadisə deyildir. Məmnuniyyət hissi ilə demək olar ki, Azərbaycan hələ XVIII-XIX əsrlərdə və XX əsrin əvvəlindən elə bu istiqamətdə inkişaf edirdi. Bu baxımdan Azərbaycan Qafqazda və Qafqaz ətrafında, Mərkəzi Asiyada yerləşən, islam dininə mənsub olan xalqlar içərisində öz mədəniyyətini ümumbəşəri dəyərlərlə, Avropa mənəvi dəyərləri, Avropa mədəniyyəti ilə zənginləşdirmiş ən qabaqcıl ölkədir.

Azərbaycanda hələ XIX əsrdə dünyavi teatrın yaranması, yaxud da Avropa mədəniyyətinin təsiri altında və Avropa mədəniyyətinin dəyərləri ilə Azərbaycanın milli dəyərlərini [356-357] bir-birinə bağlayan ədəbiyyat, incəsənət əsərlərinin yaranması Azərbaycanda bu meylin böyük tarixinin olduğunu göstərir.

Hesab edirik ki, bu, ölkəmizin, Azərbaycan xalqının üstünlüyüdür. Biz Azərbaycanın milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlərlə zənginləşdirən və onların vəhdətindən doğan elm, ədəbiyyat, incəsənət əsərlərini, bunları yaradanları həmişə yüksək qiymətləndirmişik. Azərbaycanın elm, mədəniyyət tarixində belə adamlar çox görkəmli yer tutur.

Biz Nizami, Füzuli, Nəsimi kimi böyük şəxsiyyətlərlə fəxr etdiyimiz kimi, eyni zamanda Mirzə Fətəli Axundov kimi böyük şəxsiyyətlə də fəxr edirik. Mirzə Fətəli Axundov islam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olubdur. O, islam dəyərlərinə çox sadiq bir insan olubdur. Amma eyni zamanda o, Azərbaycanın milli-mənəvi dəyərlərini, islam dəyərlərini ümumbəşəri, Avropa dəyərləri ilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov nə qədər milli olubsa, o qədər də ümumbəşəri olubdur. Biz bunu qiymətləndiririk. Biz heç vaxt yalnız milli, dini dəyərlərə qapılaraq, onun çərçivəsindən kənara çıxmayan, yaxud ondan kənarda heç bir şeyi görməyən insanları, alimləri xalqın inkişafına xeyir verən adam hesab etmirik. Ancaq milli xüsusiyyətlərini qoruyub saxlayan, milli-mənəvi dəyərlərinə sadiq olan, milli-mənəvi

dəyərlərini yüksək qiymətləndirən, onlarla fəxr edən, eyni zamanda, ümumbəşəri dəyərlərin xalqımız üçün faydalı hissələrini götürüb Azərbaycan ictimai, elmi, mədəni fikrini inkişaf etdirən şəxsiyyətlər Azərbaycanın mədəniyyətini, elmini bax, bu səviyyəyə gətirən insanlardır. Bu baxımdan, Azərbaycanın XIX-XX əsrlərdəki böyük şəxsiyyətlərinin yaratdığı əsərlər, gördüyü işlər eyni zamanda islam sivilizasiyasının – təkcə Azərbaycanda yox, bütün Qafqazda, o cüm[357-358]lədən Mərkəzi Asiyada - müasir tələblərə uyğun inkişaf etməsinə böyük töhfələr vermişdir.

Mən çox məmnun oldum ki, İran İslam Respublikasının nümayəndəsi də öz çıxışında islam dəyərləri və milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərlərin əhəmiyyəti haqqında da çox əhəmiyyətli fikirlər ifadə etdi. Bunlar hamısı onu göstərir ki, bu mütərəqqi proses indi bütün ölkələrin aparıcı prosesidir. Azərbaycan bu tərəqqi yolu ilə keçmişdə də gedibdir, bu gün də gedir və gələcəkdə də gedəcəkdir. Biz islam mədəniyyətinin Azərbaycan xalqı üçün əvəzsiz olduğunu qeyd edərək, eyni zamanda dini, yaxud milli məhdudiyyət yaradan fikirləri, meylləri və ya təklifləri qəbul etmirik.

Millilik, islamilik, ümumbəşəri dəyərlərin sintezi ilə xalqı inkişaf etdirə bilər. İndi dünyadakı bəzi mərkəzlərdə «İslam fundamentalizmi, islam ekstremizmi, fanatizmi» haqqında da fikirlər söylənilir.

Hesab edirəm ki, bizim müqəddəs kitabımız Qurani-şərif heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Kimsə bu fundamentalizm, ekstremizm meyllərini islam dinindən istifadə edərək yaradır və inkişaf etdirirsə, hesab edirəm ki, onlar islamın əsas prinsiplərindən müəyyən qədər uzaqlaşırlar. Biz islam mədəniyyətini, islam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın.

Mən bu fürsətdən istifadə edib bir neçə fikrimi sizə çatdırmaq istədim. Yəqin ki, siz alimlər, bu işlərin mütəxəssisləri bu barədə bu simpozium zamanı daha dəyərli fikirlər irəli sürəcəksiniz. Ancaq mənim fikirlərim də əgər sizə bu barədə müəyyən qədər əhəmiyyətli olsa, mən bundan məmnun olaram.

Bugünkü simpoziumun gedişini dinləyərək mən belə fikrə gəlirəm ki, Azərbaycan Qafqazda islam sivilizasiyası araş[358-359]dırmalarının mərkəzi ola bilər. Azərbaycanın buna haqqı da vardır. Mən nitqimin əvvəlində islamın Qafqazda yayılmasında Azərbaycanın rolu haqqında danışdım. Tarixi faktlar onu göstərir ki, Azərbaycandan bir az şimalda olan xalqlar islamı yalnız XVI əsrdə qəbul edibdir. Ancaq Azərbaycan xalqı, yəni bizim indit yaşadığımız bu Azərbaycan islamı hələ VII əsrdə qəbul edibdir. Görürsünüz, qısa bir məsafədə islamın şimala doğru yayılması üçün nə qədər vaxt lazım olubdur. Bunu araşdırmalar daha dəqiq göstərə bilər. Ancaq şübhəsiz, bunların hamısının yolu Azərbaycandan keçibdir. Əgər islamın sərhədi bir neçə əsrdə Qafqazda Dərbəndlə məhdudlaşıbsa və islam Dərbənddən şimala yalnız sonralar, yəni XV-XVI əsrlərdə keçibsə, bu onu göstərir ki, islam dini Azərbaycanda nə qədər güclü olubdur. Eyni zamanda islam dininin şimala yayılması da o qədər asan olmayıbdır. Bu, vaxt tələb edibdir.

Bütün bunlara görə hesab edirəm ki, Azərbaycan bu sahədə Qafqazda araşdırma mərkəzi ola bilər. Əgər siz hamınız belə bir qərara gələ bilsəniz, Azərbaycanda bir mərkəz yaratmaq olar. Azərbaycan dövləti də buna himayəçilik edə, kömək göstərə bilər. Mən hər halda Azərbaycanın timsalında demək istəyirəm, - bu sahədə çox böyük işlər görülməlidir. Elmi tədqiqat üçün burada geniş imkanlar vardır.

Mən bir xüsusiyyəti də qeyd etmək istəyirəm. Sovet hakimiyyəti illərində Azərbaycanın özündə demək olar ki, islamşünaslar çox az idi, bəlkə də yox idi. Bunun da səbəbini sizə deyim. Məsələn, keçmiş Sovetlər İttifaqında islamşünaslar əsasən Moskvada idilər. Çünki islama mən dediyim həmin kommunist ideologiyası tərəfindən o qədər mənfi münasibət var idi ki, islama mənsub olan alimlərin özləri islamşünaslıqla məşğul olmaqdan çəkinirdilər, qorxurdular. Digər tərəfdən də hesab edirdilər ki, bu, dünya elmi üçün o qədər də [359-360] əhəmiyyətli bir sahə deyildir, yaxşı olar ki, başqa bir sahə ilə məşğul olsunlar.

Məsələn, Quranın Azərbaycan dilinə çevrilməsi respublikamız müstəqillik əldə edəndən sonra, yaxud həmin ərəfədə mümkün oldu. Mən sizə açıq deyim ki, sovet hakimiyyəti vaxtı əgər Quran Azərbaycan dilinə çevrilsəydi, şübhəsiz ki, buna nəinki irad tutacaqdılar, bəlkə bundan ötrü kimisə cəzalandıracaqdılar. Amma eyni zamanda, Quran rus dilinə tərcümə olunmuşdu. Ərəb dilini bilməyən azərbaycanlıların çoxu Quranı həmin o rus tərcüməsindən, nəşrindən götürüb oxuyurdular.

Nə üçün belə hadisə var idi, nə üçün Quran rus dilinə tərcümə olunmuşdu, ancaq Azərbaycan dilinə tərcümə edilməmişdi? Çünki Qurandan istifadə etməyi azərbaycanlılara qadağan edirdilər. Hesab edirdilər ki, Quran rus dilinə tərcümə olunubdur və guya xristianlar tərəfindən islam dinini öyrənmək üçün lazımdır. Amma Quran Azərbaycan dilinə tərcümə olunsa, bu, azərbaycanlıların islam dininə meylini artıracaqdır. İş burasında idi.

Amma eyni zamanda, xristian dininə məxsus kitabların rus dilində nəşr olunması qadağan deyildi. Elə bunun özü də Sovetlər İttifaqı zamanı müxtəlif xalqlara müxtəlif münasibət olduğunu göstərirdi. Bu səbəbdən də Azərbaycan alimləri çox az, nadir halda islamşünaslıqla, islam dinini öyrənməklə məşğul olurdular, bu barədə kitablar yazırdılar. Çünki hesab edirdilər ki, bu kitablar, tədqiqatlar onlar üçün qiymətli deyildir. Yenə də deyirəm, bəziləri də qorxurdular, çəkinirdilər.

Ekmələddin İhsanoğlu indi mənə deyirdi ki, rəhmətlik Ziya Bünyadov və rəhmətlik Cahangir Qəhrəmanov bu mərkəzlə neçə illər idi əməkdaşlıq edirdilər. Bu həqiqətdir. Mən bilirəm ki, onların ikisi də böyük alim kimi, islam tədqiqatları ilə məşğul olurdular. Ancaq bunlar Azərbaycanda çox azlıq təşkil edirdilər. Onlar da böyük alim olduqlarına, başqa təd[360-361]qiqatlar da apardıqlarına görə bu tədqiqatı

da aparmaqdan çəkinmirdilər, qorxmurdular. Bax, buna görə də mən hesab edirəm ki, Azərbaycanda islamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilibdir.

Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycanın Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları bəlkə də bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Hər halda, mən indi qəti deyə bilmərəm. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun.

Yenə də deyirəm, Azərbaycan elmində böyük bir dövr ərzində biz bu işlərlə ciddi məşğul olmamışıq. Ancaq bu, təkcə Azərbaycan alimlərinin işi deyil və çətindir. İndi bizim üçün çox mötəbər mərkəz olan, İstanbulda yerləşən İslam Konfransı Təşkilatının Elmi-Tədqiqat Mərkəzi, yaxud da ki, Rusiyanın Moskvada olan elmi tədqiqat təşkilatları, Avropadakı elmi tədqiqat təşkilatları ilə əməkdaşlıq edilməlidir.

Cənab Medvedkonun burada olmasından istifadə edərək demək istəyirəm ki, gərək Rusiyanın özü də bu işlərə ciddi fikir versin. Çünki Rusiyada 30 milyon müsəlman yaşayır. Bu, Rusiyanın 150 milyonluq əhalisinin böyük bir hissəsini təşkil edir. Demək, əhalinin bu hissəsini nəzərə almaq lazımdır.

Keçmişdə, sovet hakimiyyəti dövründə din qadağan edildiyinə görə kim müsəlmandır, kim xristiandır – hamısı bir idi, hamısı da sovet xalqı hesab olunurdu. Hətta xalqların adını da xırda-xırda aradan götürmək meylləri inkişaf edirdi. «Vahid sovet xalqı», «insanların yeni tarixi birliyi» kimi terminlər var idi. Amma indi gərək Rusiya Federasiyası da düşünsün ki, bu ölkədə 30 milyon müsəlman yaşayır. Onların əksəriyyəti də yığcam şəkildə öz ərazilərində – Şimali Qafqazda, Tatarıstanda, Başqırdıstanda, başqa yerlərdə yaşayırlar. [361-362]

Demək, Rusiyada da bu elmi-tədqiqat işləri çox gücləndirilməlidir. Biz son iki əsrdə Rusiya ilə çox sıx bağlı olduğumuza görə, bu elmi-tədqiqat sahəsində müştərək işlər də görmək olar. Hesab edirəm ki, bu da faydalı olacaqdır. Xüsusən ona görə ki, - mən burada artıq bəyan etdim, - əgər Qafqazda islam sivilizasiyası problemlərinin tədqiqi işlərini öz üzərimizə götürsək, yəni burada bu işlərin mərkəzini təşkil etsək, demək, biz Rusiyanın elmi tədqiqat orqanları ilə sıx əməkdaşlıq etməliyik.

Hörmətli alimlər, dostlar!

Mən sizin konfransın işinə çox böyük əhəmiyyət verirəm. Ümidvar olduğumu bildirmək içtəyirəm ki, siz bu gün və qarşıdakı günlərdə Azərbaycanda səmərəli işlər görəcəksiniz. Şübhə etmirəm ki, Azərbaycanda yüksək qonaqpərvərlik görəcəksiniz. İnanıram ki, siz Azərbaycanın bugünkü gerçəkliyi ilə də tanış olacaqsınız. Bizim ağır, çətin problemlərimizlə yanaşı, dövlət müstəqilliyimizin dəyərli uğurları da vardır. Biz fəxr edirik ki, bütün ağır problemlərə, sosial-iqtisadi çətinliklərə, ərazimizin 20 faizinin işğal altında olmasına baxmayaraq, işğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlıların zorla çıxarılmasına və onların əksəriyyətinin indi çadırlarda yaşamasına baxmayaraq, biz tariximizin gözəl bir mərhələsini yaşayırıq. Çünki dövlət müstəqilliyimizin yeddinci ili tamam olur. Ötən bu yeddi il də Azərbaycan üçün çox hamar dövr olmayıbdır. Bu sahədə də bizim qarşımızda çoxlu çətinliklər olubdur. Biz çox böyük bəlalarla rastlaşmışıq. Ancaq əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi qorunub, saxlanılıb və Azərbaycan müstəqil dövlət kimi yaşayır və bundan sonra da yaşayacaqdır.

Siz burada Azərbaycanın Avropa ilə Asiya, Qərblə Şərq arasında bir körpü olduğunu da qeyd etdiniz. Bu, həqiqətən belədir. Bu, təkcə coğrafi məna daşımır. Bu, sosial-iqtisadi və siyasi məna daşıyır. [362-363]

Siz bilirsiniz ki, bu il sentyabrın 7-8-də Azərbaycanda ilk dəfə qədim tarixi İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 32 dövlətin yüksək səviyyəli nümayəndə heyətləri, o cümlədən bir çox ölkələrdən dövlət, hökumət başçıları iştirak etmişlər. 13 beynəlxalq təşkilatın nümayəndə heyəti burada iştirak etmişdir. Biz hələ orta əsrlərdə itirilmiş böyük tarixi İpək yolunun bərpası ilə əlaqədar ilk dəfə olaraq beynəlxalq sənədlər, bəyannamələr imzalamışıq. Bu proqram artıq həyata keçirilir və biz onun nəticələrini görürük.

Ona görə də Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını – həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən – birləşdirən bir ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərqlə Qərbi, Avropa ilə Asiyanı, xristian aləmi ilə islam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir və bundan sonra da müstəqil dövlət kimi yaşayacaqdır.

Mən sizin hamınıza cansağlığı, səadət arzulayıram. Simpoziumun işinə uğurlar arzulayıram. [363]

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİNİN 50 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Azərbaycan Dövlət Musiqili Komediya Teatrı*

*10 dekabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!

Sizi Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

İkinci Dünya müharibəsindən sonra yaranmış Birləşmiş Millətlər Təşkilatı dünyada böyük müharibələrin qarşısının alınması, sülhün, əmin-amanlığın qorunub saxlanılması, müstəmləkəçiliyin ləğv olunması, hər bir insanın rahat yaşaması üçün çox xidmətlər göstərmişdir.

Birləşmiş Millətlər Təşkilatının böyük xidmətlərindən biri də 50 il bundan öncə bəşər tarixində ilk dəfə olaraq Ümumdünya insan hüquqları bəyannaməsinin qəbul edilməsidir. Bu bəyannamə qəbul edilərkən ona 50-55 dövlət səs vermişdir. Ancaq ötən 50 il ərzində bu bəyannamə dünyanın demək olar ki, əksər ölkələrinin, dövlətlərinin dövlət idarəetməsinin, quruluşunun əsas prinsipinə çevrilmişdir. Bunlar böyük nailiyyətdir.

Biz bu bəyannamənin 50 illik yubileyini bu gün təntənəli surətdə qeyd edərkən Birləşmiş Millətlər Təşkilatına minnətdarlığımızı bildiririk, Birləşmiş Millətlər Təşkilatını, onun baş katibini bu münasibətlə təbrik edirik. [364-365]

Məndən əvvəl çıxış edən natiqlər Ümumdünya insan hüquqları bəyannaməsinin Azərbaycanda həyata keçirilməsi və onun müsbət nəticələri haqqında çox ətraflı məlumat verdilər, dəyərli fikirlər dedilər. Mən bütün bu fikirlərə və son illərdə Ümumdünya insan hüquqları bəyannaməsindən irəli gələn prinsiplərin Azərbaycanda həyata keçirilməsi ilə əlaqədar görülən işlərə verilən qiymətə görə sizə təşəkkür edirəm.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi cənab Ercan Murat həm Ümumdünya insan hüquqları bəyannaməsi, həm də Azərbaycanda son illər görülən işlər haqqında dəyərli fikirlər söylədi və bizim işimizə müsbət qiymət verdi. Mən bunu qiymətləndirirəm və bu münasibətə görə təşəkkür edirəm.

Azərbaycanda insan hüquqlarının qorunması, Ümumdünya insan hüquqları bəyannaməsinin tələblərinin həyata keçirilməsi son yeddi il ərzində təmin olunubdur. Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini elan edən andan Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Ümumdünya insan hüquqları bəyannaməsinə qoşulmuşdur. Beləliklə, əgər bu bəyannamənin 50 illik tarixi varsa, Azərbaycan bu bəyannamə ilə əlaqədar yeddi il ərzində fəaliyyət göstərir. Ancaq hamımıza məlumdur ki, bu yeddi ilin də hamısında biz bu bəyannamənin tətbiq olunmasını təmin edə bilməmişik.

Həqiqət ondan ibarətdir ki, ümumdünya insan hüquqları bəyannaməsinin həyata keçirilməsinə biz son illərdə başlamışıq və burada artıq qeyd edildiyi kimi, çox işlər görülmüşdür. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada insan hüquqlarına aid bütün maddələrin əks olunması Azərbaycanın məhz insan hüquqlarının qorunması yolu ilə getməsinə əyani sübutdur. Bundan sonra qəbul olunan qanunlar da bunu göstərir və ən əsası isə – bizim bu sahədəki əməli işimiz bunu göstərir.

1998-ci il Azərbaycan üçün demək olar ki, Ümumdünya insan hüquqları bəyannaməsi, insan hüquqları ili olubdur. [365-366] 1998-ci ildə Azərbaycanda görülən işlər, qəbul olunan qərarlar və həyata keçirilən tədbirlər ictimaiyyətə məlumdur. Bu gün bu barədə burada deyildi.

Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu üç söz bizim dövlət quruculuğumuzun əsas mənasını, məzmununu, əsas prinsiplərini təşkil edir. Bu sözlərin üçü də – demokratiya da, hüquq da, dünyəvilik də insan haqlarından irəliyə gələn sözlərdir. Beləliklə, biz müstəqil Azərbaycanda öz strateji yolumuzu artıq müəyyən etmişik və bu yolla gedirik.

Bu gün biz Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümünü qeyd edərək artıq gələcək vəzifələrimiz haqqında danışmalı və düşünməliyik. Çünki üzərimizə düşən vəzifələr böyükdür, çoxdur. Ötən illərdə görülən işlər Azərbaycanda insan hüquqlarının bütün sahələrdə təmin olunmasına hələ gətirib çıxarmayıbdır. Bu da təbiidir. Çünki qısa bir zamanda buna nail olmaq mümkün deyildir. Bu gün biz Birləşmiş Millətlər Təşkilatının Ümumdünya insan hüquqları bəyannaməsinin ötən 50 il müddətində dünyada həyata keçirilməsini nəzərdən keçiririk. Görürük ki, bəyannamə, insan hüquqlarının dövlət prinsiplərinə çevrilməsi və onların tətbiq olunması dünyanın müxtəlif ölkələrində müxtəlif zaman, vaxt tələb edibdir.

Bizim vəzifəmiz ondan ibarətdir ki, tutduğumuz yolla ardıcıl olaraq gedək. Mən bu gün bəyan edirəm ki, Azərbaycan dövləti, hökuməti bundan sonra da Azərbaycanda insan hüquqlarının qorunmasını özünün əsas vəzifəsi hesab edir və bu prinsiplə yaşayacaq, işləyəcəkdir.

İnsan haqlarının qorunmasında hakimiyyət orqanlarının üzərinə çox vəzifə düşür. Təbiidir, hər bir insan cəmiyyətdə həm öz hüquqlarını təmin etməlidir, həm də cəmiyyətdə insan hüquqlarının qorunmasına səylər göstərməlidir. Bu, hər bir Azərbaycan vətəndaşından tələb olunur. Ancaq hakimiyyət [366-367] orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar – Azərbaycan vətəndaşları insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar. Hesab edirəm ki, əgər vəzifəli şəxslər, hakimiyyət orqanlarında çalışan insanlar insan hüquqlarının qorunmasını özlərinin əsas vəzifəsi kimi dərk edə bilsələr biz bu sahədə çox nailiyyətlər əldə edə bilərik.

Mən bu gün Azərbaycanda bütün hakimiyyət orqanlarından, dövlət, hökumət orqanlarında vəzifə daşıyan bütün vətəndaşlardan insan hüquqlarının qorunması ilə əlaqədar üzərinə düşən vəzifələrin yerinə yetirilməsini tələb edirəm. Bəyan edirəm ki, biz bu məsələni həmişə diqqət mərkəzində saxlayacağıq və hər bir vəzifəli şəxsin işini onun bu sahədəki vəzifələrini yerinə yetirməsi ilə qiymətləndirəcəyik.

Hesab edirəm ki, əgər vəzifəli şəxslər vətəndaşların hüquqlarının qorunmasına ciddi yanaşsalar biz çox şeylərə nail ola bilərik. Təəssüflər olsun ki, bir çox hallarda, - bunu bu gün etiraf etmək lazımdır, - vəzifəli şəxslər hesab edirlər ki, qanun onlar üçün deyildir. Biz belə faktların şahidiyik. Bu gün bəyan edirəm ki, belə faktlarla ciddi mübarizə aparılmalıdır. Belə şəxslər hakimiyyət orqanlarında işləyə bilməzlər. Onlar öz işlərindən kənarlaşdırılmalıdır. Biz hər bir vətəndaşın hüququnun qorunmasına çalışmalıyıq.

Təbiidir, vətəndaşlarımız içərisində cinayət edənlər də var, qanunu pozanlar da var, başqalarının hüquqlarına təcavüz edənlər də var, ümumiyyətlə, qanuna, hüquqa riayət etməyənlər də vardır. Hakimiyyət orqanlarının, vəzifəli şəxslərin vəzifəsi bütün bunlarla mübarizə aparmaqdır. Ancaq bu mübarizəni apararkən qanuna riayət etmək, qanun çərçivəsində hərəkət etmək, qanun əsasında fəaliyyət göstərmək lazımdır. Mən inanıram ki, Azərbaycanın vətəndaşları, Azərbaycanda hakimiyyət orqanlarında çalışanlar insan hüquqları məsələsini həmişə diqqət mərkəzində saxlayacaqlar. [367-368]

Bizdə bu sahədə təbliğat da geniş olmalıdır, hüquq təhsili də gücləndirilməlidir. Biz hüquq haqqında danışarkən bilməliyik ki, əgər vətəndaşlar qanunu bilmirlərsə, öz hüquqlarını, nəyi müdafiə edə bilərlər, nəyi edə bilməzlər – bunu bilmirlərsə onlardan qanuna tabe olmağı tələb etmək də ədalətli olmur.

Biz keçmişdə, yəni sovet hakimiyyəti dövründə qanunlar əsasında yaşamadığımıza görə insanlarda hələ qanunu bilmək, qanunu öyrənmək, qanuna riayət etmək vərdişi yaranmayıbdır. Bu vərdiş də bir günə, iki günə yarana bilməz. Demək, biz çalışmalıyıq ki, bu proses inkişaf etsin. Bu prosesi özbaşına da buraxmaq olmaz. Biz bu prosesə təsir göstərməliyik. Biz bu prosesi istiqamətləndirməliyik. Bunun üçün də hüquq təhsili təkcə məktəblərdə, yaxud universitetlərdə olmamalıdır, cəmiyyətin bütün sahələrində olmalıdır.

Biz bu gün 50 illik yubileyi qeyd edərkən, hesab edirəm, gələcək üçün əsas qənaətimiz ondan ibarət olmalıdır ki, Azərbaycan vətəndaşlarını hüquqi təhsil nöqteyi-nəzərindən inkişaf etdirək. Bu, böyük bir işdir. Mənə belə gəlir ki, bu işi mütəşəkkil və ardıcıl surətdə aparmaq üçün proqram da yazmaq lazımdır və onun həyata keçirilməsini təmin etmək lazımdır.

Bir sözlə, Azərbaycan müstəqil dövlət kimi Ümumdünya insan hüquqları bəyannaməsinə sadiqdir və bundan sonra da sadiq olacaqdır. Biz həyatımızın bütün sahələrində və xüsusən dövlət quruculuğu prosesində Konstitusiyada həkk olunmuş insan hüquqlarına aid bütün maddələrin həyata keçirilməsini təmin edəcəyik. Konstitusiyanın maddələrindən irəli gələn vəzifələri həyata keçirmək üçün bundan sonra da yeni qanunlar qəbul edəcəyik və beləliklə, Azərbaycanı həqiqətən demokratik, hüquqi, dünyəvi dövlət edəcəyik.

İnsan hüququ hər bir insanın hüququdur, eyni zamanda hər bir xalqın hüququdur. Biz ölkənin daxilində insan [368-369] hüquqları ilə əlaqədar nöqsanların aradan qaldırılmasına və insan hüquqlarının bərqərar olmasına səlahiyyətliyik və bunu təmin edə bilərik. Ancaq Azərbaycan xalqının hüquqlarının pozulması, tapdalanması isə bizim xalqımızı incidən və narahat edən haldır. Bu, eyni zamanda Dünya Birliyini, Birləşmiş Millətlər Təşkilatını da narahat etməlidir. Bu da burada deyildiyi kimi, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin bir qisminin işğal olunması, bu müharibədə insanların həlak olması, bütün hüquqlarının pozulması və bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan zorla çıxarılması ilə əlaqədar bütün hüquqlarının pozulmasıdır. Təəssüflər olsun ki, dünyanın insan hüquqları ilə məşğul olan bir çox beynəlxalq mərkəzləri bu sahəyə diqqət yetirmirlər, bəziləri hətta bu sahəni insan hüquqlarının pozulması kimi qiymətləndirə bilmirlər. Bu, bizi çox narahat edir. Ona görə də bu gün Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümünü bayram edərək, biz Birləşmiş Millətlər Təşkilatından, ATƏT-dən və insan hüquqları ilə məşğul olan bütün beynəlxalq təşkilatlardan, onların mərkəzlərindən tələb edirik ki, Azərbaycan xalqının hüquqlarının kütləvi surətdə pozulmasına son qoyulsun.

Xalqımız dözümlü xalqdır və torpaqlarımızın işğal olunmasına da biz hələ ki, dözürük. İnsanların bütün hüquqlardan məhrum olaraq çadırlarda yaşamasına da biz dözürük. Xalqımıza edilmiş bu təcavüzə və hüquqlarımızın tapdanmasına da dözürük. Dözürük ona görə ki, biz sülhpərvər xalqıq. Müstəqil Azərbaycan dövləti sülhpərvər siyasət tərəfdarıdır və Ermənistan-Azərbaycan münaqişəsini də biz sülh yolu ilə həll etmək istəyirik. Ona görə də biz beynəlxalq təşkilatlarla, xüsusən ATƏT-lə, onun Minsk qrupu ilə, Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa ilə sıx əməkdaşlıq edirik. Bu əməkdaşlığın müsbət nəticələrinə də inanırıq. Ancaq eyni zamanda [369-370] məsə-

lənin gecikməsi və beynəlxalq aləmin, Dünya Birliyinin get-gedə bu hərbi təcavüzü unutması, insan hüquqlarının bu qədər tapdalanmasına göz yumması bizim hər birimizi, bütün Azərbaycan xalqını narahat edir. Bu da təbiidir. Güman edirəm, Birləşmiş Millətlər Təşkilatı da, ATƏT də, bütün beynəlxalq təşkilatlar da məhz bu gün, məhz bu il ümumiyyətlə, dünyada insan hüquqlarının kütləvi pozulması ilə əlaqədar ciddi tədbirlər görməlidirlər, biz bunu tələb edirik.

Məmnuniyyətlə demək olar ki, Azərbaycanda 1998-ci ildə Ümumdünya insan hüquqları bəyannaməsinin 50 illik yubileyi ilə əlaqədar çoxsaylı tədbirlər keçirilmiş və bu tədbirlər bizim cəmiyyətimizə, vətəndaşlarımıza fayda vermişdir. Konfranslar, elmi sessiyalar, müxtəlif yığıncaqlar və elə bu təntənəli mərasim – hamısı birlikdə Azərbaycanda cəmiyyətin, hər bir vətəndaşın diqqətini insan hüquqları probleminə cəlb edir. Bu, özü-özlüyündə bizim ümumi işə çox böyük fayda verir. Mən bunların hamısından məmnun olduğumu bildirərək, indiyə qədər görülən işləri yüksək qiymətləndirdiyimi bir daha bəyan edirəm və sizi, Azərbaycanın bütün vətəndaşlarını Ümumdünya insan hüquqları bəyannaməsinin 50-ci ildönümü münasibətilə təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına ən əsas hüquq – yaşamaq hüququ, xoşbəxt yaşamaq hüququ arzu edirəm. Sizin hamınıza bu ümumbəşəri işdə uğurlar diləyirəm. Sağ olun. [370]

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Hörmətli cənab prezident!
Əziz qardaşım!
637 illik tarixi olan Qırkpınar yağlı güləşlərinin altun kəmərə layiq görülmüş ağası Hüseyn Şahinin Ankarada vəfat etməsi xəbəri məni dərindən kədərləndirmişdir.

Atalarımızın qəhrəmanlıq idmanı olan yağlı güləşin türk dünyasında yayılmasına çalışmış, onun inkişafında böyük xidmətləri olmuş Ağa Hüseyn Şahinə Tanrıdan rəhmət, ailəsinə və yaxınlarına səbr diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 dekabr 1998-ci il*
[371]

## «İSLAM SİVİLİZASİYASI QAFQAZDA» MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARININ BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ* ÇIXIŞ

*Prezident sarayı*

*11 dekabr 1998-ci il*

Mən böyük bir elmi toplantının, simpoziumun keçirilməsi və uğurla başa çatması münasibətilə sizi bir daha təbrik edirəm. Hesab edirəm ki, siz hamınız birlikdə çox dəyərli iş görmüsünüz. Ancaq bir daha bunu qeyd etmək istəyirəm ki, bu işin əsasını mənim İstanbulda, İslam Konfransı Təşkilatının Elmi Araşdırmalar Mərkəzində görüşüm qoyubdur. Mən o vaxt orada görülən işlər haqqında müəyyən məlumat alandan sonra və bizim hörmətli dostumuz Ekmələddin İhsanoğlu ilə ətraflı danışıqlar aparandan sonra bu təklifi, yəni mənə verilən təklifi, - bu təşəbbüs bizdən deyil, bunu da etiraf etməliyəm, - qəbul etdim. Məmnunam ki, bu, artıq reallaşdı və simpozium keçirildi.

Mən hesab edirəm ki, bununla böyük bir işin əsası qoyulubdur. İslam sivilizasiyası dünyanın böyük bir hissəsini əhatə edir. Onlardan bir qismi islamın yarandığı ərazi və demək olar ki, islamın mərkəzidir. Digər hissəsi ərəb ölkələri [372-373] və Yaxın, Orta şərq ölkələridir ki, burada islam dini həmişə yaşayıb, həmişə inkişaf edibdir. Hətta bir çox ölkələrdə islam dini hakimiyyətin də əsasını təşkil edir, dövlətlər islam dövləti adını daşıyırlar və dövlət quruluşunda islam prinsipləri əsas götürülür.

İslamın mövcud olduğu başqa ölkələr isə keçmişdə Sovetlər İttifaqına mənsub olmuş ölkələrdir. Bu, ölkələr daha əvvəl Rusiyanın, yəni çar imperiyasının tərkibində olublar. Çar Rusiyası dağılandan sonra isə inqilab nəticəsində sovet hakimiyyəti yarandıqdan sonra bu ölkələr Sovetlər İttifaqının tərkibində olublar. Sovetlər İttifaqı dağılandan sonra bu ölkələr öz dövlət müstəqilliyini əldə ediblər və öz dinlərini bərpa etməyə başlayıblar. Bu ölkələrin bir qismi, o cümlədən Azərbaycan, Mərkəzi Asiyada yerləşən ölkələr, məsələn, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan müstəqil dövlətlərdir. Bir qismi isə Rusiya Federasiyasının tərkibindədir. Bunlar Şimali Qafqaz respublikaları, Rusiya ərazisinin başqa yerlərində yerləşən Tatarıstan, Başqırdıstan və islam dininə itaət edən insanların yaşadıqları başqa respublikalar, yaxud da vilayətlərdir.

İslama itaət edənlərin başqa bir qismi isə Avropa ölkələrində mövcud olan dövlətlərdədir – Türkiyə Cümhuriyyəti, Albaniya, Bosniya-Herseqovina və başqa yerlər də islam dininə mənsub olan əhalinin ölkələri, dövlətləridir.

Bunları deməklə mən onu bildirmək istəyirəm ki, islam dünyanın bir çox ölkələrində mövcud olduğu halda, hər bir bölgənin özünəməxsus xüsusiyyəti var. Əgər biz, ümumiyyətlə, islamşünaslıqla dərindən məşğul olmaq istəyiriksə və islam sivilizasiyasının bəşər mədəniyyətinə verdiyi töhfələri dünyaya daha da nümayiş etdirmək istəyiriksə və islamın müasir həyatda rolunu daha düzgün müəyyən etmək istəyiriksə, dünyanın hər bir bölgəsinin xüsusiyyətini nəzərə almalıyıq. [373-374]

Şübhəsiz ki, mən bütün dünyadakı islam ölkələri haqqında söz demək istəmirəm. Ancaq biz artıq üç gündür ki, Qafqaz haqqında müzakirə aparırıq. Bu barədə mən öz fikirlərimi simpoziumun açılışında bildirdim. Onlara əlavə olaraq bu gün demək istəyirəm ki, Azərbaycan həm əhalisinin sayına görə, həm ərazisinin sahəsinə görə, həm də islamı qəbul etmək tarixinə görə Qafqazda ən böyük ölkədir. Mən artıq dedim ki, bizim fikrimizcə, Qafqazda islam islamın mərkəzindən, Azərbaycan ərazisindən keçərək Şimala yayılıbdır. Ona görə də mən istərdim ki, iki gün bundan öncə deyilən fikir reallaşsın ki, Azərbaycanı Qafqazda islam sivilizasiyasının tarixi, keçmişi və bu günü ilə əlaqədar bir tədqiqat, araşdırma mərkəzi etmək olar.

Türkiyədə – İstanbulda görülən işlər qlobal xarakter daşıyır. Azərbaycan isə Qafqazda bunun bir hissəsi ola bilər. Məsələn, Qafqazı götürsək, Qafqaza bağlı olan, islam dininə itaət edən böyük ölkələr bir tərəfdən Türkiyədir, digər tərəfdən İran. Azərbaycan qədimdən islamı qəbul edərək həm İranla, həm Türkiyə ilə çox sıx əlaqədə olubdur. Şübhəsiz ki, islamın mərkəzi ilə – Məkkə və Mədinə ilə, Bağdadla, Kərbəla ilə, islam dininin başqa mərkəzləri ilə də tarixən əlaqədar olubdur.

Ancaq həm coğrafi nöqteyi-nəzərdən, həm də o dediyim amilləri nəzərə alaraq, mən hesab edirəm ki, Azərbaycan burada mühüm rol oynaya bilər. Mən sizin qərarınızı dəstəkləyirəm ki, bu simpozium Azərbaycanda davam etsin. Güman edirəm, müəyyən müddətdən sonra ikinci Bakı simpoziumunu

* Görüşdə İslam Konfransı Təşkilatının İstanbuldakı İslam, Tarix, Sənət və Kültür Mərkəzinin (İRSİKA) baş direktoru Ekmələddin İhsanoğlu, İran mədəniyyət naziri əvəzi Məhəmmədəli Təsxiri, Rusiya Elmlər Akademiyası Afrika İnstitutunun elmi əməkdaşı professor Leonid Medvedko çıxış etmişlər.

hazırlayıb keçirmək olar. Ancaq bu simpoziuma gərək Qafqazda olan digər ölkələrdən də nümayəndələr gəlsin. Biz islam sivilizasiyasının Qafqazda yayılmasına dair simpozium keçirdik. Ancaq Şimali Qafqaz ölkələrindən bilavasitə bizim bu simpoziumda nümayəndə yoxdur. Doğrudur, Rusiyanın nümayəndələri var, Şimali Qafqaz da Rusiya [374-375] Federasiyasına daxildir. Ancaq Şimali Qafqazda olan respublikalarda – Dağıstan, Çeçenistan, İnquşetiya, Kabarda-Balkar, Qaraçay-Çərkəz, Adıgey, Osetiya – islam dini çox inkişaf edibdir. Bunlar hamısı Qafqaza məxsusdur, Qafqaz ərazisindədir. Ona görə də gələcəkdə bizim araşdırmalarımızın daha da hərtərəfli olması üçün və bütün Qafqazı əhatə etməsi üçün bu respublikaları da buraya cəlb etmək lazımdır.

Qafqazda üç müstəqil dövlət var. Rusiya Federasiyası Şimali Qafqazı əhatə edir. Amma Cənubi Qafqazda üç müstəqil dövlət var – Azərbaycan, Gürcüstan, Ermənistan. Azərbaycan tam islam dininə itaət edən əhalidən ibarətdir. Gürcüstanda 500 mindən artıq azərbaycanlı yaşayır, bunlar müsəlmanlardır. Bilirsiniz ki, Gürcüstanın bir hissəsində – Acarıstanda müsəlman olan gürcülər də var. Onlar islam dininə çox yüksək əhəmiyyət verirlər. Bu da Qafqazdır.

İndi Ermənistan adlanan ərazidən islamın bütün üzvləri təəssüflər olsun ki, silinibdir. Yəni o ərazidə qədim zamanlardan müsəlmanlar, azərbaycanlılar yaşamışlar. Mən bildiyimə görə, -bunu siz daha da dəqiq deyə bilərsiniz, - Azərbaycanda islam qəbul edilən zaman, demək olar ki, Azərbaycanın bütün ərazisində qəbul olunubdur. İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır.

Mən güman etmirəm ki, o torpaqlardan islam əbədi olaraq silinibdir, - mən belə hesab etmirəm. İslam harada olubsa, ora bir də gələcəkdir. Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri – müsəlmanlar, azərbaycanlılar oraya qayı[375-376]dacaqlar. Ona görə o yerləri islamın xəritəsindən heç vaxt silmək olmaz.

Azərbaycana gəldikdə isə, hesab edirəm, Azərbaycan Qafqazda bütün dinlərin bir-biri ilə mehriban əlaqələrdə yaşadığı bir ölkədir. Biz bununla fəxr edirik. Məsələn, Qafqazda olan Ermənistandan əgər bütün başqa millətlər, dinlər qovulub çıxarılıbsa, - təkcə müsəlmanlar yox, artıq orada yəhudilər də yoxdur, erməni millətindən başqa və xristianlığın erməniyə mənsub olan qolundan savayı başqa bir millət, din yoxdur, - erməni şovinizmi, erməni ekstremizmi buna illər, əsrlər boyu nail olmağa çalışıbdır. Onlar öz ölkəsini monomilli ölkə etməklə fəxr edirlər.

Biz belə siyasətin əleyhinəyik. Biz nəinki belə siyasəti qəbul edə bilmərik, buna tərəfdar çıxa bilmərik, buna tam ziddik, bunun əleyhinəyik. Allah-təala insanları harada yaradıbsa, onlar orada da yaşamalıdırlar. İnsanlar öz iradələri, öz arzuları ilə hansı dini qəbul edirlərsə, o dinə itaət etməlidirlər. Demək, onlar məskunlaşdıqları yerdə yaşamalı, öz dinlərini də qoruyub saxlamalıdırlar.

Azərbaycanda yəhudilər 2500 ildir yaşayırlar, indi də yaşayırlar. Xristian dini Azərbaycanda əsrlər boyu olub, bu gün də var. Azərbaycanda müsəlman məscidləri ilə yanaşı, pravoslav xristian kilsələri də, yəhudi sinaqoqları da var. İnsanlar hərə öz iradəsi ilə öz mənəviyyatını istədiyi kimi ifadə edir. Hesab edirəm ki, bu, Azərbaycanın Qafqazda və xüsusən Cənubi Qafqazda üstünlüyüdür. Mən hesab edirəm ki, bütün bunlara görə Azərbaycan Qafqazda İslam sivilizasiyası problemi ilə əlaqədar elmi tədqiqatlar, araşdırmalar mərkəzinə çevrilə bilər.

Bir amili, bir məsələni də qeyd etmək istəyirəm. O da ondan ibarətdir ki, - bunu simpoziumda da hamınız dediniz, mən də bu fikirləri söylədim ki, - biz heç vaxt islamı donmuş vəziyyətdə saxlamaq istəmirik. Dünya inkişafdadır, insan [376-377] cəmiyyəti inkişafdadır, bəşəriyyət inkişafdadır. Belə olan halda islam donub əvvəlki vəziyyətində qala bilməz. Bu heç də hansısa bir dinin köklərinə, yaxud onun qoyduğu yola, ənənələrinə müxalifət deyildir. Əksinə, dünyaya gələn hər yeni nəsil öz köklərini daha da gücləndirməlidir. Elə etməlidir ki, o köklər daim qidalansın, inkişaf etsin, şaxələnsin, donmuş vəziyyətdə qalmasın və çürüməsin. Biz hər şeyə belə münasibət göstərməliyik və güman edirəm ki, islama da belə münasibət göstərməliyik.

Siz Azərbaycanda olduğunuz günlərdə hiss etdiniz – Azərbaycan islam mədəniyyətinin, islam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulan bugünkü Azərbaycandır. Bunu siz gördünüz. Azərbaycan gələcəyə də bu yolla gedəcəkdir. Biz dünyanın tərəqqisindən kənarda qala bilmərik. Dünya xalqlarının tərəqqi yolu ilə müsəlmanlar da getməlidirlər, o cümlədən azərbaycanlılar da getməlidirlər. Kim bir balaca ləngiyirsə, o, sıradan çıxır. Azərbaycan bu siyasəti aparır, bu yolla gedir. Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quraraq, öz milli-mənəvi, dini dəyərlərimizlə birləşdirərək Azərbaycanı inkişaf etdirdik. Güman edirəm, bunlar hamısı əsas verir ki, Azərbaycan bir mərkəz statusu alsın. Elədir, ya yox?

Siz bu günlərdə yəqin ki, Bakı ilə tanış oldunuz, gördünüz. Azərbaycanda tarixə, keçmişə böyük hörmət var. Bunun əlamətlərindən biri də Azərbaycanda, o cümlədən onun paytaxtı Bakıda tarixi şəxsiyyətlərə qoyulan, onları əbədiləşdirən heykəllər, abidələrdir. Simpoziumun başlanğıc günü biz danışırdıq ki, Azərbaycanın dahi şəxsiyyətləri islam mədəniyyətinin, sivilizasiyanın inkişafında böyük xidmətlər göstə-

riblər. Nizaminin, Füzulinin, Nəsiminin adları çəkildi. Siz Nizaminin abidəsini də, Füzulinin abidəsini də, Nəsiminin abidəsini də gördünüz. İslam aləminin, Azərbaycan mədəniyyətinin bu üç dahi insanı Azərbaycan xalqının qəlbindədir. [378-379] Baxmayaraq ki, onların yaşadıqları dövrdən indiyə qədər çox əsrlər keçibdir, Azərbaycanda Nizami adı daşıyan nə qədər insanlar var, nə qədər Füzuli adı daşıyanlar var, nə qədər Nəsimi adı daşıyanlar var. Biz hesab etmirik ki, Nizami, Füzuli, Nəsimi yalnız azərbaycanlılara məxsusdur. Onlar Azərbaycan çərçivəsindən elə yaşadıqları zaman çıxıblar. Sonrakı dövrlərdə isə onların əsərləri o qədər geniş yayılıbdır ki, onlar ümumbəşəri olublar və xüsusən bütün islam aləminə mənsub insanlardır. Onların xidmətlərinə verilən böyük qiymət və XX əsrin ikinci yarısında, - mən bunu xüsusi qeyd edirəm, - bu şəxsiyyətlərin xidmətlərinə verilən böyük qiymət və onların adlarının, xidmətlərinin əbədiləşdirilməsi, əsərlərinin nəşr edilib geniş yayılması və təbliğ olunması, Bakının ən gözəl meydanlarında onların abidələrinin, heykəllərinin ucaldılması bizim həm tariximizə, həm şerimizə, həm mədəniyyətimizə, həm də islam sivilizasiyasına olan sədaqətimizin əlamətidir.

Bəlkə də dünyada Azərbaycan kimi belə bir ölkə tapmaq çətindir. Bəziləri hətta gəlib Bakını, Azərbaycanı görəndən sonra təəccüb edirlər ki, burada nə qədər çox şair, yazıçı olub ki, bu qədər heykəl var. Həqiqətən Azərbaycan bu barədə zəngin bir ölkədir, Azərbaycan xalqı zəngin xalqdır. Ancaq onu da qeyd etmək lazımdır ki, Azərbaycanın bugünkü nəsilləri, yəni XX əsrdə yaşayan nəsilləri öz tarixinə, keçmişinə, milli-mənəvi ənənələrinə çox böyük hörmət göstəriblər və göstərirlər. Bu heykəllər, abidələr məhz belə bir münasibətin nəticəsidir.

Təkcə Nizami, Füzuli, Nəsimi deyil, başqa böyük şəxsiyyətlər də islam sivilizasiyasını inkişaf etdirməkdə xidmət göstərmişlər. Bunlar hamısı kiçik bir ərazidə olan Azərbaycana məxsusdur. Azərbaycan özündə bu qədər böyük, zəngin sərvətləri qoruyub saxlayıbdır. Mən çox arzu edirdim ki, siz elmi müzakirələrlə yanaşı, Azərbaycanla, Bakı ilə tanış olası[378-379]nız. Bilmirəm, Elçin Əfəndiyev bunu təmin edə bilib, ya bilməyibdir.

Mən sizə əlavə olaraq bu fikirləri çatdırmaq istəyirdim. Əgər mənim bu fikirlərim gələcəkdə bizim ümumi işimizi irəliyə apara biləcəksə, mən bundan çox məmnun olacağam. Sizi bir daha təbrik edirəm. Gələcək işlərinizdə uğurlar, hər birinizə cansağlığı, səadət arzulayıram. Ölkələrinizə, xalqlarınıza tərəqqi arzulayıram. Sağ olun. [379]

## AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ

*Prezident iqamətgahı*

*12 dekabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Mən bu gün şərəfli bir vəzifəni yerinə yetirməliyəm – sizə Azərbaycanın dövlət mükafatlarını təqdim etməliyəm.

Xalq şairi Bəxtiyar Vahabzadəni «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**B ə x t i y a r V a h a b z a d ə**: Hörmətli prezident!

Hörmətli mərasim iştirakçıları!

Mən bu mükafatla 1995-ci ildə təltif olunmuşam. Amma xəstəliyimə və digər səbəblərə görə onu vaxtında ala bilmədim. Anadan olmağımın 70 illik yubileyi münasibətilə keçirilən mərasimdəki çıxışımda mən bir söz demişdim, indi onu təkrar etmək istəyirəm. Keçmiş Sovetlər İttifaqı dövründə mən bir çox ordenlər, medallar və digər yüksək mükafatlarla təltif olunmuşam. Desəm ki, o vaxt sevinməmişdim, yalan olar. Mən onda da sevinmişdim. Amma bu «İstiqlal» ordeni mənim öz milli, müstəqil dövlətimin ordenidir. Bundan böyük [380-381] şərəf yoxdur ki, sən başqa bir dövlətin deyil, məhz öz müstəqil dövlətinin ordeninə layiq görüləsən.

Hörmətli prezident, buna görə Sizə dərin təşəkkürümü bildirirəm. Belə hesab edirəm, hələ sovet hakimiyyəti illərində də mənim gecə-gündüz bütün fəaliyyətim, arzum bu idi ki, müstəqil dövlətim yaransın və millətim heç bir millətin «quyruğu» olmasın. Allaha şükür ki, biz ona nail olduq. Cənab prezident, arzu edirəm ki, bu müstəqilliyimiz Sizin rəhbərliyiniz altında günü-gündən çiçəklənsin, müstəqilliyimizi heç kəs əlimizdən ala bilməsin. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Xalq yazıçısı İsa Hüseynova yüksək mükafatı təqdim edirəm.

Səni xoş gördük, təbrik edirəm. Xəstələnmişdin, ona görə də çoxdandır səni görmürəm. Xəstəliyə fikir vermə.Özünü möhkəm saxla. Sən böyük əsərlər yaratmısan, hələ bundan sonra da yaradacaqsan. Xalqımız da, dövlətimiz də sənin əsərlərini yüksək qiymətləndiribdir. Mən səni təbrik edirəm. Sənə cansağlığı, səadət arzulayıram. Əgər səndə aritmiya varsa, ən böyük arzum odur ki, heç bir xəstəliyin olmasın. Yox, yaxşısan, gümrah görünürsən, qocalmamısan, hələ cavansan.

**İ s a H ü s e y n o v**: Cənab prezident, mən Sizi hər gün görürəm, hər gün Sizə səcdə edirəm. Siz təkcə Azərbaycan xalqı üçün yox, bütün bəşəriyyət üçün çox işlər görmüsünüz. Şəxsən mən bir yazıçı, ziyalı kimi Sizdə nadir insani xüsusiyyətlər müşahidə etmişəm. Sizdə olan həssaslığı heç kəsdə, heç bir dövlət başçısında görməmişəm.

Cənab prezident, mən Sizə bir məktub göndərmişdim. Həmin məktubda təxminən belə bir ifadə işlətmişdim ki, mən Sizi öz doğma atam, qardaşım kimi tanıyıram. Bütün bunlar da təbiidir. Mən Sizi çox istəyirəm. Sizə cansağlığı, daha böyük uğurlar arzulayıram. [381-382]

**H e y d ə r Ə l i y e v**: Azərbaycan Elmlər Akademiyasının akademiki Cəlal Əliyevi «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni elmi əsərlər yazmağı arzulayıram. Təbrik edirəm.

Xalq artisti, bəstəkar Arif Məlikovu «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Mən sənə cansağlığı, yeni-yeni əsərlər arzulayıram. Sən bir simfoniya hazırlayırdın, deyəsən hələ qurtarmamısan.

**A r i f M ə l i k o v**: Vaxtilə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilirdi. Siz mənə söz verdiniz, orada çıxış etdim və salonda oturanlara bir sual verdim. Soruşdum, dünya tarixindən kim bir misal gətirə bilər ki, prezident bəstəkarı Azərbaycan Dövlət Filarmoniyasının binasından uzun məsafədə qəbiristanlığa qədər çiynində aparıbdır? Heç kim ikinci belə bir adam tapa bilmədi. Mən bu faktı nəyə görə dedim? Çünki bu fakt Sizinlə, həm də mənim ikinci atam Qara Qarayevin adı ilə bağlıdır. Mən onun tələbəsiyəm.

Mən burada ikinci bir sözü də tam mənası ilə deyə bilərəm. Ola bilər ki, dünyada ən musiqisevər prezident varsa, o da Sizsiniz, cənab prezident. Musiqi xalqın ürəyidir. Musiqi xalqın gündəlik həyatıdır. İnsan anadan olandan məzara gedənə qədər musiqi ilə yaşayır. Azərbaycanda musiqiyə qayğı doğrudan da yüksək səviyyədədir. Bu qayğının bir nümunəsi də bu gün mənə bu yüksək ordeni təqdim etməyinizdir.

Mənim üçün danışmaq çətindir. Çünki bəstəkar musiqi yazmalıdır. Bir neçə gün bundan əvvəl Siz bu salonda hərbçilərə yüksək mükafatlar verirdiniz. Mən həmin mərasimi televiziya vasitəsilə izləyirdim. Orada çox gözəl çıxışlar edildi. Amma ən gözəl çıxış o idi ki, hərbçi deyirdi: «Azərbaycan xalqına xidmət edirəm». Mən də çıxışımı həmin sözlərlə bitirirəm. Cənab prezident, Sizə təşəkkür edərək demək istəyirəm ki, mən Azərbaycan xalqına xidmət edirəm. [382-383]

**H e y d ə r Ə l i y e v**: Milli Məclisin sədri, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərovu yüksək dövlət mükafatı – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Murtuz müəllim, hüquq elmi çox mühüm elmlərdən biridir. Müstəqil dövlət qurandan sonra bu elmin əhəmiyyətini, qədrini biz daha da çox bilirik. Siz də ömrünüzün demək olar ki, ən şüurlu hissəsini hüquq elminə və Azərbaycanda hüquq təhsilinin inkişafına həsr etmisiniz. Ona görə də bu yüksək mükafata layiq görülmüsünüz. Sizi təbrik edirəm.

**M u r t u z Ə l ə s g ə r o v**: Zati-aliləri möhtərəm prezident!

Azərbaycanın yüksək mükafatına – «İstiqlal» ordeninə layiq görüldüyüm üçün Sizə ürəkdən öz təşəkkürümü bildirirəm. Bilirsiniz, Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ona Sizin kimi müdrik bir rəhbər başçılıq edir. Sizin bütün varlığınız, həyatınız Azərbaycanın, millətimizin taleyi ilə həmişə bağlı olmuşdur.

Vaxtilə ölkəyə rəhbərlik etdiyiniz dövrlərdə Azərbaycanın iqtisadiyyatını, mədəniyyətini, elmini, təhsilini inkişaf etdirməyə böyük qayğı göstərmisiniz. Vətəndən uzaqda olduğunuz illərdə də Azərbaycanı unutmamısınız, respublikamızın qayğısına qalmısınız. Əliniz daim Azərbaycanın üzərində olubdur. 1993-cü ildə isə Sizin respublika rəhbərliyinə qayıdışınızdan sonra Azərbaycan xalqının tarixində yeni səhifə, yeni dövr başlanmışdır. Təsadüfi deyildir ki, Azərbaycan xalqı bu dövrü Qurtuluş günü kimi dəyərləndirir və Milli Məclisin Qurtuluş günü barədə qəbul etdiyi qərar Sizin sədaqətinizə böyük xalq məhəbbətinin təzahürüdür.

Oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Azərbaycan vətəndaşları azad, demokratik şəraitdə keçirilən bu seçkilərdə Sizə səs vermişlər, Siz parlaq qələbə əldə etmisiniz. Bu, bizi sevindirir. Siz yenidən beş il müddətinə Azərbaycanın prezidenti, rəhbəri seçilmisiniz. Bu, [383-384] Sizin Azərbaycan xalqı qarşısında gördüyünüz böyük işlərin, əməllərin nəticəsidir.

Cənab prezident, mən 50 ildən, yəni yarım əsrdən çox şüurlu, mənalı həyatımı Bakı Dövlət Universitetinin divarları arasında keçirmişəm. Mən universitetdə tələbəlikdən başlayaraq rektorluğa qədər bir yol keçmişəm. Bu müddət ərzində universitetdə yaxşı günlər də, çətin günlər də olubdur. Sizin rəhbərliyiniz dövründə universitetin vaxtilə 50, 60 illik yubileyləri keçirilibdir. Mən rektor olduğum illərdə, Sizin rəhbərliyiniz və iştirakınızla və bilavasitə təşəbbüsünüzlə 1995-ci ildə universitetin 75 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

Mənim həyatımın böyük bir hissəsi Bakı Dövlət Universitetində keçmişdir. Mən həmişə çalışmışam ki, xalqıma, millətimə sədaqətlə xidmət edim və universitetin adını uca tutum.

İcazə verin, bu yüksək ordeni elmə, təhsilə, xüsusilə hüquq elminə verdiyiniz böyük mükafat kimi qiymətləndirim. Bu mükafatı Sizdən qəbul etmək mənim üçün çox şərəflidir. Bu yüksək mükafata görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azərbaycanın gələcəyi, xoşbəxtliyi naminə Sizə uzun ömür, cansağlığı və işinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**H e y d ə r Ə l i y e v**: Akademik Azad Mirzəcanzadəni yüksək mükafat – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm.

Azərbaycanda sənin elmi xidmətlərin böyükdür. Azərbaycan xalqı bir ildir ki, sənin yubileyini qeyd edir. Bu yubiley mərasimləri respublikanın çox yerlərində keçirilibdir. Bakıdakı yubiley mərasimində mən də iştirak edirdim. Sən bunların hamısına layiqsən. Bunların hamısını elm sahəsindəki xidmətlərinə görə qazanmısan. Mən bu ordeni məmnuniyyətlə sənə təqdim edirəm. Səni təbrik edirəm, cansağlığı arzulayıram. [384-385]

**H e y d ə r Ə l i y e v**: Laçın Rayon İcra Hakimiyyətinin başçısı Muradxan Cabbarova «Azərbaycan Bayrağı» ordenini təqdim edirəm.

Sizi təbrik edirəm, cansağlığı arzu edirəm. Laçınlıların hamısına salam söyləyin. Əmin ola bilərsiniz ki, Laçın rayonu azad olunacaqdır və laçınlılar öz yerlərinə qayıdacaqlar.

**M u r a d x a n C a b b a r o v**: Möhtərəm prezident, bu yüksək mükafata, göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə tükənməz minnətdarlığımı bildirirəm. Bu etimadı doğruldacağıma söz verirəm. Çox sağ olun, Sizə ən böyük uğurlar arzulayıram.

**H e y d ə r Ə l i y e v**: General-leytenant Kərim Kərimovu «Şöhrət» ordeni alması münasibətilə təbrik edirəm. Səninlə görüşümdən çox məmnunam. Xalqımız qarşısında sənin xidmətlərin ondan ibarətdir ki, sən Azərbaycan xalqını bütün dünyaya öz işlərinlə tanıtmısan. Səni Azərbaycanda çox qiymətləndiririk. Aldığın orden və medalların, mükafatların hamısı sənin böyük elminin öz müvəffəqiyyətlərinin nəticəsində olubdur. Amma sən indi müstəqil Azərbaycanın yüksək ordenini alırsan. Təbrik edirəm.

**H e y d ə r Ə l i y e v**: Mərhum Qurban Abbasovun həyat yoldaşı Nina Kolomeytsevanı təbrik edirəm.

Təəssüflənirəm ki, Qurban Abbasova bu mükafatı – «Şöhrət» ordenini özünün alması qismət olmadı. Biz onun xidmətlərini heç vaxt unutmayacağıq, xalqımız da, ölkəmiz də unutmayacaqdır. O, görkəmli neftçi idi və çox işlər görmüşdü. Onun gördüyü işlər bugünkü və gələcək nəsillər üçün nümunədir.

Xalq şairi Nəbi Xəzriyə «Şöhrət» ordenini təqdim edərək, Nəbi müəllimi təbrik edirəm, cansağlığı arzulayıram. Maşallah, yaxşısan, cavan qalmısan, həmişə cavan olasan, yeni-yeni əsərlər yaradasan. [385-386]

**N ə b i  X ə z r i**: Hörmətli prezidentim, mən Sizdən çox mükafatlar almışam. Lakin bu mükafatın mənim üçün əhəmiyyəti çox böyükdür. Çünki o, müstəqilliyin çətin, əzablı, əziyyətli yollarına qədəm qoymuş millətimizin, xalqımızın, respublikamızın ilkin ordenidir.

Mükafatların kiçiyi-böyüyü olmur. Mükafat mükafatdır. Ona görə də mən Sizə çox təşəkkür edirəm. Demək istəyirəm ki, mükafatlar xalqın səxavət xəzinəsindən bizə verilən ənam və ərməğanlardır. Biz nə qədər sağıqsa, bu ərməğanları özümüzlə gəzdiririk. Bizdən sonra isə bu ərməğanlar xalqın şöhrət müzeylərində qorunub saxlanır.

Mən vaxtilə «Mükafat» adlı bir şeir yazmışam. İstəyirəm ki, həmin şeirdən bir-iki misra deməklə çıxışımı bitirim:

*O gün ki, qovuşduq sözlə, sənətlə,*
*Nəslə də, əsrə də səs verən bizik.*
*Biz onu gəzdirək böyük hörmətlə,*
*Mükafat xalqındır, gəzdirən bizik.*

Çox sağ olun, minnətdaram.

**H e y d ə r  Ə l i y e v**: Mərhum xalq yazıçısı Yusif Səmədoğlunun təltif olunduğu ordeni yazıçının qızı Mehriban Vəkilovaya və qardaşı Vaqif Vəkilova təqdim edirəm.

**V a q i f  V ə k i l o v**: Hörmətli prezident!

Siz də, yəqin, biz hamımız da çox istəyirdik ki, bugünkü təntənəli mərasimdə Yusifin özü iştirak etsin. Bunun üçün hamımız, ilk növbədə Siz əlinizdən gələni əsirgəmədiniz. Fəqət, həyatın yenilməz qanunları vardır. Mehribanla mənim burada iştirakımız bu təntənəli mərasimə bir az kədər çaları verdiyi üçün bizi üzrlü hesab edin.

Hörmətli prezident, Yusif Səmədoğlu ailəsinin təşəkkürünü Mehribanla məndən qəbul edin. Çox sağ olun. [386-387]

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti Qədir Rüstəmova «Şöhrət» ordenini təqdim edərək, təbrik edirəm. Necəsən? Bəlkə bir oxuyasan.

**Q ə d i r  R ü s t ə m o v**: Cənab prezident, Allah Sizin canınızı sağ etsin. Mən gecə-gündüz Sizə Allahdan dua edirəm. Çox sağ olun ki, mənə minik maşını da vermisiniz. İstəyirəm. Bəxtiyar müəllimin sözlərinə yazılmış bir mahnını oxuyum…

**H e y d ə r  Ə l i y e v**: Mərhum alim İbrahim Səfərovun təltif olunduğu «Şöhrət» ordenini onun oğlu İbrahim Səfərova təqdim edirəm.

Akademik Böyükkişi Ağayevə yüksək mükafatı təqdim edir və onu bu münasibətlə təbrik edərək cansağlığı arzu edirəm. Çox məmnunam ki, xeyirxah işini davam etdirirsən, insanları sağaldırsan.

**B ö y ü k k i ş i  A ğ a y e v**: Hörmətli cənab prezident!

Bu gün burada olmaqdan və Sizinlə görüşməkdən böyük sevinc hissi duyuram və özümü xoşbəxt hiss edirəm.

Keçmiş illərdə respublikanın rəhbəri və müstəqil Azərbaycanın prezidenti kimi Siz daim mənim elmi, pedaqoji, praktik fəaliyyətimə çox diqqət yetirmisiniz. Ölkənin çox yüksək mükafatını dünyanın tanınmış və müdrik bir şəxsiyyətindən, respublikamızın sevimli prezidentindən almaq mənim qəlbimdə Sizə minnətdarlıq və böyük fərəh hissi doğurur. Bu, mənim həyatımda birinci mükafatdır. Çox sevinirəm ki, onu müstəqil Azərbaycanın prezidenti cənab Heydər Əliyev mənə təqdim etdi. Bu, mənim üçün çox böyük şərəfdir. Mən onu həyatımın böyük mənası sayıram.

Respublikamızın bir vətəndaşı, öz ömrünü, sənətini, səyini xalqın səhhətinə sərf edən bir həkim kimi mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, Sizin həyatınız səadətlə, xoşbəxtliklə dolu olsun. Çox sağ olun. [387-388]

**H e y d ə r  Ə l i y e v**: Xalq artisti Həsən Məmmədova «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edirəm. Cansağlığı, kinoda da, səhnədə də yeni yaradıcılıq uğurları arzulayıravm.

**H ə s ə n  M ə m m ə d o v**: Möhtərəm prezident!

Azərbaycanın kino, teatr sənəti sahəsindəki əməyimə layiqli qiymət verdiyinizə, məni ölkəmizin ali «Şöhrət» ordeni ilə təltif etdiyinizə görə Sizə öz səmimi təşəkkürümü bildirirəm. Eyni zamanda bunu Azərbaycan kino, teatr sənətinə, mədəniyyətinə Sizin verdiyiniz qiymət kimi qəbul edirəm.

Biz - elm və incəsənət xadimləri, ziyalılar 1969-cu ildə hakimiyyətə ilk gəlişinizdən bu günə kimi həmişə Sizin diqqət və qayğınızı hiss etmişik. Azərbaycan mədəniyyəti 30 ildən çoxdur ki, öz layiqli yerini tutmuş və sərhədlərimizdən çox uzaqlarda tanınmışdır. Bu, məhz Sizin zəhmətiniz sayəsində mümkün olmuşdur.

Bildiyimiz kimi, 1988-ci ildən sonra ölkəmizdə baş verən bəzi olaylar və qarışıqlıqlar xalqımıza, mədəniyyətimizə çox böyük zərbə vurubdur. Amma sevindirici haldır ki, böyük Azərbaycan xalqının istəyi ilə 1993-cü ilin iyununda respublikada yenidən hakimiyyətə gəlişinizdən sonra bu geridəqalmalar Sizin

diqqət və qayğınız sayəsində aradan götürüldü. Biz bunu heç vaxt unutmarıq. Sizin diqqət və qayğınız sayəsində biz bunu həmişə hiss edirik və bundan sonra da hiss edəcəyik. Biz bu yolda bundan sonra da çalışacağıq və özümüzü doğruldacağıq.

Cənab prezident, Azərbaycan mədəniyyətinə, incəsənətinə və mənə verdiyiniz bu yüksək qiymətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın müstəqilliyi, dirçəlişi, bütövlüyü, qurtuluşu uğrunda apardığınız müqəddəs mübarizədə Sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Xalq artisti rejissor Rasim Ocaqovu yüksək mükafat alması münasibətilə təbrik edirəm, cansağ[388-389]lığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sən gözəl filmlər yaratmısan, inanıram ki, bundan sonra da yeni filmlər çəkəcəksən.

**R a s i m O c a q o v**: Hörmətli və əziz prezident!

Mənim üçün çox əziz olan bu gündə bir neçə kəlmə demək istəyirəm. Hamı bilir, amma bir daha qeyd etmək istəyirəm ki, Siz Azərbaycan kinosuna həmişə böyük diqqət yetirmisiniz. Vallah, Siz hakimiyyətə gəlməsəydiniz, indinin özündə kino olmazdı. Çox sağ olun. Mənim yadımdan heç vaxt çıxmaz, Siz məni 1980-ci ildə «Ad günü» filminə görə Dövlət mükafatı laureatı, 1982-ci ildə Azərbaycanın xalq artisti adına layiq gördünüz. Biz yaxşı başa düşürük ki, Sizin qayğınız olmasaydı «İstintaq» filmi heç vaxt ekranlara çıxa bilməzdi, biz SSRİ Dövlət mükafatı almazdıq.

Cənab prezident, mən və Azərbaycanın bütün kino işçiləri bütün bunlara görə minnətdarıq və ömrümüz boyu Sizə borcluyuq. Çox sağ olun. Allah Sizə uzun ömür, cansağlığı versin. Sağ olun.

**H e y d ə r Ə l i y e v**: Xalq artisti Gülxar Həsənovanı orden alması münasibətilə təbrik edirəm.

Gülxar xanım, sizə cansağlığı, uzun ömür arzulayıram. Burada təltif olunanların əksəriyyəti bu mükafatları gözləyiblər. Amma siz gözləməmisiniz, Siz təltif olunan kimi bu mükafatı alırsınız. Onlardan sizin fərqiniz bundan ibarətdir.

**G ü l x a r H ə s ə n o v a**: Əziz prezident!

Mən bu gün çox sevinirəm ki, bütün sahələr üzrə sənət adamlarımız fərəh içərisindədirlər.

Əziz, sevimli, möhtərəm prezidentimiz!

Şəxsən mən bu mükafatı gözlənilmədən aldığıma görə sevinirəm. Mən sovet dövründə çox ordenlər, medallar, adlar almışam. Amma nəticəsində bir şey görməmişəm. Bu gün mən artıq yaşa dolmuşam, necə deyərlər, «qocalıq-binəvalıq, kürkümə düşdü yamaqlıq». Bu qoca vaxtımda Siz məni yada [389-390] salmısınız. Mən bunu unuda bilmərəm. Əvvəlki yüksək mükafatlarım qarşısında Sizin bu gün mənə təqdim etdiyiniz bu orden qəlbimdə, ürəyimdə onların hamısından üstün yer tutubdur.

Mənim çoxlu tələbələrim vardır. Onlardan biri hazırda Los-Ancelesdə yaşayır. O, vaxtilə Bakıda Leyli, Əsli obrazlarını ifa edibdir. O, mənim oğlumun dəfnində Bakıya gəlmişdi. Sizin haqqınızda onun danışdığı sözlər məni çox sevindirdi. Demək istəyirəm ki, Siz Azərbaycanı bütün dünyada tanıtmısınız. Mən inanıram ki, Siz təbiətin, Allahın yetirdiyi yeganə şəxsiyyətsiniz. Mən Sizin kimi ikinci şəxsiyyətin olacağını hiss etmirəm. Çünki buna qabiliyyət, bilik, dözüm lazımdır. Siz hər şeyə – yaxşıya da, yamana da dözmüsünüz, öz işinizi görmüsünüz.

Mən Üzeyir bəyin, Müslüm Maqomayevin əsərləriylə tanındığıma, sevildiyimə görə vaxtilə çox qiymətlər almışam. Amma yenə də deyirəm, bugünkü qiymət onlardan çox yüksəkdir. Televiziyada Sizin çıxışlarınızı verəndə mən bütün işlərimi kənara qoyub Sizə qulaq asıram. Sizin yaddaşınız, biliyiniz həqiqətən Allahın vergisidir.

Mən arzu edirəm ki, o bilik, ağıl, düşüncə ömrünüzün axırınadək Sizdə möhkəm olsun və Siz gələcək nəsilləri də sevindirəsiniz.

Heydər müəllim, ona görə sevinmirəm ki, mən gec də olsa buraya gəlmişəm. Mən gec-tez buraya gələcəkdim. Ancaq muəyyən səbəblərdən belə olubdur. Mənim Sizə deyəcək çox sözlərim vardır. Amma onları burada deyə bilmərəm, ayrıca bir vaxtda deyəcəyəm.

Sizə minnətdaram. Sizə uzun ömür, cansağlığı arzulayıram. Gün o gün olsun ki, Sizin köməyinizlə Qarabağ torpaqları düşməndən azad edilsin. Biz maddi, mənəvi cəhətdən Sizdən həmişə kömək görmüşük. O gün olsun ki, biz incəsənət işçiləri gedib, düşməndən azad olunmuş Qarabağ bölgəsində çıxışlar [390-391] edək. Yetirdiyim, yaxşı adlar almış yüzlərlə tələbələrim hamısı, mən Sizi hər yerdə daha gözəl, daha yaxşı qarşılayaq.

Cənab prezident, Sizə uzun ömür, cansağlığı arzulayıram.*

---

* Azərbaycan prezidenti Heydər Əliyev daha sonra «Azərbaycan» qəzetinin baş redaktoru Əmir Mustafayevə, məşhur idmançılar Namiq Abdullayevə, Ağayar Axundzadəyə, Natiq Eyvazova, Zemfira Meftahəddinovaya, Ceyhun Məmmədova, Aynur Sofiyevaya, Rövşən Hüseynova, Sabir Hüseynova, Zülfiyyə Hüseynovaya «Tərəqqi» medallarını təqdim etdi.

## YÜKSƏK MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanın Dövlət mükafatları almağınız münasibətilə bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, uzun ömür, yeni müvəffəqiyyətlər, yeni yaradıcılıq uğurları arzulayıram.

Bu gün dövlət mükafatlarını alanlar Azərbaycanın mötəbər insanlarıdır. İndi müstəqil Azərbaycanın dövlət mükafatları əksərən ölkəmizin elm, mədəniyyət, incəsənət xadimlərinə təqdim olunur. Bu da təbiidir. Çünki bizim xalqımız həmişə elmi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti yüksək qiymətləndirmişdir. İnsan həyatının, insan fəaliyyətinin bu sahəsi bütün dövrlərdə cəmiyyətə, ölkəyə, dövlətə, hər bir insana çox bəhrələr vermişdir.

Biz fəxr edirik ki, Azərbaycanın zəngin mədəniyyəti var, zəngin elmi var, zəngin incəsənəti, musiqisi vardır. Bunu da yaradanlar yüksək istedada malik olan adamlardır, fitri istedada malik olan adamlardır, eyni zamanda fədakar insanlardır. Siz məhz belə insanlarsınız. [391-392]

Bu gün təltif olunanların əksəriyyəti yaşlı nəslə mənsubdur. Hər birinizin həyatı böyük bir tarixdir Hər birinizin çiyinlərinin arxasında böyük iz var, böyük yol var. Hər biriniz öz əsərlərinizlə öz ictimai-siyasi fəaliyyətinizlə Azərbaycanın inkişafına xidmətlərinizi göstərmisiniz və bu xidmətləri də xalq həmişə qiymətləndiribdir. Bu dövlət mükafatları müstəqil Azərbaycanın dövlət rəmzidir, dövlətçilik rəmzidir və eyni zamanda xalqın, ictimaiyyətin sizin əməyinizə, zəhmətinizə, sizin yaradıcılığınıza, əsərlərinizə verdiyi ümumi qiymətin mücəssəməsidir.

Siz xoşbəxt adamlarsınız, çünki yaradıcısınız – əsərlər yaratmısınız və bu gün də yaradırsınız, gələcəkdə də yaradacaqsınız. Sizin əsərləriniz xalqa fayda verir, bugünkü nəsillər və gələcək nəsillər üçün çox gərəklidir, əhəmiyyətlidir. Mən məmnunam ki, bu gün sizinlə bir daha görüşdüm, hər birinizin əlini sıxdım və müstəqil Azərbaycanın bu yüksək mükafatlarını sizə təqdim etdim. Mən şəxsən sizin hər birinizi çox yaxşı tanıyıram. Uzun illərdir ki, sizin fəaliyyətinizi, yaradıcılığınızı müşahidə edirəm, izləyirəm və bir azərbaycanlı kimi şəxsən bunu qiymətləndirirəm. Azərbaycanın prezidenti kimi isə mən bu cür fərmanların verilməsini və bu mərasimin keçirilməsini özümün şərəfli vəzifəm hesab edirəm.

Elm, mədəniyyət, incəsənət xadimləri ilə bərabər, burada gənc nəslin nümayəndələri də, idmançılar da bu gün Azərbaycanın dövlət mükafatlarını aldılar. Onlar da öz yüksək göstəriciləri ilə dünya miqyasında Azərbaycan idmanına uğurlar qazandırdıqlarına görə bu yüksək mükafatlara layiq olublar.

Ümumiyyətlə, bugünkü mərasim buraya toplaşanların hər birinin həyatında əlamətdar bir hadisə olduğu kimi, eyni zamanda bizim ictimai həyatımızda çox böyük bir hadisədir. Bu, onu göstərir ki, müstəqil Azərbaycanın dövləti öz vətəndaşlarının yüksək nailiyyətlərini layiqincə qiymətləndirə [392-393] bilir. Bu da bizim müstəqilliyimizin, dövlətçiliyimizin gözəl göstəricisidir. Mən sizin hamınıza yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Hər birinizə cansağlığı, səadət və müstəqil Azərbaycanın bu günü, gələcəyi naminə əməli fəaliyyət arzulayıram.

Bu gün siz bu ordenləri, medalları alarkən bir xüsusiyyəti qeyd etdiniz ki, bu, müstəqil Azərbaycanın milli mükafatlarıdır. Bu, həqiqətən belədir. Sizlərin çoxunun burada qeyd etdiyiniz kimi, keçmiş illərdə də yüksək mükafatlara layiq olmusunuz. O mükafatlar da qiymətlidir, heç vaxt onları unutmaq lazım deyildir. Siz o mükafatları öz xalqınıza, vətəninizə, millətinizə xidmətə görə almısınız. Sizin yaratdığınız əsərlər, yaradıcılıq fəaliyyətiniz birinci növbədə Azərbaycanın elmini, mədəniyyətini, incəsənətini inkişaf etdiribdir. Azərbaycanın elmi, mədəniyyəti əsrlər boyu inkişaf edibdir və heç vaxt biz fərq qoymamışıq – hansı şair, hansı yazıçı, hansı musiqiçi, hansı alim bunu hansı dövlətin vaxtında yaradıbdır, hansı hökmdarın vaxtında yaradıbdır. Bunları biz heç vaxt araşdırmamışıq və araşdırmaq da lazım deyil. Çünki insan və xüsusən yaradıcı insan öz həyatı dövründə yaratdığını birinci növbədə öz xalqı üçün yaradır, öz vətəni üçün yaradır, öz milləti üçün yaradır, öz ölkəsi üçün yaradır. Əgər onun yaratdığı əsər öz ölkəsinin hüdudlarından kənara çıxarsa və başqa bir ölkə tərəfindən də qiymətləndirilirsə, buna sadəcə sevinmək lazımdır. Buna heç vaxt mənfi münasibət göstərmək lazım deyil.

Sizin keçmişdə aldığınız mükafatlar da, ordenlər də, medallar da qiymətlidir. Onların hər biri sizin həyatınızın, tərcümeyi-halınızın parlaq bir səhifəsidir. Ancaq bununla yanaşı, bu günü görmək – Azərbaycanın müstəqilliyini görmək, bu zamana qədər yaşamaq özü-özlüyündə böyük xoşbəxtlikdir. Müstəqil Azərbaycanın dövlət mükafatını almaq, şübhəsiz ki, hər bir insanda böyük iftixar hissi doğurur. Mən sizin hissiyyatlarınızı çox yaxşı anlayıram və mən özüm də məhz bu dövrü yüksək qiymətləndirirəm. Mən [393-394] dəfələrlə demişəm, bu gün də deyirəm: bu dövr bizim üçün çox çətindir, çox ağırdır. Biz böyük çətinliklərdən keçib irəliyə gedirik. Ancaq tək bir müstəqilliyimizə görə hər bir şeyə dözməliyik. Çünki bu çətinliklər – bəzən maddi çətinliklər, sosial çətinliklər, hər bir insanın həyatında olan çətinliklər – bunlar keçicidir, müvəqqətidir.

Bəzən böyük müharibələr gedir, minlərlə, milyonlarla insanlar həlak olurlar. İstənilən qələbəyə nail olmaq üçün. Biz isə indi bu ağır dövrü yaşayırıq ona görə ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayırıq. Mən bir daha bildirmək istəyirəm ki, bu dövr, ola bilər, bir az çox olsun, ola bilər, az olsun, ancaq bu dövr keçici bir dövrdür. Biz bunu nə qədər çətin olsa da yaşamalıyıq və inanıram ki, yaşayacağıq. Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə! Mən əminəm ki, Azərbaycanın müstəqilliyi əbədi

olacaqdır. Mən əminəm ki, biz bu müstəqilliyi qoruyub saxlaya biləcəyik və gələcək nəsillərə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdıracağıq.

Bütün bunlara görə də sizin bu mükafatlarınızın böyük əhəmiyyəti vardır. Mən inanıram ki, siz bu gün də, gələcəkdə də əmək fəaliyyətinizlə, yaradıcılığınızla, yeni-yeni əsərlərinizlə Azərbaycanın inkişafına öz xidmətlərinizi göstərəcəksiniz. Mən sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Sağ olun. [394]

## ÖZBƏKİSTANIN MƏŞHUR «YALLA» DÖVLƏT ƏMƏKDAR KAMERA-İNSTRUMENTAL ANSAMBLININ KONSERTİNDƏN SONRA YARADICI KOLLEKTİV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Respublika sarayı*

*12 dekabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Sizi, həmişəki kimi, yenə də gözəl çıxışlarınız münasibətilə təbrik edirəm. Sizin ansambl artıq çoxdan böyük şöhrətə malikdir və hesab edirəm ki, özbək xalqı, Özbəkistan qarşısında xidmətləriniz böyükdür. Bir çox illər ərzində siz özbək incəsənətini, musiqisini, mahnılarını bütün dünyada layiqincə təmsil etmisiniz. Sizi keçmiş Sovet İttifaqının bütün respublikalarında, o cümlədən Azərbaycanda həmişə sevmişlər, ancaq siz o illərdə də öz yaradıcılığınızla ittifaqın hüdudlarından kənara çıxır, bütün dünyada qastrollarda olurdunuz və böyük müvəffəqiyyət, böyük ad-san qazanmışdınız.

Görürsünüz ki, Azərbaycanda tamaşaçılar sizi çox yüksək qiymətləndirir, sevir və gözəl başa düşürlər. Belə münasibət təsadüfi deyil. Əvvəla, siz həmişə qiymətləndirilən yüksək sənəti bu gün yenə də təqdim etdiniz. İkincisi, sizin mahnılarınızda və musiqinizdə milli, özbəklərə xas xüsusiyyətlər, eyni zamanda ümumbəşəri xüsusiyyətlər var. Siz o illərdə də məhz bununla böyük müvəffəqiyyət qazanmışdınız ki, öz milli musiqinizi, milli mahnılarınızı ümumbəşəri musiqi və mahnılarla birləşdirməyə, onları dünyaya məharətlə təqdim [395-396] etməyə müvəffəq olmusunuz. Siz yüksək dərəcəli ustalarsınız, keçmişdə gözəl oxuyurdunuz, bu gün də gözəl oxuyur, çıxış edirsiniz.

Bakıya gəlməyinizə şadam. Buna şad olan tək mən deyiləm. Bir baxın – salon tamaşaçılarla doludur, onlar sizi necə təntənəli, səmimi və hərarətlə qarşıladılar. Mən çox şadam. Azərbaycan prezidentinin seçkiləri ərəfəsində Bakıya gəlib İdman sarayında bu hadisəyə həsr olunmuş konsertlə çıxış etdiyinizə görə təşəkkür edirəm. Mən bunu çox yüksək qiymətləndirirəm. Bunu Azərbaycanda da, xüsusən mənə səs vermiş seçicilər də qiymətləndirirlər. Bir sözlə, Azərbaycan prezidentinin seçkilərində siz də iştirak etdiniz. Çox sağ olun.

Siz və Özbəkistanın, Azərbaycanın incəsənət xadimləri bir çox on illər ərzində ölkələrimizin incəsənət xadimləri arasında dostluq yaratmışlar. Bu dostluq bizim zəmanəmizdə, ölkələrimiz müstəqil, suveren dövlətlər olduğu dövrdə çox böyük rol oynayır. Özbəkistanla Azərbaycanı çox şeylər bağlayır, tarixi köklərimiz birdir, dilimiz, musiqimiz, dinimiz, adətlərimiz, bütün ənənələrimiz də birdir. Biz eyni köklərə mənsubuq və onları, milli xüsusiyyətlərimizi, milli mənşəyimizi indi daha çox qiymətləndiririk. Bu, müstəqil, suveren dövlətlər kimi Özbəkistanın da, Azərbaycanın da yer üzündə möhkəm durması və mövcud olması üçün, onların müstəqillik və suverenliyini heç kimin poza bilməməsi üçün zəruridir.

Biz – dövlət xadimləri bunu edirik. Siz Özbəkistan prezidenti, dostum İslam Kərimovla mənim aramda böyük dostluq olduğunu bilirsiniz. Ona böyük hörmətim var, onu yüksək qiymətləndirirəm, çoxdan – Moskvada, Kremldə işlədiyim vaxtdan tanıyıram. Mən Özbəkistanı keçmişdən, 70-ci illərdən tanıyıram, onun faciəli illərinə, özbək xalqının ədalətsizliyə məruz qaldığı illərinə bələdəm. O illərdə, xüsusən təxminən 1984-cü, 1985-ci illərdən başlayaraq sovet rəhbərliyinin ayrı-ayrı xadimləri tərəfindən özbək xalqına qarşı [396-397] böyük ədalətsizlik edilmişdi. O illərdə İslam Kərimovun Özbəkistanı bu vəziyyətdən çıxarmaq vəzifəsini öz üzərinə götürməsi, özbək xalqına yapışdırmaq istədikləri hər şeyi ata bilməsi böyük hünərdir, böyük nailiyyətdir. Buna görə də həmin vaxtdan mən İslam Kərimovu çox sevdim, çünki o öz xalqının şərəf və ləyaqətini qorudu, onu müdafiə etdi. Onun indi, müstəqillik illərində də Özbəkistanın müstəqilliyini möhkəmlətmək üçün çox işlər gördüyünü bilirəm. Hərçənd bu, heç də asan deyildir. Sizin bölgənizdə də, bizim bölgəmizdə də, Qafqazda da problemlər olduqca çoxdur. Lakin yenilməzlik, mərdlik və milli müstəqillik bu çətinlikləri aradan qaldıra bilməyimiz üçün ən mühüm keyfiyyətlərdir.

Bu gün mən sizi dinləyərkən Özbəkistan, özbək xalqı, Daşkənd və Özbəkistandakı dostlarım gözlərim qarşısına gəldilər. Mənim ən başlıca dostum isə İslam Kərimovdur. Xalqınıza, Özbəkistanın bütün incəsənət xadimlərinə, dostum İslam Kərimova salam yetirin. Bir daha təbrik edirəm.

**F ə r r u x  Z a k i r o v** *(ansamblın yaradıcısı və bədii rəhbəri, bəstəkar)*: Cənab prezident, səmimi sözlərə görə, habelə konsertə gəldiyinizə görə Sizə təşəkkür edirik.

Bu, təkcə bizim ansambl üçün deyil, özbək mədəniyyəti, millətimiz üçün də böyük şərəfdir, mədəniyyətimizə, millətimizə hörmətdir. Əgər seçkiqabağı kampaniyada öz iştirakımızla Sizin parlaq qələbənizə az-çox töhfə vermişiksə, biz xoşbəxtik. Qoy Allah Sizə, bizim prezidentimizə möhkəm cansağlığı versin və Siz xoşbəxtliyimiz naminə çox uzun ömür sürəsiniz.

Bu gün biz bir daha yəqin etdik ki, tez-tez görüşməliyik. Diqqətinizə görə çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz, mən məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanda Özbəkistan səfirliyi fəaliyyət göstərir və onların respublikamızda işləməsini mühüm amil hesab edirəm. Özbəkistanda isə ölkəmizin səfiri, [397-398] dövlətlərimiz arasında gözəl, səmimi münasibətlər var, başlıcası isə ölkələrimiz müstəqildir.

**Ə b d ü q a f a r Ə b d ü r ə h m a n o v**: *(Özbəkistanın Azərbaycandakı səfiri):* Cənab prezident, onu da bildirirəm ki, «Yalla» ansamblı dekabrın 14-də Sumqayıtda xeyriyyə konserti verəcəkdir. Fürsətdən istifadə edərək, konsertə sponsorluq yardımına görə «Azəravtonəqliyyat» Dövlət Konserninə böyük təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v**: «Yalla» ansamblının bütün üzvlərini bir daha təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı və firavanlıq arzulayıram. Sağ olun. [398]

## UŞAQLARIN BEYNƏLXALQ TELEVİZİYA VƏ RADİO GÜNÜ MÜNASİBƏTİLƏ «UŞAQLAR DÜNYANIN SEVİNCİDİR» DEVİZİ ALTINDA KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*Bakı, teleteatr*

*13 dekabr 1998-ci il*

Əziz uşaqlar, balalar, qızlar, oğlanlar!

Mən sizi bu gün münasibətilə – uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanın bütün uşaqlarına şən həyat, səadət və xoşbəxt gələcək arzulayıram.

Uşaqlar hər bir insanın sevincidir. Uşaqlar həmişə insanları sevindirib, qəmdən, kədərdən, faciədən xilas etməyə yardım ediblər. Hər bir insan öz həyatının mənasını və gələcəyini uşaqlarda görür. Uşaqlar hər bir ailəyə xoşbəxtlik bəxş edir. Uşaqlar cəmiyyətin gülüdür, çiçəyidir. Uşaqlar hamımızın həm bu günüdür, həm də gələcəyidir.

Mən hər bir insan kimi, uşaqları hədsiz dərəcədə sevirəm. Öz övladlarımı sevirəm, nəvələrimi sevirəm, bütün uşaqları sevirəm, bütün Azərbaycan uşaqlarını sevirəm, əziz balalar, sizi sevirəm. Mən bu sözlərimlə Azərbaycandakı bütün sağlam düşüncəli insanların fikrini ifadə edirəm. Hesab edirəm ki, hər bir sağlam düşüncəli insan uşağı sevməlidir, uşağa qayğı göstərməlidir, uşaqların yaşaması üçün, onların təhsil alması üçün, inkişafı üçün öz xidmətlərini göstərməlidir. [399-400]

Biz Azərbaycanda çətin problemlərin olmasına baxmayaraq uşaqlara qayğını, diqqəti özümüzün ali vəzifəmiz hesab edirik və güman edirəm ki, son illərdə Azərbaycanda uşaqların yaşayış tərzi, məktəblərdə təhsil alması və özlərinin inkişaf etməsi üçün daha da yaxşı imkanlar yaranıbdır. Bunu elə bu televiziya verilişlərində də görürük. Bu gün Azərbaycanın televiziyası və radiosu – Dövlət Televiziya və Radio Verilişləri Şirkəti tamamilə uşaqların sərəncamına verilibdir. Ancaq bir bu gün deyildir. Azərbaycanın dövlət televiziyası və radiosu daim uşaqlara aid verilişlər verir, uşaqların istedadlarını televiziya və radio vasitəsilə təbliğ edir, beləliklə də hər bir uşaqda öz istedadını inkişaf etdirmək üçün imkanlar yaradır. Bu, Azərbaycan dövlət televiziya və radiosunun böyük xidmətidir. Ancaq təkcə televiziya və radioda yox, Azərbaycanda hər bir yerdə uşaqlara diqqət və qayğı daim artmalıdır.

Siz bu gün iki saatdan çoxdur ki, Azərbaycan televiziyası və radiosu ilə öz verilişinizi verirsiniz, öz istedadlarınızı nümayiş etdirirsiniz. Güman edirəm ki, bütün televiziya tamaşaçılarını, öz valideynlərinizi və hər bir insanı sevindirirsiniz. Mən hesab edirəm ki, televiziya və radio vasitəsilə sizin bugünkü verilişiniz Azərbaycan televiziyası və radiosunda ən gözəl verilişdir.

Azərbaycanın böyük söz ustaları var, şairləri, yazıçıları, incəsənət xadimləri, müsiqiçiləri, müğənniləri, rəqs oynayanları var. Bizim gözəl sənətkarlarımız var. Onların hər birinin televiziya və radio vasitəsilə çıxışları bizi sevindirir, bizə mənəvi qida verir və şübhəsiz ki, böyük zövq verir, insanların şənlənməsi üçün, istirahət etməsi üçün çox gözəl imkanlar yaradır. Biz onların hamısını qiymətləndiririk. Ancaq mən öz təəssüratımı deyirəm, - hansı mərasimdə, hansı konsertdə uşaqlar çıxış edirsə, öz istedadlarını göstərirsə, onların çıxışları tamaşaçılara, dinləyicilərə bütün tanınmış sənət ustalarının çıxışlarından daha da çox təsir bağışlayır. Eləcə də [400-401] televiziya ilə. Bu təbiidir. Çünki böyük sənət ustası, peşəkar incəsənət xadimi öz istedadını, öz sənətini nümayiş etdirmək üçün böyük bir yol keçibdir. Ancaq 5-6 yaşında, yaxud da 10-12 yaşında uşaq bir mahnı oxuyursa, rəqs edirsə, gözəl bir şeri istedadla, həvəslə oxuyursa, bu, daha da çox sevindirir. Çünki burada nə hazırlıq var, nə uşaq böyük bir məktəb keçibdir. Sadəcə olaraq, uşaq öz istedadını ifadə edir. İstedadlar da Azərbaycanda çoxdur. Elə bu gün biz burada nə qədər istedadlı uşaqlar görürük.

Mən televiziya vasitəsilə də sizin verilişi seyr etdim və burada olduğum zaman da görürəm. Nə gözəl oxuyursunuz, oynayırsınız, bədii söz ifadə edirsiniz, şer deyirsiniz! Nə qədər istedadlısınız! Mən indi balaca uşaqların Azərbaycan rəqsini gözəl ifa etmələrini görərkən bəzən düşünürəm. Bəzən bayram olur, mərasim olur. Kimsə kimisə rəqsə dəvət edir, getmək istəmir, ancaq sonra gedir, rəqs edir. Görürsən ki, o qədər də yaxşı rəqs etmir. Amma bu uşaqlar ki var, burada rəqs edirdilər, - necə gözəl, məğrur, yüksək sənətə layiq rəqs edirdilər. Oğlanlar da, qızlar da – gözəl oxuyursunuz, gözəl oynayırsınız, gözəl sözlər deyirsiniz. Bunlar onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı xalqdır.

Mən gənc istedadlarla əlaqədar sərəncam vermişəm və «qızıl kitab» yaratmışam. Ancaq Azərbaycanda bu istedadlar o qədər çoxdur ki, yəqin bu kitab qısa müddətdə bir neçə cildə çevriləcəkdir. İstedadlı uşaqların adlarının çoxu ora düşəcəkdir. Mən onları bu gün burada da görürəm.

Mən çox sevinirəm ki, uşaqlar xoş əhval-ruhiyyədədir. Biz bu gün onları televiziya vasitəsilə burada görürük. Bu, cəmiyyətimiz üçün lazımdır. Çünki böyük problemlər içərisində yaşayan cəmiyyət, yaşlı

insanlar öz çətinliklərinin öhdəsindən gəlmək üçün uşaqlardan ilham alırlar, uşaqları görüb təsəlli alırlar ki, uşaqlar var, gələcək var. Azərbaycanın gələcəyi də parlaqdır. [401-402]

Əziz balalar, mən sizin hamınıza xoşbəxt gələcək arzulayıram. Biz, yaşlı nəsil, çalışırıq ki, müstəqil Azərbaycan inkişaf etsin, öz iqtisadi potensialını hərəkətə gətirsin. Biz çalışırıq ki, Azərbaycanda insanların güzəranı yaxşılaşsın, rifah halı yaxşılaşsın. Biz çalışırıq ki, müstəqil Azərbaycanımız müstəqil dövlət kimi möhkəmlənsin və Azərbaycanın müstəqilliyi əbədi olsun. Biz çalışırıq ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin və Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan didərgin düşmüş, indi çadırlarda yaşayan bizim soydaşlarımız öz evlərinə, öz torpaqlarına qayıtsınlar. Biz çalışırıq ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin və əbədi olaraq toxunulmaz olsun.

Biz bunlar üçün çalışırıq. Bunlar üçün çalışaraq biz sizə gələcəkdə daha da rahat həyat qurmaq istəyirik. Biz istəyirik ki, bizim gördüyümüz çətinlikləri, bizim gördüyümüz faciələri, bizim gördüyümüz qanları, dəhşətləri siz, əziz balalar, görməyəsiniz. Biz bunun üçün çalışırıq. Əmin ola bilərsiniz ki, bu yolda biz sona qədər öz imkanlarımızdan istifadə edəcəyik. İnanıram ki, biz buna nail olacağıq.

Sizin isə borcunuz ondan ibarətdir ki, yaxşı oxuyasınız, yaxşı təhsil alasınız, həyatda gələcəkdə özünüzə yer tapmaq üçün hazırlaşasınız, öz istedadlarınızdan səmərəli istifadə edə biləsiniz və Azərbaycanın gələcəyinin qurucuları olasınız. Mən inanıram ki, indiki gənclər, indiki uşaqlar bizim nəsillərdən də qabiliyyətlidir, istedadlıdır. Mən inanıram ki, Azərbaycanın bugünkü gəncləri, bugünkü uşaqları Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcəklər. Biz bunun təməlini qoyuruq, əsasını qoyuruq. Siz isə gələcəkdə bunları qurub yaratmalısınız, inkişaf etdirməlisiniz. Sizin daim nümayiş etdirdiyiniz istedadlar, sizin biliyə, təhsilə marağınız, həyatımızın bu çətin dövründə məktəblərimizdə təhsilin günü-gündən yaxşılaşması, məktəblərdə gənc istedadların müxtəlif [402-403] dərnəklərə cəlb edilməsi və belə gözəl nümunələr hazırlanması onu göstərir ki, həqiqətən bizim uşaqlar, bizim gənclər xoşbəxt gələcəyə malikdirlər.

Əziz balalar, mən sizə öz hədsiz məhəbbətimi bildirirəm. Mən öz övladlarımı, öz nəvələrimi sevdiyim kimi, sizin hər birinizi sevirəm. Mən heç ayrı-seçkilik qoymuram.

Mən Azərbaycanın prezidenti kimi, böyük tarixi bir missiyanı həyata keçirirəm, öz üzərimə böyük məsuliyyət götürmüşəm: mən bütün Azərbaycan xalqının qayğısını çəkirəm, Azərbaycanın vətəndaşlarının qayğısını çəkirəm, Azərbaycan dövlətinin qayğısını çəkirəm. Belə olan halda mənim üçün Azərbaycanın hər bir vətəndaşı doğmadır, əzizdir. Azərbaycanın hər bir gənci mənim üçün öz övladım kimi doğmadır, əzizdir. Azərbaycanın hər bir uşağı mənim üçün öz nəvəm kimi əzizdir, doğmadır.

Siz uşaqlar çox vaxt mənə «baba» deyirsiniz. Mən həqiqətən həyatda babayam. Ancaq kimsə mənə «baba» deyirsə, bilsin ki, mən onun da babasıyam. Mən sizi – Azərbaycanın bütün uşaqlarını, bütün gənclərini həqiqətən ata, baba məhəbbəti ilə sevirəm və bu sevgi ilə, bu məhəbbətlə də sizin hamınıza cansağlığı, səadət arzulayıram. Sağ olun. [403]

## BEYNƏLXALQ KADR AKADEMİYASININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*14 dekabr 1998-ci il*

**G e o r g i Ş o k i n**: Cənab prezident, çox hörmətli Heydər Əliyeviç!

İcazə verin, Avropa Şurasının və YUNESKO-nun akademik tanınma və mobillik üzrə milli informasiya mərkəzləri Avropa şəbəkəsinin üzvü olan Beynəlxalq Kadr Akademiyası adından Sizi, XX yüzilliyin mübaliğəsiz, görkəmli adamını, bütün dünyada tanınmış dövlət xadimini, Azərbaycanın çoxillik və şəksiz liderini salamlayım.

Beynəlxalq Kadr Akademiyası ictimai beynəlxalq təşkilatdır. Əgər onun məqsəd və vəzifələrini bir kəlmə ilə ifadə etsək, onda bu, ən əvvəl, beynəlxalq aləmdə hamılıqla qəbul olunmuş proqramlara əsaslanan beynəlxalq açıq təhsili inkişaf etdirməkdən ibarətdir. [404-405]

Akademiya öz fəaliyyətinin başlıca məqsədlərini əsas tutaraq, elm və təhsili inkişaf etdirdiklərinə görə müxtəlif beynəlxalq mükafatlar təsis etmişdir. «Elm və təhsilin inkişafına görə» beynəlxalq orden yüksək akademik fərqlənmə nişanıdır. Ukraynanın ilk prezidenti Leonid Kravçuk, Qırğızıstan prezidenti Əsgər Akayev, Rumıniya prezidenti Emil Konstantinesku, AFR-in sabit Kansleri Helmut Kol, YUNESKO-nun baş direktoru Federiko Mayor bu ordenlə təltif edilmiş və ya təltifə təqdim olunmuşlar.

Beynəlxalq Kadr Akademiyası Rəyasət Heyətinin bu il fevralın 25-də keçirilən və dünyanın müxtəlif ölkələrinin 15 nümayəndəsinin iştirak etdiyi geniş iclasında, çox hörmətli Heydər Əliyeviç, Sizi demokratik humanitar siyasət apardığınıza görə, xalq təhsilinə, bu sahədə beynəlxalq əməkdaşlığa şəxsi töhfənizə görə bu ordenlə təltif etmək haqqında yekdilliklə qərar qəbul olunmuşdur.

Hələ 1969-cu ildə, yəni 29 il əvvəl Siz Azərbaycana rəhbərlik etməyə başlayıb, ilk 50 gənci ali təhsil almaq üçün respublikadan kənara göndərərkən nümayiş etdirdiyiniz siyasi müdrikliyə və dövlətçilik təfəkkürünün vüsətinə akademiyanın bir çox üzvləri heyran qalmışdılar. Lakin aradan çox az vaxt keçdikdən sonra o dövrün ən yaxşı ali məktəblərinə artıq hər il 800-900 gənc azərbaycanlı göndərilirdi. Həqiqətən, Siz milli zəmində prinsipcə yeni beynəlxalq universitet təşkil etməyə müvəffəq oldunuz, yəni Azərbaycan əlavə olaraq daha bir ali məktəbə – Avrasiya regionunun ən yaxşı ənənələrini özündə təcəssüm etdirən məktəbə malik oldu.

Əlbəttə, Siz ən yüksək beynəlxalq mükafatlara layiqsiniz və mən qəti əminəm ki, bizim orden bu mükafatlardan yalnız biri olacaqdır. Lakin bu gün biz Beynəlxalq Kadr Akademiyasının Rəyasət Heyəti adından akademiyanın yüksək mükafatını – «Elm və təhsilin inkişafına görə» beynəlxalq ordenini Sizə məmnuniyyətlə təqdim etmək istəyirik. [450-406]

**H e y d ə r Ə l i y e v**: Hörmətli qonaqlar, dostlar, mənim fəaliyyətimə göstərdiyiniz diqqətə görə, akademiyanızın ordeni ilə təltif olunmağım haqqında qəbul etdiyiniz qərara görə, bu ordeni mənə təqdim etmək üçün Azərbaycana xüsusi olaraq gəldiyinizə görə sizə təşəkkürümü bildirirəm. Mən bunu çox yüksək qiymətləndirirəm və görmüş olduğum və gördüyüm işlərə verilən qiymət hesab edirəm.

Təhsil sahəsi mənim üçün həmişə çox mühüm olubdur. Siz 1969-cu ili, mənim Azərbaycanın rəhbəri seçildiyim ili xatırlatdınız. O illərdə qarşımda çoxlu problemlər dururdu. Ancaq mən ən əvvəl təhsil və elm problemlərinə girişdim. Yeri gəlmişkən, bu sahədə mənim fəaliyyətim iki istiqamətdə gedirdi; bir tərəfdən, mən ali və orta təhsilin təmizliyi uğrunda, elmin təmizliyi uğrunda mübarizə aparırdım, yəni bu nəcib, çox yüksək, humanist sahənin ondan öz şəxsi məqsədləri, tamahkarlıq məqsədi ilə istifadə edən təsadüfi adamlardan təmizlənməsi üçün tədbirlər görürdüm. Digər tərəfdən isə, mən Azərbaycanda təhsilin, xüsusən ali təhsilin, elmin inkişafı ilə ardıcıl surətdə məşğul olurdum.

Statistikadan məlumdur ki, üç ildə Azərbaycanda bir çox yeni ali məktəblər meydana gəldi və mövcud ali məktəblərdə təhsilin yeni sahələri, yeni kafedralar, yeni fakültələr açıldı, əvvəllər bunlar yox idi. Ancaq mən hesab edirdim ki, bu, kifayət deyildir. Siz doğru dediniz, buna görə də mən Sovetlər İttifaqının digər ali məktəblərinin imkanlarından istifadə etməyi qərara aldım. Mən bunu öz keçmiş fəaliyyətimin çox mühüm hissəsi hesab edirəm.

---

* Görüşdə Beynəlxalq Kadr Akademiyasının (BKA) rəhbərləri- BKA-nın prezidenti, Beynəlxalq Bioqrafiya Mərkəzinin (Kembric, İngiltərə) direktoru, Amerika Coğrafiya İnstitutu Tədqiqat Assosiasiyasının (Vaşinqton,ABŞ) vitse-qubernatoru, professor, fəlsəfə doktoru, sosioloji elmlər namizədi Georgi Şokin, BKA-nın vitse-prezidenti, Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasının (Ukrayna) rektoru, BMT-nin eksperti, professor, psixologiya elmləri namizədi, siyasi elmlər doktoru Valeri Bebik, BKA-nın baş direktoru və fəxri doktoru, professor, texnika elmləri namizədi, pedaqoji elmlər doktoru Leonid Oderin iştirak etmişlər.

Bu yaxınlarda, bir neçə ay öncə mən 20-25 il əvvəl görüşdüyüm Sovetlər İttifaqının müxtəlif respublikalarının ali məktəblərinə, xüsusən Moskvaya, Leninqrada, Kiyevə yola saldığım adamlarla görüşdüm. O vaxt onlar 16-17 yaşlı uşaqlar idi, indi isə artıq kifayət qədər yaşa dolmuş kişilərdir. Çoxları elmlər doktoru alimlik dərəcəsinə malikdir, profes[406-407]sor, elmlər namizədidir. Bütün bunlar məni hədsiz sevindirirdi və sevindirir.

Siz öz çıxışınızda çoxlarının sezə bilmədiyi bir məqamı qeyd etdiniz. Bununla mən Azərbaycanda daha bir universitet, beynəlxalq universitet yarada bildim. Axı, adətən, ən böyük ali məktəb hər il 700-800, bəziləri 400-500 adam qəbul edir. Əgər o vaxtlar Azərbaycanda mövcud olan 17 ali məktəbdən əlavə, biz Sovetlər İttifaqının məxtəlif ali məktəblərinə hər il 800-900 adam göndərirdiksə, deməli, biz daha bir universitetə, lakin istər ixtisaslar üzrə çoxprofilli, istərsə də, əlbəttə, səviyyəcə yüksək olan əlavə bir universitetə malik idik. Bütün bunlar nəticə etibarı ilə Azərbaycan üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına xidmət edirdi.

O vaxtlar mən bu cəhəti gözəl bilirdim, ancaq onu bilərəkdən heç vaxt açıqlamırdım. Bilirsinizmi nəyə görə? Ona görə ki, o vaxtlar Sovetlər İttifaqının müxtəlif universitetlərinə Azərbaycan üçün ayrılan normanın hər il artırılmasına Sovetlər İttifaqının Ali Təhsil Nazirliyindən icazə almaq asan deyildi. Mən 1969-cu ildə bu işə başlayanda normamız 50 nəfər idi. Sonra biz onu 100, 150, 200, 300 nəfərə çatdırdıq, 400-500 nəfərə çatanda isə Sovetlər İttifaqının Ali Təhsil Nazirliyində narahat olmağa başladılar: nə üçün bu qədər? Axı heç bir respublika belə normaya malik deyildir. Mən onları inandırdım və onlar mənimlə razılaşdılar. Beləliklə, təxminən 1977-ci, 1978-ci illərdə biz normanı 800-900 nəfərə çatdırdıq.

Lakin mən buna, belə demək mümkündürsə, nail olurdum və bu, asanlıqla başa gəlmirdi. Bəzən hətta həmin məsələni Sovetlər İttifaqının ali təhsil nazirindən də yüksək səviyyədə qoymaq lazım gəldiyinə görə malik olduqlarımızın üstünü vurmamağa çalışırdım. Mənim üçün bu məsələni həll etmək, normanı artırmaq vacib idi. Üstündən bir xeyli keçəndən sonra bunu mən özüm dedim. Ancaq mənə çox xoş və təəc[407-408]cüblüdür ki, siz bu məqamı sezdiniz və bunu fəaliyyətimizin mühüm bir hissəsi kimi qeyd etdiniz.

Tale elə gətirdi ki, 1982-ci ilin axırlarında məni Moskvaya işə dəvət etdilər və Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi bir çox digər nazirliklərlə yanaşı, bütün təhsil sahəsinə, yəni Ali Təhsil Nazirliyinə, Maarif Nazirliyinə, Texniki Peşə Təhsili Komitəsinə də kuratorluq edirdim. O vaxtlar təhsil məsələləri ilə məşğul olan idarə vardı. Mən Ali Təhsil Nazirliyi Kollegiyasının böyük geniş iclaslarında dəfələrlə olur, universitetlərin rektorları qarşısında çıxış edirdim.

Mən ali təhsilin problemləri ilə çox ciddi məşğul olurdum və deməliyəm ki, məhz onda bizim ümumi təşəbbüsümüzlə orta təhsil üçün yeni məktəb islahatı işlənib hazırlanmışdı. Mən məktəb islahatını hazırlayan komissiyanın sədri idim və 1984-cü ilin yayında SSRİ Ali Sovetinin sessiyasında bu məsələ barədə məruzə etdim. Yeri gəlmişkən, bu islahat o vaxt üçün çox yaxşı idi. O vaxt, 1983-cü ildə biz Sovetlər İttifaqında islahatları ilk dəfə olaraq həyata keçirməyə başladıq. Mən ali təhsilin islahatı haqqında 1984-cü ildə yekun məruzəsi etdim və biz bu məsələyə dair bir sıra qanunlar qəbul etdik.

Bir sözlə, mən təhsil sahəsi ilə Azərbaycanda hələ onun rəhbəri olarkən məşğul olmuşam, sonralar, Sovetlər İttifaqının rəhbərlərindən biri kimi həmin məsələ ilə SSRİ miqyasında məşğul olmuşam. O vaxtlar mən Sovetlər İttifaqının bir çox universitetlərində olur, professor- müəllim heyəti ilə görüşürdüm. Kazanda Tatarıstan ali məktəblərinin professor-müəllim heyəti ilə görüş yadımda çox yaxşı qalıbdır. Yeri gəlmişkən, orada müxtəlif profilli ali məktəblər var idi. Sonra biz ali təhsilin də islahatlarını hazırladıq. Ancaq 1987-ci ildə mən bütün vəzifələrdən istefaya getdim və bununla daha məşğul olmadım. [408-409]

Bunlar tarixin bəzi epizodlarıdır. Bütün bunları ona görə xatırlayıram ki, siz öz çıxışınızda o vaxt Sovetlər İttifaqının digər ali məktəblərinin imkanları vasitəsilə Azərbaycanda kadrlar hazırlanması mövzusuna toxundunuz.

Lakin indi biz başqa şəraitdə yaşayırıq. Ukrayna, digər respublikalar kimi, Azərbaycan da müstəqil dövlətdir, öz məsələlərimizi özümüz həll edirik. Ancaq biz indi də dünyanın müxtəlif ölkələrinin universitetlərindən fəal istifadə edirik. Doğrudur, bu, artıq fərdi qaydada edilir, belə imkanlar o vaxt yox idi. Bilirsiniz ki, bir çox universitetlər kommersiya əsasında işləyir. Amma deməliyəm ki, indi bir çox gənclər Avropanın, Amerika Birləşmiş Ştatlarının, habelə Rusiyanın universitetlərində təhsil alırlar. Yeri gəlmişkən, Azərbaycan gəncləri ali təhsil almaq üçün Moskva universitetlərindən bu gün də fəal istifadə edirlər.

Hazırda Azərbaycanda da təhsil, xüsusən ali təhsil sistemi yenidən təşkil olunur. Son illər ərzində Azərbaycanda çoxlu özəl universitet meydana gəlmişdir. İndi onların nə qədər olduğunu bilmirəm, ancaq kifayət qədər çoxdur. Bəzən hətta belə hesab edirəm ki, lap çoxdur.

Açığını deyim, özəl, pullu təhsil almaq imkanı yarandıqda bu işlə məşğul olmaq istəyən çoxlu adamlar meydana çıxdı. Hesab edirəm ki, bu da qanunauyğun prosesdir, belə ki, hər bir yeni iş həmişə çox böyük diqqət cəlb edir və çox adamlar öz səylərini qoymağa çalışırlar. Hesab edirəm ki, vaxt hər bir universitetin həyat qadiliyyətini müəyyən dərəcədə təsdiqləyəcəkdir. Belə ki, hər bir universitet, hər bir ali təhsil, hətta kommersiya əsasında olsa belə, əsas məqsədə – yaxşı təhsil verməyə yönəlməlidir. Qalan hər şey ikinci planda olmalıdır. Əgər kommersiya imkanlarından istifadə edən özəl universitet yüksək təhsil verirsə, bu,

cəmiyyət üçün, dövləimiz üçün, Azərbaycan üçün çox böyük xeyirdir. Əgər kimlərsə təhsilin keyfiyyətinə zərər vurmaq hesabına bundan özünün hansısa [409-410] şəxsi maliyyə və iqtisadi mənafelərini ört-basdır etmək üçün istifadə edirsə, onda təbii ki, bu, uzun müddət davam edə bilməz və yəqin ki, cəmiyyətimiz bununla razılaşmaz və biz də razılaşmarıq.

Yeri gəlmişkən, vaxtınız olsa və istəsəniz universitetlərimizlə tanış ola bilərsiniz. Mən təhsil nazirinə tapşıraram ki, sizinlə görüşsün. Siz, özəl universitetlərimizlə də tanış ola, necə deyərlər, təcrübəniz və akademiyanızın özündə cəmləşdirdikləri nəzərə alınmaqla, işlərimizin harada irəli getdiyini, harada isə səhvlərə yol verdiyimizi kənar baxışla müəyyən edə bilərsiniz. Biz həmişə özümüzə nəzarət etmək istəyirik. Lakin istəyirik ki, bizə kənardan da baxsınlar və işlərimizi daha obyektiv qiymətləndirsinlər.

Çox sağ olun. Diqqətiniz məni mütəəssir etdi. Bu, mənim üçün çox böyük şərəfdir. Hesab edirəm ki, bu, həm də sizin Akademiyanız ilə Azərbaycanın təhsil sahəsi arasında sıx, işgüzar əlaqələr üçün şərait yaradır. Ona görə də, artıq dediyim kimi, təhsil nazirinə tapşıracağam ki, sizinlə görüşsün, zəruri saydığınız məsələləri müzakirə etsin.

**G e o r g i  Ş o k i n**: Cənab prezident, vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirik. [410]

## ABŞ PREZİDENTİNİN VƏ DÖVLƏT KATİBİNİN XÜSUSİ MÜŞAVİRİ, SƏFİR RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*16 dekabr 1998-ci il*

**H e y d ə r Ə l i y e v**: Mən sizi salamlayıram. Azərbaycanda sizinlə yenidən görüşməyimdən çox məmnunam. Cənab Morninqstar, biz sizinlə oktyabrın sonunda Türkiyədə, Ankarada görüşmüşdük. Hesab edirəm ki, biz birlikdə əhəmiyyətli iş gördük. Bakı – Ceyhan boru kəməri haqqında Ankara bəyannaməsi o vaxtdan indiyədək dünya ictimaiyyətinin diqqət mərkəzindədir və müzakirə mövzusuna çevrilibdir. Kimsə müzakirə edir, biz isə bu işləri əməli surətdə həyata keçiririk. Ona görə də mən çox məmnunam ki, siz yenidən bizim regionumuza gəlmisiniz və görüşüb danışmağa, gələcək işləri müzakirə etməyə imkanlar vardır.

**R i ç a r d M o r n i n q s t a r**: Cənab prezident, çox sağ olun. Səmimi sözlərə görə minnətdarlığımı bildirirəm, mən ABŞ prezidenti Bill Klintonun və vitse-prezident Albert Qorun salamlarını Sizə yetirmək istəyirəm.

Mən Ankara bəyannaməsinin əhəmiyyəti barədə Sizin dediyiniz fikirlərlə tam razıyam. Ankara bəyannaməsi oktyabrın 29-da imzalanmışdır. Siz bu sahədə dönüş nöqtəsi yaratmaqda xüsusi, müstəsna rol oynamısınız. Mən inanıram ki, biz o zamandan etibarən müəyyən tərəqqi əldə etmişik. [411-412] Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin, Azərbaycan Dövlət Neft Şirkətinin və Türkiyə hökumətinin apardığı birgə iş artıq öz bəhrələrini verməkdədir. Şirkətlər Bakı – Ceyhan layihəsinin arxasında duran siyasi reallıqları artıq duymağa, dərk etməyə başlayırlar. Onlar bu regionun liderlərinin – prezidentlər Süleyman Dəmirəlin, Heydər Əliyevin, Eduard Şevardnadzenin bu işə nə dərəcə ciddi yanaşmalarını da hiss edirlər. Lakin bəzi kommersiya məsələlərinin hər biri işlənilməlidir.

Mənə məlumdur ki, oktyabrın 29-da Ankarada keçirilmiş görüşlərdən sonra Türkiyənin xüsusi nümayəndəsi Azərbaycana gəlmiş, Sizinlə görüşmüş, qiymətlərə münasibətləri haqqında fikirləri Sizə təqdim etmiş, özlərinin və ABƏŞ-in qiymətləri arasındakı fərqi göstərmişdir.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevlə və şirkətin birinci vitse-prezidenti İlham Əliyevlə birlikdə biz bu gün səhər həmin məsələləri müzakirə etmişik. Biz məsələnin müzakirəsinin üçüncü mərhələsinə keçmişik. Bizim və Türkiyənin irəli sürdüyü qiymətlər bir-birinə çox yaxındır. Biz razılığa gəlmişik, ARDNŞ və Türkiyə hökuməti qarşıdakı həftə ərzində şirkətlərlə sıx işləməlidirlər ki, qiymətlər arasında daha çox yaxınlıq olsun. Biz belə düşünürük ki, Türkiyə hökuməti Bakı – Ceyhan layihəsinin həyata keçirilməsi üçün bu cəhətdən lazımi şərait yaradacaqdır və eyni zamanda şirkətlərin narahat olduqları məsələlər haqqında da lazımi qərarlar qəbul ediləcəkdir. Biz ümid edirik ki, Bakı – Ceyhan layihəsinin həyata keçirilməsi üçün tezliklə ümumi razılıq əldə olunacaqdır.

**H e y d ə r Ə l i y e v**: Söylədiyiniz fikirlərə görə sizə minnətdarlığımı bildirirəm – ABŞ prezidenti cənab Bill Klintonun və vitse-prezident cənab Albert Qorun mənə çatdırdığınız salamlarına görə təşəkkür edirəm. Xüsusilə Milad və Yeni il bayramları qarşısında mənim də salamlarımı və ən [412-413] xoş arzularımı prezident cənab Bill Klintona və vitse-prezident cənab Albert Qora çatdırmağınızı xahiş edirəm.

Mən Ankaradan Bakıya dönəndən sonra Bakı – Ceyhan neft kəməri haqqında imzaladığımız bəyannamə ilə əlaqədar olaraq prezident cənab Bill Klintona və vitse-prezident cənab Albert Qora məktublar göndərdim və bir çox mülahizələrimi onlara bildirdim. Bilirsiniz ki, prezident cənab Bill Klinton və vitse-prezident cənab Albert Qor vaxtilə bu məsələ ilə əlaqədar mənə məktublar göndərmişdilər. Bakı – Ceyhan boru kəməri haqqında bəyannamənin imzalanıb-imzalanmaması barədə müəyyən qədər narahatlıq var idi. Ötən zaman göstərdi ki, ümumi səylərimiz nəticəsində biz öz istədiyimizə artıq nail olduq. Amma mane olmaq istəyənlər çox idi və bu gün də vardır. Bir daha qeyd edirəm, bu münasibətlə sizin regiona gəlməyiniz və işlərin daha da dərindən müzakirə olunması çox əhəmiyyətlidir.

Bakı – Ceyhan boru kəmərinin qiymətləri haqqında fərq Ankara bəyannaməsi imzalanmazdan əvvəl də bizə məlum idi. Ona görə də bəyannamə imzalanan kimi biz, yəni Azərbaycan Dövlət Neft Şirkəti Türkiyənin müvafiq orqanları ilə birlikdə çox böyük işlər gördük. Noyabrın əvvəlində İstanbulda bir görüş keçirildi və məsələlər orada müzakirə olundu. Sonra isə Türkiyənin nümayəndə heyəti Azərbaycana gəldi. Beləliklə, hesab edirəm ki, Bakı – Ceyhan xəttinin qiymətləri ümumi səylər nəticəsində daha da dəqiqləşdirilir. Ancaq mən sizinlə razıyam ki, bu işləri, xüsusən konsorsiuma daxil olan şirkətlərlə davam etdirmək lazımdır.

Bilirsiniz ki, neftin qiymətinin son vaxtlar aşağı düşməsi ilə əlaqədar Xəzər hövzəsindəki ehtiyatlar haqqında da müxtəlif fikirlər dolaşır. Bəziləri hesab edirlər ki, bu imzalanmış müqavilələr artıq həyata keçirilməyəcək, yaxud da Xəzər hövzəsindəki ehtiyatlar indi o qədər böyük əhəmiyyət daşımır. Bir sıra ölkələrdə bəzi dairələr bizim işimizə mane ol[413-414]maq, Azərbaycanda, ümumiyyətlə, Xəzər hövzəsindəki neft ehtiyatlarının miqdarını həmişə azaltmaq və dünyada başqa bir ictimai fikir yaratmaq üçün əvvəllər də belə fikirlər irəli sürürdülər. Təəssüflər olsun ki, Azərbaycanda müxalifətdə olan bəzi qüvvələr də bu fikirləri yayırlar və hətta buna görə sevinirlər.

Mən dünən ANS televiziyasına baxırdım. Müxalifətdə olan bir şəxs orada çıxış edib yalan məlumatlar verirdi ki, guya neft şirkətlərinin bəziləri artıq buradan çıxıb getmək istəyirlər, bəziləri də guya gəlmək istəmirlər. Mən respublikamıza düşmən olan bəzi ölkələrin xadimlərinin çıxışına oxşar çıxışı Azərbaycanda da gördüm.

Ancaq mən həmin axşam fikirləşdim ki, bunların ya dünyadan xəbəri yoxdur, yaxud da onlar yalan danışmağa öyrəşiblər. İş burasındadır ki, Azərbaycan Dövlət Neft Şirkəti ilə ABŞ-ın «Frontera pesorses» şirkəti arasında dekabrın 15-də Bakıda yeni bir müqavilə imzalanıbdır. Amerika Birləşmiş Ştatlarının və Avropa ölkələrinin şirkətləri yeni müqavilələrin imzalanması ilə əlaqədar bu gün də bizə müraciətlər edirlər.

Şübhəsiz, mən bunu ona görə deyirəm ki, təəssüflər olsun, ölkəmizin daxilində də təxribat xarakterli belə şayiələr yayanlar vardır. Amma bunların heç biri bizim ümumi işimizə mane ola bilməz. Beləlləri nə qədər çalışdılar ki, Bakı-Ceyhan boru kəməri haqqında sənəd imzalanmasın, ancaq biz onu imzaladıq.

Ümid edirəm ki, Ankarada Türkiyə ilə Türkmənistan arasında qazın nəqli barədə imzalanmış saziş də həyata keçiriləcəkdir. Mən bilirəm ki, siz bunda çox maraqlısınız. Demirəm ki, biz maraqlıyıq, amma biz bunu istəyirik.

Bilirsiniz, Xəzər dənizinin tarixinin nə qədər olduğunu heç kəs deyə bilməz. Yer kürəsinin tarixi nə qədərdirsə, Xəzər dənizinin də tarixi o qədərdir. Ancaq XX əsrin sonunda və XXI əsrin əvvəlində Xəzər dənizinin mineral ehtiyatlarında [414-415] böyük bir inqilab baş verir. Biz də bu inqilabın iştirakçılarıyıq. Hesab edirəm ki, bu inqilab da bütün xalqlar, o cümlədən Azərbaycan xalqı üçün çox böyük bəhrə verəcəkdir. Ancaq biz gərək bunun üçün çox işləyək.

Xəzər dənizinin sektorlara bölünməsinin dünənə qədər əleyhinə çıxan ölkələrin hər biri indi öz sektorunda fəal işə başlayıbdır. Bilirsiniz ki, dekabrın 15-də Tehranda İranın Neft Nazirliyi ilə «Şell» və «Lazmo» şirkətləri arasında bir saziş imzalanıbdır. Bu da onu göstərir ki, heç kəs Xəzər dənizindən uzaqlaşmır, əksinə, hamı Xəzər dənizinə gəlir. Bizim çox böyük perspektivlərimiz vardır. Hesab edirəm ki, biz bunları sizinlə müzakirə edə bilərik.

**R i ç a r d M o r n i n q s t a r**: Cənab prezident, məlumat verim ki, mən həmin gün Bakıda mətbuat konfransı keçirdim və Bakı-Ceyhan boru kəməri marşrutuna münasibətimi bildirdim. İnanıram ki, bütün tərəfləri razı salan cavab alınacaqdır. Mənə elə gəlir ki, bu cavabın alınmasından ötrü biz mümkün qədər sürətlə işləməliyik və eyni zamanda bunu təmin etmək üçün bəzi şirkətlərin narazılıqlarını da nəzərə almalıyıq. Mənim fikrimcə, Türkiyə bu məqsədlə lazımi şərtləri təmin etməyə artıq hazırdır və biz bu məsələ ətrafında birgə işləməliyik.

Mən Transxəzər layihəsinə öz münasibətimi bildirmək istəyirəm. Biz Transxəzər layihəsinə Sizin davamlı dəstəyinizə öz hörmətimizi və ehtiramımızı bildirmək istəyirik.

Məlumdur ki, Siz siyasi xadim kimi bu regionda müstəsna rol oynayırsınız. Siz Türkmənistanın da iqtisadi inkişafının lazımlığını duyursunuz və ona görə də bu layihəyə dəstək verirsiniz. Hamıya məlumdur ki, bu layihənin tam həyata keçməsi üçün orada Azərbaycan da iştirak etməlidir. Mən Türkiyədə bu məsələ haqqında dünən danışmışam. Cənab Natiq Əliyev bugünkü görüşümüzdə bu məsələni bir daha irəli sürdü. Mən sabah Türkmənistanda olarkən bu məsələni bir [415-416] daha qaldıracağam. Biz Türkiyəyə və Türkmənistana ciddi surətdə təklif edəcəyik ki, Azərbaycanla iş birliyi yaratsınlar və bu komissiya birlikdə fəaliyyət göstərsin.

Mən «Şell» və «Lazmo» sazişinə aid fikrimi də bildirmək istəyirəm. Biz Sizin narahatlığınızı tam dərk edirik. Mən Vaşinqtona qayıtdıqdan sonra bu, bizim məşğul olacağımız əsas məsələlərdən biri olacaqdır. Biz bu məsələni Vaşinqtonda lazımi səviyyəyə çatdıracağıq.

Sizinlə yenidən görüşməyimə, bir çox mühüm məsələləri müzakirə edib aydınlaşdırdığımıza görə bir daha təşəkkürümü bildirirəm. [416]

## AZƏRBAYCANIN RUS İCMASI QURULTAYININ NÜMAYƏNDƏLƏRİNƏ

Hörmətli nümayəndələr!

Azərbaycanın rus icmasının birinci qurultayının iştirakçılarını səmimi salamlayaraq, sizin hamınıza xoşbəxtlik, cansağlığı, firavanlıq və qurultayın işində uğurlar arzulayıram. Qurultayınızın BMT-nin Ümumi İnsan Hüquqları Bəyannaməsinin 50 illiyində keçirilməsi bunu bir daha təsdiq edir ki, bizim dövlətimizdə insan, onun maraq və hüquqları diqqət mərkəzindədir.

1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Konstitusiyası cəmiyyətimizin ideya-siyasi və dünyagörüşü əsasını yaratmışdır. Konstitusiya respublikada həyata keçirilən bütün təşəbbüslərə sosial və siyasi istiqamət vermişdir.

Azərbaycan hələ qədimdən bununla məşhurdur ki, müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar bu torpaqda özlərinə ikinci vətən tapmışlar. Tarixi taleyin hökmü ilə Şimali Azərbaycan təxminən iki əsr siyasi, iqtisadi və mənəvi cəhətdən Rusiya ilə bağlı olmuşdur. Rusiyada Azərbaycan icmasının və Azərbaycanda rus icmasının formalaşması məhz həmin dövrdə baş vermişdir. Müxtəlif etnoslara mənsub vətəndaşların konkret sosial və mənəvi problemlərinin cəmiyyətdə necə həll edilməli olması barədə suala cavabların axtarışları tariximizin indiki mərhələsində kütləvi şüur üçün xüsusi əhəmiyyət kəsb edir.

Şübhəsiz ki, sizin qurultayınız insan və vətəndaş hüquqlarına tam əməl olunmasını dövlətlə birlikdə təmin etməli olan vətəndaş cəmiyyəti təsisatlarının inkişaf etmiş şəbəkəsinin formalaşmasında son dərəcə mühüm mərhələlərdən biridir.

Azərbaycan istər öz coğrafi-siyasi mövqeyinə görə, istərsə də burada Qərb və Şərq sivilizasiyalarının ən yaxşı nailiyyətlərini [417-418] özündə təcəssüm etdirmiş bənzərsiz mədəni ənənələrin formalaşmasına görə postsovet məkanında nadir bir yer tutur. Bir çox onilliklər ərzində rus icması xalqımızın milli mənəvi dəyərlərinin inkişafı üçün xeyli səy göstərmişdir. Keçmişdə Azərbaycanda rus alimlərinin, yazıçıları və maarifçilərinin əməyini son dərəcə yüksək qiymətləndirərək, bu gün həmin tarixi ənənələrin qorunub saxlanması və artırılması üçün görülən işləri də qeyd etmək lazımdır.

İndi, müstəqil, azad Azərbaycan haqqında çoxəsrlik arzularımızın gerçəkləşdiyi bir vaxtda biz ümummilli mənafelər naminə, vətənimizin ərazi bütövlüyünün bərpa olunması naminə daha böyük məqsədyönlülüklə fəaliyyət göstərməliyik. Bu müstəqillik uğrunda, suverenlik uğrunda mübarizədə, Ermənistanın dövlətimizə qarşı törətdiyi müharibədə Azərbaycanın, o cümlədən də rus millətindən olan bir çox qızları və oğulları şəhid olmuşlar. Biz şəhid olanların xatirəsini ehtiramla yad edərək, onlar üçün müqəddəs olan ideallar naminə Azərbaycanda sülhə, bütün Qafqazda sülhə, bütün Azərbaycan xalqı üçün layiqli firavan həyata nail olmalıyıq.

Respublikanın hər bir vətəndaşının milli ənənələrini müqəddəs tutaraq hifz edən, öz qədim və zəngin mədəniyyətini qoruyub saxlayan və artıran azad, müstəqil, demokratik, dinamik inkişaf edən Azərbaycan XXI əsrə inamla qədəm qoyur.

Üçüncü minillik ərəfəsində toplaşan qurultayınıza dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, Azərbaycanın dünya birliyində layiqli yer tutan müasir ölkəyə çevrilməsi üçün möhkəm bünövrə yaratmağa qabil olan qərarlar qəbul etməyi arzulayıram.

Sizə uğurlar olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 dekabr 1998-ci il*
[418]

## 1999-cu il ÜÇÜN DÖVLƏT BÜDCƏSİ LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ GİRİŞ NİTQİ

*Prezident sarayı*

*17 dekabr 1998-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə ölkəmizin 1999-cu il üçün büdcəsinin layihəsinin müzakirəsinə həsr olunmuşdur. Büdcənin layihəsi Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və başqa müvafiq nazirliklər tərəfindən hazırlanıbdır. Nazirlər Kabineti büdcənin layihəsini müzakirə edib, təqdim edibdir. Büdcə layihəsi bizim tərəfimizdən ətraflı müzakirə edilibdir, təhlil olunubdur. Ancaq mən layihəni müzakirə, təsdiq etmək üçün Milli Məclisə göndərməzdən əvvəl onun geniş şəkildə müzakirə olunmasını zəruri hesab etdim. Çünki 1998-ci ilin büdcəsinin yerinə yetirilməsində qüsurlar çoxdur. Biz noyabrın 6-da Nazirlər Kabinetinin geniş iclasında bu barədə ətraflı danışdıq. Ondan sonrakı dövrdə bu məsələlər ətraflı təhlil edilir.

1999-cu ilin büdcəsi layihəsinin yaranması bir çox çətinliklərlə üzləşibdir. Bunların obyektiv səbəbləri də vardır. Eyni zamanda, 1998-ci ilin büdcəsinin yerinə yetirilməsində buraxılan nöqsanlar 1999-cu ilin büdcəsinin tərtib olunmasında da çətinliklər, gərginliklər yaradıbdır. Ona görə də biz bu gün büdcənin layihəsini burada birlikdə müzakirə edib müzakirə, təsdiq üçün Milli Məslisə təqdim edərkən 1999-cu ilin büdcəsinin yerinə yetirilməsi haqqında lazımi tədbirlər görməliyik və bunu indi görməliyik, gecikdirməməliyik. Biz həm 1998-ci ilin son günlərini uğurla başa çatdırmalıyıq, həm də 1999-cu ilin büdcəsinin yerinə yetirilməsini təmin etmək üçün lazımi tədbirlər [419-420] görməliyik. Mən bütün bunlara görə bu gün belə bir geniş müşavirənin keçirilməsini qərara almışam.

Müşavirəyə Prezident Aparatının məsul işçiləri, Nazirlər Kabinetinin üzvləri, konsern və şirkətlərin, böyük istehsal, sənaye müəssisələrinin rəhbərləri, şəhər və rayonların icra hakimiyyətinin başçıları, başqa icra orqanlarının nümayəndələri dəvət ediliblər. Eyni zamanda, Milli Məclisin rəhbərliyi, Milli Məclisin komissiyalarının sədrləri də bu müzakirəyə dəvət olunublar.

Güman edirəm ki, Azərbaycanın ümummilli, ümumölkə məsələsini burada hamımız birlikdə bir daha müzakirə etsək, büdcənin layihəsini daha da təkmilləşdirə bilərik və xüsusən, 1999-cu ilin büdcəsini yerinə yetirmək üçün lazımi tədbirlərin görülməsi barədə fikir mübadiləsi apara bilərik. Bugünkü müşavirə bu məqsədi daşıyır.

### YEKUN NİTQİ

Müşavirə başlanarkən bildirdim ki, Azərbaycanın 1999-cu il üçün hazırlanmış büdcə layihəsi bizim tərəfimizdən baxılıbdır, qəbul olunubdur, müzakirə və təsdiq üçün Milli Məclisə göndərilir. Bugünkü müşavirə və çıxışlar, müzakirələr bir daha təsdiq edir ki, layihə 1999-cu ildə Azərbaycanın sosial-iqtisadi inkişafını təmin etmək üçün yararlıdır. Əgər belə bir büdcə layihəsi Milli Məclis tərəfindən təsdiq olunarsa, Azərbaycanın iqtisadiyyatı 1999-cu ildə bunun əsasında inkişaf edəcəkdir. Mən inanıram ki, Milli Məclis büdcə layihəsinə diqqətlə baxacaqdır və onu qısa bir zamanda təsdiq edəcəkdir. [420-421]

Bıdcə layihəsinin Milli Məclisə təqdim olunması müəyyən qədər gecikdirilibdir. Ancaq bunun səbəbləri də vardır. Nazirlər Kabineti bu layihəni artıq hazırlamışdır. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə bir neçə məsələləri də müzakirə etmək lazım idi. Dünya Bankının missiyası bu yaxın günlərdə Azərbaycanda olmuşdur, Nazirlər Kabineti ondan sonra büdcə layihəsini mənə təqdim etmişdir. Güman edirəm ki, büdcə layihəsinə dekabrın qarşıdakı günlərində baxıla bilər və o, qəbul oluna bilər.

Bu gün burada həm 1998-ci il dövlət büdcəsinin yerinə yetirilməsi, ölkəmizin iqtisadiyyatının inkişafı, həm də 1999-cu il büdcəsinin göstəriciləri ilə əlaqədar bir çox rəqəmlər bir daha elan olundu. Biz üç il bundan əvvəl belə rəqəmlər haqqında danışa bilməzdik və danışmırdıq da. Çünki Azərbaycanın iqtisadiyyatı ilbəil aşağı düşürdü, tənəzzülün qarşısını almaq mümkün deyildi. 1990-1991-ci illərdən başlamış iqtisadi-sosial böhran davam edirdi. Sənaye, kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsul və başqa iqtisadi göstəricilər ilbəil aşağı düşürdü. Bunların hamısı məlumdur və statistika göz qabağındadır.

Biz bütün bu çətinliklərin qarşısını ala bildik, 1996-cı ildə iqtisadiyyatda sabitliyə nail olduq. 1997-1998-ci illərdə artım mövcuddur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan müstəqillik əldə etmiş başqa ölkələrə nisbətən daha da ağır problemlər içərisindədir. Ərazilərimizin bir qismi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyondan artıq azərbaycanlı öz yerindən-yurdundan didərgin düşübdür, onların əksəriyyəti çadırlarda yaşayır. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatına çox mənfi təsir göstərən amillərdir. Amma

bunlara baxmayaraq, biz iqtisadiyyatda tənəzzülün qarşısını aldıq və inkişafı təmin etdik. İndi inkişaf yolu ilə gedirik.

1998-ci il başa çatır. Məmnuniyyətlə deyə bilərik ki, biz 1998-ci ildə inkişafa nail olmuşuq. Burada elan olunan [421-422] rəqəmlər də bunu göstərir. Ümumi daxili məhsul ötən 11 ay müddətində 9,4 faiz, sənaye istehsalı 1,9 faiz, kənd təsərrüfatı istehsalı 3,3 faiz, kapital qoyuluşu 47 faiz artmışdır. Bunların nəticəsində respublika əhalisinin rifahı yaxşılaşmışdır.

Ötən müşavirələrdə artıq deyilmişdir ki, son üç il müddətində respublikada orta əmək haqqı 47 min manatdan 167-170 min manata çatıbdır, pensiyalar artıbdır. Burada rəqəm elan olundu, ötən üç il müddətində pensiyalar üçün ayrılan vəsaitlər 460 milyard manat artmışdır. Bunlar hamısı faktlardır, konkret rəqəmlərdir. Bunlar Azərbaycanın bugünkü reallığıdır.

Bütün bunların nəticəsində 1999-cu il üçün hazırlanmış büdcə layihəsi optimaldır. Şübhəsiz ki, o gərgindir və onun həyata keçirilməsi çox gərgin iş tələb edəcəkdir. Ancaq eyni zamanda o realdır. Biz həmin büdcə ilə yaşaya bilərik və onu həyata keçirə bilərik.

Bilirsiniz ki, 1998- ci ildə dünyanın bir neçə regionlarında baş vermiş maliyyə böhranı və xüsusən son aylarda Rusiyada baş vermiş maliyyə böhranı bütün başqa qonşu ölkələrə təsir etdiyi kimi, Azərbaycana da öz təsirini göstəribdir. Biz Rusiyada baş vermiş maliyyə böhranından çox böyük zərər çəkmişik, bu gün də zərər çəkirik. Güman edirəm ki, biz gələcək aylarda da bu zərəri hiss edəcəyik. Ancaq bizim iqtisadiyyatımızda, maliyyə sistemimizdə apardığımız düzgün, doğru, etibarlı siyasət və həyata keçirdiyimiz tədbirlər Rusiyadakı maliyyə böhranının Azərbaycana təsirinin qarşısını müəyyən qədər alıbdır. Bu o demək deyildir ki, biz mənfi təsirdən xilas olmuşuq. Biz bunu bu gün də hiss edirik, gələcəkdə də hiss edəcəyik.

Doğrudur, biz milli valyutamızın – manatın dəyərini qoruyub saxlamışıq. 1998-ci ildə Azərbaycanda inflyasiya 0,2 faizdir, demək, yox səviyyəsindədir. Biz 1999-cu ilə də inflyasiyanı təxminən bu səviyyədə nəzərdə tuturuq. Ancaq buna nail [422-423] olmaq, milli valyutamızı – manatımızı belə səviyyədə saxlamaq üçün çox işlər görmək lazım olubdur. Biz bu işləri görmüşük, bu gün də görürük və gələcəkdə də görəcəyik. Ümumiyyətlə, bunlar da Azərbaycanda makroiqtisadi sabitliyi, sosial-iqtisadi, maliyyə sahəsində sabitliyi təmin edibdir və gələcəkdə də təmin edəcəkdir.

Bunlarla yanaşı, onu da demək lazımdır ki, 1998-ci ilin büdcəsində nəzərdə tutulmuş bir çox vacib göstəricilər həyata keçirilməyibdir. Yəni büdcədə nəzərdə tutulmuş göstərici – büdcənin mədaxil hissəsi təmin olunmayıbdır. Onun da səbəbləri bu gün elan olundu, deyildi. Biz Nazirlər Kabinetinin noyabrın 6-da keçirilmiş geniş iclasında da bu barədə demişdik. Səbəblər müəyyən qədər obyektiv xarakter daşısa da, daha çox müvafiq təşkilatların, nazirliklərin, orqanların işində olan ciddi nöqsanların nəticəsindədir. Əgər biz iqtisadi islahatları ardıcıl surətdə həyata keçirərək çox müsbət nəticələr əldə etmişiksə, bununla bərabər ayrı-ayrı sahələrdə olan nöqsanların aradan qaldırılmaması ümumi işimizi ağırlaşdırır. Məhz bunların nəticəsində biz 1998-ci ildə büdcənin mədaxil hissəsini təmin edə bilməmişik.

Doğrudur, bununla əlaqədar olaraq büdcənin məxaric hissəsində də qoyulan məhdudiyyətlərə görə biz büdcə kəsirini nəzərdə tutulmuş səviyyədə saxlaya bilmişik, bəlkə də bundan da uyğun səviyyədə olubdur. Ancaq bu, bizi heç cür qane edə bilməz, biz gərək büdcənin mədaxil hissəsində olan planları yerinə yetirək ki, məxaric hissəsini də təmin edək. Büdcənin mədaxil hissəsində gəlirlər əldə olunmadığı halda, nəzərdə tutulmuş xərclərin hamısını da təmin edə bilmirik. Bu, bizim sosial-iqtisadi inkişafımıza mane olur. Bunların hamısı nəzərə alınmalıdır.

Beləliklə, biz bu gün məmnuniyyətlə qeyd edə bilərik ki, Azərbaycanda iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir və onlar öz müsbət nəticələrini verir. 1999-cu ilin [423-424] büdcəsi də məhz iqtisadi islahatların dərinləşməsini, genişlənməsini nəzərdə tutur və biz bunları təmin etməliyik.

1998-ci il büdcəsinin yekunlarının ən böyük çatışmazlığı Dövlət Vergi Müfəttişliyi tərəfindən vergilərin büdcədə nəzərdə tutulmuş səviyyədə toplanmamasıdır. Biz noyabrın 6-da bu barədə çox ciddi danışıqlar apardıq. Mən bu gün onu demək istəyirəm, - təəssüflər olsun ki, biz son illər bazar iqtisadiyyatı yolu ilə gedərək, iqtisadi islahatları həyata keçirərək, iqtisadiyyatda liberallaşdırma apararaq, özəl sektoru inkişaf etdirərək, özəlləşdirmə proqramını yerinə yetirərək, vergi orqanı kimi vacib bir sahəyə lazımi diqqət yetirməmişik.

Bizim hamımıza məlumdur ki, bəzən keçmiş illərdə olan stereotiplərlə işləyirik və öz işimizi həmin vərdişlərlə aparırıq. Bunu inkar etmək olmaz. Ancaq biz gərək o köhnə vərdişlərdən tezliklə uzaqlaşaq. Əgər biz bazar iqtisadiyyatı yolu ilə gediriksə və bu sahədə artıq bir çox nailiyyətlər əldə etmişiksə, demək, biz bazar iqtisadiyyatının ən əsas sahəsi olan vergi orqanlarının işinə gərək çox diqqət yetirək. Bu olmayıbdır.

Hesab edirəm ki, Azərbaycanın baş Dövlət Vergi Müfəttişliyi indiyədək nəzarətsiz qalıbdır. Dövlət Vergi Müfəttişliyi orqanında bu orqanın müasir tələblərə uyğun olaraq işləməsi üçün lazımi tədbirlər həyata keçirilməyibdir. Bunların nəticəsində də tam əsasla demək olar ki, Dövlət Vergi Müfəttişliyi köhnə stereotiplərlə işləyir, dövlət müəssisələrindən vergiləri toplayır, - bu gün məlum oldu ki, onların da bir çox hissəsini toplaya bilmir, - ancaq yaranmış, böyük həcmdə olan, Azərbaycanın iqtisadiyyatında artıq çox böyük yer tutan özəl sektordan vergilərin alınmasına ya diqqət yetirməyibdir, yaxud da, sadəcə, orada hər

iki tərəf – həm vergiverən, həm də vergiyığan – imkandan sui-istifadə edərək öz şəxsi gəlirini əldə edib, dövlətə zərər vurubdur. [424-425]

Mən noyabrın 6-da Dövlət Vergi Müfəttişliyinin bu sahədə işini ciddi tənqid etdim. Baş Dövlət Vergi Müfəttişliyinin rəisi Vəkilov məlumat verir ki, Azərbaycana aid olan özəl sektordan noyabr və dekabr aylarında vergi iki ay müddətində iki dəfə artıq yığılıbdır. Əgər bir tənqidlə qısa bir zamanda belə bir iş görmək mümkün idisə, bəs Vergi Müfəttişliyi bunu indiyə qədər nə üçün etmirdi? Ancaq mən hesab etmirəm ki, bu da son həddir. O vaxt mən iki obyektin – Binə hava limanının qarşısında olan böyük bir bazarın və bir də respublika stadionunun, «Gənclik» metro stansiyasının yaxınlığındakı yarmarkanın adını çəkdim. Mənə verilən rəqəmlərə görə, orada çox az ticarət yerlərindən vergi yığıldığını bildirdim. Baş Dövlət Vergi Müfəttişliyi mənə məlumat verir ki, o iki obyektdən noyabr-dekabr aylarında yığılan vergi əvvəlki aylara nisbətən beş dəfə artıq olubdur. Mən hesab edirəm ki, bu da son hədd deyildir, - beş dəfə də çox deyildir.

Xatirimdədir, o vaxt mən demişdim ki, hava limanının qarşısındakı bazarda 150 yer göstərilibdir. Deyirlər ki, əslində orada 4000-4500-ə qədər yer vardır. Əgər 150 yerdən yığılan vergi beş dəfə artıbsa, bu, təxminən 600, yaxud 700 yer olubdur. Bəs qalanı haradadır? Bu iki fakt və Baş Dövlət Vergi Müfəttişliyinin verdiyi məlumata görə, ümumiyyətlə, məhz Azərbaycana məxsus özəl sektordan noyabr-dekabr aylarında yığılan verginin iki dəfə artması respublikamızın özəl sektorunda indiyədək dövlət büdcəsinə gəlməli olan nə qədər vəsaitin mənimsənildiyini göstərir. Bunu kim mənimsəyibdir? Onun bir hissəsini həmin özəl sektorun sahibləri, digər hissəsini isə Vergi Müfəttişliyinin işçiləri mənimsəyiblər. Amma nəticədə Azərbaycana zərər dəyibdir.

Noyabrın 6-da keçirdiyimiz iclasda da, indi də çoxları büdcəyə gəlirlərin azalmasını dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə əlaqələndirirlər. Təbiidir, neftin qiymətinin aşağı düşməsi Dövlət Neft Şirkətindən büdcəyə [425-426] gələn gəlirləri azaldıbdır. Ancaq gəlin, bunu bir kənara qoyaq. Əgər büdcədə nəzərdə tutulmuş vergi planı cəmi 71-72 faiz yerinə yetirilibsə, bunun hamısı neft şirkətinin üzərinə düşmür ki. Bu, bizim başqa dövlət müəssisələrimizin də üzərinə düşür. Bu gün burada adları çəkilən həmin müəssisələr neft satmaqla məşğul olmurlar. Amma onlardan da vergi alınmalıdır, halbuki alınmayıbdır. Onlar vergidən qaçıblar, gizləniblər. Ancaq vergidən yayınan təkcə dövlət müəssisələri deyildir. Baş Dövlət Vergi Müfəttişliyi dövlət müəssisələri ilə də əlaqəyə girirlər. Onlar vergini vermirlər, bu vəsaiti başqa yerə istifadə edirlər. Yəqin ki, Baş Dövlət Vergi Müfəttişliyinin əməkdaşları da öz paylarını alırlar və bu işin üstünü açmırlar. Ortada dövlətimiz, büdcəmiz, ölkəmiz zərər çəkir.

Respublikamızın büdcəsi Baş Dövlət Vergi Müfəttişliyi vasitəsilə yığılan vergilərdən, Dövlət Gömrük Komitəsinin yığdığı rüsumlardan və az bir miqdarda başqa mənbələrdən formalaşır. Belə olan halda Baş Dövlət Vergi Müfəttişliyi müasir dövrdə ən mühüm bir orqan statusu alır. Ancaq təəssüf ki, Baş Dövlət Vergi Müfəttişliyinin özü də Azərbaycanın hökumət strukturunda, iqtisadi, maliyyə strukturunda öz yerini tutmayıbdır. Nazirlər Kabineti də Vergi Müfəttişliyinin işi ilə indiyə qədər lazımi səviyyədə məşğul olmayıbdır. Bir tərəfdən tələbkarlıq edilməyibdir, ikinci tərəfdən nəzarət olmayıbdır, üçüncü tərəfdən də bu sahədə lazımi islahatlar, təkmilləşmə aparılmayıbdır.

Mən Şöhrət Vəkilova bu gün dedim. O, beş ildir ki, Baş Dövlət Vergi Müfəttişliyinin rəisi vəzifəsindədir. Biz bu beş ildə bu qədər islahatlar, dəyişikliklər həyata keçiririk ki, hər bir sahənin iqtisadi səmərəliliyini artıraq. Baş Dövlət Vergi Müfəttişliyi nə üçün kölgədə qalıbdır və dövlət müəssisələrindən, xüsusən Dövlət Neft Şirkətindən gələn vergilərlə ümumi işin üstünü indiyə qədər örtübdür, beləliklə, respublikazımı gətirib bu sahədə belə ağır vəziyyətə qoyubdur. [426-427]

Ona görə də mən bu gün hesab edirəm ki, Azərbaycanın Dövlət Vergi Müfəttişliyində çox ciddi dəyişikliklər edilməlidir. Mən Nazirlər Kabinetinə bu barədə göstərişləri artıq vermişəm. Bir daha bəyan edirəm ki, Vergi Müfəttişliyinin işi nəzarətə alınmalıdır. Mən Vergi Müfəttişliyinin və Baş Dövlət Vergi Müfəttişliyinin rəisi Şöhrət Vəkilovun işini qeyri-qənaətbəxş hesab edirəm. Biz belə işlə qətiyyən razılaşa bilmərik. Bu barədə lazımi tədbirlər görülməlidir. Bu sahəyə həm çox ciddi diqqət yetirmək, həm də nəzarət etmək lazımdır.

Respublikamızın büdcəsini formalaşdıran digər mənbə Dövlət Gömrük Komitəsidir. Dövlət Gömrük Komitəsi öz göstəricilərini ilbəil artırıbdır. Bunu müsbət qiymətləndirmək olar. Amma mən hesab etmirəm ki, onların bütün ehtiyatlarının hamısından istifadə olunubdur. Sadəcə, belə bir nəticə çıxarmaq lazımdır ki, əgər respublikamızın büdcəsinə Dövlət Gömrük Komitəsi vasitəsilə 1994-cü ildə cəmi 43 milyard manat gəlibsə, bu il isə 560 milyard manat vəsait gələcəksə və 4 il ərzində bu qədər artım varsa, bu, gömrükdən gələn rüsumların 1994-1995-ci illərdə və ondan əvvəlki illərdə nə qədər mənimsənildiyini, dövlət büdcəsinə gəlmədiyini göstərir.

Ancaq mən bu gün bildirdim, - hesab edirəm ki, qaçaqmalçılıq mövcuddur, onun qarşısı alınmalıdır. Dövlət Gömrük Komitəsi və bizim sərhəd qoşunları gərək qaçaqmalçılığa qarşı ciddi mübarizə aparsınlar. Əgər gömrükdən keçməyərək Azərbaycana müxtəlif mallar, o cümlədən siqaret, yaxud araq və başqa spirtli içkilər gəlirsə, bu o deməkdir ki, ya qaçaqmalçılıq var, ya da gömrük məntəqələrində vəzifədən sui-istifadə edirlər, qanunu pozurlar və dövlətimizə zərər vururlar. Ona görə də bu barədə ciddi tədbirlər görülməlidir.

1999-cu il üçün gərgin plan qoyulubdur. Ancaq mən hesab edirəm ki, həmin plan artıqlaması ilə yerinə yetirilməlidir. [427-428] Bugünkü müzakirə zamanı da bildirildi, bəzi rüsumlarla əlaqədar güzəştlər aradan qaldırılmalıdır. Nazirlər Kabineti bu təkliflərə baxmalıdır və qanunlarda dəyişikliklər etmək lazımdırsa, biz Milli Məclisə təqdimatlar verməliyik, dəyişikliklər olunmalıdır. Lazım olmayan güzəştlər bu gün aradan qaldırılmalıdır. Beləliklə, biz gömrük rüsumları vasitəsilə 1990-cı ildə büdcənin gəlirlərini xeyli artıra bilərik.

Biz 1999-cu ildə büdcənin bütün göstəricilərini təmin etmək üçün Azərbaycanda istehsalı artırmalıyıq. Azərbaycanda özəl sektor genişlənibdir. Bəyan edildi ki, kənd təsərrüfatının 95 faizi artıq özəlləşdirilibdir. Ümumi daxili məhsulun istehsalında özəl sektorun payı 50-55 faizi ötübdür, yaxud ötür. Bir çox sənaye, kənd təsərrüfatı müəssisələri özəlləşdirilibdir, özəlləşdirilmə prosesindədir.

Kənd təsərrüfatı məhsullarının emalı ilə əlaqədar Azərbaycanın böyük bir sənaye kompleksi – şərabçılıq, meyvə-tərəvəz emalı, heyvandarlıq məhsulları emalı sənayesi vardır. Bunların əksəriyyəti özəlləşdirilibdir, yaxud özəlləşdirilmək üçün Əmlak Komitəsinin sərəncamına verilibdir. Ancaq özəlləşdirmədən sonra bunların iqtisadi səmərəliliyi hələ təmin olunmayıbdır.

Biz bunu keçən iclasda da demişdik. Özəlləşdirilmiş sənaye müəssisələrinin işinə çox ciddi nəzarət etmək lazımdır. Mən «nəzarət» deyəndə bunu düzgün başa düşmək lazımdır. Çünki özəl sektor dövlətdən asılı deyildir. Ancaq biz bu işə biganə də qala bilmərik. Kimsə bunu özəlləşdirib işlətmirsə, gərək fikirləşək.

Nə üçün işlətmir? İmkanı yoxdursa, ona kömək edək, yaxud da ki, əgər o, ümumiyyətlə işlətmək istəmirsə, həmin sənaye müəssisələrinin işləməsinə başqa vasitələrlə nail olaq. Çünki Azərbaycanda həmin sənaye müəssisələri on illərlə işləyib, respublikamızda istehsalı artırıblar. Bu sənaye müəssisələrində çoxsaylı mütəxəssislər, fəhlələr, qulluqçular [428-429] işləyiblər, maaş alıblar, yaşayıblar. İndi hansısa bir sahibkarın bəlkə pulu çoxdur, onu özəlləşdirib işlətmir, kənara qoyubdur. Həmin sahibkarın şəxsi nöqteyi-nəzərindən bunu bəlkə də anlamaq olar. Amma ölkəmizin iqtisadiyyatı nöqteyi-nəzərindən bununla barışmaq, razılaşmaq olmaz.

Ona görə də bu sahədə çox ağıllı tədbirlər görülməlidir. Yəni biz sahibkarların hüququna toxuna bilmərik, ancaq eyni zamanda ölkəmizdə on illərlə yaranmış sənaye müəssisələrinin də başlı-başına qalmasına, dağılmasına, yaxud da istifadəsiz qalmasına göz yuma, biganə qala bilmərik.

Hesab edirəm, Nazirlər Kabinetinin tərkibində bununla əlaqədar bəlkə bir xüsusi orqan yaratmaq lazımdır ki, bu işlərlə məşğul olsun. Çünki Dövlət Əmlak Komitəsinin məqsədi hər bir müəssisəni, təşkilatı özəlləşdirməkdir. Təəssüflər olsun ki, bu özəlləşdirmə prosesi də çox vaxt aparır. Bu da məni narahat edir. Mənim bir çox fərmanlarımla müxtəlif müəssisələr, təşkilatlar özəlləşdirilmək üçün Dövlət Əmlak Komitəsinə verilibdir. Ancaq onların bir qismi, bəlkə də çox hissəsi indiyə qədər özəlləşdirilməyibdir. Belə çıxır ki, keçmiş rəhbərlik də yoxdur və yeni sahibkar da meydana çıxmayıbdır. İndi bu müəssisələrə rəhbərlik edən adamlar da bilmirlər ki, sahibkar olacaq və ya olmayacaqlar. Ona görə də həmin müəssisələrin işini lazımi səviyyədə təmin edə bilmirlər, etiraf etmək lazımdır ki, həm də dağıdırlar. Bu, çox ciddi məsələdir. Bununla məşğul olmaq lazımdır.

Mən, ümumiyyətlə, bu gün bir daha bəyan etmək istəyirəm ki, Azərbaycanda özəlləşdirmə prosesinin alternativi yoxdur. Biz özəlləşdirməni bundan sonra sürətlə aparacağıq. Mən qərar qəbul etmişəm, Nazirlər Kabineti Dövlət Əmlak Komitəsi ilə birlikdə təkliflər hazırlayır. Biz indiyədək aparılmış özəlləşdirmənin yekunlarını yaxın vaxtlarda xüsusi müzakirə edəcəyik, 1999-cu il və gələn illər üçün özəlləşdirmə proqramını müəyyən edəcəyik və bu sahədə lazımi qanunlar [429-430] qəbul olunması üçün Milli Məclisə layihələr təqdim edəcəyik. Bu proses davam edəcəkdir.

Beləliklə, Azərbaycanda sahibkarlığa münasibət və diqqət bundan sonra da artmalıdır. Sahibkarlara normal işləmək üçün imkanlar yaradılmalıdır. Həm Azərbaycanın milli sahibkarlarına, həm xarici investorlara, həm də respublikamıza gəlmiş xarici investorlarla Azərbaycan sahibkarlarının müştərək işlərinə imkanlar yaratmaq, kömək etmək lazımdır. Onların qanun çərçivəsində fəaliyyət göstərməsini təmin etmək lazımdır. Ancaq təəssüflər olsun ki, biz indiyə qədər mütəmadi olaraq çox şikayətlər alırıq. Şikayətlərin də əsas məzmunu ondan ibarətdir ki, Azərbaycanda sahibkarlığın inkişafına maneçilik törədən qüvvələr vardır.

Birincisi, ayrı-ayrı sahibkarlar, xarici şirkətlər, investorlar burada öz işlərini qurmaq üçün müxtəlif dövlət, hökumət orqanlarında icazə, yaxud da lisenziya almaq, başqa işlər görmək üçün bir çox çətinliklərlə rastlaşırlar. Bizə gələn şikayətlərin əksəriyyətində deyilir ki, bu çətinliklərin də çoxu hökumət orqanlarındakı ayrı-ayrı şəxslərin şəxsi marağı ilə bağlıdır. Yəni rüşvət, əlavə pul tələb edirlər, bu olmasa, razılıq vermirlər. Bunlar hamısı bizim ümumi iqtisadiyyatımıza, apardığımız siyasətə zərbə vurur, Azərbaycan prezidentinin siyasətinə zərbə vurur.

İkinci qrup şikayətlər ondan ibarətdir ki, prokurorluq, polis və ümumiyyətlə, hüquq-mühafizə orqanları ayrı-ayrı şirkətlərin, özəl sektora mənsub olan sahibkarların, xarici investorların işlərinə müdaxilə edirlər. Bu müdaxilənin də əksəriyyəti şəxsi maddi maraqla əlaqədardır.Bunların hamısı bizi narahat edir. Ona görə də mən bu gün bütün dövlət, hökumət orqanlarından tələb edirəm ki, bu mənfi

hallara son qoyulsun, sahibkarlığın, özəl sektorun inkişaf etdirilməsi üçün bütün imkanlar yaradılsın. [430-431]

Mən hüquq-mühafizə orqanlarına ayrı-ayrı şirkətlərin, sahibkarların işinə müdaxilə etməyi qadağan edirəm, əsası olmayan müxtəlif yoxlamaların aparılmasını qadağan edirəm. Tələb edirəm ki, bütün bunlara riayət olunsun. Eyni zamanda özəl sektora məxsus olan butun vətəndaşlara da, xarici investorlara da bildirirəm ki, hamı qanun çərçivəsində işləməli, qanunu pozmamalıdır. Onu da etiraf etmək lazımdır ki, respublikamızda özəl sektor mədəniyyəti hələ tam formalaşmadığına görə özəl sektorda da qeyri-qanuni yollarla gəlir əldə etmək, dövlətə zərər vuraraq özünə xeyir götürmək, elə bu verginin özündən gizlənmək və başqa hallar mövcuddur. Bunu da inkar etmək olmaz.

Bizə şikayət edən sahibkarlar, yaxud da xarici investorlar bilməlidirlər ki, əgər biz dövlət, hökumət orqanlarından qanunun həyata keçirilməsini və sahibkarlığın inkişafına mane olmamasını tələb ediriksə, sahibkarlardan, xarici investorlardan da tələb edirik ki, onlar Azərbaycan Respublikasının qanun-qaydalarına riayət etsinlər.

Şübhəsiz ki, bu işlər hər iki tərəfdən - hökumət orqanları və özəl sektor tərəfindən düzgün aparılmalıdır. Özəl sektor öz işini bilməlidir. Amma mən hökumət orqanlarından tələb edirəm ki, sahibkarlığın inkişafına mane olunmasın.

Hesab edirəm ki, biz 1999-cu ildə işimizi bu prinsiplər əsasında qurmalıyıq. Bunlar hamısı Azərbaycanda istehsalı artıra biləcəkdir. Azərbaycanda istehsal artdıqca, respublikamıza idxal azalacaq, ölkəmizin ixrac imkanları çoxalacaqdır. Bunu da nəzərə almaq lazımdır.

Biz belə bir ölkəyə çevrilə bilmərik ki, Azərbaycana hər şey xaricdən gəlsin. Azərbaycan böyük sənaye, istehsal potensialına malikdir. Azərbaycanın çox zəngin kənd təsərrüfatı imkanları vardır. Bunlar hamısı istehsalın inkişafı üçün gözəl əsas yaradır. Ölkəmizdə istehsalla məşğul olmaq üçün çox hazırlıqlı kadrlar - mühəndislər, texniklər, müxtəlif mütəxəs[431-432]sislər vardır. Bunlar hamısı istehsala qoşulmalı, cəlb olunmalıdır. Biz istehsalı inkişaf etdirməliyik. Əgər biz bütün iqtisadiyyatımızı bundan sonra yalnız ticarət üzərində qursaq, - bunun da əsasını idxal təşkil edəcəkdir, Azərbaycana idxal vasitəsilə gələn mallar ölkəmizin ticarət şəbəkələrində satılacaqdır, - bizim respublikamız, xalqımız inkişaf edə bilməz. Bunu dərk etmək lazımdır.

Özəlləşdirmə, sahibkarlığın inkişaf etdirilməsi, bununla yanaşı Azərbaycanda istehsal prosesinin inkişafı bizim strateji yolumuzdur. Biz bu yolla 1999-cu ilə getməliyik və nəzərdə tutulmuş büdcənin həyata keçirilməsini bu yolla təmin etməliyik.

Neft məhsullarının qiymətinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərməsi barədə bu gün burada çox danışıldı. Bu həqiqətdir. Ancaq biz heç vaxt Azərbaycanın iqtisadiyyatını yalnız neftlə bağlamamışıq. Neft sənayesi Azərbaycan iqtisadiyyatının həmişə mühüm bir sahəsi olubdur. Biz xoşbəxtik ki, Azərbaycanın təbii sərvətləri, neft-qaz yataqları vardır və bunlardan bu gün də, gələcək illərdə də xalqımızın rifahı, ölkəmizin iqtisadi inkişafı üçün istifadə ediləcəkdir. Bu, bizim ölkəmizin üstünlüyüdür.

Ancaq bəziləri deməyə söz tapmırlar. Çünki, axı bu rəqəmlər göz qabağındadır ki, Azərbaycanda artıq tənəzzülün qarşısı alınıb, inkişaf var, respublikamızda ümumi daxili məhsulun həcmi artıbdır. Bu göstəriciləri burada dedilər, mən də bu barədə danışdım. Amma bilin ki, on ayın yekunlarına görə ölkəmizin iqtisadi göstəriciləri MDB-nin üzvü olan bütün ölkələrin iqtisadi göstəricilərindən üstündür, birinci yerdədir.

Biz heç vaxt öyünmürük. Şəxsən mən hesab etmirəm ki, biz bununla öyünməliyik, yaxud da fikirləşməliyik ki, çox iş görmüşük. Yox. Bunlarla yanaşı, bizim ağır sosial-iqtisadi problemlərimiz vardır. Biz onları həll etmək üçün yəqin hələ bir neçə il iqtisadiyyatımızı bundan da sürətlə inkişaf [432-433] etdirməliyik. Ancaq bu göstəricilər də real faktlardır. Onları görməmək, inkar etmək, sadəcə, öz ölkənə, vətəninə düşmənçilik etmək deməkdir.

Bəziləri bir sözü tez-tez işlədirlər ki, Azərbaycanın iqtisadiyyatını təkcə neftlə bağlamaq olmaz. Bunu neftlə kim bağlayıbdır? Bəlkə də bəzi adamların - hansılar ki, neft sənayesini inkişaf etdirməyib, lakin neftin qanunsuz yolla satılmasından çox zənginləşibdir, - onun beynində ancaq neft var, həm də neftin istehsalı deyil, satışı vardır. Amma şəxsən mən hələ 20, 25 il bundan öncə Azərbaycanda neft sənayesinin mövcud olmasına baxmayaraq, respublikamızın bütün sənaye sahələrini inkişaf etdirməyə çalışmışam.

O illərdə işləmiş buradakı adamlar bütün bunları bilirlər. 1970-ci illərin əvvəllərində Azərbaycanda sənaye istehsalının, maşınqayırmanın həcmi çox kiçik idi. Biz bunları götürüb bir neçə başqa respublikaların göstəriciləri ilə müqayisə edirdik. Görürdük ki, onlarda maşınqayırma sənayesi çox inkişaf edibdir. Məlumdur ki, elmi-texniki tərəqqinin əsasını təşkil edən maşınqayırma sənayesidir. Hər halda, o vaxt Sovetlər İttifaqının iqtisadiyyatı, sənayesi bu yolla inkişaf edibdir.

Biz 1970-1980-ci illərdə respublikamızda nə qədər yeni maşınqayırma zavodları, kimya kompleksi, yaxud da yüngül sənaye obyektləri, kənd təsərrüfatı məhsulları emalı sənayesi yaratdıq, Azərbaycanın sənayesini çoxsahəli etdik. Biz bunları hələ 1970-ci illərdə etmişik. İndi Azərbaycanın iqtisadiyyatı haqqında danışanlar o vaxtlar bəlkə orta məktəbə gedirdilər, yaxud da ki, məktəbi təzəcə qurtarmışdılar. Yəni bu, bizim üçün yeni bir şey deyildir. İndi küçədə oturub sənayenin nə olduğunu bilməyən adamlar,

yaxud da gedib başqa ölkələrdə gizlənənlər durub burada dərs vermək istəyirlər ki, Azərbaycanın sənayesini ancaq neftlə bağlamaq olmaz.

Bəzi xarici radiolar da deyirlər ki, «İqtisadiyyat neftlə bağlandığına görə indi, görürsünüz, neftin qiyməti aşağı düşüb, [433-434] bunun üçün də Azərbaycanın sənayesi, iqtisadiyyatı dağılacaqdır». Birincisi, onlar sevinməsinlər, bu heç vaxt olmayacaqdır. Həm Azərbaycanda, həm də respublikamızdan xaricdə olan həmin adamlar qoy sevinməsinlər, tezdir.

Azərbaycanın iqtisadiyyatının bütün sahələri inkişaf etdirilir və inkişaf etdiriləcəkdir. Bu barədə söz deyənlərin hər biri iqtisadiyyatda, o cümlədən sənayedə ancaq diletantdırlar, ondan artıq bir şey deyillər.

Yaxud da şayiə yayırlar ki, bəli, «neftin qiyməti düşür, xarici investorlar artıq Azərbaycandan çıxıb getmək istəyirlər, neft şirkətləri daha Azərbaycana gəlmirlər». Bunu sevinə-sevinə deyirlər. Dəhşət də burasındadır! Bu insanlarda heç milli ruh vardırmı? Bu insanlarda heç vətənpərvərlik hissi vardırmı? Bunu sevinə-sevinə deyirlər. Amma sevinmələri də tezdir, çünki belə şeylər yoxdur.

Mən dekabrın 16-da Amerikadan gəlmiş nümayəndə heyətini qəbul edərkən mətbuat nümayəndələrinin yanında dedim ki, ABŞ-ın «Frontera resorses» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə yeni bir neft müqaviləsi imzaladı. Xəzər dənizində daha bir neçə yataq vardır, onların birgə işlənilməsi üçün məhz Amerika Birləşmiş Ştatlarının, İngiltərənin şirkətləri bizə konkret təkliflər veriblər. Biz indi həmin təkliflərə baxırıq və nəzərdən keçiririk ki, onların hansını qəbul etmək olar. «Britiş Petroleum» və başqa şirkətlərlə yayda böyük bir müqavilə imzalanıbdır. Biz həmin müqaviləni Milli Məclisə göndərmişik. Dekabrın 18-də həmin müqavilə baxılacaq və təsdiq ediləcəkdir. İşlər gedir.

Bilirsiniz ki, bu əsrdə neftin qiyməti bir neçə dəfə qalxıb, bir neçə dəfə də aşağı düşübdür. Bu gün səhər xəbər verdilər ki, İraqda olan hadisələrlə əlaqədar hər bir barrel neftin qiyməti bir dollar artdı. İndi mən bunu da böyük bir hadisə hesab etmirəm. Mənim həmin diletantlara, sadəcə, bir tərəfdən yazığım gəlir, çünki lazımi bir biliyə, bacarığa, [434-435] dərrakəyə sahib olmayaraq böyük işlər haqqında söhbətlər aparırlar. İkinci tərəfdən də onların əksəriyyəti azərbaycanlı olduqlarına görə və Azərbaycan torpağında yaşadıqlarına görə mən, bilirsiniz, elələrinə nifrət edirəm.

Öz şəxsi mənafeyi naminə xalqının, millətinin pis gününü arzulayan adamlardan nə gözləmək olar? Bəli, onların bəziləri orada-burada danışırlar ki, «Bu gün-sabah iqtisadi-sosial vəziyyət pisləşəcək, sosial partlayış olacaq, onda bizim imkanımız olacaq ki, hakimiyyəti əlimizə keçirək». Elə bilirlər halvadır bu! Görün, nəyi arzu edirlər - sosial-iqtisadi vəziyyət ağırlaşsın, xarablaşsın, iqtisadiyyat aşağı düşsün, insanların sosial vəziyyəti pisləşsin və bunların nəticəsində sosial partlayış əmələ gəlsin və bunun nəticəsində də onlar hakimiyyəti ələ keçirsinlər. Milli mənafelərə nə qədər zidd fikirlərdir! Yəni fikirlər deyil, zidd planlardır.

Ancaq bu planların heç biri həyata keçə bilməz. Çünki artıq Azərbaycan inkişaf yolundadır və inkişaf edəcəkdir. İnkişafı da təmin etmək üçün, əgər biz neft haqqında danışırıqsa - mən bu gün şirkətin prezidenti Natiq Əliyev çıxış edərkən dedim, - Dövlət Neft Şirkətinin işində də çox ciddi nöqsanlar var. Biz böyük-böyük müqavilələrin bağlanmasına görə Dövlət Neft Şirkətinin işini müsbət qiymətləndiririk. Dünyanın böyük şirkətləri ilə görülən işlərə görə qiymətləndiririk. Bəli, indi Bakı-Supsa neft kəməri tikilir, «Çıraq» yatağından neft çıxır. Artıq o neft kəmərinə neft dolur və güman edirəm ki, Azərbaycanın «Çıraq» yatağından çıxan neft aprel ayında Qara dənizin Supsa limanında tankerlərə doldurulacaqdır. Bu da bir tarixi hadisə olacaqdır. Bunlar hamısı 1994-cü ilin sentyabr ayından indiyə qədər ilk müqavilənin həyata keçirilməsi nəticəsində görülən işlərdir.

Bakı-Ceyhan neft kəməri haqqında da Azərbaycan dövlətinin fikri dəyişməzdir. Biz onu da həyata keçirəcəyik. [435-436]

Bunlar bizim bu sahədə gördüyümüz müsbət işlərdir. Ancaq bununla yanaşı, Dövlət Neft Şirkətinin işində olan nöqsanları bu müsbət işlərin kölgəsi altında gizlətmək olmaz. Nöqsanlar çoxdur və Dövlət Neft Şirkəti o nöqsanları aradan qaldırmalıdır. İzafi xərclər var. Maliyyə naziri burada dedi, təkcə Dövlət Neft Şirkəti deyil. Dövlət Neft Şirkətidir, «Azəriqaz» Səhmdar Cəmiyyətidir, bir neçə başqa şirkətlərdir. Neft, neft məhsulları verirlər, özləri üçün lazım olmayan, yaxud da baha qiymətə cürbəcür avadanlıqlar alırlar, bu avadanlıqlar da anbarlarda yatır. Beləliklə, dövlətə zərər vururlar. Belə şeylərə yol vermək olmaz.

Neft məhsullarının həm xaricə, həm də daxilə satılmasında da, - Natiq Əliyev burada çıxış edərkən dedim, - ciddi nöqsanlar var.Bu barədə öz fikrimi bir də demək istəmirəm. Mən təsəvvür etmirəm ki, Azərbaycan kimi böyük neft ölkəsinə xaricdən neft məhsulları gətirib satsınlar. Birincisi, biz öz daxili bazarımızı qorumaq üçün buna yol verməməliyik. İkincisi də, mən hesab edirəm ki, bu, sadəcə qurma bir şeydir. Ola bilər, buraya az bir miqdarda neft gətiriblər. Amma onun hesabına, daxildə olan nefti fırıldaq edib satırlar. Məlumdur ki, daxili bazarda neftin qiyməti ilə xaricə satılan neft məhsullarının qiymətində fərq var. Neft şirkətinin rəhbərliyi və o cümlədən Natiq Əliyev bunu yaxşı bilir. Ona görə bu nöqsanlar aradan qaldırılmalıdır.

Mən Baş nazirə göstəriş vermişəm və Azərbaycanda, ümumiyyətlə, neft məhsullarının istifadə olunması, həm xaricdə, həm daxili bazarda satılması ilə əlaqədar bütün məsələlər qısa bir zamanda araşdırılmalı və mənə təqdim olunmalıdır. Lazımi tədbirlər görülməlidir. Bilirsiniz, ton demirəm, hər bir kiloqram neftin çıxarılmasına nə qədər böyük zəhmət qoyulur, nə qədər vəsait, xərc qoyuruq.

Azərbaycanın quru hissəsində neftin çıxarılması ölkəyə nə qədər baha oturur. Bunu neftçilər yaxşı bilirlər. [436-437]

Amma biz bunu təmin edirik, çünki neft lazımdır. Neftin maya dəyəri də o qədər əlverişli deyildir. Neft buruqlarında, mədənlərində çoxlu neftçi işləyir. Belə olan halda ayrı-ayrı qruplara, şəxslərə imkan vermək olarmı ki, bu çətinliklə hasil edilən kiminsə şəxsi məqsədləri üçün istifadə olunsun? İndiyə qədər olunub, ona görə də bəzi adamlar zənginləşib, gedib xarici ölkələrdə oturub indi cürbəcür təxribat işləri ilə məşğul olurlar. Ancaq bundan sonra buna yol vermək olmaz və Dövlət Neft Şirkəti bu barədə lazımi tədbirlər görməlidir.

«Azərenerji» Səhmdar Cəmiyyəti barədə. Bu gün Müslüm İmanov danışarkən mən öz sözümü dedim. Bizim bu böyük energetika kompleksimizdə ziddiyyətli bir vəziyyət yaranmışdır. Bir tərəfdən bu, bizim böyük milli sərvətimizdir ki, vaxtilə biz Azərbaycanı elektrik enerjisi ilə yetərli qədər təmin edə bilən elektrik stansiyaları yaratmışıq və indiyə qədər işlədirik. Bu, Azərbaycan xalqının, Azərbaycan dövlətinin milli sərvətidir. Biz bunu vaxtilə yaratmışıq.

Amma ikinci tərəfdən - bu gün bunu demək lazımdır – həmin elektrik stansiyaları get-gedə öz gücünü itirir, onlar təmir olunmalıdır, müəyyən profilaktika işləri aparılmalıdır, müəyyən qədər modernləşdirilməlidir. Bunun üçün də gərək «Azərenerji» Səhmdar Cəmiyyəti çox səmərəli iş görsün. Təəssüflər olsun ki, bu işi görə bilmir. Müslüm İmanov bilməlidir ki, bu sahədə onun təcrübəsi böyükdür, biz bunu qiymətləndiririk. Müslüm İmanov yadından çıxarmamalıdır ki, onu bu vəzifədən çıxarıb eşiyə atmışdılar. 1993-cü ildə biz onu vəzifəyə bərpa elədik. Ancaq bu o demək deyil ki, biz Müslüm İmanovun bütün səhvlərinə, bütün nöqsanlarına dözəcəyik. Bu, ola bilməz. Müslüm İmanov özü üçün nəticə çıxarmalıdır. Artıq birinci dəfə deyil mən onu tənqid edirəm. Mən burada olan problemləri bilirəm. O problemlərin həll olunması üçün lazımi, konkret əməli təkliflər irəli sürməlidirlər. Hər dəfə bu problemlərdən şikayət etmək və bununla canını qurtarmaq olmaz. [437-438]

Bir tərəfdən, bu problemlərin həll olunması üçün lazımi işlər görülmür. İkinci tərəfdən də, gələn siqnallar onu göstərir ki, «Azərenerji» sistemində də dövlət əmlakını mənimsəyənlər və dövlətə zərər vuranlar az deyildir. Biz külli miqdarda mazut istehsal edir, elektrik stansiyalarına veririk. «Azərenerji» onun pulunu da Dövlət Neft Şirkətinə verə bilmir. Nəticədə elektrik enerjisi istehsal edir, onu müəssisələrə, əhaliyə veririk, bunun pulunu da yığa bilmirlər. Bu, bir bəladır. Amma ikinci bəla da odur ki, gələn siqnallarda deyilir ki, mazutu oğurlayırlar, satırlar, bundan da sui-istifadə edirlər.

Bu təşkilatda başqa bu cür mənfi hallar da var və bu barədə siqnallar gəlir. Nazirlər Kabineti «Azərenerji» ilə çox ciddi məşğul olmalıdır. Mən bilirəm ki, məsələlərin hamısını bir dəfəyə həll etmək mümkün deyildir. Ancaq burada konkret bir proqram olmalıdır. Bu proqram təkcə «Azərenerji»nin özü üçün yox, «Azərenerji» ilə bağlı olan birinci növbədə bütün Azərbaycan sənaye müəssisələri üçün olmalıdır. Bu proqramı da biz həyata keçirməliyik.

Biz gərək bir tərəfdən elektrik stansiyalarının yaşaması və gələcəkdə fəaliyyət göstərməsi üçün lazımi tədbirlər görək ki, enerji potensialımız azalmasın, artsın. İkinci tərəfdən isə, gərək çox mürəkkəb maliyyə məsələlərinin həll olunmasının yolunu tapaq. Bununla yanaşı, «Azərenerji»də qanun-qayda, nizam-intizam yaratmaq, orada dövlət malını mənimsəyənləri təmizləmək, qovmaq lazımdır. Bu yolla biz işi lazımi səviyyəyə gətirib çıxara bilərik.

Elektrik enerjisindən istifadə haqqını yığa bilmirlər. Bir ona görə yox ki, ayrı-ayrı özəl təşkilatlardan, yaxud da ayrı-ayrı vətəndaşlardan bunu ala bilmirlər. Bu da var. Amma gələn siqnallar onu göstərir ki, həm «Azərenerji» sistemində, həm də BABEŞ sistemində yığılan pulları da mənimsəyirlər, dövlətə gəlmir. Bunlar ictimaiyyətə artıq məlumdur, bunlara [438-439] göz yummaq olmaz. Mən burada bunları açıq deyirəm, ona görə ki, belə mənfi halları aradan qaldırmaq və eyni zamanda ictimaiyyəti də bu işə cəlb etmək lazımdır.

Müslüm İmanov bəyan edir ki, Azərbaycanın hər yerini elektrik enerjisi ilə təmin etmək üçün lazımi qədər enerji istehsal olunur. Kağız üzərində belədir. Həqiqətən də bizim buna imkanımız var. Ancaq indi burada Lənkəran İcra Hakimiyyətinin başçısı da dedi, bir neçə gün bundan öncə televiziya ilə Astaranı göstərirdilər, deyirlər ki, sutka ərzində enerjini əlli dəfə kəsirlər. Başqa yerlərdən də deyirlər. Bunlara son qoyulmalıdır. Bunun «Azərenerji»dən asılı olmayan bəzi səbəblərini mən bilirəm - harada ki, elektrik enerjisinin gücündən artıq istifadə etməyə başlayırlar, orada transformatorlar dözmür.

Mən Naxçıvanda yaşayarkən, işləyərkən bunların hamısını görmüşəm. Orada bizim elektrik enerjimiz onsuz da çox az idi. Əvvəllər heç yox idi, sonra Türkiyədən, İrandan bir xətt çəkdirdik. 20 meqavat da Araz su elektrik stansiyasından götürülürdü. Amma Naxçıvanın tələbatı böyük idi. Qış vaxtı, özü də şaxtalı qış vaxtı başqa yanacaq yox idi, ona görə harada mümkündürsə, gətirib qızdırıcı cihazlar qoşurdular. Transformatorlar şəhərin orasında partlayırdı, burasında partlayırdı. Mən bunların hamısını yaşamışam - ya bizdə elektrik enerjisi olmurdu, ya da bir saat olur, bir saatdan sonra hamısı sönürdü. Nə oldu? Filan yerdə transformator partladı. İşıq keçirdi. Onu bərpa etmək bir saat, iki saat çəkirdi. Biz nə qədər əziyyətlə oradan-buradan transformator alıb gətirirdik.

Bunları mən görmüşəm və düşünürəm ki, indi belə hallar Azərbaycanın ayrı-ayrı bölgələrində yəqin ki, var. Ona görə də yerli icra hakimiyyəti orqanları bir tərəfdən elektrik enerjisini tələb etməlidirlər, amma

ikinci tərəfdən elektrik xətlərinə nəzarət etməli, transformator stansiyalarına baxma[439-440]lı, lazımi qayğı göstərməlidirlər. Bu, hamının işidir. Əgər rayon, şəhər istəyirsə ki, lazımi səviyyədə, yaxud sabit, daimi elektrik enerjisi olsun, gərək bunu özünün bir nömrəli vəzifəsi hesab etsin.

«Azərenerji» və Müslüm İmanov bütün bu tənqidlərdən nəticə çıxarmalı və nöqsanları aradan qaldırmalıdırlar. Elektrik enerjisindən istifadə pullarının yığılması isə hamının işidir.

Bizim bu müzakirəyə Azərbaycanın bütün yerli icra hakimiyyətinin başçıları dəvət olunublar. Səbəb də ondan ibarətdir ki, birincisi, hər bir rayon, şəhər icra hakimiyyəti orqanı və onun başçısı büdcəni bilməli və büdcənin həyata keçirilməsini özünün əsas vəzifəsi hesab etməlidir. İkincisi, ona görə ki, büdcənin həyata keçirilməsi üçün yerli hakimiyyət orqanlarının üzərinə çox böyük vəzifələr düşür.

Mən Vergi Müfəttişliyinin işi haqqında, indi də «Azərenerji»nin işi haqqında danışdım. Orada da, burada da bizim üçün əsas problemlər verginin, istifadə edilən elektrik enerjisi haqqının yığılmamasıdır. Bu iki vacib məsələnin həll olunması və bu mənbələrdən Azərbaycanın büdcəsinə nəzərdə tutulan gəlirlərin gəlməsi üçün yerli hakimiyyət orqanları və xüsusən icra hakimiyyətinin başçıları birbaşa cavabdehdirlər.

Hər bir rayonda vergi müfəttişliyi var. Rayon icra hakimiyyətinin başçısı vergi müfəttişliyindən öz şəxsi məqsədləri üçün istifadə etməməlidir. Təəssüflər olsun ki, belə hallar da var. Ümumiyyətlə, rayonda vergi müfəttişliyi ən mühüm orqanlardan biridir. Mən artıq bu orqanın əhəmiyyəti haqqında demişəm və indi yerli hakimiyyət orqanlarının vəzifəsi haqqında deyirəm. Vergi müfəttişliyinə öz vəzifələrini yerinə yetirmək üçün kömək etmək lazımdır. Demək, bütün vergilərin yığılmasına kömək etmək, ona nəzarət etmək lazımdır. Təəssüf olsun ki, bəzi yerlərdə icra hakimiyyəti başçıları vergi müfəttişliyini özünün bir mənfəət mənbəyi kimi [440-441] görürlər. Onları vergi müfəttişliyinin vergiləri nə qədər yığıb-yığmaması maraqlandırmır. Bəzilərini maraqlandırır ki, onun oğurladığı pullardan buna nə qədər çatacaqdır. Bəlkə buradakı icra hakimiyyəti başçıları üçün bü sözlər çox ağırdır, amma mən bunları sizin üzünüzə baxaraq deyirəm. Çünki belə faktlar var.

Mən bəyan edirəm ki, yerli hakimiyyət orqanları, icra hakimiyyəti başçıları vergi yığılması ilə gərək ciddi məşğul olsunlar. Eyni zamanda tələb edirəm ki, hər bir rayonun xüsusən qış mövsümündə elektrik enerjisi ilə, harada ki, qaz var, qazla təmin olunmasına ciddi nəzarət etsinlər, bütün elektrik şəbəkəsinin normal işləməsini daim nəzarət altında saxlasınlar, lazımi kömək göstərsinlər, eyni zamanda enerjidən istifadə haqlarının yığılıb dövlətə verilməsini təmin etsinlər.

Mən yenə də keçmişdə Naxçıvanda elektrik enerjisi ilə bağlı olan çətinlikləri yadıma salıram. O vaxt bizdə bu enerjidən az-çox istifadə eləyəndə, transformatorlar partlayanda, - bəzən transformator yox, xətlər sıradan çıxırdı, o illərdə belə bir azar da var idi ki, bəziləri xətləri kəsir, aparıb haradasa satırdılar, belə şeylər də olurdu, - biz heç vaxt «Azərenerji»ni Naxçıvana dəvət etmirdik. Demirdik ki, gəl bu transformatoru düzəlt, xətləri düzəlt. Bizim bu imkanımız yox idi, hər şeyi özümüz edirdik. Hər bir şəhərdə, hər bir rayonda icra hakimiyyəti başçıları bunları özləri etməlidirlər. Yoxsa, siz oturasınız rayonun başında, hesab edəsiniz ki, elektrik enerjisi gəlmədi, mən şikayət edəcəyəm ki, «Azərenerji» günahkardır. Onun günahı var, amma sizin də günahınız var. Güman edirəm, siz mənim bu tələblərimi anlayırsınız və bunları yerinə yetirəcəksiniz.

Bu gün burada «Azəriqaz»ın rəhbəri, «Azərikimya» Şirkətinin rəhbəri də çıxış etməli idi. Bilirəm, onlar çıxış etmək istəyirdilər və buraya yazı göndərmişdilər. Ancaq vaxt [441-442] olmadı, mən onlara söz verə bilmədim. Ancaq bildirmək istəyirəm ki, bizim «Azəriqaz» Səhmdar Cəmiyyətində işlər heç düzəlmir. Heç düzəlmir. Əvvəl, bir neçə il bir nəfər işləyirdi. Pis işləyirdi, onu işdən kənarlaşdırdıq. Sonra neft sənayesindən bir şəxsi, - familiyası yadımdan çıxıb, - gətirdik, təyin etdik. İşə başlamamış öz iş kabinetini təmir etdirdi, 1 milyard manat da o kabinetdə, nə bilim, güllü parketlərə və sairəyə sərf elədi. Baş nazir gəlib mənə təqdimat verdi, bunu da işdən çıxartdıq.

İndi yeni adam təyin olunmayıb, orada müavin var – Camalov, o icra edir. Amma müavin hələ təyin olunmamış vəzifəsindən sui-istifadə edir: lazım olmayan borular alıb cürbəcür barter edir, avtomobil alır. Təsəvvür edin, bu vəzifəni hələ icra edir, prezident də deyil. İndidən belə edirsə, prezident qoysan, gör nə eləyəcəkdir. İnsanlar nə üçün özlərinə nəticə çıxarmırlar, -bilmirəm. Mən Nazirlər Kabinetindən, Baş nazirdən tələb edirəm ki, bu məsələləri araşdırsınlar və lazımi tədbirlər görsünlər.

«Azərikimya» haqqında. Fikrət Sadıqov bizim təcrübəli mütəxəssislərimizdəndir, böyük bir kompleksin başında durur. Ancaq iş bundadır ki, əgər «Azərikimya»nın 1,5 trilyon manat borcu, - mən belə başa düşdüm ki, «Azərenerji»yə borcu var, elədir, ya yox, - varsa, nə təhər işləyə bilər? Bir belə elektrik enerjisi alır, amma məhsul vermir. Mən indi bunu təhlil etmək istəmirəm və imkanım da yoxdur. Amma hesab edirəm ki, Nazirlər Kabineti Fikrət Sadıqovla birlikdə oturub düşünməlidir: Bizim bu böyüklükdə kimya kompleksinə nə qədər vəsait qoyuruq və oradan nə götürürük.

Biz xarici kreditləri cəlb edirik. Yaponiyadan kredit almışıq, etilen istehsalını təmin etmək istəyirik. 90 milyon dollara qədər kredit alırıq, onu sonra qaytarmalıyıq. Baxmaq lazımdır ki, bu işlər necə gedir. [442-443]

Mən dedim ki, biz energetika sistemini inkişaf etdirməliyik. Yenikənd su elektrik stansiyası tikirik. Biz 90 milyon dollar kredit almışıq. Keçən dəfə mən tənqid etmişdim ki, o kreditdən istifadə olunmasında çox ciddi nöqsanlar buraxılmışdır. İmanov da, Həmidov da, Baş nazirin müavini Şərifov da bunda

günahkardırlar. Amma indi diqqət etmək lazımdır ki, belə şeylər olmasın. Bir azdan sonra yenə bir şey meydana çıxacaq, biz kimisə işdən çıxaracağıq, amma vəsaitimiz əldən gedəcəkdir.

Bir neçə gün bundan öncə mən razılıq verdim, dövlət təminatı vermişik ki, 50 milyon dollar kredit alaq, 1 nömrəli istilik-elektrik mərkəzində tikinti aparaq.Yəni biz dövlətin imkanlarından istifadə edirik ki, bu sahələri inkişaf etdirək. Ancaq bunların hamısından səmərəli istifadə olunmalı və əyintiyə yol verilməməlidir.

Bütün işlərimizin hamısının lazımi səviyyədə həyata keçirilməsi üçün biz qanun-qaydanı, nizam-intizamı möhkəmləndirməli, vəzifəli şəxslərin məsuliyyətini artırmalıyıq. Dövlət, hökumət işində işləyən hər bir şəxs bilməlidir ki, böyük məsuliyyət daşıyır və birinci növbədə öz vəzifəsini sağlam mənəviyyatla yerinə yetirməlidir. Kimsə bunu bacarmırsa, yaxud bu tələblərə uyğunlaşa bilmirsə, - indi ölkədə sərbəstlikdir, gedib başqa bir yerdə işləyə bilər. Ancaq dövlət işində işləyib vəzifəsindən sui-istifadə etmək hallarına biz dözə bilmərik.

Biz korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək üçün əlavə tədbirlər görməliyik. Bu barədə proqram hazırlanıbdır. Mən tələb etmişəm və deyiblər ki, bu günlərdə mənə təqdim olunacaqdır. Biz bu proqrama baxmalıyıq, qəbul etməliyik. Əsası da bundan ibarətdir ki, onu əməli surətdə həyata keçirməliyik. Mən çıxışımın ortasında dedim, korrupsiya Azərbaycanda bizə çox zərər vurur. Korrupsiya [443-444] ilə mübarizə bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir və gələcəkdə də biri olacaqdır.

Təqdim edilən büdcə layihəsini təsdiq olunandan sonra həyata keçirmək üçün çox ciddi tədbirlər görmək lazımdır. Mən qeyd etdim, - bəlkə bəzi qanunlarda dəyişiklik etmək lazımdır və mənim bir neçə fərmanlar, sərəncamlar vermək fikrim var. mən bu barədə göstəriş vermişəm, layihələr hazırlanır. Büdcə təsdiq edilən kimi o sənədlər imzalanacaq və qanunlarda dəyişiklik aparmaq üçün lazımi təkliflər Milli Məclisə təqdim olunacaqdır.

Bütün bunları qeyd edərək, mən eyni zamanda hesab edirəm ki, 1999-cu ilin büdcəsi tam realdır və biz bu büdcəni uğurla həyata keçirə bilərik.

Dünyada gedən müxtəlif proseslərə baxmayaraq, Rusiyada olan maliyyə böhranına baxmayaraq, ola bilər, biz gələcəkdə nə iləsə rastlaşaq, - onlara baxmayaraq, hesab edirəm ki, bizim ardıcıl, məqsədyönlü, düşünülmüş iqtisadi siyasətimiz və xüsusən iqtisadi islahatları ardıcıl surətdə həyata keçirməyimiz Azərbaycanın sosial-iqtisadi inkişafını təmin edəcəkdir. Mən gələcəyə çox nikbinliklə baxıram, hesab edirəm ki, biz aybaay yeni nailiyyətlər əldə edə bilərik. Bunun üçün hamımız daha da yaxşı işləməliyik.

Nazirlər Kabineti bu büdcənin təsdiq olunması zamanı və xüsusən təsdiq ediləndən sonra lazımi əməli tədbirlər həyata keçirməlidir. Hər bir nazirlikdə, şirkətdə, konserndə, hər bir rayonda, şəhərdə büdcənin əməli surətdə həyata keçirilməsi üçün konkret tədbirlər hazırlanıb tətbiq olunmalıdır.

Mən yenə də yerli hakimiyyət orqanlarına müraciət edərək deyirəm ki, keçən dövrlərə nisbətən onların vəzifəsi indi müəyyən qədər dəyişibdir. Keçən illərdə yerli orqanların başçılarından, rayon, şəhər başçılarından planların, - sənaye planı, kənd təsərrüfatı planı, başqa planlar, - yerinə yetirilməsi tələb olunurdu. İndi özəl sektor inkişaf edir, onlar [444-445] üçün plan yoxdur. Dövlət nöqteyi-nəzərindən bizim əsas planımız büdcədir, büdcənin həyata keçirilməsi, vergilərin yığılması və dövlətə daxil ola biləcək bütün gəlirlərin təmin edilməsidir. Bunlar yerli hakimiyyət orqanlarının əsas vəzifəsidir. Arzu edərdim ki, 1999-cu ildə yerli hakimiyyət orqanlarında iş üslubunda, iş istiqamətində müasir tələblərə uyğun olaraq lazımi dəyişikliklər həyata keçirilsin.

Beləliklə, mən bu gün müzakirənin nəticəsi olaraq hesab edirəm ki, Azərbaycanın 1999-cu il üçün müəyyən olunmuş büdcəsi Milli Məclisdə baxıla bilər. O, dərhal Milli Məclisə təqdim olunacaqdır. Biz isə bu büdcənin həyata keçirilməsi üçün lazımi hazırlıq işləri aparmalıyıq.

1998-ci il sona çatır, biz bu ilin son günlərini yaşayırıq. Məmnuniyyət hissi ilə demək olar ki, 1998-ci il Azərbaycan xalqı üçün uğurlu il olubdur. 1998-ci ildə görülən işlər və əldə edilən nailiyyətlər Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı üçün yaxşı bir mərhələ olubdur. Bunun əsasında bizim uğurla irəliyə getməyə imkanlarımız var və bu yolda sizin hamınıza müvəffəqiyyətlər arzulayıram. Sağ olun. [445]

## AZƏRBAYCAN UŞAQ ŞAHMATÇILARINA DÖVLƏT QAYĞISININ ARTIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimov son illərdə dövlətimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil etmiş və yüksək nəticələr əldə etmişlər.

Bu müddət ərzində Teymur Rəcəbov üçqat Avropa çempionu, dünya çempionatlarının bürünc, gümüş və qızıl mükafatçısı olmuşdur. Vüqar Həşimov Avropa çempionatlarında iki dəfə gümüş medala, dünya çempionatlarında gümüş mükafata və fəxri yerə layiq görülmüşdür. Hər iki şahmatçı artıq 1996-cı ildə FİDE ustaları olmuşlar.

Azərbaycan Respublikası prezidentinin «Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında» 22 fevral 1998-ci il tarixli sərəncamı bu iki gənc şahmatçı üçün hazırlanmış xüsusi proqramın - müasir kompüter və kompüter proqramı, şahmat ədəbiyyatı və məcmuələr almaq, dünya şöhrətli mütəxəssislərin açıq dərslərində iştirak etmək, beynəlxalq turnirlərə, Avropa və dünya çempionatlarına yüksək səviyyədə hazırlaşmaq üçün xarici dövlətlərdə təlim-məşq toplanışları keçirmək və sairənin tam şəkildə həyata keçirilməsini təmin etmişdir. Teymur Rəcəbov və Vüqar Həşimov Avropa, dünya çempionatlarında mühüm qələbələr qazanmış, beynəlxalq usta balı normalarını yerinə yetirərək şahmat üzrə dünyanın ən gənc beynəlxalq ustaları olmuşlar.

1998-ci ilin yekunlarına görə Beynəlxalq Şahmat Federasiyasının reytinq-siyahısında Teymur Rəcəbov və Vüqar Həşimovla yanaşı, gənc şahmatçılarımız Qədir Hüseynov [446-447] və Rauf Məmmədov da öz yaş qruplarında lider mövqelərini əldə etmişlər.

FİDE ustası Qədir Hüseynov Avropa çempionatlarında qızıl, gümüş və bürünc medallara, dünya çempionatında isə bürünc medala layiq görülmüşdür. On yaşlı Rauf Məmmədov Avropa və dünya çempionatlarında stabil nəticə göstərərək mükafata layiq yerləri bölüşdürmüşdür. Məhz bu gənc şahmatçıların səyləri nəticəsində Azərbaycanın yığma komandası 1998-ci ilin noyabrında İspaniyada 85 ölkənin iştirakı ilə keçirilmiş dünya çempionatında dördüncü yeri tutmuşdur.

Azərbaycanın gənc şahmatçılarının 1998-ci ilin beynəlxalq yarışlarında əldə etdikləri yüksək nəticələri respublikada şahmatın inkişafı yolunda mühüm mərhələ sayaraq, onların öz ustalıqlarını daha da artırmasını və beynəlxalq yarışlarda iştirakını lazımi səviyyədə təmin etmək məqsədi ilə qərara alıram:

1.İstedadlı Azərbaycan şahmatçıları Teymur Rəcəbov, Vüqar Həşimov, Qədir Hüseynov və Rauf Məmmədovun xüsusi hazırlıq proqramlarının 1999-cu ildə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası dövlət büdcəsinin ehtiyat fondundan 160 (yüz altmış) milyon manat (hər şahmatçıya 40 milyon manat/) məbləğində vəsait ayrılsın.

2.Gənclər və İdman Nazirliyinə və Təhsil Nazirliyinə tapşırılsın ki, Azərbaycan Şahmat Federasiyası ilə birlikdə respublikada uşaq şahmatının inkişafı üçün lazımi tədbirlər planı hazırlayıb həyata keçirsinlər.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 dekabr 1998-ci il*
[447]

# ÖZBƏKİSTANDAN RƏSMİ SƏFƏRDƏN QAYIDARKƏN BAKIDA MOLDOVA PREZİDENTİ PETRU LUÇİNSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Azərbaycan Prezidentinin Şəhərkənarı iqamətgahı*

*18 dekabr 1998-ci il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli Petru Luçinski, Sizi səmimi qəlbdən salamlayıram. Özbəkistandan rəsmi səfərdən qayıdarkən yolüstü Bakıya gəlməyinizdən çox razı qaldığımı bildirirəm.

**P e t r u  L u ç i n s k i**: Cənab prezident, Sizinlə, Azərbaycan Respublikasının rəhbəri ilə hər bir görüşümdən məmnun olduğumu nəzərə çarpdırıram. Qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Oktyabrın 11-də demokratik qaydada yüksək səviyyədə keçirilmiş seçkilərdə yenidən respublikanın prezidenti seçilməyiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm. Qarşıdakı işlərinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

Özbəkistanda rəsmi səfərdə olarkən ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsində, bir çox ölkələrin qarşılaşdığı ciddi problemlərin aradan qaldırılmasında həm Özbəkistanın, həm də Moldovanın mühüm rol oynayacağına əmin olduğumuzu bildirdik. Keçirdiyim görüşləri, apardığım danışıqları ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imzalanan sənədləri yüksək qiymətləndirirəm. [448-449]

Moldovanın Azərbaycanla da tarixi köklərə malik dostluq münasibətlərinin gündən-günə yaxşılaşmasını böyük razılıq hissi ilə bildirirəm. Moldova Azərbaycanla bütün sahələrdə sıx əməkdaşlıq etməyə böyük maraq göstərir.

Qədim İpək yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində bu il sentyabrın 7-8-də Bakıda keçirilmiş beynəlxalq konfransda iştirak etməyimdən çox razı qaldığımı vurğulayıram. Əmin olduğumu bildirirəm ki, məhz Siz, Azərbaycan prezidenti Heydər Əliyev apardığınız müdrik və uzaqgörən siyasət sayəsində Avropa-Qafqaz-Asiya dəhlizi dünya ölkələrinin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsində əvəzsiz xidmət göstərəcəksiniz.

**H e y d ə r  Ə l i y e v**: Gənc müstəqil dövlətlər kimi dünya birliyində artıq özünəməxsus yer tutmuş Azərbaycan ilə Moldova arasında əlaqələrin daha da möhkəmləndirilməsinin vacib olduğunu bildirirəm. Avropa ilə Asiya qitələrinin nəqliyyat və başqa vasitələri inteqrasiyasının inkişafında əvəzsiz rola malik Qədim İpək yolunun bərpası üzrə Bakı konfransında Sizin yaxından iştirak etməyinizdən razı qaldığımı bildirirəm.

Bazar münasibətləri yolunu seçən, demokratik, hüquqi, dünyəvi dövlət quran müstəqil Azərbaycan dünya ölkələri ilə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa daim xüsusi diqqət yetirir. Azərbaycan - Moldova münasibətlərinin gündən-günə inkişaf etməsinin hər iki tərəf üçün çox əhəmiyyətli olduğunu vurğulamaq istəyirəm.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün bir sıra ölkələrin nüfuzlu şirkətləri ilə ARDNŞ arasında bağlanmış tarixi əhəmiyyətli müqavilələri yüksək qiymətləndirirəm. Bu yataqlardan hasil olunan nefti dünya bazarına çıxaracaq kəmərlərin marşrutları barədə biz Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq.

Əmin olduğumu bildirirəm ki, bizim respublikalarımız - həm Azərbaycan, həm də Moldova MDB daxilində əməkdaş[449-450]lığı sahəsində qarşıya çıxan problemlərin aradan qaldırılmasında mühüm rol oynayacaqlar.

ATƏT, Avropa Şurası, ümumiyyətlə beynəlxalq təşkilatlar ilə ölkələrimizin münasibətlərinin daha da canlandırılmasını zəruri hesab edirəm.

**P e t r u  L u ç i n s k i**: 1997-ci ilin oktyabrında Strasburqda Azərbaycan, Moldova, Ukrayna, Gürcüstan rəhbərləri arasında sıx əməkdaşlıq haqqında əldə edilmiş razılığı xüsusi vurğulamaq istəyirəm və bu sazişi yüksək qiymətləndirirəm. GUAM təşkilatı çərçivəsində əlaqələrin daha da möhkəmləndirilməsinin böyük əhəmiyyət daşıdığını bildirirəm.

**H e y d ə r  Ə l i y e v**: Ermənistanın Azərbaycana təcavüzünün gənc müstəqil respublikamız üçün nə qədər ağrılı problem olduğunu dəfələrlə bildirmişəm. Müharibə xalqımı dözülməz vəziyyətə salmış, Azərbaycan xalqına çox böyük maddi ziyan vurulmuşdur. Eyni zamanda respublikada iqtisadi və siyasi islahatların həyata keçirilməsinə də mane olur.

**P e t r u  L u ç i n s k i**: Bu gün təkcə Azərbaycanda deyil, dünyanın digər qaynar nöqtələrində də qan tökülür. Dnestryanı bölgədə də sülhün, əmin-amanlığın bərpa edilməsinə nail olmaq üçün bütün səylərimizdən istifadə etməliyik. Hər iki müstəqil ölkədə hüquqi, demokratik dövlət quruculuğu, sosial-iqtisadi inkişaf üçün çox böyük çətinliklər yaradan bu problemlərin Azərbaycanın və Moldovanın milli mənafelərinə uyğun olaraq, sülh yolu ilə həll edilməsi son dərəcə vacibdir.

**H e y d ə r Ə l i y e v**: Moldova ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə də görüşmək üçün yaranmış hər bir imkandan istifadə edərək, ölkələrimizin münasibətlərinin daha da möhkəmləndirilməsi barədə məsələlərin müzakirəsinə geniş yer ayırmağın vacib olduğunu bildirirəm. [450]

## ŞAİR ZƏLİMXAN YAQUBUN YARADICILIĞINA HƏSR OLUNMUŞ POEZİYA MƏCLİSİ BAŞA ÇATDIQDAN SONRA AZƏRBAYCANIN İNCƏSƏNƏT USTALARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Respublika sarayı*

*19 dekabr 1998-ci il*

Axşamınız xeyir olsun. Mən sevimli şairimiz Zəlimxan Yaqubu orada təbrik etdim. Ancaq bilmirdim ki, siz buradasınız. Sizi bir daha təbrik edirəm. Azərbaycanın gənc, amma çox istedadlı şairi Zəlimxan Yaqubun özünəməxsus şeirləri, özünəməxsus xüsusiyyətləri vardır. Zəlimxan Yaqubun çox da gözəl istedadı var. Biz bunu bu gün bir daha gördük. Bu gün bizim alimlər bunu burada qeyd etdilər.

Şair olmaq üçün, şübhəsiz ki, fitri istedad lazımdır. Ancaq eyni zamanda, şair olmaq üçün vətənə, xalqa, torpağa bağlılıq lazımdır, sevgi-məhəbbət lazımdır və şair olmaq üçün sevgi lazımdır. Həm insanı sevmək lazımdır, həm xalqını sevmək lazımdır, millətini sevmək lazımdır, həm atanı, ananı, babanı, nənəni sevmək lazımdır, həm də ki, gözəl bir qadını da sevmək lazımdır. Şairlərin çoxunu şair edən elə bu sevgi-məhəbbət olubdur. Hər halda bunlar hamısı bizə ədəbiyyatdan, tarixdən məlumdur. İndi mən istəmirəm araşdırım, bizim Zəlimxanın həyatında bu nə cür olubdur.

Hər bir şair Azərbaycan üçün dəyərli bir şəxsiyyətdir. Azərbaycan xalqı bütün tarix boyu şairlərlə zəngin olubdur. Bizim xalqımız başqa xalqlardan elə bununla çox fərqlənir. [451-452] Bizim dahi şairlərimiz, söz ustalarımız həmişə xalqımıza mənəvi qida veriblər, xalqımızı ruhlandırıblar, xalqımızı həvəsləndiriblər, xalqımızı döyüşə həvəsləndiriblər, xalqımızı zəhmətə həvəsləndiriblər, xalqımızı vətəni sevməyə həvəsləndiriblər, şair sözü çox təsirli olur. Şeirlə deyilən sözün təsiri bütün başqa sözlərin hamısından təsirli olur. Ona görə də şair Azərbaycanda həmişə sevilib, şair həmişə hörmətli olubdur. Bu gün də sevilir, bu gün də hörmətlidir.

Fəxr edirik ki,bizim böyük şairlərimiz keçən əsrlərdə də olubdur, XX əsrdə də böyük şairlərimiz olub və bu gün də böyük şairlərimiz vardır. Biz fəxr edirik ki, şairlər nəsli kəsilmir, davam edir. Nəsildən-nəslə keçən bu istedad, bu şair sənəti bizim mədəniyyətimizi, xalqımızın mənəviyyatını həmişə zənginləşdirir. Bu baxımdan Zəlimxan Yaqub bizim bu son illərdə çox üzə çıxmış, xalq tərəfindən sevilmiş və öz şeiri ilə, sözü ilə, öz fəaliyyəti ilə böyük hörmət qazanmış şairdir. Bugünkü şer gecəsi də, poeziya məclisi də bunu bir daha sübut etdi.

Zəlimxan Yaqubun xüsusiyyətlərindən biri də odur ki, onun çox gözəl yaddaşı vardır. Bəli, bu, hər şairə nəsib olmur, hər şairə məxsus deyildir. Şair var ki, çox gözəl şeir yazır, amma onu kağıza yazandan sonra oxuyur. O da günah deyil. O da olmalıdır, bu da olmalıdır. Hərənin bir üslubu vardır. Ancaq Zəlimxanın bu barədə xüsusiyyəti bir də ondan ibarətdir ki, çox gözəl yaddaşı var. Öz yazdığı şerləri də həmişə çox gözəl yadında saxlayıb söyləyir, deyir, oxuyur. Ancaq başqa şairlərin şerlərini də insanlara çox gözəl çatdırır, cəmiyyətə çatdırır. Bunun özü böyük bir məharətdir. Bizim aktyorlarımızın, söz ustalarımızın ən gözəl xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, şairlərimizin yazdığı şeirləri aktyorluq sənətinin xüsusiyyətləri ilə insanlara çatdırırlar. Ancaq Zəlimxan üçün buna ehtiyac yoxdur. Bəlkə də özü yazdığı şerlərin, sözlərin buna o qədər ehtiyacı yoxdur - [452-453] özünün beynindən, özünün qəlbindən, özünün içindən gələn şerləri gözəl bir sənət ustası kimi, söz ustası kimi, gözəl bir aktyor kimi özü də ifadə edir. Bu xüsusiyyət də indiki gecədə aydın göründü.

Bütün bunlarla əlaqədar, hörmətli Zəlimxan, mən səni ürəkdən təbrik edirəm. Sənə yeni yaradıcılıq uğurları arzulayıram. Bu gün səninlə bərabər Azərbaycanın bu gözəl səhnəsində sənin şerlərini və eyni zamanda öz sənətini nümayiş etdirən bizim bütün incəsənət xadimlərinə, xüsusən xalq incəsənətimizi yaşadan aşıqlarımıza təşəkkür edirəm və sizin hamınızı təbrik edirəm. Hamınıza cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

**Zəlimxan Yaqub**: Möhtərəm prezident, icazənizlə, Sizə və bu gün burada iştirak edən bütün əzizlərimizə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edib, bir sözü deməyi özümə borc bilirəm. Bu gün burada olan kollektivlərin hamısına öz təşəkkürümü bildirirəm. Ancaq aşıq sənətinin klassik nümayəndəsi Aşıq Kamandar Borçalıdan gəlibdir. O, sənətin böyük ustadıdır. Məsələn, Azərbaycanda Xan deyiləndə nəyi təsəvvür ediriksə, Borçalıda Kamandar deyiləndə o cür qəbul olunur. Aşıq Kamandarın bu gün burada iştirakı, Sizin burada olmağınız bu məclisi bir neçə qat da təravətli etdi. Çünki Kamandar Borçalının burada bir parçasıdır, klassik dədələrimizin nümayəndəsidir.

**Aşıq Kamandar Əfəndiyev**: Cənab prezident, üzr istəyirəm, mən bu məclisə böyük həvəslə gəldim. Söz vermişdim ki, bu əziz gündə iştirak etməyə gələcəyəm.

**Z ə l i m x a n  Y a q u b**: Cənab prezident, tarixi yaddaşımıza yazılan bütün bu mənzərəyə görə Sizə bir daha təşəkkür edirəm. Bütövlükdə nə arzular etmişik, qoy onların hamısı haqqın dərgahında qəbul olunsun.

**H e y d ə r  Ə l i y e v**: Çox sağ ol. Amma bir fikrimi bildirmək istəyirəm. Sən deyirsən ki, Xan Azərbaycanda [453-454] olduğu kimi, Kamandar da Borçalıdadır. Borçalı diyarı da azərbaycanlılar diyarıdır. Burada, yəni Azərbaycanda yaşayanlar Borçalını heç vaxt ayırmayıblar. Borçalı həmişə bizim qəlbimizdə olubdur. Xalqımızın da qəlbi belədir. Amma mənim qəlbimi götürsəniz, mən ömür boyu, həmişə Azərbaycanın bugünkü sərhədlərindən, hüdudlarından kənarda olan bütün azərbaycanlıların hamısını vahid Azərbaycanın birliyində görmüşəm, birliyində hiss etmişəm. Borçalı diyarına mən keçmiş illərdə - Azərbaycana rəhbərlik etdiyim zaman da həmişə qayğı göstərmişəm, həmişə onlara öz xidmətimi göstərmişəm. Bəlkə borçalıların çoxları bilmirlər ki, o illərdə - 70-ci illərdə orada onların yaşayışı üçün mən həm Gürcüstanın rəhbərliyi ilə, həm Moskvanın rəhbərliyi ilə nə qədər danışıqlar aparmışam, tələblərimi qoymuşam. Amma indi isə - Gürcüstan da müstəqil dövlət olduğu zaman, Azərbaycan da müstəqil dövlət olduğu zaman Gürcüstanla Azərbaycan arasındakı bu dostluq, səmimi qardaşlıq əlaqələri və mənimlə prezident Şevardnadzenin arasında olan əlaqələr birinci növbədə Gürcüstanda yaşayan azərbaycanlıların hüquqlarını qorumaq məqsədi daşıyır, azərbaycanlıların yaşayış tərzinin yaxşılaşdırılması məqsədi daşıyır. Gürcüstanda yaşayan azərbaycanlılar, borçalılar - hamısı əmin ola bilərlər ki, mən Azərbaycanın prezidenti kimi həmişə onlarlayam. Mənim əlim sizin üstünüzdədir.

**Z ə l i m x a n  Y a q u b**: Cənab prezident, biz hamımız elə bilir və belə də qiymətləndiririk.

**A ş ı q  K a m a n d a r  Ə f ə n d i y e v**: Möhtərəm prezident, Sizə cansağlığı, uzun ömür arzulayıram. [454]

**DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ ÜZVÜ SƏİD QURBANOVA**

Hörmətli Səid Qurbanov!

Sizi - tanınmış dövlət xadimini yetmiş illik yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

Sizin çoxşaxəli fəaliyyətinizdə qədim tarixi və mədəni ənənələrə malik olan Azərbaycan - Dağıstan münasibətlərinin inkişafı xüsusi yer tutur. Bu sahədə göstərdiyiniz səylər respublikamızda çox yüksək qiymətləndirilir.

Qardaş Dağıstanın sosial-iqtisadi inkişafı, tərəqqisi, xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluğun bərqərar edilməsi işində siz böyük əmək sərf etmisiniz. Mədəni quruculuqda, tarixi abidələrin qorunub saxlanmasında göstərdiyiniz xidmətlər də təqdirə layiqdir. Dövlət şurasında Dağıstanda yaşayan azərbaycanlıları təmsil edərək siz bacarıqlı təşkilatçı və ağsaqqal kimi dağlar diyarının hər yerində hörmət qazanmısınız.

Əminəm ki, Azərbaycan - Dağıstan dostluğunun möhkəmləndirilməsi naminə zəngin təcrübənizi, bacarıq və imkanlarınızı bundan sonra da əsirgəməyəcəksiniz. Qardaş Dağıstan Respublikasının inkişafı və çiçəklənməsi uğrunda sizə işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 dekabr 1998-ci il*
[455]

## XALQ ARTİSTİ TÜKƏZBAN İSMAYILOVAYA

Hörmətli Tükəzban İsmayılova!

Sizi - Azərbaycanın müsiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış böyük sənətkarlar nəslinə mənsubsunuz. Klassik muğam ifaçılığının zəngin ənənələrini qoruyub yaşadan, gözəl ifası ilə xalq mahnılarımıza yeni həyat verən sənətkar kimi xalqımızın dərin məhəbbətini qazanmısınız. Sizin ifanızda səslənmiş bir çox muğam və xalq mahnıları milli musiqi sənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Gözəl səsiniz və təkrarolunmaz ifa üslubunuz, musiqi sənətimizin incəliklərini dərindən bilməyiniz və böyük zəhmətsevərliyiniz sizə muğam və xalq mahnılarımızın ifası sahəsində öz dəst-xətti ilə seçilən müğənni kimi şöhrət gətirmişdir. Milli musiqimizin təbliğində keçmiş böyük sənət yolunuz gənc ifaçılar nəsli üçün gözəl örnək, əsl məktəbdir.

Əminəm ki, xalqımızın musiqi xəzinəsi incilərinin mahir ifaçısı kimi sənətinizin pərəstişkarlarını bundan sonra da sevindirəcək və milli musiqi mədəniyyətimizin inkişafı yolunda var qüvvənizi, zəngin təcrübənizi əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 dekabr 1998-ci il*
[456]

## DÜNYA AZƏRBAYCANLILARINA

Hörmətli həmvətənlər!

Əziz soydaşlarımız!

31 dekabrın Dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd edilməsi artıq ənənəyə çevrilmişdir. Bu bayram qədim tarixə və böyük mədəniyyətə malik olan Azərbaycan xalqının müstəqillik əldə etdiyi andan bütün dünya azərbaycanlılarına bəxş etdiyi, ümummilli əhəmiyyət kəsb edən, yeni və çox ümidverici bir bayramdır.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkil edir.

Heç kəsə sirr deyil ki, hal-hazırda bütün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan bir dövlət var. Bu dövlət Azərbaycan Respublikasıdır. Onun müstəqilliyini dönməz etmək, dövlətçiliyini qorumaq, ərazi bütövlüyünü, təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını təmin etmək, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq tək Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının övladlıq borcudur. Bu sahədə ilkin vəzifə işğal olunmuş torpaqlarımızın geri alınması, öz vətənlərində qaçqın və köçkünə çevrilmiş insanların doğma ocaqlarına qaytarılmasıdır.

Xalqımızın mədəniyyətini, dilini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada tədliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli bir tarixi yükdür.

Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və [457-458] mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdları üçün qayğıkeş və təəssübkeş olmağı tələb etməyə haqqımız var.

Hal-hazırda qarşımızda duran ən vacib və taleyüklü vəzifələrdən biri əl-ələ verərək dünya azərbaycanlılarının hər hansı bir ölkədə və mühitdə yaşamaq, fəaliyyət göstərmək, özünün milli-mənəvi dəyərlərini qorumaq, inkişaf etdirmək, beynəlxalq aləmdə mədəni, istedadlı, qədim tarixə və demokratik dövlətə malik olan xalq kimi təmsil olunmaq hüququnu təmin etməkdir.

XXI əsrin astanasında dünya azərbaycanlılarının həmrəyliyinə daha böyük ehtiyac vardır. Sayca dünyanın ən iri millətləri ilə müqayisə olunan xalqımızı qarşıdan gələn yeni yüzillik və minillikdə ciddi və müqəddəs mübarizələr gözləyir. Biz nəinki təkcə müstəqil Azərbaycanın dövlətçiliyinin qorunması, möhkəmlənməsi və inkişaf etməsi uğrunda, eyni zamanda bütün dünya azərbaycanlılarının milli hüquqlarının, tarixi haqlarının həyata keçməsi ilə bağlı ciddi iş aparmalıyıq. Bütün bu müqəddəs vəzifələrə nail olmaq üçün biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməliyik. Vətənini, xalqını sevən hər bir soydaşımız, bu və ya digər tellərlə ölkəmizlə bağlı olan bir şəxs Azərbaycan dövlətini öz arxasında hiss edərək azərbaycançılıq, vətənpərvərlik hissləri ilə tarixi torpaqlarımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamalıdır. Vətənimizin, respublikamızın taleyi hər bir azərbaycanlının taleyinə çevrilməlidir.

İnanıram ki, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı əsrlərdən bəri arzusunda olduğumuz və uğrunda mübarizə apardığımız müstəqil və azad Azərbaycan ideyasının, ümummilli məqsədlərimizin tam gerçəkləşməsi [458-459] üçün daha sarsılmaz həmrəylik nümayiş etdirəcək. Xalqımızın müstəqillik əzmi və iradəsi, sıx birliyi qarşılaşdığımız hər bir çətinliyə qalib gələcəkdir.

Sizi bu ümummilli bayram münasibətilə ürəkdən təbrik edir və ali məqsədlərimizin reallaşması naminə yenilməz birliyə, həmrəyliyə çağırıram.

Ulu Tanrıdan hamınıza səadət və əmin-amanlıq diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 dekabr 1998-ci il*
[459]

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MİLLİ MƏCLİSİNƏ**

1998-ci il dekabr ayının 31-də bütün dünyada yaşayan soydaşlarımız böyük iftixarla və qürur hissi ilə Dünya azərbaycanlılarının həmrəyliyi gününü qeyd edəcəkdir.

Azərbaycanlılar min illərlə öz tarixi, etnik, doğma torpaqlarında - böyük Azərbaycanda yaşayıb yaratmış, bəşər sivilizasiyasına dəyərli töhfələr vermişlər. Lakin dünyada gedən müharibələr, inqilablar, hərbi münaqişələr və ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi yerlərindən-yurdlarından kütləvi surətdə sürgün, deportasiya olunmuş, represiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür.

Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin gerçəkləşməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir. Bu isə dünya azərbaycanlılarının gələcəyə inamını, mübarizə əzmini və qətiyyətini nümayiş etdirir.

Dünya azərbaycanlılarının əbədi və sarsılmaz həmrəyliyini təcəssüm etdirən bu tarixi gün münasibətilə amnistiya aktının qəbul edilməsi dövlətimizin humanist siyasətinin, insan hüquq və azadlıqlarına hörmət və ehtiramının təzahürü olardı.

Amnistiyanın Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında xidməti olmuş, soyqırımına, represiyalara, sürgünlərə, deportasiyalara məruz qalmış, vətən uğrunda döyuşlərdə iştirak etmiş şəxslərə, həmin döyüşlərdə həlak olmuş, itkin düşmüş şəxslərin yaxın [460-461] qohumlarına, habelə əlillərə, qadınlara, həddi-buluğa çatmamışlara və digərlərinə tətbiq olunması nəzərdə tutulur.

Məhkumlardan, onların valideynlərindən, yaxın qohumlarından daxil olan çoxsaylı müraciətlərdə cinayət törətmiş şəxslərin öz əməllərindən səmimi peşman olduqları, gələcəkdə qanunlara əməl edəcəkləri bir daha vəd edilir.

Əminəm ki, amnistiya aktı qəbul olunduğu təqdirdə cinayət məsuliyyətindən və cəzalardan azad edilən minlərlə insan göstərilən etimaddan düzgün nəticə çıxaracaq, tezliklə cəmiyyətə qovuşacaq, qanunlara hörmət ruhunda davranacaqlar. Bu humanist addım cəzadan azad olunan şəxslərin əqidəsini və iradəsini möhkəmləndirəcək, onların gələcəyə inamını artıracaq və böyük məsuliyyət hissi ilə azərbaycanlıların həmrəyliyinə, birliyinə çalışmağa sövq edəcəkdir.

İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi hesab edən Azərbaycan dövləti amnistiya aktını qəbul etməklə humanistlik, insanpərvərlik və ədalət prinsiplərinə sadiq olduğunu bir daha nümayiş etdirəcəkdir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq «Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə amnistiya haqqında» qərar layihəsini müzakirənizə təqdim edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 dekabr 1998-ci il*
[461]

## XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDAKI «YANAN TAVA», «ATƏŞGAH» VƏ «MUĞAN-DƏNİZ» BLOKUNUN KƏŞFİYYATI, İŞLƏNİLMƏSİ VƏ HASİLATIN PAY BÖLGÜSÜ HAQQINDA AZƏRBAYCAN DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ YAPONİYANIN «CAPAN PETROLEUM», «İNDONEZİYA PETROLEUM», «İTOÇU OYL EKSPLOREYŞN» VƏ «TEYKOKU OYL» NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ

*«Gülüstan» sarayı*

*25 dekabr 1998-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Biz bu gün Azərbaycanda, Bakıda yeni bir neft müqaviləsinin imzalanması mərasiminə toplaşmışıq. Bugünkü mərasim, imzalanacaq müqavilə Azərbaycan dövlətinin, prezidentinin neft siyasətinin həyata keçirilməsində növbəti bir addımdır.

Məlumdur ki, Azərbaycan dövləti 1994-cü ildən başlayaraq özünün neft siyasətini həyata keçirir. Bu siyasətin əsas məzmunu və prinsipləri Azərbaycanın zəngin neft və qaz yataqlarının intensiv işləməsindən ibarətdir. Müstəqil Azərbaycan dövləti bunun üçün, xarici sərmayənin cəlb olunması üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməyi ən münasib yol kimi seçmişdir. [462-463]

Qeyd etdiyim kimi, biz beləliklə, bir tərəfdən Azərbaycanın neft və qaz yataqlarının istifadə olunması üçün xarici investisiyanı cəlb edirik və bununla bərabər, dünyanın böyük neft şirkətləri ilə müştərək iş görərək onların təcrübəsindən və onlarda olan müasir texnikadan, texnologiyadan istifadə edilməsini nəzərdə tuturuq.

Biz neft siyasətini planlaşdıraraq, həyata keçirməyə başlayaraq bilirdik və bildiyimizə görə də bunu etmişik ki, o, Azərbaycanın bu günü və gələcəyi üçün çox faydalıdır. Ötən dörd il ərzində görülən işlər və əldə edilən nəticələr bizim neft siyasətimizin Azərbaycan xalqının milli mənafeləri üçün nə qədər faydalı olduğunu indi əyani sübut edir.

Ötən dörd il ərzində 15 müqavilə imzalanıbdır. Bu 15 müqavilədə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edir. Bu müqavilələr əməli surətdə həyata keçirilir, böyük işlər görülür. Bunlar hamısı Azərbaycanın iqtisadi inkişafına artıq öz təsirini göstərir.

Biz «Əsrin müqaviləsi» adlanan ilk müqavilənin - 1994-cü il sentyabrın 20-də imzalanmış müqavilənin artıq praktiki nəticələrini görürük. Bir il bundan öncə, 1997-ci il noyabr ayının 12-də «Çıraq» yatağından neft hasil olunmağa başladı. İndi Azərbaycan nefti Bakı-Novorossiysk boru kəməri vasitəsilə dünya bazarına çıxarılır.

Məlumdur ki, birinci müqavilə - «Əsrin müqaviləsi» gözləniləndən də artıq nəticələr verir. «Çıraq» yatağındakı hər quyudan nəzərdə tutulduğundan 3-4 dəfə çox neft alınır. Bu müqavilənin layihəsində 510 milyon ton neft əldə etmək nəzərdə tutulmuşdu. İndi artıq 630 milyon ton neft gözlənilir. Güman edirəm ki, bundan da artıq neft olacaqdır. Digər müqavilələrin də hamısı əməli surətdə həyata keçirilir. Qeyd etdiyim kimi, bunlar Azərbaycan iqtisadiyyatına, ölkəmizin həyatına yeni amillər gətirir. [463-464]

Xəzərin Azərbaycan sektorundakı neft yataqlarına dünyanın böyük neft şirkətlərinin və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin marağı günü-gündən artır. Bu ölkələrin içərisində Yaponiya artıq bir neçə il bundan əvvəl Azərbaycanın təbii sərvətlərinin, neft və qaz yataqlarının istifadə edilməsinə maraq göstərmişdir. Yaponiyanın «İtoçu» şirkəti ilk dəfə olaraq birinci konsorsiumda özünə müəyyən bir hissə almışdı. «İtoçu» sonra «Dan ulduzu», - «Əşrəfi» neft yatağından istifadə olunması üçün yaranmış konsorsiumda iştirak etmiş və orada bu layihənin 20 faizini almışdır.

Yaponiyanın «Mitsui» şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Kürdaşı» yatağının işlənilməsi üçün yaranmış konsorsiumun iştirakçısıdır, orada onun 15 faiz payı vardır. Yaponiyanın digər neft şirkətləri də Azərbaycana və Azərbaycanın neft, qaz yataqlarına maraq göstərməyə başlayıblar.

Beləliklə, Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq son illərdə genişlənibdir və çox böyük səmərə kəsb edibdir. Bu ilin fevralında mənim Yaponiyaya rəsmi səfərim zamanı biz çoxsaylı danışıqlar aparmışıq, Yaponiya-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox sənədlər imzalamışıq. Bunların içərisində Yaponiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında bəyanatı Yaponiyanın Baş naziri cənab Haşimoto və Azərbaycan prezidenti imzalamışlar. Bunlarla bərabər, Yaponiyanın

hökuməti, işgüzar dairələri, «Eksimbank»ı ilə aparılan danışıqlar nəticəsində Yaponiya hökuməti tərəfindən Azərbaycana böyük kreditlərin verilməsi və ölkəmizin sənayesinin bəzi sahələrinin inkişaf etdirilməsi üçün yardım göstərilməsi haqqında da razılıq əldə olunmuşdur.

Fevral ayında Tokioda respublikamızın «Şimal» elektrik stansiyasının yenidən qurulması və bərpası üçün Yaponiya hökuməti tərəfindən 160 milyon dollar dəyərində güzəştli [464-465] kredit ayrılması haqqında saziş imzalanmışdır. Azərbaycanın kimya kompleksində etilen istehsal qurğusunun yenidən qurulmasına, modernləşdirilməsinə «Eksimbank»ın 90 milyon dollar həcmində kredit ayırması barədə də saziş imzalanmışdır.

Yaponiya hökuməti ilə bizim apardığımız danışıqlar onu göstərir ki, Azərbaycanın iqtisadiyyatının bir neçə sahəsinin inkişafı ilə əlaqədar da əlavə kreditlərin alınması mümkündür. Biz Yaponiya ilə əlaqələrimizi və xüsusən iqtisadi əlaqələrimizi yüksək qiymətləndiririk, müstəqil Azərbaycana göstərdiyi marağa və maliyyə yardımına görə Yaponiya hökumətinə təşəkkür edirik. Biz bu istiqamətdə əməkdaşlıq edərək Yaponiyanın bir neçə neft şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı bir yataqda müştərək iş görməsi barədə təkliflərini qəbul etmişik.

Bu təkliflər bir il bundan əvvəl verilmişdir. Mən fevral ayında Tokioda rəsmi səfərdə olarkən biz bu barədə həm Yaponiya hökuməti ilə, həm də bu şirkətlərin rəhbərləri ilə çox ətraflı danışıqlar aparmışdıq. Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın dörd şirkəti - «Capeks», «İnpeks», «İtoçu» və «Teykoku» şirkətləri arasında danışıqlar aparılmış və bunların nəticəsində Xəzərin Azərbaycan sektorundakı «Yanan tava», «Atəşgah» və «Muğan-Dəniz» blokunun müştərək işlənilməsi haqqında razılıq əldə olunmuşdur.

Azərbaycan Dövlət Neft Şirkəti uzun sürən danışıqlardan sonra bu barədə təklifini təqdim etmişdir. Mən bu təklifə baxmışam və onu məqbul hesab etmişəm. Ona görə də bu təklif əsasında Yaponiyanın dörd şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında «Yanan tava», «Atəşgah» və «Muğan-Dəniz» neft yatağında müştərək iş görülməsi üçün müqavilənin imzalanması haqqında qərar qəbul etmişəm.

Bu neft yatağı Azərbaycan alimləri, neftçiləri, geoloqları tərəfindən hələ 1950-ci illərdə kəşf olunmuşdur. Sonra [465-466] Azərbaycan Dövlət Neft Şirkəti 1970-ci illərdə bu yataqda müəyyən işlər görmüş, quyular qazmışdır və həmin yatağın çox perspektivli olması haqqında əsaslı məlumatlar toplanmışdır.

Müqavilə imzalanacaq bu yatağın əhatə etdiyi sahə 510 kvadratkilometrdir. Həmin yataqdan təxminən 75-90 milyon ton neft alınması gözlənilir. Buraya təxminən 2,3 milyard dollar həcmində sərmayə, kapital qoyulması nəzərdə tutulmuşdur. Bu layihənin 50 faizi Yaponiyanın neft şirkətlərinə, 50 faizi isə Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olacaqdır. Qoyulan xərclərin hamısı Yaponiya şirkətləri tərəfindən həyata keçiriləcəkdir. Bütün göstəricilərinə görə bu müqavilə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Yaponiyanın böyük neft şirkətləri üçün faydalıdır.

Yaponiya neft şirkətlərinin nümayəndə heyətləri və Yaponiya hökumətinin nümayəndə heyəti bu müqaviləni imzalamaq üçün Azərbaycana gəlmişlər. Beləliklə, bütün hazırlıq işləri görülübdür, müqavilənin layihəsi hər iki tərəfdən yoxlanılıbdır və imzalanmaq üçün bu mərasimə təqdim olunubdur.

Müqavilənin imzalanması ilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələri daha da genişlənir. Azərbaycan üçün bu, xarici ölkələrin neft şirkətləri ilə imzalanmış sayca 16-cı müqavilə olacaqdır. Dörd Yaponiya şirkəti isə Azərbaycana daxil olacaqdır.

Mən Tokioda apardığım danışıqlar zamanı da bəyan etmişdim, bu gün də bəyan edirəm ki, Yaponiya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkəsidir. Yaponiyanın şirkətləri dünyada elmi-texniki tərəqqinin inkişafında böyük xidmətlər göstərmişlər. Yaponiya bütünlüklə öz iqtisadi siyasəti və iqtisadi göstəriciləri ilə, elmdə, texnikada sənayedə əldə etdiyi nailiyyətlərlə dünya iqtisadiyyatının inkişafına da çox böyük təsir göstərmişdir. Buna görə də biz Yaponiya ilə [466-467] əməkdaşlığın genişləndirilməsinin tərəfdarıyıq. Biz Yaponiyanın, xüsusən neft və qaz sənayesi sahəsindəki şirkətlərinin Azərbaycana gəlməsini alqışlayırıq.

Mən inanıram ki, bugünkü bu müqavilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etməsinə çox böyük kömək göstərəcəkdir. Bu müqavilənin bir xüsusiyyəti də odur ki, burada konsorsium yalnız Yaponiya şirkətlərindən ibarətdir.

İndiyə qədər imzalanmış bütün müqavilələr ayrı-ayrı ölkələrə məxsus olan şirkətlər tərəfindən təşkil edilmiş konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmışdır. Bu müqavilə daha uğurlu ola bilər, çünki konsorsiumun üzvlərinin hamısı Yaponiya şirkətləridir. Onlar bir-birini çox yaxşı tanıyır, bir-biri ilə daha da səmərəli əməkdaşlıq edə bilərlər.

Mən Yaponiyanın şirkətlərini və Yaponiya hökumətinin nümayəndəsini, Azərbaycan Dövlət Neft Şirkətini bu münasibətlə təbrik edirəm və sizi müqavilənin imzalanmasına dəvət edirəm.

## YEKUN NİTQİ

Hörmətli yaponiyalı qonaqlar!

Çıxışlarınızda Azərbaycan haqqında, Azərbaycan dövləti haqqında, Azərbaycan xalqı haqqında ifadə etdiyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm.

Sizin çıxışlarınız bu gün burada imzalanmış böyük neft müqaviləsinin həm Yaponiya şirkətləri üçün, həm də Azərbaycan üçün çox mənfəətli olduğunu bir daha sübut etdi. Biz hiss etdik ki, siz həqiqətən çox böyük həvəslə Azərbaycanla əməkdaşlıq etmək istəyirsiniz və Azərbaycanın neft və qaz yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə səmərəli iş [467-468] görmək istəyirsiniz. Sizin istəkləriniz, arzularınız bizim istək və arzularımızla üst-üstə düşür. Ona görə də ümid edirəm ki, bizim əməkdaşlığımız çox uğurlu olacaqdır.

Siz tamamilə doğru dediniz ki, bizim neft sənayesi sahəsində əməkdaşlığımız Yaponiya- Azərbaycan iqtisadi əməkdaşlığına çox böyük yollar açır və imkanlar yaradır. Yaponiya ilə Azərbaycan arasında məsafə çox böyükdür. Ancaq bizim hər iki tərəfdən bir-birimizə yaxınlaşmaq əzmimiz güclü olduğuna görə biz bu məsafəni qısaltmışıq, bir yerdəyik.

Cənab səfir qədim Böyük İpək yolunun bərpası ilə əlaqədar layihəyə Yaponiyanın münasibətini bir daha bildirdi. Məlumdur ki, son illər qədim tarixi İpək yolunun bərpa olunması və yenidən istifadə edilməsi barəsində dünyanın bir çox ölkələrində fikirlər meydana gəlmişdi, təkliflər irəli sürülmüşdü. Ancaq bunların içərisində Yaponiya hökumətinin və Yaponiyanın keçmiş Baş naziri cənab Haşimotonun təşəbbüsü xüsusi yer tutur.

Bu il sentyabr ayının 7-8-də Azərbaycanda, Bakıda, burada - «Gülüstan» sarayında qədim tarixi İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans oldu və bu beynəlxalq konfransda Yaponiyanın da nümayəndə heyəti iştirak edirdi. Beynəlxalq konfransda qədim tarixi İpək yolunun bərpası, TRASEKA proqramının inkişaf etdirilməsi ilə əlaqədar çox mühüm əhəmiyyət kəsb edən sazişlər, müqavilələr imzalandı və beləliklə, həm Yaponiyada, həm Avropada, həm Qafqazda qədim tarixi İpək yolunun bərpası ilə əlaqədar olan fikirlər və təkliflər reallaşmağa başladı. İndiyə qədər Yaponiya- Azərbaycan əməkdaşlığı sahəsində görülən işlərə əlavə olaraq qədim tarixi İpək yolunun bərpa edilməsi Yaponiya-Azərbaycan əməkdaşlığını daha da genişləndirəcəkdir.

1998-ci il sona çatır. Biz 1998-ci ilin əvvəlində Tokioda Yaponiya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq [468-469] əlaqələrini inkişaf etdirmək üçün çox səmərəli iş gördük və hökumətlərarası mühüm sənədlər imzaladıq. İlin sonunda Bakıda, Azərbaycanda Yaponiya-Azərbaycan əməkdaşlığını inkişaf etdirmək üçün böyük müqavilə imzalandı. Ümid edirəm ki, qarşıdan gələn 1999-cu ildə Yaponiya-Azərbaycan əməkdaşlığı daha da sürətlə inkişaf edəcəkdir.

Sizi, hörmətli qonaqlar və bütün mərasim iştirakçılarını qarşıdan gələn 1999-cu il münasibətilə təbrik edirəm. Yeni ildə Yaponiya xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram. Azərbaycan xalqına, bütün xalqlara sülh, əmin-amanlıq və tərəqqi arzulayıram. Sağ olun. [469]

## BAKIDA «DİNAMO» İDMAN-SAĞLAMLIQ MƏRKƏZİNİN - İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*30 dekabr 1998-ci il*

Hörmətli idmançılar!
Xanımlar və cənablar!

Sizi «Dinamo» cəmiyyətinin yeni idman kompleksinin açılışı münasibətilə təbrik edirəm. Sizə, bütün idmançılara, «Dinamo» cəmiyyətinə Azərbaycanda idmanın inkişafı sahəsində uğurlar arzulayıram.

Azərbaycanda son illər idmanın, bədən tərbiyəsinin inkişafı sahəsində bir çox işlər görülübdür. Dövlət tərəfindən qəbul olunan qərarlar və görülən müxtəlif tədbirlər, Gənclər və İdman Nazirliyinin apardığı əməli işin, Azərbaycanın Milli Olimpiya Komitəsinin işinin son vaxtlar canlanması və fəaliyyəti - bunlar hamısı ölkəmizdə idmanın, bədən tərbiyəsinin kütləvi şəkildə inkişaf etməsinə şərait yaradıbdır. Biz bu işlərin artıq əməli nəticələrini görürük. Bunlar hamısı sevindirici haldır.

İdman, bədən tərbiyəsi hər bir insan üçün zəruri olan bir fəaliyyətdir. İdman cəmiyyətdə sağlamlığı təmin edən və cəmiyyətin inkişaf etməsi üçün çox vacib olan bir amildir. Ona görə də idmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə görəcəyimiz işlər bizim dövlət, hökumət siyasətimizin əsas istiqamətlərindən birini təşkil edir.

Məmnunam ki, gənclərimiz və ümumiyyətlə, cəmiyyətdə yaşayan insanlar idmana, bədən tərbiyəsinə maraq, həvəs göstərirlər, idmanla məşğul olurlar. Beləliklə, hər kəs öz [470-471] sağlamlığını möhkəmləndirir. Bunların hamısı birlikdə Azərbaycanda cəmiyyətin, kütlənin sağlam olması üçün yaxşı imkan yaradır.

Şübhəsiz ki, idman, bədən tərbiyəsi üçün bü münasibətlə yaradılan hər bir müəssisə böyük əhəmiyyət kəsb edir. Güman edirəm, bu gün «Dinamo» cəmiyyətinin sərəncamına verilən idman kompleksi də təkcə bu cəmiyyət üçün yox, ümumiyyətlə, ölkəmizdə, Bakıda idmanın, bədən tərbiyəsinin inkişaf etdirilməsinə xidmət göstərəcəkdir.

«Dinamo» cəmiyyəti həqiqətən qədim tarixə, ənənələrə malik olan və Azərbaycanda idmanın, bədən tərbiyəsinin inkişafında on illərlə böyük xidmət göstərən bir cəmiyyətdir. Sizin çoxunuz, o cümlədən mən də uzun illər «Dinamo» cəmiyyətinin üzvü olmuşuq. Mən həmişə bundan çox xeyir görmüşəm. «Dinamo» cəmiyyəti bu gün də öz fəaliyyəti ilə Azərbaycanda idmanın, bədən tərbiyəsinin inkişafına xidmət edir. Ona görə də biz bütün idman cəmiyyətlərinin hamısının işini dəstəkləyirik, hamısının işinin yaxşı olmasını istəyirik və onlara yardım edirik. O cümlədən «Dinamo» cəmiyyətinin fəaliyyətini də dəstəkləyirik. Ümid edirəm ki, «Dinamo» cəmiyyəti bundan sonra da Azərbaycanda idmanın, bədən tərbiyəsinin inkişafında ön cərgələrdə gedəcəkdir.

Bu gün açdığımız idman kompleksi Bakının ən gözəl bir güşəsində yerləşir. Bunun özü də idmana və xüsusən «Dinamo» cəmiyyətinə olan qayğının təzahürüdür. Bakının bulvarı paytaxtımızın ən gözəl bir hissəsidir. Ola bilər, siz artıq bilirsiniz ki, dünən mən Bakı şəhərindəki dənizkənarı bulvara Milli park statusu verilməsi haqqında xüsusi fərman imzalamışam. O, bu gün mətbuatda dərc olunubdur. Mən bu fərmanla Bakı bulvarına Azərbaycanın milli sərvəti kimi Milli park statusu vermişəm.

Fərmanda göstərilibdir - Bakının bulvarı 1909-cu ildə yaradılıbdır və artıq 100 ilə yaxındır ki, həm Bakı sakinlərinə, [471-472] həm də bütün Azərbaycana xidmət edir. Ancaq biz bu gün onun həm tarixini, həm də əhəmiyyətini qiymətləndirməliyik. Ona görə də bulvarı - Milli parkı qorumalıyıq, mühafizə etməliyik, inkişaf etdirməliyik və onu daha da gözəlləşdirməliyik. Bakı sakinlərinin, Azərbaycan vətəndaşlarının istirahəti, əylənməsi üçün ona daha da yaxşı qulluq etməliyik. Bu baxımdan Bakı bulvarının hər bir kvadratmetri çox qiymətlidir və bundan sonra daha da qiymətli olacaqdır. Mənim imzaladığım fərmanla burada çox işlər görülməlidir, qanunsuz yaradılan qurğular və bulvara uyğun olmayan, müxtəlif vaxtlarda meydana gəlmiş ayrı-ayrı tikintilər ləğv edilməlidir, götürülməlidir. Bulvarın baş planı yenidən işlənib hazırlanmalıdır və Azərbaycan prezidentinin təsdiqinə verilməlidir.

Bulvarın belə bir statusu olduğu və Milli park Azərbaycan üçün bu qədər qiymətli olduğu bir halda onun böyük bir hissəsinin idmançıların fəaliyyəti üçün verilməsi bədən tərbiyəsinə, «Dinamo» cəmiyyətinə olan diqqət və qayğıdır. Mən ümid edirəm ki, idmançılar bu qayğını qiymətləndirəcəklər, idman kompleksindən səmərəli istifadə edəcəklər və bu zaman bulvarın, Milli parkın ümumi quruluşunu qoruyub saxlayacaqlar və ona heç bir ziyan verməyəcəklər.

Tikilib yaradılmış idman kompleksi həqiqətən müasir tələblərə uyğundur, cavab verir. Bununla da həm idmançıların fəaliyyəti üçün yaxşı şərait yaradır, həm də bulvarı - Milli parkı müəyyən qədər gözəlləşdirir. Arzu edərdim ki, bu işlərə bundan sonra da diqqət yetirilsin, idman kompleksi nəinki bugünkü vəziyyətində olsun, gələcəkdə daha da təkmilləşsin, gözəlləşsin. Bulvarımız, Milli parkımız daha da zənginləşsin.

İdman kompleksinin tikilməsi təşəbbüsü Daxili İşlər Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən irəli sürülübdür. Bu obyekt «Azərsun holdinq» qrupu tərəfindən inşa olunub və idmançılara təqdim edilibdir. Azərbaycanda [472-473] fəaliyyət göstərən «Azərsun holdinq» qrupu bununla öz xeyriyyəçilik işini də nümayiş etdirir. Bu qrup Azərbaycanda geniş fəaliyyət göstərir. «Azərsun holdinq» qrupunun fəaliyyəti barədə verilən məlumatlar bir daha onu göstərir ki, Azərbaycanda özəl sektor inkişaf edir. Azərbaycan dövləti, hökuməti özəl sektorun inkişaf etməsi üçün lazım olan imkanları yaradır və bundan sonra da yaradacaqdır. Azərbaycana xarici sərmayə gəlir. Xarici investisiyadan istifadə olunması nəticəsində Azərbaycanda bir çox istehsal, məişət, ticarət müəssisələri yaranıb və yaranmaqdadır.

«Azərsun holdinq» qrupu respublikamızda bu sahədə yaxşı fəaliyyət göstərir. Mən bunu müsbət qiymətləndirirəm. Onlar «Dinamo» cəmiyyəti üçün idman kompleksinin tikilib, hazırlanıb təqdim edilməsi ilə də özlərinin Azərbaycana, xalqımıza olan münasibətini nümayiş etdirirlər. Bu da çox təqdirəlayiqdir.

Mən idmançılara arzu edərdim ki, onlar öz fəaliyyətlərini bundan sonra daha da artırsınlar. İdman Azərbaycanda təkcə insanların, cəmiyyətin sağlamlığının təmin olunması üçün yox, eyni zamanda müstəqil Azərbaycanın dünyada şöhrətinin qaldırılması üçün də çox əhəmiyyətlidir. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra qısa bir zamanda respublikamızın bir çox idmançıları beynəlxalq yarışlarda, olimpiadalarda yaxşı yerlər tutmuşlar və Azərbaycanı tanıtmışlar. Ancaq bunlar hələ azdır.

Güman edirəm ki, Azərbaycanın Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, Milli Olimpiya Komitəsi əldə olunmuş nailiyyətlər əsasında 1999-cu ildə və gələcək illərdə daha da çox işlər görəcəklər, ölkəmizdə idmanı, bədən tərbiyəsini inkişaf etdirəcəklər və dünya, beynəlxalq miqyaslı yarışlarda, olimpiadalarda daha da yüksək yerlər tutmağa nail olacaqlar. Beləliklə, Azərbaycan xalqının şöhrətini daha da qaldıracaqlar. [473-474]

Mən bugünkü əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycanın idmançılarına və idman sahəsində çalışanların hamısına yeni-yeni uğurlar arzulayıram. Hamınızı qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm. Sizi Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı arzu edirəm. Sağ olun. [474]

## AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

*31 dekabr 1998-ci il*

Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Sizi qarşıdan gələn 1999-cu il Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına, sakininə cansağlığı, səadət, xalqımıza, ölkəmizə sülh və əmin-amanlıq arzulayıram.

Bu gün Dünya azərbaycanlılarının həmrəylik günüdür. Bu bayram münasibətilə mən dünyanın bütün ölkələrində yaşayan azərbaycanlıları təbrik edirəm. Hamıya daha çox həmrəylik, birlik arzulayıram.

Vidalaşdığımız 1998-ci il ölkəmiz, xalqımız üçün uğurlu il olubdur, 1998-ci ildə azad ölkəmiz Azərbaycan dövlət müstəqilliyinin yeni bir ilini yaşayıb, başa çatdırıbdır. Azərbaycanın dövlət müstəqilliyinin yeddinci ili tamam olur. Ötən ilin ən əsas nəticəsi və əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənib, inkişaf edib və əbədilik yolunda yeni bir mərhələ olubdur.

1998-ci ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilibdir. Bu sahədə çox işlər görülüb və böyük nailiyyətlər əldə edilibdir. 1998-ci ildə Azərbaycanda demokratiya inkişaf edibdir, insan hüquqlarının qorunması, insanların azadlığı təmin olunubdur, Azərbaycanda dövlət quruculuğu, iqtisadiyyat və bütün başqa sahələrdə böyük islahatlar keçiribdir və onlar çox gözəl nəticələr veribdir. [475-476]

1998-ci il dünyada Birləşmiş Millətlər Təşkilatının İnsan Haqlarının Qorunması haqqında qəbul etdiyi bəyannamənin 50-ci ildönümü olubdur. Azərbaycanda bu sahədə çox işlər görülübdür və respublikamız demokratik dövlət kimi insan haqlarına sadiq olduğunu dünyada bir daha nümayiş etdiribdir.

Azərbaycan demokratik ölkə olaraq humanistlik siyasətini ardıcıl surətdə həyata keçirir. Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilibdir. Humanist siyasətimizin nəticəsində Azərbaycanda bir çox insanlara cəzadan azad olmaq imkanları verilibdir. Mənim təşəbbüsümlə bir il müddətində iki dəfə böyük amnistiyalar qəbul olunubdur. Bu iki amnistiya əsasında 24 min Azərbaycan vətəndaşı cəza çəkməkdən azad edilibdir. Cəza çəkən 270 nəfərdən artıq insan mənim fərmanlarımla əfv olunubdur. 1998-ci ildə Azərbaycanda söz, mətbuat, fikir azadlığı sahəsində də yeni addımlar atılıbdır və cəmiyyətimiz üçün bütün müsbət nəticələri də artıq göz qabağındadır.

Azərbaycanda 1998-ci ilin əsas nəticələrindən biri də ondan ibarətdir ki, ictimai-siyasi sabitlik möhkəmlənib, dönməz olubdur. Bu, bizim ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir, çünki xalqımız yaxın keçmişdə ölkə daxilindəki qarmaqarışıqlıqlardan, hərc-mərclikdən, hakimiyyətsizlikdən və geniş yayılmış cinayətkarlıqdan çox zərərlər çəkmişdir. Cinayətkarlığa qarşı mübarizə güclənib, insanların rahat yaşaması üçün daha da əlverişli şərait yaranıbdır. Azərbaycanda ictimai-siyasi sabitlik ölkəmizin mənafeyinin möhkəmlənməsinə və inkişaf etməsinə kömək edibdir.

Azərbaycanın düşünülmüş, ardıcıl xarici siyasəti, eləcə də ölkəmizin dünya miqyasında mövqeyi 1998-ci ildə daha da möhkəmlənibdir, nüfuzu artıbdır. Həmin ildə müxtəlif ölkələrə səfərlər edilibdir, respublikamıza bir çox xarici ölkələrdən nümayəndələr gəlibdir, ölkəmiz üçün çox əhəmiyyətli olan [476-477] dövlətlərarası, hökumətlərarası müqavilələr, sazişlər müxtəlif sənədlər imzalanıbdır. Azərbaycan beynəlxalq təşkilatların bütün toplantılarında fəal iştirak edibdir.

1998-ci ilin əlamətdar hadisələrindən biri də sentyabrın 7-8-də Bakıda keçirilmiş beynəlxalq konfransıdır. Tarixi İpək yolunun bərpası üçün TRASEKA proqramı çərçivəsində keçirilmiş beynəlxalq konfransda dünyanın 32 dövlətinin, 13 beynəlxalq təşkilatın nümayəndə heyətləri iştirak etmişlər. Bir çox ölkə, dövlət, hökumət başçıları öz nümayəndə heyətlərinə başçılıq etmişlər. Beynəlxalq Bakı konfransında çox böyük əhəmiyyət daşıyan, Avropa ilə Asiyanı, Şərq ilə Qərbi daha da birləşdirən, böyük əhəmiyyətə malik olan kommunikasiya xətlərinin yaranması üçün əsas qoyan müqavilələr, sazişlər imzalanmışdır.

1998-ci ilin əlamətdar hadisələrindən biri də qardaş Türkiyə Cümhuriyyətinin 75 illiyinin bayram edilməsi, bu bayram mərasimlərində Azərbaycan nümayəndə heyətinin iştirak etməsi və Bakı–Ceyhan neft kəməri haqqında Ankara Bəyannaməsinin imzalanmasıdır.

Bütün bunlar Azərbaycanı dünyada daha da çox tanıtması, dünya miqyasında özünəməxsus yer tutması üçün ölkəmiz üçün geniş imkanlar yaratmışdır. Azərbaycanın başqa ölkələrlə iqtisadi, mədəni, elmi əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük imkanlar yaranmışdır.

1998-ci ildə Azərbaycanda iqtisadiyyat inkişaf etmişdir. Məlumdur ki, keçmiş illərdə ölkəmizdə iqtisadiyyat tənəzzülə məruz qalmışdı. Bu tənəzzülün qarşısı 1996-cı ildə alınıbdır. 1997-ci və 1998-ci illər Azərbaycanda iqtisadiyyatın inkişafı illəri kimi səciyyəvidir. 1998-ci ildə iqtisadiyyatda inkişaf yüksək olmuşdur. Bunlar Azərbaycanın bazar münasibətləri yolunu seçməsinin, ölkəmizdə iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinin və respublika iqtisadiyyatının dünya iqtisadiyyatı ilə inteqrasiya olunmasının nəticəsidir. [477-478]

Son illər iqtisadi islahatların həyata keçirilməsində ciddi addımlar atmışıq. 1998-ci il bu baxımdan məhsuldar olmuşdur. Özəlləşdirmə proqramının, torpaq islahatının həyata keçirilməsi, pul-kredit sahəsində, islahatların həyata keçirilməsi – bunlar hamısı birlikdə Azərbaycan iqtisadiyyatının inkişafını təmin etmişdir. Bunların nəticəsində respublika əhalisinin rifah halı müəyyən qədər yaxşılaşmış, orta əmək haqqı, müavinətlər və pensiyalar artmışdır.

Azərbaycanın dünya iqtisadiyyatı ilə inteqrasiyası dünyanın bir çox böyük neft şirkətlərinin Azərbaycanla geniş əməkdaşlığını təmin etmişdir. Bu əməkdaşlıq 1998-ci ildə də öz nəticələrini vermişdir.

1998-ci ilin iqtisadi nəticələrindən danışarkən onu da qeyd etmək lazımdır ki, bu il ümumiyyətlə, dünya iqtisadiyyatı üçün çox ağır bir dövrdür.

Məlumdur ki, Cənub-Şərqi Asiyada, Uzaq Şərqdə bu ilin ortalarında başlanmış iqtisadi-maliyyə böhranı sonra başqa ölkələri də bürümüşdür. Maliyyə böhranı son aylarda Rusiyanı və Müstəqil Dövlətlər Birliyinə daxil olan bir çox digər ölkələri də bürümüşdür. Bu da inflyasiyanı artırmış və maliyyə sistemində iqtisadiyyatda çox çətinliklər yaratmışdır.

Bizim ölkəmiz Müstəqil Dövlətlər Birliyi ilə və qonşu ölkələrlə sıx iqtisadi əməkdaşlıq edir. Ona görə də bu ölkələrdə baş verən hadisələr, təbiidir ki, Azərbaycana da öz təsirini göstərir. Ancaq bizim apardığımız iqtisadi siyasət, maliyyə sahəsində gördüyümüz işlər bu böhranın Azərbaycanda geniş yayılmasının qarşısını almışdır. Məhz buna görə də biz son illər Azərbaycanın maliyyə sistemində sabitliyi təmin edə bilmişik.

Makroiqtisadi, maliyyə sistemində sabitlik iqtisadiyyat sahəsində bizim gördüyümüz işlərin ən əsas nəticəsidir. Bir çox ölkələrdəki maliyyə böhranının Azərbaycana sirayət etməsinin qarşısının alınması bizim üçün, çox çətin olmuşdur. [478-479] Amma biz buna nail olmuşuq. Azərbaycanda maliyyə sabitliyi təmin edilmişdir. Biz qiymətlərin başqa ölkələrdəki kimi artmasına, inflyasiyanın inkişaf etməsinə imkan verməmişik. Azərbaycanın milli valyutası manatın dəyəri sabit olaraq qalıbdır.

Azərbaycanın əsas problemi ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın evlərinə qayıtmasıdır. 1998-ci ildə bu sahədə xeyli iş görülmüşdür. Bizim bu istiqamətdə fəaliyyətimiz çox prinsipialdır, ardıcıldır. Biz məsələnin sülh yolu ilə həll edilməsi mövqeyində dururuq. Ona görə də ATƏT-in Minsk qrupu və onun həmsədrləri ilə sıx əməkdaşlıq edirik. Bizim bu əməkdaşlığımız ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında qurulur.

Minsk qrupunun həmsədrləri Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün 1998-ci ilin noyabrında yeni təklif irəli sürmüşlər. Amma bu təklif bizim üçün məqbul olmamış, ona görə də biz həmin təklifi rədd etmişik. Minsk qrupunun həmsədrlərinə, üzvlərinə və dünya birliyinə bir daha nümayiş etdirmişik ki, Azərbaycan dövləti ölkənin, xalqın mənafelərinə zidd olan heç bir təklifi qəbul edə bilməz.

Biz bu gün də məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Məhz buna görə biz Ermənistan – Azərbaycan münaqişəsində əldə edilmiş atəşkəs sazişinə artıq beşinci ildir sadiq qalırıq. Biz atəşkəs rejimini bu gün də qoruyub saxlamaq istəyirik və bu mövqedə durmuşuq, duracağıq. Ancaq eyni zamanda, biz məsələnin yalnız ədalətli həll olunması barədə təklifləri qəbul edə bilərik.

Bizim fikrimiz ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında [479-480] çıxarılmalıdır, Azərbaycan vətəndaşları öz yerlərinə-yurdlarına qayıtmalıdır və Dağlıq Qarabağ Azərbaycan dövləti tərkibində yüksək özünüidarəetmə statusuna malik ola bilər. Hesab edirəm ki, biz öz işlərimizi bundan sonra da bu prinsiplər əsasında davam etdirəcəyik.

Bununla əlaqədar olaraq, bizim həyatımızın ən ağrılı hissəsi yerindən-yurdundan didərgin düşmüş qaçqınların vəziyyətidir. Biz bu məsələ ilə daim məşğul oluruq. 1998-ci ildə bu barədə bir çox tədbirlər həyata keçirilibdir. Qaçqınların yaşadığı düşərgələrdə, məskunlaşdıqları yerlərdə onlara yardım daha da artır və bundan sonra da artacaqdır. Onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülür və görüləcəkdir.

Şübhəsiz ki, bunların hamısı müvəqqəti xarakter daşıyır. Çünki bizim əsas məqsədimiz işğal edilmiş torpaqların azad olunması və soydaşlarımızın öz yerlərinə-yurdlarına qayıtmasıdır. Mən bu gün – bu bayram axşamı bir daha bəyan edirəm ki, biz buna mütləq nail olacağıq.

1998-ci ildə Azərbaycanın həyatının bütün sahələrində müsbət nəticələr əldə olunubdur. Azərbaycan demokratik, hüquqi dövlət kimi inkişaf edibdir. Azərbaycanda prezident seçkiləri sərbəst, azad, tam demokratik şəkildə keçirilib və Azərbaycanın demokratiya yolu ilə getdiyi dünyaya bir daha nümayiş etdirilibdir. Azərbaycan dövləti qüdrətlənibdir. Azərbaycanın Milli Ordusu daha da güclənibdir. Azərbaycanın ordusu ölkəmizin suverenliyini, müstəqilliyini qorumağa qadirdir. Bunların hamısı bizdə iftixar hissi doğurur. Biz eyni zamanda dərk edirik ki, həyatımızda həll olunmamış problemlər, çatışmazlıqlar, nöqsanlar da çoxdur.

Məlumdur ki, iqtisadi, maddi çətinlik şəraitində yaşayan insanlar da vardır. Bunlar hamısı Azərbaycanın bugünkü reallığıdır. Azərbaycan keçid dövrünü yaşayır. Keçid dövrünün bütün

xüsusiyyətləri Azərbaycana da şamildir. Ancaq [480-481] bizim apardığımız işlər bu keçid dövrünü daha da uğurla keçməyə əsas yaradır.

Mən 1998-ci ilin uğurlarından danışarkən heç də hesab etmirəm ki, problemlər unudulubdur. Problemlər çoxdur, biz bunları yaxşı bilirik. Son aylarda keçirilmiş bir neçə müşavirədə, iclasda onlar müzakirə olunubdur və lazımi qərarlar qəbul edilibdir. Bu qərarların həyata keçirilməsi hamımızın vəzifəmizdir.

Beləliklə, biz 1999-cu ili böyük ümidlərlə qarşılayırıq və 1998-ci ildə bunun üçün əsas yaranıbdır. 1999-cu ildə bizim qarşımızda duran vəzifələr məlumdur. Ən əsas vəzifə Azərbaycanı müstəqil dövlət kimi yaşatmaqdır. Əmin ola bilərsiniz ki, biz bu barədə səylərimizi əsirgəmirik.

Bu günlərdə 1999-cu il üçün dövlət büdcəsi təsdiq edilibdir. Dövlət büdcəsinin təsdiq olunması çox gərgin şəraitdə keçibdir. Çünki, qeyd etdiyim kimi, dünyanın bir çox ölkələrində baş vermiş iqtisadi, maliyyə böhranı, dünyada neft məhsullarının qiymətinin aşağı düşməsi və bir neçə amillər Azərbaycan iqtisadiyyatının vəziyyətini çətinləşdiribdir.

Amma bütün bunlara baxmayaraq, biz mövcud imkanlarımızdan istifadə edib dövlət büdcəsini formalaşdırmışıq. Dövlət büdcəsini tərtib edərkən, Azərbaycanda iqtisadi islahatları həyata keçirərkən biz dünyanın mötəbər maliyyə qurumları, mərkəzləri – Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə sıx əməkdaşlıq edirik. Bizim gələcək işlərimizdə də islahatların həyata keçirilməsi beynəlxalq standartlar səviyyəsində aparılacaqdır.

Mən hesab edirəm ki, Azərbaycanın dövlət büdcəsinin həyata keçirilməsi 1999-cu ildə qarşımızda duran ən əsas vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün bütün dövlət orqanları öz səylərini göstərməlidirlər. Hər bir vətəndaş öz ölkəsinin inkişafı üçün öz payını verməlidir. [481-482]

1999-cu ildə bizim qarşımızda duran əsas vəzifə Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olmaq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz evlərinə qaytarmaqdır. Mən ümid edirəm ki, 1998-ci ilin son aylarında gördüyümüz işlər və həyata keçirdiyimiz tədbirlər 1999-cu ildə bu sahədə bizim uğurla irəliləməyimizə əsas yaradır və yaradacaqdır.

Azərbaycanın suverenliyini, müstəqilliyini qorumaq, Azərbaycanı müstəqil bir dövlət kimi inkişaf etdirmək qarşımızda duran əsas vəzifələrdir. Bu sahədə bizim artıq təcrübəmiz vardır. Biz çox şeyə nail olmuşuq. Buna görə də 1999-cu ildə də qarşıda duran vəzifələri uğurla həyata keçirə biləcəyik.

1999-cu il Azərbaycanda iqtisadi islahatların geniş surətdə həyata keçirilməsi ili olacaqdır. Biz özəlləşdirmə proqramının yeni mərhələsinə başlayırıq. Bir çox başqa islahatlar, o cümlədən hakimiyyət, dövlət orqanlarında islahatların aparılması da qarşıda duran əsas vəzifələrdən biridir. Bunlar hamısı Azərbaycanda demokratik proseslərin inkişafını təmin etmək məqsədi daşıyır və biz bu yolla gedirik, bu yolla da gedəcəyik.

Mən 1999-cu ilə böyük ümidlərlə baxıram və inanıram ki, indiyə qədər əldə etdiyimiz nailiyyətlər əsasında 1999-cu il Azərbaycan üçün daha da uğurlu olacaqdır. Biz bir çox tədbirlər görmüşük və bu günlərdə də görürük. Bunlar hamısı iqtisadiyyatda sabitliyin təmin olunmasına yönəldilibdir. Çünki qeyd etdiyim kimi, bir çox ölkələrdə mövcud olan böhran Azərbaycan üçün təhlükə yaradır. Biz bunların qarşısını alırıq və bundan sonra da almağa çalışacağıq.

Azərbaycan azad, müstəqil dövlətdir. Nə qədər çox çətinliklər olsa da, xalqımız indi öz müstəqil ölkəsində rahat və azad yaşayır , öz milli mənəviyyatı, milli ənənələri əsasında yaşayır. Bu, ən böyük nemətdir. [482-483]

1999-cu ildə azərbaycanlıların həmrəyliyi, birliyi daha da inkişaf edəcəkdir. Məlumdur ki, Dünya azərbaycanlılarının həmrəyliyi haqqında qərar 1991-ci ilin dekabrında ilk dəfə Naxçıvanda qəbul olunubdur. Biz ötən illər bu prosesi gücləndirmişik və 1998-ci il ərəfəsində Dünya azərbaycanlılarının həmrəyliyinə aid çox sanballı bir sənəd hazırlamışıq. Bu, bütün dünyaya da yayılıbdır.

Mən Dünya azərbaycanlılarının daha da həmrəy olmasını arzu edərək bu gün onlara müraciət edirəm. Biz heç bir ölkənin daxili işinə qarışmırıq. Ancaq hər bir ölkədə yaşayan azərbaycanlı, soydaşımız bizim üçün əzizdir. Biz onların hüquqlarını müdafiə etməyə çalışırıq, hər bir soydaşımızda azərbaycançılıq hissiyyatlarının inkişaf etməsinə və onların bir-biri ilə həmrəy olmasına çalışırıq. Son illər bu sahədə görülən işlər Dünya azərbaycanlılarını bir-birinə daha da yaxınlaşdırıbdır, doğmalaşdırıbdır. Bu, Azərbaycan xalqının tarixində demək olar ki, yeni bir mərhələdir. Ancaq bunun çox böyük gələcəyi vardır. Mən bu gələcəyə çox böyük ümidlərlə baxıram.

Əziz dostlar, beləliklə, 1999-cu il bizim üçün çox bəhrəli il olacaqdır. Mən buna inanıram və sizə də bu inamla müraciət edirəm. Sizin hamınızı təbrik edirəm.

Mən Yeni il təbriklərimi ən öncə Azərbaycanın torpaqlarının keşiyində duran əsgərlərimizə, ordu hissələrində xidmət edən döyüşçülərimizə, övladlarımızagöndərirəm.

Yeni il təbriklərimi şəhid ailələrinə göndərirəm. Şəhid ailələrinin qayğıları bizim daimi qayğılarımızdır. Onlar bu gün bizim üçün daha da əzizdirlər.

Mən yeni il təbriklərimi ağır vəziyyətdə yaşayan, yeni ili çadırlarda qarşılayan, yerindən-yurdundan digərgin düşmüş soydaşlarımıza göndərirəm. Mən bu il çadırların çoxunda oldum, onların vəziyyətini gördüm. Onlar həqiqətən çox ağır vəziyyətdə yaşayırlar. Adi insan üçün bu, bəlkə də dözülməz[483-

484]dir. Ancaq eyni zamanda, onlar öz dözümü, mətanəti ilə Azərbaycan xalqının nə qədər iradəli olduğunu dünyaya nümayiş etdirirlər. Bu günlərin sonu olacaqdır. İnsanlar çadırlardan çıxacaqlar, öz doğma torpaqlarına qayıdacaqlar. Yeni evlər, binalar tikiləcəkdir. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqdır. Ancaq bizim ağır vəziyyətdə yaşayan soydaşlarımız, çadırlarda yaşayan bacı-qardaşlarımız Azərbaycanın çox dəyərli insanları kimi tarixdə həmişə yaşayacaqlar.

Mən çadırda yaşayan hər bir ailəyə xoş əhval-ruhiyyə arzulayıram. Bu gün maddi çətinliklər içərisində yaşayan hər bir ailəyə xoş ovqat arzulayıram. Mən sizinlə birlikdəyəm. Bilin, əgər imkanım olsaydı, mən indi buradan çıxıb gəlib sizinlə birlikdə çadırda oturardım. Ancaq yəqin siz də inanırsınız ki, bu gün, bu bayram günü, dövlətimiz üçün çox məsuliyyətli olan bir gün mənim öz yerimdə olmağım lazımdır.

Mən Azərbaycanın bütün vətəndaşlarını bir daha ürəkdən təbrik edirəm. Dünyada yaşayan azərbaycanlıların hər birinə Yeni il təbriklərimi göndərirəm. Hamıya cansağlığı, səadət, yeni-yeni uğurlar arzulayıram.

Yeni iliniz mübarək olsun! [484]

## ŞƏHİD, QAÇQIN VƏ KÖÇKÜN UŞAQLARI, HABELƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN YENİ İL YOLKA ŞƏNLİYİNDƏ ÇIXIŞ

*Bakı Əyləncə Mərkəzi*

*31 dekabr 1998-ci il*

Əziz balalar, sevimli uşaqlar!

Siz öz varlığınızla, istedadınızla məni hər dəfə sevindirirsiniz. Uşaq hər insan üçün, hər ailə üçün, cəmiyyət üçün xoşbəxtlikdir. Uşaq həyata, cəmiyyətə, insanlara sevinc gətirir. Uşaq hər bir insanı yaşamağa, yaratmağa həvəsləndirir. Hər bir valideyn həyatda yaşayaraq, işləyərək, çalışaraq ilk növbədə qəlbində öz uşaqlarını, öz övladlarını düşünür, onları nəzərə alır və təsadüfi deyil ki, valideynlərin çoxu həmişə belə bir söz işlədirlər ki, mən uşaqlarım üçün yaşayıram. Uşaqlar üçün yaşamaq sözü hər bir valideynin öz uşaqlarına aiddirsə, eyni zamanda hər bir uşağa aiddir. Cəmiyyəti sizin nə qədər sevindirməyiniz, ona nə qədər ruh verməyiniz hədsiz-hüdudsuzdur.

Siz cəmiyyətin, ölkənin, millətin gülüsüz, çiçəyisiniz. İnsan cəmiyyəti daim inkişafdadır. Bu inkişafı təmin edən yeni-yeni nəsillərdir. Əziz balalar, əziz övladlar, siz XXI əsrin qurucularısınız, yaradıcılarısınız. Sizin üzərinizə gələcəkdə çox böyük məsuliyyət düşəcəkdir.

Ancaq bu gün mən sizi müşahidə edərək, sizin istedadınızı görərək, sizin yaşamaq, oynamaq, oxumaq, çalmaq, rəqs etmək istəyinizi, arzunuzu görərək inanıram ki, gələcəkdə siz öz [485-486] üzərinizə düşəcək məsuliyyəti layiqincə yerinə yetirə biləcəksiniz.

Bu gün siz məni bir daha sevindirdiniz. Sizinlə hər dəfə görüş mənə ilham verir, mənə güc verir, mənə qüvvət verir, mənə yaşamaq-yaratmaq arzusu verir. Mən həyatda öz övladlarımı, öz nəvələrimi həmişə çox sevmişəm, indi də çox sevirəm. Elə buraya, sizin yanınıza nəvəm Leyla ilə gəlmişəm. Ancaq Azərbaycanın dövlət başçısı kimi, Azərbaycana on illərlə rəhbərlik etmiş bir şəxs kimi, mənim üçün Azərbaycanın hər bir uşağı mənim öz övladımdır, mənim uşağımdır, mənim nəvəmdir.

Bu gün mən sizi daha da istedadlı gördüm. Uşaq evində yaşamağın, oxumağın da öz xüsusiyyətləri var. Bəlkə də bu, ayrıca bir ailədə yaşamaqdan daha da qiymətlidir. Mən çox məmnunam ki, indi Azərbaycanda uşaq evlərində uşaqlara diqqət və qayğı artıbdır. Biz öz tərəfimizdən çalışmışıq ki, bu qayğını artıraq. Ancaq bu, təkcə bizdən asılı deyildir. Uşaq evlərində çalışan tərbiyəçilərdən, müəllimlərdən, xidmət göstərən insanlardan da asılıdır. Görürəm ki, onlar sədaqətlə xidmət edirlər. Əgər uşaqları sevməsən, bu xidməti etmək mümkün deyil. Bu bayram günü mən arzu edirəm ki, onlar uşaqları daim sevsinlər və uşaqlara daha da diqqətli olsunlar, uşaqlara daha da yaxşı baxsınlar, onları sağlam böyütsünlər.

Sizə isə, əziz uşaqlar, mənim arzum bundan ibarətdir ki, 1999-cu il sizin üçün daha da şən il olsun, daha da sevinclər gətirən il olsun, daha da arzularınızı yerinə yetirən il olsun. 1999-cu ildə sizin bir yaşınız da artacaqdır, siz daha da böyüyəcəksiniz. Həyata atılmaq üçün, sərbəst yaşamaq üçün bir addım da atacaqsınız. Arzu edirəm ki, sizin bu addımlarınız uğurlu olsun. Hamınıza cansağlığı arzu edirəm. Hamınıza bugünkü kimi xoş əhval-ruhiyyə, şən ovqat arzulayıram. Mən istəyirəm ki, həmişə belə sevinc içərisində olasınız. Həmişə belə şən olasınız, həmişə belə oxuyan, oynayan olasınız. Eyni [486-487] zamanda dərslərinizi də yaxşı oxuyasınız, təhsilinizə də diqqət verəsiniz, gələcəyə daha da yaxşı hazırlaşasınız.

Mən sizi sevirəm, sizin hamınızı bağrıma basıram, sizi öpürəm, sizə gələcək sağlam, xoşbəxt, firavan həyat arzulayıram.

Yeni iliniz mübarək olsun, əziz balalar! Sağ olun! [487]

# Q E Y D L Ə R

1. **Qırmızı körpü**, S ı n ı q  k ö r p ü – Azərbaycan Respublikasının Qazax rayonunda orta əsr memarlıq abidəsi. Qazax-Tbilisi yolunda Xramçayın üzərində salınmışdır (XII əsr). Dörd aşırımlı körpünün ümumi uzunluğu 175 m, keçid hissədə eni 4,3 m, girəcəyində isə 12,4m-dir. Qırmızı körpünün hansı xalqa (Azərbaycan, cürcü) mənsub olması mübahisəyə səbəb olsa da memarlıq formaları və işlənmə xüsusiyyətləri onun sırf Azərbaycan memarlığına aidliyini göstərir. – 5-10,121,412,454.

2. **Şevardnadze** E d u a r d  A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. – 5-10.

3. **Cürcüstan**, G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km², əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 5-10,46,76,77,106,107,121,122,124,125,127, 128,131,144,145,147,159,163,164,200,234,307,320,323,375,450,454.

4. **Zurab Jvaniya** (1953-2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1989-cu ildə Gürcüstanda «Yaşıllar» hərəkatını, sonra isə eyni adlı partiyanı yaratmış və onun ilk sədri olmuşdur. 1992-95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 1999-cu il seçkilərdən sonra yenidən bu vəzifəyə seçilmiş, amma iki ildən sonra istefa vermişdir. 2002-ci ildən «Birləşmiş demokratlar» partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında məxməri inqilabın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 5-10,77.

5. **TRASEKA** – bax Avropa –Qafqaz-Asiya nəqliyyat dəhlizi. [488-489]

6. **Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB), AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutaya keçməsi - AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 7,8,65,89,262,322,323.

7. **Avropa- Qafqaz – Asiya nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 7,8,9,89-92,262, 449.

8. **İpək yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 8,67,89-92,204,206,363,449,468,477.

9. **ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB –də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 11-12. [489-490]

10. **Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimoloqiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Mingəçevir əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir Böyük vətən müharibəsindən sonrakı illərdə salınmış

iri sənaye mərkəzlərindəndir. Şəhər Mingəçevir hidrotexniki kompleksinin tikintisi ilə əlaqədar salınmışdır. – 13-16,188-189,251,252.

11. **Məhəmməd Peyğəmbər**, M ə h ə m m ə d i b n A b d u l l a h (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhüssəlam böyük peyğəmbər və «allahın elçisi» sayılmış, «Qurani-Kərimi» xalqa çatdırmışdır. – 15.

12. **Azərbaycan Dövlət Musiqili Komediya Teatrı**, Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı-respublikanın ən böyük müsiqili teatrlarından biri. 1938-ci ilə qədər müsiqili komediyalar Azərbaycan Opera və Balet teatrında oynanılırdı. 1938-ci ildə müstəqil musiqili komediya teatrı yaradıldı. – 17-22,325-332.

13. **Tağıyev Hacı Zeynalabdin Tağı oğlu** (1838-1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev N.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manifaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və bank Şurasının sədri seçilmişdi.

Savadsız olmuş Hacı savadsızlığın acısını duymuş və buna görə də vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O, öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız məktəbi, qadınları işlə təmin etmək üçün Bakıda toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905-[490-491]11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 18,19,20,221,325.

14. **Abbas Mirzə Şərifzadə**, A b b a s m i r z ə M i r z ə Ə b d ü l r ə s u l o ğ l u (1893-1938) – Azərbaycan aktyoru, rejissor, teatr xadimi. Azərbaycan Respublikasının xalq artisti. Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır. V.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. O, Hamlet, Otello və Maqbet rollarının mahir ifaçılarından biri kimi tanınmışdır. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin qurbanlarındandır. – 18.

15. **Mirzağa Əliyev**, M i r z a ğ a Ə l i o ğ l u (1883-1954) – aktyor. SSRİ xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Əliyev 1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Dram teatrında çalışmışdır. O, fitri komediya istedadına, milli koloritə, ifadəli yumor boyaları və zəngin səhnə nüanslarına malik aktyor idi. – 18.

16. **Sidqi Ruhulla**, A x u n d o v R u h u l l a F ə t u l l a o ğ l u (1886-1959) – aktyor. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar Azərbaycan teatrı tarixində mühüm yer tutur. – 18.

17. **Fatma Qədri**, F a t m a Q ə d i r q ı z ı (1907-1968) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. F.Qədrinin yaratdığı səhnə obrazları Azərbaycan teatr sənəti tarixində əhəmiyyətli yer tutur. Təbiilik, həyatilik emosionallıq Qədri yaradıcılığının başlıca xüsusiyyətləri olmuşdur. – 18.

18. **Mərziyə Davudova**, M ə r z i y ə Y u s i f q ı z ı (1901-1962) – aktrisa. Geniş yaradıcılıq diapozonuna malik olan M.Davudova müxtəlif xarkterli rolları eyni ustalıqla ifa etmişdir. Davudova [491-492] Azərbaycan səhnəsində Şekspir faciələrinin ən yaxşı ifaçılarından olmuşdur. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 18.

19. **Ələsgər Ələkbərov**, Ə l ə s g ə r H a c a ğ a o ğ l u (1910-1963) –aktyor. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 18.

20. **Ağasadıq Gəraybəyli**, A ğ a s a d ı q A ğ a l i o ğ l u (1897-1988) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. 1933-cu ildən ömrünün sonuna kimi Azərbaycan Milli Dram Teatrının artisti

olmuşdur. Gəraybəylinin yaradıcılığında güclü dramatik, komik səpgili səhnə obrazları mühüm yer tutur. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. – 18.

21. **Ağadadaş Qurbanov**, A ğ a d a d a ş  G ü l m ə m m ə d  o ğ l u (1911-1965) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. Dramatik səpkili aktyor olan A.Qurbanov komik və xarakterik rollarda da uğurla çıxış etmişdir. Eyni zamanda kino aktyoru olmuşdur. – 18.

22. **Əliş Ləmbəranski**, Ə l i ş  C ə m i l  o ğ l u (1914–1999) – inşaatçı-mühəndis, dövlət xadimi. Ləmbəranski müxtəlif illərdə Azərbaycan SSR Neft Sənayesi nazirinin müavini, Bakı şəhər ZDS İcraiyyə Komitəsinin sədri, SSRİ Nazirlər Soveti yanında Mikrobiologiya Sənayesi Baş İdarəsi rəisinin birinci müavini, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatı idi. – 19,20.

23. Rusiya ictimai televiziyası – bax ORT.

24. **Azər TAc** – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform kimi fəaliyyət göstərmişdir. 1992-cu ildən Azər TAc kimi fəaliyyət göstərir. Azərbaycan respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 25. [492-493]

25. «**Amerikanın səsi**» – ABŞ hökumətinin xarici radioverilişləri idarəsinin adı. 1942-ci ildən fəaliyyət göstərir. Verilişləri 38 dildədir. Retranslyasiya xidmətləri ABŞ-dan başqa B.Britaniyanın, Almaniyanın, Yunanıstanın, bir sıra Asiya və Afrika ölkələrinin ərazisində yerləşir. – 26.

26. **Etibar Məmmədov**, E t i b a r  S a l i d a r  o ğ l u (d.1955) – Azərbaycan Milli İstiqlal partiyasının sədri. 1990-95 və 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 27,40.

27. **Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. 1993-cü il mayın 16-dan isə dövlətə rəhbərlik etmiş Süleyman Dəmirəlin siyasi həyatının mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 28,35,100-101,111-113,121,125,127,138,139,142,158,160,235,371,412.

28. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 34,39,404,450. [493-494]

29. «**Nyu-York Tayms**» – ABŞ-da gündəlik ictimai, siyasi qəzet 1851-ci ildən Nyu-Yorkda «Nyu-York tayms» şirkəti tərəfindən nəşr edilir. – 35,36.

30. **Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 36,37,462-469.

31. **Ceyhan** – Aralıq dənizi sahilində liman. Uzunluğu 1695 km olacaq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilməsi nəzərdə tutulmuşdur. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-ci ildə istifadəyə veriləcək. – 35,36,40,107,113,114,115,116,121,123,125,126,130,131,140,144,145,146, 147,151,152,153,156,157,159,160,162,163,205,206,235,239,411,412,413, 414,415,435,477.

32. «**İtoçu» şirkəti** – Yaponiyanın «İtoçu» korporasiyası 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 37,464,,465.

33. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 37,116,145,156,159,164,165,166,200,412,414,434,435,436, 437,438,449,462-469.

34. «**Niçimen**» – yapon şirkəti. Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir və 1997-ci ildə Bakıda öz nümayəndəliyini açmışdır. Şirkət, əsasən qara metallurgiya, yanacaq, elektrotexnika, kimya və yüngül sənaye sahələri ilə məşğuldur. – 37.

35. «**Mitsui**» – Yaponiyanın qabaqcıl şirkətlərindən biri. 1947-ci ildə təşkil olunmuşdur. Dünyanın 79 ölkəsində nümayəndəliyi var. Əsasən, neftayırma sənayesi ilə məşğul olur. – 37,464. [494-495]

36. «**Yeni Azərbaycan**» – gündəlik ictimai, siyasi qəzet. 1993-cü ildən nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanıdır. Təsisçisi prezident Heydər Əliyev olmuşdur. – 38.

37. **Frans Press** – Fransa informasiya agentliyi. Muxtar kommersiya müəssisəsidir. Havae Fransa məlumat agentliyinin (1835) varisi kimi 1944-cü ildə yaradılmışdır. Parisdə fəaliyyət göstərir. 155 ölkəyə fransız, ingilis, ispan, portuqal, alman və ərəb dillərində informasiya yayır. Bir çox ölkəni beynəlxalq informasiya ilə təchiz edən dünya agentliklərindəndir. – 39.

38. **Azərbaycan Milli İstiqlal Partiyası** – 1991-ci ildə yaranıb. Sağ-mərkəz təmayüllü partiyadır. – 40.

39. **Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı Prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 28,34,35,36,40,45,94-166,184,199,200,235,238,239,240,241, 244,371,373,374,411,412,413,414,415,416,439,477.

40. «**Azad Avropa», «Azadlıq» radiostansiyası** – Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. İlkin mənzil-qərargahı Münhendədir. «Azad Avropa» verilişlərə 1950-ci ildən, «Azadlıq» isə 1953-cü ildən başlamışdır. – 41.

41. «**Literaturnaya qazeta**» – Rusiya Federasiyasında ədəbi, ictimai, siyasi qəzet. 1929-cu ildən Moskvada (fasilələrlə) nəşr edilir. – 41.

42. **ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3-9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində, Azərbaycan Prezidenti Heydər Əliyev [495-496] başda olmaqla, Azərbaycan nümayəndə heyəti fəal iştirak edib. – 42,69,70,261-277,294,369,370,450.

43. «**Ayna-Zerkalo**» – ictimai-siyasi qəzet. 1990-cı ildən nəşrə başlayıb. Əvvəllər həftədə 1 dəfə, 1992-ci ildən isə həftədə 3 dəfə nəşr olunub. 1999-cu ildən «Zerkalo», 2004-cü ildən isə «Ayna» gündəlik çıxır. Hal-hazırda fərqli qəzetlər kimi nəşr olunur. – 43.

44. PKK – burada terrorçu Kürd Fəhlə Partiyası nəzərdə tutulur.

45. **Borçalı** – tarixi mahal. Gürcüstan Respublikasında yerləşir. Borçalıya erkən orta əsrlərdə türkdilli tayfalar, XVI-XVII əsrlərdə isə kütləvi surətdə azərbaycanlılar köçmüşdü. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsədə çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işgal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. – 46,453,454.

46. 1993-**cü ildə vətəndaş müharibəsi** – burada 1993-cü ilin may –iyun hadisələri nəzərdə tutulur.

47. **Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq. [496-497]

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 59,60,61,62,76,320,478.

48. **Transqafqaz neft kəməri** – bax Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi.

49. **Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 65,317-324,421,481.

50. **Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 65,322,421,481.

51. **ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı.

1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 69,70,98,152,191,211-217,257,262,263,265, 267,268,269,270,271,294,295,369,479. [497-498]

52. **ATƏT-in Budapeşt Zirvə görüşü** – 1994-cü il dekabrın 3-7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində bütün regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 69,262,268.

53. **ATƏT-in Lissabon Zirvə görüşü** – 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 69,138,216,257,262,268,269,479.

54. **Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizam- naməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 70,142,303-316,364-370,417. [498-499]

55. **Səməd Vurğun**, S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906-1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şerinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 75.

56. **Boris Nikolayeviç Pastuxov** (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1977-86-cı illərdə ÜİLKGİ MK –nın birinci katibi, 1986-92-ci illərdə diplomatik işdə, 1992-96-cı illərdə Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini, 1998-99-cu illərdə MDB üzrə nazir. 2000-ci ildən Dumanın deputatıdır. – 76.

57. **Berezovski**, B o r i s A b r a m o v i ç (d.1946) – texnika elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü. Rusiyanın ən böyük oliqarxlarından biri. Hazırda mühacirətdə – İngiltərədə yaşayır. – 76.

58. **Lyudmila Zıkina**, L y u d m i l a G e o q g i y e v n a (d.1929) – görkəmli rus müğənnisi. Repertuarının əsasını rus xalq mahnıları təşkil edir. Azərbaycan və SSRİ xalq artisti, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanıdır. – 76.

59. **Məshədov Aslan** (1952-2003) – 1995-ci ildən tanınmamış Çeçenistan Respublikasının prezidenti. – 78.

60. **Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Dövlət başçısı – prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 85-88,107,108,121,122,123,124,125,127,128,135,142,144, 159,163,373.

61. **Sovetlər İttifaqı**, S o v e t S o s i a l i s t R e s p u b l i k a l a - r ı İ t t i f a q ı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-[499-500]cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 85,95,242,243,282,283,304,320,335,353,355, 359,360,373,380,406,407.

62. **Nazarbayev Nursultan**, N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 87,121,125,127.

63. **TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana və region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 89-92.

64. **Almaniya**, A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFP tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı

prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 93.

65. **Çerhard Şroder** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990-98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir- prezidenti, 2000-06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 93.

66. **Mustafa Kamal Atatürk**, Q a z i M u s t a f a K a m a l (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi [500-501] və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 94, 99,100,102,104,109,112,113,133,134,138,148,151,160,240,241.

67. **Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. Azərbaycan respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. – 95,280.

68. **Böyük Millət Məclisi** (BMM) – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. –102-103,133,139. [501-502]

69. **Osmanlı imperiyası**, O s m a n l ı i m p e r a t o r l u ğ u – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV-XVI əsrlərdə Asiya, Avropa və Afrikada türk işğalları nəticəsində dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsində məğlubiyyətindən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 100,240.

70. **Hikmət Çetin** (d.1937) – Türkiyənin siyasi və dövlət xadimi. Ayrı-ayrı illərdə Türkiyə Respublikasının xarici işlər naziri, baş nazirin müavini vəzifələrində çalışmışdır. 1997-99-cu illərdlə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 102-103.

71. **Məsud Yılmaz** (d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanıdır. – 104-105,121,127,143,148,150-153,154-155,160,162.

72. **A z ə r b a y c a n B e y n ə l x a l q Ə m ə l i y y a t Ş i r k ə t i** (**ABƏŞ**) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 107,116,144,164,412.

73. **Özbəkistan**, Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12

vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 107,121,122,124,125,127,128,135,159,163, 373,395-398,448.

74. **Murtuz Ələsgərov**, M u r t u z   N ə c ə f   o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr [502-503] müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmuşdur. – 108,383.

75. **Bill Klinton**, U i l y a m   C e f e r s o n   B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 114,115,130,131,213, 214,411,412,413.

76. **Albert Qor** (d.1948 ) – Amerikanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1992-2000-ci illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. – 114,115,130,131,411,412,413.

77. **İlham Əliyev**, İ l h a m   H e y d ə r   o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Prezident Heydər Əliyevin oğludur. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən həmin şirkətin birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin ordenləri ilə təltif olunmuşdur.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də, AMOK-un prezidenti kimi İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini vəzifəsinə seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası [503-504] Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 116,412.

78. **Yan Kalitski**, K a l i t s k i   Y a n (d.1948) — ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, ticarət nazirliyinin xüsusi müşaviridir. – 115.

79. **Natiq Əliyev**, N a t i q   A g a ə l i   o ğ l u (d.1947) – 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir. 2006-cı ildən isə Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 116,412,415,435,436.

80. **Bosfor** – Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,7 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. – 116.

81. «**AMOKO**» – dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. «AMOKO» Şimali Amerikada ən böyük təbii qaz istehsalçısıdır. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 116,162.

**82. «Bi-Pi»**, «B r i t i ş   P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 116,434.

83. **Saparmurad Niyazov**, S a p a r m u r a d   A t a   o ğ l u (d.1940) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ildə Türkmənistan SSR-in Nazirlər Sovetinin sədri, 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Türkmənistan Respublikasının prezidentidir. – 117-120,165-166. [504-505]

84. **İslam Kərimov**, İslam Abduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989-1990-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 121,125,127,397.

85. **«Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 122,140,463.

86. **Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 122,128,143,145,463.

87. **Atəşkəs** – 1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 137.

88. **Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı - Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 116,145,156,435.

89. **«Mərmərə» qrupunun Strateji və Sosial Araşdırmalar Vaqfı** – 1985-ci ild İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmldi dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 132-147,184.

90. **Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri - XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir [505-506] türbəsini, Mömünə xatun türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 153.

91. **Abbas Abbasov**, Abbas Aydın oğlu (d.1949) – 1992-2006-cı illərdə Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 175.

92. **Vasif Talıbov**, Vasif Yusif oğlu (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 1995-ci ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 176,199.

93. **Fikrət Yusifov**, Fikrət Hüseyn oğlu (d.1957) – iqtisad elmləri namizədi. 1994-1999-cu illərdə Azərbaycan Respublikasının maliyyə naziri olmuşdur. – 177,190.

94. **Kəmaləddin Heydərov**, Kəmaləddin Fəttah oğlu (d.1961) – gömrük xidməti general – polkovniki. 1995-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. – 179.

95. **Artur Rasizadə**, Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 179,196,200,201,202,334,335.

96. **Əliyev İrşad**, İrşad Nadir oğlu (d.1944) –1992-94-cü illərdə Respublika Qaçqınlar və Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri, 1994-cü ildən 2004-cü ilə qədər Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. – 181.

97. **Şərifov Abid**, Abid Qoca oğlu (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. – 184,443.

98. **Eldar Həsənov**, Eldar Hümbət oğlu (d.1955) – 1995-2000-ci illərdə Azərbaycan Respublikasının baş prokuroru olmuşdur. 2001-[506-507]ci ildən Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 186, 189,190,198.

99. **Ramiz Mehdiyev**, R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da təşkilat partiya işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. – 189,190.

100. **Əli Nağıyev** (d.1954) – 1996-2006-cı illərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri olmuşdur. 2006-cı ilin mayında Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.– 189,198.

101. **Azərbaycan Milli Bankı**, Azərbaycan Dövlət Milli Bankı- Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB, həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 190.

102. **Elman Rüstəmov**, E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Milli Bankı İdarə Heyətinin sədridir. – 190.

103. **İzzət Rüstəmov**, İ z z ə t Ə ş r ə f o ğ l u (d.1932) – fəlsəfə elmləri doktoru, professor. 1994-1998-ci illərdə Azərbaycan [507-508] Respublikası Baş nazirinin müavini, «Qaçqınkom»un sədri olmuşdur. – 193,194,196,197, 198.

104. **Surət Hüseynov**, S u r ə t D a v u d o ğ l u (d.1959) – 1993-94-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 204,238,239.

105. **Mehriban Əliyeva**, M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988-93-ci illərdə Krasnov adına Moskva Elmi –Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan –İrs» jurnalını təsis etmişdir. 2004-cu ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunub.

2004-cü ildə Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Həmin ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən isə Milli Məclisin izvüdür. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 208,209.

106. **İqor Moiseyev**, İ q o r A l e k s a n d r o v i ç (d.1906) – balet artisti, baletmeyster. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət [508-509] mükafatı laureatı. 1924-39-cu illərdə Böyük Teatrın solisti olmuşdur. Moiseyev xalq səhnə rəqslərinin yaradıcılarındandır. – 208-210.

107. **Əminə Dilbazi**, Ə m i n ə P a ş a q ı z ı (d.1919) – rəqqasə, baletmeyster və pedaqoq. Azərbaycanın xalq artisti. 1935-ci ildən rəqqasəlik fəaliyyətinə başlamışdır. 1936-69-cu illərdə M.Maqomayev adına Azərbaycan

Dövlət Filarmoniyası Mahnı və Rəqs ansamblının solisti, 1939-cu ildən isə həm də müxtəlif rəqs qruplarının rəhbəri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 209.

108. **Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. – 212,214.

109. **Yeltsin Boris Nikolayeviç** (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 214.

110. **Fikrət Əmirov**, F i k r ə t C ə m i l o ğ l u (1922-1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yazan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 220-226,278.

111. **Azərbaycan Dövlət Opera və Balet Teatrı** – Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 220-226.

112. **Cəfər Cabbarlı**, C ə f ə r Q a f a r o ğ l u (1899-1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədə[509-510]biyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 221.

113. **Rəşid Behbudov**, R ə ş i d M ə c i d o ğ l u (1915-1989) – böyük Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Dünyanın bir çox ölkələrində uğurla keçən qostrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 222,224.

114. **Firəngiz Əhmədova**, F i r ə n g i z Y u s i f q ı z ı (d.1928) – görkəmli Azərbaycan müğənnisi, SSRİ xalq artisti. F.Əhmədova Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış edib. O, kamera-vokal əsərlər ifaçısı kimi də məşhurdur. – 222.

115. **Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. TÜRKSOY Beynəlxalq Təşkilatının Baş direktorudur. Mahnıları 1960-70-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988-2005-ci illər Azərbaycan Respublikasının mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada fövqəladə və səlahiyyətli səfiridir.– 223,225,325.

116. **Fərhad Bədəlbəyli**, Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ xalq artisti. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni lə təltif olunmuşdur. – 222,223.

117. **Xuraman Qasımova**, X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976-2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Kinofilmlərə də çəkilmişdir. Pedaqoji fəaliyyət göstərir. – 222,223,224,225. [510-511]

118. **Fidan Qasımova**, Q a s ı m o v a F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 223,224.

119. **Lütfiyar İmanov**, L i t f i y a r M ü s l ü m o ğ l u (d.1928) – Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ xalq artisti. 1959-cu ildən M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının

solistidir. L.İmanov gözəl, məlahətli və geniş diapozonlu səsə malikdir. Onun repertuarında Azərbaycan xalq mahnıları, romanslar mühüm yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 224.

120. **Azər Zeynalov**, Z e y n a l o v  A z ə r  Z e y n a l a b d i n  o ğ- l u (d.1964) – müğənni. Azərbaycan Respublikasının xalq artisti. – 224, 225.

121. **Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 227-257.

122. 1993-**cü ilin may-iyun ayları**. Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 236,237,243. [511-512]

123. **Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 238.

124. **Müsavat partiyası** – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 239.

125. **Əbülfəz Elçibəy**, Ə l i y e v  Ə b ü l f ə z  Q ə d i r q u l u  o ğ l u (1938-2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 238,239.

126. **Rəhim Qazıyev**, R ə h i m  H ə s ə n  o ğ l u (d.1943) – texnika elmləri namizədi. 1992-93-cü illərdə Azərbaycan Respublikasının müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur. – 238.

127. 1995-**ci ilin martında dövlət çevrilişi cəhdi**. Martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 238,239,285,291.

128. **Mütəllibov** Ayaz  N i y a z i  o ğ l u (d.1938) - 1989-90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 239.

129. **Belovej razılığı**, (8.12.1991) – Sovet Sosialist Respublikaları İttifaqının beynəlxalq subyekt kimi varlığına son qoyulması barədə RSFSR, Belorusiya və Ukrayna tərəfindən imzalanmış saziş. Onlar burada Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasını elan etdilər. – 243. [512-513]

130. **Qorbaçov**, M i x a i l  S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnusdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. – 243.

131. **Rasim Ocaqov**, R a s i m M i r q a s ı m o ğ l u (d.1933) – Azərbaycan kino rejissoru və operatoru. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. 1956-cı ildən «Azərbaycanfilm» kinostudiyasında işləyir. Əvvəllər operator kimi, 1974-cü ildən isə rejissor kimi fəaliyyət göstərir. Azərbaycan Kinematoqrafiya İttifaqının katibidir. Filmləri «Tütək səsi», «Ad günü», «İstintaq», «Bağlı qapı» və s.-dir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 258,389.

132. **Həsən Məmmədov**, H ə s ə n A ğ a m ə m m ə d o ğ l u (1938-2001) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. 1962-ci ildən kinoda fəaliyyət göstərir. «Böyük dayaq», «Arşın mal alan», «Bir cənub şəhərində», «Yeddi oğul istərəm», «Dədə Qorqud» və s. filmlərdə çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,388.

133. **Polşa**, P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km², əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunvericisi orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. –261-277.

134. **Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991-1995-ci illərdə Polşa Seyminin deputatı olmuşdur. 1995-2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 261,262,265,267, 274,277. [513-514]

135. **Tahir Salahov**, T a h i r T e y m u r o ğ l u (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSR-nin rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan muasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monimental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsuislə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 278-279.

136. **Sabir**, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ l u T a h i r z a d ə (1862-1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 278.

137. **Dmitri Şostakoviç**, D m i t r i D m i t r i y e v i ç (1906-1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12,14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının fəxri üzvü olmuşdur. – 278.

138. **Qara Qarayev**, Q a r a Ə b u l f ə z o ğ l u (1918-1982) – böyük Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 278,382.

139. **Rəsul Rza**, R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910-1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. – 278. [514-515]

**140.** 1990-**cı ilin yanvarında Azərbaycanda faciə baş verdi**. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 283,290.

141. **Skuratov Yuri**, Y u r i İ l i ç (d.1941) – hüquqşünas, hüquq elmləri doktoru. 1997-2999-ci illərdə Rusiya Federasiyasının Baş prokuroru olmuşdur. – 287.

142. **MDB** - bax Müstəqil Dövlətlər Birliyi.

143. **Maykl Debeyki** (d.1908) – dünya şöhrətli ürək cərrahı. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb mərkəzində 1949-cu ildən çalışır. Debeyki tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə 1966-cı ildə istifadə edilmişdir. – 300-302.

144. **Hyüston** – ABŞ-ın cənubunda şəhər və port. Texas ştatındadır. Əhalisi təqribən 2 milyon nəfərdir. Demək olar ki, dünyanın bütün ölkələri ilə biznes və ticarət əlaqələri saxlayır. Hyüston ABŞ-ın neft biznesinin mərkəzidir. – 301,302.

145. **NASA** – ABŞ-ın Aeronavtika və Kosmik Fəzanın Tədqiqi üzrə Milli İdarəsi.

146. «**Eksson**» – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 301,302. [515-516]

147. **Baltikyanı respublikalar** – burada Latviya, Litva və Estoniya respublikaları nəzərdə tutulur.

148. **Üzeyir Hacıbəyov**, Hacıbəyov Üzeyir Əbdülhü-seyn oğlu (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional müsiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 325-332,357,390.

149. **Cənnət Səlimova**, Cənnət Əlibəy qızı (d.1940) – rejissor. Azərbaycan Respublikasının xalq artisti. – 326.

150. **Hüseyn Seyidzadə**, Hüseyn Əli Oğlu (1910-1979) – Azərbaycan kino rejissoru. Yaradıcılığa teatr aktyoru kimi başlamışdır. «O olmasın, bu olsun», «Yenilməz batalyon», «Dəli Kür», «Qaynana» bədii filmləri Seyidzadənin ən yaxşı rejissor işlərindəndir. – 326.

151. **Hacıbaba Bağırov**, Hacıbaba Agarza oğlu (d.1933) – Azərbaycan Respublikasının xalq artisti. 1962-ci ildən 1988-ci ilədək Ş.Qurbanov adına Musiqili Komediya Teatrında işləyib. 1989-cu ildə «Tənqid-təbliğ» satira teatrını yaradıb. 1996-cı ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 326,330,332.

152. **Afaq xanım**, Səfərova Afaq Bəşir qızı (d.1955) – Azərbaycan Respublikasının xalq artisti. «Qızıl Dərviş» mükafatı laureatı. 1989-cu ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında fəaliyyət göstərir. – 326.

153. **Elçin Əfəndiyev**, Elçin İlyas oğlu (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 328,331,379.

154.**Mirzə Fətəli Axundov** (1812-1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı [516-517] tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850-55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 332,357.

155. **Nəcəfbəy Vəzirov**, Nəcəfbəy Fətəlibəy oğlu (1854-1926) – Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri idealları tərənnüm edən «Müsibəti Fəxrəddin» dramı Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. – 332.

156. **Ziya Məmmədov**, Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996-2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 334,335,336.

157. **Baykal-Amur magistralı** (BAM) – Rusiyanın Şərqi Sibirdə və Uzaq Şərqdə Sakit okeana çıxan dəmir yol magistralı. Ümumi uzunluğu 4300 km-dir. Tikintisinə 1940-cı ildən başlanmışdır. 1989-cu ildə istifadəyə verilmişdir. – 335.

158. **Uzaq Şərq** – Şərqi Asiyada ərazi. Buraya Rusiya, Çin, Koreya (KDXR və Koreya Respublikası) və Yaponiyanın ərazilərinin şərqi aiddir. Bəzən Filippini də Uzaq Şərqə aid edirlər. – 335,478.

159. **Vladivostok** – Rusiya Federasiyasında (1880-ci ildən) şəhər, Primorsk diyarının mərkəzi, Sakit okean sahilində liman. – 335.

160. **Əli Həsənov**, Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis –mexanik, politoloq. 1998-ci ildən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1996-2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 339.

161. **Çingiz Aytmatov** (d.1928) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976-1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazın daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusudur. – 341.

162. **Nizami Gəncəvi**, İ l y a s Y u s i f o ğ l u (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 352,357,377,378. [517-518]

163. **Füzuli** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 352,357,377,378.

**164. Nəsimi**, əsl adı S e y i d Ə l i (1369-1417) – böyük Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 352,357,377,378.

165. **Tusi**, N ə s i r ə d d i n M ə h ə m m ə d i b n H ə s ə n (1201-1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 352.

166. **Qətran Təbrizi**, Əbu Mənsur (1012-1088) – böyük Azərbaycan şairi. Təbrizi aşiqanə serləri, gözəl təbiət təsvirləri ilə Azərbaycan poeziyasına yenilik gətirmişdir. Yaradıcılığında hökmdarlara həsr edilmiş qəsidələr mühüm yer tutur. – 352.

167. **Ziya Bünyadov**, Z i y a M u s a o ğ l u (1921-1997) – görkəmli Azərbaycan alimi, şərqşünas-tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941-45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan [518-519] Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989-97-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 360.

168. **Cahangir Qəhrəmanov**, C a h a n g i r V a h i d o ğ l u (1927-1995) – filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi. C.Qəhrəmanov qədim Azərbaycan əlyazmalarının tədqiqi nə nəşrə hazırlanması, linqvistik, mənbəşünaslıq və Azərbaycan dili, tarixi üzrə mütəxəssis olmuşdur. – 360.

169. **Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 361,382.

170. **Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 361,384.

171. **Albaniya**, A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 mik km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 373.

172. **Bosniya – H e r s o r o v i n a**, Bosniya – Hersoqovina Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 51,1 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Sarayevo şəhəridir. – 373. [519-520]

173. **Məkkə** – Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 374.

174. **Mədinə** – Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adi Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissalamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərindən biridir. – 374.

175. **Bağdad** – İraqın paytaxtı. Bağdadın əsası 762-ci ildə qoyulmuşdur. Abbasilər dövlətinin mərkəzi olmuşdur. IX-X əsrlərdə Yaxın Şərqin ən böyük iqtisadi və mədəni mərkəzi olmuşdur. 1921-58-ci illərdə İraq krallığının, 1958-ci ildən isə İraq Respublikasının paytaxtıdır. – 374.

176. **Kərbala** – İraqda şəhər. Müsəlmanların müqəddəs şəhəri. Əsası VII əsrdə qoyulmuşdur. Məhəmməd əleyhüssalamın nəvəsi imam Hüseynin qəbri Kərbəladadır. Böyük Azərbaycan şairi Füzuli Kərbalada doğulmuş, orada yaşayıb-yaratmış və orada dəfn edilmişdir. – 374.

177. **İrəvan**, R ə v a n,  E r i v a n,  Y e r e v a n, – orta əsrlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVİ əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya–İran müharibəsi (1826-28) dövründə, Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya birləşdirildi. XİX əsrin 20-30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında Daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İrəvan şəhərini «paytaxtı» olmayan Ermənistan Respublikasına güzəştə getdi. – 375.

178. **Zəngəzur mahalı**, Z ə n g ə z u r  q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar [520-521] Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 375.

179. **Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1501-1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdır. 1829-32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar, qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə demək

olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 375.

180. **Zəngibasar** – İrəvan xanlığının 15 mahalından biri. Çar hökuməti işğal prosesində və Türkmənçay müqaviləsi (1828) imzalandıqdan sonra, digər Azərbaycan torpaqları kimi, Zəngibasar mahalına da ermənilərin kütləvi şəkildə köçürülməsi planını həyata keçirdi. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi İrəvan əyalətinin (eyni zamanda Zəngibasar mahalının) etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal ermənisləşdirilməyə başlandı. Zəngibasar toponimi çox ehtimal ki, qədim türk mənşəli Zəngi və Bazar tayfalarının adını əks etdirir. – 375.

181. **Bəxtiyar Vahabzadə**, Bəxtiyar Mahmud oğlu (d.1925) – Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın [521-522] akademikidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 380.

182. **İsa Hüseynov**, İsa Mustafa oğlu (d.1928) – Azərbaycanın xalq yazıçısı. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur.Onlarla povest və romanlar müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 381.

183. **Cəlal Əliyev**, Cəlal Əlirza oğlu (d.1928) – bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Azərbaycan Milli EA-nın akademiki, əməkdar elm xadimi, Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü, Ukrayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü, Beynəlxalq Elmi İnkişaf Şurasının – Beynəlxalq EA Azərbaycan Bölməsinin fəxri prezidentidir. Azərbaycan MEA-nın Botanika İnstitutunda məhsuldarlıq proseslərinin molekulyar- genetik əsasları şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan MEA Rəyasət Heyətinin üzvüdür.

Cəlal Əliyevin başçılığı ilə respublikada genetik ehtiyatların öyrənilməsi üzrə və «Biomüxtəliflik» milli proqramları həyata keçirilir. C.Əliyev həm də vətənimizin ərazi bütövlüyü, ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlət quruculuğu uğrunda mübarizə aparan görkəmli ictimai xadimdir. Azərbaycan Respublikası Milli Məclisinin (1995-ci ildən) deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 382.

184. **Arif Məlikov**, Məlikov Arif Cahangir oğlu (d.1933) – bəstəkar. Azərbaycan Respublikası və SSR-i xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 382.

185. **Azad Mirzəcanzadə**, Azad Xəlil oğlu (d.1928) – tətbiqi mexanika və neft-mədən işləri sahəsində alim, texnika elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Tədqiqatları tətbiqi mexanika, neft və qaz-kondensat yataqlarının işlənilməsinə həsr olunmuşdur. 1992-2002-ci illərdə Azərbaycan Ali Attestasiya komissiyasının sədri olmuşdur. Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 384. [522-523]

186. **Kərim Kərimov**, Kərim Abbasəli oğlu (1917-2003) – Azərbaycanın görkəmli hərbi xadimi – general-leytenant. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. – 385.

187. **Qurban Abbasov**, Qurban Abbasqulu oğlu (1926-1994) – neftçi mühəndis. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Abbasov açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarındandır. 1992-94-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin baş müşaviri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 385.

188. **Nəbi Xəzri**, Nəbi Ələkbər oğlu Babayev (d.1924) - Azərbaycanın xalq şairi, dramaturq, ictimai xadim . Əsərlərində müasirlərimizin zəngin mənəvi aləmi, təəssübkeşlik, doğma Vətən təbiətinin gözəllikləri tərənnüm edilir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin katibi,

Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. «Azərbaycan Dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 385,386.

189. **Yusif Səmədoğlu**, V ə k i l o v Y u s i f S ə m ə d o ğ l u (1935-1998) – Azərbaycan yazıçısı və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Milli Məclisin deputatı və parlamentdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının sədri, Azərbaycan Yazıçılar Birliyinin birinci katibi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 386.

190. **Vaqif Vəkilov**, V a q i f S ə m ə d o ğ l u (d.1939) – Azərbaycanın xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar incəsənət xadimi. «Bəxt üzüyü» və «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. Bir çox şer kitabları çıxmışdır. Vaqif Vəkilov 2000-ci ildən Milli Məclisin üzvüdür. – 386. [523-524]

191. **İbrahim Səfərov**, İ b r a h i m S ə f ə r o ğ l u (1913-1998) – meşəçi alim, elmlər doktoru, professor, MEA-nın müxbir üzvü. Tədqiqatları meşəçilik, biogeosenologiya, meşələrin məhsuldarlığının artırılması, yeni meşələrin və tarlaqoruyucu meşə zolaqlarının salınması, təbiətin qorunması və s. haqqındadır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 387.

192. **Böyükkişi Ağayev**, B ö y ü k k i ş i A ğ a o ğ l u (d.1928) – cərrah, tibb elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Tədqiqatları qarın həzm sisteminə (qastroentenrologiya), onkologiyaya, ümumi cərrahiyyəyə həsr olunmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 387.

193. **Gülxar Həsənova**, G ü l x a r İ b r a h i m q ı z ı (1918-2006) – müğənni. Azərbaycan Respublikasının xalq artisti. 1942-80-ci illərdə Azərbaycan Dövlət Akademik Opera Balet Teatrının solisti olmuşdur. 1980-ci ildən sonra isə teatrın məşqçi pedaqoqu kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 389.

194. **Müslüm (Əbdülmüslüm) Maqomayev** (1885-1937) – görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M.Maqomayevin «Şah İsmayıl» operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. – 390.

195. **YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 404,405.

196. **Leonid Kravçuk**, L e o n i d M a k s i m o v i ç (d.1934) – Ukraynanın dövlət və siyasi xadimi. Ukraynanın ilk prezidenti (1991). – 405. [524-525]

197. **Emil Konstantinesku** (d.1939) – Rumıniyanın siyasi və dövlət xadimi. 1992-1996-cı illərdə Buxarest universitetinin rektoru. 1996-2000-ci illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 405.

198. **Helmut Kol** (d.1930) –Almaniyanın görkəmli siyasi və dövlət xadimi. 1973-98-ci illərdə Xristian-Demokratlar İttifaqının sədri, 1982-98-ci illərdə isə AFR-də kansler olmuşdur. H.Kolun ən böyük xidməti ikiyə bölünmüş Almaniyanı birləşdirməsi olmuşdur. – 405.

199. **Federiko Mayor** (d.1934) – biokimyaçı. 1968-72-ci ilə qədər Qranada universitetinin rektoru. 1972-1976-cı illərdə İspaniyanın Dövlət katibi və Təhsil və Elm naziri olmuşdur. 1981-ci ildən Avropa parlamentinin üzvü, 1987-99-cu illərdə YUNESKO-nun Baş katibi olmuşdur. – 405.

200. **Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) xilaskar allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 412.

201. **«ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 414.

202. **«Frontera Resoursez»** – özəl beynəlxalq enerji şirkəti. Baş ofisi Hyüston şəhərindədir. Şirkət yeni meydana çıxan beynəlxalq bazarlarda energetika layihələrinin tədqiqi ilə məşğuldur. Azərbaycanda nümayəndəliyi var. Şirkət Azərbaycanda quruda yerləşən neft yataqlarının kəşfiyyatı və işlənməsi ilə də məşğul olmaq niyyətindədir. – 414,434.

203. **«Şell»** – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 415,416. [525-526]

204. **«Lazma»** – İngiltərə şirkəti. Əlcəzairdə, Qabonda, Liviyada İndoneziyada neftin çıxarılması ilə məşğul olur. 2001-ci ildə «Eni» şirkəti ilə birləşib «Eni-Lazma» adlanır. – 415,416.

205. **Şöhrət Vəkilov**, Ş ö h r ə t M u s a o ğ l u (d.1957) – iqtisadçı. 1994-1999-cu ilə qədər Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin rəisi olmuşdur. – 426.

206. **Teymur Rəcəbov**, T e y m u r B o r i s o ğ l u (d.1987) – beynəlxalq qrossmeyster. Dünyanın böyüklər arasında 100 ən yaxşı şahmatçıları arasında 12-ci, gənclər arasında 20 ən yaxşı şahmatçıları arasında 1-ci yeri tutur. 2004-cü il dünya şahmat çempionatında 3-cü, 2005-ci il Avropa çempionatında 2-ci yeri tutmuşdur. – 446-447.

207. **Vüqar Həşimov**, V ü q a r Q a s ı m o ğ l u (d.1986) –beynəlxalq qrossmeyster. 2004-cü ildə gənclər arasında dünya və Avropa şahmat çempionatlarında 2-ci yeri tutmuşdur. – 446-447.

208. **Qədir Hüseynov**, Q ə d i r B ə h r u z o ğ l u (d.1986) – beynəlxalq qrossmeyster. Gənclər arasında Avropa şahmat çempionatının mükafatçısıdır. – 446-447.

209. **Rauf Məmmədov**, R a u f Ə h m ə d o ğ l u (d.1988) – beynəlxalq qrossmeyster. 2004-cü ildə gənclər arasında Avropa şahmat çempionatında 1-ci yeri tutmuşdur. – 447.

210. **Luçinski Petru** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir. – 448-450.

211. **GUAM** - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi.

2006-cı ilin mayından bu beynəlxalq qurum «Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat – GUAM» adlandı. – 450. [526-527]

212. **Zəlimxan Yaqub**, Z ə l i m x a n U s u b o ğ l u (d.1950) – xalq şairi. «Könlümün səsi», «Yolun eldən başlanıb», «Od aldığım ocaqlar», «Ziyarətin qəbul olsun» və s. kitabların müəllifidir. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 451-454.

213. **Xan** – burada xanəndə Xan Şuşinski nəzərdə tutulur.

214. **«Dinamo»** – Azərbaycanda ilk idman cəmiyyəti. Respublikada yayılmış bütün idman növlərinin inkişafında «Dinamo»nun mühüm rolu olmuşdur. Azərbaycan idmanının inkişafında Avropa, dünya və Olimpiya oyunları çempionu olmuş dinamoçuların böyük xidməti olmuşdur. –470-474.

215. **«Azərsun holdinq»** – ticarət mərkəzi. 1997-ci ildə təsis olunub. «Azərsun holdinq»in istehsal ehtiyi məhsullar MDB ölkələrinə və Avropaya ixrac edilir. – 473. [527]

# Şəxsi adlar göstəricisi


**Abbasov Abbas** – 175
**Abbasov Qurban** – 385
**Afaq** – 326
**Ağayev Böyükkişi** – 387
**Axundov Mirzə Fətəli** – 332,357
**Akayev Əsgər** – 148,405
**Atatürk Mustafa Kamal** – 94,99,100,102,104,109,112,113, 133,134,138,148,151,160,240,241
**Auşev Ruslan** – 78
**Aytmatov Çingiz** – 341
**Bağırov Hacıbaba** – 326,330,332
**Baldimbayev Nurlan** – 87
**Behbudov Rəşid** – 222,224
**Berezovski Boris** – 76
**Bədəlbəyli Fərhad** – 222,223
**Bünyadov Ziya** – 360
**Cabbarlı Cəfər** – 221
**Cabbarov Muradxan** – 385
**Camalov Əlihüseyn** – 201
**Carimov Aslan** – 79
**Cəfərov Cavanşir** – 223
**Cəfərov Salman** – 189,190
**Cəm İsmayıl** – 115
**Çətin Hikmət** – 102-103,121,128
**Davudova Mərziyə** – 18
**Debeyki Maykl** – 300-302
**Dəmirəl Süleyman** – 28,35,100-101,111-113,121,125, 127, 138,139,142,158,160, 235,371,412
**Dilbazi Əminə** – 209
**Dzasoxov Aleksandr** – 79
**Elçibəy Əbülfəz** – 238,239[528-529]
**Əbdürəhmanov Əbdüqafar** – 398
**Əcəmi Əbu Bəkr** – 153
**Əfəndiyev Elçin** – 328,331,379
**Əfəndiyev Kamandar** – 453,454
**Əhmədova Firəngiz** – 222
**Ələkbərov Ələsgər** – 18
**Ələsgərov Murtuz** – 108,383
**Əliyev Cəlal** – 382
**Əliyev İlham** – 116,412
**Əliyev İrşad** – 181
**Əliyev Mirzağa** – 18
**Əliyev Natiq** – 116,412,415,435,436
**Əliyeva Mehriban** – 208,209
**Əmirov Fikrət** – 220-226,278
**Ərsümər** – 76
**Fatma Qədri** – 18
**Füzuli** – 352,357,377,378
**Geremek Bronislav** – 261-277,294
**Gəraybəyli Ağasadıq** – 18
**Hacıbəyov Üzeyir** – 325-332,357,390
**Haşimoto** – 37,464,468
**Heydərov Kəmaləddin** – 179
**Həsənov Eldar** – 186,189,190,198
**Həsənov Əli** – 339
**Həsənova Gülxar** – 389

**Həşimov Vüqar** – 446-447
**Hüseynquliyev Əvəz** – 189
**Hüseynov İsa** – 381
**Hüseynov Qədir** – 446-447
**Hüseynov Surət** – 204,238,239
**Xubiyev Vladimir** – 79
**İhsanoğlu Ekmələddin** – 349,360
**İmanov Müslüm** – 199,437,440,443
**İmanov Lütfiyar** – 224
**İsmayılova Tükəzban** – 456
**İvanov İqor** – 76,272
**Jvaniya Zurab** – 5-10,77
**Kalitski Yan** – 115
**Kayzer Donald** – 213[529-530]
**Kərimov İslam** – 121,125,127,397
**Kərimov Kərim** – 385
**Klinton Bill** – 114,115,130,131,213,214,411, 412,413
**Kokov Valeri** – 78
**Kol Helmut** – 405
**Kolomeytseva Nina** – 385
**Konstantinesku Emil** – 405
**Kravçuk Leonid** – 405
**Kvasnevski Aleksandr** – 261,262,265,267,274,277
**Qarayev Qara** – 278,382
**Qasımova Fidan** – 223,224
**Qasımova Xuraman** – 222,223,224,225
**Qazıyev Rəhim** – 238
**Qəhrəmanov Cahangir** – 360
**Qətran Təbrizi** – 352
**Qor Albert** – 114,115,130,131,411,412,413
**Qorbaçov Mixail** – 243
**Qurbanov Ağadadaş** – 18
**Qurbanov Səid** – 455
**Qutseriyev Mixail** – 76
**Ləmbəranski Əliş** – 19,20
**Luçinski Petru** – 448-450
**Matus-Marçuk Alekşandr** – 210
**Mayor Federiko** – 405
**Maqomayev Müslüm** – 390
**Mehdiyev Ramiz** – 189,190
**Medvedko** – 361
**Məhəmməd (Əleyhüssəlam)** – 15
**Məhəmmədov Məhəmmədəli** – 78
**Məlikov Arif** – 382
**Məmmədov Etibar** – 27,40
**Məmmədov Həsən** – 259,388
**Məmmədov İsmayıl** – 326
**Məmmədov Rauf** – 447
**Məmmədov Ziya** – 334,335,336
**Məshədov Aslan** – 78
**Mirzə Ələkbər Sabir** – 278
**Mirzəcanzadə Azad** – 384[530-531]
**Moiseyev İqor** – 208-210
**Morninqstar Riçard** – 114-116,411-416
**Murat Ercan** – 365
**Mustafayev Rafiq** – 333,334
**Mütəllibov Ayaz** – 239
**Nağıyev Əli** – 189,198
**Nazarbayev Nursultan** – 87,121,125,127
**Nəbi Xəzri** – 385,386

**Nəsimi** – 352,357,377,378
**Nizami** – 352,357,377,378
**Niyazov Saparmurad** – 117-120,165-166
**Ocaqov Rasim** – 258,389
**Ouen Devid** – 317-324
**Pastuxov Boris** – 76
**Paşayeva Validə** – 223
**Peçorskaya Anna** – 301
**Polad Bülbüloğlu** – 223,225,325
**Primakov** – 294
**Pustovoytenko Valeri** – 148
**Rasizadə Artır** – 179,196,200,201,202,334,335
**Rəcəbov Teymur** – 446-447
**Rəsul Rza** – 278
**Riçardson Bill** – 121,127,130-131,162,163
**Rüstəmov Elman** – 190
**Rüstəmov İzzət** – 193,194,196,197,198
**Rüstəmov Qədir** – 387
**Sadıqov Fikrət** – 442
**Safronov Nikas** – 48-50
**Salahov Tahir** – 278-279
**Seyidzadə Hüseyn** – 326
**Səfərov İbrahim** – 387
**Səlimova Cənnət** – 326
**Səməd Vurğun** – 75
**Sidqi Ruhulla** – 18
**Sokolov Jordan** – 148
**Skuratov Yuri** – 287
**Şahin Hüseyn** – 371
**Şevardnadze Eduard** – 5-10,121,412,454
**Şərifov Abid** – 184,443[531-532]
**Şərifzadə Abbasmirzə** – 18
**Şirak Jak** – 212,214
**Şokin Georgi** – 404,410
**Şostakoviç Dmitri** – 278
**Şröder Gerhard** – 93
**Tağıyev Hacı Zeynalabdin** – 18,19,20,221,325
**Talıbov Vasif** – 176,199
**Tərar Məhəmməd Rəfiq** – 148
**Tusi** – 352
**Vahabzadə Bəxtiyar** – 380
**Vəkilov Şöhrət** – 426
**Vəkilov Vaqif** – 38
**Vəkilova Mehriban** – 386
**Vəzirov Nəcəfbəy** – 332
**Vojye Jorj** – 212,217
**Vüsəl Əli** – 184
**Yeltsin Boris** – 214
**Yılmaz Məsud** – 104-105,121,127,143,148,150-153,154-155,160,162
**Yukalov Yuri** – 213
**Yusif Səmədoğlu** – 386
**Yusifov Fikrət** – 177,190
**Zakirov Fərrux** – 397
**Zeynalov Azər** – 224,225
**Zəlimxan Yaqub** – 451-454
**Zıkina Lyudmila** – 76[532]

## Coğrafi adlar göstəricisi


**Acarıstan** – 375
**Adıgey** – 79,375
**Ağ dəniz** – 147
**Ağdam** – 195
**Aktau** – 123
**Albaniya** – 373
**Almaniya** – 93
**Amerika Birləşmiş Ştatları** – 36,44,51,114,115,116,121,124, 127,128,130,131,141,144,159,163, 213,214,263,268,269,295,301,320, 353,355,369,409,411-416
**Ankara** – 98,109-31,205,235,371,411, 412, 413, 414,434
**Aralıq dənizi** – 126,127
**Asiya** – 8,9,68,71,94,337,362,363,449
**Astara** – 439
**Avropa** – 8,9,68,71,94,125,337,353,355, 362,363,373,446,447,449,469
**Bağdad** – 374
**Bakı** – 8,9,17,19,20,35,40,51,68,78,79, 113,114,116,121-122,123,126,128, 130,131,140,142,143,144,145,146, 147,151, 152,153,156,157,158, 159, 160,162,163,164,167,178,205,206, 213,235,239,240,251,262,301,327, 349,377,378,380,390,396,411,412, 413,414,415,435,463,468,470-474, 477
**Balakən** – 240
**Başqırdstan** – 361
**Baykal-Amur (magistalı)** – 335
**Belorusiya** – 243[533-534]
**Bərdə** – 11-12,38
**Biləsuvar** – 193,338
**Bolqarıstan** – 148
**Borçalı** – 46,453,454
**Bosfor (boğaz)** – 116
**Bosniya-Hersoqovina** – 373
**Ceyhan** – 35,36,40,107,113,114,115, 116, 121,123,125,126,130,131,140,144, 145,146,147,151,152,153, 156,157, 159,160,162,163,205, 206, 235,239, 411, 412,413,414, 415,435,477
**Cənub-Şərqi Asiya** – 478
**Cənubi Qafqaz** – 6,7,376
**Çeçenistan** – 78,375
**Dağıstan** – 78,375,455
**Dağlıq Qarabağ** – 13,17,42,70,96-118,137, 138, 160,191,192,212,217,257,262,264, 267,269,270,271,272,273,276,390
**Dərbənd** – 46,359
**Dnestryanı (bölgə)** – 450
**Əli Bayramlı** – 251
**Ərəbistan** – 351
**Fransa** – 212,214,263,268,269,295,369
**Füzuli** – 195
**Gəncə** – 251,252
**Göyçə** – 375
**Gürcüstan** – 5-10,46,76,77,106,107,121,122, 124,125,127,128,131,144,145,147,

159,163,164,200,233,234,307,320, 323,375,450,454
**Helsinski** – 205
**Horadiz** – 195
**Hyüston** – 301,302
**Xaçmaz** – 46
**Xarkov** – 46
**Xəzər dənizi** – 36,86,113,118,119,121,122,123, 124,125,126,140,141,146,165, 206, 413,414,415,449,465
**İmişli** – 193,338,339[534-535]
**İngiltərə** – 141,184
**İnquşetiya** – 375
**İraq** – 434
**İran** – 75,122,141,199,307,358,415,439
**İrəvan** – 375
**İspaniya** – 447
**İstanbul** – 139,142,144,158-161,184,349, 374,413
**İsveçrə** – 49
**İzmir** –147,157
**Kabarda-Balkar** – 78,375
**Karıkgöl (liman)** –116
**Kazan** – 408
**Keşlə** – 334
**Kərbəla** – 374
**Kiyev** – 406
**Qafqaz** – 6,9,36,54,55,68,76,77,78,79,80, 139,167,241,302,349-363,372-379,397,418
**Qara dəniz** – 123,127,143,145,156,435
**Qaraçay-Çərkəz** – 79,375
**Qarasu (liman)** – 147,157
**Qars** – 139
**Qazax** – 46,240
**Qazaxıstan** – 85-88,107,108,121,122,123,124, 125,127,128,135,142,144,159, 163,373
**Qəbələ** – 24
**Qırğızıstan** – 62,135,148,341,373
**Qubadlı** – 189
**Quruçeşmə** – 148
**Qusar** – 46
**Laçın** – 385
**Leninqrad** – 406
**Lənkəran** – 439
**London** – 205
**Mədinə** – 374
**Məkkə** – 374
**Mərkəzi Asiya** – 86,106,107,122,139,355[535-536]
**Mərmərə dənizi** – 116,147,148,157
**Mingəçevir** – 13-16,188-189,251,252
**Moldova** – 448-450
**Moskva** – 62,79,247,253,335,355,359,396, 406,409,454
**Naxçıvan** – 49,176,199,333,439,441
**Naxodka** – 335
**Norveç** – 141
**Novorossiysk** – 122,128,143,145,463
**Nyu-York** – 142
**Orta Asiya** – 139,302

| | |
|---|---|
| **Osetiya** | – 375 |
| **Oslo** | – 273 |
| **Özbəkistan** | – 107,121,122,124,125,127,128, 135,159,163,373,395-398,448 |
| **Pakistan** | – 148 |
| **Polşa** | – 261-277 |
| **Rusiya** | – 24,27,44,45,46,75,76,79,122, 128,136,141,142,143,165,174, 178,213,214,243,245,252,263,268, 269,272,295,318,321,322,353,361, 362,369,373,408,417,422,444 |
| **Saatlı** | – 339 |
| **Sibir** | – 252 |
| **Strasburq** | – 450 |
| **Sumqayıt** | – 37,251 |
| **Supsa** | – 116,145,156,435 |
| **Suriya** | – 28 |
| **Şimali Azərbaycan** | – 417 |
| **Şimali Qafqaz** | – 355,361,373,374,375 |
| **Şimali Osetiya-Alaniya** | – 78 |
| **Tacikistan** | – 373 |
| **Tatarıstan** | – 361 |
| **Tbilisi** | – 121,123,126,153 |
| **Tehran** | – 415 |
| **Tokio** | – 37,464,466,468 |
| **Türkiyə** | – 28,34,35,36,40,45,94-166,184, 199,200,235,238,239,240,241,244, 371,373,374,411,412,413,414,415, 416,439,477[536-537] |
| **Türkmənbaşı (liman)** | – 117,118 |
| **Türkmənistan** | – 107,117-120,122,135,142,165, 166,373,414,415,416 |
| **Ukrayna** | – 45,136,148,174,243,408,450 |
| **Ulyanovsk** | – 312 |
| **Uzaq Şərq** | – 335,478 |
| **Vaşinqton** | – 416 |
| **Vladivostok** | – 335 |
| **Volqa (çay)** | – 355 |
| **Yaponiya** | – 36,37,462-469 |
| **Zaqafqaziya** | – 167-168,213,241 |
| **Zaqatala** | – 240 |
| **Zəngəzur** | – 375 |
| **Zəngibasar** | – 375[537] |

**Kitabı çapa hazırlayan** ***Tofiq Babayev***

**Rəssamı** ***Fuad Fərəcov***
**Texniki redaktoru** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompüter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 34,5.
Uçot vərəqi 35,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2/3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.